# Azərbaycan Fəlsəfi Fikir Tarixinə Müasir Baxış

## RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

Naxçıvan\Azərbaycan

www.ndu.edu.az

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# AZƏRBAYCAN FƏLSƏFİ FİKİR TARİXİNƏ MÜASİR BAXIŞ

# RESPUBLİKA ELMİ KONFRANSI MATERİALLARI

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 29 mart 2024-cü il tarixli 08 saylı qərarı ilə nəşr edilib.*

NAXÇIVAN-2024

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Təşkilat komitəsinin sədri-** Elbrus İSAYEV, rektor

## ÜZVLƏR

***Yusif Hüseynov* -** fəlsəfə elmləri doktoru, dosent
***Məmməd Rzayev***- fəlsəfə elmləri doktoru, professor
***Qərib Allahverdiyev***- fəlsəfə elmləri doktoru, dosent
***Bağır Babayev***- fəlsəfə üzrə fəlsəfə doktoru
***Abbas Əhmədov***- fəlsəfə üzrə fəlsəfə doktoru

*"Azərbaycan fəlsəfi fikir tarixinə müasir baxış"*
*Respublika elmi konfransının materialları. Naxçıvan Dövlət Universitetinin Nəşriyyatı, Naxçıvan, 2024, 268 səh.*

*Azərbaycan fəlsəfi fikir tarixinə müasir baxış Respublika elmi konfransı 21 iyun 2023-cü ildə Naxçıvan Dövlət Universitetində keçirilmişdir. Konfrans fəlsəfə fikir tarixi ilə bağlı ümumi məlumatlar və fotoşəkilləri əhatə edir. Konfrans materialları geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

# MÜNDƏRİCAT

**Məmməd Rzayev.** Müasir dövrdə ictimai həyatın humanistləşməsi haqqında........... 5

**Qərib Allahverdiyev.** İnsanın mənəvi zənginləşməsində azadlığın rolu...................... 8

**Yusif Hüseynov.** Liderlik fəlsəfəsində Heydər Əliyev fenomeni................................. 15

**Məmməd Rzayev, Bağır Babayev.** Milli mənlik şüuru və müasir şəxsiyyətin mahiyyəti haqqında.......................................................................................................... 21

**Rəşad Əsgərov, Elxan Quliyev.** Ruhulla Axundovun fəlsəfi görüşləri........................ 25

**Etibar Musayev.** Müasir mərhələdə azərbaycançılıq fəlsəfi ideyalarının yaranmasında milli-mənəvi və ümumbəşəri dəyərlərin rolu........................................ 32

**Gülsüm Kərimova.** Müasir dövrdə Azərbaycan natiqlik sənətinin inkişafında atalar sözlərinin rolu.......................................................................................................... 38

**Səbinə Nağıyeva.** İsmayıl Hacıbəyovun yaradıcılığında neoklassizm. "Üç idilliya" fortepiano əsərinin təhlili.......................................................................................... 45

**Xuraman Mirzəyeva.** Nəsirəddin Tusinin dövlətçilik prinsiplərinin Ulu öndər Heydər Əliyev siyasətində təcəssümü.......................................................................... 51

**Sahib Vəliyev.** XX əsrin sonlarında və XXI əsrin əvvəllərində şəxsiyyət böyüklüyünün zirvəsinə yüksələn ulu öndər............................................................... 56

**Камаля Исмаилова.** Государство гектурков в раннем средневековье (государственные структуры, институты власти и социальные структуры)......... 61

**Hüseyn İbrahimov.** Müasir Azərbaycan fəlsəfəsi: problemlər, perspektivlər............ 66

**İzzət Rüstəmov, Rəşad Əsgərov.** Azərbaycan fəlsəfi və ictimai fikir tarixində Heydər Hüseynov şəxsiyyəti.................................................................................... 69

**Sevinc Quliyeva, Validə Vəliyeva, Nigar Nəsirova.** Təlimdə tələbə şəxsiyyətinin inkişafına təsir edən amillər........................................................................................ 74

**Arzu Hacıyeva.** Azərbaycan fəlsəfə tarixi: başlanğıc, yeni meyillər, vəzifələr............. 78

**Ələddin Məlikov.** Müasir dünyada fəlsəfə tədrisinin problemləri............................. 85

**Faiq Ələkbərli.** XX əsrin birinci yarısında Azərbaycan Türk fəlsəfə tarixçiliyinin metodoloji məsələləri.................................................................................................. 89

**Nicat Məmmədov.** Mir Möhsün Nəvvabın fəlsəfi görüşləri.......................................... 97

**Rəna Mirzəzadə.** Heydər Əliyev Qafqazda dövlətlərarası münasibətlərin strateqidir............................................................................................................... 103

**Rəşad Əsgərov.** Qırmızı Professorlar İnstitutunun məzunlarının fəlsəfi tədqiqatları......................................................................................................... 109

**Azər Cəlilov.** Milli dövlətçilik və həmrəylik fəlsəfəsi..................................................... 116

**Aynurə Ələsova.** Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsində vətənpərvərlik.......... 120

**Elmira Əliyeva.** Azərbaycançılıq fəlsəfəsində ümumbəşəri ideyalar........................... 125
**Niyaməddin Hacıyev.** İqtisadi inkişaf strategiyasında dövlətçilik fəlsəfəsi................ 129
**Urfan Həsənov.** Dövlətçilik fəlsəfəsində milli ideologiya............................................. 134
**Xatirə İlyasova.** Milli lider və dövlətçilik fəlsəfəsi........................................................ 138
**Sevinc İmanlı.** Müstəqil dövlətçilik fəlsəfəsində milli təfəkkür.................................. 142
**Bəhman Kazımov.** Heydər Əliyev və milli dövlətçilik fəlsəfəsi.................................. 146
**Yeganə Məmmədova.** İctimai təfəkkürdə dövlətçilik fəlsəfəsi..................................... 150
**Nərgiz Rəsulova.** İctimai-fəlsəfi fikirdə milli mənafe.................................................... 155
**Afərim Tağıyeva.** Azərbaycançılıq fəlsəfəsində milli şüur............................................ 161
**Nərgiz İbrahimova.** Milli dövlətçilik fəlsəfəsində liderlik............................................ 166
**Elgün Aslanov.** Heydər Əliyevin azərbaycançılıq ideologiyasında milli həmrəyliyin dialektikası........................................................................................... 171
**Nigar Məhərrəmova.** Ümummilli lider Heydər Əliyevin mənəvi irsinin fəlsəfi fikir tarixində yeri........................................................................................... 176
**Vüqar Mustafayev, Günel Kərimli.** Heydər Əliyev - liderliyin parlaq nümunəsi..... 180
**Faiq Yusifli.** Musiqi və fəlsəfə........................................................................................... 184
**Pərvin Hüseynova.** Heydər Əliyevin Azərbaycan ədəbiyyatına qayğısına kiçik bir nəzər........................................................................................... 189
**Afaq Cavadova, Bağır Babayev.** Azərbaycan fəlsəfi fikir tarixində insan problemi... 194
**Bağır Babayev.** Əli bəy Hüseynzadənin türkçülük-turançılıq idealı........................... 202
**Məhərrəm Həsənov**. Müasir dövrdə şəxsiyyətin siyasi həyatı...................................... 208
**Sadiq Hüseynov.** Müasir Azərbaycanda Heydər Əliyevin multikulturalizm siyasətinin təntənəsi........................................................................................... 212
**Səbuhi İbrahimov.** Müasir fəlsəfi dünyagörüşümüzdə Heydər Əliyevin rolu........... 218
**Bağır Babayev.** XX əsr Azərbaycan romantiklərinin fəlsəfi irsində türkçülük-istiqlalçılıq ideyalarının tərənnümü........................................................................................... 223
**Kamran Vəlizadə.** Müasir siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı əlaqəsi........................................................................................... 229
**Ziyad Rəhimov.** XX əsr fəlsəfənin böhranı: frankfurt məktəbinin çıxış yolu axtarışları........................................................................................... 233
**Radif Mustafayev.** XX əsr Türkiyə tədqiqatçısı Əbdülbaqi Gölpınarlının fütüvvətə münasibətində Şihabəddin Əbuhəfs Sührəvərdiyə baxış............................................ 242
**Zaur Rəşidov.** Ənvər Əhmədovun (1920-1984) tədqiqatlarında orta əsrlərdə islam fəlsəfəsi: tənqidi təhlil........................................................................................... 248

**MƏMMƏD RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR DÖVRDƏ İCTİMAİ HƏYATIN HUMANİSTLƏŞMƏSİ HAQQINDA

*Tsche kağızı müasir dövrdə sosial həyatın humanistləşdirilməsinin spesifik aspektlərinin yenidən nəzərdən keçirilməsindən bəhs edir. Tsche outschor indi jome bir zhonslusion tschat tsche arzusu tsche şəxsin sonra shumanize distinct witsch beine zhompreschensive edir. Bu özünü xüsusilə intschat boş şumanist prinzhiples behome həyat norması siyasi, exonomihal və zultural və intellektual fəaliyyətin bütün sahələrində göstərir.*

**Açar sözlər:** *qloballaşma, humanistləşmə, mənlik şüuru, şəxsiyyət, cəmiyyət*

Şəxsiyyətin humanist məqsədinin əldə olunması mürəkkəb proses olub, iqtisadi, sosial və mənəvi-mədəni amillərin bütöv kompleksini əhatə edir. Burada iqtisadi və sosial tərəflərin rolunu şişirtmək doğru olmazdı. Çünki mənəvi sferanı inkişaf etdirmədən, insanların şüurunu yüksəltmədən əsl tərəqqiyə nail olmaq qeyri-mümkündür. Müasir dövrdə şəxsiyyətin şüurunu inkişaf etdirmək lazımdır ki, o humanist məzmunlu yeni cəmiyyət qurujuluğu prosesini şüurlu və məqsədyönlü tənzim edərək onu idarə edə bilsin. Həm də nəzərdə tutmaq lazımdır ki, cəmiyyətin inkişafının əvvəlki mərhələlərində ictimai şüur varlığın bilavasitə təsiri altında formalaşırdısa, sonrakı dövrlərdə bu təsir vasitələnmiş xarakter daşıyır, yəni dövlət, siyasi və hüquqi münasibətlərdən keçərək baş verir. Bunun əvəzində ictimai şüurun varlığa təsiri getdikcə daha çox bilavasitə xarakter alır (1, 478).

Deyilənlərdən aydın olur ki, formalaşmaqda olan açıq cəmiyyətin tərəqqisi hər bir fərdin ictimai həyatın bütün sahələrindəki fəaliyyətinin cəmiyyətin ümumi humanist məcrasına yönəlməsindən çox asılıdır.

Cəmiyyətin humanistləşməsi yolu müasir elmi-texniki və sosial-siyasi nailiyyətlərin geniş miqyasda tətbiq olunması ilə bağlıdır. İndi bütün cəmiyyət qarşısında, eləjə də hər bir şəxsiyyət qarşısında humanist məqsədlərin irəli sürülməsinə nail olmaq həmişəkindən daha vacibdir. Bu isə həmin subyektlərin malik olduğu bütün qüvvələrdən maksimum istifadə etməklə humanizm idealını qoruyub saxlamağı və inkişaf etdirməyi nəzərdə tutur (2, 164).

Müasir şəxsiyyətin humanist məqsədi öz məzmunu etibarilə xeyli yüksəlmiş və zənginləşmiş şəkildə çıxış edir. Belə ki, əvvəllərdə şəxsiyyətin hərtərəfli inkişafı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi ali humanist məqsəd hesab olunurdu. İndi isə bu vəzifələr daha çox humanist xarakter daşıyan məqsədlərin yerinə yetirilməsində bir vasitəyə çevrilməkdədir. Bu onunla izah edilir ki, hazırda cəmiyyətdə epoxal miqyaslı dəyişikliklər baş verir, köhnə ənənəvi baxışlar dağılır, yeni demokratik və ümumbəşəri məzmunlu dəyərlər yaranır, prinsipcə yeni dünyagörüşü formalaşır. Həmin dünyagörüşü kompleks və sintetik təfəkkürə əsaslanır. O, insanda humanist keyfiyyətlərin tam dolğunluğu ilə üzə çıxarılmasına kömək edir, insanın daxilində antihumanist meyillərin baş qaldırmasına imkan vermir. Əksinə, burada özünü göstərən humanist tərəfləri inkişaf etdirir. Bunu da əlavə edək ki, əgər cəmiyyətdə təhsil və tərbiyə işi düzgün təşkil olunursa, onda insanın mahiyyətindəki humanist və antihumanist xassələrin fəaliyyəti, onun sintetik təfəkkürü vasitəsilə səmərəli tənzim olunur və birinci qəbildən olan cəhətlər, ikincilərin hesabına daha da tərəqqi edir (3, 241).

Müasir dövrdə cəmiyyətin və təbii ki, şəxsiyyətin humanistləşməsi prosesində yetişməkdə olan nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əlbəttə, cəmiyyət özünün bütün inkişaf mərhələlərində bu və ya digər dərəcədə təhsil ilə bağlı problemləri həll etməyə cəhd göstərir. Lakin ictimai inkişafın dönüş xarakterli məqamlarında, bu problemin rolu və əhəmiyyəti daha da artır. Buna görə də hazırda cəmiyyətimizin bütün pillələrindən olan təhsil sistemlərində əsaslı islahatlar aparılır, onları yenilənməkdə olan cəmiyyətin

tələblərinə, məqsəd və vəzifələrinə uyğun səviyyəyə yüksəldilməsinə səylər göstərilir. Amma nəzərdə tutmaq lazımdır ki, insanların şüurunun dəyişilməsi çox mürəkkəb və uzunsürən prosesdir, ona nail olmaq üçün bəzən bütün bir nəslin yenilənməsi müddəti tələb olunur. Bundan fərqli olaraq insanların tələbatı nisbətən yüksək sürətlə dəyişilir. Buna görə də açıq cəmiyyət quruculuğunun siyasi, sosial və iqtisadi sahələrdə qarşıda duran çətin və mürəkkəb vəzifələrinin uğurlu həllində yeni şüurun, dünyagörüşünün və mənəvi keyfiyyətlərin olması çox vajibdir. Bunun üçün isə təhsil sistemini səmərəli təşkil etmək, onun ümumbəşəri, milli və qabaqcıl mədəni ənənələrlə zənginləşməsinə nail olmaq tələb olunur. Həmin keyfiyyətlərin təhsil sistemində özünə möhkəm yer tutması, cəmiyyətin və ayrıca hər bir şəxsiyyətin humanistləşməsinə və tərəqqisinə böyük təsir göstərir (4, 231).

Müasir dövrdə şəxsiyyətin humanistləşməsi meyli həm də özünün hərtərəfliliyi ilə səciyyələnir. Bu onda ifadə olunur ki, humanist prinsiplər onun siyasi, sosial, iqtisadi və mədəni intellektual fəaliyyətinin bütün sahələrində həyat normasına çevrilməkdədir. Cəmiyyət inkişaf etdikcə, ictimai həyatın bütün sferalarında humanizmin genişlənməsi üçün şərait yaranır. Əlbəttə, bütün bu proseslər asan və rəvan getmir, müəyyən çətinliklər və ziddiyyətlər ilə müşayiət olunur.

Siyasi sferada humanizm ən çox bunda ifadə olunur ki, siyasi fəaliyyətin bütün forma və tərəflərində siyasi mənafelərin reallaşdırılması ilə yanaşı insana hörmət və qayğı ön plana çəkilir. Ölkənin qəbul etdiyi qanunvericilik sənədlərində və normativ hüquq aktlarında şəxsiyyətin ləyaqətinin toxunulmazlığı elan edilir, onun geniş hüquqları və azadlıqları təsbit olunur. Xariji siyasət sahəsində və beynəlxalq münasibətlərdə də mübahisəli məsələlərin dinc danışıqlar yolu ilə aparılması meyillərinin artması, dövlətlər arasında münasibətlərdə müharibələrə mümkün qədər yol verilməməsi, bu və ya digər səbəblərdən müharibə başlandıqda isə onun gedişində ümumi humanist normaların gözlənilməsi, bu barədə müvafiq beynəlxalq konvensiyalara əməl olunması bunu sübut edir.

Yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, guya müasir cəmiyyətdə real humanizmin tətbiqi üçün tam şərait yaradılmışdır. Buna hər şeydən əvvəl cəmiyyətdə qloballaşmanın doğurduğu neqativ cəhətlərdən irəli gələn səbəblər, habelə digər amillər (məsələn fəaliyyətin intensivliyinin artması, həyatın ritminin sürətlənməsi, əsəb gərginliyinin çoxalması, urbanizasiya nəticəsində şəxsiyyətin fəaliyyəti üzərində nəzarətin zəifləməsi və s.) mane olur. Şəxsiyyətin humanizm haqqında zəmanəmizin görkəmli filosoflarından olan E.Fromun baxışları daha çox maraq doğurur. Onun fikrinjə, humanizm, insanın daxili təbiətindən irəli gələn sevməyə və yaşamağa olan cəhd kimi özünü göstərir. O, humanizmin məzmununu varlığın nəyə malik olmağı ilə müqayisədə üstünlüyü ideyası əsasında açır. Froma görə nəyəsə malik olmaq müəyyən bir prosesdə bitkin formaların üstün rol oynadığını göstərir və beləliklə də bu prosesdə şəxsiyyətin yaradıcılıq imkanlarını məhdudlaşdırır. Fromun fikrincə, nəyəsə malik olmaq cəhdi sevgi prinsipi ilə də bir araya sığmır. Bu yola düşən şəxsiyyət başqa insanların cəhdlərini pozur, əsarət altına alır və məhdudlaşdırır, başlıcası isə o öz şəxsi maraqlarını yerinə yetirmək naminə dünyadakı təbii əlaqələri dağıdır. Buna görə də insan dünyaya əsl dəyər kimi yanaşmalı, onu mənimsəmə yolu ilə dağıtmağa yox, bu dünyada özünü reallaşdırmağa cəhd göstərməlidir (5, 366).

Müasir şəraitdə şəxsiyyətin humanistləşməsi meyli həm də bütün sağlam düşüncə sahibi olan insanlarda bəşəriyyətin gələcək taleyi ilə bağlı yaranmış qayğılar ilə bağlıdır. Akademik T.Oyzerman yazırdı: “Qlobal problemlərin yaranması, insanların dünyagörüşündə, siyasi, dini və əxlaqi əqidələrində müxtəlifliyə baxmayaraq, humanizmin indi mövcud olan bütün formalarının birləşməsi üçün real əsas kimi çıxış edir” (6, 65).

İnsanın mahiyyətinin sosial münasibətlərin inkişafı ilə əlaqəli dəyişdiyi haqda ümumsosioloci qanun sübut edir ki, insanların fəaliyyət məqsədləri hər bir konkret tarixi mərhələdə başqalarından fərqlənən, özünəməxsus məzmuna malik olur. Buna görə də humanizmin sadəcə şəxsiyyətin öz inkişafına şərait yaradılmasına və yaxud başqa insanı öz məqsədini həyata keçirmək üçün vasitə kimi istifadə edilməsi tələbinə müncər edilməsi doğru olmazdı. Çünki hər bir konkret dövrdə humanizmin məzmunu spesifik cəhətlər və çalarlar ilə zənginləşir ki, bunları da nəzərə almaq zəruridir. Deyilənlər

sübut edir ki, şəxsiyyətin humanizmi kimi mürəkkəb məsələni formal və ümumi prinsiplərdən çıxış etməklə düzgün həll etmək qeyri-mümkündür. Nəzərdə tutmaq lazımdır ki, real və əsl humanizm müxtəlif prinsipləri bir-biri ilə əlaqəli şəkildə götürməyi və uzlaşdırmağı tələb edir. Eynilə də hər bir konkret cəmiyyətdə şəxsiyyətin özünü ifadə etməsi üçün mövcud olan azadlığın səviyyəsi ilə həmin dövrün sosiomədəni normalarının, onun fəaliyyət və davranışına verdiyi tələblər ilə nə dərəcədə uzlaşdığını konkret təhlil etmək zəruri və əhəmiyyətlidir.

**SUMMARY**

**M.Rzaev**

**ON HUMANIZATION OF SOCIAL LIFE IN PRESENT TIME**

Tsche paper deals wtsche jonsideration of specifizh aspezhts of humanization of social life in modern time. Tsche outschor right now jome to a zhonslusion tschat tsche desire of tsche person then shumanize is distinjt witsch beine zhompreschensive. It sshows itself espezhially intschat vain shumanist prinzhiples bezhome a life norm in all fields of politizhal, ezhonomizhal and zultural and intellectual activity.

***Key words:*** *globalization, humanization, self-consciousness, personality, society*

**РЕЗЮМЕ**

**М.Рзаев**

**О ГУМАНИЗАЦИИ ОБЩЕСТВЕННОЙ ЖИЗНИ В СОВРЕМЕННОЕ ВРЕМЯ**

В статье анализируются специфические стороны процесса гуманизации общественной жизни в современном этапе. Автор приходит к выводу, что тенденция гуманизации личности характеризуется своей многогранностью. Это особо выражается в том, что гуманистические принципы превращаются в нормы жизни во всех сферах политической, экономической и культурно-интеллектуальной деятельности.

***Ключевые слова:*** *глобализация, гуманизация, самосознание, личность, общества*

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# İNSANIN MƏNƏVİ ZƏNGİNLƏŞMƏSİNDƏ AZADLIĞIN ROLU

*Məqalədə insanın mənəvi zənginləşdirilməsində azadlığın rolu təhlil edilir. Bu kontekstdə azadlığın mənəvi dəyərlər ilə qarşılıqlı əlaqəsi araşdırılır, qeyd edilir ki, azadlıq ən yüksək dəyər olmaqla daim digər mənəvi dəyərlər ilə ayrılmaz vəhdətdədir. Göstərilir ki, geniş fəaliyyət azadlığı ilə yüksək mənəvi dəyərləri özündə birləşdirən insanın formalaşması müasir cəmiyyətin qarşısında duran ən vacib problemlərdəndir.*

*Məqalədə mənəvi dəyərlərin azadlığa fəal təsirini aydın təsəvvür etmək üçün onlar sosial normaların müvafiq təsiri ilə müqayisə edilir. Azadlıq və onun inkişafı ilə mənəvi dəyərlərin sıx əlaqəsi və vəhdəti onların hər ikisinin ictimai həyatda öz funksiyalarını dolğun yerinə yetirmələri ilə bağlı olduğu vurğulanır. Azadlıq ilə mənəvi dəyərlərin vəhdətinin təmin olunmasında şəxsiyyətin mənəvi səviyyəsinin mühüm rolu isbat edilir.*

***Açar sözlər:*** *azadlıq, dəyərlər, mənəvi dəyərlər, sosial normalar, fərdin seçimi, azad seçim, cəmiyyət, dövlət*

Azadlığın insanın mənəvi zənginləşməsinə təsirinin çox mühüm istiqamətini, onun mənəvi dəyərlər ilə qarşılıqlı əlaqələrinin möhkəmlənməsi təşkil edir.

Azadlıq ən yüksək dəyər olmaqla, daim digər mənəvi dəyərlər ilə ayrılmaz vəhdətdə mövcud olur. Onların qarşılıqlı münasibətlərinin təhlili, sosial fəlsəfədə çox mühüm yer tutur. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, geniş fəaliyyət azadlığı ilə yüksək mənəvi dəyərləri özündə birləşdirən insanın formalaşdırılması müasir cəmiyyətin qarşısında duran ən vacib problemlərdəndir. Hazırda onun həll edilməsi üçün əlverişli siyasi, iqtisadi, sosial və mənəvi şərait qərarlaşmaqdadır. Bununla birlikdə həmin istiqamətdə müəyyən obyektiv və subyektiv xarakterli çətinliklər də özünü göstərir ki, onların aradan qaldırılmasında elmi araşdırmaların köməyinə ehtiyac duyulur.

Hər bir insan konkret situasiyada özünün iradə azadlığı üzrə müvafiq davranış seçimi edərkən və ona uyğun fəaliyyət göstərərkən, müəyyən dəyərlərə arxalanmalı olur. Bu, onunla şərtlənir ki, fərdin istənilən davranışı və hərəkətində onun şəxsi maraqları ilə mənsub olduğu sosial birlik formasının və bütövlükdə cəmiyyətin maraqlarının əlaqələndirilməsi və uzlaşdırılması zəruridir. Onun həyata keçirilməsində digər tənzimləyici vasitələr ilə yanaşı, mövcud cəmiyyətdə qəbul olunmuş mənəvi dəyərlər çox mühüm rol oynayır. Sonuncular tarixi inkişaf gedişində formalaşan və cilalanan ümumbəşəri dəyərlər əsasında, real cəmiyyətin xarakteri və xüsusiyyətləri nəzərə alınmaqla qərarlaşır. Hər bir fərd onları mənimsəməklə, öz fəaliyyətini azad və səmərəli təşkil etmək imkanları əldə edir. Xalqımızın Ümummilli lideri Heydər Əliyev mənəvi dəyərlərə böyük əhəmiyyət verərək demişdir: "Bizim xalqımız öz mənəvi dəyərlərinə əsrlər boyu sadiq qalmış və onları inkişaf etdirmişdir. Mənəvi dəyərlərimiz safdır, onlar həmişə insanlarda təmizlik, xeyirxahlıq, yüksək ideallar tərbiyə etmişdir. Bu gün biz ona görə xoşbəxtik ki, babalarımızdan miras qalmış mənəvi dəyərlər yenidən canlanır, gənc nəslə

çatdırılır və gələcək nəslə ötürülür" (1, s.1).

Azadlıq ilə dəyərlərin əlaqələri qarşılıqlı xarakter daşıyır. Belə ki, bir tərəfdən düzgün dəyərlər seçimi edilməsi, həqiqi azadlıq səviyyəsini göstərən mühüm meyarlardandır. Digər tərəfdən, azad fəaliyyət və onun nəticələri, bir çox cəhətdən şəxsiyyətin dəyərlər oriyentasiyası və seçiminin həqiqiliyini müəyyənləşdirir.

Azadlıq obyektiv amillərlə şərtlənsə də, o yalnız kənar və xarici qüvvələrin təhriki ilə baş vermir. Bu prosesdə fərdin daxili keyfiyyətləri, dünyagörüşü, həyat təcrübəsi və mənəvi yetkinlik səviyyəsi müstəsna dərəcədə böyük yer tutur. Həmin subyektiv keyfiyyətlər sırasında onun dəyərlər oriyentasiyası və əsaslandığı dəyərlər xüsusi əhəmiyyət kəsb edir. Sonuncular fərdin azad fəaliyyətinin güclü tənzimləyiciləri rolunu oynayır. Fərdin yüksək mənəvi dəyərləri mənimsəməsi və onları reallaşdırmaq istəyi, onun azad aktivliyini düzgün istiqamətləndirir, səmərəli seçim etməsinə güclü müsbət təsir göstərir. Bunlarla yanaşı, adekvat məqsəd müəyyən edilməsində və onu reallaşdırmağın optimal vasitələrinin axtarılıb tapılmasında da mənəvi dəyərlər böyük əhəmiyyət kəsb edir. Qeyd olunan səpkidə sonuncu məqam daha əhəmiyyətlidir, çünki, azad seçim və davranışda, mövcud alternativlərin birinə üstünlük verilməsində iştirak edən amillər kompleksində məqsədli ustanovkalar müstəsna yer tutur (3, s.444).

Fərdin seçimi və fəaliyyəti cəmiyyətdəki ümumi mənəvi dəyərlərə uyğun gəldikdə, o özünün həqiqi azad mənasını alır. Əks halda, yəni davranış və hərəkət ilə mövcud mənəvi dəyərlər arasında uyğunsuzluq və ziddiyyət baş verdikdə, onu azad hesab etmək olmaz, o hətta cəmiyyət üçün mənfi nəticələr törədə bilir.

Mənəvi dəyərlərin azadlığa fəal təsirini aydın təsəvvür etmək üçün, onları sosial normaların müvafiq təsiri ilə müqayisə etmək yerinə düşür. Sosial normalarda insanların fəaliyyətinin vacib olan və qadağan olunan hədləri daha dəqiq ifadə olunur (bu mənada burada azadlıq nisbətən dar diapazonda çıxış edir). Digər tərəfdən, sosial normalar sərt və qəti xarakter daşıyır. Onların pozulması cəmiyyətin kəskin reaksiyası ilə müşayiət olunur (burada əxlaq normaları bir qədər istisnalıq təşkil edir). Normalardan fərqli olaraq dəyərlər, insanların sosial davranışını yalnız ümumi cəhətdən tənzim edir. Onlarda davranışın konkret hədləri dəqiq ifadə olunmur. Buna görə də dəyərlər, normalar ilə müqayisədə fərdə daha çox avtonomluq və müstəqillik verir (5, s.74).

Bu isə o deməkdir ki, dəyərlər fərdin hərəkət və davranışları üçün daha geniş azadlıq yaradır. Qeyd olunan məqam həm də onunla əlaqədardır ki, sosial normalar şəxsin fəaliyyəti baxımından xarici tənzimedici qüvvə rolunu oynayır. Dəyərlərə münasibətdə isə bu vəziyyət xeyli dərəcədə özünəməxsus forma alır, yəni onlarda azad fəaliyyətin yalnız ümumi konturları əks olunur. Bunun nəticəsində azad seçimdə, qərar qəbul etmədə və onun yerinə yetirilməsində fərdin daxilindən gələn istək, arzu və hisslər, digər sövqedicilər daha mühüm yer tutur. Sosial normalarda isə bu məqam ya az olur (əxlaq normaları), ya da demək olar ki, heç olmur (hüquqi normalar).

Yuxarıda deyilənlərdən aydın olur ki, öz təbiəti, xarakteri və yerinə yetirdiyi funksiyalar baxımından, mənəvi dəyərlər sosial normalara nisbətən azadlıq ilə daha yaxındır. Bu cəhət onların qarşılıqlı təsirini və vəhdətini gücləndirir. Azadlıq ilə mənəvi dəyərlərin qarşılıqlı əlaqəsi bir-birilə düz mütənasibdir. Başqa sözlə deyilsə, cəmiyyətdə

azadlığın miqyası nə qədər genişlənirsə, onun ali mənəvi dəyərlərə uyğun olmasına zərurət də bir o qədər artır. Qeyd olunan vəziyyət fikrimizcə, bununla izah edilir ki, insanların həyat fəaliyyətinin azadlıq dairəsi artdıqca və dərinləşdikcə, onların cəmiyyətə təsir imkanları da güclənir. Buna görə də həmin təsirin müsbət və yaxud mənfi istiqamətdə olması, onların ümumi dəyərlər ilə münasibətlərindən asılı olur. Həmin münasibətlərə müvafiq olaraq cəmiyyət fərdlərin davranış və hərəkətlərini müsbət və ya mənfi mövqedən qiymətləndirir. Eynilə də fərdlər öz azad seçimini və hərəkətlərini edərkən, cəmiyyətdə mənəvi dəyərlərin tələblərinə müsbət və ya mənfi reaksiya verə bilirlər: birinci halda fəaliyyət onlara uyğunlaşdırılır, ikinci halda dəyərlərə məhəl qoyulmur. Buradan aydın olur ki, cəmiyyət öz üzvlərinə verdiyi azadlığın dəyərlər baxımından xarakterinə biganə qala bilmir. Bütün ictimai təsir vasitələri, əhalinin geniş təbəqələrinin mənəvi dəyərləri mənimsəməsi və azad fəaliyyətində əldə rəhbər tutması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Həmin prosesin uğurları təlim və tərbiyə sisteminin təkmilləşdirilməsindən, demokratiyanın genişləndirilməsindən və əhalinin təhsil, şüurluluq və mədəni səviyyəsinin yüksəlişindən asılıdır. Hazırda bu məsələ öz mahiyyətinə görə daha geniş miqyas alır: söhbət insanların fəaliyyətinin bütün sferalarında və həyat tərzində ictimai və şəxsi tərəfləri üzvi əlaqələndirərək, yüksək mənəvi dəyərlərin əsas yer tutmasına nail olmaqdan, bu prosesin idarə edilməsinin təkmilləşdirilməsindən gedir. Fərdin azad seçimi və fəaliyyətinin mənəvi dəyərlərə uyğun olması səviyyəsi bir sıra amillər (onun obyektiv şəraiti dərketmə səviyyəsi, öz maraqlarını adekvat başa düşməsi, ictimai borcu dərindən anlaması, məsuliyyət hissi və s.) ilə müəyyən olunur. Burada insanın dünyagörüşü, təhsil səviyyəsi və həyat təcrübəsi də mühüm yer tutur. Müasir dövrdə mənəvi dəyərlərin çox mühüm tərkib hissəsini təşkil edən milli dəyərlərə qayıdılması, cəmiyyətimizin üzvlərinin hərəkət və davranışlarında azadlığın inkişafına müsbət təsir göstərir. Belə ki, milli dəyərlər milli maraqların tam dolğunluğu ilə və azad surətdə dərk olunmasını stimullaşdırır. Milli birliyin yaranmasında və milli mənlik şüurunun formalaşmasında da milli dəyərlər müstəsna rol oynayır. Bunlarla yanaşı, siyasi dövlətçiliyin möhkəmləndirilməsi və hüquqi dövlətin yaradılması da milli dəyərlərdən kənarda ola bilməz. Milli-mənəvi dəyərlərin inkişafında milli dövlətçiliyin və fəlsəfi fikrin böyük rol oynadığını vurğulayaraq S.Xəlilov haqlı olaraq yazır: "Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması və davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikir tarixinin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir" (2, s.39).

Dəyərlər ilə azadlığın vəhdətinin təmin olunmasında, onların hər ikisində real maraqların nəzərə alınması çox vacibdir. Bu mənada E.Fromun, Spinozanın etik təliminin təhlili ilə bağlı irəli sürdüyü aşağıdakı fikir doğru səslənir: "Dəyər yalnız insanın real maraqlarının nəzərə alınması ilə müəyyən oluna bilər ki, bu da onun öz gücündən səmərəli istifadə etməsi və azadlıq deməkdir" (7, s.29).

Azad seçim və fəaliyyət ilə mənəvi dəyərlərin qarşılıqlı əlaqələrinin möhkəmlik dərəcəsinə, bir-birilə sıx əlaqəli olan aşağıdakı iki amil güclü təsir göstərir. Onlardan

birincisi, ictimai miqyaslı mənəvi dəyərlər şkalasının ayrıca bir fərdin malik olduğu müvafiq göstəriciyə nə dərəcədə uyğun gəlməsi, ikincisi isə şəxsin dəyərlər oriyentasiyası və dəyərlər sisteminin ictimai səviyyəyə uyğunluğu və onun tələblərinə necə cavab verməsidir. Qeyd etmək lazımdır ki, sözügedən tərəflər arasında normal münasibətin və ahəngdarlığın təmin edilməsi çox mühüm sosial problemlərdəndir. Onun artmaqda olan əhəmiyyəti bununla bağlıdır ki, müasir cəmiyyətdə hər iki səviyyəli dəyərlər şkalasında müəyyən əyintilər baş verə bilir. Məsələn, ictimai miqyas kəsb edən dəyərlər sistemində özünü göstərən ədalətsizlik halları, sosial problemlərin həllində müəyyən qüsurlar, mənəvi sferanın müxtəlif tərəflərinin inkişafı səviyyəsindəki qeyri-bərabərlik, habelə keçid dövrünün xarakterindən irəli gələn digər nöqsanlar və çətinliklər, ümumi ictimai dəyərlər şkalasında maksimum iqtisadi fayda götürmək naminə mənəvi dəyərlərin arxa plana keçməsi və sair bu qəbildəndir. Digər tərəfdən, ayrıca bir fərdin malik olduğu dəyərlər oriyentasiyası və dəyərlər şkalası da nöqsanlardan xali deyildir. Sonuncular ümumi ictimai dəyərlər sistemində yuxarıda qeyd olunan deformasiyaların, fərdin şəxsi həyatında müvafiq əks olunması ilə şərtlənir. Sonra, müxtəlif fərdlərin ümumi yüksək mənəvi dəyərləri mənimsəməsi səviyyəsində olan fərqlər, bazar münasibətlərinin tələblərinə uyğun olaraq şəxsi mənfəət güdmənin on yerə keçməsi, varlanmaq hərisliyi, rəqabət və tələbatların artması şəraitində başqalarının nəzərində yüksək nüfuza sahib olmaq həvəsi, fərdi xüsusiyyətlər və sair, sözügedən vəziyyətə ciddi təsir göstərir.

Buradan aydın olur ki, həqiqi azadlıq ilə yüksək mənəvi dəyərlərin vəhdətinin təmin olunması avtomatik baş vermir. Bu bir çox obyektiv və subyektiv amillərin birgə təsirini əhatə edən uzunmüddətli prosesdir. Onun uğurları cəmiyyətdə maddi, iqtisadi, sosial və mədəni inkişaf ilə yanaşı, həm də çoxtərəfli məqsədyönlü təsirdən, yəni cəmiyyətin ümumi ictimai dəyərlər şkalasında özünü göstərən qüsurların aradan qaldırılmasından, habelə şəxsiyyətin dəyərlər oriyentasiyası və dəyərlər seçiminin düzgün mexanizmlərinin effektiv işinin təmin edilməsindən çox asılıdır. Cəmiyyət fərdlərin individual qabiliyyətlərinin, yaradıcı imkanlarının və aktivliyinin inkişaf etdirilməsi qayğısına qalmalıdır. Əks halda, fərdin şəxsi istəkləri ilə ümumi ictimai vəzifələr arasında müvazinət yaradılmasına nail olmaq qeyri-mümkündür (8, s.51).

Buradan aydındır ki, cəmiyyətin, dövlətin və idarəetmə institutlarının həmin istiqamətdə fəaliyyətlərinin daha da artırılması tələb olunur.

Azadlıq ilə mənəvi dəyərlərin vəhdətinin təmin olunmasında, şəxsiyyətin mənəvi yetkinlik səviyyəsi ilə yanaşı, onun öz ləyaqətini dərindən başa düşməsi mühüm rol oynayır. Öz ləyaqətini dərk edən fərd həm də özünə kənardan baxmağı bacarır, ailədə, dostlar əhatəsində və cəmiyyətdə böyük nüfuz qazanır. Mənəvi yetkin və ləyaqətli şəxsiyyətin azadlığı genişləndikcə, onun təkcə mövcud cəmiyyətdəki konkret mənəvi dəyərlərə deyil, həm də zamanın fövqündə duran ümumbəşəri dəyərlərə (ədalət, bərabərlik, humanizm və s.) meyilliliyi artır.

Fərdin bu və ya digər konkret şəraitdə etdiyi azad seçim təkcə özü qarşısında deyil, həm də mənsub olduğu sosial birlik forması və bütövlükdə cəmiyyət qarşısında məsuliyyətindən ayrılmazdır. Bu məqam onu azadlığa can atmaqla yanaşı, həm də düzgün dəyərlər oriyentasiyasına sövq edir. İnsanın dəyərlər seçimi və davranışı onun iradə

azadlığının mühüm göstəricisidir. Bu cəhət də məsuliyyətə güclü təsir göstərir, çünki insan öz hərəkətlərini iradə azadlığı üzrə etdikdə, onlara görə tam məsuliyyət daşıyır. Fərdin dəyərlər seçiminə görə məsuliyyət mənəvi borc anlayışında daha aydın ifadə olunur. O öz məzmununda həm azadlığı, həm də yüksək mənəvi dəyərləri əhatə edir. Təsadüfi deyildir ki, İ.Kant mənəvi borcu insan iradəsinin möhkəmliyi göstəricisi hesab edir və fəzilətlə əlaqədə götürürdü. Kanta görə həqiqi xeyirxahlıq və mənəviyyat hər bir insan ilə sosial və təbii mühit arasında borcluluq münasibətləri deməkdir (6, s.731).

Ümumilikdə mənəvi dəyərləri dərk edən fərd, öz fəaliyyətinin bütün tərəflərinə düzgün seçimlə yanaşmağı bacarır. Burada mənlik şüuru böyük rol oynayır. Fərd öz mənlik şüurundan çıxış etməklə, dəyərlərin hamısına eyni münasibət bəsləmir, aşağı, ikinci dərəcəli dəyərləri ali dəyərlərə tabe etməklə, dəyərləri iyerarxiyalı şəkildə həyata keçirir.

Azadlıq və onun inkişafı ilə mənəvi dəyərlərin sıx əlaqəsi və vəhdəti onların hər ikisinin ictimai həyatda öz funksiyalarını dolğun yerinə yetirməyə və cəmiyyətin inkişafında artmaqda olan rolunu təmin etməyə yönəlir. Bəzən belə fikirlərə rast gəlinir ki, guya mənəvi dəyərlər və keyfiyyətlər sivilizasiyanın inkişafında müəyyən yer tutsa da, əslində bu proses məhz insanların hərisliyinin artması sayəsində baş verir (4, s.216).

Bununla əlaqədar qeyd edilməlidir ki, insanların hərisliyi formasında çıxış edən tələbatların, iqtisadi inkişaf baxımından əhəmiyyətli rol oynadığı danılmazdır. Lakin nəzərdə tutulmalıdır ki, cəmiyyətin inkişafı təkcə iqtisadi göstəricilər ilə müəyyən olunmur (onlar nə qədər mühüm əhəmiyyət kəsb etsələr belə), ictimai həyatın səviyyəsi iqtisadi amillər ilə yanaşı, siyasi, mədəni və mənəvi sferaların da müvafiq göstəriciləri ilə ölçülür. Buna görə də ümumi inkişaf həm də qeyd olunan sahələrdə baş verən əsaslı irəliləyişlərdən asılı olur. Əks halda, iqtisadi hərislik, maddi istehsalı və əmək məhsuldarlığını yüksəltməyə can atmaq, iqtisadi bolluğun yaradılmasına müəyyən xidmət göstərsə də, bir sıra ciddi neqativ nəticələr də törədə bilir. Tarixi prosesdə iqtisadi yüksəliş ilə paralel surətdə əhalinin geniş təbəqələrinin istismarının sürətlənməsi buna əyani sübutdur. Deyilənlərdən aydın olur ki, təkcə iqtisadi hərisliyi, bu yönümdə tələbatların ödənilməsini ictimai tərəqqi üçün yeganə meyar hesab etmək doğru deyildir. Bu məsələdə kortəbii istəklər, maksimum iqtisadi fayda götürmək hərisliyi, çoxsaylı hərəkətverici qüvvələrdən yalnız biri kimi qiymətləndirilməlidir. Sözügedən prosesin əsas amilləri sırasında insanların ağlı, zəkası, rasional düşüncəsi və onlarla ayrılmaz əlaqədə çıxış edən mənəviyyatı, mənəvi dəyərləri və dəyərlər oriyentasiyası müstəsna dərəcədə mühüm rol oynayır. Həmin keyfiyyətlərin inkişafı, insanların azadlığının yüksəlişi ilə sıx əlaqədədir. Belə ki, azadlıq öz mahiyyətinə görə hər cür vasitələrə əl atmaqla, başqaları üzərində hökmranlığı ələ keçirmək yolu ilə onlara iradə diktə etməklə bir araya sığmır. Onun başlıca qayəsini insanın yüksək mənəviyyata, nəcib hisslərə və ağıllı nəfsə əsaslanmaqla, öz qabiliyyətlərini və bacarığını yaradıcı surətdə reallaşdırmaq təşkil edir. Bu məsələdən danışarkən, həm də aşağıdakı məqam daim diqqət mərkəzində tutulmalıdır: cəmiyyətin sosial-iqtisadi tərəqqisi ilə mənəvi-mədəni yüksəliş bir-birilə sıx qarşılıqlı təsirdə mövcud olur. Onların bu vəhdəti nəinki təkcə bu və ya digər səviyyədə duran cəmiyyətin normal fəaliyyət göstərməsini, habelə onun inkişafını təmin edən zəruri şərtdir. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarmaq olmaz ki, onların inkişafı həmişə düzxətli və bir-birinə müvafiq şəkildə baş verir.

Əslində bir sıra hallarda, xüsusilə də keçid dövrünü yaşayan ictimai quruluşlarda sözügedən tərəflər arasında müəyyən uyğunsuzluqlar da özünü göstərə bilir. Odur ki, müxtəlif səviyyəli idarəçilik strukturlarının qarşısında duran mühüm vəzifələrdən biri onların mütənasib inkişafını təmin etməyə yönələn şərait yaratmaqdır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Əliyev Heydər. Novruz bayramında nitqi. "Azərbaycan" 26 mart, 1999
2. Xəlilov S. Fəlsəfə. Tarixi fəlsəfi komparativistika və müasirlik. Bakı: Azərbaycan Universiteti, 2006, s.418

**Rus dilində**

3. Асмолов А.С. Психология личности. М.: Мысль, 2001, 397 с.
4. Гурина М. Философия. М.: Республика, 1998, 540 с.
5. Пеньков Е.М. Социальные нормы: управление, воспитание, поведение. М.: Высшая школа, 1990, 75 с.
6. Спиркин А.Г. Философия. Учебник. М.: Гардарики, 2008, 810 с.
7. Фромм Э. Человек для себя. Иметь или быть? Минск: В.П.Ильин, 1997, 416 с.
8. Элиас Н. Общество индивидов. М.: Фаир-Пресс, 2001, 376 с.

## SUMMARY

**Karib Allahverdiyev**

**THE ROLE OF FREEDOM IN HUMAN SPIRITUAL ENRICHMENT**

The article analyzes the role of freedom in the spiritual enrichment of a person. In this context, the interaction of freedom with moral values is investigated, it is noted that freedom, being the highest value, is always in inseparable unity with other moral values. It is shown that the formation of a person who combines wide freedom of action with high moral values is one of the most important problems facing modern society.

In order to clearly imagine the active influence of moral values on freedom, the article compares them with the corresponding influence of social norms. It is emphasized that the close connection and unity of moral values with freedom and its development is related to the full performance of their functions in public life. The important role of the moral level of the personality in ensuring the unity of freedom and moral values is proven.

***Key words:*** *freedom, values, moral values, social norms, individual choice, free choice, society, state*

**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

**РОЛЬ СВОБОДЫ В ДУХОВНОМ ОБОГАЩЕНИИ ЧЕЛОВЕКА**

В статье анализируется роль свободы в духовном обогащении человека. В этом контексте исследуется взаимодействие свободы с нравственными ценностями, отмечается, что свобода, будучи высшей ценностью, всегда находится в неразрывном единстве с другими нравственными ценностями. Показано, что формирование личности, сочетающей широкую свободу действий с высокими нравственными ценностями, является одной из важнейших задач, стоящих перед современным обществом.

Чтобы наглядно представить себе активное влияние моральных ценностей на свободу, в статье они сравниваются с соответствующим влиянием социальных норм. Подчеркивается, что тесная связь и единство нравственных ценностей со свободой и ее развитием связано с полноценным выполнением ими своих функций в общественной жизни. Доказана важная роль нравственного уровня личности в обеспечении единства свободы и нравственных ценностей.

***Ключевые слова:*** *свобода, ценности, моральные ценности, социальные нормы, индивидуальный выбор, свободный выбор, общество, государство*

**YUSİF HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# LİDERLİK FƏLSƏFƏSİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

*Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan bir dövlət kimi zamanın sərt sınaqlarından uğurla çıxa bilmiş, onun müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən müdrik siyasi tədbirlər sayəsində bu gün Azərbaycan Respublikası dünya dövlətləri birliyində öz layiqli yerini tutdu. Dahi şəxsiyyətin həyata keçirdiyi mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində demokratik, hüquqi və sivil bir dövlət qurulmuş, ölkəmizin iqtisadi müstəqilliyinə nail olunmuşdur. Ümummilli lider Heydər Əliyevin yorulmaz siyasi fəaliyyəti nəticəsində xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılmış, qanunun aliliyinə, insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşdırılmışdır.*

*Azərbaycanın bir dövlət kimi ölüm-qalım məsələsinin qoyulduğu bir dövrdə xalqın təkidi ilə siyasətə qayıdan Heydər Əliyevin müdrikliyi sayəsində müstəqilliyimizin itirilməsi və dövlətçiliyimizin mövcudluğu təhlükəsi birdəfəlik aradan qaldırılmışdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, dahi siyasətçi, görkəmli dövlət xadimi, liderlik fəlsəfəsi*

Dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı bütünlüklə öz ömrünü xalqının səadətinə və xoşbəxt gələcəyinə həsr edən, hər cəhətdən üstünlüyə malik bir sarsılmaz liderin təcəssümüdür.

Mübaliğəsiz olaraq Heydər Əliyevi Azərbaycan xalqının xilaskarı, xalqın qələbələrə şərtlənən davamlı yüksəlişinin fundamental ideoloqu və milli sərvəti adlandırmaq olar.

Platon siyasi liderləri "həqiqəti dərk edənlər", Aristotel isə "xüsusi insan tipləri" hesab edirdi. Qustav Lebon və Ziqmund Freyd liderləri insan psixologiyasına dərindən bələd olan, Hikola Makiavelli isə "güclü hökmdar" hesab edirdi.

Nəsirəddin Tusi özünün "Əxlaqi Nasiri" əsərində qeyd edirdi ki, həqiqətdə liderlik (hökmdarlıq) o adama yaraşır ki, dünya xəstələnəndə onu sağalda bilsin, sağlam olduqda səhhətini qorusun. Müdrik filosof xəstəliyin də səbəbini ölkənin özbaşına buraxılmasında görürdü (2, s.210). Məhz Azərbaycan xalqının kimlərinsə mənafeyi üçün özbaşına buraxılıb ağır xəstələndiyi bir vaxtda xalqının səsinə səs verib, xalqın liderliyi missiyasını öz üzərinə götürən Heydər Əliyev onu sağaltdı, qorudu və xoşbəxt gələcəyini təmin etdi.

Sırf şəxsi maraqlarından çıxış edən separatçı qrupların və silahlı cinayətkar dəstələrin fəaliyyət göstərdiyi Heydər Əliyevə qədərki Azərbaycanda nəinki dövlətin ümumi siyasi kursu mövcud idi, heç milli maraq və məqsədlər də müəyyən deyildi. Heydər Əliyevin qayıdışından sonra Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu (3, s.226).

Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ucalığında görkəmli siyasi liderlərə məxsus keyfiyyət olan xalqın və dövlətin mənafeyini daim öz mənafeyindən yüksəkdə tutmaq başlıca prioritet olmuşdur. Onun xalq və dövlətin mənafeyindən başqa özünəməxsus heç bir mənafeyi yox idi.

Ulu öndər çıxışlarında hər zaman xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və

ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini çağdaş zamanın aktual məsələlərindən birinə çevirir. Problemi aktuallaşdıran başlıca amil budur ki, qloballaşma prosesinin və çoxqütblü inteqrasiyanın diktələri bir çox hallarda milli-mənəvi dəyərlərə, adət-ənənələrə, saf duyğulara qarşı yönəlir. Heydər Əliyevin vətəninə, xalqına, milli irs və ənənələrə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrilmiş, bütövlükdə xalqın milli özünəməxsusluğunu qorumuşdur. Bu dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir. Ulu öndər daim xatırladırdı: "Biz öz tarixi köklərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" (4, s.76).

Heydər Əliyev hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Heydər Əliyevin Ümummilli liderliyini milli çərçivə ilə məhdudlaşdıra bilmərik. Heydər Əliyev şəxsiyyəti və onun cahanşümul fəaliyyəti Sovet xalqları müstəvisində Şərqdə və Şərqi Avropadan tutmuş, dünyanın bir çox ölkələrinin tarixində rol oynamış və onların həyatına təsir edəcək proseslərə bağlı olmuşdur. Bu mənanın ifadəsini Rusiya Xalqlar Assambleyasının sədri, tanınmış siyasi xadim Ramazan Abdulatifovun aşağıdakı sözlərində görmək olar: "Heydər Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq, dərk etmək mümkün olacaq. Heydər Əliyev tarixi şəxsiyyət və Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. Belə nəhəng lider təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarda da lazımdır" (5, s.358-359).

Heydər Əliyev dünyanın nadir, unikal, seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Heydər Əliyev tək Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta Qərb miqyasında sözünün keçəri olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran nadir şəxsiyyətlərdən biri idi. O həm güclü yaradıcı, qurucu, həm də sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim idi. Buna görə də onun uzaqgörənliyi həmkarlarına nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olunmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara - zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Görkəmli siyasətçi Heydər Əliyev analitik düşüncə tərzi ilə, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti ilə, yüksək intellekti, dünya siyasətinə və mədəniyyətinə bələdçiliyi ilə ətrafdakıları heyrətləndirirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev xalqının gələcəyini qabaqcadan görmək və

ölkəsini həmin ideal gələcəyə doğru real surətdə aparmaq qabiliyyətinə malik olmuşdur. Sovet hakimiyyəti illərində kommunist ideologiyasının hakim olduğu şəraitdə Heydər Əliyevin azərbaycançılıq siyasətini addım-addım həyata keçirməsi, milli-mənəvi dəyərləri ön mövqeyə çəkməyi bacarması nəticə etibarilə xalqda müstəqil dövlətçilik şüurunun formalaşdırılmasında mühüm rol oynamışdır.

Heydər Əliyevin milli dövlətçilik təlimində azərbaycançılıq ideologiyası xalqın tarixi keçmişi ilə müasir reallıqlarının və gələcəyinin vəhdətdə nəzərə alınması, milli-mənəvi dəyərlərin mövcud şəraitə uyğun olaraq yaşadılması kimi prinsipləri özündə cəmləşdirir. Dahi rəhbərin ifadə etdiyi "milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, milli xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır" tezisi azərbaycançılığın düsturuna çevrilmişdir (6).

Heydər Əliyev güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi. Onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, güclü iradəsində, qeyri-adi yaddaşında, tükənməz təmkin və səbrində, uzaqgörənliyində, qarşısına qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi və mahir diplomat olmasında, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam, etibar və səmimiyyət, zəka, diqqət və başqa bu kimi cəhətlər Heydər Əliyev şəxsiyyətinin ucalığının əlamətləri idi.

İstər Azərbaycana rəhbərlik etdiyi birinci dönəmdə, istər Moskvada SSRİ kimi böyük və hegemon bir ölkənin ən yüksək hakimiyyət təbəqəsində yüksək rəhbər vəzifələr daşıdığı vaxtlarda, istərsə də müstəqil Azərbaycanın xilaskar Prezidenti olduğu zaman əlahiddə istedad və mükəmməl dühasına görə həmişə seçilmişdir. Xalqı, kütləni müəyyən bir fikir ətrafında və məqsəd uğrunda cəmləşdirə, səfərbər edə bilmək və bu zaman qarşıya çıxacaq bütün mümkün problemləri qabaqcadan duymaq və onların həllinə əvvəlcədən hazır olmaq xüsusiyyəti müəyyən vəzifə tutub-tutmadığından asılı olmayaraq Heydər Əliyevin dəyişməz təbii xarakterik xüsusiyyəti idi və bu baxımdan, o, bir çox siyasətçilərdən seçilirdi.

Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətlə sözünü deyə bilən nadir siyasətçi idi. O siyasət aləmində, fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti ilə daim fərqlənmişdir.

Heydər Əliyevin lider kimi fenomenallığı onun həyata keçirdiyi məqsədlərə nail olmaq üçün özündə cəmləşdirdiyi bir çox zəruri keyfiyyətlərlə xarakterizə olunur. Liderin şəxsi "fərdi-insani" keyfiyyətləri onun liderlik fəaliyyətinin əsas leytmotividir. Buraya liderin psixoloji, ideoloji və digər keyfiyyət parametrləri aiddir. Ulu öndərin şəxsi "fərdi-insani" keyfiyyətləri klassik nümunə olaraq daim öyrənilməli və təşviq olunmalıdır.

Heydər Əliyevin liderlik fəaliyyətindəki əsas keyfiyyətlərindən biri də onun şəraitə uyğun ən optimal hərəkət konsepsiyasını düzgün müəyyənləşdirməsi idi, yəni onun siyasi liderlik fəlsəfəsi şəxsi keyfiyyətləri ilə yanaşı, xarici mühit və şərait amilləri ilə xarakterizə olunurdu.

Ulu öndərin digər bir xüsusiyyəti "özünə şərait yaratma" keyfiyyətidir. Bu liderin həm şəxsi, həm də şəraitdən asılı olan keyfiyyətlərinin birləşməsindən əmələ gəlir. Belə olan halda siyasətçilər şəxsi keyfiyyətlərindən üz döndərməyərək, onun öz təməl

xüsusiyyətlərindən köklü fərqlənməyən, lakin mövcud şəraitə uyğun gələn modeli tapmaqla fəaliyyət göstərirlər.

Heydər Əliyevin liderlik keyfiyyətləri funksional olaraq ümumi dövlət idarəetməsi səviyyəsində tam aydınlığı ilə onun siyasi fəaliyyətinin əsas məqsədinə çevrilmişdir. Bu fəaliyyət qərarların işlənməsi, hazırlanması, qəbul və realizə olunmasını nəzərdə tutan çoxsaylı hərəkətləri, bu prosesdə iştirak edən strukturların fəaliyyətinin koordinasiyasını nəzərdə tutan geniş, əhatəli və sistemli təşkilati-idarəetmə funksiyalarının həyata keçirilməsi ilə şərtlənmişdir. Yəni bu idarəetmə və təşkilatçılıqda hər şeyi nəzərə almaq və heç nəyi nəzərdən qaçırmamaq qabiliyyəti deməkdir.

Kommunikativlik istedadına sahib olan dahi lider kimi Heydər Əliyev əhali ilə xüsusi əxlaqi-etik münasibətlərin subyekti olaraq siyasi liderlik funksiyanı da qüsursuz olaraq yerinə yetirirdi. Bununla da, o, cəmiyyətin nəzərində əhalinin hüquq və azadlıqlarının təminatçısı kimi hakimiyyətin məcmu fəaliyyətini təcəssüm etdirirdi.

Səfərbəredici və birləşdirici keyfiyyətlərə malik lider olan ulu öndər bu və ya digər konkret problemlərin həllinə kütləni səfərbər edib, birləşdirmək qabiliyyətini özündə ehtiva edirdi. Heç təsadüfi deyildir ki, xalqımız Heydər Əliyevi xarizmatik liderə xas olan bütün yüksək keyfiyyətlərinə və liderlik fəlsəfəsinin mükəmməlliyinə görə özünün əbədi Ümummilli lideri seçmişdir.

Heydər Əliyev böyük şəxsiyyət olmaqla bərabər, dövrünün böyük siyasətçisi, alimi, dahi mütəfəkkiri, habelə böyük ədəbiyyat və mədəniyyət hamisi olmuşdur. O, həm qədim, həm də müasir tariximizə dərindən və hərtərəfli bələd olan bir lider kimi, həm də iqtisadiyyatımızın tarixini, mədəniyyətimizin tarixini, milli köklərimizi və milli-mənəvi dəyərlərimizi dərindən bilirdi. Şübhəsiz ki, onun dövlətçilik fəaliyyətində bu cəhət özünü aydın hiss etdirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi.

Liderlik keyfiyyətinin şərtlərindən biri də özündən sonra lider ola biləcək layiqli varisini yetişdirməkdir. Hazırda ulu öndər Heydər Əliyevin miras qoyduğu liderlik missiyasını Heydər Əliyev siyasi mühitində böyümüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir. İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən bu missiyanı layiq olduğundan da yüksək səviyyədə yerinə yetirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində və 24 saatlıq antiterror əməliyyatı zamanı özünün ağıllı və uzaqgörən siyasəti ilə Qarabağ həsrətini uğurla başa çatdırdı. Xalqımızın ən ağrılı yeri olan Qarabağ həsrəti Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı, Azərbaycan ordusunun mərdliyi, əzmliliyi ilə Azərbaycana qələbə gətirdi. Prezidentimiz yeni reallıqlar yaradaraq düşməni "dəmir yumruq"la əzib məhv etdi. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin daim arzusunda olduğu və bu gün gerçəkləşən amallarıdır (7).

Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci lider tapmaq mümkün deyildir. Heydər Əliyev dünyanın nadir, fenomenal siyasət adamı idi. O, tək Azərbaycan

səviyyəsində deyil, keçmiş ittifaq səviyyəsində, hətta dünya miqyasında sözünün keçəri olan lider idi. Fenomenal şəxsiyyət olan Heydər Əliyev planetar səviyyədə düşünməyi və təhlillər aparmağı bacaran, uzaqgörən və güclü iradəyə sahib dahi siyasətçi idi. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran ucalığa sahib idi. Heydər Əliyev mahir insanşünas, insanların qəlbinə yol tapmağı bacaran və insanların qəlbində yeri olan bir dahi idi.

## ƏDƏBİYYAT

1. Əliyev H. (1997). Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Bakı: "Azərnəşr". 1997
2. Xacə Nəsirəddin Tusi. "Əxlaqi Nasiri". Bakı: "Elm" nəşriyyatı. 1989. s.210
3. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: 2009. s.226
4. Heydər Əliyev irsini araşdırma mərkəzi (2011). Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri). Bakı: CBC Polygraphic Production. 2011. s.76
5. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: "Çaşıoğlu". 2008. s.358-359
6. "Azərbaycan" qəzeti. 12 dekabr 2019
7. "Xalq qəzeti". 2011. s.7

## SUMMARY

**Yusif Huseynov**

## THE PHENOMENON OF HEYDAR ALIYEV IN THE PHILOSOPHY OF LEADERSHIP

Thanks to the activities of prominent political and statesman Heydar Aliyev, Azerbaijan as a state has successfully managed to withstand the harsh tests of time, thanks to wise political measures implemented in accordance with his planned development strategy, today the Republic of Azerbaijan has taken a worthy place in the world community of states. As a result of the progressive and internationally standard-compliant reforms carried out by the genius, a democratic, legal and civilized state was created, and the economic independence of our country was achieved. As a result of the tireless political activity of national leader Heydar Aliyev, all guarantees of a happy future for our people have been created, and a civil society has been formed that provides real guarantees of the rule of law, human rights and freedoms.

Thanks to the wisdom of Heydar Aliyev, who, at the insistence of the people, returned to political life at a time when the question of the death and survival of Azerbaijan as a state was being raised, the threat of the loss of our independence and the existence of our statehood was eliminated once and for all.

***Key words:*** *Heydar Aliyev, brilliant politician, outstanding statesman, philosophy of leadership*

## РЕЗЮМЕ

**Юсиф Гусейнов**

## ФЕНОМЕН ГЕЙДАРА АЛИЕВА В ФИЛОСОФИИ ЛИДЕРСТВА

Благодаря деятельности видного политического и государственного деятеля Гейдара Алиева, Азербайджану как государству удалось успешно выдержать суровые испытания времени, благодаря мудрым политическим мерам, осуществляемым в соответствии с намеченной им стратегией развития, сегодня Азербайджанская Республика заняла достойное место в мировом сообществе государств. В результате прогрессивных и соответствующих международным стандартам реформ, проведенных гением, было создано демократическое, правовое и цивилизованное государство, достигнута экономическая независимость нашей страны. В результате неустанной политической деятельности общенационального лидера Гейдара Алиева были созданы все гарантии счастливого будущего нашего народа, сформировано гражданское общество, дающее реальные гарантии верховенства закона, прав и свобод человека.

Благодаря мудрости Гейдара Алиева, который по настоянию народа вернулся к политической жизни в то время, когда ставился вопрос о гибели и выживании Азербайджана как государства, угроза утраты нашей независимости и существования нашей государственности была устранена раз и навсегда.

***Ключевые слова:*** *Гейдар Алиев, гениальный политик, выдающийся государственный деятель, философия лидерства*

**MƏMMƏD RZAYEV**
**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*

# MİLLİ MƏNLİK ŞÜURU VƏ MÜASİR ŞƏXSİYYƏTİN MAHİYYƏTİ HAQQINDA

*Milli müstəqillik dövrünün tarixi təcrübəsi sübut edir ki, cəmiyyətdə baş verən əsaslı yeniləmələr yalnız o vaxt öz adekvat mənasını kəsb edir ki, ölkə əhalisini təşkil edən millətlərin və xalqların nümayəndələri həmin proseslərdə şüurlu surətdə və bilavasitə iştirak edirlər. Bu baxımdan, ictimai həyatın bütün sferalarında gedən transformasiya prosesləri onların, müvafiq surətdə milli şüurda və psixologiyada da əks olunmasını tələb edir. Qeyd olunan münasibətdə milli şüurun yüksək pilləsini təşkil edən milli mənlik şüuru (milli özünüdərk) xüsusilə mühüm əhəmiyyətə malikdir. Söhbət milləti təmsil edən insanların öz millətinin həqiqi varlığını hərtərəfli və dərindən anlamasından gedir.*

***Açar sözlər:*** *qloballaşma, milli mənlik şüuru, şəxsiyyət, cəmiyyət, mahiyyət*

Şəxsiyyətin formalaşması və inkişafında milli etnik cəhətlərin artmaqda olan rolu, onun milli mənlik şüurunun yüksəlişində özünün ən təmərküzləşmiş ifadəsini tapır.

İnzibati-amirlik idarəetmə sisteminə əsaslanan totalitar cəmiyyətdə şəxsiyyətin bütövlükdə mənlik şüuru kimi, onun milli forması da məhdudlaşdırılır və təzyiqlərə məruz qalırdı. İmperiyanın başında oturan dairələr belə hesab edirdilər ki, SSRİ ərazisində məskunlaşmış bütün millətlərin və xalqların nümayəndələri yuxarıdan gələn göstəriş və əmrlərin avtomatik icraçısı olmalıdırlar. Milli mənlik şüuru etnik sferada bu qəbildən olan stereotiplərin qərarlaşdırılmasında əsas maneələrdən biri kimi qələmə verilir və buna görə də onun inkişafı hər vəçhlə sıxışdırılırdı. Digər postsovet respublikalarında olduğu kimi Azərbaycanda da şəxsiyyətin milli mənlik şüurunun formalaşması və inkişafı müstəqillik əldə edildikdən sonra yeni sosial zəmin üzərində baş verdi. Əlbəttə, bu fakt əvvəlki dövrlərdə həmin sahədə əldə edilmiş ənənələrin və formaların rolunu heçə endirmir. Söhbət ondan gedir ki, xalqımızın XIX əsrin sonlarından etibarən bu sahədə qazandığı təcrübə milli müstəqillik əldə edildikdən sonra daha da inkişaf edərək zənginləşdi, prinsipcə yeni miqyaslar kəsb etdi.

Əvvəlcə onu qeyd edək ki, şəxsiyyətin milli mənlik şüuru dedikdə onun mənsub olduğu millətin müasir varlığını dərk etməsi, tarixi ənənələrini anlaması və dünya xalqları sistemində gələcək perspektivlərini adekvat mənalandırmaq məharəti başa düşülür.

Şəxsiyyətin milli mənlik şüuru bir çox amillər sisteminin birgə təsiri altında formalaşır. Onların sırasında şəxsiyyətin öz fərdi keyfiyyətləri, peşə fəaliyyəti, təhsil və şüurluluq səviyyəsi, fəallıq dərəcəsi ilə yanaşı, onun mənsub olduğu millətin inkişaf xüsusiyyətləri, onun həyatı, ənənələri, mədəniyyəti çox mühüm yer tutur.

Şəxsiyyətin milli mənlik şüuru mürəkkəb və çoxstrukturlu təsisatdır. Onun məzmununda şəxsiyyətin elementar milli hissləri və əhval-ruhiyyəsi, emosional-psixoloji səviyyəsi, öz millətinin həqiqi varlığını, onun milli münasibətlər sistemində və bütövlükdə cəmiyyətdə yerini, milli ləyaqətinin adekvat mənalandırmasını ifadə edən nəzəri biliklər, onun mənəvi əsaslarını açan baxışlar üzvi vəhdət halında birləşir. Bu mənada milli mənlik şüurunu millətin öz sosial təcrübəsini malik olduğu bütün milli xüsusiyyətlər ilə birlikdə dərk etməsi kimi səciyyələndirən müəlliflərlə razılaşmaq olar (3, s.25).

Şəxsiyyətin milli mənlik şüuru onun həyat fəaliyyətinin yüksək səviyyəli şüurlu tənzimləyicisi olmaqla, bu fəaliyyətin bütün sahələrində daim artmaqda olan rol oynayır. Belə ki, bu fenomen şəxsiyyət tərəfindən onun mənsub olduğu millətin spesifik milli mənafeləri və maraqlarının nə dərəcədə dərk edildiyi, öz dünyagörüşündə, dəyərlər sistemində və real davranışında onlara nə

dərəjədə əməl olunduğunun çox mühüm göstərijisidir. Bu göstərijidə şəxsiyyətin öz şəxsi varlığı ilə milli varlığı arasında qarşılıqlı münasibətlərin anlaşılması səviyyəsi və buna uyğun formalaşan həyat mövqeyi özünün ən təmərküzləşmiş ifadəsini tapır. O, bütövlükdə şəxsiyyətin mənəvi dünyasının təkmilləşmə səviyyəsini ifadə edir, millətin mütəşəkkilliyinin və birliyinin artmasına və ümumilikdə öz potensialını dolğun şəkildə reallaşdırmasına güjlü müsbət təsir göstərir.

Şəxsiyyətin milli mənlik şüuru onun dünyagörüşü səviyyəsi, dəyərlər sistemi və oriyentasiyaları ilə sıx bağlıdır. Bu baxımdan göstərilməlidir ki, elmi-fəlsəfi dünyagörüşə malik olan şəxsiyyət dünyanı, təbiəti və jəmiyyətdə gedən prosesləri düzgün dərk edə və onların fonunda öz millətinin varlığını adekvat mənalandıra bilir. Onun milli mənlik şüuru elmə əsaslanır, özündə mədənilik, dinamiklik və tənqidi yanaşma kimi müsbət xassələri əhatə edir. Burada həqiqət, ədalət, xeyirxahlıq, gözəllik, humanizm kimi ümumbəşəri dəyərlər (konkret milli reallıq prizmasından əks olunmaqla) mühüm yer tutur.

Müasir şəraitdə Azərbayjanda şəxsiyyətin milli mənlik şüurunun formalaşması prosesində ölkəmizdə həyata keçirilməkdə olan əsaslı siyasi, iqtisadi, sosial və mədəni islahatların milli inkişaf baxımından pozitiv mənalandırılması mühüm yer tutur. Şəxsiyyət öz təjrübəsi, biliyi və müşahidəsi sayəsində müəyyən edir ki, açıq jəmiyyətə keçid vəzifələrinin həlli gedişində ölkədə milli münasibətlər sahəsində totalitar rejimdən miras qalmış bir çox problemlər tədrijən aradan qaldırılır, milli inkişafa və millətlərarası münasibətlərdə əməkdaşlığın möhkəmlənməsinə real şərait yaranır.

Şəxsiyyət milli mənlik şüuru vasitəsilə özünün milli varlığını dərk etdiyi üçün bu amil onun birliyinin və suverenliyinin möhkəmləndirilməsində çox mühüm rol oynayır. Bu, inkişaf etdikjə, həm də millətin bütün üzvlərinin dünyagörüşündə daha möhkəm yer tutur. Nətijədə şəxsiyyət öz milli mənsubiyyəti ilə bağlı məsələləri dərindən anlayır, milli ləyaqətin bütün çalarlarına nüfuz edir.

Milli mənlik şüuru ilə şəxsiyyətin inkişafı ikitərəfli vahid proses kimi çıxış edir. Belə ki, bir tərəfdən şəxsiyyətin inkişafına milli mənlik şüuru güjlü təsir göstərir. Bu başlıja olaraq aşağıdakında ifadə olunur: şəxsiyyət özünün milləti ilə və bütövlükdə jəmiyyət ilə çoxtərəfli əlaqələrini milli mənlik şüurunun fəaliyyət mexanizmləri ilə sıx əlaqədə həyata keçirir. Sonra milli mənlik şüuru aid olduğu millətin nümayəndələri olan şəxsiyyətlərin birləşməsinə və ümummilli vəzifələrin yerinə yetirilməsinə səfərbər olunmasında mühüm rol oynayır. Digər tərəfdən isə milli mənlik şüurunun funksiyalarının həyata keçirilməsi prosesi, onun intensivlik dərəjəsi konkret şəxsiyyətlərdən, onların ümumi yetkinlik göstərijilərindən, habelə dünyagörüşündən və mədəni inkişaf səviyyəsindən çox asılıdır. Deyilənlərdən aydın olur ki, milli mənlik şüuru və şəxsiyyət ayrılmaz qarşılıqlı təsirdə olmaqla, biri digərini zənginləşdirir və təkmilləşdirir.

Milli mənlik şüuru millətin xarakterini və milli psixologiyasını, habelə digər spesifik xassələrini təmərküzləşmiş şəkildə ifadə etdirdiyi üçün həmin milləti təşkil edən hər bir şəxsiyyətin fəaliyyəti və davranışını vahid sosial istiqamətə yönəldir, onları qəti şəkildə müəyyənləşdirir və dəqiqləşdirir. Bu proses onların milli borj, milli məsuliyyət, milli iftixar hissi kimi şəxsi keyfiyyətlərinin formalaşmasına sürətləndiriji təsir göstərir. Onların inkişafı isə öz növbəsində şəxsiyyətlərarası münasibətlərin normallaşmasında, şəxsiyyət-jəmiyyət əlaqələrinin möhkəmlənməsində, millətin ümumi potensialının vahid istiqamətə yönəldilməsində çox mühüm rol oynayır. Bu vəziyyət tarixi inkişafın dönüş xarakterli məqamlarında daha aydın nəzərə çarpır. İndi jəmiyyətimiz məhz belə bir dövrü yaşadığı üçün burada yuxarıdakı amillərin əhəmiyyəti daha da artır.

Müstəqil milli dövlətçiliyin həyata keçirildiyi indiki şəraitdə şəxsiyyətin milli mənlik şüuru daha dolğun şəkildə ifadə olunur. Yeni məzmunla zənginləşən və tamamlanan bu anlayış özündə milli amil ilə yanaşı, həm də bütövlükdə jəmiyyətə və bəşəriyyətə mənsub olmanı ifadə edən jəhətlər əldə edir. Buna görə də şəxsiyyətin milli müəyyənliyi və milli şüuru millinin individuallaşmasının, milli dəyərlərin müxtəlif sferalarda milli ənənələr sisteminin, adətlərin, mərasimlərin və sosial simvolların şəxsiyyətin mikrostrukturuna nejə və nə dərəjədə daxil olmasının göstərijisidir (4, s.16).

Buradan aydın olur ki, insanlarda milli xarakteri və milli psixologiyanı səjiyyələndirən keyfiyyətlərin, milli iftixar hissinin, bir sözlə, dəqiq milli müəyyənliyin formalaşdırılması son dərəjə zəruridir. Milli müəyyənliyə, milli mənlik şüuruna malik olan şəxsiyyət öz millətinin və vətəninin həqiqi vətənpərvəri kimi hərəkət edə bilir. O, millət haqqında bəsit hisslərdən və təsəvvürlərdən azad olur, mühüm əhəmiyyət kəsb edən ideyaları əsas götürür, daim öz xalqının qayğısına qalır. Millətin və vətənin adı ilə bağlı olan hər şey belə subyekt üçün müqəddəs sayılır. O, milli həyatın hər jür hadisələrinə və injəliklərinə maraq göstərir, onların həllində fəal iştirak etməyə çalışır. Belə şəxsiyyətin mənəvi dünyası yüksək əxlaqi keyfiyyətlərlə zənginləşir ki, onlar şəxsiyyəti konkret fəaliyyətə təhrik edən qüdrətli amillər rolunu oynayırlar.

Postsovet respublikalarında olduğu kimi Azərbayjanda da şəxsiyyətin milli mənlik şüurunun formalaşması və inkişafı müstəqillik əldə edildikdən sonra yeni sosial zəmin üzərində baş vermişdir. Əlbəttə, bu əvvəlki dövrlərdə həmin sahədə əldə edilmiş ənənələrin və formaların rolunu heçə endirmir. Qeyd etmək lazımdır ki, xalqımızın XIX əsrin sonlarından etibarən bu sahədə qazandığı təjrübə milli müstəqillik əldə edildikdən sonra daha da inkişaf edərək zənginləşmiş, prinsipjə yeni miqyaslar kəsb etmişdir.

Azərbayjan MEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov haqlı olaraq yazır: “Milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət anjaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir və bu zaman milli ruh həyat tərzinə çevrilir” (2, s.39).

Bu gün Azərbayjan insanının milli mənlik şüuru keyfiyyətjə yeni əsasda formalaşmağa başlamışdır. Ölkəmizdə yeridilən düzgün milli siyasət, xalqın tarixinin, mədəniyyətinin, dilinin və dininin qorunmasına daimi qayğı göstərilməsini ifadə edən tədbirlərin həyata keçirilməsi milli şüurun formalaşmasına sürətləndiriji təsir göstərir. Respublikamızın milli dövlət qurujuluğu yolunda atdığı uğurlu addımlar qeyd olunan prosesin intensiv getməsinə əlverişli şərait yaradır.

## ƏDƏBİYYAT

1. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. I jild. Bakı: XXI – “Yeni nəşrlər evi”. 2006
2. Xəlilov S. Fəlsəfə: tarix və müasirlik. Bakı: Azərbayjan Universiteti. 2006
3. Шанин А.И., Тавадов Г.Т. Личность в системе национальных отношений // Вестник МГУ. Сер. соц-полит. исслед. 1992. № 2. с.11-18
4. Соловьев А.И. Политика и мораль. Грани очеловеченного дискурса // Вестник МГУ. Сер. соц. полит. исследований. 1996. № 1. с.18-23
5. Тишков В.А. Социальное и национальное в историко-антропологической перспективе // Вопросы философии. 1990. № 12. с.56-62

## SUMMARY

**M. H. Rzayev, B.H.Babayev**

### NATURE AND CONTEMPORARY ISSUES NATIONAL SELF-CONSCIOUSNESS OF PERSONALITY

The article analyzed the problem of the nature of the person's self-esteem and modern loads. When it was learned that the transformation processes taking place in all spheres of public life, in accordance with the demands of the national consciousness and psychology. A high degree of national consciousness in relation to the above-mentioned in the national consciousness (national self-consciousness) is of great importance especially.

***Key words:*** *globalization, national self-consciousness, modern personality, society, nature*

**РЕЗЮМЕ**

**М.Г.Рзаев, Б.Г.Бабаев**

**НАЦИОНАЛЬНОЕ САМОСОЗНАНИЕ И ПРОБЛЕМА СУЩНОСТИ СОВРЕМЕННОЙ ЛИЧНОСТИ**

Национальное самосознание личности - это этноцентричная форма отракения и национальной идентификации человеком самого себя, ценностного осознания своих действий, творческих возможностей, национальных чувств, мыслей, мотивов поведения в сфере национальных отношений, формирующиеся в процессе развития и преемственного усвоения личностью национального способа духовно-практического освоения действительности, реализации личного национального “Я”. Статья анализирует вопрос структура национального самосознания, выделяются функции: познавательная” приспособительная, защитная, функция самоконтроля и ответственности, интегративная, социально-творческая.

***Ключевые слова:*** *глобализация, национальное самосознание, личность, общества, природа*

**RƏŞAD ƏSGƏROV**
*Bakı Dövlət Universiteti*
**ELXAN QULİYEV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

## RUHULLA AXUNDOVUN FƏLSƏFİ GÖRÜŞLƏRİ

*XX əsrin əvvəllərində Azərbaycanda Sovet hakimiyyətinin qurulması marksizm-leninizm ideologiyasının təbliği prosesini daha da sürətləndirdi. Sovet hakimiyyəti hər vəchlə xalq kütlələri arasında marksizm-leninizm ideologiyasının təbliğinə çalışırdı. Azərbaycan inqilab komitəsinin fəalları olan Ruhulla Axundov, Səmədağa Ağamalıoğlu, Qəzənfər Musabəyov, Nəriman Nərimanov və digərləri zəhmətkeşlərlə görüşdə yeni quruluşun üstün cəhətlərindən danışır və marksizm-leninizm ideyalarının saflığı haqqında mühazirələr oxuyurdular. Görkəmli Azərbaycan filosofu Ruhulla Axundov Azərbaycanda marksist ideologiyasının təbliği və təşviqi sahəsində mühüm işlər görmüş və bu ideologiyanın daşıyıcısı olan V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə tərcüməsində səylə çalışmışdır. R.Axundov müstəqilliyin, azadlığın, istiqlalın xalqın həyatında mühüm rol oynadığını vurğulayaraq bütün xalqları bu amal uğrunda mübarizəyə səsləyirdi. R.Axundov qadın azadlığı məsələsini daim diqqət mərkəzində saxlayır, qadınlara kişilərlə bərabər ümumi halda hüquq və azadlıq verilməsini lazım bilirdi.*

XX əsrin əvvəllərində Sovet hakimiyyətinin qurulması dünyada yeni ictimai-iqtisadi formasiyanın yaranmasına, marksizm-leninizm ideologiyasının təbliği prosesinin daha da sürətlənməsinə səbəb oldu. Sovet hakimiyyəti hər vəchlə xalq kütlələri arasında marksizm-leninizm ideologiyasının təbliğinə çalışırdı. Bunun üçün görkəmli dövlət və partiya xadimləri xalq kütlələri ilə görüşə daha çox üstünlük verirdilər. Azərbaycan inqilab komitəsinin fəalları olan Ruhulla Axundov, Səmədağa Ağamalıoğlu, Qəzənfər Musabəyov, Nəriman Nərimanov və digərləri zəhmətkeşlərlə görüşdə yeni quruluşun üstün cəhətlərindən danışır və marksizm-leninizm ideyalarının saflığı haqqında mühazirələr oxuyurdular.

Kapitalizmdən sosializmə keçid dövründə Azərbaycanda fəlsəfi fikir bütövlükdə və tamamən sosialist quruluşun konkret praktiki məsələləri ilə təyin edilmişdir. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra köhnə dövlət maşınının sındırılması, köhnə qayda-qanunların və feodalizm qalıqlarının ləğv edilməsi, iqtisadi, mədəni, fəlsəfi və ictimai-siyasi sahələrdə əsrlərdən bəri olan qalıqların aradan qaldırılması prosesi başlandı.

Azərbaycanda inqilabın qələbəsi hələ insan şüurunun, əxlaq və psixologiyasının bütün cəhətlərində köhnəliyin tamamilə yox edilməsi və yeniliyin tam təntənə çalması demək deyildi. İctimai şüur ictimai varlığın inikasıdır, buna görə də ictimai şüurun formalaşması ictimai varlığın formalaşması ilə əlaqədar gedən və ondan asılı olan bir prosesdir. Sosialist ictimai varlığı inqilabın birinci zərbəsi ilə dərhal formalaşıb başa çatmadığı kimi, onun ideya inikası olan şüur formaları da birdən-birə formalaşmır. Yeni şüur formalarının təşəkkülü müəyyən vaxt tələb edən tarixi bir prosesdir [19, s.3-5]. Ona görə də Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin ilk günlərindən başlayaraq Kommunist Partiyası marksist ideyaların geniş şəkildə şərh edilməsi, bu böyük sosial dəyişikliyin baş verməsi üçün ideoloji işlərin bütün parametrlərindən istifadə etmişdir.

Görkəmli Azərbaycan filosofu Ruhulla Axundov Azərbaycanda marksist ideologiyanın təbliği və təşviqi sahəsində mühüm işlər görmüş və bu ideologiyanın daşıyıcısı olan V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə tərcüməsində səylə çalışmışdır.

O, 1924-cü ildən başlayaraq V.İ.Leninin "İmperializm kapitalizmin ən yüksək mərhələsidir" əsərini və "Materializm və empriokritsizm" kitabının müəyyən qismini Azərbaycan dilinə tərcümə etmək üçün xüsusi səy göstərmişdir. R.Axundov 1929-cu ilin noyabr ayında "fəlsəfə sahəsində qarşıya çıxan müxtəlifliklər və marksist metodologiyasının məsələləri" başlığı altında yazılmış işini dialektik materializm məsələlərinə həsr etmişdir. O, bu işdə dialektik materializmin əsas vəziyyətini açıqlamış, mexaniki materializm və idealizmi kəskin tənqid etmişdir. Sovet ideologiyasının tələblərinə uyğun olaraq R.Axundov qeyd edirdi ki, fəlsəfə cəbhəsinin əsas xətti idealizm və materializm arasında olan mübarizədir. Aralıq qruplar siyasi mübarizə prosesinin məntiqi sonluğuna qədər inkişaf edərək əvvəl-axır mübarizə aparan tərəflərdən birinin düşərgəsinə qoşulur.

R.Axundovun fikrincə, fəlsəfə siyasətin nəzəri əsasıdır. Bu nöqteyi-nəzərdən biz fəlsəfəni "nəzəri siyasət", həmçinin də siyasəti "təcrübi fəlsəfə" adlandıra bilərik. O, bu ideyaları böyük səylə müdafiə edirdi.

R.Axundov Azərbaycanın görkəmli şairi Mirzə Ələkbər Sabirin yaradıcılığını diqqətlə izləyir və onun xalq qarşısındakı xidmətlərini çox yüksək qiymətləndirərək yazırdı: "Sabir Qafqaz şairləri arasında ən müqtədir və xalq fikirli bir şair ədd edilsin gərək. Qafqaz xalqlarının əvvəlki halı ilə indiki halını müqayisə edərsək, bir qədər tərəqqi etdiyini görərik. Sabir yaşadığı zamanda müsəlman aləmi qaranlıq idi. Bir tərəfdən məktəbsizlik, digər tərəfdən mollaqulaqlarının camaatı aldadıb növbənöv xurafat ilə uğraşdırmaqları müsəlmanların cəhalətdə baqqi qalmasına səbəb olurdu… Əlbəttə, əhalini doğru yola dəvət üçün, qeyri-millətlər kimi bizim əhali arasında da həcv yazıb, camaatın səhvlərini özünə göstərmək və teatrlar göstərib bunların eyiblərini gözləri qabağına gətirmək lazım idi" [8, s.17].

Ruhulla Axundovun fikrincə, Sabir mənsub olduğu Azərbaycan xalqının qarşısında nə qədər borclu olduğunu layiqli düşünüb həcv yazmaq ilə acı həqiqəti camaata anlatmağa başlamışdır. Belə vəzifəni ifa etmək, xüsusən müsəlmanlar arasında asan iş deyildi. Bu qədər qaranlıq mühitdə bir açıq fikirli ziyalı şəxs tapılıb da, camaatın səhvlərini göstərər və yeni həyata təşviq edərdisə, o saat mollanümalar tərəfindən təkfir edilib "babi" ləqəbi qazanacaqdı. Sabirin də həyatı bütünlükdə bu kimi təkfir, lənət və bir çox özgə müsibətlər içində keçmişdir. Lakin Sabir ölənə kimi öz xalqına doğru qaldı və milləti qarşısında lazımi vəzifəsini icraya çalışdı [8, s.18].

Ruhulla Axundovun fikrincə, Mirzə Ələkbər Sabir mühitindəki avam, elmsiz müsəlmanların halını, xüsusən qadınlarımızın nə kimi həqarətlə yaşadığını, elmin və tərbiyənin cocuqlarımıza və qadınlarımıza şamil olmadığını, fəhlə və rəncbərlərə sərvətdar və mülkədarlar tərəfindən vəfa görülən zülmə və təzyiqata soyuqqanlılıqla baxa bilmirdi.

Ruhulla Axundova görə Sabirin yazdığı həcvlərin nəticəsi olaraq Zaqafqaz müsəlmanları arasında elmə həvəs başlanıb, cocuqlarımızın üzünə məktəblər açılmışdır. Bu böyük dahinin hərəkətindən demək olar ki, Azərbaycan ədəbiyyatı və mədəniyyəti tam bir əsr irəliyə addımlamışdır [10].

R.Axundov müstəqilliyin, azadlığın, istiqlalın xalqın həyatında mühüm rol oynadığını vurğulayaraq bütün xalqları bu amal uğrunda mübarizəyə səsləyirdi. O, istiqlalın mənası nədir sualına cavab verərək yazırdı: "Hər kəs istədiyi kimi yaşasın, yaşasın da başqalarına əziyyət verməsin, hüququnu tapdalamasın, halbuki istiqlaliyyəti elan olunmuş Azərbaycanımıza baxarsaq, hər bir qədəmdə təcavüz, məzalim, xəyanət, səfalət görəcəyik… İnsanlara insanlıq, çalışqanlara yaşamaq imkanı vermək məqsədi elan olunan istiqlalımızdan bu gün işçilərimiz və füqəramız istifadə edirmi? Xayır! Xayır! Rusiya inqilab kəbirində olduğu kimi Azərbaycanın istiqlalında da xalqın millət ilə, inqilab ilə heç bir

əlaqəsi olmayan ünsürlər iş başına keçib zəhmətkeşlərimizi boş istiqlal sözü ilə ovunduraraq özlərinə ağalıq, hakimlik imkanı tapmışlardır" (8, s.23).

Ruhulla Axundovun fikrincə, bu gün kağız üzərində gözümüzə görünən istiqlal işçi xalq üçün quru sözdən başqa bir şey deyildir. Xalq yenə ac, yenə torpaqsız, yenə məhrum, yenə məmurlar əlində dəstkir, yenə hüquqi payimal, qasibləri isə lap müstəqil, canları və malları səlamətdə, zəhmətkeşlər üzərindəki hökmləri əllərində baqqi. Bu gün məmurlar dəruni-qəlbdən bütün idrakları ilə füqəraya çatdıqları qələbəni bayram edirlər.

R.Axundova görə, xalqa elə istiqlal lazımdır ki, haqsızlar haqq alsın, zalımlar məhv, məzlumlar hürr olsun. Xalq öz müqəddəratını özü həll etsin. Bu cür istiqlala həqiqi istiqlal demək olar (8, s.24).

R.Axundov qadın azadlığı məsələsini daim diqqət mərkəzində saxlayır, qadınlara kişilərlə bərabər ümumi halda hüquq və azadlıq verilməsini lazım bilirdi. Onun fikrincə, qadınlar azadlığa çıxmaqla mülkədarın, padşahın və qeyrilərin zülmü altından çıxacaqlar. Axundova görə, bizim ailələr içində qadının başında bir çox ağalıq və hökmranlıq edənlər var. Onlar qadının hüququnu və zəhmətini tapdalayırlar. Gərək buna qadınlar ciddi fikir versinlər. Qadınlar öz aralarında savadsızlığı büsbütün ləğv etməyə çalışmalıdırlar. Qadınlar nə qədər savadsız qalarsa, o qədər də onlara zülmlər edər və aldadarlar (12).

Şəhərdə qadınlar arasında bilikli, savadlı tapılırsa, kəndlərdə bu kimi qadınlara çox gec-gec təsadüf olunur. Kəndlərdə qadınlar arasında iş görməyə gəldikdə ən əvvəl qarşımıza savad məsələsi çıxır. Bizim qarşımızda duran ən ümdə məsələlərdən biri də budur (8, s.130).

Məişət məsələsinə gəldikdə biz köhnə üsuli-məişəti söküb atmaq və yerinə zəmanəyə müvafiq məişət yaratmaq üçün Azərbaycan kəndlərində inqilab yapmalıyıq. Kəndlərimizdə hələ indi də çoxarvadlı olan kişilər mövcuddur. Bu xüsusa mane olmaq üçün biz çox işlər görmüşük, dekretlər vermişik. Amma yalnız bununla iş keçmir. Bunun üçün kütlə arasında inqilab yaradılmalıdır. Camaatımızın arasında hələ pirə getmək, çöp çıxarmaq və başqa vasitələrlə müalicə işləri aparmaq halları davam etməkdədir. Biz bu kimi çürük yaşayış adətlərini Azərbaycan qadınları arasından qaldırıb atmasaq, qarşıya qoyduğumuz məqsədlərə çata bilməyəcəyik.

R.Axundov "Şərq qadını" jurnalının əhəmiyyətini çox yüksək qiymətləndirirdi. O, jurnalın nəinki Azərbaycanda, bir çox qonşu ölkələrdə tanınmasını da müsbət hadisə hesab edirdi.

R.Axundovun fikrincə, bəzi yazıçıların, xüsusən şairlərin qadın haqqında hərəmxana üsulu ilə yazdıqları yazıları və şeirləri biz mətbuatımıza yaxınlaşdırmamalıyıq. Biz, qadını zövq və həvəs aləti deyil, ona bir insan, bir əməkçi nəzəri ilə baxırıq. Biz mətbuatımızda qadınların azad olması, iqtisadi və məişəti haqqındakı yazılara artıq fikir verməliyik.

R.Axundov "Şərq qadını" məcmuəsində müxtəlif qüsurları qeyd edərək onların islahı üçün yollar göstərirdi. Ələlxüsus "Şərq qadını" məcmuəsində və başqa mətbuatda qadın müxbirlərinin sayının artırılmasını tövsiyə edir və mətbuat idarələrinin yanında müxbirlər təşkilatı vücuda gətirilməsini lazım görərək deyirdi: "Təlim, tərbiyə, səhiyyə, məişət işlərində geniş təcrübə və məlumatı olan qadınları və kişiləri mətbuat ətrafına toplamalıyıq" (15).

Ruhulla Axundov ali məktəblərdə kafedraların, laboratoriyaların yeni müasir avadanlıqla təchiz edilməsinə, professorların vəziyyətinin yaxşılaşdırılmasına, lakin təkcə əməkhaqqı mənasında deyil, həm də onlara başqa respublikalarda olan, bizdə isə olmayan güzəştlər verilməsi mənasında yaxşılaşdırılmasına diqqət yetirilməsini lazım bilirdi. O, ali məktəblərimizin azərbaycanlılaşdırılması ilə əlaqədar olaraq azərbaycanlı olmayan professorların təmin edilməsi haqqında dekret verilməsini sürətləndirməyi başlıca vəzifə hesab edirdi (8, s.155).

İdeoloji işimizə bilavasitə aid olan fəlsəfə sahəsində, xüsusi ilə Şərq fəlsəfəsinin öyrənilməsi sahəsində qarşımıza dünya miqyasında əhəmiyyəti olan bir vəzifənin düşdüyünü bildirən R.Axundov fəlsəfə sahəsində iş bizə nə üçün lazımdır sualına cavab verərək yazırdı: "Zənnimcə, bu iş təkcə ona görə lazım deyil ki, bütün başqa millətlər kimi bizim də fəlsəfi əsərlərimiz olmalıdır, həm də ona görə lazımdır ki, fəlsəfəyə dair əsərlər ümumi vəzifəyə xidmət etməlidir" (8, s.180).

Ruhulla Axundov savadlanmağı, elmə və biliyə yiyələnməyi Azərbaycan zəhmətkeşlərinin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edirdi. O, respublikanın şəhər və kəndlərində yeni məktəblərin açılmasına, yeni dərs kitablarının nəşri işinə, respublikada ali və orta pedaqoji təhsilin təşkilinə, müəllim kadrlarının yetişdirilməsinə böyük qayğı və diqqətlə yanaşırdı.

Xalq komissarı işlədiyi dövrdə R.Axundov özünəməxsus enerji, yenilikçilik ruhu ilə bu mühüm iş sahəsinə rəhbərlik edirdi. O, göstərirdi ki, məktəblərimizdə ana dilinin öyrənilməsinə xüsusi diqqət yetirməklə yanaşı, rus dilinin dərindən və əsaslı surətdə öyrənilməsinə də diqqət yetirilməlidir (9, s.37).

Azərbaycanda ən mühüm tədbirlərin həyata keçirilməsində Ruhulla Axundov yaxından iştirak etmişdir. Respublikada nəşriyyat işlərinin səhmana salınması, qəzet və jurnalların poliqrafiya bazasının yaradılması, kitab nəşrinin yaxşılaşdırılması daim onu düşündürən mühüm məsələlər idi.

Savadsızlığa qarşı mübarizədə ən böyük maneələrdən biri köhnə əlifba idi. Azərbaycanda yeni əlifba uğrunda genişlənən kütləvi hərəkat, bu işdə əldə edilən təcrübə ərəb əlifbasından istifadə edən başqa respublikalarda da geniş yayılmağa başladı. 1926-cı ilin fevralın martında Bakıda keçirilən Ümumittifaq Türkoloji qurultayının yeni əlifbanın qəbul edilməsi işində böyük əhəmiyyəti oldu. Türkoloji qurultayın çağırılmasında və onun işində Sovet Azərbaycanının görkəmli partiya və dövlət xadimlərindən S.Ağamalıoğlu, H.Cəbiyev və başqaları ilə birlikdə Ruhulla Axundov da yaxından iştirak etdi. Ruhulla Axundov da Nəriman Nərimanov, Səmədağa Ağamalıoğlu və başqa uzaqgörən rəhbərlər kimi yeni əlifbanın həyata keçirilməsini mədəni quruculuqda vacib mərhələ hesab edirdi (9, s.41).

Yeni əlifbanın tətbiq edilməsini təkcə Azərbaycan miqyasında deyil, ümuminqilabi miqyasda əzəmətli nailiyyətimiz hesab edən Ruhulla Axundov Azərbaycan dili məsələsinə də xüsusi diqqət yetirirdi. O, göstərirdi ki, indi azərbaycanlılar Gəncədə bir ləhcədə, Gürcüstanda bir ləhcədə, Bakı kəndlərində isə başqa ləhcədə danışırlar. Bizə vahid dil yaratmaq lazım olduğunu göstərən R.Axundov bunun üçün dil, terminologiya, orfoqrafiya məsələsinə və başqa məsələlərə dair konfranslar çağırılmasını vacib bilirdi.

İslam dini Azərbaycanda çətin tarixi yol keçmişdir. Bu cəhətdən XX əsrin 20-ci illəri xüsusilə əhəmiyyətlidir. Bu dövr islam dininə həm müsbət münasibətlə, həm də onun inkarı və bəzən isə təqib edilməsi ilə nəzəri cəlb edir. Bu illərdə Azərbaycanda 1920-ci ilin aprelində qurulmuş rejimin ziddiyyətləri tam şəkildə üzə çıxmışdır. Odur ki, islama münasibətdə hökumətin fəaliyyətinə birtərəfli, birmənalı yanaşmaq doğru olmaz. Hökumətin dinə münasibətinin başlıca prinsipi kilsə və məscidin dövlətdən ayrılması idi. Dini dövlətə münasibətdə xüsusi iş elan edən hakimiyyət din əleyhinə başladığı ateist fəaliyyəti geniş kütlələrin mədəni yüksəlişi və materialistcəsinə maariflənməsi uğrunda mübarizənin tərkib hissəsi hesab edirdi.

Din məsələsinə xüsusi önəm verən R.Axundov yazırdı: "Din işin elə bir sahəsidir ki, orada sinfi düşmən başqa sahələrdəkinə nisbətən daha möhkəm məskən salmışdır, orada sinfi mübarizə daha uzun sürəcəkdir, çünki dindarlıq artıq vərdişə çevrilmişdir. Pis vərdiş

isə ən təhlükəli düşməndir və biz bunu unutmamalıyıq. Biz din əleyhinə təşviqat sahəsində ən müntəzəm, ən inadlı və gərgin iş aparmalıyıq" (8, s.181).

R.Axundov Məhərrəm ayında müsəlmanlar tərəfindən icra edilən bir çox ayinlərə və mərasimlərə qarşı çıxmış və xalqı başa salmağa çalışmışdır ki, zəncir vurmağın, baş yarmağın din ilə heç bir əlaqəsi yoxdur. Onun fikrincə, xalqa bidətlərin tarixini dəlil və sübutlar ilə anlatmaq yolu ilə bu cür mərasimlərin qarşısını almaq olar (8, 103).

Zaman keçdikcə camaatın ayılmağını görən bir çox ruhanilər başa düşdülər ki, daha işlər dəyişmiş, daha cidanı cibdə gizlətmək olmur. Onlar da işin üstünü açmağa məcbur oldular. Elan etdilər ki, baş yarmaq, zəncir vurmaq, şəbeh gəzdirmək din və quran üzərilə də haramdır (14).

R.Axundov sözün əsil mənasında respublikada ateist təbliğatın bayraqdarlarından biri olmuşdur. S.Ağamalıoğlu, Soltan Məcid Əfəndiyev, Qəzənfər Musabəyov, Ə.H.Qarayev və Ruhulla Axundovun təşəbbüsü ilə 1929-cu ilin sonunda Bakıda "Materialistlər klubu" təşkil edildi. Bu klubun nizamnaməsində deyilir ki, "klub fəhlələrdən, kəndlilərdən, ziyalılardan ibarət olan bütün materialistləri birləşdirir və materialist təlimini eyni zamanda klub üzvlərinin dünyagörüşünün inkişaf etdirilməsini və dərinləşdirilməsini özünün əsas məqsədi hesab edir". Ruhulla Axundov klubun işində fəal iştirak edir və əhali arasında ateist fikirləri təbliğ etməklə məşğul olurdu (9, s.42).

Azərbaycan ədəbiyyatı və incəsənəti sahəsində böyük xidmətləri olan xalqımızın böyük mütəfəkkiri və dramaturqu Mirzə Fətəli Axundovun xatirəsinin əbədiləşdirilməsində Ruhulla Axundovun da az xidməti olmamışdır. 1928-ci ilin martında o, böyük mütəfəkkirin Bakıda heykəlinin ucaldılmasında, M.F.Axundzadənin vəfatının 50 illiyinə həsr olunmuş yubiley iclasının keçirilməsində yaxından iştirak etmişdir. Yubiley iclasındakı nitqində o, M.F.Axundzadənin yaradıcılığına, onun böyük ictimai fəaliyyətinə yüksək qiymət verərək göstərirdi ki, indiyə qədər M.F.Axundzadəni layiqincə tanımaq və öyrənmək bizə mümkün olmamışdırsa da, bundan sonra Mirzə Fətəlinin kim və nə olduğunu axtarıb onu daha yaxından öyrənməliyik. Mirzə Fətəli bizim qarşımızda öz vəzifəsini yerinə yetirmiş, biz də onun xatirəsini əziz tutub vəzifəmizi yerinə yetirməliyik (9, s.44).

R.Axundov 1934-36-cı illərdə keçmiş SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan bölməsi və SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı kimi mühüm bir elmi müəssisəyə rəhbərlik etmişdir. Bu müddətdə o, respublikada dil, ədəbiyyat, tarix, etnoqrafiya, arxeologiya və s. elmlərin inkişafında, terminologiya məsələlərinin öyrənilməsində çox qiymətli tədbirlərin təşəbbüsçüsü olmuşdur. Görkəmli ədibimiz Abdulla Şaiq yazırdı: "Ruhulla Axundov incə zövqə malik, ədəbiyyatı dərindən başa düşən və onu qiymətləndirən xadimlərimizdən idi. Onun istər siyasi vəzifələrdə, istərsə də "İnqilab və mədəniyyət" jurnalının redaktoru, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının rəhbəri olduğu zaman gördüyü işləri heç bir həqiqi vətəndaş unuda bilməz! Heç kəs onun dərin zəkasına, görüşlərinin genişliyinə, tükənməz enerjisinəheyrət etməyə bilməz!" (1, s.336-337).

Gənc milli kadrların yetişdirilməsinə xüsusi qayğı ilə yanaşan Ruhulla Axundov Azərbaycanın görkəmli yazıçılarına, mədəniyyət işçilərinə də böyük həssaslıqla yanaşırdı. Abdulla Şaiq öz xatirələrində yazır ki, Ruhulla Axundov Azərbaycan ziyalılarına xüsusi ehtiramla yanaşar, onlara böyük qayğı bəsləyərdi. Mən ömrüm boyu bu nəcib tələbəmin mənə qarşı olan qayğıkeşliyini unuda bilmərəm. O mənim həmişə çətin vaxtlarımda köməyimə gələn, məni həm müəllim, həm yazıçı kimi işə ruhlandıran dövlət işçilərindən olmuşdur" (9, s.51).

Beləliklə, Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinin inkişafı üçün çalışan

Ruhulla Axundovun bu sahədəki yorulmaz fəaliyyəti nəticəsində respublikamızda fəlsəfi fikir marksist zəmində inkişaf etsə də, sonradan müstəqillik dövrü Azərbaycan fəlsəfi fikrinin formalaşmasında əsas zəmin olmuş, fəlsəfi fikir tariximizin dünya fəlsəfi fikir tarixi ilə qarşılıqlı mübadilə şəklində inkişafına səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. Abdulla Şaiq. Xatirələrim. Bakı: "Gənclik". 1973
2. Ağamalıoğlu S. Bizim yolumuz hayanadır? Bakı: 1924
3. Ağamalıoğlu S. Elmdən və tarixdən. Bakı: 1927
4. Ağamalıoğlu S. İki mədəniyyət. Bakı: 1928
5. Ağamalıoğlu S. Namus. Bakı: 1929
6. Ağamalıoğlu S. В защиту нового Тюркского алфавита. Баку: 1927
7. Nəcəfov X. Səmədağa Ağamalıoğlunun ictimai-siyasi və ateist görüşləri. Bakı: 1968
8. Axundov R. Seçilmiş əsərləri. Azərnəşr. Bakı: 1977
9. Mədətov Q. Ruhulla Axundov. Bakı: Azərnəşr 1983
10. "Fəhlə və mədəniyyət" qəzeti 27 aprel 1919-cu il.
11. "Yeni yol" qəzeti 16 noyabr 1924-cü il
12. "Yeni yol" qəzeti 11 mart 1925-ci il
13. "Kommunist" qəzeti 1922-ci il № 98
14. "Kommunist" qəzeti 12 avqust 1924-cü il
15. "Kommunist" qəzeti 16 oktyabr 1925-ci il
16. "Kommunist" qəzeti 17 fevral 1926-cı il
17. "Kommunist" qəzeti 7 noyabr 1928-ci il
18. Sov.İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. f.1. s.85. ç.v.298. v.16
19. Səttarov M. Sosializm quruculuğu dövründə Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: 1964
20. "Бакинский рабочи" qəzeti 18 may 1927-ci il

## SUMMARY

**Rashad Asgarov, Elkhan Guliyev**

## PHILOSOPHICAL DISCUSSIONS OF RUHULLA AKHUNDOV

The establishment of Soviet power in Azerbaijan at the beginning of the 20th century further accelerated the process of propaganda of the ideology of Marxism-Leninism. The Soviet government did its best to promote the ideology of Marxism-Leninism among the masses. The activists of the Azerbaijani Revolutionary Committee were Ruhullah Akhundov, Samadaga Agamalioglu, Gazanfar Musabekov, Nariman Narimanov and others at a meeting with workers talked about the advantages of the new system and lectured on the purity of the ideas of Marxism-Leninism. The outstanding Azerbaijani philosopher Ruhullah Akhundov has done important work in the field of propaganda and promotion of Marxist ideology in Azerbaijan and is the bearer of this ideology. He worked hard to translate Lenin's works into Azerbaijani. R.Akhundov, emphasizing that independence, freedom, independence play an important role in the life of the people, called

on all peoples to fight for this act. R.Akhundov constantly kept the issue of women's freedom in the spotlight, considered it necessary to grant women rights and freedoms on an equal basis with men.

**РЕЗЮМЕ**

**Рашад Аскеров, Эльхан Гулиев**

**ФИЛОСОФСКИЕ ДИСКУССИИ РУХУЛЛЫ АХУНДОВА**

Установление советской власти в Азербайджане в начале XX века еще больше ускорило процесс пропаганды идеологии марксизма-ленинизма. Советская власть всячески стремилась к пропаганде идеологии марксизма-ленинизма среди народных масс активистами азербайджанского революционного комитета были Рухулла Ахундов, Самадага Агамалиоглу, Газанфар Мусабеков, Нариман Нариманов и другие на встрече с трудящимися говорили о преимуществах нового строя и читали лекции о чистоте идей марксизма-ленинизма. Выдающийся азербайджанский философ Рухулла Ахундов проделал важную работу в области пропаганды и продвижения марксистской идеологии в Азербайджане и является носителем этой идеологии. Он усердно работал над переводом произведений Ленина на азербайджанский язык. Р.Ахундов, подчеркивая, что независимость, свобода, независимость играют важную роль в жизни народа, призывал все народы к борьбе за этот поступок. Р.Ахундов постоянно держал в центре внимания вопрос о свободе женщин, считал необходимым предоставление женщинам прав и свобод наравне с мужчинами.

**ETİBAR MUSAYEV**
*etibaradiloglu@mail.ru*
*Gəncə Dövlət Universiteti*

## MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANÇILIQ FƏLSƏFİ İDEYALARININ YARANMASINDA MİLLİ-MƏNƏVİ VƏ ÜMUMBƏŞƏRİ DƏYƏRLƏRİN ROLU

*Cəmiyyət həyatında ümumiləşdiricilik xarakteri qazanmış ideyalar dərinləşdikcə və zənginləşdikcə bütöv xalqın malı olur və ümumişlək səciyyə daşıyır. Ümummilli ideyalar xalqın uzunmüddətli mədəni, məişət və sosial həyatında baş verən hadisə və proseslərin təcrübəsi fonunda yaranır. Ümummilli ideyalar zaman keçdikcə təcrübə və sınaqlardan keçir, zənginləşir, dolğunlaşır, bütövləşir, hamı tərəfindən birmənalı şəkildə qəbul olunur və cəmiyyət həyatının atributuna çevrilir. Azərbaycan cəmiyyətində ümumbəşəri ideyalar əsas etibarı ilə böyük şəxsiyyətlərin, dahi mütəfəkkirlərin bəşəriyyətə verdiyi böyük ideyalardan ibarətdir. Məsələn, böyük Nizaminin bəşəriyyət həyatına gətirdiyi ideyalar içərisində insan azadlığı, azad, sərbəst düşüncə, azad və demokratik cəmiyyət ideyası bəşəriyyətin sosial həyatında əldə edilən ən mühüm nailiyyətlərdən hesab oluna bilər. Eləcə də böyük Nəsiminin, Füzulinin davam və inkişaf etdirdiyi azad insan, sərbəst düşüncə ideyaları insan cəmiyyətində demokratikləşmənin yaranması və müasir dünyamızın qəbul etdiyi humanistləşmə və demokratikləşmə prinsiplərinin həyata keçirilməsi mənasında ümumbəşəri ideyalar kimi səciyyəvi hesab edilməlidir. Müasir fəlsəfi düşüncədə bu ideyalar əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *mədəniyyət, xəzinə, filosof, müstəqil, düşüncə, fikir, şəxsiyyət, cəmiyyət*

Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlər bu xalqın keçdiyi uzun tarixi dövrlər ərzində formalaşmışdır. Uzun dövrlər ərzində xalq yaxşını-pisi, xeyri-şəri, doğrunu-yalanı müqayisə etmiş, yaxşı nə varsa, onu özünün həyat amalına çevirmişdir. Şübhəsiz, yaxşılıq-pislik, xeyir-şər kimi mənəvi-psixoloji amillər bütün bəşər cəmiyyəti üçün səciyyəvi olan problemlərdən biridir. Ona görə də insanlar daim yaxşı nə varsa, ona meyil göstərmiş, pisliyi özündən dəf etməyə çalışmışlar. Lakin insan xislətində elə dərin psixoloji amillər var ki, burada təkcə yaxşılığı qəbul edib, pisliyi özündən uzaqlaşdırmaq mümkün deyil. Ona görə də həyat təkcə yaxşılıq üzərində qurula bilmir. Pisliklər daim mövcuddur və həyat hadisələri də yaxşılıq və pisliyin mübarizəsi üzərində qurulmuşdur. İnsan həyatında bütün mübarizələr tarixən yaxşılıq, pislik üzərindəki mübarizəsi üzərində baş vermişdir. Yaxşılığın pislik üzərindəki mübarizəsi bu gün də vardır, gələcəkdə də mövcud olacaq. Ancaq insan cəmiyyəti daim yaxşı keyfiyyətlərə üstünlük verdiyi üçün yaxşılıqlar amala çevrilir, pislik isə heç zaman amal olmamış, olmayacaqdır. Yaxşılıq amalı bütün insan cəmiyyətlərində inkişafı, tərəqqini, humanist prinsipləri əhatə etsə də, hər bir cəmiyyətdə bunların özünəməxsus etnik-milli əlamətlərlə səciyyələnən formaları da meydana gəlmişdir.

Belə ki, Azərbaycan cəmiyyətində elə ənənələr yaranıb fəlsəfi baxımdan milli psixologiyamıza daxil olmuşdur ki, başqa cəmiyyətlərdə bəlkə də bunlara rast gəlmək çətin olur. Məsələn, böyüyün kiçiyə qayğısı, ata-ana sevgisi, abır-həya, əliaçıqlıq kimi keyfiyyətlər Azərbaycan cəmiyyətində kök salaraq onun milli və mənəvi dəyərlərinə çevrilmişdir. Ulu

öndərimiz milli-mənəvi dəyərlərimizdən söhbət açarkən göstərir ki, "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan xalq həqiqi millət, həqiqi xalq ola bilməz. Hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl əxlaqi qaydalar var. İndi onları nəyəsə başqa şeyə qurban vermək olmaz. Məsələn, kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz məhəbbəti, valideynlərin də öz növbəsində qayğısı və məhəbbəti. Bunlar əsrlər boyu bizim əcdadlarımız tərəfindən yaradılmış adət-ənənələrdir. Biz bunları qorumalıyıq, saxlamalıyıq" (YAP-ın VI ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyevin nitqi. "Xalq" qəzeti. 24 noyabr, 1998).

Xalqımızın qədim milli-mənəvi dəyərlərini əks etdirən aforizmlər Prezidentimiz Heydər Əliyevin nitqində də işlədilir. Heydər Əliyevin nitqində aforizmlər, əsas etibarı ilə dövlətçiliklə, müstəqil dövlət quruculuğu ilə, elm və mədəniyyətimizlə, bütövlükdə azərbaycançılıq və milli ideologiyamızla bağlı işlədilən lakonik ifadə vasitələrindən ibarətdir. Belə ifadə vasitələrinə dair aşağıdakı nümunələri göstərmək olar: "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır", "Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir", Müstəqilliyin əldə edilməsi nə qədər çətindirsə, onu qorumaq bir o qədər də çətindir", "Yüksək mədəniyyətə malik olan xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır", "Tariximiz bizim üçün dərs olmalıdır", "Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə", "Hər bir xalqın milliyyətini, mənəvi dəyərlərini yaşadan onun dilidir", "Milli azadlığa nail olmaq üçün oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır" (Aforizmlər (Şahlar Ələskərov, Cəlaləddin Xəlilov). Bakı: 1977). "Bizim üçün tarixi bir amil var-azərbaycançılıq", "Gələcək bilikli, elmli insanların çiyinlərində qurulacaqdır", "Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı özünü daim azərbaycanlı kimi hiss etməklə və Azərbaycan haqqında düşünməlidir" (B.Ələmşahov, N.Bəxşeyiş oğlu "Dəryadan damlalar" Bakı: 1999).

Tarix boyu qazandığımız milli və mənəvi keyfiyyətlər bütövlükdə azərbaycançılıq ideyalarının yaranmasını və formalaşmasını səciyyələndirir. Azərbaycançılıq ideyalarının ilkin bünövrəsini məhz milli varlığımız, milli həyatımız, milli məişətimiz və bütövlükdə milli psixologiyamızı əks etdirən bu kimi mənəvi, əxlaqi, etnik normalar səviyyəsində canlanan keyfiyyətlər təşkil edir. Azərbaycançılıq ideyalarının formalaşmasında mühüm rol oynayan bu formalar özünün əxlaqi və etnik keyfiyyətlərinə görə bəşər mədəniyyətinin bir hissəsini təşkil edir.

Azərbaycan cəmiyyətində formalaşan və yüksək mənəvi kamillik təcəssüm etdirən etik normalar öz humanist xarakterinə görə ümumbəşəri ideyalara inteqrasiya oluna bilər. Başqa sözlə, həmin normalar Azərbaycan cəmiyyətindən kənarda da tətbiq oluna biləcək əxlaqi-etnik, humanist keyfiyyətlərdən ibarətdir.

Azərbaycan cəmiyyətində azərbaycançılıq ideyalarının özəyini, təməlini təşkil edən mənəvi, əxlaqi, humanist və demokratik ideyalar təkcə milli məişətdə və ya hər hansı bir sosial şəraitdə formalaşmaqla məhdudlaşmır. Azərbaycançılıq ideyalarının formalaşmasında, eləcə də böyük mütəfəkkirlərin, alimlərin, yaradıcı şəxsiyyətlərin çox böyük rolu olmuşdur. Azərbaycan tarixində çox böyük şəxsiyyətlər yetişmişdir. Böyük şəxsiyyətlərin yaratdıqları ideyalarla həm milli mədəniyyətin, həm də bəşər mədəniyyətinin ən mühüm

nailiyyətləri canlanır. Odur ki, tarixi şəxsiyyətlərin yaratdıqları ideyalar həm milli-mənəvi keyfiyyətlərin, həm də bəşər mədəniyyətinin zənginləşməsində böyük əhəmiyyətə malikdir. Bu adları, yaratdıqları əsərləri bizə məlum olan və ya məlum olmayan Azərbaycan mütəfəkkirləri dünya mədəniyyətinə böyük töhfələr vermişdir.

Məsələn, XII əsrdə böyük Nizami öz əsərlərini fars dilində yazmaq məcburiyyətində qalmasına baxmayaraq dünya mədəniyyətinə, məhz Azərbaycan mədəniyyətindən doğan, Azərbaycan cəmiyyətinin xarakterindən yaranan fikir və ideyalarla zənginləşdirilmişdir. Məsələn, "Kərpickəsən kişinin dastanı"nda əməyə, zəhmətə bağlılıq, "Sultan Səncər və qarı" hekayəsində ağbirçəyə hörmət və ehtiram göstərilməsi, "Xeyir və Şər" dastanında xeyirin şər üzərində qələbə çalması, "Zalım padşahla Zahidin dastanı"nda ağlın zülm və zorakılıq üzərində qələbəsi kimi Azərbaycan cəmiyyətində yaranmış fikir və düşüncələr dahi şairin yaradıcılığında ümumbəşəri bir səviyyəyə çatdırılmışdır. Eləcə də Nizaminin əsərlərində ifadə olunan müstəqil, azad, demokratik cəmiyyət arzusu ümumbəşəri ideyalar səviyyəsinə çatdırılmışdır. Bu ideyalar zaman keçdikcə yaşamış, zənginləşdirilmiş və dünyəvi xarakter almışdır. II minilliyin əvvəllərində Azərbaycan cəmiyyətində xalqın daxili arzusu kimi Nizami əsərlərində ümumbəşəri xarakter qazanan bu ideya minilliyin sonunda Heydər Əliyev tərəfindən həqiqətə qovuşduruldu.

Böyük Nizami xalqın azadlıq və müstəqillik arzularını ideallaşdırıb yaşatdı, Nizamidən Heydər Əliyevə kimi keçən dövrdə arzu olaraq qalan həmin ideyalar Heydər Əliyev tərəfindən reallaşdırıldı. Heydər Əliyevin yaratdığı dövlətçilik məhz, Nizami ənənələrində ifadə olunduğu kimi, demokratik prinsiplər üzərində bərqərar oldu. Sözsüz ki, Nizaminin demokratik və azad cəmiyyət ideyaları təkcə Azərbaycan cəmiyyətində qapanıb qala bilməzdi. Ona görə də, məhz bu gün dünyada demokratiyadan və demokratik prinsiplərdən söhbət etdikdə Nizami ideyaları yada düşür və xatırlanır.

Nizami kimi, böyük Füzulinin yaratdığı ideyaların da beşiyi Azərbaycan cəmiyyətindən ibarətdir. Nizami irsinin Füzuli yaradıcılığında davamı onun "Leyli və Məcnun" poemasında ifadə olunan azad, sərbəst və müstəqil düşüncə amalından ibarətdir. Nizami azad, demokratik cəmiyyət ideyalarını canlandırdığı kimi, Füzuli demokratik cəmiyyətdə azad, sərbəst, müstəqil düşüncəli insanların yaşaması arzularını ideallaşdırmışdır. Eyni zamanda, Füzuli öz əsərlərində, Azərbaycan dilinin geniş yayıla bilmədiyi bir zamanda ərəb və fars dilinin hökmranlıq etdiyi bir mərhələdə ana dilini inkişaf etdirdi. Azərbaycançılığın əsas istiqaməti olan doğma dili ən mükəmməl şeir, sənət dili kimi inkişaf etdirdi.

Nizami kimi, Füzuli kimi böyük Nəsimi də azadlıq carçısı idi. Azərbaycan cəmiyyətinin daxilindən gələn azadlıq arzularını müxtəlif üsullarla, zəngin şeir dili ilə yaymağı, təbliğ etməyi özünün ən böyük amalına çevirmişdir. Azadlıq, sərbəstlik, müstəqillik və sərbəst düşüncə motivlərinin Azərbaycan cəmiyyətində tarixən özünəməxsus yer tutması xalqımızın qəhrəmanlıq və müdriklik abidəsi olan "Kitabi-Dədə Qoqud"da da bariz şəkildə öz əksini tapır. "Dəli Domrul" boyunda igid və qorxubilməz Dəli Domrul yaxşı bir cavanın ölümündən təsirlənir. Soruşur ki, "Bu cavanı kim öldürdü". Deyirlər bu cavanın canını Əzrail aldı. O, deyir Əzrail kimdir ki, yaxşı cavanın canını alır. Mən Əzraili öldürərəm, adamların canını ondan xilas edərəm. Əzrail Dəli Domrulun

başının üstünü kəsəndə o, aman istəyir. Əzrail amanı Tanrıdan istə deyir. Tanrıdan belə bir səs gəlir: "Qoy Dəli Domrul öz canının yerinə başqa can versin". Atası, anası Domrula can vermir.

Bu epizodun mənası budur ki, Domrul özünü yenilməz igid sayır. Amma çətinlik üz verəndə ata-anadan kömək istəyir. Ata-ananın yox cavabı o deməkdir ki, övlad artıq yetkinlik dövrünə çatanda sərbəst, müstəqil düşünməyi bacarmalıdır. Heydər Əliyev təlimindəki azadlıq, müstəqillik, sərbəstlik ideyalarının başlıca mənbəyi bunlardır. Gənclərə təbliğ olunan azərbaycançılıq ideyalarının təməlini də bunlar təşkil edir. Bəli, azərbaycançılığın başlıca şərtləri olan azadlıq, sərbəstlik, müstəqillik ideyaları cəmiyyətimizin ruhundan yaranıb bədii təxəyyülə köçürülmüşdür.

Böyük Azərbaycan filosofu Bəhmənyarın fəlsəfi görüşləri, Tusinin Azərbaycan cəmiyyətində yaranmış riyazi-astronomik kəşfləri şübhəsiz ki, milli və ümumbəşəri ideyalar kimi dünya mədəniyyətinə bəxş edilmiş mühüm töhfələr hesab edilməlidir.

Azərbaycan mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş Həsənoğlu, Əssar Təbrizi, Məhsəti, Əvhədi, Nəimi, Xaqani, Xətayi, Vaqif, Bakıxanov, Axundov və s. kimi dahi şəxsiyyətlər öz yaradıcılıqlarında zaman-zaman azərbaycançılıq ideyalarını zənginləşdirməklə, həm də bəşər mədəniyyətinə yeni ideyalar bəxş etmişlər.

Ümumilikdə tarixi şəxsiyyətlərin hər biri öz fəaliyyətlərinə uyğun obrazlar yaratmaqla vətənlərini dünyada tanıdırlar. Azərbaycançılıq ideyaları dünyada məhz belə şəxsiyyətlərin sayəsində yayılır. Heydər Əliyev demişdir: "Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, siyasi və dövlət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərini yaradıblar. Bu bizim milli-əxlaqi mentalitetimizdir. Bu bizim bütün başqa mənəvi dəyərlərimizdir. Biz bunların hamısı ilə fəxr etməliyik" ("Xalq" qəzeti, 24 noyabr, 1998).

Azərbaycan xalqının tarixən yaranmış milli-mənəvi keyfiyyətləri və ümumbəşəri ideyalar bazasında formalaşan azərbaycançılıq ideyaları aşağıdakı kimi xarakter əlamətləri özündə cəmləşdirir:

Vətəni sevmək, doğma torpağa, doğma yurda bağlılığını əməli işlə, əməli keyfiyyətlərlə nümayiş etdirmək;

Azərbaycan xalqına məxsus mənəvi, əxlaqi, etik keyfiyyətlərə riayət etmək, onu qoruyub saxlamaq, davam və inkişaf etdirmək;

Azərbaycan mədəniyyətinə hörmət və ehtiramla yanaşmaqla müvafiq qaydalar əsasında tətbiq olunmuş normalar üzrə onun işlədilməsinə riayət etmək;

Ana dilinə hörmət və ehtiramla yanaşmaqla müvafiq qaydalar əsasında tətbiq olunmuş normalar üzrə onun işlədilməsinə riayət etmək;

Milli birlik və mütəşəkkillik ənənələrini qoruyub saxlamaq;

İnsanlar arasında səmimi, humanist prinsiplərin bərqərar olunmasının əməli fəaliyyətlə həyata keçirilməsinə nail olmaq;

Hüquqi dövlətdə demokratik prinsiplərin həyata keçirilməsi işinə yardım etmək;

Müstəqil dövlətçiliyimizdə yaranmış ənənələrin qorunub saxlanmasına, davam və inkişaf etdirilməsinə nail olmaq;

Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlərin ümumbəşəri ideyalarla inteqrasiyasına nail olmaq;

Dünyanın qabaqcıl ölkələrinin ən yaxşı ənənələrini ölkəmizin sosial, iqtisadi və mədəni həyatına tətbiq etmək;

Müstəqil dövlətçiliyimizin zəminində qazanılmış nailiyyətlərin qorunmasında, saxlanılmasında, davam və inkişaf etdirilməsində varislik prinsiplərinə riayət etmək.

Bütün qeyd olunan bu xarakter əlamətlər azərbaycançılığın ən ümumi cəhətlərindəndir. Müstəqil dövlətçilik mərhələsində isə azərbaycançılığın əsas atributları bunlardır:

Azərbaycan Respublikasının dövlət rəmzləri;

Ana dili;

Milli-mənəvi keyfiyyətlər;

Milli-mənəvi keyfiyyətlərlə ümumbəşəri dəyərlərin inteqrasiyası;

Vətənin ərazi bütövlüyünün tanınması.

Azərbaycançılıq harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının müqəddəs amalı olmalıdır.

## ƏDƏBİYYAT

1. YAP-ın VI ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyevin nitqi. "Xalq" qəzeti, 24 noyabr. 1998
2. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
3. Aforizmlər (Tərtib edənlər: Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977

## SUMMARY

**Etibar Musayev**

**THE ROLE OF NATIONAL SPIRITUAL AND UNIVERSAL VALUES IN THE CREATION OF PHILOSOPHICAL IDEAS OF AZERBAIJANISM IN THE MODERN STAGE**

As the ideas that have acquired the character of generalization in social life become deeper and richer, they become the property of the entire people and bear a general character. General ideas arise against the background of the experience of events and processes occurring in the long-term cultural, domestic and social life of the people. Over time, national ideas undergo experiments and tests, become richer, fuller, integrated, accepted by everyone and become an attribute of social life. In the Azerbaijani society, the universal ideas basically consist of the great ideas given to humanity by great personalities and genius thinkers. For example, among the ideas brought by the great Nizami to the life of mankind, the idea of human freedom, freedom, free thinking, free and democratic society can be considered as one of the most important achievements in the social life of mankind. Also, the ideas of a free person and free thinking, which the great Nasimi and Fuzuli continued and developed, are universal ideas in the sense of the creation of democratization

in human society and the implementation of the principles of humanization and democratization accepted by our modern world. should be considered typical. These ideas are important in modern philosophical thought.

***Key words:*** *culture, treasure, philosopher, independent, thinking, idea, personality, society*

**РЕЗЮМЕ**

**Этибар Мусаев**

**РОЛЬ НАЦИОНАЛЬНЫХ ДУХОВНЫХ И ОБЩЕОБРАЗОВЫХ ЦЕННОСТЕЙ В СОЗДАНИИ ФИЛОСОФСКИХ ИДЕЙ АЗЕРБАЙДЖАНСТВА НА СОВРЕМЕННОМ ЭТАПЕ**

По мере углубления и обогащения идей, приобретших в общественной жизни характер обобщения, они становятся достоянием всего народа и носят всеобщий характер. Общие представления возникают на фоне переживания событий и процессов, происходящих в многолетней культурной, бытовой и общественной жизни народа. Со временем национальные идеи подвергаются экспериментам и испытаниям, становятся богаче, полнее, интегрируются, принимаются всеми и становятся атрибутом общественной жизни. В азербайджанском обществе универсальные идеи в основном состоят из великих идей, данных человечеству великими личностями и гениальными мыслителями. Например, среди идей, принесенных великим Низами в жизнь человечества, идея свободы человека, свободы, свободомыслия, свободного и демократического общества может считаться одним из важнейших достижений в социальной жизни человечества. Также идеи свободного человека и свободомыслия, которые продолжили и развили великие Насими и Физули, являются универсальными идеями в смысле создания демократизации в человеческом обществе и реализации принципов гуманизации и демократизации, принятых нашим современным мира следует считать типичным. Эти идеи важны для современной философской мысли.

***Ключевые слова:*** *культура, сокровище, философ, независимый, мышление, идея, личность, общество*

**GÜLSÜM KƏRİMOVA**
*gkarimova371@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*
**ORCİD İD: 0009-0003-3233-4988**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN NATİQLİK SƏNƏTİNİN İNKİŞAFINDA ATALAR SÖZLƏRİNİN ROLU

*Müasir Azərbaycanda söz sənətinin inkişafında atalar sözləri böyük rol oynamışdır. Bu yığcam və mədəni zəngin ifadələr fərdlərə öz düşüncələrini, ideyalarını və emosiyalarını effektiv şəkildə çatdırmaqda köməklik göstərərək, qiymətli linqvistik mənbə rolunu oynamışdır. Müasir dövrdə də atalar sözləri dərinlik, kontekst və mədəni aktuallıq əlavə etməklə nitqi gücləndirən Azərbaycan nitqinin görkəmli xüsusiyyəti olmaqda davam edir.*

*Azərbaycan atalar sözləri ünsiyyətin ictimai və gündəlik həyata təsirini vurğulayan nümunələrlə zəngindir. Atalar sözlərinin dilin əhəmiyyəti, ünsiyyətdə effektiv anlaşma, nəzərdə tutulan auditoriyaya çatmaq, dilin insan münasibətlərində və ünsiyyət münaqişələrinin həllində təsirli rolu vardır. Bu atalar sözləri lazımsız söhbətdən çəkinməyi təbliğ edir, aktiv dinləmənin vacibliyini vurğulayır və sözlərin seçmə istifadəsini təşviq edir. Onlar həmçinin linqvistik təcrübə və səriştənin dəyərini özündə birləşdirir.*

*Azərbaycan atalar sözləri müxtəlif kontekstlərdə səmərəli ünsiyyətin çoxsaylı nümunələrini təqdim edərək, müasir dövrdə fərdin sosial ünsiyyət bacarıqlarına əhəmiyyətli dərəcədə töhfə verən təcrübə biliklərinin zənginliyini nümayiş etdirir. Bu atalar sözləri kollektiv şüurun daşıyıcısı kimi çıxış edərək keçmişdən bu günə və gələcəyə mesajların çatdırılması vasitəsi kimi çıxış edir. Onlar əsrlər boyu eyni dildə danışanlar arasında mədəni ötürmənin əsasını qoyaraq ünsiyyət üçün əlverişli mühit yaradırlar.*

*Əslində atalar sözləri cəmiyyətin kommunikativ davranışına pəncərə kimi xidmət edir və ortaq sosial və mədəni paradiqmanı əks etdirir. Azərbaycan atalar sözləri türk cəmiyyətinin müasir dünyanın kommunikativ ehtiyaclarını ödəmək üçün effektiv dinləmə və düşünülmüş qarşılıqlı əlaqəni prioritet hesab edən şəxsiyyətlərarası ünsiyyətə baxışını çox uyğun şəkildə əks etdirir.*

***Açar sözlər:*** *nitq, atalar sözləri, müasir dövr, natiq, 21-ci əsr bacarıqları, ünsiyyət*

## Giriş

Hər gün həyatın demək olar ki, bütün sahələrində bir çox dəyişikliklər və yenilənmə baş verir. Məsələn, texnologiya sahəsində baş verən bir yenilik gündəlik həyatda yeni təcrübənin ortaya çıxmasına, bəzi hallarda isə bir çox insanın həyatında mühüm yer tutan gündəlik iş rejiminin sona çatmasına səbəb ola bilir. Yeni biliklərin emalının təbii prosesi olan bu kollektiv hərəkat ibtidai dövrdən postmodern zehniyyətin inkişafına qədər öz varlığını effektiv şəkildə davam etdirmişdir. Şübhəsiz ki, bu dəyişikliklər insan həyatına təsir edir. Bu, bir inkişafdır və tarixi prosesin xüsusiyyətlərini əks etdirir. Bu isə, insanların bilik və təcrübəsinin nəsillər arasında toplanması və ötürülməsinin nəticəsində baş verir.

Tarixi təcrübələrin cəmiyyətlərdə diaxronik şəkildə ötürülməsi və eyni zamanda cəmiyyəti təşkil edən insanlar arasında razılığın təmin edilməsi dil və lüğət vasitəsilə həyata

keçirilir. Hər bir cəmiyyət öz dili və lüğəti ilə mədəniyyətini inkişaf etdirir və eyni yolla həm mədəniyyətini qoruyur, həm də şifahi və ya yazılı şəkildə nəsildən-nəslə ötürür. Bu funksiya ilə dil sosial yaddaş rolunu oynayır. Atalar sözləri həm də şifahi dilin ədəbi məhsulu olduğundan ictimai yaddaşın çox mühüm tərkib hissəsidir.

Atalar sözləri mənsub olduqları cəmiyyətlərin həyat tərzi, adət-ənənələri, rəftarları, inancları, davranış nümunələri, intellektual qabiliyyətləri, tənqidi təfəkkürü, dildən istifadə, obrazlılıq və düşünmə qabiliyyətləri haqqında zəngin biliklərdir. Onlar fəlsəfi, sosioloji və psixoloji ölçüləri əhatə edən kollektiv şüur haqqında dərin anlayışlar təqdim edir. Atalar sözləri mahiyyətcə bir xalqın ümumi müdrikliyindən qaynaqlanır, onların toplanmış təcrübələrini təmsil edir, ağıl, iradə və intuisiya vasitəsilə süzülür və bununla da cəmiyyətin ümumi şüurunu formalaşdırır.

Atalar sözləri şifahi mədəniyyətin tərkib hissəsi kimi məqsədyönlü şəkildə qısa və lakonikdir, asanlıqla yadda qalır və fərqli dil quruluşunu tələb edir. Bu unikal linqvistik xüsusiyyət dünyanın müxtəlif mədəniyyətlərinə aid atalar sözləri arasında ümumi bir mövzudur və bir növ universal dil yaradır. Bu universal cəhət atalar sözlərini oxşar vəziyyətlərə və ya hadisələrə uyğunlaşmasına xidmət edir, çünki bu, onların yaddaşda saxlanmasını asanlaşdırır. Atalar sözləri cəmiyyətin intellektual irsinin özəyini özündə cəmləşdirdiyi üçün onun hakim fikirlərinin deşifrə edilməsində əsas rol oynayır. Onlar kollektiv şüurun həm məhsulu, həm də əksi kimi xidmət edir, həm cəmiyyətə, həm də fərdlərə istiqamət verir, ortaq mənalar aləmini yaradır və bu ortaq səltənətdən fikirlər çıxarmaq bacarığını inkişaf etdirir.

Bu xüsusiyyəti nəzərə alaraq, fərdlər tez-tez ideya və ya müddəaları təsdiqləmək və ya mübahisə etmək üçün atalar sözlərindən istifadə edir, öz iddialarını dəstəkləmək üçün əcdadlarının müdrikliyinə istinad edirlər. Atalar sözləri cəmiyyətə xas olan inanc, düşüncə və dəyər sistemlərində kök saldığına görə hadisələrin və şəxsiyyətlərarası münasibətlərin formalaşmasında əsas rol oynamışdır. Cəmiyyətlərin əsrlər boyu davam edən inkişafı və transformasiyası kontekstində, istər dolayısı ilə, istərsə də aşkar şəkildə atalar sözləri müəyyən edilmiş və ümumiyyətlə tətbiq oluna bilən prinsiplərin məcmuəsi rolunu oynayır, fərdlərin daim dəyişən dünyaya uyğunlaşması zamanı onlara rəhbərlik edir, tələb olunan keyfiyyət və bacarıqları müəyyənləşdirir.

Ənənəvi nitq forması olan atalar sözləri təkcə tarixi mühakimələri əhatə etmir, həm də gələcəyə yönəlmiş fəaliyyət istiqamətləri təklif edir. Atalar sözləri qədim mədəniyyətlərin həyat tərzi, adət-ənənələri, inancları və ictimai münasibətləri haqqında dəyərli məlumatlar verir. Onlar cəmiyyətin kollektiv şüuruna fəlsəfi, sosioloji və psixoloji aspektləri əks etdirən bir pəncərə təqdim edir. Atalar sözləri insanların təcrübələrindən, iradələrindən və intuisiyalarından qaynaqlanan düşüncələrinin, toplanmış müdrikliyinin və ictimai təkamülünün əksidir.

Şifahi ənənələrə xas olan bu qısa müdrik sözlər nitqi yaddaqalan etmək üçün nəzərdə tutulmuşdur və müxtəlif mədəniyyətlər arasında universal şəkildə formalaşdırılmışdır. Bu linqvistik universallıq atalar sözlərinin yaddaşda asanlıqla saxlanmasını, oxşar problem və ya hadisələrə asanlıqla tətbiq olunmasını təmin edir. Onlar cəmiyyətin ümumi etikasını müəyyən etmək üçün vacibdir, çünki onlar cəmiyyətin əsas dəyərlərini özündə ehtiva edir

(Abdurahmanova, 2016, s.2).

Yaradıcılıq çox vaxt ənənəvi yanaşmalardan fərqli olaraq problemlərə yeni və innovativ həllər təqdim etməyi əhatə edən düşüncə tərzidir. Həm yaradıcı, həm də tənqidi düşünmə qabiliyyətinə malik fərdlərin yetişdirilməsi cəmiyyətin sağlam tərəqqisi üçün mühüm əhəmiyyət kəsb edir. Bəzi atalar sözləri gündəlik həyatda dərin kök salıb, fərdin həyat fəlsəfəsinin tərkib hissəsi kimi yaradıcı təfəkkür qabiliyyətlərinin yetişdirilməsinə birbaşa töhfə verir.

Geniş elementlərdən istifadə etməklə atalar sözü naxışlarının yaradılması yaradıcı təfəkkürün sübutu kimi Azərbaycan mədəniyyətinin zənginliyini nümunə göstərir. Azərbaycan atalar sözləri fərdləri yaradıcı düşünməyə və hərəkət etməyə təşviq etmək üçün məhdud birbaşa göstərişlər verir. Bunun əvəzinə onlar tez-tez yaradıcılığa təsir edən amilləri vurğulayırlar, məsələn, ixtiraçı problemlərin həllini asanlaşdırmaqda çətinliklərin və zəhmətin rolu, ideyanın yaradılmasının əhəmiyyəti, yeni və dəyərli konsepsiyaların yaradılmasında seçim və qətiyyət, öz istedadlarından istifadə və yaradıcılığın təşviqində işgüzarlığın inkişafını, yaradıcı potensialın nümayiş etdirilməsində uyğunlaşma qabiliyyətinin və dəqiq proqnozların əhəmiyyətini, yaradıcı realizmin tərbiyəsində məlumatlılığın, səyin və hazırlığın əhəmiyyətini nəzərə çarpdırır. Bundan əlavə, atalar sözləri eksperimentin və orijinallığa can atmağın yaradıcılıq prosesinə təsirini vurğulayırlar. Bu fikirlər türk cəmiyyətinin yaradıcılığa gəldikdə təşəbbüskar bir ruha sahib olduğunu deməyə əsas verir.

Atalar sözləri türk cəmiyyətinin düşüncə sisteminə və perspektivinə açılan pəncərə rolunu oynayır, keçmiş, indiki və gələcək potensial vəziyyətlər və çətinliklərlə üzləşərkən faydalı olduğu sübut edilmiş münasibət və davranışlara istiqamət verir. Kollektiv müdrikliyə söykənən bu atalar sözləri aktual olaraq qalır və müasir şəraitə uyğunlaşır, cəmiyyət dəyişikliyini və transformasiyanı əks etdirir. Atalar sözləri bugünkü dünyanın tələblərinə cavab vermək üçün davamlı olaraq yenilənən, etibarlı istinad kimi istifadə oluna bilən dinamik bir mənbədir.

(https://sssjournal.com/DergiTamDetay.aspx?ID=243, s. 1835).

XXI əsrin ehtiyac və dəyərləri ilə bağlı atalar sözlərimizdə uzaqgörənliyin olması cəmiyyətin fitri müdriklik qabiliyyətini vurğulayır. Türk cəmiyyətinin kollektiv şüuru, tənqidi düşünmə, problem həlletmə, ünsiyyət, əməkdaşlıq və yaradıcılıq kimi 21-ci əsr bacarıqlarını mənimsəməyə və həyata keçirməyə yaxşı hazırlanmış görünür. Bu bacarıqlar türk cəmiyyətinə tamamilə yad deyil və zamanla formalaşmışdır. Nəticə etibarı ilə, Azərbaycan təhsil sisteminin bu mədəni hazırlıq mənbəyindən götürülərək təkmilləşdirilməsi 21-ci əsrin çağırışlarına cavab verən uzaqgörən şəxsiyyətlərin yetişdirilməsi üçün zəruridir.

Atalar sözləri təkcə yazılı və şifahi ifadəni gücləndirmək üçün vaxtında istifadə edilməsində deyil, həm də gələcəyə hazırlaşarkən türk cəmiyyətinin təcrübələrini və düşüncə tərzini, mövcud dəyərləri təhlil etmək potensialına malikdir.

21-ci əsr bacarıqları anlayışını üç əsas qrupa bölmək olar: həyat və karyera bacarıqları, öyrənmə və innovasiya bacarıqları və informasiya, media və texnologiya bacarıqları. Öyrənmə və innovasiya bacarıqları tənqidi düşünmə, ünsiyyət, əməkdaşlıq və yaradıcılığı əhatə edir.

Tənqidi təfəkkür mürəkkəb problemləri təhlil etməyi, aydın cavabı olmayan sualları tədqiq etməyi, müxtəlif perspektivləri və məlumat mənbələrini qiymətləndirməyi və əsaslandırılmış nəticələrə gəlməyi əhatə edir. Ünsiyyət effektiv şifahi, yazılı və rəqəmsal ünsiyyət bacarıqlarını, həmçinin aktiv dinləməni əhatə edir. Əməkdaşlıq ortaq bilik yaratmaq, fikirlərini bölüşmək üçün başqaları ilə hörmətli və səmərəli şəkildə işləməyi, həmçinin problemlərin həlli yolu ilə innovasiyaları inkişaf etdirməyi əhatə edir. Nəhayət, yaradıcılıq yeni və praktik ideyalar yaratmaq qabiliyyətini təmsil edir (Kurudayıoğlu, 2021, s.18).

Azərbaycan atalar sözləri ünsiyyətin sosial və gündəlik həyata təsirini vurğulayan nümunələrlə zəngindir. Onlar dilin əhəmiyyətini, ünsiyyətdə effektiv başa düşməyi, iqtisadi dil seçimlərini, nəzərdə tutulan auditoriyaya çatmağı və dilin insan münasibətlərində və ünsiyyət münaqişələrinin həllində təsirli rolunu vurğulayırlar. Bu atalar sözləri lazımsız söhbətlərdən çəkinməyi tövsiyə edir, aktiv dinləmənin əhəmiyyətini vurğulayır, sözləri qənaətlə seçməyi müdafiə edir, dil təcrübəsinin və səriştəsinin vacibliyini etiraf edir. Onlar həmçinin ünsiyyətdə səbəb-nəticə dinamikasını, məqsədyönlülük və qarşılıqlı əlaqəni dərindən araşdıraraq, hərəkət və reaksiyalara, dəyərlərə riayət etmək, vədlərə əməl etmək zərurətini vurğulayırlar.

Azərbaycan atalar sözlərində biz müxtəlif kontekstlərdə səmərəli ünsiyyətin kifayət qədər nümunələrinə rast gəlirik, onların ehtiva etdiyi zəngin təcrübə biliklərini nümayiş etdiririk ki, bu da insanın sosial ünsiyyət bacarıqlarına əhəmiyyətli dərəcədə kömək edir. Atalar sözləri kollektiv şüurun daşıyıcısı kimi ünsiyyət sənəti ilə mahiyyət etibarilə keçmişdən bu günə və gələcəyə mesajlar verir. Onlar əsrlər boyu eyni dildə danışanlar arasında mədəni ötürülmə üçün zəmin yaradaraq kommunikativ mühiti inkişaf etdirirlər.

Azərbaycan atalar sözləri cəmiyyətin ünsiyyətə baxışına pəncərə açaraq, cəmiyyətin kommunikativ mahiyyətini anlamaq üçün bu xalq ifadələrinin araşdırılmasını zəruri edir. Atalar sözləri sükutda hikmət anlayışını önə çəkir, az danışmağın, çox dinləmənin dəyərini vurğulayır. Sözlərin insanlara təsiri, nitqin keyfiyyəti, az danışıb çox dinləmənin vacibliyi haqqında mesajlar verirlər. Azərbaycan atalar sözləri tez-tez danışıq, dinləmə, dostluq, zahiri görünüş və yazı ilə bağlı mövzular üzərində qurulur, xüsusilə danışıq və dinləmə üzərində dayanır. Atalar sözlərində dinləmə aktı ilə bağlı anlayış və hərəkətlərdən geniş istifadə olunur, onların əhəmiyyəti vurğulanır (Quliyev, 2018, s.9).

Əslində atalar sözləri cəmiyyətin kommunikativ davranışlarına pəncərə kimi xidmət edir və ortaq sosial və mədəni paradiqmanı əks etdirir. Azərbaycan atalar sözləri bugünkü dünyanın kommunikativ ehtiyaclarını ödəmək üçün effektiv dinləmə və düşünülmüş qarşılıqlı əlaqəyə üstünlük verərək, türk cəmiyyətinin şəxsiyyətlərarası ünsiyyətə baxışını uyğun şəkildə əks etdirir.

Bir çox başqa ölkələrdə olduğu kimi Azərbaycanda da 21-ci əsr bacarıqlarının təhsil siyasətinə uyğun olaraq kurikuluma daxil edilməsinə səy göstərilir. Bununla belə, bu bacarıqların mədəni kontekstdə effektiv şəkildə inteqrasiyası ilə bağlı məsələlər müasir dövr üçün öz aktuallığını qoruyub saxlayır. Türk mədəniyyətinin ayrılmaz hissəsi olan bu bacarıqların Azərbaycan mədəniyyətindəki əsas mədəni göstəricilərlə necə uzlaşdığını araşdırmaq, tarix boyu təsirlənən mədəni çərçivə daxilində müasir bacarıqlara əsaslanan

təhsil və təlimin həyata keçirilməsi üçün dəyərli fikirlər və qaynaqlar təmin edə bilər (Kurudayıoğlu, 2021, s.3).

Şifahi ənənələr cəmiyyətlərin formalaşmasında mühüm rol oynayır və dil elementləri vasitəsilə fərdi sosiallaşma prosesini əks etdirir. Bu ənənənin mühüm tərkib hissəsi olan atalar sözləri cəmiyyətin kollektiv təfəkkürünün və onun mədəni mühakiməsinin göstəricisi kimi çıxış edir. Atalar sözləri vasitəsilə fərdlər çox vaxt şifahi mədəniyyətdən zaman keçdikcə ötürülən sosial, psixoloji və folklor təcrübələri ilə formalaşan ictimai davranış normalarını dolayısı ilə və ya birbaşa öyrənirlər. Atalar sözləri keçmiş müdrikliyin anbarı kimi cəmiyyətin gələcək istəkləri və potensialı haqqında fikirlər təklif edir.

Texnoloji tərəqqi ilə səciyyələnən 21-ci əsr kontekstində cəmiyyətin öz öyrənmə və innovativ məqsədlərini qabaqcadan görmək və həyata keçirmək qabiliyyəti onun hazırkı mədəni potensialı ilə sıx bağlıdır. Bu potensialın müxtəlif aspektləri, xüsusən də 21-ci əsrin texnoloji mənzərəsinə uyğunlaşdırılmış aspektlər "həyat, karyera, öyrənmə, innovasiya, informasiya mediası və texnologiya" başlıqları altında təsnif edilir. Bunların arasında problem öyrənmə və innovasiya kateqoriyasına aid olan və fərdlərin sahib olması gözlənilən "tənqidi düşüncə, ünsiyyət, əməkdaşlıq və yaradıcılıq" kimi bacarıqların necə inkişaf etdirilməsidir (Kurudayıoğlu, 2021, s.12).

**Nəticə**

Atalar sözləri Azərbaycan mədəniyyətində dərin köklərə malikdir və nəsildən-nəslə ötürülür. Onlar Azərbaycan xalqının müdrikliyini, dəyərlərini və təcrübələrini əks etdirir, onu xalqın mədəni irsinin ayrılmaz hissəsinə çevirir. Müasir dövrdə Azərbaycan natiqlik sənətinin inkişafında atalar sözlərinin rolunu aşağıdakı maddələrlə ifadə etmək olar:

- Atalar sözləri əsrlər boyu Azərbaycan dilinə rəng və zənginlik qatır. Onlar müasir dövrdə gündəlik söhbətlərə, nitqlərə və yazılara toxuna bilən müxtəlif idiomatik ifadələr təqdim edir.
- Atalar sözləri qısa və tez-tez yaddaqalan olduğundan onları effektiv ünsiyyət üçün güclü vasitələr halına gətirir. Atalar sözləri danışana mürəkkəb fikirləri, əxlaqi dərsləri və mədəni anlayışları yığcam və inandırıcı şəkildə çatdırmaq imkanı verir.
- Atalar sözləri keçmişlə indi arasında körpü rolunu oynayır. Müasir nitqdə ənənəvi atalar sözlərinə istinad etməklə, fərdlər öz mədəni kökləri ilə əlaqə yaradır.
- Mübahisə, mühazirələr və çıxışlar da daxil olmaqla, ictimai nitqin müxtəlif formalarında arqumentləri dəstəkləmək, bəyanatlara ağırlıq vermək və auditoriyanı inandırmaq üçün atalar sözlərindən istifadə olunur. Onlar natiqə bir sıra səlahiyyətlər və etibar hissi verir.
- Atalar sözlərindən istifadə etməklə natiq Azərbaycan mədəni kimliyini gücləndirir. Bu, başqalarına xəbər verir ki, natiq Azərbaycan adət-ənənələrini və dəyərlərini yaxşı bilir, ortaq mədəni anlaşma hissini aşılayır.
- Sürətlə dəyişən dünyada atalar sözləri ənənənin qoruyucusu kimi xidmət edir. Onlar mədəni normaları, əxlaqi dəyərləri və ictimai fikirləri qoruyub saxlamağa və gələcək nəsillərə ötürməyə kömək edir.

## ƏDƏBİYYAT

1. Abdurahmanova G. (2016). Müasir gənclərin etnopedikoloji əsaslarla təhsili. Beynəlxalq Sosial Elmlər jurnalı. 1-6.
2. Ağayev A. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005
3. Əliyev İ. Ümumtəhsil məktəblərində tədris və təlimin keyfiyyətinin yüksəldilməsi üçün etnopedaqoji materiallardan istifadənin təsiri. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. 2002.
4. Quliyev H. İnternetdə Azərbaycan atalar sözlərinin dəyişmə prosesi: parodik şərh, beynəlxalq ənənənəli və yerli dəyərlər simpoziumu / mədəniyyət sənət fəaliyyətləri. 2018. s.28

**Türk dilində**

5. Kurudayıoğlu T. 21. Yüzyıl Becerileri Çerçevesinden Türk Atasözlerine Bir Bakış bilig GÜZ 2021. s.1-25

**Internet Resources**

6. http://www.anl.az/el/Kitab/2017/06/Azf-262787.pdf.
7. https://bilig.yesevi.edu.tr/yonetim/icerik/makaleler/5119-published.pdf
8. https://dergipark.org.tr/tr/download/article-file/2672981
9. https://sssjournal.com/DergiTamDetay.aspx?ID=243

## SUMMARY

**Gulsum Karimova**

### AZERBAIJAN SPEAKING IN THE MODERN PERIOD THE ROLE OF PROVERBS IN THE DEVELOPMENT OF ART

Proverbs played a big role in the development of art of words in modern Azerbaijan. These concise and culturally rich expressions have served as a valuable linguistic resource, helping individuals to communicate their thoughts, ideas and emotions effectively. Even in modern times, proverbs continue to be a prominent feature of Azerbaijani speech, enhancing speech by adding depth, context, and cultural relevance.

Azerbaijani proverbs are rich in examples that emphasize the influence of communication on social and daily life. Proverbs emphasize the importance of language, effective understanding in communication, reaching the intended audience, and the effective role of language in human relationships and resolving communication conflicts. These proverbs promote the avoidance of unnecessary conversation, emphasize the importance of active listening, and encourage the selective use of words. They also incorporate the value of linguistic experience and competence.

Azerbaijani proverbs present numerous examples of effective communication in various contexts, demonstrating the wealth of experiential knowledge that significantly

contributes to the social communication skills of an individual in modern times. These proverbs act as carriers of collective consciousness, acting as a means of conveying messages from the past to the present and the future. They create a favorable environment for communication, laying the foundation for cultural transmission between speakers of the same language for centuries.

In essence, proverbs serve as a window into the communicative behavior of a society and reflect a shared social and cultural paradigm. Azerbaijani proverbs aptly reflect Turkish society's view of interpersonal communication, which prioritizes effective listening and thoughtful interaction to meet the communicative needs of the modern world.

***Key words:*** *speech, proverbs, modern times, speaker, 21st century skills, communication*

**РЕЗЮМЕ**

**Гульсум Каримова**

**АЗЕРБАЙДЖАНСКАЯ ГОВОРЬ В СОВРЕМЕННЫЙ ПЕРИОД РОЛЬ ПОСЛОВИЙ В РАЗВИТИИ ИСКУССТВА**

Пословицы сыграли большую роль в развитии искусства слова в современном Азербайджане. Эти краткие и богатые в культурном отношении выражения послужили ценным лингвистическим ресурсом, помогая людям эффективно передавать свои мысли, идеи и эмоции. Даже в наше время пословицы продолжают оставаться важной особенностью азербайджанской речи, улучшая речь, добавляя глубину, контекст и культурную значимость.

Азербайджанские пословицы богаты примерами, подчеркивающими влияние общения на общественную и повседневную жизнь. Пословицы подчеркивают важность языка, эффективное понимание в общении, достижение целевой аудитории, а также эффективную роль языка в человеческих отношениях и разрешении коммуникативных конфликтов. Эти пословицы способствуют избеганию ненужных разговоров, подчеркивают важность активного слушания и поощряют избирательное использование слов. Они также включают в себя ценность лингвистического опыта и компетентности.

Азербайджанские пословицы представляют многочисленные примеры эффективного общения в различных контекстах, демонстрируя богатство экспериментальных знаний, которые вносят значительный вклад в навыки социального общения человека в современное время. Эти пословицы выступают носителями коллективного сознания, выступая средством передачи сообщений из прошлого в настоящее и будущее. Они создают благоприятную среду для общения, закладывая основу для культурной передачи между носителями одного языка на протяжении веков.

По сути, пословицы служат окном в коммуникативное поведение общества и отражают общую социальную и культурную парадигму. Азербайджанские пословицы удачно отражают взгляд турецкого общества на межличностное общение, которое отдает приоритет эффективному слушанию и вдумчивому взаимодействию для удовлетворения коммуникативных потребностей современного мира.

***Ключевые слова:*** *речь, пословицы, современность, оратор, навыки XXI века, общение*

**SƏBİNƏ NAĞIYEVA**
*sabina.nagiyeva@mail.ru*
*Bakı Slavyan Universiteti*

## İSMAYIL HACIBƏYOVUN YARADICILIĞINDA NEOKLASSİZM. "ÜÇ İDİLLİYA" FORTEPİANO ƏSƏRİNİN TƏHLİLİ

*XX əsrin əvvəllərindən etibarən barokko dövrünün musiqisinə olan maraqdan irəli gələrək, neoklassisizm cərəyanı inkişaf etməyə başlayır. Bu cərəyana xas olan xüsusiyyətlərə intibah dövrünün janrlarından olan fuqa, qədim rəqslər, süita, polifonik əsərlərə müraciət, həmçinin opera, oratoriya, concerto-grosso, sonata və kantataların inkişafı ilə də əlaqəlidir. İsmayıl Hacıbəyovun (1949-2006) yaradıcılığında bu üslub özünü onun fortepiano əsərlərindən biri olan "Üç idilliya" (1990) əsərində daha qabarıq göstərmişdir. "İdilliya"-yunan sözü olub sülh, xoşbəxtlik, rahatlıq sözləri ilə də assosiasiya olunur. Birinci idilliya qadın və kişinin dialoqunu xatırladır. Bu, iki personajın münaqişəsiz, hüzurlu həyatının, incə hisslərinin təsviridir. Pyes isə qədim "sarabanda" rəqsini xatırladır. İkinci idilliyada forşlaq və mordentlərdən istifadə olunması bizə milli melizmləri, "Bayatı-Şiraz"ın intonasiyalarını xatırladır. Üçüncü idilliyanın "danışan" pauzaları bu əsərin müvəffəqiyyət qazanmasına səbəb olmuşdur.*

***Açar sözlər:*** *bəstəkar, neoklassisizm, barokko, janr, idilliya, sarabanda, cərəyan, temp, pyes əsərləri*

XX əsrin əvvəllərindən etibarən incəsənətin bütün sahələrində olduğu kimi, musiqi sahəsində də neoklassisizm cərəyanı inkişaf etməyə başlayırdı. Neoklassisizm (tərcümədə-"yeni klassika") XX əsrin 20-30-cu illərinin musiqisində yaranmış bir istiqamətdir. XX əsrin əvvəllərində meydana çıxan yeni bir bədii istiqamət olan neoklassisizm "köhnə" və "yeni" musiqi prinsiplərinin sıradan çıxdığı, "ənənəvi" və "yenilikçi" prinsiplərinin isə qovuşduğu ən əlverişli və məqbul sahə idi.

Bu cərəyanın inkişafı qədim musiqiyə, əsasən, barokko və erkən klassisizm musiqisinə marağın artması ilə bilavasitə əlaqəlidir. Eyni zamanda bəstəkarların öz fikirlərini daha sadə və qənaətli vasitələrlə ifadə etmək istəyi də buna gətirib çıxarır [Seyidov. 2016. s.132]. O, musiqi təfəkkürünün prinsiplərinə, eləcə də erkən klassisizm və son intibah dövrünə xas olan janrlara - süitalara, polifonik silsilələrə, koncerto grossolara və s. müraciətlə səciyyələnir. Neoklassik bəstəkarların milli rəqslə fuqanı, hərbi marş və passakaliyanı birləşdirərək, qədim janr və üslublardan sərbəst istifadə etmələri XVI əsrin sonu XVIII əsrin ortalarına kimi Avropa incəsənətində üstünlük təşkil edən barokko üslubunu da xatırladırdı.

Barokko (italyan dilindən tərcümədə -"qəribə", "ifratçılığa meyilli") XVI əsrin sonu XVIII əsrin ortalarına kimi Avropa incəsənətində üstünlük təşkil edən bədii üslubdur. Barokko üslublu əsərlərdə forma hüdudsuzluğu, üslub ifratçılığı, xarakterlərin çılğınlığı, süjet şaxəliliyi xarakterikdir. Barokko üslubu 150 illik əhəmiyyətli bir dövrü əhatə etmiş və dünya tarixinə müxtəlif üslub və janrlara məxsus minlərlə əsər bəxş etmişdir. Burada insanlarda heyranlıq hissləri oyatmaq üçün mürəkkəb ornamentlərdən, dolğun rənglərdən,

təzadlardan, eləcə də təntənə və dəbdəbə elementlərindən istifadə edilmişdir. Barokko-polifonik və homofon-harmonik yazı prinsiplərinin qarşılıqlı təsiri və əlaqəsidir. Bu, həmçinin opera, dini oratoriya və kantatanın, fuqanın, concerto - grosso, süita, ansambl və solo-sonataların yaranması və inkişafıdır. İncəsənət sahəsində barokko üslubunun görkəmli nümayəndələrindən K.Monteverdi, J.B.Moli, H.Persell, A.Vivaldi, F.Hendel, İ.S.Bax və digərlərinin adlarını çəkə bilərik.

Barokko üslubunun cəlb etdiyi bəstəkarlardan biri də İsmayıl Hacıbəyov idi. Onun adı XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində Azərbaycanın istedadlı bəstəkarlarının adları ilə bir sırada dayanır. Bəstəkarın yaradıcılığı bütün həyatı boyunca öz parlaqlığı və peşəkarlığı ilə seçilirdi.

İsmayıl Hacıbəyov (1949-2006) Sovet və Azərbaycan bəstəkarı, dahi Üzeyir Hacıbəylinin əsasını qoyduğu görkəmli Hacıbəyovlar nəslinin sonuncu bəstəkar nümayəndəsi idi. O da, atası- bəstəkar Soltan Hacıbəyov kimi, yaradıcılığının çiçəkləndiyi bir dövrdə dünyasını dəyişmiş, bir çox arzularını yarımçıq qoyaraq yaradıcılıq illərinin əvvəllərində həyatdan köçmüşdür. Zəngin istedad, yüksək peşəkarlıq, parlaq fərdi xüsusiyyətlər, dərin erudisiya və mədəniyyət-bütün bunlar bu əsl ziyalını parlaq şəkildə səciyyələndirirdi. O, çoxşaxəli istedadlı insan idi. Həm Ü.Hacıbəylinin, Q.Qarayevin, D.Şostakoviçin, İ.Stravinskinin ecazkar portretlərini yaradan maraqlı rəngkar-rəssam, həm də söz sənətinə mahir yiyələnmiş istedadlı yazıçı idi [İsgəndərova. 2017. 129-130].

İsmayıl Hacıbəyov 1967-1972-ci illərdə Qara Qarayevin sinfində təhsil almışdır. Təbiidir ki, yenilik onun fəaliyyətinin əsas qayəsinə çevrilmişdir, novatorluq isə onun yaradıcılığının əsasını təşkil edirdi. Bəstəkarın yaradıcılıq kredosu müəllimi Q.Qarayevin sözü ilə desək "İrəli, ancaq irəli" olub. Bu sözlər İ.Hacıbəyova yaradıcılıq yolunun lap əvvəllərindən yeni ideyaların kəşfi, onların musiqidə təcəssümü formalarının axtarışında və həyata keçirilməsində böyük təkan oldu.

Neoklassisizm üslubunda yazılmış fortepiano əsərlərindən biri də İsmayıl Hacıbəyovun əsərlərinin əsas ifaçısı, həyat yoldaşı olan Azərbaycan Respublikasının Xalq artisti, Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru, pianoçu və pedaqoq Ülviyyə Hacıbəyovaya (Vəliyeva) həsr olunmuş "Üç idilliya" (1990) əsəridir.

"İdilliya"- yunan dilindən tərcümədə "kənd həyatı mövzusunda təsvir, şəkil" deməkdir. "İdilliya" sözünə assosiasiya olaraq - həmahənglik, sülh, xoşbəxtlik kimi ifadələri sadalamaq mümkündür.

Birinci idilliyanın proqram adı-sarabandadır[1], re minorda, 3/4 ölçüdə yazılmış və 56 xanədən ibarətdir. XVII əsrin ortalarından etibarən sarabanda, jiqanın (allemande, chimes, gigue) əvvəlində yer almış instrumental rəqs süitasının bir hissəsi oldu. XX əsrdən başlayaraq, yaradıcılığında neoklassik meyillər nəzərə çarpan bir sıra bəstəkarların instrumental əsərlərində "sarabandlara" rast gəlmək olar. İsmayıl Hacıbəyovun sarabandası iki nəfərin - kişi və qadının duetidir.

Pyes üçhissəli formada yazılmışdır: ekspozisiya, orta hissə və repriza. Bu bölmənin zərif musiqisi onu qadın səsi (piano, dolce) ilə müqayisə etməyə əsas verə bilər. Burada

[1] Sarabanda-ispan rəqsidir, o, kişi və qadından ibarət olan cütlük üçün nəzərdə tutulub. Bu janrın ən mühüm xüsusiyyətləri - yavaş temp, yürüş xarakteri, aram addımlar, üçhissəli ölçü və xanənin ikinci təqdilinə olan xarakterik vurğudur.

səslənən melodiya qadın səsinə cavab kimi qəbul edilə bilər. Üçhissəli formanın birinci hissəsi iki dövrdən ibarətdir. Bu iki personajın ekspozisiyası, sevən cütlüyün dialoqu-kişi və qadının bir-birlərinə olan sevgi hissləri haqqındadır. İkinci hissədə, yeni polifonik üslub başlanır. 33-40-cı xanəyə qədər stretto - hər iki səs birlikdə səslənir. Kişi səsi həm forma, həm də mövzu cəhətdən dəyişməz olaraq səslənir. Qadın səsinin diapazonu isə genişlənərək, ikinci oktavanın lya səsini, sonra üçüncü oktavanın re səsini əhatə edir. Bütün bunlar personajların gözəl, incə hisslərinin kulminasiyası kimi qəbul edilir.

Pyesin üçüncü hissəsi - reprizadır. Bu bölmədə yalnız qadın mövzusu səslənir. Eyni 16 xanə səslənir, lakin burada melodiyanı müşayiət edən səslər aşağı registrə (kiçik və böyük oktavalara) keçərək, sanki kişinin söhbətə başladığını, onun danışığını xatırladır. Qadın mövzusunun ikinci cümləsi sol əl partiyasında (49-50 xx.) aşağı registrə keçir. Amma pyesin sonunda son sözü qadın (53-56 xx.) deyir - bu isə mövzunun birinci oktavada səslənməsi ilə təsdiqlənir. Beləliklə, köhnə rəqs janrı olan sarabandada qarşımızda öz hüzurlu, münaqişəsiz, hisslərinin tam harmoniyasını yaşayan cütlük canlanır.

İkinci idilliyanın musiqi materialı xoş keçən, lakin dönməz keçmişin xatirələri ilə dolu olan əhvali-ruhiyyə yaradır. Bu obrazlı-emosional məzmun pyesin sərbəst formasını müəyyən edir. Bu hissə mülayim tempdə (Moderato), lya minorda (a-moll), 6/8 ölçüsündədir, 57 xanə həcmindədir.

Birinci hissənin kiçik diapazonlu əsas melodiyası (lya-re) xalis kvarta həcmindədir və orqan elementinin müşayiəti ilə iki dəfə təkrarlanır (6-23-cü xx.).

*Şəkil 1.*




Pyesin tematik inkişafında diqqət çəkən maraqlı məqam kimi, 12 xanə müddətində orqan elementinin səslənməsidir. Melodiyada si səsi 12 xanə ərzində sanki donur. Mövzunun ikinci motivinin gecikmə ilə görünməsi (20-23-cü xx.) düşüncədə, fikirlərdə fasilə, sükut-pauza kimi qəbul edilir. Pyesin ikinci hissəsindən-orta hissədən etibarən, baş qəhrəmanın düşüncələri davam edir. Müəllif pyesin bu hissəsində əsərə lya majorda (A-dur) yeni epizod daxil edərək, melodiyanın diapazonunu genişlədir. Melodiyanı müşayiət edən orqan punktları dəyişir: tonika və dominanta: mi, lya (22-29 xx.). 37-ci xanədən etibarən lya majorda S-T funksiyalı melodik dönmə təkrarlanır (23-27xx-dən). Bu, artıq yeni bir rəngdir-qəhrəmanın yeni emosiyasıdır, lya major burada yeddi xanə (38- 44 xx.) ərzində saxlanılır.



*Şəkil* **2.**

44-cü xanədən isə həm lya minor və onun əsas motivi, həm də dominant orqan punkt yenidən qayıdır. Səssizliyin "səslənməsi" 12 xanə ərzində davam edir və o, lya minorun ikinci pilləsi olan si səsində sona çatır. Harmonik minorlu ikinci idilliyada "Bayatı-Şiraz"ın tanış intonasiyaları eşidilir, forşlaq və mordentlər isə bizə milli melizmləri xatırladır. Bu, İsmayıl Hacıbəyovun doğma musiqisi ilə yeni, müasir, neoklassik cərəyanların tandeminin nümunəsidir.

Üçüncü idilliya Andante tempində, fa majorda, 2/2, 4/4 ölçüsündə, 43 xanə həcmində yazılmışdır. Bütün pyesi şərti olaraq 2 hissəyə bölə bilərik: 1-24-cü və 25-43-cü xanələr. Əsas mövzunun birinci keçidini 1-8-ci xanələrdə "şəffaf" tersiyalar müşayiət edir, ikinci keçiddə isə onu alterasiya olunmuş çoxsəsli akkordlar əvəz edir. 21-24-cü xanələrdən əsas mövzunun ikinci cümləsi bir qədər dəyişdirilmiş formada səslənir: belə ki, mordent sol səsində uzun trellə əvəz olunur.

25-27-ci xanələrdə mövzunun üç xanəsi sonuncu dəfə səslənir və dörd pianoda, "simile" (əvvəlki xanəyə bənzər) ilə fa səsində melodiya donur. Bu fa səsi pyesin sonuna kimi 16 xanə ərzində səslənir. Burada qeyd etmək istəyərdik ki, 17-ci xanədən etibarən musiqi materialı impressionist üslubda səslənir. Daha dəqiq desək, tonik orqan punktu fonunda, şəffaf tersiya və sekstalardan ibarət olan melodiyanın təkrarlanaraq bir xanə gecikmə ilə səslənməsi əks-səda effekti kimi qəbul olunur.

İsmayıl Hacıbəyovun fortepiano əsərləri arasında "Üç idilliya" xüsusi yer tutur, onun mükəmməlliyi dramatik inkişafının fərqli olmasındadır. Burada təzadlı və sürətli hissələr, böyük inkişaf olmasa da, melodiya irəliyə doğru hərəkət edir. "Üç idilliya"nın ifası böyük məharət tələb edir. İfaçı "tüşe" (klavişlərə yumşaq toxunma) ustalığına malik olmalı, "danışan pauzalar"ı dinləyiciyə çatdırmağı bacarmalıdır. Əsər eyni zamanda həm lirik, həm də sanki sehirli qüvvəyə, mistik gücə malikdir. "Şəffaf" fakturasının olmasına baxmayaraq, onun ifası çox böyük məsuliyyət tələb edir. Bu bəstənin ilk və ən yaxşı ifaçısı pianoçu Ülviyyə Hacıbəyovadır.

İsmayıl Hacıbəyovun bu əsəri haqqında Ülviyyə Hacıbəyovanın fikirləri maraqlıdır: "Birinci idilliya dramaturji cəhətdən uğurlu bir proloq rolunu oynayır, ikinci idilliya isə ariozodur. Üç idilliya başdan-başa bir ariyadır. Hər şey melodikdir, hər şey ifa edilir, bircə dənə də olsa oxunmayan not qalmır". Sənətşünaslıq elmləri doktoru, musiqişünas Natella İsgəndərova isə belə yazır: "Üç idilliya, üç tapıntıdır". Müəllif onlarda melodiyanın inkişafını ustalıqla göstərir.

İ.Hacıbəyovun fortepiano əsərləri arasında xüsusi dramaturji inkişafa malik olan "Üç idilliya" əsəri özünün lirik xarakteri ilə də fərqlənir. Sadə quruluşlu melodiyanın inkişafı burada ustalıqla təsvir olunmuşdur. Melodiya eyniadlı major-minor tonallıqları üzərində

qurulmuş, burada imitasiya, tersiya intervalları, plaqal dönmələrdən istifadə olunmuşdur. Sarabanda rəqsinə xas olan ritmlər isə bizə bu pyesi üslublaşdırılmış ispan rəqsi kimi xarakterizə etmək imkanını verir.

"Üç idilliya"nın sakit, zərif səslənməsində pianoların üstünlük təşkil etdiyi melodiyalarını üç etiraf kimi də dəyərləndirmək olar. İsmayıl Hacıbəyov bu əsərin yazılmasında üç hissədən ibarət instrumental süita formasını əsas götürsə də, buraya özünün qeyri-adi tapıntıları olan - danışan pauzaları əlavə etməsi əsərin böyük müvəffəqiyyət qazanmağına səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: "Yazıçı". 1985
2. Seyidov T. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı: "Təhsil". 2016
3. Искендерова Н.Н. Исмаил Гаджибеков. Творческий портрет. Баку: 2017
4. Цуккерман В.А. Музыкальные жанры и основы музыкальной формы. М., Музыка,1964
5. Иманова У.И. Классицизм XX века и музыка К. Караева Автореферат. Ташкент. 1990


## SUMMARY

**Sabina Naghiyeva**

## NEOCLASSICISM IN THE CREATION OF ISMAYIL HAJIBAYOV. ANALYSIS OF "THREE IDYLYS" PIANO WORK

Due to the interest in the music of the Baroque period in the early 20th century, the direction of neoclassicism began to develop in the field of music. A characteristic feature of neoclassicism is the development of opera, oratorio, concerto grosso, sonata and cantata, üith an appeal to fugue, old dances, suites, polyphonic works from the genres of the Renaissance period. In the work of Ismail Gadzhibekov, this style manifested itself in his piano work "Three idylls". The word "idyll" means peace, happiness, comfort. The first idyll resembles a dialogue between a man and a woman. This is a description of a conflict-free, peaceful life and tender feelings of two characters. The play reminds us of the ancient sarabande dance. The use of grace notes and mordents in the second idyll is reminiscent of folk melismas, the intonations of "Bayati- Shiraz". The " speaking" pauses of the third idyll made this üork a success.

***Key words:*** *composer, neoclassicism, baroque, genre, idyll, sarabande, direction, tempo, piece, works*

**РЕЗЮМЕ**

**Сабина Нагиева**

**НЕОКЛАССИЗМ В ТВОРЧЕСТВЕ ИСМАИЛА ГАДЖИБЕВА. АНАЛИЗ ФОРТЕПИАННОГО ПРОИЗВЕДЕНИЯ “ТРИ ИДИЛИИ”**

Из-за интереса к музыке периода барокко сначала XX века в области музыки стало развиваться направление неоклассицизма. Характерной чертой неоклассицизма является развитие оперы, оратории, концерто-гроссо, сонаты и кантаты, с обращением к фуге, старинным танцам, сюите, полифоническим произведениям из жанров периода Ренессанса. В творчестве Исмаила Гаджибекова этот стиль проявился в его фортепианном произведении “Три идиллии”. Слово “идиллия” означает-мир, счастье, уют. Первая идиллия напоминает диалог мужчины и женщины. Это описание бесконфликтной, мирной жизни и нежных чувств двух персонажей. Пьеса напоминает нам древний танец-сарабанду. Использование форшлага и мордентов во второй идиллии напоминает о народных мелизмах, интонациях “Баяты-Шираз”. “Говорящие” паузы третьей идиллии сделали это произведение успешным.

***Ключевые слова:*** *композитор, неоклассицизм, барокко, жанр, идиллия, сарабанда, направление, темп, пьеса, произведения*

**XURAMAN MİRZƏYEVA**
*xuramanmirzayeva50@gmail.com*
*Azərbaycan Dillər Universiteti*

# NƏSİRƏDDİN TUSİNİN DÖVLƏTÇİLİK PRİNSİPLƏRİNİN ULU ÖNDƏR HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ TƏCƏSSÜMÜ

*Azərbaycan xalqının tarixinə nəzər salsaq, ərazidə ilk dövlət qurumlarının yaranması və təşəkkülü prosesinin hələ V minilliyə gedib çıxdığını görürük. Zaman keçdikcə tarixi Azərbaycan torpaqlarında yaranan dövlətçilik ənənələri inkişaf edərək daha da yüksəldi, yeni-yeni dövlətlərin yaranmasına səbəb oldu. Bu dövlətlər vahid xalqın-Azərbaycan xalqının təşəkkülü prosesində həlledici rol oynadılar.*

*Azərbaycan dövlətçilik ənənələrinin inkişafında Nəsirəddin Tusinin elmi-siyasi baxışları diqqətəlayiqdir və bu gün də öz aktuallığını qoruyub saxlayır. Dahi mütəfəkkirə görə, dövlətin və ölkənin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır. Bütün dövrlərdə müdrik bir rəhbərə ehtiyac vardır. Tədbir olmasa, nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz. Məhz Azərbaycan xalqı üçün 90-cı illər dönəminin nə qədər ağır olduğunu nəzərə alsaq, belə bir fikir ortaya çıxır ki, Ümummilli liderimizin hakimiyyətə qayıdışı, Azərbaycanı azad, demokratik dövlətlər sırasına gətirməsi, ölkədə siyasi sabitliyin yaranması, yaşam rifahının yaxşılaşması "Əxlaqi-Nasiri" əsərindəki fikirlərin təcəssümüdür. Ulu öndər Heydər Əliyev Nəsirəddin Tusi daxil olmaqla böyük filosofların dövlətin idarə olunması haqqında müddəalarını rəhbər tutmuş, hal-hazırda onun davamçısı Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilir.*

***Açar sözlər:*** *dövlətçilik, siyasət, inkişaf, xalq, müstəqillik*

## Giriş

Dövlətçilik -Azərbaycan Respublikasının mədəniyyətini, incəsənətini təbliğ edən müəyyən edilmiş qaydada, xalqımızın rifahı naminə fəaliyyətimizin əsas qoruyucusu, ümummilli iqtisadi və mənəvi aspektdən çıxış edir. Milli ruhda, milli anlamının etnik-millidən fərqli olaraq, milli ruhun qorunması, inkişaf etdirməyin və yeni nəsillərə, gələcək nəsillərə ötürülməsi üçün bütün vətəndaşların bir məqsəd ətrafında birləşməsi gərəkdir.

Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir, xalqımızın siyasi varlığında dövlətçilik mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqı təqribən 5 minillik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq, Urmiya hövzəsində yaranıb. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanda Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə, Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardır. IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı: islam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri yarandı. Müstəqil dövlətlərin yaranması nəticəsində siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi. Azərbaycan tarixinin intibah

dövrü başlanırdı.

Ərəb xilafətinin tənəzzülündən sonra - IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə, bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakülar, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın deyil, həmçinin, bütövlükdə Cənubi Qafqazın ərazisində təşəkkül tapdılar.

Tədqiqatlarda haqlı qeyd edilir ki, tarixin müxtəlif dövrlərində mövcud olmuş müxtəlif dövlət, "dövlət quruluşlarının real təcrübəsi ictimai-siyasi fikrin gələcək inkişafına böyük təkan vermişdi" (Tağıyev. 4. s.288).

Hülakülar sülaləsi dövründə İranda və Azərbaycanda Abbasilərin 500 illik xilafətinə son qoyulması, Azərbaycanın bu dövlətin siyasi-inzibati mərkəzinə çevrilməsi mühüm tarixi hadisə idi. Qazan xanın hakimiyyəti dövründə (1295-1304) yerli feodallarla əlaqənin möhkəmləndirilib bütün iğtişaşlara son qoyulması ilə ölkədə siyasi sabitliyin yaradılıb bir çox islahatların həyata keçirilməsi olduqca önəmli idi (Seyidov. 3. s.140).

Elxanilər dövlətinin yaranması Azərbaycanda mərkəzi hakimiyyətin güclənməsinə, yeni idarəçilik sisteminin yaranmasına, təsərrüfatının canlanmasına, habelə elm və mədəniyyətin çiçəklənməsinə səbəb oldu. Elxanilər dövrü Azərbaycanı dünya elm və mədəniyyəti tarixinə Marağa rəsədxanasının yaradıcısı Nəsirəddin Tusi, məşhur riyaziyyatçı Übeyd Təbrizi, görkəmli filosoflar Siracəddin Urməvi, Mahmud Şəbüstəri, məşhur tibb alimi Mahmud ibn İlyas və s. kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir (Rafael Əhmədli. 2. s.358).

Azərbaycan dövlətçilik ənənələrinin inkişafında Nəsirəddin Tusinin elmi-siyasi baxışları diqqətəlayiqdir və bu gün də öz aktuallığını qoruyub saxlayır. Xacə Nəsirəddin Tusi (1201-1274) XIII əsr Azərbaycan elmində, ictimai-siyasi həyatında müstəsna rolu olan böyük mütəfəkkir şəxsiyyətlərdəndir. Onun məşhur "Əxlaqi-Nasiri" əsərində toplanmış dəyərli əxlaqi nəzəriyyəsi ilə yanaşı, siyasət, hüquq və dövlət haqqındakı fikir və mülahizələri diqqətəlayiqdir. Böyük mütəfəkkirə görə, şahlıq ona görə qorxuludur ki, burada zalım adamlar təriflənər, özbaşınalıq isə ona görə qorxuludur ki, burada alçaq və şər adamlar əzizlənərlər. "Ölkə idarə etməyə məsul olan adam bir şeyi qəti bilməlidir ki, dövlətlərin bünövrəsi qarşılıqlı kömək və əmək əsasında birləşən, beləliklə, bir bədənin üzvləri yerində olan insanların ümumi ittifaqı əsasında yaradılmışdır. Bu ittifaq ədalətli olsa, dövlət haqq, olmazsa, dövlət nahaq yaradılmışdır" (Tusi X.N. 5. 227).

Böyük filosofun qənaətinə görə, "dövlətin inkişafında əsas rüknlərdən birini təşkil edən dörd təbəqənin - ziyalıların, hərbçilərin, müamilə əhlinin, yəni tacir, sənətkar, bac-xərac toplayanların və ziraət əhlinin, yəni kəndlilərin, əkinçilərin, maldarlıq və heyvandarlıqla məşğul olanların ittifaqı labüddür" (Tusi X.N. 5.228-229) Mütəfəkkirə görə bu dörd təbəqə "birgə, əlbir, ahəngdar fəaliyyət göstərdikdə isə mədəniyyət, fəzilət və səadət sistemi əmələ gələr" (Tusi X.N. 5.229). Filosofa görə, dövlətin əsas vəzifəsi xeyirli işlərlə məşğul olmaq, şər işlərin qarşısını almaqdır. "Əksər dövlətlər, xeyirxah və iradəli başçıları, ədalətli hökmdarları olduqca, müttəfiqlik şərtləri yerinə yetirildikcə yaşamış və inkişaf etmişdir" (Tusi X.N. 5.227). Böyük mütəfəkkir hökmdar və əyanların "var-dövlət düşkünlüyü"nü cəmiyyət üçün böyük bəla sayır, çünki "mal-dövlət onların gözlərini tutar, təkəbbür, mənsəb, lovğalıq, qürrə və qüvvə onları qudurdar, ixtilaf, münaqişə və müharibələr meydana çıxar, bir-birlərini məhv edərlər" (Tusi X.N. 5.227-228). Çünki

"ümumi gəlirin mühafizə edilməsi, dövlətin, kəramətin və buna bənzər şeylərin salamat qalmasına səbəb olar". Unutmaq olmaz ki: "Ümumi gəlirdə hər adamın müəyyən bir payı var. Bundan artıq və ya əskik vermək zülmə aparıb çıxardar. Həmçinin bir şey də var ki, az verdikdə şəxsə zülm olar, çox verdikdə isə xalqa. Əksinə də demək olar, yəni xalqa az qaldığı üçün ona zülm edilər" (Tusi X.N. 5.231). Dahi mütəfəkkirə görə, dövlətin və ölkənin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır. Nəsirəddin Tusi elə bir cəmiyyət arzu etmişdi ki, orada insanlar azad yaşasınlar. "Azadlıq şəhəri azad xalqa məxsus olduğuna görə hamı belə şəhərdə yaşamağı sevər, hər kəs burada istədiyi kimi dolanıb öz məqsədinə çatar. Tədbir olmasa, nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz (Məlikova. 1.72-73).

Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərini nəzərdən keçirdikdə Nəsirəddin Tusinin dövlətçilik ənənələrinin müasir dövrdə də aktual olduğunu görürük. Filosofun dövlətin idarə edilməsi prosesində ədalət prinsipini əsas meyar hesab etməsini biz hal-hazırda Azərbaycan Respublikasının rəhbərinin ən ümdə vəzifələrindən biri kimi müşahidə edirik.

1995-ci il 12 noyabr tarixində Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etdi. Konstitusiya xalqın mənafeyini özündə əks etdirən dövlətin ali qanunudur. Azərbaycan Respublikası bu gün dünya siyasətində uğurlu siyasi addımlar atır. Ulu öndər Heydər Əliyevin o dövrdə həyata keçirdiyi uzaqgörən siyasəti bu gün ölkəmizin inkişafına imkanlar açmış və bu siyasətin davamçısı İlham Əliyev dövlətçilik naminə bir sıra islahatlar həyata keçirməkdədir. Xarici və daxili siyasətdə nailiyyətlər qazanan ölkə başçımız böyük səylə zəbt olunmuş torpaqlarımızı erməni təcavüzündən xilas etdi. 44 günlük Vətən müharibəsi bariz nümunədir. Ulu öndər Heydər Əliyevin başladığı yolu davam etdirən Prezidentimiz bütün imkanlardan istifadə edərək yorulmadan çalışır və bu istiqamətdə uğurlu addımlar atır.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz ulu öndər Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olub. Azərbaycan cəmiyyətinin daxili və mürəkkəb mikrostrukturunun təbəqələri heç də müstəqil dövləti milli sərvət kimi qəbul etmirdilər. Bu düşüncəni dəyişmək lazım idi. Heydər Əliyev bunu təmin etməyi bacardı. Bu gün cənab Prezident İlham Əliyev ulu öndər siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir.

Məhz Ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb (Vahid Ömərov. 6).

Müzəffər Ali Baş Komandanın başçılığı altında ordumuz yağı düşməni 44 gündə diz çökdürdü. Ulu öndərin vəsiyyəti, ata nəsihəti uğurla reallaşdı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan" kitabında Azərbaycanda gedən proseslərin geniş siyasi-sosioloji və elmi-fəlsəfi şərhini verir. Akademik Ramiz Mehdiyev bu kitabında da Azərbaycanda dövlətçilik ənənələrinin qorunmasının əsaslarını ətraflı şərh edir və müasir müstəqil Azərbaycanın möhkəm təməlini qoyan Ümummilli lider Heydər Əliyev kursunun bu sahədəki rolunu xüsusi vurğulayır.

Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin hazırlanıb. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

**Nəticə**

Böyük mütəfəkkir Nəsirəddin Tusiyə görə, dövləti idarə etmək sənəti olan siyasətin başlıca məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə onu səadətə çatdırmaqdan ibarət olmalıdır. Bu müddəanı tam şəkildə öz siyasətində rəhbər tutan Ümummilli liderimiz müstəqilliyimizin qarantı olan Heydər Əliyevin və Ali Baş Komandan Prezident İlham Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafında tarixi xidmətləri unudulmaz və danılmazdır.

## ƏDƏBİYYAT

1. Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər) Bakı: "Maarif". 1984. s.314
2. Əhmədli R.A. Azərbaycan dövlətçilik fəlsəfəsi. Bakı: "Nurlan". 2008. s.358
3. Seyidov M.N. Elxanilər dövləti və hüquqi məsələlərə aid ilk qaynaqlar. Bakı: ABU nəşriyyatı. 2000. s.140
4. Tağıyev Ə.M., İsayev N.M. və b. Orta əsrlərin fəlsəfi və sosial-siyasi fikri. Bakı: "Çaşıoğlu". 1999. 288 s.
5. Tusi X.N. "Əxlaqi-Nasir". Bakı: "Öndər". 2004. s.280
6. https://sesqazeti.az/news/mia/625319.html Vahid Ömərov f.f.d
7. https://kayzen.az/blog/law/24709/d%C3%B6vl%C9%99t%C3%A7ilik %C9%99n%C9%99n%C9%99l%C9%99rimiz.html.

## SUMMARY

**Khuraman Mirzayeva**

**NASIREDDIN TUSI'S STATEHOOD PRINSIPLES EMBODIED IN GREAT LEADER- HEYDAR ALIYEV'S POLITICS**

If we look at the history of the Azerbaijani people, we will see that the process of creating and establishing the first state structures in the territory began back in the fifth millennium. Over time, the traditions of statehood established in the historical Azerbaijani lands developed and became higher and higher, leading to the formation of more and more new states. These States have played a decisive role in the process of forming a united people - the Azerbaijani people.

The scientific and political views of Nasireddin Tusi are remarkable in the development of the traditions of Azerbaijani statehood, which remain relevant today. According to the brilliant thinker, the firmness of the state and the country depends on the shah, the firmness of the shah depends on politics, and the firmness of politics depends on wisdom.A wise leader is needed at all times.Without measures, discipline will disappear, human society will not develop as it should.Considering how difficult the period of the 90s was for the Azerbaijani people, the idea arises that the return of our national leader to power, bringing Azerbaijan into the ranks of free, democratic states, and gaining political stability in the country, improving the well-being of life is the embodiment of ideas in the work “morali Nasiri”. Great leader Heydar Aliyev was guided by the provisions on public administration of great philosophers, including Nasireddin Tusi, and currently his successor is Supreme Commander-in-Chief Ilham Aliyev.

***Key words:*** *statehood, politics, development, people, independence*

## РЕЗЮМЕ

**Хураман Мирзаева**

## ГОСУДАРСТВЕННЫЕ ПРИНЦИПЫ НАСИРЕДДИНА ТУСИ ВОПЛОЩЕННЫЙ В ПОЛИТИКЕ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Если мы посмотрим на историю азербайджанского народа, то увидим, что процесс создания и становления первых государственных структур на территории начался еще в V тысячелетии. С течением времени сложившиеся на исторических азербайджанских землях традиции государственности развивались и становились все выше и выше, приводя к образованию все новых и новых государств. Эти государства сыграли решающую роль в процессе формирования единого народа-азербайджанского народа.

В развитии традиций азербайджанской государственности замечательны научно-политические взгляды насиреддина Туси, которые и сегодня сохраняют свою актуальность. По мнению гениального мыслителя, твердость государства и страны зависит от шаха, твердость шаха зависит от политики, а твердость политики зависит от мудрости. Во все времена нужен мудрый руководитель. Без мер дисциплина исчезнет, человеческое общество не будет развиваться так, как должно.Учитывая, насколько тяжелым был период 90-х годов для азербайджанского народа, возникает мысль о том, что возвращение нашего общенационального лидера к власти , приведение Азербайджана в ряды свободных, демократических государств, обретение политической стабильности в стране, улучшение благосостояния жизни-воплощение идей в произведении” морали-Насири”. Великий лидер Гейдар Алиев руководствовался положениями о государственном управлении великих философов, в том числе Насиреддина Туси, в настоящее время его преемником является Верховный главнокомандующий Ильхам Алиев.

***Ключевые слова:*** *государственность, политика, развитие, народ, независимость*

**SAHİB VƏLİYEV**
*s.valiyev70@gmail.com*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

# XX ƏSRİN SONLARINDA VƏ XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏXSİYYƏT BÖYÜKLÜYÜNÜN ZİRVƏSİNƏ YÜKSƏLƏN ULU ÖNDƏR

*Ulu öndər milyonlarla insanı ülvi ideallar önündə səfərbər edən dövlət qurucusu, müasir tariximizin memarı idi. Heydər Əliyev parlaq zəkasının, sarsılmaz iradəsinin, tükənməz enerjisinin sayəsində Ümummilli lider səviyyəsinə yüksəlmişdir.*

*XX əsrdə xalqımızın yetirdiyi fenomen şəxsiyyət Heydər Əliyev Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irsə və düşüncə əsasında yaradaraq praktik surətdə gerçəkləşdirmiş strateq kimi hər zaman rəğbət və ehtiramla xatırlanır.*

*Heydər Əliyevin dahiyanə siyasəti, böyük cəsarət və qabiliyyətlə gördüyü işlər həmişə xalqımıza mənəvi dayaq olmuş, respublikamıza beynəlxalq aləmdə böyük hörmət, nüfuz, şan-şöhrət gətirmiş, dünya xalqlarının hörmətini qazandırmışdır.*

*Ulu öndərimiz Heydər Əliyev vəzifə başına gəldikdən sonra adi bir Sovet respublikası olan Azərbaycan dirçəlişə qədəm qoydu. Müstəqillik illərində respublikamız ən şərəfli bir inkişaf yolu keçdi. İstər xalq təsərrüfatı, istər aqrar sahə, istər mədəniyyət və incəsənət, istərsə də digər sahələr yeni dirçəliş vüsətini aldı.*

***Açar sözlər:*** *Müstəqil Azərbaycan Respublikası, Heydər Əliyev, milli-mənəvi dəyərlər, tarix, Müstəqil Azərbaycanın ilk Konstitusiyası*

## Giriş

Dünyaşöhrətli siyasətçi Heydər Əliyev dövlətimizə rəhbərlik etdiyi dövrdə öz nüfuzu ilə xalqın həmrəyliyinə nail oldu, vətəndaşların hüquq və azadlıqlarının tam təmin olunması istiqamətində mühüm addımlar atdı. Azərbaycanda yeni dövlət quruculuğu iqtisadi münasibətlərin tamamilə fərqli şəkildə demokratik əsaslara, beynəlxalq standartlara və bazar münasibətlərinə uyğun şəkildə yaradılmasını zərurətə çevirdi (1, s.388).

Yeni münasibətlərin qurulması, beynəlxalq münasibətlər, bazar iqtisadiyyatına uyğunlaşdırılaraq həyata keçirildiyindən burada əsaslı, hərtərəfli iş görülməsi lazım gəlirdi. Sözsüz ki, Ümummilli liderimiz atdığı hər addımın nə ilə nəticələnəcəyini qabaqcadan bilirdi və o, dövlətçilik təcrübəsinə əsaslanaraq düşünülmüş, məqsədyönlü siyasət həyata keçirirdi (2, s.124).

Heydər Əliyev bütün ömrünü insanların yaxşı yaşaması, onların hüquq və azadlıqlarının lazımi səviyyədə təmin olunmasına həsr etdi. Onun həyatda arzuları çox olub. Amma amalı, əqidəsi xalqını azad görmək idi (3,12, s.39-42).

Heydər Əliyev şəxsiyyəti hələ öyrənilməmiş bir dünyadır. Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Heydər Əliyev Böyük azərbaycanlı idi. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, dövlətçiliyimizin xilaskarı idi. Heydər Əliyev Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi bir möcüzə idi (4,130, s.13, s.279-284).

*XX əsrin sonlarında və XXI əsrin əvvəllərində şəxsiyyət böyüklüyünün zirvəsinə yüksələn ulu öndər*

Bəşər cəmiyyətinin mövcudluq salnaməsi zaman-zaman minlərin, milyonların arasından seçilmiş fenomenal şəxsiyyət və liderlərin ictimai-siyası proseslərə hədsiz təsirini, bəzən hətta cərəyan edən hadisələrin məcrasını başqa səmtə yönəltmək qüdrətini özündə tam parlaqlığı ilə təcəssüm etdirir. Belə liderlər xalqının əsrlər boyu formalaşaraq ümumbəşəri dəyərlərə söykənən siyasi dünyagörüşü və mental dəyərləri əsasında özlərinin mükəmməl dövlətçilik konsepsiyasını yaradır, beləliklə, siyasi varislik ənənələri formalaşdırırlar (5,14, s.48-55).

XX əsrin sonuna yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı da məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi altında üzləşdiyi bir sıra faciələr aradan qaldırılmış, milli varlıq və idrakının, özünüdərkin ali təzahür forması olan müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirmişdir. Azərbaycanın son 40 illik tarixinin bütün mərhələlərində bu fenomenal şəxsiyyətin böyük izləri hər zaman görünür və duyulur (6, s.352).

Böyük strateqin milli mənafelərini əsas tutmaqla müəyyənləşdirdiyi mütərəqqi inkişaf strategiyası ötən illərdə müstəqil Azərbaycanın ictimai həyatın bütün sahələrində əldə etdiyi möhtəşəm nailiyyətlərə zəmin yaratmış, onu regionun qüdrətli, sayılıb-seçilən dövlətinə çevirmişdir. Yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı Ümummilli lider Heydər Əliyevin böyük məharətlə əsaslandırdığı bu strategiyanın alternativsizliyini bir daha sübuta yetirir (7;15, s.14-22).

Vətənimiz üçün kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoymuşdur. Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilmişdir. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin fəaliyyətini, onun dəyərli irsini artıq çoxdan örnək kimi qəbul etmişlər (8;16 s.198-205).

Bəşər tarixinin təsnifatını apardıqda belə bir həqiqət ortaya çıxır ki, XX yüzillikdə şəxsiyyət zirvəyə yüksələrək böyük tarixi missiyanı yerinə yetirmək qüdrətinə nail olan dahilər arasında Heydər Əliyevin öz yeri, öz dəsti-xətti vardır. Ötən əsrin nadir şəxsiyyətlərindən biri olan ulu öndər siyasət dünyasında lider kimi formalaşmış və dahi insanlara məxsus olan bütün xüsusiyyətlər-istedad, böyük təşkilatçılıq qabiliyyəti, dəmir iradə, səbr və uzaqgörənlik, xeyirxahlıq və səmimiyyət kimi keyfiyyətlər onun varlığında cəmləşmişdir (11).

Olduqca çətin və ağır bir vaxtda xalq öz iradəsinə güc verərək Heydər Əliyevin hakimiyyətə gəlməsi tələbi ilə ayağa qalxdı və bu istək 15 iyun 1993-cü ildə Milli Qurtuluş kimi tarixə düşən həmin gün müdrik siyasətçinin təcrübəli və iradəli dövlət xadiminin hakimiyyətə qayıdışı ilə qayələnir (9;17 s.201-206).

Heydər Əliyev və demokratik cəmiyyət

Ulu öndərin dövlətçilik ənənələrini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev qısa zaman kəsiyində Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirdi.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi nadir şəxsiyyətlərdən biridir. Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün müstəqil Azərbaycan

dövlətinin mövcudluğu, qüdrətli bir dövlətə çevrilməsi yalnız bu dahi şəxsiyyətin sayəsində mümkün olub. Biz bu gün iftixar hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycan dövləti Ümummilli liderimizin şah əsəridir, onun öz xalqı qarşısında misilsiz tarixi xidmətidir (10;18 s.505-514).

Hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas etdi, ölkəmizi daxili və xarici qəsdlərdən qorudu, respublikamızın ərazi bütövlüyünə, suverenliyinə, dövlətçiliyinə qarşı çıxan qeyri-qanuni silahlı qüvvələri zərərsizləşdirdi, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olundu. Qısa bir zamanda tənəzzülün qarşısını alan Heydər Əliyev respublikanın davamlı inkişafı istiqamətində islahatlar həyata keçirdi (17, s.201-206).

1994-cü il sentyabr ayının 20-də dünyanın aparıcı iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynamışdır (18, s.505-514).

1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanması, dünya iqtisadiyyatına inteqrasiya dövrü kimi tarixə yazılmışdır. Heydər Əliyev dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş milyonlarla azərbaycanlını milli məfkurə əsasında birləşdirib onların tarixi vətənlərinə və dövlətə bağlanmasını, Azərbaycan diasporunun yaradılmasını və möhkəmlənməsini təmin etdi (6, s.351).

Ümummilli liderimiz əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycan qoydu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Heydər Əliyevin uzaqgörən neft siyasətinin ilk konturları oldu. Məhz bu müqavilədən sonra inkişaf etmiş dünya dövlətlərinin Azərbaycana, burada cərəyan edən proseslərə marağı artdı. Ölkədə uğurlu islahatların bünövrəsi qoyuldu (16, s.198-205).

**Nəticə**

Dünya siyasətində nəhəng şəxsiyyət olan Heydər Əliyev qısa zaman kəsiyində ölkəmizi yetərincə tanıdaraq ona qarşı iqtisadi və siyasi maraqları artırmışdır. Məhz ulu öndərimizin səyi, zəhməti sayəsində respublikamız sosial-iqtisadi inkişaf yoluna çıxdı. Heydər Əliyev xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

Heydər Əliyevin ideyaları bu gün də yaşayır, reallaşır. Ulu öndərin siyasi kursu uğurla davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyev böyük öndərin qurduğu müstəqil Azərbaycanı daha qüdrətli dövlətə çevirməyə qadir olduğunu həyata keçirdiyi işlərlə sübut edir. Son illərdə dövlət başçımızın yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilib. Bu hər birimizi fərəhləndirir, daha yaxşı çalışmağa ruhlandırır.

Ümumi şəkildə ifadə etsək, bu gün ölkədə Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən məhkəmə-hüquq islahatlarının ən başlıca məqsədi modernləşmə mərhələsini də sürətlə başa vuraraq Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək, demokratik ideallarının cəmiyyətdə tam möhkəmlənməsinə nail olmaq, yeni düşüncəli vətəndaş yetişdirməkdir.

Böyük qürur hissi ilə qeyd etmək olar ki, ölkəmizin Prezidenti İlham Əliyev cənabları

Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi terrorizmə qarşı barışmaz mövqedə durur.

## ƏDƏBİYYAT

1. Allahverdiyev Q., Sultanzadə V. Heydər Əliyev və Şərq. I kitab. Q.Allahverdiyev. Bakı: "Tural". 2002. s.388
2. Aslanova R. Qloballaşma və mədəniyyət. R.Aslanova. Bakı: Azərbaycan Respublikasının Milli Məclisi Aparatının mətbəəsi. 2002. s.124
3. Azərbaycan qəzeti. 20 mart 2013-cü il
4. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. R.Aslanova Bakı: Azərbaycan Respublikasının Milli Məclisi Aparatının mətbəəsi. 2004. s.130
5. Dünya Azərbaycanlılarının I qurultayı. Azərbaycan qəzeti. 11 noyabr 2001.
6. Əliyev H. Müstəqilliyimiz əbədidir. H.Əliyev. Bakı: Azərbaycan Respublikasının Milli Məclisi Aparatının mətbəəsi. 1999. s.351
7. Hakimiyyətin səsi qəzeti. 4 may 2012-ci il 6 nömrəli
8. Xalq qəzeti. 14 iyun 2012-ci il
9. Xalq qəzeti. 17 iyun 2012-ci il
10. Mədəniyyət qəzeti. 12 dekabr 2012-ci il
11. Mədəniyyət qəzeti. 29 mart 2013-cü il
12. Vəliyev S.T. Heydər Əliyev və Azərbaycan gəncliyi. // Bakı: "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə, XXIII buraxılış, AzTU-nun mətbəəsi. 2012. s.39-42
13. Vəliyev S.T. Milli dövlətçiliyin inkişafında Ümummilli lider Heydər Əliyevin fəaliyyəti. // Bakı: "Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının ideya-fəlsəfi əsası kimi" elmi-nəzəri konfransın materialları. "Proqres" nəşriyyatı. 2013. s.279-284
14. Vəliyev S.T. Milli dövlətçiliyin və milli-mənəvi dəyərlərimizin inkişafında Ümummilli lider Heydər Əliyevin fəaliyyəti. // Bakı: "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə. XXV buraxılış. AzTU-nun mətbəəsi. 2013. s.48-55
15. Vəliyev S.T. Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının qurucusudur. // Bakı: "Elmi əsərlər" № 18. ADMİU-nun mətbəəsi. 2014. s.14-22
16. Vəliyev S.T. Heydər Əliyevin Yeni Azərbaycan cəmiyyəti quruculuğundakı rolu. // Bakı: "Heydər Əliyevin mədəniyyət konsepsiyası" elmi-nəzəri konfransın materialları ADMİU-nun mətbəəsi. 2015. s.198-205
17. Vəliyev S.T. Müstəqil Azərbaycan dövlətçiliyinin milli-mənəvi dəyərlərimizin inkişafında və qorunmasında Ümummilli lider Heydər Əliyevin fəaliyyəti. // Bakı: Avrasiya Universiteti. "Sivilizasiya" jurnalı. Cild 6. №1. 2017 (33) 2017. s.201-206
18. Vəliyev S.T. "Heydər Əliyevin Yeni Azərbaycan cəmiyyəti quruculuğundakı rolu". // Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinə həsr olunmuş respublika elmi-nəzəri konfransının materialları. Elmi məqalələr toplusu. ADMİU-nun mətbəəsi, 2023, s.505-514

## SUMMARY

**Sahib Valiyev**

**A GREAT LEADER WHO ROSE TO THE PEAK OF PERSONALITY GREATNESS AT THE END OF THE 20TH CENTURY AND THE BEGINNING OF THE 21ST CENTURY**

The great leader was the state builder who mobilized millions of people in front of lofty ideals, the architect of our modern history. Heydar Aliyev has risen to the level of a national leader thanks to his brilliant intelligence, indomitable will, and inexhaustible energy.

Heydar Aliyev, the phenomenal figure of our nation in the 20th century, is always remembered with sympathy and respect as a strategist who created the ideological and political foundations of the Azerbaijani state based on national heritage and thought and realized it in practice. Heydar Aliyev's ingenious policy, the work he did with great courage and ability has always been a moral support for our people, brought great respect, prestige, and glory to our Republic in the international world, and won the respect of the peoples of the world.

After our great leader Heydar Aliyev took office, Azerbaijan, which was an ordinary Soviet Republic, began to revive. During the years of independence, our Republic passed the most honorable development path. National economy, agrarian field, culture and art, and other fields received a new revival.

***Key words:*** *Independent Republic of Azerbaijan, Heydar Aliyev, national and moral values, history, first Constitution of Independent Azerbaijan*

## РЕЗЮМЕ

**Сахиб Валиев**

**ВЕЛИКИЙ ЛИДЕР, ПОДНЯВШИЙСЯ НА ВЕРШИНУ ЛИЧНОГО ВЕЛИЧИЯ В КОНЦЕ 20-НАЧАЛЕ 21 ВЕКА**

Великий вождь был строителем государства, мобилизовавшим миллионы людей перед высокими идеалами, архитектором нашей новейшей истории. Гейдар Алиев поднялся до уровня общенационального лидера благодаря своему блестящему уму, неукротимой воле и неиссякаемой энергии.

Гениальную фигуру нашего народа XX века Гейдара Алиева всегда вспоминают с симпатией и уважением как стратега, создавшего идейно-политические основы азербайджанского государства на основе национального наследия и мысли и воплотившего это на практике.

Гениальная политика Гейдара Алиева, работа, которую он проделывал с большим мужеством и умением, всегда была моральной опорой для нашего народа, приносила большое уважение, авторитет и славу в нашей Республике и в международном мире, снискала уважение народов мира.

После прихода к власти нашего великого лидера Гейдара Алиева Азербайджан, который был обычной советской республикой, начал возрождаться. За годы независимости наша республика прошла самый почетный путь развития. Новое возрождение получили народное хозяйство, аграрная сфера, культура и искусство, а также другие отрасли.

***Ключевые слова:*** *Независимая Азербайджанская Республика, Гейдар Алиев, национально-нравственные ценности, история, первая Конституция Независимого Азербайджана*

**КАМАЛЯ ИСМАИЛОВА**
*kamalaismayil@gmail.com*
*Азербайджанский Государственный Университет Культуры и Искусства*

# ГОСУДАРСТВО ГЕКТУРКОВ В РАННЕМ СРЕДНЕВЕКОВЬЕ (ГОСУДАРСТВЕННЫЕ СТРУКТУРЫ, ИНСТИТУТЫ ВЛАСТИ И СОЦИАЛЬНЫЕ СТРУКТУРЫ)

*Настоящая статья статья посвящена государственному строю и институтам власти одного из самых ранних средневековых государств тюркского мира - государства Гектурков.*

*Это государство возникло в 6 веке нашей эры на стыке раннего и позднего средневековья. В те времена территория Средней Азии, где проживало абсолютное большинство тюркских племен и находилось по тем или иным причинам под властью Китайской империи. Исследователям истории тюркского мира известно, что тюркские кочевые народы никогда практически не жили в мире с китайским государством. Однако не в случае с тюркскими племенами, так как они были во-первых, кочевыми, жили еще в первобытном обществе, не знали государственности и при помощи своих нападений на более цивилизованные государства пытались восполнить свои незнания в области государственного строительства. Так было и при правителях Тумане, и при Мете. Так происходило и при первых гектуркских правителях.*

*Как известно из истории политико-правовых учений, государство это структура, которая имеет свои атрибуты. К этим атрибутам относятся географические границы, правительство, законодательство, казна и армия, т.е. охрана границ и в целом народа.*

*В даннои статье мы говорим о полноценном тюркском государстве Гектурков, год образования которого соответствует 552 году, когда вождь Бумин разбил племена жуань-жуаней (древних монголов) и объявил себя первым каганом нового государства. В данной статье мы предоставили читателям сведения о самом государстве, его правителе, органах власти и законодательстве, которое еще сплеталось с в те времена с древними обрядами гектурков.*

***Ключевые слова:*** *гектурки, государства тюркского мира, каган, Орхонские письмена, Бумин каган, жуан-жуаны, Айоки, урух, ох, ильтибер, анаяса, айгуджи, угедер*

О том, что высшей политической структурой у гектурков являлось государство (ил) передают нам китайские источники и тюркские Орхонские письмена. То есть, надо полагать, что государство - это высшая форма института власти, которое начинается с семьи (урух), продолжается на уровне племени и племенного объединения. В начале образования государства Гектурков, после победы над племенами жуан-жуанов (предков монголов) хан Бумин объявил государство илом, а себя каганом.

Таким образом, Гектуркское государство было образовано в 552 году. Конечно, являясь государством, оно должно было иметь свою систему управления, организации, институты власти и законодательство.

Как и другие тюркские государства раннего средневековья, образовавшиеся до и после принятия ислама в Средней Азии, государство Гектурков представляло собой цепь взаимосвязанных звеньев с точки зрения социальной структуры.

Так, семья являлась основой социальной структуры. Существовал союз семей, но его точная функция до сих пор не выяснена.

Следующим звеном был союз родов и племен, которые возглавлялись вождями. Племена, входившие в политический союз, именовались “охами”. Единица этих племен называлась “бодун” и ее возглавляли такие управленцы, как “ябгу”, “шад” или “ильтибер” в зависимости от размера земли.

В лесных племенах и оседлых общинах захватившие власть группы веками прибегали к различным мерам, чтобы поддерживать общественный порядок путем тирании, путем использования властью зависимых масс, на которые они не имели никаких политических и имущественных прав. Сословия и касты, частная собственность и собственность в степной культуре, где не была нужна сила человеческой руки, применялись веками. Общественные традиции, сложившиеся благодаря бесплатному труду, со временем определились в виде обычая анаяса (конституции).

Рабство пленных и рабство социальное юридически различны. В древней Греции, Риме, у монголов также были пленники (особенно военнопленные), вместе с рабами, но положение их было отличным. С другой стороны, слово раб не используется ни в одном тексте на тюркском языке.

С общей точки зрения важную роль в формировании высоких слоев в любом сообществе играют 3 фактора: 1) Владение большой землей (хозяйственное); 2) получение военной профессии (административно-военной); 3) Быть членом духовной группы.

У гёктюрков правление, то есть глава государства, представлено ханами. Глава государства также носил титул кагана. Согласно источникам, отаг, ёргин (трон), туг (знамя с головой волка), барабан (давул) и лук (лук) были символами суверенитета.

Так, китайцы отправили знамя с головой волка и барабан поддерживаемым ими князьям гек-турков. Таким образом они хотели выразить, что признают их правителями. Помимо титула кагана, титул хана в надписи в Орхонских письменах употребляется только один раз в надписях визиря Тоньюкука.

Когда мы рассматриваем хана с точки зрения правителя, главы ила, то самым поразительным моментом является то, что обязанность народа состоит не в том, чтобы заботиться о нем, как в некоторых древних культурах, где господствовал деспотизм, а, наоборот, в обязанности хана включается то, чтобы заботиться о народе, кормить его, сплотить племена вместе и защищать их от врагов

Если подытожить сказанное выше о правителях Гектурков, то у гектуркского хана были следующие обязанности по отношению к своему народу: 1) Быть во главе своего войска 2) Кормить и одевать людей; 3) Расселить и поселить людей; 4) Завоевать сердца людей и получить их любовь и уважение [4, s.49]

С другой стороны, наиболее важными качествами, которыми должен был обладать человек, чтобы стать ханом, были мудрость, дальновидность, правдивость и добродетель.

Как известно, для суверенитета государства (ила) необходимы некоторые условия. Это политическая независимость, страна ( как географическая единица), народ и законодательство.

До 545 года Бумин каган пытался наладить по направлению к северу от Великой Китайской стены и внутри китайских рынков торговлю шелком и другими товарами. Поэтому каган хотел установить экономические и политические связи с Китаем. Китайский император также не хотел терять такой возможности и потому послал к Бумину в 545 году своего посла. Как повествуют источники, после прибытия посла Китая гектурки сильно обрадовались и поздравляли друг друга, говоря: “Вот прибыл посол великого государства, после этого наше государство возвысится!” [4, s.50]. Радость гектурков заключалась в том, что впервые с возникновения их государства их признала такая великая империя как Китай.

Завоевание гектурками независимости или потеря ее были отражены в Орхонских письменных памятниках и показывали, насколько тяжело было переносить тюркскому народу потерю свободы и как народ учился на собственных ошибках.

Судя по Орхонским письменам, видно, что народ в государстве Гектурков (кюн) обладал личными правами, имел экономическую независимость и частную собственность.

В экономическом отношении в государстве большое внимание уделяли животноводству, так как большая часть государства находилась в пределах степной местности. Здесь основной рабочей силой являлись лошади и крупный рогатый скот.

МЕДЖЛИС- Помимо главы государства Гектурков имелся еще один важный орган власти - Меджлис, ведавший законодательными функциями.

О существовании такого органа впервые поведали нам китайские источники и Орхонские письмена. Меджлис по сути существовал у тюрков еще до нашей эры. У гектурков во главе Меджлиса также стояли каганы. Когда каган отсутствовал, то Меджлисом управляли не принадлежавшие правящей династии чиновники: айгуджи и угелеры [3, s.3]. Эти личности были наравне с главой государства. Также надо отметить, что в истории государства Гектурков Меджлис играл важную роль в смысле утверждения или нет правителя на престоле или объявления мира и войны.

До нас дошли некоторые сказания, откуда мы можем почерпнуть эти сведения. Так, например, когда гектурки были еще на уровне племени, они выбирали племенного вождя меж собой. Для этого они собирались в лесу и устраивали нечто вроде соревнования, кто выше взберется или подпрыгнет на дерево. В результате, кто выше подпрыгнет избирался вождем племени.

Но самый действенный пример произошел в 582 году. После смерти кагана Таспара (Тапо) назначенный им еще ранее преемник Талопиен не был принят сос стороны Меджлиса. Вместо него каганом был назначен Ишбара.

Помимо этого народ также выражал свое согласие с выбором таким образом: избранного кагана клали на шкуру животного и подбрасывали.

На меджлисе могли участвовать только представители знати: тегины, кюль-чоры, апа, эркины, тудуны, ильтеберы, тарханы (3, s.4). На Меджлисе обсуждались все важные для государства вопросы, начиная с народных и религиозных праздников до повседневных вопросов. Меджлис или той заканчивался богатым пиршеством.

**Правительство-** Как отмечалось выше, проблемы государства и законодательства сталкивались на Меджлисе. Но из-за некоторых климатических условий и политических событий внутри страны эти собрания не всегда часто собирались. Поэтому создавалось нечто вроде временного правительства и там обсуждались наиболее важные вопросы. Такое временное правительство называлось у гектурков Айуки (4, s.48).

В китайских источниках отмечалось, что гектуркское правительство состоит из 9 глав, а взаимодействие этих глав называется "буйрук" (1, s.128).

Во главе Айуки стояли не принадлежащие династии айгучи или уге (1, s.127). Помимо них были тамгачи и битигчи. Тамгачи занимались секретариатом и печатями, а битигчи - связью с народом, или, как сейчас говорят, с общественностью.

Как говорилось выше, глава государства, Меджлис и правительство были отдельными государственными институтами, т.е. имели отдельные функции. Но, естественно, высшей должностью считался каган. Именно он назначал глав правительства, он предлагал изменения в законодательстве, назначал главного судью. Как считали гектурки, именно глава государства являлся некоей связью между Тенгри и государством. Также как и в других древнетюркских государствах, народ также зависел от кагана, т.е. он должен был давать народу пищу, одежду, покой и благоденствие. То есть, должен пользоваться своим авторитетом.

## ЛИТЕРАТУРА

1. Taşağıl A. Kök Tengrinin çocukları (Avrasiya Bozkırlarında İslam öncesi Türk Tarihi). Bilge, İstanbul, 2023. S.127-128
2. Quliyev A. Azərbaycanın siyasi-hüquqi fikrində dövləti idarə etməyə dair ideyalar. Bakı: 2011. s.7-25
3. Akşın S. Kısa Türkiye Tarihi. İstanbul. 2007. s.3-6
4. Carter V. Findley. Dünya tarihinde Türkler. Alfa. İstanbul. 2019. s.47-50

## XÜLASƏ

**Kəmalə İsmayılova**

## İLK ORTA ƏSRLƏRDƏ HEKTÜRK DÖVLƏTİ (DÖVLƏT QURUMU, HAKİMİYYƏT İNSTİTUTLARI VƏ SOSİAL STRUKTURLAR)

Bu məqalə türk dünyasının ən erkən orta əsr dövlətlərindən biri - Göytürklər dövlətinin dövlət idarəçilik sistemi və hakimiyyət institutlarına həsr edilmişdir.

Bu dövlət eramızın 6-cı əsrində erkən və son orta əsrlərin qovşağında yaranmışdır. O günlərdə türk tayfalarının böyük əksəriyyətinin yaşadığı, bu və ya digər səbəbdən Çin imperiyasının hakimiyyəti altında olduğu Orta Asiya ərazisi. Türk Dünyası tarixinin

tədqiqatçıları bilirlər ki, türk köçəri xalqları heç vaxt Çin dövləti ilə praktik olaraq sülh içində yaşamamışlar. Ancaq türk tayfaları vəziyyətində deyil, çünki onlar ilk növbədə köçəri idilər, hələ ibtidai cəmiyyətdə yaşayırdılar, dövlətçiliyi bilmirdilər və daha sivil dövlətlərə hücumlarının köməyi ilə dövlət quruculuğu sahəsində bilmədiklərini doldurmağa çalışırdılar. Bu, hökmdarların dumanı və metanın dövründə də belə idi. Bu, ilk hektürk hökmdarlarında da baş verdi.

Siyasi və hüquqi təlimlər tarixindən məlum olduğu kimi, dövlət öz atributlarına sahib bir quruluşdur. Bu xüsusiyyətlərə coğrafi sərhədlər, hökumət, qanunvericilik, xəzinə və ordu, yəni sərhədlərin və bütövlükdə xalqın qorunması daxildir.

Bu yazıda, təhsil ili 552-ci ilə uyğun gələn, baş Buminin Juan-Joao (qədim monqollar) qəbilələrini məğlub etdiyi və özünü yeni dövlətin ilk xaqanı elan etdiyi tam Türk Göktürk dövləti haqqında danışırıq. Bu yazıda oxuculara dövlətin özü, hökmdarı, hakimiyyət orqanları və o günlərdə hektürklərın qədim ayinləri ilə toxunmuş qanunvericilik haqqında məlumat verdik.

***Açar sözlər:*** *göytürklər, Türk dünyasının dövlətləri, haqan, Orxon yazıları, Bumin haqan, juan-juanlar, ox, iltibər, Anayasa, ayqucı, ugeler*

## SUMMARY

**Kamala Ismayilova**

## THE HEKTURK STATE IN THE EARLY MIDDLE AGES (GOVERNMENT STRUCTURES, INSTITUTIONS OF AUTHORITY AND SOCIAL STRUCTURES)

This article is devoted to the state system and institutions of power of one of the earliest medieval states of the Turkic world - the state of Geytürks.

This state arose in the 6th century AD at the junction of the early and late Middle Ages. At that time, the territory of Central Asia, where the absolute majority of Turkic tribes lived and was under the rule of the Chinese Empire for one reason or another. Researchers of the history of the Turkic world know that the Turkic nomadic peoples have never practically lived in peace with the Chinese state. However, not in the case of the Turkic tribes, since they were, first of all, nomadic, lived in a primitive society, did not know statehood and tried to make up for their ignorance in the field of state-building with the help of their attacks on more civilized states. This was the case both under the rulers of the Mist and under the Meta. This was also the case under the first Hekturk rulers.

As is known from the history of political and legal doctrines, the state is a structure that has its own attributes. These attributes include geographical borders, government, legislation, treasury and the army, i.e. border protection and the people in general.

In this article, we are talking about a full-fledged Turkic state of the Gokturks, the year of formation of which corresponds to 552, when chief Bumin defeated the Zhuan Zhuan tribes (ancient Mongols) and declared himself the first kagan of the new state. In this article, we have provided readers with information about the state itself, its ruler, authorities and legislation, which was still intertwined with the ancient rituals of the Hekturks at that time.

***Key words:*** *Geyturks, states of the Turkic world, Khagan, Orkhon writings, Bumin Khagan, Zhuan-Zhuans, oh, Iltiber, Anayasa, Aygudzhi, Ugeler*

**HÜSEYN İBRAHİMOV**
*husib@mail.ru*
*Azərbaycan Respublikasının Prezidenti Yanında*
*Dövlət İdarəçilik Akademiyası*

# MÜASİR AZƏRBAYCAN FƏLSƏFƏSİ: PROBLEMLƏR, PERSPEKTİVLƏR

*Məqalədə azərbaycançılıq ideya, ideologiya və siyasi ideologiya kimi araşdırılması məsələlərini qarşıya qoyur. Həmçinin göstərilir ki, müasir cəmiyyətin obyektiv və subyektiv problemləri vardır. Bu problemlərin daha adekvat həlli üçün yeni fəlsəfi problemləri aşkar etməli, onu cəmiyyətin inkişafına adekvat metodoloji problem kimi dərk etməliyik.*

***Açar sözlər**: qloballaşma, milli ideya, azərbaycançılıq, milli dövlət, demokratiya*

## Giriş

Müasirliyi dərk etmək fərdi hadisədir, müasirliyi dərk etməklə bərabər ona təsir göstərmək, müasir insan problemlərinə diqqəti yönəltmək isə konkret elmin gücünün ortaya çıxarılmasını, onun müasir nəzəri metodlarını zamanın tələblərinə uyğun tətbiqini zəruri edir. Haqqında bəhs etməyə çalışacağım müasir Azərbaycan fəlsəfə elmi bu gün daha çox tarixilikdən çıxış etmək, sovet sosialist stereotiplərindən tam xilas ola bilmədən keçid dövrünü yaşamaq təsirləri bağışlayır.

Müasir inkişaf fəlsəfi qanunauyğunluqların da müasirləşməsini tələb edir.

Ölkəmiz, müstəqillik əldə etdikdən sonra Azərbaycan insanının hüquq və azadlıqları sahəsində 200-dən artıq beynəlxalq konvensiyaya və sazişə imza atmışdır. Prezident İlham Əliyevin 2009-cu il yanvarın 31-də imzaladığı “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında” sərəncamı isə bütün sahələrdə olduğu kimi təhsildə də Avropa məkanına inteqrasiyanı sürətləndirməyə xidmət edir.

Sözsüz ki, bütün bunlar qloballaşan dünyanın müsbət göstəriciləridir. Ancaq qloballaşma bildiyimiz kimi özünün mənfi stereotipləri ilə də zəngindir (4, s.98). Belə mənfi stereotiplər bir çox hallarda yerli televiziya kanalları vasitəsilə də kütləvi insan şüuruna təsirlər göstərir. Göründüyü kimi mövcud cəmiyyətimizin inkişaf tempi ilə bərabər müəyyən sosio-mədəni problemləri də vardır. Belə problemlərin artmaması üçün ailədə, sosial həyatın digər sahələrində Azərbaycan insanının tutduğu mövqe və rola əhəmiyyətli təsir etmək, Azərbaycan insanının həyatındakı etik-mənəvi aşınmaların qarşısını almaq məhz humanitar elm sahəsində köklü yer tutan fəlsəfənin vəzifəsi olmalıdır (3, s.35). Belə fəlsəfənın prinsipləri azərbaycançılıq ideyasına rəğmən qurulmalıdır.

Müasir Azərbaycan fəlsəfə elmi ölkəmizdə sosio-mədəni sabitliyin qorunması və Azərbaycan insanının artan rolunu daha yaxşı əks etdirmək gücünə yetişməlidir. Azərbaycançılıq fəlsəfəsi həm də Azərbaycan insanını qloballaşmanın mənfi stereotiplərindən qorumalıdır. Beləliklə, bu fəlsəfə müasir həyatımıza-Azərbaycan insanının həyatına, psixikasına mənfi təsirlər edən digər neqativ proseslərin adət halına çevrilməməsi üçün azərbaycançılıq ləyaqət hisslərini hər bir azərbaycanlıda aşılamalı,

humanitar elmin digər sahələrində, kütləvi informasiya vasitələrində vətəndaş cəmiyyəti strukturlarında, azərbaycançılıq ləyaqət hisslərini, milli qürur, milli iftixar hisslərini artırmağa yönəlməlidir. Bunun üçün dərk etməliyik müasir Azərbaycan insanının layiqli vətəndaş kimi yetişməsinin yolu məhz azərbaycançılıq fəlsəfəsindən keçir. Azərbaycançılıq insan mənəviyyatına, insan ruhuna həm tarixi, həm də sosio-mədəni baxımdan yaxın bir ideyadır. Azərbaycançılıq ideyası müasir dünyanın bir çox ideyaları ilə müqayisədə insan mənəviyyatı hisslərinə daha yaxın ideoloji hadisə olması ilə də seçilir. Bu baxımdan həmin ideyanın müasir Azərbaycan fəlsəfə elminin tərkib hissəsinə çevrilməsi nəinki Azərbaycan insanı üçün, eləcə də gələcəkdə regional fəlsəfi dünyagörüşündə yeni müsbət stereotipləri artıra bilər.

Dövlətçilik ideologiyamızda milli-mənəvi dəyərlərin bəşəri dəyərlərlə vəhdəti qlobal problemləri dəf edə bilmək gücündə olmalı, ideoloji əsaslı inkişaf etməlidir. Müasir dövrdə alimlərin fəaliyyətini 3 qrupda təsnifatlandırmaq olar.

-Elmi yaradıcılığı siyasi devidentlərlə bərpa edib saxlayanlar -(bu gündə qalanlar)

-Elmi yaradıcılıq yüksəlişi etmiş ancaq, ölkənin ictimai həyatından xəbərsiz olanlar -(keçmişdə qalanlar)

-Elmi-publisistikaya keçid edənlər (elmi populyarizm) -gələcəyə gedənlər

## ƏDƏBİYYAT

1. “Azərbaycan”qəzeti. 03 oktyabr. 2014-cü il. №142 (2587)
2. Rzayeva G. Vəfadarlıq. Bakı: “Adiloğlu”. 2012. s.228
3. Şirəliyev M. Politologiya. Bakı: 2005. s.387
4. Tağıyev Ə.M. “İnsan və siyasət” monoqrafiya “MBM” MMC. Bakı: 2005. s.188
5. “Vətəndaş cəmiyyəti quruculuğunda 5 il”. Bakı: “Vətəndaş cəmiyyəti” jurnalının xüsusi buraxılışı, 2008-2013 aprel. s.107
6. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı. 2002. s.612
7. Соловьев А. Три облика государства - три стратегии гражданского общества. “Полис”, 1996. № 6. с.29-38
8. Durkheim Emile. Professional Ethics and Civil Morals. Westport. CT: Greenwood Press. 1958

**SUMMARY**

**Huseyn Ibrahimov**

**MODERN AZERBAIJAN PHILOSOPHY:
PROBLEMS, PERSPECTIVES**

In the article, Azerbaijaniism as an idea, ideology and political ideology is examined. It is also shown that modern society has objective and subjective problems. For a more adequate solution to these problems, we need to discover new philosophical problems and understand it as an adequate methodological problem for the development of society.

***Key words:*** *globalization, national idea, Azerbaijanism, national state, democracy*

**РЕЗЮМЕ**

**Гусейн Ибрагимов**

**СОВРЕМЕННАЯ ФИЛОСОФИЯ АЗЕРБАЙДЖАНА:
ПРОБЛЕМЫ, ПЕРСПЕКТИВЫ**

В статье рассматривается азербайджанизм как идея, идеология и политическая идеология. Также показано, что современное общество имеет объективные и субъективные проблемы. Для более адекватного решения этих проблем нам необходимо открыть новые философские проблемы и понять их как адекватную методологическую проблему развития общества.

***Ключевые слова:*** *глобализация, национальная идея, азербайджанизм, национальное государство, демократия*

**İZZƏT RÜSTƏMOV**
**RƏŞAD ƏSGƏROV**
*Bakı Dövlət Universiteti*

# AZƏRBAYCAN FƏLSƏFİ VƏ İCTİMAİ FİKİR TARİXİNDƏ HEYDƏR HÜSEYNOV ŞƏXSİYYƏTİ

Heydər Hüseynov 1908-ci ilin aprel ayının 3-də vaxtilə doğma vətənimizin bir parçası olan İrəvanda Hacı Nəcəf Kərbəlayi Hüseyn oğlunun və Məşədi Gülüstan ananın ailəsində dünyaya göz açmışdır. Heydər ailədəki 6 uşağın kiçiyi idi. 1 yaşında olanda atası rəhmətə gedir. Böyük qardaşı Yusif 1918-ci ildə azğın-quldur erməni dəstələri tərəfindən öldürüldüyündən ailələri əvvəl Batum şəhərinə, sonra Stavropola, axırda Bakıya köçmək məcburiyyətində qalır. Heydər digər böyük qardaşının və anasının himayəsi altında böyümüş, yalnız 12 yaşında Bakıda 18 saylı məktəbin şagirdi olmuşdur. O, 1927-1931-ci illərdə V.İ.Lenin adına Pedaqoji Universitetin həm Şərqşünaslıq, həm də Pedaqoji fakültələrinin tələbəsi olmuş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Heydər Hüseynov 1924-cü ildə əmək fəaliyyətinə başlamışdır. 1931-1932-ci illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil alır. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı, Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru, 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945-1950-ci illərdə isə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti işləmişdir. Heydər Hüseynov 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetində əvvəlcə Marksizm-Leninizmin əsasları kafedrasının, sonra isə Fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışır, 1945-1950-ci illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru işləyir [4, s.4-5].

Heydər Hüseynov 15 iyun 1939-cu ildə Tiflis şəhərində "M.F.Axundzadənin fəlsəfi görüşləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1944-cü ildən professor, 1945-ci ildən isə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Heydər Hüseynov 16 illik fəaliyyəti dövründə bütövlükdə Azərbaycan elminə, onun tərəqqisinə, xüsusilə də XX əsrdə Azərbaycanda fəlsəfənin istər bir tədris sahəsi, fənn kimi formalaşmasına, istərsə də metodoloji, xüsusi ideya istiqamətli elm sahəsi olaraq vətəndaşlıq qazanmasına böyük töhfələr vermişdir. Bəhs etdiyimiz dövrdə birinci olaraq məhz onun sayəsində Azərbaycanda fəlsəfə ayaq açıb yerimiş, nüfuz və hörmət qazanmışdır [1].

Əvvəlcə cəsarətlə deyə bilərik ki, Heydər Hüseynov Azərbaycan Elmlər Akademiyasının ilk yaradıcılarından biri və ilk Vitse-Prezidenti idi. Əminəm ki, heç kim etiraz etməz ki, Heydər Hüseynov, Akademiyamızın ilk prezidenti seçilənə qədər bir xeyli müddət bütöv bir elmi təsisat, elmi struktur olaraq Elmlər Akademiyasına rəhbərlik etmiş, ictimai və humanitar elmlər üzrə Akademiya strukturlarının başlıca ideya istiqamətinin müəyyənləşdirilməsində misilsiz dərəcədə müsbət rol oynamışdır.

İkincisi, məhz Heydər Hüseynovun təşəbbüsü və titanik səyləri nəticəsində Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə İnstitutu yaradıldı. Əlbəttə, Fəlsəfə İnstitutu bir vaxtlar "İnstitut", ya da "Fəlsəfə filialı" kimi fəaliyyət göstərirdi, yaxud Akademiyanın

"Tarix və Fəlsəfə İnstitutu" kimi fəaliyyətini davam etdirirdi, bir sıra ad və forma dəyişikliklərinə uğrayaraq AMEA-nın Fəlsəfə İnstitutu adını saxlamışdır. Şübhəsiz ki, bu məsələnin geniş şərhi hazırda xüsusi məqsədimizi təşkil etmir.

Üçüncüsü, mənəvi mədəniyyətimiz və intellektual inkişafımız tarixində xüsusi əks-səda doğurmuş bir hadisə baş verdi, yəni 1945-ci ildə Heydər Hüseynovun cəsarətli təşəbbüsü ilə Azərbaycan Dövlət Universitetinin Tarix Fakültəsinin nəzdində Fəlsəfə şöbəsi yaradıldı. 1955-ci ildə Fəlsəfə şöbəsi bağlanıldı. Lakin sevinməyə, qürur hissi keçirməyə də tam əsas var ki, H.Hüseynovun təşəbbüsü ilə yaradılmış Fəlsəfə şöbəsi öz fəaliyyəti ilə ümumiyyətlə mədəniyyətimizin tərəqqisində, Azərbaycanda fəlsəfənin və fəlsəfi fikrin inkişafında, ziyalılarımızın fəlsəfi təfəkkürünün cilalanmasında əvəzsiz müsbət rol oynamışdır. Əgər dahi mütəfəkkir şair Mirzə Ələkbər Sabirin Həsən bəy Zərdabi haqqında dediyi sözləri təkrar etsək, söyləyə bilərik ki, Fəlsəfə şöbəsinin əkdiyi toxumlardan nə dadlı meyvələr yetişmişdir.

Bəli, qısa ömürdə böyük və əzəmətli həyat yaşamaq heç də hamıya nəsib olmur. Bu, məhz 42 yaşlı elm nəhənginə, xatirələrdən heç zaman silinməyəcək akademikimiz Heydər Hüseynova nəsib oldu.

1950-ci ildə haqqında bəhs etdiyimiz Fəlsəfə şöbəsinin birinci buraxılışı oldu, onun ilk məzunları Azərbaycanın ali məktəblərində, mədəniyyət ocaqlarında uğurla fəaliyyət göstərməyə başladılar. Bunların sırasında sonralar yüksək elmi adlar, rütbələr qazanmış akademik Firudin Köçərlini, akademik Aslan Aslanovu, AMEA-nın müxbir üzvləri Ziyəddin Göyüşovu, Məqsəd Səttarovu və digərlərini göstərmək olar. Universitetin Fəlsəfə şöbəsi və AMEA-nın Fəlsəfə İnstitutu Azərbaycanda Fəlsəfə üzrə elmi kadrların yetişdirilməsinə böyük əhəmiyyət verirdi. Görkəmli akademik Aleksandr Osipoviç Makovelskinin Akademiyanın Fəlsəfə İnstitutunun direktoru işlədiyi vaxtlarda burada gələcəyin istedadlı filosofları və müəllimləri - Əhməd Kərədi Zəkuyev, Mehbalı Qasımov, Müseyib Mahmudov, Şükufə Mirzəyeva çalışırdılar. Göründüyü kimi, Heydər Hüseynovun Azərbaycanda fəlsəfə kadrlarını yetişdirmək planları öz müsbət nəticələrini verməkdə idi.

Heydər Hüseynov həm istedadlı müəllim, həm də görkəmli yaradıcı filosof alim idi. O, tələbələrin dərslik və dərs vəsaitlərinə ciddi ehtiyacını nəzərə alaraq, özü bu sahədə ciddi fəaliyyət göstərmişdir. "Dialektik materializm", "Dialektika və metafizika", "Marksist dialektik metod", "Dialektik və tarixi materializm haqqında" ilk dərslikləri işləyib hazırlamış və birinci növbədə filosof olmağa hazırlaşan tələbələrin, gənc fəlsəfə müəllimlərinin istifadəsinə vermişdir.

Etiraf etmək olar ki, müasir tələblər baxımından bu kitablarla bağlı müəyyən iradlar irəli sürmək mümkündür, çünki hazırda fəlsəfi fikir, fəlsəfi təfəkkür sürətli inkişaf yolu keçmiş, bütövlükdə bəşəriyyətin fəlsəfi düşüncəsi misilsiz dərəcədə kamilləşmişdir. Bununla belə akademik Heydər Hüseynovun qələminin məhsulu olan bu əsərlərin meydana çıxması öz dövrü üçün çox böyük hadisə idi. Bu barədə professor Cəmil Əhmədli yazırdı: "Heydər Hüseynov bu əsərlərini yazdığı zaman Azərbaycanda nə dialektika, nə metod, nə də nəzəriyyə haqqında kifayət qədər əsaslı tədqiqatlar vardı. Heydər Hüseynov əslində bu istiqamətdə xalqın fəlsəfi fikrinin, xüsusilə təfəkkür metodunun formalaşmasına

həmin əsərləri ilə ciddi təsir göstərmişdir. Bu əsərlərin predmetləri Heydər Hüseynovun özünün kamil bir filosof kimi formalaşmasında mühüm rol oynamışdır" (3, s.75).

1949-cu ildə Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" adlı çox sanballı, yüksək elmi dəyərli əsəri işıq üzü gördü. Rus dilində 725 səhifədən ibarət olan bu əsər 1958-ci ildə müəyyən ixtisarlarla ikinci dəfə çap edilmişdir. Kitab 2006-cı ildə "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adı ilə ilk dəfə Azərbaycan dilinə tərcümə edilmişdir. Kitabın redaktoru akad. A.O.Makovelski idi. "Redaktorun ön sözü" adlı yazısında alim kitabı yüksək qiymətləndirir, onu XIX əsrdə Azərbaycan fəlsəfəsinin inkişafının sistemli şərhinin ilk nümunəsi adlandırır. A.O.Makovelski belə hesab edirdi ki, kitabın hər bir hissəsi özlüyündə orijinaldır, əsas mənbələrin çox səbr və diqqətlə araşdırılması müəllifin xidmətidir. Böyük alimin kitab haqqında söylədiyi bu fikirlər bir daha deməyə əsas verir ki, Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" adlı bu möhtəşəm əsəri sonradan Azərbaycan fəlsəfə tarixçilərinin stolüstü kitabına çevrilmişdir, o cümlədən bu sətirlərin müəllifinin, çünki Heydər Hüseynovun bu dəyərli elmi araşdırmasında XIX əsrdə Azərbaycanın ictimai və fəlsəfi fikrinin nəhəngləri olan Abbasqulu ağa Bakıxanovun, Mirzə Şəfi Vazehin, Mirzə Kazım Bəyin, Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşlərinin ilk dəfə olaraq çox geniş, ilk mənbələrə əsaslanan ətraflı, özü də sistemli şərhi, o vaxt üçün tamamilə qəbul olunan elmi təhlili verilmişdir. Fərəhlə demək olar ki, görkəmli rus alimləri Heydər Hüseynovun elmi yaradıcılığına, onun ictimai-siyasi fəaliyyətinə böyük maraq göstərirdilər. İndiki halda isə onun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" adlı əsəri bütün ittifaq miqyasında çox böyük, özü də müsbət əks-səda doğurmuşdu. Heydər Hüseynovun ünvanına təbriklər, xoş sözlər gəlməkdə idi. Böyük alim Bertels istər Özbəkistanda yaşayarkən, istər sonralar Moskvaya qayıdarkən özündən 18 yaş kiçik olan gənc alim Heydər Hüseynovla ciddi elmi əlaqə saxlayır, onunla müntəzəm olaraq məktublaşır, onun istər fəlsəfəyə, istərsə də ədəbiyyatşünaslığa dair əsərlərini ona göndərməsini xahiş edir. Haqqında danışdığımız "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri də istisna təşkil etmir. Böyük rus yazıçısı Aleksandr Fadeyev də Heydər Hüseynovun elmi yaradıcılığına ciddi maraq göstərirdi və onunla dostluq əlaqələri saxlayırdı. 1949-cu ildə Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri Stalin mükafatına təqdim olunur və mükafat təsdiqini alır. Ehtimallara və bir sıra faktlara görə əsərin Stalin mükafatına irəli sürülməsinin əsas təşəbbüsçüsü Aleksandr Fadeyev olmuşdur. Burada da əsas səbəb ilk növbədə A.Fadeyevlə Heydər Hüseynov arasında səmimi münasibət, dostluq əlaqələri deyil, mükafata təqdim olunmuş əsərin yüksək elmi keyfiyyəti, o zaman üçün fəlsəfə sahəsində çox sanballı, monumental elmi-tədqiqat əsəri olması idi. Əvvəldə dediyimiz kimi "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri haqqında görkəmli alimlər xüsusi müsbət fikirlər söyləmişdilər, əsər fəlsəfə elminə möhtəşəm bir töhfə kimi qiymətləndirilmişdir. Bir alim və ictimai xadim, filosof, həmçinin Azərbaycan ədəbiyyatı tarixinin, ümumiyyətlə mənəvi mədəniyyət məsələlərinin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə Üzeyir Hacıbəyov, Səməd Vurğun, Mehdi Hüseyn, Mirzə İbrahimov, Mikayıl Rəfili və b. Heydər Hüseynova xüsusi isti münasibət bəsləmiş, onunla dostluq etmişlər. Heydər Hüseynovun istər Azərbaycanda, istərsə də ittifaq səviyyəsində keçirilmiş elmi konfranslarda, ideoloji müşavirələrdə fəal iştirakı, çox qiymətli elmi məruzə və çıxışları onun

bir alim kimi şöhrətlənməsində müsbət rol oynamışdır. Söyləməyə ciddi güman var ki, Mərkəzdən Mircəfər Bağırovla əlaqə saxlayıb, onun "razılığını" da alıblar. Stalin mükafatı təsdiq olunandan sonra Heydər Hüseynovun ünvanına təbrik teleqramları gəlməyə başlayıb.

Lakin necə deyərlər, müəyyən vaxtdan sonra "çərxi-fələk tərsinə dövran etməyə" başlayır. Böyük alim Heydər Hüseynov Mircəfər Bağırovun "qəzəbinə" tuş gəlir, M.Bağırovun "qaynar" və davamlı səyləri nəticəsində böyük alimə verilmiş Stalin mükafatı ləğv olunur (bütün bu mənfi prosesi bütün təfərrüatı ilə şərh etmək mümkünsüzdür), onun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri marksist-kommunist ideologiyasına uyğun gəlməyən ziyanlı bir əsər kimi qiymətləndirilməyə başlayır, Şamil hərəkatını mütərəqqi hərəkat kimi göstərdiyinə görə kəskin tənqidlərə və "ifşalara" məruz qalır, əsərdə bir çox məddahlar tərəfindən səhvlər, nöqsanlar axtarılır. Heydər Hüseynovun bütün əsas vəzifələri, yüksək elmi adları əlindən alınır, respublikada çağırılan "ideoloji müşavirələr"də tənqid və qınaq obyektinə çevrilir, onunla ciddi elmi əməkdaşlıq edən, dostluq saxlayan görkəmli ziyalılar, elm və mədəniyyət xadimləri təqib olunmağa başlayırlar. Əsərə geniş rəy yazmış A.O.Makovelski və M.A.Dadaşzadə xüsusi olaraq siyasi qınaq obyektinə çevrilirlər, 1950-ci ilin yanvar ayının axırlarında H.Hüseynovun yaxın dostu, həmkarı Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının Prezidenti vəzifəsindən azad olunur. Heydər Hüseynovun gənclik dostu Azərbaycan Dövlət Universitetinin rektoru Abdulla Qarayev vəzifəsindən kənarlaşdırılır. Ətrafında cərəyan edən bu dözülməz ab-hava, kəsilmək bilməyən tənqidlər, siyasi təqiblər böyük alimi çox ağır psixoloji sarsıntıya salır, o, damarlarını kəsərək, intihara cəhd göstərir. Lakin "intihar" baş tutmur, onu sağaldırlar. Heydər Hüseynovun ətrafında mənfi hadisələr davam etməkdə idi… Üstəlik də 1950-ci ilin 13 avqustunda Heydər Hüseynovun böyük qardaşı Yaqub Hüseynov həbs olunur. Çıxılmaz psixoloji burulğana düşən Heydər Hüseynov 1950-ci ilin 15 avqustunda ailəsi ilə birlikdə bağ evində olarkən ailəsinin gözündən yayınaraq təkrar intihara cəhd göstərir və həyatla vidalaşır.

Əlbəttə, Heydər Hüseynov görkəmli ictimai xadim, istedadlı filosof alim kimi onu sevənlərin qəlbində daim yaşayacaq. M.Bağırovun hakimiyyətdən getməsi, yeni mütərəqqi qüvvələrin respublikamızın rəhbərliyinə gəlməsi, sonra da totalitar bir rejim olaraq SSRİ-nin dağılması Heydər Hüseynova, onun elmi-fəlsəfi irsinə münasibətin müsbət istiqamətdə dəyişməsinə ciddi təkan verdi. Kommunist ideologiyasının iflasa uğraması, Azərbaycan Respublikasının dövlət müstəqilliyi və suverenlik qazanması tarixi keçmişimizə, milli inkişaf tariximizə, dini, əxlaqi dəyərlərimizə daha müsbət yanaşılması üçün ciddi ideoloji əsaslar yaratdı. Ulu öndərimizin azərbaycançılıq fəlsəfəsi öz elmi-fəlsəfi sərvətimizə, onu yaradanlara daha qayğı ilə yanaşmağın prinsiplərini müəyyənləşdirməyə imkan yaratdı. Bunların sırasında da böyük filosofumuz hər cür bəraət aldı, əsərləri yenidən çap olunmağa başladı, onun necə deyərlər, "başına bəla açmış" "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" adlı çox dəyərli və sanballı əsəri ilk dəfə olaraq doğma Azərbaycan dilinə tərcümə olundu, onun haqqında elmi əsərlər, monoqrafiyalar işıq üzü gördü. Böyük alimin 100 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə 2009-cu ildə təntənə ilə qeyd olundu. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində fəlsəfəyə aid bir auditoriya akademik Heydər Hüseynovun adını

daşıyır. Böyük alimin 110 illik yubileyi ilə əlaqədar olaraq respublikamızda elmi tədbirlər keçirilmiş, bir sıra yeni nəşrlər çapa hazırlanmışdır. Bütün sadalanan tədbirlər böyük alimin irsinə verilən yüksək qiymətin təzahürüdür.

## ƏDƏBİYYAT

1. "Ədəbiyyat qəzeti". 18 iyul 1950-ci il. №20 (597)
2. Əsədov S. Heydər Hüseynov. Bakı: "Azərbaycan" nəşriyyatı. 1998. s.96
3. Hüseynov H. -100. Bakı: 2009. s.125
4. Hüseynov H. Biblioqrafiya. Bakı: 1965. s.48
5. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Zəkioğlu, 2006 s.544
6. Hüseynov H. M.F.Axundzadənin fəlsəfi görüşləri. Bakı: 1938. s.76
7. Hüseynov H. Dialektika və Metafizika. Bakı: 1939. s.47

**SEVİNC QULİYEVA**
**VALİDƏ VƏLİYEVA**
**NİGAR NƏSİROVA**
*Bakı Dövlət Universiteti*

# TƏLİMDƏ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

*Cəmiyyət həyatında gedən proseslər, yeniləşmə yalnız iqtisadi, hüquqi, ideoloji sahələrlə məhdudlaşmır, insanın düşüncə və davranış tərzinə, özünə və başqalarına münasibətinə təsir edir. Cəmiyyətin demokratikləşdirilməsi, humanistləşdirilməsi, azad bazar iqtisadiyyatına keçid bir tərəfdən bu sistemin tələblərinə cavab verən şəxsiyyətlərin formalaşmasını zəruri edirsə, digər tərəfdən də insanların bu prosesdə necə iştirak etməsi onun həyata keçməsini şərtləndirir.*

*Təbii ki, cəmiyyət həyatında baş verən dəyişikliklər təhsil sisteminə öz təsirini göstərir, onun yenilənməsini zəruri edir. Digər tərəfdən cəmiyyətin hansı istiqamətdə, necə inkişaf edəcəyi təhsil sisteminin uğurlarından asılıdır. Çünki təhsil körpəlik yaşından başlamış yetkinlik yaşınadək böyük bir dövrü əhatə edir və şəxsiyyətin formalaşdırılması prosesini əks etdirir. Şəxsiyyətin formalaşdırılmasında təlim-tərbiyə özünəməxsus rol oynayır. Bu məqalədə təlim prosesində tələbə şəxsiyyəti, ona təsir edən amillər araşdırılmışdır. Qeyd etmək lazımdır ki, məqalədən bu sahədə çalışan mütəxəssislər, tələbələr və tədqiqatçılar istifadə edə bilər.*

***Açar sözlər:*** *təlim, tələbə şəxsiyyəti, tələbə şəxsiyyətinə təsir edən amillər*

Cəmiyyət həyatında dəyişiklik baş verəndə insan amilinə, mənəvi-əxlaqi keyfiyyətlərinə, daxili aləminə maraq artır. Əgər son dövrlərədək qarşılıqlı münasibətlər sistemində monoloji ünsiyyət üstünlük təşkil edirdisə, öyrənənlər təhsilin obyekti hesab olunurdusa, onda hansı keyfiyyətlərin formalaşdırılmasını müəllimlər, valideynlər müəyyənləşdirirdisə, indi artıq tələbə və öyrənən öz qabiliyyəti, maraq dairəsi, arzu və istəkləri olan subyektdir. Münasibətlər sistemində indi "subyekt-obyekt" münasibətləri deyil, "subyekt-subyekt" münasibətləri üstünlük təşkil edir. Müasir proqramlar yeni pedaqoji təfəkkür ölçüləri ilə qiymətləndirilir. Ənənəvi "hafizə məktəbi" "təfəkkür məktəbi" ilə əvəz olunur.

Təhsilin humanistləşdirilməsi pedaqoji prosesdə şagirdlərdə tolerantlıq, sinergizm, rəqabətəqabillik, risk etməyi bacarmaq, sərbəst düşünmək kimi keyfiyyətlər formalaşdırılmalıdır. Bütün bu deyilənlər, eləcə də digər çoxsaylı amillər təhsilin psixolojiləşdirilməsini zəruri edir (Təhsilə psixoloji xidmətin aktual sosial-psixoloji problemləri. 2012).

Şəxsiyyət mürəkkəb bir termindir: Bioloji, sosial və psixoloji münasibətlər inteqrasiya edilir. Şəxsiyyət anlayışının dərk edilməsi pedaqogika üçün çox vacibdir. İnsan bioloji varlıq kimi doğulur. Şəxs insanın sosial xüsusiyyətidir: inkişaf prosesində insanlarla münasibətdə nitq, bacarıq və vərdişlər qazanılır və sosial varlıq yaradılır.

Şəxsiyyətin özünəməxsus psixoloji strukturu vardır. Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi, insanın şəxsiyyətə çevrilməsi üç psixoloji kateqoriyanın nəticəsidir. Bunlar: *inikas-ünsiyyət-fəaliyyətdir*. Bu baxımdan şəxsiyyətin psixoloji strukturunun əsasında birinci

növbədə onun idrak prosesləri durur. İnsan həyata gəldikdən sonra duyğu orqanları vasitəsilə ətraf mühit, cisim və hadisələrini əks etdirərək psixi inkişafa nail olur. Bu prosesdə onu əhatə edənlərlə ünsiyyət xüsusi əhəmiyyətə malikdir. Şəxsiyyətin strukturunda onun idrak prosesləri əsasında və onunla yanaşı, aşağıdakı başlıca yarımstrukturları, komponentləri qeyd olunur:

*Şəxsiyyətin istiqaməti*. Buraya onun dünyagörüşü, ictimai mövqeyi, tələbatları, maraq və meyilləri, əqidə və idealları, adət və ənənələri, ideya və praktik yönəlişlik sistemi və s. daxildir. Bu zaman yönəlişliyin komponentlərindən biri dominantlıq təşkil edir və aparıcı olur. Başqaları isə istinad rolunu oynayır. Dominantlıq təşkil edən istiqamət şəxsiyyətin bütün psixi fəaliyyətini müəyyənləşdirir.

Şəxsiyyətin strukturunda sonrakı mühüm yarımstrukturunu onun *hazırlıq səviyyəsi* təşkil edir. Buraya şəxsiyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sistemi daxildir.

Şəxsiyyətin strukturunda mühüm yer tutan yarımstrukturlardan, komponentlərdən biri də onun imkanlarını müəyyənləşdirən və fəaliyyətin müvəffəqiyyətini təmin edən *qabiliyyətlə*r sistemindən ibarətdir (Bayramov Ə., Əlizadə Ə.Ə., s.128-138; 209-235).

Şəxsiyyətin ümumi xüsusiyyətləri aşağıdakılardır:

1. Şəxsiyyət o adamdır ki, başqalarını qavrayıb qiymətləndirməklə yanaşı, eyni zamanda öz mənliyini də dərk edib qiymətləndirir;

2. Şəxsiyyətin mühitə aydın dərk olunmuş münasibəti olur:

• Şəxsiyyəti əhatə edən əşyalara münasibəti;

• Şəxsiyyətin əməyə münasibəti.

3. Şəxsiyyət fəal insandır. O, cəmiyyəti dəyişə bilir, təkmilləşdirə bilir, özünü təkmilləşdirir və özünə nəzarət edir.

Fərdin cəmiyyətdə şəxsiyyət kimi inkişafı çoxcəhətlidir. Şəxsiyyət ictimai münasibətlər sisteminə daha geniş daxil olur. Onun insanlar və ictimai həyatın müxtəlif sahələri ilə əlaqələri genişləndirilir və dərinləşdirilir, məhz bunun sayəsində o, ictimai təcrübəyə yiyələnir, onu mənimsəyir və öz sərvətinə çevirir. Şəxsiyyətin inkişafının bu cəhəti onun ictimailəşdirilməsi (sosializasiyası) kimi xarakterizə olunur (Хрестоматия по психологии. 2009).

Digər tərəfdən, şəxsiyyət ictimai həyatın müxtəlif sahələrinə qovuşduqca daha çox müstəqillik və nisbi avtonomluq qazanır, yəni onun cəmiyyətdə inkişafının mühüm cəhətinin fərdiləşdirmə prosesi təşkil edilir.

Psixologiya tarixinə nəzər salsaq, şəxsiyyətin formalaşdırılması sahəsində bir-birinin əksini təşkil edən iki nəzəriyyənin - inkişafın endogen və ekzogen nəzəriyyəsinin mövcud olduğunu görərik:

• Endogen (yunanca "Endon" - daxili və "Genes" - mənşə deməkdir) nəzəriyyələr şəxsiyyətin inkişafını bioloji amillərlə əlaqələndirərək irsiyyətin roluna xüsusi əhəmiyyət verir;

• Ekzogen nəzəriyyələrdə isə insan bir növ "Tabula rasa"ya (ağ lövhə)yə bənzədilir və şəxsiyyətin formalaşdırılması ancaq sosial amillərin təsiri ilə izah olunur.

Ədəbiyyatlara istinadən demək olar ki, şəxsiyyətin inkişafında təsiri olan vacib amillər irsiyyət, ətraf mühit və tərbiyədir. Eləcə də onun inkişafına mane olan amillər də öz növbəsində üç qrupa ayrılır: psixoloji, tibbi-bioloji, sosial-iqtisadi amillər.

Psixoloji amillər sırasında ailədaxili münasibətlərin, ünsiyyət prosesinin pozulması, uzunmüddətli stress hallarının yaşanması, emosional problemlərin qeydə alınması kimi hallar qeyd edilir.

Tibbi-bioloji amillər isə irsi, anadangəlmə və qazanılmış səbəblər formasında təzahür edir.

Sosial-iqtisadi amillərə aşağıdakılar aiddir:

- Aztəminatlı ailə faktoru;
- Tək valideynli ailələr;
- Valideynlərdə məhkumluq faktının izlənməsi;
- Assosial ailələr, antisosial meyillərin üstünlük təşkil etməsi;
- Münaqişəli ailə faktoru, psixoloji gərginlik, tez-tez yaşanan münaqişələr.

Müasir tədqiqatlar ailə amili ilə şəxsiyyətin inkişaf xüsusiyyətləri arasında birbaşa əlaqə aşkar etmişdir. Ailə problemi nə qədər güclü olarsa, inkişaf pozuntusu da bir o qədər yüksək olur (V.Nikişina. 2004).

## ƏDƏBİYYAT

1. Andreyev V.İ. Pedaqogika: Yaradıcı yaradıcılıq təhsili üçün təlim kursu. Kazan. 2000
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. 2-ci nəşr. Bakı: 2002, s.128-138; 209-235
3. Denisenkova N.S. Pedaqoji müəllim heyəti. M., 1984.
4. Məktəbdaxili idarəetmə: Nəzəriyyə və təcrübə sualları. Redaktor T.İ.Şamova. M., 1991
5. Slastenin V.A. və s. Pedaqogika: Ali pedaqoji təhsil müəssisələrinin tələbələri üçün dərslik. M., 2002
6. Spirin L.F. Pedaqoji problemlərin həlli nəzəriyyəsi və texnologiyası (peşəkar pedaqoji hazırlıq və özünü təhsili inkişaf etdirmə). Redakt. P.I. Pidkasist. M., 1997
7. Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması. Azərbaycan Respublikası Təhsil İnstitutu. Bakı: 2020
8. “Təhsildə psixoloji xidmətin aktual sosial-psixoloji problemləri” Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Bakı: 2012
9. Абрамова Г.С. Возрастная психология Учебное пособие для вузов. Г.С.Абрамова. 5-е изд. М.: Академический проспект; М.: Альма Матер. 2005. с.701. ISBN 5-8291-0265-X 3
10. Выготский Л.С. Лекции по психологии. С.П. 1997
11. Психология мышления. Хрестоматия по психологии. Под ред. Гиппенрейтер Ю.Б. М.: 2009. http://www.psychology-online.net
12. Сорокоумова Е.А. Возрастная психология: Учебное пособие для академического бакалавриата. Е.А.Сорокоумова. 2-е изд., исп. и доп. М.: Юрайт, 2018. с.227 (Серия: Бакалавр. Академический курс). ISBN 978-5-534-04322-8 https://biblio-online.ru/book/vozrastnaya-psihologiya-415544?ref_from=31347

**SUMMARY**

**Sevinj Guliyeva, Valida Valiyeva,**
**Nigar Nasirova**

**FACTORS AFFECTING THE DEVELOPMENT OF STUDENT PERSONALITY IN THE LEARNING PROCESS**

Processes in social life, innovation are not limited only to economic, legal, ideological fields, they affect the way of thinking and behavior of a person, his attitude towards himself and others. If the democratization, humanization of society, the transition to a free market economy, on the one hand, it is necessary to form personalities that meet the requirements of this system, on the other hand, how people participate in this process determines its implementation.

Of course, changes in the life of society have an impact on the education system, making it necessary to update it. On the other hand, in which direction and how the society will develop depends on the success of the education system. Because education covers a large period from infancy to adulthood and reflects the process of personality formation. Education plays a special role in personality formation. In this article, the personality of the student in the learning process and the factors affecting it were investigated. It should be noted that the article can be used by specialists, students and researchers working in this field.

***Key words:*** *education, student personality, factors affecting student personality*

**РЕЗЮМЕ**

**Севиндж Гулиева, Валида Валиева,**
**Нигяр Насирова**

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ ЛИЧНОСТИ СТУДЕНТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ**

Процессы в общественной жизни, инновации не ограничиваются только экономической, правовой, мировоззренческой сферами, они влияют на образ мышления и поведение человека, его отношение к себе и другим. Если демократизация, гуманизация общества, переход к свободной рыночной экономике, с одной стороны, необходимы для формирования личности, отвечающей требованиям этой системы, с другой стороны, то, как люди участвуют в этом процессе, определяет его реализацию.

Безусловно, изменения в жизни общества сказываются на системе образования, вызывая необходимость ее обновления. С другой стороны, от успеха системы образования зависит, в каком направлении и как будет развиваться общество. Потому что образование охватывает большой период от младенчества до взрослой жизни и отражает процесс формирования личности. Особую роль в формировании личности играет образование. В данной статье исследована личность студента в процессе обучения и факторы, влияющие на нее. Следует отметить, что статья может быть использована специалистами, студентами и исследователями, работающими в данной области.

***Ключевые слова:*** *образование, личность учащегося, факторы, влияющие на личность учащегося*

**ARZU HACIYEVA**
*arzuhaciyeva@mail.ru*
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
**ORCID ID: https://orcid.org/0000-0001-9078-0327**

## AZƏRBAYCAN FƏLSƏFƏ TARİXİ: BAŞLANĞIC, YENİ MEYİLLƏR, VƏZİFƏLƏR

*"Azərbaycan fəlsəfə tarixi"nin müstəqil bir elm sahəsi kimi yaranışı keçən əsrin mürəkkəb, təzadlı 40-50-ci illərinə təsadüf edir. Onun təşəkkül prosesinin əzablı, dramatik məqamlarına rəğmən, həmin illərdə fəlsəfə sahəsində görülən təşkilati tədbirlər, Azərbaycan düşüncə tarixinə həsr edilmiş tədqiqatlar, xüsusilə görkəmli filosof, akademik Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" fundamental əsəri (1949) Azərbaycan fəlsəfəsi tarixinin gələcək inkişafı üçün mühüm oriyentirlər verdi, ənənə yaratdı, perspektivlər açdı. Məqalədə çağdaş dövrümüzdə fəlsəfi-tarixi araşdırmalarda rast gəlinən mənfi və müsbət meyillər analiz edilir. Azərbaycan fəlsəfə tarixi sahəsində tədqiqatların dərin analitik xarakter daşımasının, orijinallığının vacibliyi və bu işdə fəlsəfi metodologiyaların, xüsusilə çoxsaylı nəzəri konsepsiyaları ilə hermenevtikanın əhəmiyyəti vurğulanır.*

***Açar sözlər:*** *Azərbaycan fəlsəfə tarixi elmi, ilk dövrləşdirmə, neqativ meyillər, metodologiyalar, hermenevtika, komparativistika, intertekstuallıq*

### Giriş

Azərbaycan qədim sivilizasiya mərkəzlərindən olmaqla bahəm, müxtəlif sivilizasiyaların qovuşduğu məkandır. Təbiidir ki, burada maddi və mənəvi mədəniyyətin, o cümlədən fəlsəfi fikrin rüşeymlərinin yaranması və təşəkkülü ən qədim dövrlərə gedib çıxır. Orta əsrlərdə yaranan, vəhdəti-vücud təliminə əsaslanan müxtəlif dini-mistik, fəlsəfi cərəyanların təsirini bu günümüzə qədər izləmək mümkündür. Ümumiyyətlə, ideyalar varisliyi Azərbaycan fəlsəfəsinin özəlliyini, özünəməxsusluğunu şərtləndirən cəhətlərdəndir. "Azərbaycan fəlsəfə tarixi"nin I cildinə girişdə deyilir: "Azərbaycan deyərkən biz müasir Şimali və Cənubi Azərbaycanın ərazilərini nəzərdə tuturuq. Burada dünya fəlsəfə tarixinə Azərbaycan fəlsəfə tarixi kimi daxil olan fəlsəfə mədəniyyəti yaradılmışdır" (Кулизаде. 2002. 10). Daha dəqiq olsaq, "Azərbaycan fəlsəfə tarixi" burada qeyd edilən müasir coğrafiyamıza bu gün daxil olmayan digər tarixi torpaqlarımızda da (məsələn, Dərbənddə) doğulub boya-başa çatan, həmçinin fəaliyyətlərini başqa ölkələrdə davam etdirən mütəfəkkirlərin irsini də öyrənir. Bu məqamı A.Bakıxanov ilksistemli elmi tariximiz olan "Gülüstani-İrəm"də xüsusi olaraq vurğulamışdır. O, Azərbaycan mədəniyyəti tarixində ilk dəfə olaraq diyarın məşhur şair, yazıçı, mütəfəkkir, din xadimləri barəsində ümumi məlumat verdiyi nəticə hissəsində yazırdı: "Çoxlu qoşunkeşlik və mütəmadi müharibələrin yaratdığı xarabalıqlara baxmayaraq, onlardan (Azərbaycanın əhalisindən A.H.) bir çoxu özünün elm və hünəri ilə bütün dünyada şöhrət qazanmışdır. Onlar hər bir əsrdə, hər bir ölkədə hörmətli və inanılmış kimsələr olmuşlar" (Bakıxanov. 2000. 81). Sonda

öz tərcümeyi-halını da əlavə edən mütəfəkkir təvazökarlıqla, bu diyara mənsubluğundan duyduğu qürurunu bir beytlə belə ifadə edir:

*Başqaları qızıl gül və yasəmən, biz isə tikan olsaq da,*

*Bir gülzarın pərvərdəsiyik* (Bakıxanov. 2000. 90-91).

Hələ XIX əsrin əvvəllərində A.Bakıxanov anlayırdı ki, vətənin keçmişini bilmədən, dahi şəxsiyyətlərini tanımadan onun gələcəyinə nəzər salmaq olmaz.

*1. "Azərbaycan fəlsəfə tarixi"nin tarixindən*

Azərbaycan fəlsəfi fikrinin çoxəsrlik tarixinə, onun spesifikası, ayrı-ayrı problemləri, tarixi, ədəbiyyatşünaslıq əsərlərində, dini-mistik ədəbiyyatda bu və ya digər şəkildə işıqlandırılmışdır. Lakin fəlsəfə dünyagörüşün xüsusi nəzəri növü olub özəl struktura, problemlərə, funksiyalara malik olan elm, mədəniyyətin müstəqil fenomenidir. Tale elə gətirmişdir ki, Azərbaycan fəlsəfə tarixinin məhz müstəqil bir elm sahəsi kimi yaranışı keçən əsrin 40-50-ci illərinə, yəni elmin, xüsusilə humanitar elmin hədsiz ideologiyalaşdırıldığı Sovet dövrünə təsadüf edir. SSRİ-yə daxil olan xalqların fəlsəfələrinin yaradılması sözdə olsa da, "yuxarı"dan dəstəklənirdi, belə ki, "obyektivlik" xatirinə rus fəlsəfəsi kimi, digər xalqların ictimai və fəlsəfə fikrinin tədqiqinə də imkan verilirdi.

Sovet hakimiyyətinin ilk onilliyində fəlsəfə və fəlsəfə tarixinə dair elmi-tədqiqatlar, əsasən, Lenin adına Azərbaycan Dövlət Universitetində, Azərbaycan Elmlər Akademiyasının sələfləri olub, bir-birini əvəz edən elmi qurumlar - Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (1929-1934), SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan bölməsi (1934-1937), daha sonra SSRİ EA-nın Azərbaycan Filialında (AzFAN) (1937-1945) aparılırdı. Qeyd etmək lazımdır ki, 1930-cu illərin sonlarınadək Azərbaycanda mövcud fəlsəfi-tarixi ədəbiyyat, istər əlyazmalar şəklindəki monoqrafiyalar (Геюшов. 1979. Şükürov. 2007), istərsə də çap olunan əsərlər bəzi istisnalarla (məsələn: İ.Hüseynzadə, Seyidzadə. 1929) Avropa fəlsəfəsi tarixinin, xüsusilə antik dövr yunan fəlsəfəsinin, marksizm və XVII əsr rasionalistləri, XVIII əsr fransız materialistlərinin irsinin tədqiqinə həsr olunmuşdur. Bu əsərlərin müəlliflərinin, 1929-cu ildə 26 yaşında həlak olmuş Cahangir Nağıyev, Əbdülkərim Əfəndiyev və A.O.Makovelskidən başqa, əksəriyyəti - Ayna Sultanova, Ruhulla Axundov, Əhmədağa Kazımov, Əli Məmmədbəyov, Mikayıl Hüseynov, Məmməd Kazım Ələkbərli 37-ci il Stalin repressiyalarının qurbanı oldular.

Azərbaycan fəlsəfi və ictimai fikrinə marağın artması, Azərbaycan mütəfəkkirlərinin arxivlərinin araşdırılması, çapı, mövzuya müntəzəm müraciət AzFAN-ın təsis edildiyi 1937-ci ildən sonrakı illərə, 40-50-ci illərə aiddir. 1945-ci ilin yanvarından müstəqil fəaliyyət göstərməyə başlayan Azərbaycan SSR Elmlər Akademiyasının İctimai Elmlər bölməsinin tərkibində Fəlsəfə İnstitutunun təsis edilməsi Azərbaycanda fəlsəfənin tədqiqi qarşısında yeni perspektivlər açdı. Əvvəlcə Mirzə Fətəli Axundzadə və onun ictimai-fəlsəfi irsi, daha sonra tədricən Bəhmənyar, Nizami, Nəsimi, Füzuli, A.Bakıxanov, Zakir, Zərdabi irsi fəlsəfi tədqiqat obyektlərinə çevrilməyə başladı. Bu məsələdə vitse-prezident, akademik Heydər Hüseynov şəxsi nümunə göstərərək, tədqiqatçıları fəlsəfə tarixinin yeni sahəsinə yönləndirmişdir. 30-cu illərin ortalarından başlayaraq, ərsəyə gələn tədqiqatlar, Azərbaycan mütəfəkkirlərinin irsini əks etdirən arxiv materiallarının aşkara çıxarılması, ərəb, fars dillərində əlyazmaların tərcüməsi və nəşri sahəsində qazanılan uğurlar

Azərbaycan fəlsəfə tarixinin dövrləşdirilməsi üçün material verdi. Fəlsəfə institutunun direktoru A.O.Makovelskinin 1945-ci ilin sonlarında SSRİ EA-nın Fəlsəfə İnstitutunun Elmi Şurasının iclasında etdiyi "Azərbaycan fəlsəfəsinin inkişafının əsas mərhələləri" adlı məruzəsi bu istiqamətdə atılan ilk addım oldu. O, məruzədə Azərbaycan fəlsəfə tarixini dörd əsas dövrə bölür. Birinci dövr, antik dövrdür ki, həmin dövrdə fəlsəfi ideyaların əmələ gəlməsi qəbilə quruluşunun dağılması və quldarlıq cəmiyyətinin meydana gəlməsi ilə əlaqələndirilir. İkinci dövr birinci kimi, min ili aşan böyük bir zamanı - feodalizmin hökm sürdüyü VII əsrdən XIX əsrə qədərki dövrü əhatə edir. XIX əsri təmsil edən üçüncü dövrün əsas səciyyəsi olaraq, Bakının sənaye mərkəzi kimi inkişaf etməsi, "Azərbaycanın Rusiyanın tərkibinə daxil olaraq rus mədəniyyəti ilə qovuşması" göstərilir. Azərbaycan fəlsəfəsinin inkişafında sonuncu, dördüncü mərhələ "Zaqafqaziyada Stalin yoldaşın yaratdığı və rəhbərlik etdiyi bolşevik təşkilatlarının yaranması və marksist ideyalarının yayılması, marksist ədəbiyyatın nəşri" ilə əlamətdardır və "bu yeni epoxanın başlanğıcını Stalinin çıxışları qoymuşdur" (Маковельский. 1945. 112). Göründüyü kimi, istər məruzə, istərsə də dövrləşmə Sovet ideoloji stereotiplərindən xali deyildi. Hətta mərhələlərdən biri absurda varıb, sırf Stalinin adı və fəaliyyəti ilə əlaqələndirilirdi. Bununla belə, "SSRİ EA-nın Xəbərləri"ndə dərc edilən yığcam hesabatdan (Маковельский. 1945. 112-114) həmin dövr üçün Azərbaycan fəlsəfəsinin araşdırılma səviyyəsi, həm də A.O.Makovelskinin dərin fəlsəfi təfəkkürünün özəllikləri, geniş erudisiyası barədə aydın təsəvvür əldə etmək olur. İclasın qərarı ilə "SSRİ xalqlarının fəlsəfə tarixi" cildi üçün Azərbaycan fəlsəfəsi tarixinin tərtib edilməsi Azərbaycan SSR EA Fəlsəfə İnstitutuna həvalə edildi. Elə düşünmək lazım deyil ki, milli fəlsəfəsini yalnız Azərbaycan yaradırdı. Elə həmin hesabatdan məlum olur ki, o zaman SSRİ-nin ayrı-ayrı xalqlarının fəlsəfə tarixinin hazırlanması üzərində intensiv iş gedir və bu səbəbdən Makovelskinin məruzəsindən daha əvvəl Ermənistan və Gürcüstanın fəlsəfə tarixinə dair məruzələr dinlənilibmiş. A.O.Makovelskinin məruzəsinin əhəmiyyəti ondadır ki, əvvəla, burada həmin dövr üçün Azərbaycan fəlsəfəsi tarixinin tədqiqi sahəsində mövcud vəziyyəti, əldə edilən nailiyyətləri izləməyə və sonrakı illərlə müqayisəyə imkan verir. Bu məruzədən dörd il sonra Heydər Hüseynovun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" monumental əsəri (1949) işıq üzü gördü. Əsərin və müəllifin faciəvi taleyinə (Hacıyeva. 2015) rəğmən, o, Azərbaycan fəlsəfəsi tarixinin gələcək elmi istiqamətlərini müəyyənləşdirmək, zənginləşdirilmə imkanlarında perspektivlərini göstərmək və bu sahədə aparılacaq tədqiqatların təxmini mövzularını təlqin etməklə onun inkişafına yol açdı.

*2. Azərbaycan fəlsəfə tarixi: problemlər və perspektivlər*

Müstəqilliyimiz dövründə humanitar elmdə, fəlsəfədə tədqiqat obyektinə daha sərbəst yaradıcı münasibət üçün şərait, fikrin azad inkişafı üçün müsbət zəmin yaradılmışdır. Bu gün filosoflarımız dünya fəlsəfi fikrini narahat edən, düşündürən, əsrimizin mühüm problemlərinin həllinə xidmət edə biləcək məsələlərlə məşğul olurlar: postmodern təfəkkür, postneoklassik fəlsəfə, hermenevtika, sinergetika, komparativistika, feminizm və gender fəlsəfəsi, elmin, dinin, siyasətin, mədəniyyətin fəlsəfəsi, süni intellekt, qlobalizm və s. bu hələ tam siyahı deyil. Digər tərəfdən, nəhayət, müstəqilliyimizin öz

fəlsəfəsi - milli ideya, milli dövlətçilik, azərbaycançılıq məfkurəsi və onların fəlsəfi problemləri gündəmə gəlmiş, bir çox sanballı əsərlər işıq üzü görmüşdür.

Bütün bunlara baxmayaraq, etiraf etməliyik ki, ümumilikdə humanitar, ictimai elmlər sahəsində olduğu kimi, fəlsəfə, o cümlədən fəlsəfə tarixi tədqiqatlarında da bir sıra, təəssüf ki, çoxalmağa üz tutmuş neqativ meyillərlə rastlaşırıq. Bunların ən geniş yayılmışlarından birini "asan yolla", daha dəqiq desək, "oğurluqla əsər yazmaq" adlandırmaq olar. Söhbət plagiat və ya bir qədər yumşaq demək istəsək, kompilyasiyadan gedir. Bu psevdoelmi əsərlərə xas əsas cəhət mənbələrin öyrənilib araşdırılmaması və özgə müəlliflərin fikirlərini, şərhlərini götürüb onlara istinad etmədən mənimsənilməsidir. Köçürülən və ya mənimsənilən parçaların mənbəyini itirmək və oxucunu azdırmaq cəhdləri elmi əsərin əsas göstəricilərindən olan ədəbiyyatdan istifadə qaydalarının büsbütün pozulması ilə nəticələnir, adətən elə mənimsənilən mənbənin bəzi istinadlarına müraciət edilir, bir çox hallarda istinad səhifəsi göstərilmir, yaxud ixtiyari bir rəqəm yazılır. Tutalım, "tədqiqatçı" oxucusunu 250 səhifəlik kitabın 796-cı səhifəsinə yönəldir. "İstifadə edilmiş ədəbiyyat" siyahısında "əsərə" elmi görkəm vermək xatirinə istifadə edilməmiş bol-bol mənbə və ədəbiyyatlar yer alır və s. Maraqlıdır ki, hazırki plagiatla mübarizə şəraitində (əsərlərin antiplagiat proqramından keçirilməsi və s.) plagiatın "yeni", qanun donuna geydirilmiş formaları icad edilir. Tutalım, hansısa bir ədibin fəlsəfi dünyagörüşü haqqında yazan müəllif həmin ədibin yaradıcılığını oxuyub araşdırmaq əziyyətinə qatlaşmadan, onun barəsində artıq mövcud tədqiqat ədəbiyyatından, hətta 40-50 il bundan əvvəl Sovet dövründə yazılmış kitabların müxtəlif səhifələrindən götürdüyü ayrı-ayrı cümlələri, abzasları, yaxud bütöv hissələri elə olduğu kimi götürüb bir-birinə calayır və dırnaq içərisinə almadan, sanki özünəməxsus olan mətn kimi təqdim edir, amma bir-iki yerdə mənbəni göstərməklə guya plagiatda ittihamdan özünü qoruyur. "Seçmələr mənimdir" adlanan bu "metod"un mahiyyəti bundan ibarətdir: utanma, kefin istədiyin qədər köçür, amma köçürdüyün əsəri ədəbiyyat siyahısında göstər. Elələri də olur ki, tədqiq etdiyi mövzunun tarixşünaslığı ilə yetərincə tanış olmur, ədəbiyyat kimi elə öz əsərlərinə istinad edir, bir çoxları tədqiq etdiyi filosofun mətnlərini sadəcə öz sözləri ilə nəql etməklə işini bitmiş hesab edir. Aşkar plagiatı demirəm, hətta bu sonuncu halda da, aydındır ki, tədqiqat problemə heç bir yenilik gətirmir, biliyi zənginləşdirmir, səhvlərə yol açır, ümumiyyətlə mənasız məşğuliyyətə çevrilir.

Daha bir neqativ meyil sinfi yaxud qrup maraqlarından çıxış edib, müəyyən prioritetləri (siyasi ideoloji, əxlaqi, mədəni və s.) rəhbər tutaraq, keçmiş tarixi irsimizə, intellektual, mənəvi ənənələrimizə, digər tərəfdən, Sovet dövründə yaranan tədqiqatlara birtərəfli tənqidi münasibətdə əksini tapan inkarçılıqdır. Necə ki, bir vaxtlar Heydər Hüseynovu "Azərbaycan fəlsəfi fikir tarixindən çıxarmaq" kimi absurd təklif irəli sürülmüşdü (Məmmədov. 2009). "Azərbaycan fəlsəfə tarixi"nin humanist mahiyyətinə ziyan gətirən daha bir bəla, radikal millətçilik təzahürləridir. Neobolşevizm və ya marksist-leninçi metodun astar üzü adlandırıla bilən belə yanaşmalar ona görə təhlükəlidir ki, müəlliflərinin öz mövqelərini son instansiyada həqiqət kimi qələmə verdikləri, təhriflərlə dolu əsərlər, yanlış ictimai rəy formalaşdırmağa müvəffəq ola bilir, ayrı-seçkiliyə rəvac verir.

Azərbaycanın mifologiyası, folkloru, parlaq təmsilçiləri olan orta əsrlərin peripatetik fəlsəfəsi, qeyri-ortodoksal bidətçi dini-mistik cərəyanlar fəlsəfəsi, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, sonrakı dövrlərdə onların ənənəsini davam etdirmiş Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid kimi dahi mütəfəkkir şairlərimizin fəlsəfi poeziyası, XIX əsr və XX əsrin əvvəllərində maarifçi filosoflarımızın əsərləri, fəlsəfi refleksiyada mühüm rol oynamış publisistikası - keçmiş əsrlərdən gəlib bizə çatan böyük və zəngin irsdir. Əslində adları çəkilən və çəkilməyən mütəfəkkir şəxsiyyətlərimiz haqqında fəlsəfi aspektdən yazılan əsərlər mövcuddur. Dəyərli tədqiqatlarla yanaşı, bəzən, eyni iqtibaslara müraciəti, ideoloji-metodoloji stereotipləri, yanaşmaları ilə bir-birinə bənzəyən əsər və məqalələrlə rastlaşırıq. Bu hətta əsərlərin başlıqlarından da görünür. Sovet dövründən qalma, mütəfəkkirin "dünyagörüşü", "ictimai görüşləri", "fəlsəfi və ictimai görüşləri", "ictimai-siyasi görüşləri" və s. adlarından köhnəlik yağır. Bizə bu gün hansısa başqa birinə bənzəyən, dayaz yox, bütöv bir ideya sistemini təfsirlə rekonstruksiya edə bilən dərin orijinal tədqiqatlar lazımdır. Bu məsələdə metodologiya probleminin vacibliyi danılmazdır. Karl Yaspers əbəs yerə fəlsəfə tarixini "filosofluq etmənin formaları, anlayışları və metodları haqqında, xüsusilə, orijinal spesifik metodları haqqında bilik və filosofluq edərkən irəli getmə üsulu haqqında bilik" kimi səciyyələndirməmişdir. Düşünürəm ki, hermenevtika, mətnlə işləməyin, daha dəqiq onu anlamağın müxtəlif üsul və vasitələrini təqdim edən öz çoxsaylı nəzəri konsepsiyaları ilə bu sahədə əhəmiyyətli ola bilər. Mədəni-tarixi irsə, ənənələrə həssas münasibəti, keçmiş irsi mənalandıraraq daim müasirliklə əlaqələndirmək cəhdində ifadə edilən dialoji və akseoloji xarakteri, humanist mahiyyəti və missiyası, dil fenomeninə xüsusi əhəmiyyət verməsi, rasional və irrasional idrakı əlaqələndirməsi, komparativistika, intertekstuallıqla bağlılığı hermenevtikanı Azərbaycan fəlsəfə tarixi üçün metodoloji baxımdan cəlbedici edir.

**Nəticə**

Azərbaycan fəlsəfə tarixi elmi keçən əsrdə Stalin rejiminin hökm sürdüyü çox mürəkkəb, əzablı və ziddiyyətli dövründə formalaşmışdır. Əslində belə ağır şəraitdə Heydər Hüseynovun milli fəlsəfədən bəhs edən "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" fundamental əsərini (1949) yazıb nəşr etdirməsi müəllifin böyük cəsarətindən xəbər verir. Bu əsər Azərbaycan fəlsəfəsi tarixinin gələcək elmi istiqamətlərini müəyyənləşdirmək, zənginləşdirilmə imkanlarında perspektivlərini göstərmək və bu sahədə aparılacaq tədqiqatların təxmini mövzularını təlqin etməklə onun inkişafına yol açdı. Hazırda Azərbaycan fəlsəfə tarixi qarşısında bu ənənəni davam etdirməklə bahəm, yeni vəzifələr durur. Əvvəla, tədqiqatçıların əməyini yüngülləşdirən, həm də görkəmli mütəfəkkirlər qarşısında mənəvi borcumuzu yerinə yetirmək naminə, Azərbaycan fəlsəfəsinin mənbəşünaslıq bazasını zənginləşdirmək lazımdır, onun tarixini əks etdirən mühüm materiallar arxiv və kitabxanalardan aşkar edilib, çap olunmalıdır. Görkəmli Azərbaycan filosoflarının tənqidi mətnlərlə nəşri pis olmazdı. Ən əsası bu gün fəlsəfi-tarixi tədqiqatların səviyyəsini yeni metodlar, yanaşmaların köməyi ilə daha yüksək səviyyəyə qaldırmaq tələb olunur.

## ƏDƏBİYYAT

1. Bakıxanov Ab. (2000). Gülüstani-İrəm. (Tərcumə edəni M.Əskərli). Bakı: Minarə https://www.ebooks.az/book_5RhlC2Sf.html (15. 02.2023)
2. Геюшов З.Б. (1979). Философская мысль в советском Азербайджане. Краткий очерк. Баку: Элм
3. Кулизаде З.А. (Отв. Ред.). (2002). История Азербайджанской философии: Т. 1. Баку: Элм
4. Маковельский А.О. (1945). Основные этапы развития азербайджанской философии. "Вестник АН СССР", №10-11, 112-114.
5. Сеидзаде А.А. (1928). Боденштедт или Мирза Шафи. Журнал "Красная панорама", Л., октябрь. с.52-59.
6. Hacıyeva A. (2015). Akademik Heydər Hüseynov. Bakı: Elm.
7. Hüseynzadə İ. (1926). Füzuli və təsəvvüf. "İnqilab və mədəniyyət". № 1.
8. Məmmədov A. (2009). Heydər Hüseynov mübahisəsinə davam. "525-ci qəzet". 19 iyun.
9. Seyidzadə Ə.Ə. (1929). Gəncəli böyük mütəfəkkir və şair Mirzə Şəfi Vazeh. Gəncə.
10. Şükürov A. (2007). Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı: Səda.

## SUMMARY

**Arzu Hajiyeva**

## HISTORY OF AZERBAIJANI PHILOSOPHY: BEGINNING, NEW TRENDS, TASKS

The emergence of "History of Azerbaijani Philosophy" as an independent scientific field refers to the complex, controversial 40-50s of the last century. Despite the painful and dramatic moments in the process of its formation, the organizational work undertaken in those years in the field of philosophy, ongoing research in the field of the history of Azerbaijani thought, in particular the fundamental work "About social and philosophical thought history of Azerbaijan in XIX century" (1949) by an outstanding philosopher, Academician Heydar Huseynov gave important guidelines for its development, created a tradition, opened up prospects for the future of the history of Azerbaijani philosophy. The article analyzes the negative and positive trends that are encountered in philosophical and historical research in our time. The importance of a deep analytical nature and originality of research in the field of the history of philosophy of Azerbaijan and the importance of philosophical methodologies, especially hermeneutics with its numerous theoretical concepts are emphasized.

***Key words:*** *science of the history of Azerbaijani philosophy in, the first periodization, negative trends, methodologies, hermeneutics, comparative studies, intertextuality*

## РЕЗЮМЕ

**Арзу Гаджиева**

## ИСТОРИЯ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ: НАЧАЛО, НОВЫЕ ТЕНДЕНЦИИ, ЗАДАЧИ

Возникновение "Азербайджанская история философии" как самостоятельное научное направление относится к сложным, противоречивым 40-50-м годам прошлого века. Несмотря на болезненные и драматические моменты процесса ее становления, организационные работы, предпринятые в те годы в области философии, проводимые исследования в области истории азербайджанской мысли, в особенности фундаментальный труд "Из истории общественной и философской мысли в Азербайджане XIX века" (1949) выдающегося философа, академика Гейдара Гусейнова дали важные ориентиры ее развитию, создали традицию, открыли перспективы для будущности истории азербайджанской философии. В статье анализируются негативные и позитивные тенденции, встречающиеся в философско-исторических исследованиях в наше время. Подчеркивается важность глубокого аналитического характера и оригинальности исследований в области истории философии Азербайджана и значение философских методологий, особенно герменевтики с ее многочисленными теоретическими концепциями.

***Ключевые слова:*** *наука истории философии Азербайджана, первое периодизация, негативные тенденции, методологии, герменевтика, компаративистика, интертекстуальность*

**ƏLƏDDİN MƏLİKOV**
*aladdin.malikov@gmail.com*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
**ORCID ID https://orcid.org/0000-0001-5830-6764**

## MÜASİR DÜNYADA FƏLSƏFƏ TƏDRİSİNİN PROBLEMLƏRİ

*Fəlsəfənin təhsil və tədrisi hazırkı dünyanın təhsil problemlərindən biridir. Bunun barəsində dünyadakı fəlsəfə institutları geniş və ətraflı şəkildə müzakirələr aparıb və qərarlar veriblər. O qərarlardan ən başlıcası uşaqlar üçün fəlsəfi kitabların yazılması və fəlsəfi düşüncələrlə uşaqlıq və gənclik illərindən tanış etmək missiyası dururdu. Lakin təcrübə göstərdi ki, bu məsələ o qədər də asan məsələ deyilmiş. Çünki bu sahədə yazılan bəzi əsərləri istisna etsək, yazılan kitablar nə qədər sadələşdirilsə, yenə uşaqlar və gənclərdə maraq oyatmır və aydın şəkildə mənimsənilməmişdi. Bu səbəbdən fəlsəfənin tədris və təhsilinə öncəki vəziyyətlə davam edilir.*

***Açar sözlər:*** *fəlsəfə, pedaqogika, müasir elm, inkişaf, ali təhsil, təhsil, tədris*

### Giriş

Bütün dünyada fəlsəfənin təhsil və tədrisinin sıxışdırılmasına bir növ siyasi rəng verilir və "düşüncənin sıxışdırılması və önünün alınması" kimi təqdim olunur. Fəlsəfə arqumentsiz inanmağı, öz inamın üçün hər bir problemə cəsarətlə sinə gərməyi, öz təfəkkürünü əsaslandırmaq üçün dayanıqlı və davamlı şəkildə təhsil almağı və bilik toplamağı, ən vacibi isə öz düşüncənə özgüvənin olmasını aşılayır və nəticədə şəxsiyyət sahibi olmanı formalaşdırır. Qısacası, fəlsəfə azad düşüncənin məhsuludur. Dövlətlər bunun əleyhinə olmalıdırmı?! Düşünmürəm. Azərbaycanda cənab Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin yubileyindəki məruzəsində qeyd edirdi: *"Onlar (Azərbaycanı istəməyənlər) gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməli, onları tərbiyə də etməlidirlər".*

Nəticə etibarı ilə, dövlətlər şüursuz, savadsız gənclərin formalaşmasını dəstəkləmir. Zira, məhz elə fərdlərin hansısa qüvvələrin "xammalına" dönmə ehtimalı daha çoxdur. Prezident İlham Əliyev ali təhsilin qarşısında tələb qoyur: *"Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin"*. Doğrudur, vətən, tədbirli, təfəkkürlü və şüurlu gəncləri ilə güclüdür. Respublikanın müstəqilliyini qoruyan idarəetmənin prioritet yolu sırf müstəqil düşüncənin formalaşdırılmasından keçir.

Ali təhsil müəssisələrinə də baxmaq lazımdır. Hər şeydən öncə tələbəyə fəlsəfənin əhəmiyyəti, düşüncənin necə gizli bir xəzinə və böyük güc olmasından təfərrüatlı şəkildə bəhs etmək və nümunələrlə izah etmək lazımdır. Sonradan gənclərin maraq dairələrini öyrənib, tədris və müzakirə üçün maraqlı mövzulara toxunmaq lazımdır. Nəhayət, fəlsəfənin

əsas mövzuları keçirilməlidir. Amma bütün bunlar üçün ilk öncə proqramlar yenilənməli və günün tələblərinə uyğun olmalıdır.

Əlbəttə, qeyd etmək lazımdır ki, təfəkkür və düşüncə formalaşdırmaq yalnız parta arxasında olmur. Fəlsəfəni öyrənmək fəlsəfə kursunda keçid balı alıb, qəbul olmaqla da olmur. Neçə görkəmli fikir sahibləri var ki, tamamilə başqa sahənin - riyaziyyatın, fizikanın, tarixin yetirməsidir. Lakin bu da bir faktdır ki, fəlsəfə xüsusi bir elm olaraq, təhsil və tədrisin güclü şəkildə gedişindən keçir. Nəzəriyyələri öyrənmək, fəlsəfi düşüncənin formalaşması üçün zəruri xarakter daşıyır.

*Azərbaycanda fəlsəfənin tədris və təhsili*

Qeyd olunanlarla yanaşı, bəzilərinin respublikada fəlsəfə yıxılmış və baltalanmış kimi düşüncələrini doğru hesab etmirəm. Lakin onun ideal vəziyyətdə olduğunu da bildirmək niyyətim yoxdur, əksinə, məqsədim onu bu hala salan, hazırda da ayağa qalxmağa mane olan səbəbləri araşdırmaqdır. Aydındır ki, səbəb elə təhsil və tədrisin özündədir. Sanki özgələr yox məhz özümüz fəlsəfənin qəsdinə dayanmışıq.

Azərbaycan Respublikasında fəlsəfənin tədris və təhsili məsələsinə nəzər saldıqda bir sıra problemlərin olması müşahidə edilir. İlk olaraq, ali təhsil müəssisələrində fəlsəfənin saatlarının ümumilikdə azaldılıb və bir sıra hallarda da seçmə fənn kimi təqdim olunmasıdır. Lakin bəzən düşünürəm fəlsəfənin seçmə fənn kimi təqdim edilməsi niyə bu qədər narahatçılıq doğurmalıdır? Təfəkkürü bacaran tələbə zatən fəlsəfəni seçəcək, əksinə, "düşünən şəxs" anlayışından uzaq olan və fikirləşmək ona ağır gələn fərd isə fəlsəfəni yük sayaraq seçməyəcək. Başqa tərəfdən baxdıqda isə belə bir mənzərə ilə qarşılaşırıq ki, məcburi fəlsəfə fənni vətəndaşa nə verə bilər ki? Əslində, bu fikrə belə cavab tapmışam ki, insan hələ orta təhsil alarkən düşünməyi öyrənməyə başlamalıdır, çünki bu zehni fəaliyyət tələb edən bir prosesdir. Bu ilk olaraq olmalıdır ki, sonra da ali təhsil alarkən onun davamını axtarıb tapsın. Bəzən bu mövzu haqqında düşünərkən, orta məktəbin son illərində fəlsəfənin tədris edilməsinin zərurətinə varıram. Bu məsələni fəlsəfə ilə tanışlıq baxımdan da çox faydalı hesab edirəm. Təəssüf ki, bizim təhsil sistemimizdə bu problem hələ də öz həllini tapmayıb. Nəticədə fəlsəfə daha ciddi bir böhrana girməkdə davam edir. Digər bir tərəfdən, gəlib o müstəviyə çatmışıq ki, bu gün onun ümumiyyətlə, tədris və təhsil sistemindən yığışdırılması məsələsi vurğulanır. Əgər bu sadəcə söz-söhbətdən ibarət olsa belə, fəlsəfə kimi elmlərin şahı və ya anası adını almış bir sahənin "sahibsiz yetim" kimi təhsil və tədrisdən sıxışdırılması, haqqında xoşagəlməz ifadələrin işlədilməsi heç də xoş mənzərə vəd etmir. Burada əsas sual budur ki, hansı amillər "elmlərin anası"nın bu günə qoyulmasına səbəb olub?

İllər öncə "Fəlsəfə və onun ictimai həyatda yeri" adlı məqalədə belə qeyd olunurdu: *"Son illərdə Azərbaycan ali məktəblərinin tədris planlarında fəlsəfəyə və ictimai-siyasi fənlərə ayrılan saatların azaldılması, bu fənlərin bir çoxunun ixtisar edilməsi, orta məktəblərdə "İnsan və cəmiyyət" fənninin tədrisi üçün hələ də müəllim kadrlarının hazırlanmaması, kütləvi informasiya vasitələrində fəlsəfi fikir tariximizə və ümumiyyətlə, mənəvi təkamülə, dünyagörüşünün genişlənməsinə xidmət edən verilişlərə çox az yer ayrılması, habelə, mədəniyyətşünaslıq və maarifçilik yönlü verilişlərin azlığı, mədəni-mənəvi dəyərlərin yetərincə təbliğ olunmaması- bütün bunlar bizi narahat edir".*

Bu fikirdə problemin mahiyyətini üç hissəyə bölmək olar:

a) Kadr hazırlığının olmaması;

b) Tədris proqramında lazımi materialların diqqətdən kənar qalması;

c) Fəlsəfəyə kifayət qədər təşviqatın olmaması.

Həmin dövrdə *"Fəlsəfə bizə lazımdırmı?"* adlı məqalə "525-ci qəzet"də dərc edildi. Orada isə qeyd edilirdi: *"Bu gün fəlsəfə mənim deyil, bizim deyil, çünki fəlsəfə onu yaradanın, ona sahib çıxanındır. "Fəlsəfə heç kimin deyil" fikri ilə də razılaşmaq olmaz. Çünki fəlsəfənin sükanı hələ də Qərbin əlindədir. Bəli, dünya onu anlayanındır. Fəlsəfə kimindirsə, dünya da onundur"*. Müəllif bu fikirlərlə fəlsəfənin yalnız mütəxəssislər üçün deyil, hər kəs üçün zəruri olduğunu xatırlayır və bu səhlənkarlığın sonucunu naqis şəxsiyyət və cəmiyyət ilə nəticələnəcəyinə eyham vururdu. Fəlsəfəsi olmayan bir xalqın öz fəlsəfəsi də qələmə alınmayacaq və beləcə, o, daim Qərbin, xarici qüvvələrin kölgəsində getməli olacaq. Əlbəttə, problem burada bitmir. Fəlsəfənin sadəcə bir fənn olmayıb, sağlam düşüncəli, düzgün inanclı vətəndaş yetişdirməklə köklü cəmiyyətin formalaşmasını təmin edən qüvvə olduğu bilinməlidir.

**Nə etmək lazımdır?**

Bu problemlə bağlı öz növbəmdə mən də fikir səsləndirmişəm, ixtisasından və təhsilindən asılı olmayaraq hər kəsi düşünməyə, öyrənməyə və fikir bildirməyə dəvət etmişəm. Bəziləri bildirir ki, fəlsəfəni öyrətmək mümkün deyil, ona yalnız həvəs yaratmaq, maraq oyatmaq, təhrik etmək lazımdır. Mən bu fikirlə qismən razı ola bilərəm. Bu düşüncə ilə tam razı deyiləm. Təbii ki, fəlsəfə həm tədris olunmalı və həm də təhsil verilməlidir. Bəli, bu kifayət deyil. Bu minimumdur. Bütün bunlarla yanaşı, fəlsəfə mərkəzləri, kafedraları, institutları, şöbələri bir-biri ilə diskussiyaya girməli və müsbət mənada rəqabət aparmalıdırlar. İndi yalnız konkret təkliflərimi qeyd edirəm:

1. Hər şeydən əvvəl qeyd edim ki, bütün yük ancaq ali təhsil müəssisələrinin üzərinə düşməməlidir. Doğrudur, orada tələbələr yetişir, Fəlsəfə İnstitutları və mərkəzlərində isə həmin tələbələri yetişdirən müəllimlər və nəzəriyyəçilər də özlərinin varlıqlarını təsdiqləməlidirlər.

2. Fəlsəfə proqramlarında mütləq milli şüur, milli düşüncə kodeksləri ağırlıq təşkil etməlidir. Antik Yunan, Orta əsrlər, İntibah dövrü, Müasir dövr və sair başlıqlar ilə fəlsəfəni öyrənən tələbə əvvəlcə özünüdərk məsələsini təkmilləşdirməli və öz kökünü dəyərləndirməyi bacarmalıdır. Nə qədər dərdli də olsa, etiraf etməliyik ki, bugünkü iqtisadi şəraitdə fənn olaraq fəlsəfənin "müştərisi" azdır, bu səbəbdən də onun "istehsalını" azaldırlar. Əlavə olaraq, nəzərə alaq ki, bizim bu bazarda, əsasən, "xarici mal" satılır. Həqiqi alıcı gedib onu elə yerindən almaq istəyir, əldən ələ kimsəyə sərf eləmir. R.Dekartı seçən, yaxud Hind fəlsəfəsini istəyən daha dərin bilik axtarır və bizim təhsildə onu tapa bilmir. Bu, bir dərddir. Başqa bir dərd isə budur ki, həmin tələbə elə öz fəlsəfə müəlliminə, elmi rəhbərinə sual verir, daha doğrusu, irad tutur: *"Azərbaycanda filosof varmı?"* Əgər bu sualı verirsə, deməli, düşüncə müstəvisində həmin gənci artıq itirmişik. Ona Ş.Sührəvərdini də gətirsək, inanmaz, onu başqa millətə aid edər. Bəli, mütləq şəkildə bütün yüksək fəlsəfələri öyrənmək lazımdır. Qədimdən bu günə uzanan bütün hikmətləri mənimsəmək zəruridir, amma öz hikmət və fəlsəfəmizin kökü üzərində. Həm gənclər öz təməlini tanımalı, qürur duymalı, inanmalı, həm də formalaşan yeni təfəkkür və şəxsiyyət sahibləri ilk növbədə öz xalqına faydalı olmalıdır.

3. Dünya fəlsəfə irsi Azərbaycan dilinə tərcümə edilməlidir və bu, həvəskar şəkildə, pərakəndə halda deyil, mütəxəssislərin nəzarəti altında olmalıdır. Bura Şərq və Qərbin

qovşağıdır. Həm klassik, həm də müasir müəlliflər tərcümə edilməlidir.

Bununla həm Azərbaycan dili, həm də fəlsəfənin dili inkişaf edəcək, həm də tələbələr, tədqiqatçılar fəlsəfi irslə yaxından tanış olmaq imkanı qazanacaqlar. Həmçinin dissertant və doktorantların tədqiqat sahələri də genişlənəcək.

4. Azərbaycan filosofları haqqında sənədli filmlər və ya qısametrajlı roliklər çəkilməlidir. Bu, yalnız fəlsəfənin təbliğinə deyil, həm də maariflənməyə xidmət edəcək. Millət öz mütəfəkkirlərini tanımalı və bilməlidir ki, yalnız oxuyub çalmaqdan əlavə həm də düşünməyi bacarır.

5. Universitetlər, kafedralar, institutlararası fəlsəfə gecələri, saatları keçirilməli və məktəblərlə əməkdaşlıqlarını sıxlaşdırmalıdırlar. Aktual mövzular haqqında birgə fəlsəfi konfranslar, seminarlar, dəyirmi masalar keçirməlidirlər. Bütün bunlar geniş auditoriya üçün açıq olmalıdır. Bu seminarlar yalnız dəvətlilər və institutun əməkdaşları üçün yox, geniş auditoriya üçün açıq olmalı və öncədən elan edilməlidir. Düşüncələr dinlənilməli və dəyərləndirilməlidir. Mütəxəssislərə söz verilməlidir. İştirakçılar suallarını azad şəkildə verməlidirlər. Əks təqdirdə, axarı olmayan su kimi tədricən fəlsəfə bataqlığa çevriləcək, bu isə cəmiyyətdə əks olunacaq. Necə ki, uşaqkən şahmat oynamağı öyrənmək, onun məntiqinin, fikir ardıcıllığının inkişaf etməsinə kömək edir. Beləcə də fəlsəfi təfəkkür insanın bütün həyatına işıq saça bilər və düyünə düşmüş işlərini anlamağa kömək edər.

**Nəticə**

Ümumilikdə xalqların inkişaf yolu heç də həmişə düz və hamar olmur. Bu tarixin zərurəti kimi də qəbul edilə bilər. Yalnız öz düşüncəsinə əmin olan, öz varlığını dərk edərək bunu dünyaya elan edə bilən xalqlar taleyin çətin məqamlarından çıxa bilir. Məsələn, bu gün alman xalqı az qala fəlsəfənin şahı kimi tanınır. Halbuki XIX əsrdə almanlar dərin bir böhran içərisində idilər və bunu ilk növbədə onun düşüncə sahibləri görür və həll yolları axtarırdılar. Hegel dövrünün reallığının boğucu olduğunu, insanların tədricən mənən rəzilləşdiyini görüb bildirirdi ki, *"alman həyatı indiki vəziyyətində qala bilməz, çünki hər şey bütün qüvvəsini, bütün ləyaqətini itirib, nə isə mənfi bir hadisəyə çevrilib"*. Eyni proses XX əsrin əvvəllərində Azərbaycanda da mövcud idi: aydınlar səfərbər olunaraq nəşr etdikləri jurnallar, məqalələr vasitəsilə xalqı sanki xəstəlik kimi bürümüş mövhumat və cəhalətdən xilas etməyə çağırır və çalışırdılar. Nəticədə Azərbaycanda bütün sahələrdə yüksək bir dirçəliş yaşandı.

Elmin, mənəviyyatın, mədəniyyətin, dinin - hər birinin öz missiyası var. Fəlsəfənin missiyası isə düşüncə qabiliyyətini inkişaf etdirmək, özünüdərk, özünəqayıdış və özünüifadəyə qadir insanlar yetişdirməkdir. Şəksiz bu gün fəlsəfə katarsis yaşayır. Yalnız Azərbaycanda yox, bütün dünyada bu belədir. Düşüncələr, maraqlar ələnib ələkdən keçir. Əslində, sənayeləşmə, robotlaşma və rəqəmsallaşma ilə bu gün insan özü bir özgələşmə halı yaşayır. Bu səbəbdən onun əlaqəli olduğu hər bir sahə, hər bir istiqamət böhran içindədir. Belə böhranlar tarixən çox olub. Məhz belə böhranların əsası olan insan böhranının kökünü, səbəblərini, xüsusiyyətlərini öyrənməklə onların öhdəsindən gələ biliblər. Bütün istiqamətləri böhrandan çıxarmaq və ya fürsətə çevirmək üçün məhz insanın özü, təfəkkürü böhrandan çıxmalıdır. Bu isə birbaşa fəlsəfənin missiyasıdır. Doğrudur, hikmət və hikmətə eşqi olan fəlsəfə, insanlığın özü kimi, həmişə, qədimdə də, indi də risk zolağında olub. Amma o, fundament və kök olduğuna görə, onu yox eləmək mümkün olmayıb, yenə də olmayacaq!

**FAİQ ƏLƏKBƏRLİ**
*faikalekperov@mail.ru*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Fəlsəfə və Sosiologiya İnstitutu*
**ORCID ID http://orcid.org/0000-0002-8865-568x**

# XX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN TÜRK FƏLSƏFƏ TARİXÇİLİYİNİN METODOLOJİ MƏSƏLƏLƏRİ

*Məqalədə göstərilir ki, Azərbaycan Türk fəlsəfə tarixinin yazılması və bir elm kimi formalaşması prosesi mürəkkəb bir yol keçmişdir. Uzun müddət hesab edilmişdir ki, Azərbaycanda milli fəlsəfə tarixçiliyi akademik Heydər Hüseynovun 1949-cu ildə nəşr olunan "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri ilə başlamışdır. Ancaq müəllifə görə, milli fəlsəfə tarixçiliyi Hüseynova qədər sırf elmi-fəlsəfi akademik üslubda olmasa da, Azərbaycan Türk mütəfəkkiri Firidun bəy Köçərlinin 1900-cü illərdə qələmə aldığı "Azərbaycan türklərinin ədəbiyyatı" fundamental əsəri ilə bağlıdır. Çünki Köçərli həmin əsərdə yalnız ədəbiyyat məsələlərini deyil, eyni zamanda ictimai-fəlsəfi problemləri də işıqlandırmışdır. Başqa sözlə, Köçərli özünün də qeyd etdiyi kimi, bu əsərində "şairi-qabil"lərlə yanaşı, "ədibi-fazil" adlandırdığı mütəfəkkirlərin mədəni-fəlsəfi irsini də tədqiq və təhlil etmişdir. Eyni zamanda, məqalədə H.Hüseynova qədərki dövrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikrinə bu və ya digər formada, öz əsərlərində yer verən A.A.Bakıxanov, A,Sur, Y.V.Çəmənzəminli, M.Tərbiyət, S.Mümtaz, M.Ə.Rəsulzadə və başqalarının da "fəlsəfə tarixçi"liyinə qısa şəkildə də olsa toxunulmuşdur. Bundan sonra müəllif əsas diqqəti H.Hüseynovun fəlsəfə tarixçiliyinə cəmləmiş, onun əsərinin Azərbaycan xalqının fəlsəfə tarixçiliyində yerini və rolunu göstərməyə çalışmışdır.*

***Açar sözlər:*** *Azərbaycan Türk fəlsəfə tarixinin qaynaqları, F.b.Köçərli, akademik fəlsəfə tarixçiliyi, H.Hüseynov, çoxcildlik "Azərbaycan fəlsəfə tarixi"*

## Giriş

Yeni dövrdə Azərbaycan Türk fəlsəfə tarixinə aid ilk əsərlərin meydana çıxmasını və onun inkişaf yollarını təhlil etmək vacib məsələlərdən biridir. Çünki bu mövzu Azərbaycan Türk fəlsəfəsinin öyrənilməsi və araşdırılması baxımından əhəmiyyətli olduğu qədər, bu və ya digər şəkildə gələcək nəsillərə çatdırılması da önəmlidir. Belə ki, bu günə qədər Azərbaycan Türk fəlsəfə tarixinin hansı şəraitdə və necə meydana çıxması çox dərindən araşdırılmamışdır. Çox təəssüf ki, indiyə qədər bu sahəni araşdıranlar məsələyə çox zahiri yanaşmış, üstəlik Azərbaycan fəlsəfə tarixçiliyinin, ancaq 20-ci əsrin ortalarında akademik Heydər Hüseynov tərəfindən yazılmasını iddia etməklə kifayətlənmişlər.

Digər tərəfdən isə, Azərbaycanda "fəlsəfə tarixi"nin necə meydana çıxması, milli fəlsəfə tarixinin yazılmasının inkişaf yolları, qarşıya çıxan problemlər və həll yolları ətraflı şəkildə tədqiq edilməmişdir. Doğrudur, biz qədim dövrlərə və orta əsrlərə müraciət etdikdə görürük ki, Azərbaycan coğrafiyasında mövcud olmuş dövlətlərdə fəlsəfə tarixinə ciddi maraq olmuşdur. Hər halda Azərbaycan Türk mütəfəkkirlərinin əsərlərindən belə nəticəyə gəlmək olar ki, onlar bu və ya digər formada fəlsəfə tarixini, fəlsəfəni təbliğ və tədris ediblər.

Ancaq bir müddət Azərbaycanda durğunluq olmuş, yalnız 19-cu əsrdən etibarən Azərbaycanda fəlsəfə, fəlsəfə tarixinə, o cümlədən Azərbaycan Türk fəlsəfə tarixinə yenidən maraq yaranmışdır. Hər halda bu dövrdən etibarən A.A.Bakıxanovun, M.F.Axundzadənin, C.Əfqaninin, H.Zərdabinin, S.Ə.Şirvaninin, Nəbatinin və başqalarının irsində fəlsəfə və fəlsəfə tarixinə yenidən dönüşün olmasını hiss etmək mümkündür. Bütün bunlar 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində özünü daha qabarıq şəkildə büruzə vermiş, Azərbaycanda fəlsəfə və fəlsəfə tarixinə aid elmi-fəlsəfi kitabların yazılmasına daha dərindən diqqət yetirilməyə başlanmışdır.

*Azərbaycan Türk fəlsəfə tarixinin təşəkkülü*

Bizcə, yeni dövrdə Azərbaycan Türk fəlsəfəsinin və fəlsəfə tarixinin yeni bir formada meydana çıxması isə daha çox mütəfəkkir Firidun bəy Köçərlinin adı ilə bağlıdır. Onun Azərbaycan türklərinin tarixində əsas xidməti, ilk növbədə Azərbaycan Türk ədəbiyyatı ilə yanaşı, Azərbaycan Türk fəlsəfəsi tarixinin də formalaşmasına təkan verməsidir. Onun "Azərbaycan türklərinin ədəbiyyatı" kitabında qədim dövrdən XX əsrin əvvəllərinə qədər yaşamış Azərbaycan Türk mütəfəkkirlərinin yalnız ədəbi deyil, fəlsəfi irsi də öz əksini tapmışdır.

Köçərlinin "Azərbaycan türklərinin ədəbiyyatı" kitabı bir çox məziyyətlərinə görə, ona qədərki əsərlərdən fərqlənmiş, eyni zamanda yalnız milli ədəbiyyat tarixini deyil, milli fəlsəfi və ictimai fikir tarixini də xeyli dərəcədə özündə əks etdirmişdir. Köçərli özü də qeyd edirdi ki, bu kitab özündən əvvəlki təzkirələr (xüsusilə də Lütfəli bəy Azərin "Atəşkədə"sindən) və poetik müntəxəbatlardan bir çox cəhətlərinə görə fərqlənir (Firidun bəy Köçərli 2005. s.43-44). Bizcə, onun "ədibi-fazil" dediyi şəxsiyyətlər ilk növbədə, milli fəlsəfi fikir tariximizlə bağlı mütəfəkkirlərdir (Firidun bəy Köçərli. 2005. s.44). O, yazırdı ki, el ədəbiyyatı ilə yazılı ədəbiyyatı, yaxud da "üdəba və şüəranın, üləma və hükəmanın asari-qələmiyyələrindən vücuda gələn yazı"ları fərqləndirmək lazımdır (Firidun bəy Köçərli. 2005. s.45). Köçərlini milli ədəbiyyat tarixini, o cümlədən də milli fəlsəfi fikir tarixini yazmağa sövq edən isə bu sahədəki boşluqlar olmuşdur (Firidun bəy Köçərli. 2007. s.70).

Qeyd edək ki, Köçərlidən sonra bir çox müəlliflər A.Sur, Y.V.Çəmənzəminli, S.Mümtaz, M.Ə.Rəsulzadə və başqaları da milli ədəbiyyat tariximizə aid əsərlər yazarkən yeri gəldikcə, bu kitablarda milli fəlsəfi fikir tariximizi də əks etdirməyə çalışmışlar. Eyni zamanda, Yusif Vəzir Çəmənzəminli "Azərbaycan ədəbiyyatına bir nəzər" əsərində Türk ədəbiyyat tarixini araşdırarkən, bu zaman müəyyən qədər ictimai-fəlsəfi fikir tariximizə də toxunmuşdur. Çəmənzəminliyə görə, ədəbiyyat iki qismdən, yəni şifahi və yazılıdan ibarət olub, onun birincisi birmənalı şəkildə Türk xalqının fikir qüvvəsinin və zehninin məhsuludur (Çəmənzəminli 2005. s.117). Əvvəlcə, şifahi ədəbiyyatla bağlı məlumat verən, nümunələr gətirən Çəmənzəminli daha sonra yazılı ədəbiyyata müraciət etmiş, bu zaman ilk olaraq Nəsiminin, Xətayinin, Füzulinin ictimai-fəlsəfi görüşlərini şərh etməyə çalışmışdır (Çəmənzəminli 2005. s.124).

Azərbaycan Türk fəlsəfi və ictimai fikirlə bağlı əsərlərdən biri də Məhəmmədəli Tərbiyətin 1935-ci ildə qələmə aldığı "Danişməndani-Azərbaycan" kitabıdır. M.Tərbiyət "Danişməndani Azərbaycan" kitabında ən qədim dövrlərdən 20-ci əsrin əvvəllərinə qədər yaşamış əksər Azərbaycan Türk mütəfəkkirlərini vahid çatı altına toplamağa çalışmış, onlar

haqqında dəyərli bilgilər vermişdir. Ən əsas məsələ isə odur ki, Tərbiyət Azərbaycanı da, onun mütəfəkkirlərini də bir bütün kimi görmüş və tədqiq etmişdir (Əliyev 2013. s.274). O, bu əsərində bütöv Azərbaycan Türk mütəfəkkirlərindən Bəhmənyar (Tərbiyət 1987. s.52), Nizami Gəncəvi, Eynəlqüzat Miyanəci (Tərbiyət 1987. 85), Əbdülqadir Kəmaləddin Marağayi, Məhəmməd Baba Kuhi Bakuvi, Mahmud Şəbüstəri (Tərbiyət 1987. 194), Fəzlullah Nəimi (Tərbiyət 1987. 246-247), Nizami Gəncəvi (Tərbiyət 1987. 260), Xaqani Şirvani (Tərbiyət 1987. 359), Saib Təbrizi (Tərbiyət 1987. 285), Şah İsmayıl Xətayi (Tərbiyət 1987. 366), Mirzə Fətəli Axundzadə (Tərbiyət 1987. 29), Mirzə Əbdürrəhim Talıbov və başqalarının ictimai və fəlsəfi fikrindən ümumi şəkildə də olsa, bəhs etmişdir.

Azərbaycan Türk fəlsəfə tarixinin akademik üslubda yazılmasının başlanması: Heydər Hüseynov. Fəlsəfə tarixi tədqiqatçıları qeyd edirlər ki, Azərbaycanda fəlsəfə tarixi sahəsində professional tədqiqatlara 1930-cu illərdə, xüsusən 1929-cu ildə Azərbaycan Dövlət elmi-tədqiqat institutunun tərkibində nəzəri fəlsəfə, fəlsəfə tarixi, ictimai elmlərin və pedaqogikanın metodologiyası bölmələrindən ibarət fəlsəfə şöbəsinin yaranması ilə başlanmışdır. Lakin həmin dövrdə Azərbaycan fəlsəfə tarixçilərinin tədqiqat obyektləri marksist fəlsəfənin və Qərbi Avropa fəlsəfəsinin tarixi olmuşdur. Məsələn, C.Nağıyev Hegel, Spinoza, Melye, Deşanın; A.Seyidov XVIII əsrin fransız materialistlərinin, Toland, Leybnitsin; A.Kazımov Monteskye, Volter, Russo və başqalarının irsini tədqiq edirdi (Azərbaycan fəlsəfə tarixi. 2014. (1), 7-8).

Azərbaycan Türk fəlsəfəsi tarixinin bir elm kimi formalaşması olaraq isə 1940-cı illərin sonu, 1950-ci illər göstərilir. Bu məsələ ilə bağlı olaraq dördcildlik "Azərbaycan fəlsəfə tarixi"nin 1-ci cildinin "Giriş" bölümündə fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə yazırdı ki, həmin vaxta qədər Azərbaycan fəlsəfə tarixinin ayrı-ayrı problemləri bu və ya digər formada tarix, ədəbiyyatşünaslıq, teoloji yönümlü bir çox əsərlərdə öz əksini tapmış, lakin bu əsərlərdə fəlsəfi problemlərin təsvir və təhlilinin bir sıra əksər hallarda birtərəfli olması mövcud idi: "Azərbaycanın fəlsəfi fikir tarixi bölgə səciyyəli tədqiqatlar kontekstində, xüsusilə İslam, Türk və İran fəlsəfəsinə həsr edilmiş əsərlərdə də müəyyən yer tutmuşdur. Azərbaycan fəlsəfə tarixinin bir elm kimi əsasını qoyan, həmin sahədə elmi tədqiqatların təşkili prosesində mühüm rolu olan böyük alim, Azərbaycan Elmlər Akademiyasının akademiki Heydər Hüseynov olmuşdur" (Azərbaycan fəlsəfə tarixi. 2014 (1), 7).

Qeyd edək ki, 1949-cu ildə nəşr olunan "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabının girişində 19-cu əsrə qədərki fəlsəfi fikir tarixinə ümumi nəzər yetirərək zərdüştlükdən (Hüseynov 2007. s.13), məzdəklikdən (Hüseynov 2007. s.13-14) bəhs edən akademik Heydər Hüseynov Bəhmənyarda (Hüseynov 2007. 15), Nizami Gəncəvidə materialist elementlər axtarıb tapmağa çalışmışdır (Hüseynov 2007. 17-18). Kitabda Hüseynov Füzulinin yaradıcılığı üzərində bir qədər çox dayanmışdır (Hüseynov 2007. 23-24). Hüseynov həmin əsərində Azərbaycan Türk mütəfəkkirləri A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundzadə, Mirzə Kazım bəy, H.Zərdabinin dünyagörüşlərini isə ayrı-ayrılıqda və hərtərəfli şəkildə tədqiq etmiş, ancaq Sovet ideologiyasına uyğun olaraq onların daha çox "materialist" dünyagörüşlü baxışlarını ön plana çıxarmağa çalışmışdır (Hüseynov 2007. 28).

*Heydər Hüseynovdan sonrakı dövrdə Azərbaycan Türk fəlsəfə tarixinin tədqiqinin inkişaf yolları*

Heydər Hüseynovdan sonra Azərbaycan Türk fəlsəfi fikir tarixinin ayrı-ayrı dövrləri ilə bağlı fəlsəfi yükü ön planda olmaqla F.Q.Köçərli, Ş.Y.İsmayılov, Zakir Məmmədov, Ənvər Əhmədov, Mehbalı Qasımov, Zümrüd Quluzadə, Solmaz Rzaquluzadə, Ziyəddin Göyüşov, Midhət Ağamirov, Nurqələm Mikayılov, Ə.K.Zəkuyev, A.O.Makovelski, Ə.Ə.Əminzadə, Ş.F.Məmmədov, Ş.Mirzəyeva, İzzət Rüstəmov, Müstəqil Ağayev, Rafail Əhmədli, Arzu Hacıyeva, Camal Mustafayev, Məmmədəli Zeynalov, İren Məlikova, Zahid Orucov və başqaları qələmə almışlardır.

Tədqiqatçılar göstərirlər ki, Azərbaycan xalqının fəlsəfə tarixi elminin XX əsrin 70-ci illərin axırınadək inkişaf dövrü fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Ziyəddin Göyüşovun (1920-1985) "Sovet Azərbaycanında fəlsəfi fikir" (rus dilində) monoqrafiyasında xüsusi tədqiq olunmuşdur (Azərbaycan fəlsəfə tarixi 2014 (1), 7-8). Göyüşov Azərbaycan fəlsəfə tarixi sahəsində bir çox tədqiqat əsərləri yazmışdır ki, ("Azərbaycanda etik fikir", "Sovet Azərbaycanında fəlsəfi fikir", "Həsən bəy Zərdabinin dünyagörüşü" və b.), onlardan bizi daha çox maraqlandıran "Sovet Azərbaycanında fəlsəfi fikir" (1979) əsəridir. O, bu kitabında 27 aprel faciəsindən sonra Quzey Azərbaycanda təşəkkül tapan marksizm-leninizm yönlü fəlsəfi fikirdən, İslam dininə qarşı mübarizədə cəmiyyət daxilində elmi kommunizm, elmi ateizm təbliğatının aparılmasının aktuallığından bəhs etmişdir (Göyüşov, 1979).

Sovetlər Birliyi dövründə akademik Firidun Qasım oğlu Köçərli də Azərbaycanda fəlsəfə tarixi elminin sonrakı inkişaf dövrünə mühüm töhfələr vermişdir. O, Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinin 19-20-ci əsrləri ilə bağlı bir çox araşdırmalar aparmış (Köçərli Firidun Qasım oğlu. 1976. 38), bu dövrdə yaşamış M.F.Axundzadə (Köçərli Firidun Qasım oğlu 1999. 22), Üzeyir Hacıbəyli (Köçərli Firidun Qasım oğlu 1965. 8), Nəriman Nərimanov (Köçərli Firidun Qasım oğlu 1966. 74), Ö.F.Nemanzadə (Köçərli Firidun Qasım oğlu 1996. s.25-26) və başqa mütəfəkkirlərimizə aid ayrıca əsərlər yazmışdır.

Həm Sovetlər Birliyi, həm də müstəqilliyimizin bərpasından sonrakı dövrlərdə tanınmış fəlsəfə tarixçisi, əməkdar elm xadimi, fəlsəfə elmlər doktoru Zümrüd Quluzadənin də elmi-fəlsəfi yaradıcılığında Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə aid olan əsərləri mühüm yer tutmuşdur. Onun "Hürufilik və onun Azərbaycandakı nümayəndələri", "Насими - философ и поет Востока" ("Nəsimi - Şərqin filosof və şairi"), "Мировоззрение Касими Анвара ("Ənvər Qasiminin dünyagörüşü)", "Из истории Азербайджанской философии VII-XVI вв." ("VII-XVI əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindən"), "Проблемы физуливедения" ("Füzulişünaslığın problemləri"), "Mistika və Panteizm" və başqa əsərləri Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.

Prof. Mehbalı Qasımovun (1906-1963) əsərlərində də Azərbaycan xalqının fəlsəfə və ictimai-siyasi fikir tarixinə aid məsələlər geniş şərh olunmuşdur: "XIX əsrdə Azərbaycan xalqının fəlsəfi və ictimai fikir tarixinə dair oçerklər", "M.F.Axundzadənin islam dini əleyhinə mübarizəsi" (Qasımov 1959. 50-61), "M.F.Axundzadə və XIX əsr rus inqilabi-demokratik estetikası" (Qasımov 1959), "XIX əsrdə Rusiyanın qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafına təsiri" (Qasımov 1959. 44) və b.

Tanınmış fəlsəfə tarixçisi Solmaz Rzaquluzadə də bir çox Azərbaycan Türk fəlsəfə tarixinə aid əsərlərin müəllifidir: "Xaqani Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri".

("Обществено-политические и философские взгляды Хагани Ширвани"), "Baba Kuhi Bakuvinin dünyagörüşü" ("Мировоззрение Баба Кухи Бакуви"), "X-XII əsrlərdə Azərbaycanda panteizm" ("Пантеизм в Азербайджане"), "Azərbaycan fəlsəfi fikir tarixindən" ("Из истории философской мысли Азербайджане") və b. Xüsusilə də, S.Rzaquluzadənin "Azərbaycan fəlsəfi fikir tarixindən" ("Из истории философской мысли Азербайджане") əsərində Azərbaycan xalqının fəlsəfi fikir tarixinin bir qismi öz əksini tapmışdır (Rzaquluzadə 2010).

1966-cı ildə müəlliflər kollektivi ilə nəşr olunan "Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər"i ilk sistemli, genişhəcmli Azərbaycan Türk fəlsəfə tarixi kitabı hesab etmək olar. Kitabın 2-ci fəslində isə islam dininin yaranması və ölkədəki ideoloji mübarizədən bəhs olunur ("Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər". 1966. s.38-57). Eyni zamanda, kitabın 3-cü fəslində 11-12-ci əsrlər Azərbaycanda fəlsəfi və sosial fikirdən, onun tanınmış nümayəndələri kimi isə Əbülhəsən Bəhmənyar, Xaqani Şirvani və Nizami Gəncəvidən bəhs olunur ("Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər". 1966. 57-148). Kitabın 4-cü fəslində 13-16-cı əsrlərdə Azərbaycanda ictimai-siyasi və fəlsəfi fikirdən, həmin əsrlərin tanınmış mütəfəkkirləri Əvhədi Marağayi, Mahmud Şəbüstəri, İmadəddin Nəsimi, Məhəmməd Füzulidən söz açılır ("Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər". 1966. s.149-273). Kitabın sonuncu 5-ci fəslində isə 17-18 əsrlərdə fəlsəfi və sosial-siyasi fikirdən və həmin dövrün tanınmış filosofları Yusif Qarabağı, Məhəmməd Əli Saib Təbrizi və Zeynalabdin Şirvanidən danışılır ("Azərbaycan fəlsəfəsinin tarixinə dair oçerklər". 1966. s.274-336).

**Nəticə**

Azərbaycan Türk fəlsəfə tarixinin qaynaqları, təşəkkülü və inkişafı ilə bağlı apardığımız araşdırmanın sonunda gəldiyimiz əsas nəticələrdən biri odur ki, milli fəlsəfi və ictimai fikir tariximizin bir bütün şəkildə öyrənilməsi vacibliyinin dərkidir. Çünki bir xalqın fəlsəfi və ictimai fikri yarımçıq tədris ediləcəyi təqdirdə, onun üzvlərinin şüurunda da yarımçıqlıq, natamamlıq kompleksi olacaqdır. Bu baxımdan Azərbaycan Türk fəlsəfi və ictimai fikir tariximizi Azərbaycan Respublikasının mədəniyyəti, fəlsəfəsi, tarixi və coğrafiyası sərhədlərində məhdudlaşdırmamalıyıq. Bugünkü reallıq baxımından biz, fəlsəfi və ictimai fikir tariximizi mövcud Azərbaycan Respublikası sərhədləri çərçivəsində yazsaq da, ancaq tarixən onun sərhədləri və coğrafiyası bundan daha böyük olmuşdur. Bu o deməkdir ki, Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi dünən olduğu kimi, gələcəkdə də bir bütün olaraq Azərbaycan xalqına çatdırılmalı, tədris olunmalıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan fəlsəfə tarixi (2014/1). I cild. Bakı: "Elm" nəşriyyatı.
2. Azərbaycan fəlsəfə tarixi (2014/2). II cild. Bakı: "Elm" nəşriyyatı.
3. Bakıxanov A.A. (2001). "Gülüstani-İrəm". Bakı: Möminin
4. Çəmənzəminli Y.V. (2005). Əsərləri. Üç cilddə. III cild. Bakı: AVRASİYA-PRESS
5. Ələkbərli F.Q. (2018). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I cild. Bakı: "Elm və təhsil" nəşriyyatı.
6. Ələkbərli F.Q. (2020). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II cild. Bakı: "Elm və təhsil" nəşriyyatı.
7. Əliyev Rəhim (2013). Məhəmmədəli Tərbiyət // Cənubi Azərbaycan ədəbiyyatı tarixi. (XX əsr). İki cilddə, 2-cild. Bakı: "Qanun" nəşriyyatı.
8. Əminzadə Ə.Ə. (1972). Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir tarixindən (XVII-XVIII əsrlər və 19-cu əsrin birinci rübü). Bakı: "Elm" nəşriyyatı.
9. Hüseynov Heydər (2007). Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: "Şərq-Qərb" nəşriyyatı.
10. История азербайджанской философии (2002). т.1. -Бак,: "Элм" (ответственный ред. З.А.Кулизаде).
11. Исмайлов Ш.Ю. (1980). Исследования по истории философии и социальной мысли Азербайджана. "Вопросы философии". №5.
12. Касумов М.М. (1959). Очерки по истории философской и общественно-политической мысли азербайджанского народа в Х1Х веке. Баку: "Азернешр".
13. Köçərli Firidun Qasım oğlu (1976). Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı: "Azərnəşr"
14. Köçərli F.Q. (1965). Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı: "Azərnəşr"
15. Köçərli F.Q. (1966). Nəriman Nərimanov. Bakı: "Azərnəşr"
16. Köçərli F.Q. (1999). M.F.Axundzadənin dünyagörüşü. Bakı: "Elm"
17. Köçərli F.Q. (1993). Azərbaycan fəlsəfəsinin tədqiqi. Bəzi nəzəri-metodoloji problemlər. "Xalq qəzeti". 31 iyun, 1993-cü il
18. Köçərli Firidun bəy (2005). Azərbaycan türklərinin ədəbiyyatı. 2 cilddə, I cild. Bakı: "Avrasiya-Press" nəşriyyatı.
19. Köçərli Firidun bəy (2007). Ədəbiyyatımıza dair məktub // Azərbaycan publisistikası antologiyası. Bakı: "Şərq-Qərb" nəşriyyatı.
20. Кулизаде З.А. (1992). Из истории Азербайджанской философии VII-XVI вв., Баку: "Азернешр".
21. Qasımov Mehbalı (1953/1). M.F.Axundzadənin islam dini əleyhinə mübarizəsi. Bakı: "Azərnəşr" nəşriyyatı.
22. Qasımov Mehbalı (1953/2). XIX əsrdə Rusiyanın qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafna təsiri. Bakı: "Azərnəşr" nəşriyyatı.
23. Qasımov Mehbalı (1954). M.F.Axundzadə və XIX əsr rus inqilabi- demokratik estetikası. Bakı: "Azərnəşr" nəşriyyatı.

24. Qasımov M. (1959). Ömər Xəyyamın rübailərində ateizm motivləri. Bakı: "Azərnəşr" nəşriyyatı.
25. Геюшев З.Б. (1979). Философская мысль в советском Азербайджане. Баку: "Элм".
26. Мамедов Ш.Ф. (1965). Развитие философской мысли в Азербайджане. Москва
27. Маковельский А.О. (1960). Авеста. Баку: изд. Академиик наук АзССР
28. Маковельский А.О. (2004). История логики. Москва: Кучково поле
29. Мирзоева Ш.Ш. (1981). Из истории эстетической мысли в Азербайджане (XIX- начало XX в.). Баку: "Элм"
30. Məmmədov Z. (2006). Azərbaycan fəlsəfəsi tarixi. Bakı: "Şərq-Qərb" nəşriyyatı.
31. Mustafayev C. (2013). Fəlsəfi-tarixi araşdırmalar. Bakı: "Vətən" nəşriyyatı.
32. Mustafayev Q. (1973). XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: "Maarif" nəşriyyatı.
33. Очерк по истории Азербайджанской философии (1966).I том. Баку: Изд-во Ан АзССР
34. Rüstəmov İ. (2001). Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsr-XX əsrin əvvəli). Bakı: Diplomat
35. Рзакулизаде С. Дж. (2010). Из истории философской мысли Азербайджана. Баку: "Текнур"
36. Şükürov A. (2005). Şərq fəlsəfəsi və filosofları. Bakı: "Əbilov, Zeynalov və oğulları"
37. Şükürov A. (2007). Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı: "Səda" nəşriyyatı.
38. Məhəmmədəli T. (1987). "Danişməndani-Azərbaycan". Bakı: "Azərnəşr" nəşriyyatı.
39. Заманова Э. (2011). Эстетическая мысль в Азербайджане в XIX - начале XX веках. Баку: Текнур.
40. Zəkuyev Ə.K. (1958). Bəhmənyarın fəlsəfi görüşləri. Bakı: "Azərnəşr" nəşriyyatı.
41. Зекуйев А.К. (1961). Философия Братьев чистоты. Баку: Изд-во Ан АзССР

## SUMMARY

**Faig Alakbarli**

## MAIN ISSUES OF AZERBAIJAN TURKISH PHILOSOPHICAL HISTORY IN THE FIRST HALF OF THE 20TH CENTURY

The article shows that the process of writing the history of Azerbaijani Turkish philosophy and its formation as a science has gone through a complicated path. For a long time, it has been considered that the historiography of national philosophy in Azerbaijan began with academician Heydar Huseynov's work "On the History of Social and Philosophical Thought of the XIX Century in Azerbaijan" published in 1949. However, according to the author, although the historiography of national philosophy is not in a purely scientific-philosophical academic style like Huseynov, it is related to the fundamental work "Literature of Azerbaijani Turks" written by the Azerbaijani Turkish thinker Firudin Bey Kocherli in the 1900s. Because in that work, Kocherli covered not only literary issues, but also socio-philosophical issues. In other words, as Kocherli himself mentioned, in this work he also studied the cultural-philosophical heritage of the thinkers

whom he called "edi-bi-fazil" along with "poetry-kabils" and At the same time, in the article, A.A. Bakıkhanov, A.Sur, Y.V.Chamanzaminli, M.Tarbiyat, S.Mumtaz, M.A. "History of philosophy" by Rasulzadeh and others has been touched upon, albeit briefly. After that, the author focused on H. Huseynov's historiography of philosophy and tried to show the place and role of his work in the historiography of philosophy of the Azerbaijani people.

***Key words:*** *Sources of the history of Azerbaijani Turkish philosophy, F.b. Kocherli, academic historiography of philosophy, H.Huseynov, multivolume "Azerbaijani philosophy history"*

## РЕЗЮМЕ

**Фаиг Алекперли**

## ОСНОВНЫЕ ВОПРОСЫ АЗЕРБАЙДЖАНСКОЙ ТУРЕЦКОЙ ФИЛОСОФСКОЙ ИСТОРИИ В ПЕРВОЙ ПОЛОВИНЕ XX ВЕКА

В статье показано, что процесс написания истории Азербайджано-Тюркской философии и ее становления как науки прошел сложный путь. Долгое время считалось, что национальная историография философии в Азербайджане началась с работы академика Гейдара Гусейнова "К истории общественно-философской мысли XIX века в Азербайджане", опубликованной в 1949 году. Однако, по мнению автора, хотя историография национальной философии не носит чисто научно-философского академического стиля, как Гусейнов, она связана с фундаментальным трудом "Литература азербайджанских тюрков", написанным азербайджанским турецким мыслителем Фирудином беком Кочерли в 1900-е годы. Потому что в том произведении Кочерли затрагивал не только литературные вопросы, но и вопросы социально-философские. Иными словами, как упоминал сам Кочерли, в этой работе он также изучал культурно-философское наследие мыслителей, которых он назвал "эди-би-фазил" наряду с "поэзией-кабилами" и в то же время в статье, А.А.Бакиханов, А.Сур, Ю.В.Чаманзаминли, М.Тарбият, С.Мумтаз, М.А., хотя и кратко, затронута "История философии" Расулзаде и др. После этого автор сосредоточился на историографии философии Г.Гусейнова и попытался показать место и роль его творчества в историографии философии азербайджанского народа.

***Ключевые слова:*** *Источники истории Азербайджанской Тюркской философии, Ф. Б. Кочерли, академическая историография философии, Г. Гусейнов, многотомная "История азербайджанской философии"*

**NİCAT MƏMMƏDOV**
*nicatmk@mail.ru*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

# MİR MÖHSÜN NƏVVABIN FƏLSƏFİ GÖRÜŞLƏRİ

*Nəvvabın dünyagörüşü və yaradıcılığı özündə zaman və məkan koordinatlarının birləşməsindən doğan bənzərsiz düşüncə tərzinin nüvəsini əks etdirir. Şuşada qiraətxana, məktəb, daşbasma mətbəəsi yaradan, pedaqoji fəaliyyətlə məşğul olan M.Nəvvab klassik şeirin ən səciyyəvi xüsusiyyətlərini davam etdirərək Nizami ənənələrinin təsiri ilə didaktik məzmunlu əsərlər və Füzuli fəlsəfi məktəbinin təsiri ilə qəzəllər yazmaqla yanaşı, XIX yüzillikdə baş vermiş ictimai proseslərə də laqeyd qalmayaraq maarifçi bir şair, ədəbiyyatşünas alim kimi səmərəli fəaliyyət göstərmişdir. Lakin təəssüf ki, Nəvvab yaradıcılığı S.Ə.Şirvani, X.Natəvan və digər görkəmli müasirlərinin Azərbaycan fəlsəfi fikir tarixində, həmçinin ədəbiyyatşünaslığında geniş tədqiq edilmiş fəlsəfi və ədəbi-bədii irsinin kölgəsində qalmışdır.*
***Açar sözlər:*** *M.M.Nəvvab, ictimai-siyasi, maarifçi-realist, demokratik, fəlsəfi, dünyagörüşü*

## Giriş

Azərbaycanda XIX əsrin ilk illərindən başlayaraq sosial və tarixi inkişaf müxtəlif və bir-birinə zidd meyillərdən ibarət olan bir dövr idi. Bu proseslərin müxtəlifliyi Azərbaycan elmi-fəlsəfi fikrinin inkişafına da öz güclü təsirini göstərmişdir. Avropa və Rusiyadan daha gec Azərbaycanda da maarifçilik zəminli ictimai-siyasi təlimlər yaranmışdır. Bu baxımdan M.M.Nəvvab, İ.Qutqaşınlı, A.A.Bakıxanov, M.F.Axundzadə kimi maarifçi mütəfəkkirlər özlərinin maarifçilik ideyalarını, fəlsəfi-etik və materialist təlimlərini irəli sürmüşdülər.

M.M.Nəvvabın yaradıcılığı ilə maraqlandıqca onun fəlsəfi dünyagörüşünün ilkin maarifçilərin fikirləri ilə həmahəng səsləndiyinin şahidi oluruq. Belə ki, qarabağlı şair dövlət idarəçiliyindəki ədalətsizliyi, yerli məmurların özbaşınalığını görür, özü bunlardan əziyyət çəkir, əsərlərində ədalətli şah obrazı yaradır, lakin onun (şahın) dövlət və Tanrı qanunlarına sığmayan hərəkətlərinə görə hakimiyyətdən uzaqlaşdırılması barədə heç nə demirdi. Ədibin əsərlərində nəinki xalq qəzəbindən qurtulub qaçan, hətta öz səriştəsizliyi ucbatından şahlıqdan könüllü surətdə əl çəkən hökmdar obrazına təsadüf edilmir.

Nəvvabın maarifçilik fəaliyyətində cəmiyyəti özülündən silkələyərək inqilabi dəyişikliklərə meyillilik sezilməsə də, ədibin gördüyü işlər: rəssamlıq, musiqi sənətinin təbliği onun müəyyən qədər müasiri Axundzadənin “Kəmalüddövlə” traktatında toxunduğu məsələlərdə bu dahi şəxsiyyətlə müəyyən mənada həmfikir olduğuna dəlalət edir. M.F.Axundzadəyə görə, “nəğmə oxuma haramdır; nəğməyə qulaqasma haramdır; rəqsetmə məkruhdur, ...mənzilində heykəl saxlama haramdır...” (1, s.226) qadağaları “insan düşüncəsinə cila verir”, hər bir şeyə yasaq qoyaraq şəxsiyyəti müstəqil fikir yürütmə və iradə nümayiş etmə cəsarətindən məhrum edir, “hisslərin süstləşməsi və ağlın kütləşməsinə səbəb olur” (1, s.226). Axundzadə istehzasını gizlətməyərək yazır: “Əgər dünyanın ləzzətlərindən məhrum qalmaq insanın mənəvi inkişafına səbəb olsaydı, zahidlər insanların ən ağıllıları olmalıydılar” (1, s.226).

Nəvvab fikirlərini belə kəskinliklə açıqlamasa da, o, şən həyat tərzinin həm cana, həm də ruha xeyir olduğunu bildirərək, oxucusuna dünya nemətlərindən imtina etmədən, sağlam təməllərə dayanan firavan həyat sürməyi tövsiyə edir. Zahidlərə münasibətdə o da özünün həmkarı kimi, bu "tərki-dünya əhli"ni tənqid hədəfinə tutaraq, insanların cahilliyindən sui-istifadə edib onları öz şəxsi maraqlarını həyata keçirmək üçün bir alət, vasitəyə çevirən bu şəxsləri əsərlərində ifşa edir. Nəvvab musiqi, rəsm kimi həyat sevinclərindən imtina etməklə kifayətlənmir. Nəvvaba görə, bu cür hisslərlə yaşayan qabaqcıl insan cəmiyyəti humanistləşdirir, kamilliyə doğru cəsarətli addım atır və hər cür yeniliyi qəbul etmək üçün daha dözümlü olur.

M.M.Nəvvab həm də rəssam idi. XIX əsrin ortalarında İslam dininin "paklığının qorunması qeydinə qalan"ların səyləri nəticəsində bu məşğuliyyət təqdirlə qarşılanmadığından ona aludə olmaq xüsusi cəsarət tələb edirdi. İslam dünyasında rəsm sənətinin inkişafına ciddi maneələr törətmiş bu sxolastik düşüncə tərzi Nəvvabı çəkindirməmiş, onu öz əqidəsindən-xalqının maariflənməsi yolunda hər cür vasitə və imkanlardan istifadə etmək amalından üz döndərə bilməmişdir. M.M.Nəvvabın rəssamlıq fəaliyyətinə dair qeyd etmək istərdik ki, o, Firdovsinin "Şahnamə"sinə, özünün "Beytülhəzən" ("Qəm dəryası") əsərinə illüstrasiyalar çəkmiş, ümumilikdə ondan artıq müxtəlif mövzulu rəsm əsərləri yaratmışdır.

M.M.Nəvvab bilavasitə gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, 1890-cı ildə özünün təşəbbüsü ilə açılan yeni tipli məktəbdə dərs demiş, qiraətxana təşkil etmiş, Azərbaycan dilinə dair dərs vəsaiti hazırlamış, əsərlərində millətin tərəqqisində təhsilin, elmin həlledici rolunu təbliğ etmişdir. Fars və ərəb dillərini mükəmməl bilən ədib dəyişməkdə olan dünyada cərəyan edən proseslərdən xəbərdar olmaq, müasir elmi yeniliklərdən kənarda qalmamaq məqsədilə rus və digər Qərb dillərinə bələd olmağın əhəmiyyətini qeyd etmiş, özü rus dilini öyrənərək bu dildə olan qəzet və jurnalları, müxtəlif məzmunlu ədəbiyyatı sərbəst mütaliə etmişdir. Əldə etdiyi yeni bilgiləri gənc nəslin təhsilinə yönəltmək məqsədilə Nəvvab astronomiya, coğrafiya, musiqişünaslığa dair əsərlər yazmışdır. Onun hətta başlıca məşğuliyyəti olan hesabdarlığının da maarifçiliyə birbaşa aidiyyəti var idi. Belə ki, M.F.Axundzadənin qeyd etdiyi kimi, Nəvvabın hesabdarı olduğu Gövhərağa vəqfiyyəsi yoxsul uşaqların təhsil alması üçün ibtidai məktəb təşkil etmişdir (3, 9 avqust, 1983).

Nəvvabın maarifçilik görüşləri əsas etibarilə onun "Kəşfül-həqiqə" ("Həqiqətin kəşfı"), "Nurül-Ənvar" ("Nurlar işığı"), "Nəsihətnamə" əsərlərində və bir çox şeirlərində öz əksini tapmışdır. O, bir çox əsərlərində "Qurani-Kərim" kitabında səslənən fikirlərə müraciət edir, "Qurani-Kərim" surələri və peyğəmbər ə.s. hədislərindən müxtəlif iqtibaslar verir. Konkret olaraq, mütəfəkkirin farsca yazdığı "Nurül-Ənvar", "Kəşfül-həqiqə" əsərlərində göstərilən mənbələrdən kifayət miqdarda iqtibaslarla qarşılaşırıq. Nəvvabın müəllifi olduğu digər əsərlərin ruhuna da islamı dəyərlər sisteminin güclü təsirinin hopduğu açıq-aydın sezilir.

Ədibin etik görüşlərini də bu kontekstdə nəzərdən keçirsək, bu zaman onların əsasında maarifçilik, müsəlman əxlaqı ilə birlikdə milli mentalitet komponentinin də önəmli amil qismində çıxış etdiyinin şahidi olarıq. Nəvvabın fikirlərində atalar sözləri və zərbi-məsəllərlə genetik bağlılığın mövcudluğu heç də təəccüblü deyil. Belə ki, o, xalqın içindən

çıxmış və dünyagörüşünün formalaşmasında xalq hikməti mühüm rol oynamışdır. Başqa sözlə, milli mənəviyyat və onun əsas prinsipləri hər bir yaradıcı şəxsdə olduğu kimi, Nəvvabın da mənəvi dəyərlər kodeksinin formalaşmasına birbaşa təsir etmişdir. Müqayisə üçün deyək ki, Nizami yaradıcılığında istifadə olunan xalq ifadə və məsəllərini tədqiq edən f.e.n. Xəlil Hüseynov şairin nəinki Azərbaycan, həmçinin digər Şərq xalqlarının folkloruna müraciət etdiyini göstərərək, onun əsərlərinin dolğun və dəyərli təhlilinin həmin folklor irsi ilə tanış olmadan aparılmasının qeyri-mümkünlüyünü qeyd etmişdir (4, s.65-66).

Dünyagörüşü, əsasən, Şərq-İslam və ümumilikdə bəşər mədəniyyətinin korifeyləri- Sədi, Hafiz, Tusi, Nizami və başqalarının möhtəşəm irsi ilə yaxından tanışlıq zəminində formalaşmış mədrəsə ziyalılarından olan Nəvvabın yaradıcılığında bu görkəmli sənətkarların ölməz əsərlərinin təsirinin duyulmamasını güman etmək yanlışlıq olardı. Müəllifin əsərlərində (lirikası istisna olmaqla) həmin klassiklərə açıq müraciət, iqtibaslar bir o qədər yer almasa da, buradakı fikirlər həmin şair və mütəfəkkirlərin görüşləri ilə bir çox halda səsləşir və bu məqam tədqiqatçının XIX əsrdə yaşamış ədibin öz sələflərinin yaradıcılığından bəhrələnməsi qənaətinə gəlməyə zəmin yaradır. Nəvvab antik Qərb mütəfəkkirlərinin əsərlərindən də faydalanmışdır. Musiqiyə dair "Vüzuhül-ərqam" əsəri bunun ən bariz nümunəsi sayıla bilər.

M.M.Nəvvab dövrünün bir çox maarifçiləri kimi, istər özünün ayrı-ayrı şeirlərində, istərsə də didaktik məzmunlu əsərlərində elmə dair fikirlərə geniş yer ayıraraq bilikli olmağın məziyyətlərini oxucularına aydınlaşdırmağa çalışır. Belə ki, o, elmi hünər və yaxşı adla bərabər, dünyanın ləl-cəvahiratından üstün sayaraq, yüksək vəzifə sahibi olan imkanlı şəxslərə də öz uşaqlarına ilk növbədə elm və sənət öyrətməyi məsləhət görür. Maarifpərvər ziyalı bunun üçün farsca qələmə aldığı "Nurül-Ənvar" (Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan bu əsəri müəllif 1310 (1892)-ci ildə yazmış, 1316 (1898)-ci ildə isə köçürmüşdür. Müqəddimə, 24 məqalə və sonluqdan ibarət "Nurül-Ənvar" əsərində dini nəsihətlər üstünlük təşkil etsə də, elmin əhəmiyyətindən bəhs edən, şərab və qumarın əleyhinə yazılmış mülahizələr də mühüm yer tutur). Əsərində İslam peyğəmbərin müqəddəs kəlamına müraciət edərək onun buyurduğu "Beşikdən qəbrədək elm öyrənin" kəlamını təkrarlayır və bununla da mömin din qardaşlarını onlar üçün ən mötəbər mənbəyə istinadən elmə, biliklərə yiyələnməyə çağırırdı. Ədib Məhəmməd peyğəmbərin "Elm hətta Çində də olsa, onu öyrənin", "Yandırıcı od və yaxud təhlükəli dəniz qarşınızda olsa da, elm öyrənin" və bu kimi bir çox hədislərini oxucuların diqqətinə çatdırmış və oxşar məzmunlu müdrik kəlamların elmin təbliğində müstəsna rol oynadığını qeyd etmişdir.

Nəvvabın elm və təhsillə bağlı mütərəqqi fikirlərində diqqəti çəkən digər amil onun rus dilinin öyrənilməsinin vacibliyini dərk edərək oxuculara bu dilə yiyələnməyi məsləhət görməsidir. Şairin həyatı barədə qeydlərdə göstərildiyi kimi, onun bu nəsihəti oğlunun timsalında öz əməli nəticəsini tapmışdır. Mir İbrahimağa nəinki rus dilini mükəmməl bilir, hətta digər "Vüzuhül-ərqam"nı da öyrənmişdi. Bu mənada M.M.Nəvvabın görüşləri digər maarifpərvər şairlərin, xüsusilə də S.Ə.Şirvaninin fikirləri ilə üst-üstə düşür. Sonuncu da vaxtilə oğlu Cəfərə xitabən yazdığı şeirində ona rus dilini öyrənməyi tövsiyə etmişdir (5, s.49). Göründüyü kimi, təxminən eyni zaman kəsimini paylaşan hər iki ziyalı öz dövrlərində çar Rusiyasının dövlət dilinin öyrənilməsinin əhəmiyyətini dərk edir, öz

xalqlarının ucqar əyalət əhli kimi, dünyada baş verən dəyişikliklərdən xəbərsiz olmasını istəmədikləri üçün ziyalılara həmin dövrə aid Avropanın mütərəqqi fikirlərinin Azərbaycana, ümumilikdə Qafqaza ötürülməsində mühüm rol oynayan rus dilinə yiyələnməsini məsləhət görürdülər.

M.M.Nəvvab təhsil haqqında dediyi müdrik kəlamlarında dövrünün mühafizəkar ruhlu bir çox nümayəndələrindən fərqli olaraq, qadının da elm öyrənməsinin vacibliyini qeyd edir. "Nəsihətnamə"də oxuyuruq: "Oğluna və qızına elm, sənət öyrət" (6, s.49). Göründüyü kimi, maarifçi Nəvvab üçün təhsil, elm qarşısında cinsi ayrıseçkilik yoxdur, çünki onun nəzərində elm səltənətində hər kəs bərabərhüquqludur.

M.M.Nəvvabın elm haqqında fikirləri öz orijinallığı ilə seçilir. Müəllif bütün elmləri iki qismə bölür: birinciləri "dini", digərlərini isə "çörək elmi" adlandıran Nəvvab sonunculara insanın tələbatını ödəməyə xidmət edən sahələri daxil edir. Göründüyü kimi, Nəvvabın dünyagörüşündəki ziddiyyətli məqamlar onun elmlə bağlı mülahizələrində də özünü göstərir. O, insan nəfsinin, var-dövlət qazanmaq həvəsinin elmə yiyələnmək üçün müəyyən səbəb olması barədə yayılan fikirlərlə əlaqədar mülahizələrini bildirərkən deyir: "Buna görə peyğəmbərlərin şahı hər kəsə tibb (hərfən: bədənlər) elmini öyrənməyi buyurmuşdur" (7, s.176).

M.M.Nəvvabın maarifçilik fəaliyyətində onun hökmdar və xalq, vəzifəli şəxsin əqli imkanları və mənəvi dəyərləri haqqında düşüncələri də mühüm yer tutur. Müəllif özünün fərqli janr və müxtəlifməzmunlu əsərlərində sözügedən məsələ ilə bağlı bir çox dəyərli fikirlər söyləmişdir. Həmin əsərləri təhlil edərkən aydın olur ki, Nəvvabın dövlət xadiminə - istər şah, istərsə də yüksək vəzifəli şəxslər üçün vacib saydığı ən ümdə tələblərdən biri və bəlkə də birincisi onun bilikli, aqil şəxsiyyət olmasıdır.

M.M.Nəvvabın fəlsəfi görüşlərinin digər tərəfi olan etik baxışlarında müxtəlif əxlaqi məsələlər, insanı kamilləşdirən keyfiyyətlər də öz əksini tapmışdır. Ədibin əsərlərində toxunduğu əxlaq məsələləri sırasında ən əsası, sözsüz ki, vətən məhəbbəti, millət sevgisidir. Müəllif öz soydaşlarının mənəvi yüksəlişi və maddi rifahı, vətəninin tərəqqisi naminə xidmət etməyi ən müsbət insani keyfiyyət kimi dəyərləndirir. Nəvvab oxucusunu xalqı üçün yararlı olmağa, öz bilik və bacarığını vətənin yüksəlişi naminə sərf etməyə çağırır. Nəsihətlərinin birində o yazır: "...Ömrünü vətənin abadlığına sərf et" (8, s.40). Digər nəsihətində isə oxuyuruq: "Özünü cəmiyyətdən kənar hesab etmə və millətin işində ona hər növ ilə köməklik göstər"(8, s.29-30). M.M.Nəvvab oxucusunu "xalqın halına layiq və adətinə müvafiq olmayan işlərə qol qoymaqdan" (8, s.28) çəkindirməyə çalışaraq xəbərdarlıq edir: "Xalqın əziyyət-azarının baisi olma ki, mükafatını, əziyyət və azarını görərsən" (8, s.28). Maarifçi ziyalıya görə, xalqının işinə yaramayan, vətəninin abadlığı üçün çalışmayan kəs boş və mənasız həyat sürür. Onun fikrincə, əsl mənada xoşbəxt o insandır ki, usanıb yorulmadan millətinin firavanlığı naminə çalışır.

M.M.Nəvvab dövrünün bir çox ziyalıları kimi, insanın tərəqqisi üçün əməyin mühüm əhəmiyyət kəsb etdiyini dərk edərək tənbəlliyi insanı həyatın dibinə sürükləyən mənfi keyfiyyət kimi pisləyir. "Halal zəhmətdə tənbəllik etmə, bu sənin zərərinədir" (8, s.14) - fikrini söyləyən ədib Tanrının insanlara hərəkət, başqa sözlə, fəaliyyət göstərməyi buyurduğunu və yalnız bunun müqabilində onlara bərəkət, yəni hər cür nemət əta edəcəyi

barədə məşhur kəlamı xatırladaraq oxucularına sənət öyrənməyi məsləhət edir: "Sənət öyrənməkdə tənbəllik etmə, hərəkət bərəkəti artırar" (8, s.45). A.Bakıxanov da nəsihətlərində səysiz, çalışmadan heç bir işin mümkün olmadığı fikrini irəli sürür. O yazır: "İşləmədən, çalışmadan Allahdan nemət gözləmək özünü sərgərdanlıq zəncirinə bağlamaq deməkdir" (9, s.41).

Nəvvabın nəsihətamiz əsərlərindən bəhs edərkən Z.Göyüşovun sözlərinə istinadən qeyd edə bilərik ki, "o, bu nəsihətlərində dini-feodal əxlaqının tələblərindən fərqli olaraq tərki-dünyalıq, zahidlik təbliğ etmir, əksinə, o, dünyadan həzz almağı, nikbinliyi insanın ədalətə uyğun təbii hüququ hesab edir" (10, s.77). "Cavanlığı, sağlamlığı və xoş güzəranı qənimət bilməyi", "hər cüzi işdən kədərlənməmək üçün genişürəkli olmağı" məsləhət görən, bir saat dünyanın diriliyini min il qəbirdə yatmaqdan üstün tutan mütəfəkkir həyata nikbin baxmağı xoşbəxtliyin şərtlərindən hesab edir.

Nəvvaba görə, insan səadətinin digər şərti var-dövlətə aludə olmamaqdır. O, bir çox əsərlərində maddi nemətlərin düşkünü olmamağı tövsiyə edərək, mal-mülkün gəldi-gedərliyi mövzusuna da geniş yer ayırmışdır.

M.M.Nəvvabın nəsihətlərində onun maarifçi dünyagörüşü ilə təzad təşkil edən mülahizələri ədibin yaşam tərzi ilə bağlı söylədiklərində də təzahür etmişdir. İnkişaf və tərəqqinin tərəfdarı olan Nəvvab oxucularına "halal zəhmətdə tənbəllik etməməyi, daim çalışmağı" tövsiyə etdiyi halda, nəsihətlərinin birində kifayət qədər fərqli mövqedən çıxış edir: "Özünü yaşayışı səndən yuxarı olanlarla müqayisə etmə, özündən aşağı səviyyədə yaşayanlara nəzər sal" (8, s.13). Başqa sözlə, müəllif insanları müqayisə zəminində inkişafa səsləmək yerinə, olanlarla kifayətlənərək şükür etməyi məsləhət görür. Nəvvabın mülahizələrindəki ziddiyyət dostluğa dair nəsihətlərində də təzahür edir. O, nəsihətlərindən birində "gizli sirrini tapşırmaq üçün imtahandan çıxmış əmin adam tapmağı" (8, s.36) məsləhət edirsə, digərində "sirrini dostuna da açmamağı" (8, s.15) bildirir. "Dünyanın bütün işləri dərd-qəmlə doludur. Bu dünyada azğın adamın dərdi olmaz" - fikirləri də həyata nikbin baxan ziyalının yaradıcılığındakı ziddiyyətlərdəndir.

**Nəticə**

M.M.Nəvvab yaradıcılığı özündə ehtiva etdiyi bir çox cəhətlərinə görə XIX əsr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində, ümumilikdə cəmiyyətdə baş vermiş hadisələrin ədəbi-bədii zəminə "oturdulmuş" inikası kimi dərk olunmalıdır. M.M.Nəvvabın çoxsahəli fəaliyyəti təəssüf ki, yalnız onun musiqişünaslıq fəaliyyəti istisna olunmaqla öz dolgun və hərtərəfli təhlilini tapmamışdır. Nəvvabın zəngin və müxtəlifçalarlı ədəbi-bədii irsi isə diqqətdən kənarda qalmış və ayrıca tədqiqat obyekti olmamışdır.

Çoxsahəli Nəvvab yaradıcılığı tək ictimai, fəlsəfi və ədəbi-bədii irslə məhdudlaşmayaraq təbabət, coğrafiya, astronomiya kimi təbiət elmlərinin, həmçinin musiqişünaslıq və tariximizi tədqiq edən araşdırmaçılar üçün də bir çox maraqlı məqamlarla zəngindir.

## ƏDƏBİYYAT

1. Axundzadə M.F. Bədii və fəlsəfi əsərləri. Bakı: Yazıçı, 1987, s.368
2. Axundzadə M.X. Ömürdən səhifələr. Bakı: Yazıçı, 1992, s.128

3. "Şuşa" qəzeti. 1971. 1983
4. Hüseynov X. Sirlər xəzinəsində xalq ifadə və məsəlləri. Azərbaycan SSR EA Xəbərləri. Ədəbiyyat. Dil və İncəsənət seriyası. 1970, № 2, s.65-66
5. Şirvani S.Ə. Öyüd: Mənzum məktublar, mənzum hekayələr, qəzəllər. Bakı: Gənclik, 1989, s.160
6. Nəvvab M.M. Nəsihətnamə. Bakı: Yazıçı, 1987, s.136
7. Nəvvab M.M. Divan. Bakı: Şuşa, 1999, s.192
8. Nəvvab M.M. Nəsihətnamə. Bakı: Yazıçı, 1987, s.136
9. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1984, s.175
10. Göyüşov Z. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri. Bakı: Azərnəşr, 1964, s.191

## SUMMARY

**Nijat Mammadov**

### PHILOSOPHICAL VIEWS MIR MOHSUM NAVVAB

Nawab's worldview and creativity reflect the essence of a unique way of thinking generated by a combination of temporal and spatial coordinates. M. Navvab, who created a reading room, a school, a lithographic printing house in Shusha and was engaged in pedagogical activities, continued the most characteristic features of classical poetry, writing works of didactic content under the influence of Nizami traditions and gazels under the influence of the Fuzuli philosophical school, he fruitfully worked as a poet, literary critic and scientist. However, unfortunately, the work of Nawab remained in the shadow of the philosophical and literary-artistic heritage of S.A. Shirvani, K. Natavan and other prominent contemporaries, widely studied both in the history of Azerbaijani philosophical thought and in literary criticism.

***Key words:*** *M.M.Navvab, socio-political, enlightenment-realistic, democratic, philosophical, worldview*

## РЕЗЮМЕ

**Ниджат Мамедов**

### ФИЛОСОФСКИЕ ВЗГЛЯДЫ МИР МОХСУМ НАВВАБА

Мировоззрение и творчество Наваба отражают суть уникального образа мышления, порожденного сочетанием временных и пространственных координат. М.Навваб, создавший в Шуше читальню, школу, литографическую типографию и занимавшийся педагогической деятельностью, продолжил наиболее характерные черты классической поэзии, написав произведения дидактического содержания под влиянием Низаминских традиций и газелей под влиянием философской школы Физули, он плодотворно работал как поэт, литературовед и ученый. Однако, к сожалению, творчество Наваба осталось в тени философского и литературно-художественного наследия С.А.Ширвани, К.Натавана и других выдающихся современников, широко изученных как в истории азербайджанской философской мысли, так и в литературоведении.

***Ключевые слова:*** *М.М.Навваб, общественно-политический, просвещенческо-реалистический, демократический, философский, мировоззрение*

**RƏNA MİRZƏZADƏ**
*mirrena54@yahoo.com*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

## HEYDƏR ƏLİYEV QAFQAZDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN STRATEQİDİR

*Məqalədə Qafqazda XX əsrin ikinci yarısında öz siyasi strategiyası ilə lider olan Heydər Əliyevin dövlətlərarası münasibətlərdə rolundan bəhs olunur. Heydər Əliyevin Qafqaz regionunda həyata keçirdiyi beynəlxalq layihələrə nəzər yetirilir və Qafqazda münaqişə ocaqlarında olan proseslərdə dövlətlərarası münasibətlərə siyasi nəzər yetirilir. Heydər Əliyevin Qafqazda beynəlxalq dünya birliyinə inteqrasiyanın təməlini qoyması açıqlanır.*

***Açar sözlər:*** *lider, inteqrasiya, dövlətlərarası münasibətlər, Qafqaz, beynəlxalq birlik, beynəlxalq layihələr*

XX əsr Qafqazda dövlətlərarası münasibətlərin formalaşdırılması və qurulmasında, ən görkəmli simalardan biri ulu öndər Heydər Əliyevdir. Bu fenomen şəxsiyyətin həyatı, idarəçilik məharəti, siyasi fəaliyyəti bütövlükdə Ümumqafqaz regionu və eləcə də Cənubi Qafqaz ölkəsi olaraq Azərbaycanın ikinci minillik dövrünün tam yarıməsri ilə bir yazılan tarixdir. ABŞ-ın keçmiş prezidenti Corc Buşun dediyi kimi: “Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur...”.

Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsi ilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Ulu öndər Qafqaz regionunun bütün dövlətləri ilə, ilk növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına, xarici təsirlərin süni şəkildə və milli konfliktlərin qaynar ocağına dönən bu bölgədə sülhün və əməkdaşlığın təminatına çox diqqət verirdi. Belə ki, XX əsrin 90-cı illərində Ermənistanla davam edən müharibənin dayandırılması vacib idi. Çünki bu ədalətsiz müharibə haqqında dünyaya düzgün informasiya verilməsi önəmli idi və bu aspektdən atəşkəs rejiminə gedilməsi də zərurət oldu.

Rusiya Federasiyasının prezidenti Vladimir Putinin söylədiyi kimi: “Uzun illər ərzində Heydər Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur”. Və təsadüfi də deyildir ki, keçmiş Gürcüstan prezidenti E.Şevardnadze də söyləmişdir ki: “Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır”.

Bu real gerçəklik, Qafqaz regionunda günümüzün siyasi fəlsəfəsidir. Ulu öndərin dövlət quruculuğu və siyasətdə keçdiyi yol “Heydər Əliyev məktəbi” adlanır. Bu yol hansı keşməkeşliklərdən, çətinliklərdən keçməyib ki... Bu yolda isə güclü və mətin, siyasi iradəli və ideyaları zəngin, Qafqaz xalqları arasında dostluğu və əməkdaşlığı təqdim edən, fəlsəfi-siyasi baxışlı, mükəmməl və kamil şəxsiyyət Heydər Əliyev xarizması var. Bu müsbət keyfiyyətlər də Qafqaz bölgəsində Azərbaycanın tarixi-siyasi inkişaf dinamikasının ən mühüm komponentləridir. Bu mənada Heydər Əliyev Qafqazda kim olub...

Bu bir tarixi reallıqdır ki, Heydər Əliyev Qafqazda sülhün bərqərar olması fikri ilə çıxış etmiş və onun bilavasitə tövsiyəsi ilə 1996-cı ildə "Qafqaz regionunda sülhün, sabitlik və təhlükəsizlik haqqında" Tbilisi Bəyannaməsi və 1999-cu ildə ATƏT-in İstanbul zirvə görüşündə "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq akti" bağlanmışdır. Məhz bu çox əhatəli və gələcək nəsillərin sabit firavan həyat tərzinə hesablanan siyasətə görə Qafqaz xalqları "Heydər Əliyevi Ümumqafqaz evinin ağsaqqalı" adlandırmışlar.

Heydər Əliyev dövlətçilik paradiqması - bu böyük dahinin Qafqazda da çoxistiqamətli fəaliyyətinin, zəngin dünyagörüşünün və çoxcəhətli irsini əhatə edən siyasi-hüquqi təlimdir.

Heydər Əliyev siyasi məktəbi - bu məhz Qafqazşünaslıqda da qlobal yanaşma ilə milli dəyərlərin vəhdətini adaptasiya edən, lokal və regional xüsusiyyətləri nəzərə almaqla, düşünülmüş yetkin idarəetmə təlimidir.

Heydər Əliyev siyasi kursu - postsovet məkanı ölkələrinin, əsasən, Qafqaz məkanında dövlət quruculuğunun inkişaf etdirilməsi və möhkəmləndirilməsində örnək bir nümunəvi modeldir. Bu siyasi kurs həm MDB məkanı ölkələri üçün, əsasən də, Qafqazda nəinki nümunə, həm də dünya siyasət elmində öyrənilən bir məktəb oldu.

Bu kontekstdə Qafqaz regionunda milli dövlətçilik institutunun formalaşmasında, onun inkişaf istiqamətində, dövləti maraqların praqmatikliyində, milli birliyin və milli həmrəyliyin təminatında ulu öndər Heydər Əliyevin xidmətləri ölçüyə belə gəlmir.

Vaxtilə ABŞ prezidenti Bill Klinton (Heydər Əliyevə müraciətlə) söyləmişdir: "Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında sizin xidmətlərinizi yüksək qiymətləndiririk" (1) və Türkiyənin keçmiş rəhbərlərindən Əhmed Necdet Sezər "Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətində fəaliyyəti ilə də daim xatırlanacaq" (1) deyə söyləmişdir.

Xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ulu öndər 1993-cü ildən başlayaraq Azərbaycanın xarici siyasətini yenidən qurdu. Azərbaycanın strateji maraqlarını bölgədəki dövlətlərin və Qafqazda təsir gücü olan hər bir ölkənin maraqlarını nəzərə alan adaptasiyalı siyasət yürütməyə başladı. 1993-cü ildə Milli Məclisə sədr seçilərkən demişdi: "Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə, İran, qonşu Gürcüstan, Rusiya, Amerika, Avropa dövlətləri ilə, Ərəbistan, müsəlman dövlətləri, türkdilli dövlətlər, Mərkəzi Asiya dövlətləri Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır" (3). Hakimiyyətinin ilk illərindən başlayaraq Heydər Əliyev dövlətçilik maraqlarını əsas tutaraq müxtəlif ölkələr, o cümlədən Qafqaz və Azərbaycana yönələn iqtisadi maraq və nüfuz savaşını nəzərə aldı və gənc müstəqil respublikanı dünya dövlətlər birliyində tanıtmağa istiqamət götürdü. Azərbaycanın MDB-yə, GUAM-a daxil olması ilk manevrlərdən oldu. Azərbaycan qonşu Rusiya və Gürcüstanla çoxtərəfli əməkdaşlıq sazişləri bağladı. Ulu öndər hesab edirdi ki, Gürcüstan yaxın qonşumuz, Avropaya çıxışımız, orada 500 minədək azərbaycanlının yaşaması və Qafqaz kimi regionda sülhün qorunması vacib məsələdir. "Heydər Əliyevin xalqı səfərbər edərək öz arxasınca apara bilən lider olması ilə yanaşı, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi yaradıcı şəxsiyyət keyfiyyətləri yenidən bariz şəkildə təcəssüm olundu. Ümummilli lider mürəkkəb xarici-

siyasi vəziyyətdə, yeni dünya nizamının tələblərini və geosiyasi reallıqları nəzərə almaqla Azərbaycan dövlətinin Milli İnkişaf strategiyasını müəyyənləşdirdi və elmi-siyasi, tarixi cəhətdən əsaslandırdı" (4).

1993-cü ildə Azərbaycanın həm müstəqilliyi, həm də dövlət kimi ərazi bütövlüyü, bəlkə də politoloji anlamda desək, "vertikal" və "horizontal" siyasi bölünməyə məruz qala bilərdi. Yəni, ölkənin hüquqları və məsuliyyəti ayrı-ayrı dövlətlərin hökumətləri və müxtəliftipli beynəlxalq qurumlar arasında bölünə bilərdi. Məhz Qafqaz ölkəsi olan qonşu Ermənistanın Azərbaycana elan olunmamış müharibə və işğal faktoru reallıq idi.

Bu yanaşmadan isə E.Toflerin milli dövlətlərin tədricən transmilli korporasiyaların təzyiqi ilə sıxışdırılıb "əriyib itəcəyi" ideyasının ölkədə proqnozlaşdırması da mümkün variant idi. Belə variantda isə ölkəni yalnız böyük dövlət strateqi Heydər Əliyev əzmi qurtardı... Müstəqillik qazandıqdan sonra qarşıda duran vəzifələr ən əsas vəzifə dövlətlərarası münasibətləri tənzimləmək idi və bu əsasda da ölkənin demokratikləşdirilməsi, bazar iqtisadiyyatına keçidin formalaşdırılması, ictimai-siyasi sabitlik, idarəetmə və hakimiyyətin, ən vacibi isə qanunvericilik bazasının yaradılması mexanizmi idi. Qafqazda dövlətlərarası münasibətlərin tənzimlənməsi, eləcə də digər dövlətlərlə xarici siyasətin qurulması prosesi başlanıldı.

Beləliklə də, müstəqillik qazanan Qafqaz ölkəsi olan Azərbaycanda strateji prioritetlər müəyyənləşdirildi.

Ulu öndərin keçid mərhələsinin problemlərinin aradan qaldırılması ilə əlaqədar fəaliyyəti bu məsələlərin həlli ilə yanaşı, həm də dünyanın yeni nizamının dərki, onun gedişatı uyğun işin təşkil edilməsi metodologiyası idi. Fenomen strateq bu zaman həm beynəlxalq ölkələrin təcrübəsindən istifadə etməklə, eyni zamanda Qafqazda unikal Azərbaycan təcrübəsi yaradaraq dövləti qurdu. Bu dövlətin ideoloji sistemi Azərbaycan ərazisində yaşayan bütün həm Qafqaz xalqlarına mənsub əhalinin minilliklərə gedən tarixinə və dövlətçilik ənənələrinə, müasir gerçəkliyə və sivilizasiyanın inkişaf istiqamətinə söykənir. Ulu öndər Heydər Əliyev siyasətində xalqların bərabərhüquqluluğu, onların etnik tərkibinə milli fərq qoyulmadan potensialından istifadə olunması, müxtəlif mədəniyyətlərin uyğunlaşdırılmasına imkan verilmişdi.

Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze çox yerində demişdir ki: "Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək... O polad iradəyə malik nadir şəxsiyyətdir" (1).

Ulu öndər Heydər Əliyev strategiyasında mənəviyyat amili də güclü idi. Azərbaycan ənənəvi islam ölkəsi olmasına rəğmən, başqa səmavi dinlərin də fəaliyyətinə şərait verdi. Hal-hazırda da Qafqaz ölkəsi olan Azərbaycanda Bakının mərkəzində erməni kilsəsi tarixi abidə kimi qorunur.

Daim milli dəyərlərə, mənəvi adət-ənənələrə hörmət qoyan ulu öndər müsəlmanların müqəddəs Ramazan, Qurban bayramlarını dövlət səviyyəsində qeyd etdiyi kimi, eləcə də digər dinlərə aid bayramları qeyd edirdi. Bu islahatlar milli dirçəliş, milli oyanış, milli özünüdərk fəlsəfəsinin azərbaycançılıq ideologiyası mətnində vəhdəti idi. Belə ki, Azərbaycan ərazisində bütün vətəndaşlar üçün bu ölkədə yaşamalarına münbit zəmin

yarandı. Ulu öndərin Qafqazda siyasi və dövləti fəaliyyəti strategiyası çoxmillətli ölkənin xalqlarının milli dövlətçilik haqda istəklərini gerçəkləşdirdi. Bu zəmində də Heydər Əliyev Qafqazda dövlətlərarası münasibətlərdə Azərbaycan vətəndaşlarının, Azərbaycan xalqının və bu ərazidə yaşayan çoxsaylı etniklərin milli dirçəliş fəlsəfi konsepsiyasını formalaşdırdı.

Ulu öndər Heydər Əliyev milli dövlətçilik institutunun siyasi arxitekturasını, siyasi-hüquqi idarəçilik nəzəriyyəsini, dövləti yaratma siyasi fəlsəfəsini, dünyaya inteqrasiya istiqamətlərinin beynəlxalq əlaqələr strategiyasını müəyyənləşdirdi. Həyatda ən böyük nailiyyət kimi yeni dövlətçilik, müstəqil respublika, yeni Konstitusiya, əvvəlki heç bir idarəçilik formasına bənzəməyən Milli quruculuq yolunun siyasi fəlsəfəsi sonrakı nəsillərə nemət və irs kimi qalır (2). Bu mənada müstəqil Azərbaycan ulu öndərin rəhbərliyi ilə modern, dünyəvi, dünya birliyi ilə ikitərəfli və çoxtərəfli beynəlxalq əməkdaşlığa inteqrasiya yolunu tutan suveren və demokratik prosesləri həyata keçirən respublika olaraq tanınmağa başlandı.

Ulu öndər 1994-cü il 20 sentyabrda Qafqaza "yeni neft siyasəti" modelini müstəqil Azərbaycanın ilk neft müqaviləsini - "Əsrin kontraktı"nı imzaladı. Bu müqavilə nəinki ölkədə, Qafqaz regionunda, hətta beynəlxalq enerji strategiyasında "yeni neft siyasətinə" rəvac verdi.

Qeyd edək ki, Xəzər hövzəsi dövlətlərin geoiqtisadi maraqlarının toqquşduğu məkandır. Ulu öndər Heydər Əliyev o dövrdə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyevi də enerji layihələri ilə bağlı aparılan mürəkkəb müzakirələrə dəvət etdi. Burada əsas vacib məsələ Azərbaycanın milli mənafeyini qoruyaraq, milli və dövlətçilik baxımından bu saziş imzalanarkən, öz milli maraqlarını qoruyub saxlamaq prinsipi və əsasən də, Qafqaz bölgəsində dövlətlərarası münasibətlərin yeni əməkdaşlığı idi. Gənc və çevik, diplomatik bacarıqlı İlham Əliyevin isə problemə bələd olması bu əhəmiyyətli müqavilənin müvəffəqiyyətlə başa çatmasına kömək oldu.

Beləliklə də, ulu öndər Heydər Əliyev Qafqazda beynəlxalq dünya birliyinə inteqrasiyanın təməlini yaratdı. Belə ki, müstəqil Azərbaycan BMT kimi qurumdan sonra, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının, Davos İqtisadi Forumunun, İqtisadi Əməkdaşlıq Təşkilatının və s. nüfuzlu qurumların üzvlüyünə qəbul olundu.

Ümummilli lider Ermənistanın torpaqlarımıza təcavüzünü dünyaya bəyan edən, xarici ölkələrdə diaspor və lobbiçilik institutunu formalaşdıran beynəlxalq səviyyəli rəhbər idi. Bu mənada Rusiya prezidenti V.Putin onun haqqında söyləmişdir: "O, böyük dövlət xadimi idi... Siyasi nəhəng idi, mən ona sadəcə böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim" deyir, ABŞ-ın sabiq prezidenti - Bill Klinton isə Heydər Əliyev haqqında demişdir: "Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında xidmətləri yüksəkdir" (5). Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında tanınan və sevilən lider idi. Bir millət iki dövlət tezisi ona məxsusdur" kimi qiymətləndirirdisə, Fransanın sabiq prezidenti Jak Şirak "Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirəm. Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi

rəhbərlik etmişdir" - deyə söyləmişdir (5). Bu və digər çoxsaylı deyimlər də təsdiq edir ki, ulu öndər nəinki Qafqazda, həmçinin dünya səviyyəsində qəbul edilən dahi şəxsiyyət, dövlətlərarası münasibətlərdə böyük siyasi məntiqli strateq olmuşdur.

Ulu öndər milli liderliklə siyasi rəhbərliyi, siyasi liderliklə milli rəhbərliyi inteqrasiya edən fenomen strateqdir. Başdan ayağa unikal siyasətçi, hər bir azərbaycanlının hamisi, dəstəkçisi, güvənən yeri, qüruru ölkə sərhədlərindən kənarda yaşayan hər bir azərbaycanlının doğması, əzizi idi. Bu onu əbədi dünyaya yola salan milyonların dəfn mərasimində iştirakında, Ümumqafqazın, eləcə də Azərbaycanın hər bir kəndi, qəsəbəsi, rayonu, şəhərində onun adına verilən ehsan məclisləri və oxunan dualarda da özünü əks etdirdi. Ulu öndər ilahidən seçilmişlərin seçilmişi, qüdrətli, öz ölkəsini sevən və "Mən fəxr edirəm ki, azərbaycanlıyam" söyləyən uca insan, siyasi xadim, dövlət qurucusu, qurucu və yaradıcı prezident olmuşdur.

XX əsrin 70-ci illərindən Qafqaz ölkəsi olan Azərbaycanın dirçəlişi, qurtuluşu, intibahı məhz fenomenal şəxsiyyət Heydər Əliyevin böyüklüyünün məntiqi yekunudur.

Cənubi Qafqaz regionunda beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin şaxələndirilməsi və Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi respublikamızın iqtisadiyyatının gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı strategiyasının əsas göstəriciləridir. Bu kontekstdən, Azərbaycan Avropa-Qafqaz-Asiya Nəqliyyat dəhlizi (TRASECA) layihəsi, habelə Şimali-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə aktiv diqqət yönəltmişdi. Həmçinin Azərbaycan, Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin qurulması da regional əməkdaşlıq formasıdır.

XXI əsrin əvvəlindən isə Qafqazda dövlətlərarası münasibətlərdə qarşılıqlı əməkdaşlığı qoruyan ulu öndər Heydər Əliyev siyasi kursunun, dövlətçilik institutunun ən layiqli aparıcısı, Qafqaz regionunda lider Azərbaycanın Prezidenti İlham Əliyevdir.

Fikrimizi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın fikirləri ilə bitirək: "Onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Heydər Əliyev - tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran vətəndaş, şəxsiyyət, liderdir... Vətənin - Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı" (6).

## ƏDƏBİYYAT

1. www/xalqqazet:com/az/new/politics/1356
2. https://azertag.az/xeber/
3. https://azertag.az/xeber/
4. "Azərbaycan qəzeti", 05 may 2015
5. Femida.az/news/13907
6. Mirzəzadə R. Akademik R.Mehdiyevin "Yeni dünya nizamı və milli ideya" əsəri siyasi fəlsəfi paradiqmadır. "Elm və həyat" jurnalı. May 2017

## SUMMARY

**Rena Mirzazade**

### HAYDER ALIYEV INTERSTATES IN THE CAUCASUS IS A RELATIONSHIP STRATEGY

The article reveals the role of Haydar Aliyev in interstate relations, which became the leader due to his political strategy in the Caucasus in the second half of the twentieth century. Attention is drawn to international projects carried out by Haydar Aliyev in the Caucasus region, political attention is paid to interstate relations in the processes in the conflict zones of the Caucasus. Reveals the role of Haydar Aliyev in creating the foundations of integration to the international community.

***Key words:*** *leader, integration, interstate relations, Caucasus, international community, international projects*

## РЕЗЮМЕ

**Рена Мирзазаде**

### ГАЙДЕР АЛИЕВ МЕЖГОСУДАРСТВЕННЫЙ НА КАВКАЗЕ ЭТО СТРАТЕГИЯ ОТНОШЕНИЙ

В статье повествуется о роли Гейдара Алиева в межгосударственных отношениях , ставшего лидером благодаря своей политической стратегии на Кавказе во второй половине XX века. Указывается на международные проекты, проводимые Гейдаром Алиевым в Кавказском регионе, обращается политическое внимание на межгосударственные отношения в процессах в конфликтных зонах Кавказа. Раскрывается роль Гейдара Алиева на Кавказе в деле заложения основ интеграции в международное сообщество.

***Ключевые слова:*** *лидер, интеграция, межгосударственные отношения, Кавказ, международное сообщество, интернациональные проекты*

RƏŞAD ƏSGƏROV

# QIRMIZI PROFESSORLAR İNSTİTUTUNUN MƏZUNLARININ FƏLSƏFİ TƏDQİQATLARI

Sovet dövründə Azərbaycan ictimai və fəlsəfi fikir tarixi tamamilə marksist metodologiyanın tələblərinə uyğunlaşdırılmış və fəlsəfi fikir yalnız bir istiqamətdə inkişaf xətti götürmüşdü. Bu dövrdə xalqların özünəməxsus min illərlə tarixi dövr ərzində formalaşmış fəlsəfi fikri ya tamamilə təhrif olunmuş formada tədqiq edilir, ya da marksist metodoloji tələblər baxımından qoyulan meyarlara cavab vermədiyi üçün tamamilə qadağan edilirdi. Ona görə də bu dövrdə Azərbaycan fəlsəfə tarixində marksizm klassiklərinin əsərlərini tədqiq edən tədqiqatçılara daha geniş imkanlar açılır, bu sahədə tədqiqat aparmayan tədqiqatçıların əsərlərində isə bu və ya digər formada qnoseoloji, ontoloji və sosial aspektlərin marksistcəsinə izahına geniş yer verilirdi. Dialektik və tarixi materialist metodoloji xəttin, yanaşmanın tədqiqatçıları bəzən bu metodoloji xəttin ardıcılları olmayan mütəfəkkirlərdə də marksizm fəlsəfəsinin elementlərini axtarmaq cəhdinə meyil edirdilər. Ona görə də metodoloji xətdə bu illər yalnız monotonluq hakim ideologiyaya çevrilmişdi.

Bu yanaşmadan kənara çıxanlar isə antimarksist və burjua ideologiyasının davamçıları kimi ən yaxşı halda kəskin tənqid edilir, təqib olunur və Sibirə sürgün edilirdilər. Milli-mənəvi dəyərlərə münasibətdə də kəskin, barışmaz münasibəti davam etdirən marksist fəlsəfə metodoloji prinsiplərə uyğun olaraq xalqların identikliyini və milli xüsusiyyətlərini kənara ataraq Sovet xalqı üçün ümumi olan prinsiplərdən çıxış edirdi. Bu isə dinə münasibətdə ateizm - yəni bütün dinlərin inkarı üzərində formalaşmış baxışların yayılmasına səbəb olurdu. Ümumiyyətlə, marksist fəlsəfədən kənara çıxan, ona yad olan hər bir cərəyan və baxışlar tənqid atəşinə tutulur, bu fəlsəfi xəttə qulluq edən, onu müdafiə edən baxışlar isə birmənalı olaraq təbliğ edilirdi. Bu isə Sovet Azərbaycanında hakim fəlsəfi metodoloji xəttin bir istiqamətli inkişafına şərait yaradırdı. Beləliklə, 70 il Azərbaycanda hakim olan marksizm burada alternativ fikir və cərəyanların inkişafına nəinki imkan verməmiş, həm də metodoloji yanaşmanın da təhrif olunmuş formada yalnız bir istiqamətdə formalaşmasına şərait yaratmışdır. Bu isə Azərbaycan fəlsəfi fikrinin inkişafına öz mənfi təsirini göstərmişdir.

1920-40-cı illərdə Azərbaycanın marksist filosofları dialektik materializmin öyrənilməsi və təbliği ilə yanaşı, həmçinin diqqəti materializmin tarixinin öyrənilməsinə və təbliğinə, ayrı-ayrı materialistlərin ideya irsinə yönəltmişlər. İlk Azərbaycan fəlsəfə tədqiqatçıları sırasında xüsusi rolu olan Cahangir Nağıyev fransız materialist filosofu Deşane Leje Marenin (1716-1774) "Həqiqət və yaxud təsdiqlənmiş sistem" əsərini rus dilinə tərcümə etmişdir. Bu işdə Deşanın fəlsəfi baxışları geniş surətdə şərh edilmiş və əsərin Spinozanın materialist baxışlarına yaxın mövqedən yazıldığı sübut olunmuşdur. Əsərdə Deşan bir çox hallarda dialektik ideyanı rasional tendensiyaya uyğunlaşdırmışdır. Deşanın fikrincə "universal bütövlük" bütün fiziki vücudların birliyidir, yüksək hissiyyatlı

mövcudluqdur və ancaq şüurla dərk edilə bilər. Deşan öz dövrünün görkəmli rasionalistlərindən biri kimi idrak nəzəriyyəsində idealizm mövqeyində durmuş, idrakda hissiliyin rolunu inkar etmişdir. O öz əsərlərində dəfələrlə vurğulamışdır ki, insanlar allahlar tərəfindən yaradılmamışdır, əksinə, allah insanlar tərəfindən yaradılmışdır. Müəyyən məhdud cəhətlərinə baxmayaraq Deşanın fəlsəfi görüşləri öz dövrü üçün mütərəqqi əhəmiyyətə malik olmuşdur.

Bu dövrdə diqqəti həmçinin Əhməd Seyidovun ingilis materialisti C.Lokk haqqında işləri cəlb edir. Əhməd Seyidov haqlı olaraq qeyd edir ki, Con Lokk materializm tarixində böyük bir qığılcımdır. Baxmayaraq ki, o fransız materialistlərinin materializmi ilə, Feyerbax və hətta Marksın dialektik materializmi ilə müqayisəedilməzdir. Ancaq o bunların hazırlanmasında tarixdə labüd rol oynamışdır (23).

1920-40-cı illərdə Cahangir Nağıyev marksizm-leninizm ideyalarının alovlu təbliğatçısı və qızğın müdafiəçisi olmuşdur. Onun "Marksın materializmi" adlı monoqrafik əsərində tarixi materializmin bir sıra əsas müddəalarından ətraflı bəhs edilir. Əsərin "materiya haqqında təlim" adlı birinci fəslində materiyanın fəlsəfi və fiziki anlayışlarının bir-birinə qarışdırılmaması zərurəti xüsusi qeyd edilir. Əsərin bu fəslində Cahangir Nağıyev XVIII əsr fransız materializminin görkəmli nümayəndəsi Holbaxın, klassik alman fəlsəfəsinin nümayəndəsi Feyerbaxın materializmini səciyyələndirir, onların materializminin güclü və zəif cəhətlərini müəyyən edir (3, s.20).

Cahangir Nağıyevin idrakın mənbəyi, pillələri, idrak prosesində praktikanın rolu haqqında fikirləri o dövrdə marksizm-leninizm idrak nəzəriyyəsinin inkişafında irəliyə doğru bir addım olmuşdur.

Nağıyevin fikrincə, təcrübə heç də yanlış şüurun vəziyyəti, subyektin, hisslərin ifadəsi deyildir. Dialektin materializmin təcrübə anlayışı subyektiv idealizmin təcrübə anlayışından əsaslı surətdə fərqlənir. Dialektik materializm təcrübə dedikdə, bunu insanlar, cəmiyyətin və obyektiv aləmin qarşılıqlı əlaqəsinin yekunu kimi, insanların ictimai-tarixi praktikası kimi başa düşür. Təcrübənin mənbəyi insan şüurundan asılı olmayaraq mövcud olan obyektiv təbiətdədir, xarici aləmin dərk olunması və insanın mənafeyi naminə dəyişdirilməsindədir. Təcrübə idrakın əsası və həqiqətin meyarıdır.

Bu dövrdə marksist fəlsəfə sahəsində araşdırmalar aparan Ayna Sultanova Spinoza, Leybnits və Dekartın fəlsəfi görüşlərini geniş tədqiq edir və onların idrak nəzəriyyələri haqqında öz mühakimələrini irəli sürürdü. Ayna Sultanova tədqiqatlarında belə nəticəyə gəlirdi ki, Dekartın idrak nəzəriyyəsi mahiyyəti etibarilə idealist xarakter daşıyır. Dekartın idrak yolu təfəkkürdən varlığa gedən yoldur. Onun fikrincə, Dekartın həqiqət axtara-axtara gəldiyi yol budur ki, mövcudluğun həqiqiliyi təfəkkürdür. Təfəkkürün, düşüncə və fikrin həqiqiliyindən xarici aləmin həqiqiliyini müəyyən etmək olar. O xüsusi olaraq Dekartın "şübhələr prosesi" üzərində dayanır. Dekartın şübhələrinin əsasında belə bir əqidə durur ki, biz xarici aləmi, o cümlədən özümüzü öz hisslərimiz və duyğularımız vasitəsilə duyuruq. Hiss və duyğularımız isə bir qayda olaraq bizi aldadır, dərk etdiyimiz şeylərin gerçəkliyinə, həqiqiliyinə şübhələr doğurur. Dekart bizim duyğu və təsəvvürlərimizi yuxugörmə ilə müqayisə edir və belə bir fikir yürüdür ki, yuxugörmə, röya həqiqətlə müqayisədə yalan olduğu kimi, bizim təsəvvürlərimizin məzmunu da yalandır. Beləliklə,

Dekart idrak prosesində hiss və duyğuların rolunu tam inkar edir. Onun fikrincə, idrakın, dünyanı dərketmənin yeganə vasitəsi ağıldır. İnsanın mövcudluğunun, həqiqiliyinin əsasında da onun fikirləşməsi, intellektual qabiliyyəti durur. Bununla əlaqədar olaraq Ayna Sultanova Dekartın məşhur "fikirləşirəm, deməli mövcudam" müddəası üzərində dayanır və göstərir ki, bu müddəa Dekartın fəlsəfəsinə, xüsusən də, idrak nəzəriyyəsinə qiymət verməkdə xüsusi rol oynayır. Onun idrak nəzəriyyəsində, bir sözlə fikir, düşüncə həqiqətin meyarıdır.

Ayna Sultanova idrak nəzəriyyəsində hissi idrak, təsəvvür və intuitiv təfəkkürü bir-birindən ayırır və əsas olaraq predmetlərin mahiyyətinin dərkində intuitiv təfəkkürün roluna daha çox üstünlük verirdi.

Ayna Sultanova Spinozanın idrak nəzəriyyəsini tədqiq edərkən onun "İntellektin saflaşdırılması haqqında traktat" əsərinə xüsusi əhəmiyyət verirdi. Bu əsərdə Spinoza Dekartdan tam fərqli olaraq "fikirləşən mən"dən deyil, birbaşa obyektdən çıxış edir və idrakın başlanğıcı olmaq etibarı ilə hisslərin roluna böyük qiymət verirdi. Ayna Sultanovanın fikrincə, Spinozanın Dekart qarşısında üstünlüyü ondadır ki, Spinozanın idrak nəzəriyyəsi monist xarakter daşıyır. Spinozaya görə insan xarici dünyanı birinci növbədə öz hissləri, öz duyğuları, öz bədəni vasitəsilə dərk edir.

Leybnitsin idrak nəzəriyyəsini tədqiq edərkən Ayna Sultanova onun aşkar idealist xarakter daşıdığını vurğulayırdı. Leybnitsə görə varlığın və həqiqətin dərk edilməsinin mənbəyi insanın "mən"indədir, ağlındadır. Varlıq və həqiqət bizim ağlımızdadır. O idrakın hissi və rasional momentləri arasında sədd çəkirdi. O belə hesab edirdi ki, hissi idrak təfəkkürün materialı olmaq etibarı ilə zəruridir. Leybnitsin fikrincə, rasional idrak həqiqi idrak kimi şeylərin mahiyyətini dərk etməyə, hadisələrin səbəbiyyət əlaqələrini müəyyən etməyə qabildir.

Beləliklə, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda marksist-leninçi ideologiya hakim mövqeyə keçdi ki, bunun da əsas səbəbi mövcud rejimin məhz bu ideyalardan dəstək alması idi. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra ölkədə marksizm-leninizmə müxalif olan ideoloji cərəyanların fəaliyyəti bir qayda olaraq dayandırıldı, qeyri-marksist fəlsəfi və ictimai-siyasi problemlərin tədqiqinə son qoyuldu.

1920-ci ildə Azərbaycanda sosial-siyasi həyat və ictimai fikirdəki fərqli prioritetlər, onların ictimai şüurda əksi, millətin siyasi və mənəvi baxımdan parçalanmasına, Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna, ideoloji həyatda getdikcə marksizmin kök salmasına və yeni sosial quruluşun qələbəsinə gətirib çıxardı. Yeni hakimiyyət dövründə terror və siyasi repressiyalar vasitəsilə millətin mövcud rejimə siyasi və ideoloji müxalifəti, xüsusən ziyalıları müntəzəm olaraq məhv edilirdi. Bu dövrdə Azərbaycanın proletar diktaturası və marksizm fəlsəfəsinə müxalif mütəfəkkirlərinin bir qismi siyasi repressiya qurbanı oldu, digər hissəsi isə mühacirət edərək xaricdə siyasətlə bərabər fəlsəfə sahəsində də öz fəaliyyətlərini davam etdirdilər.

Təxminən XX əsrin 20-ci illərindən başlayaraq 80-ci illərin ortalarına qədər Azərbaycanda marksist-leninçi ideologiyanın hakimliyi yalnız sosialist ruhlu fəlsəfənin mövcudluğunu şərtləndirirdi və bu fəlsəfə dayanıqsız olan rejimin ideoloji təbliğat maşınına xidmətdən başqa bir iş görmürdü.

XX əsrin əvvəllərindən Azərbaycan ictimai-siyasi həyatında yorulmadan çalışan marksist fəlsəfə sahəsində tədqiqat aparan ziyalılarımız elm və fəlsəfənin müxtəlif sahələrinin inkişafı üçün mübarizə aparmış, qərb alimlərinin fəlsəfi görüşlərini tədqiqat obyektinə çevirərək Azərbaycan fəlsəfi fikrinin inkişafına da öz töhfələrini vermişlər. Onlar xalqımızın milli mədəniyyətinin formalaşmasında böyük xidmətlər göstərmişdir. Məhz onların xidmətlərinin nəticəsində Azərbaycanda latın əlifbasına keçid prosesi tezləşmiş, terminologiya, orfoqrafiya lüğətləri və müxtəlif fəlsəfə əsərlər milli dilimizə tərcümə edilmiş, marksist yönlü Azərbaycan fəlsəfəsi formalaşmış və inkişaf etmişdir.

İctimai elmlər sahəsində tədqiqat aparan postsovet dövrü tədqiqatçılarının qarşısında duran ən vacib məsələ diqqətdən kənarda qalmış problemlərə müraciət etmək və onları yeni tələblər baxımından araşdırmaqdır. Hazırda isə Azərbaycanda ictimai elmlər üzrə tədqiqatçıların qarşısında konseptual mövqelərin və təhlil metodologiyalarının seçilməsi üçün geniş imkanlar açılıb.

Fikrimizcə, fəlsəfə tədqiqatçılarının vəzifəsi araşdırılan sahədə fərqli mövqeləri rasional surətdə təhlil etmək, konkret elmi biliklərin bazisinə əsaslanan müstəqil yaradıcı düşünmə qabiliyyətini formalaşdırmaqdır. Xüsusilə də fəlsəfə sahəsində tədqiqat aparan mütəxəssislər qarşıya qoyduqları məqsədlərə nail olmaq üçün xüsusi metodika işləyib hazırlamalıdırlar. Bu müasir tədqiqat və metodikalardakı yeniliklər gələcəkdə bu sahədə problemlərin tam olaraq aradan qaldırılmasına imkan verəcəkdir. Dünyada baş verən, xüsusən də açıq dinamik sistemlərdə əmələ gələn qeyri-xətti proseslər də fəlsəfi fikrin inkişafına yeni yanaşmaları tələb edir.

Tarixən ictimai elmlər cəmiyyətdə milli birliyi və milli özünüdərki təmin etmişdir. Bu elmlərin əsas missiyası qarşılıqlı ünsiyyət və anlaşma, sosial-siyasi sabitlik yaratmaq olmuşdur. Mədəni-mənəvi dəyərlər ictimai elmi biliklər sayəsində nəsildən-nəslə ötürülərək daha da inkişaf etdirilmişdir. Müstəqillik dövründə Azərbaycanda fəlsəfi fikir dünya fəlsəfi fikrinin bütün müsbət xüsusiyyətlərindən bəhrələnməklə daha da inkişaf edir. Azərbaycan fəlsəfi fikrinə xas türkçülük, islamçılıq və müasirlik prinsipləri üzərində yüksələn və müstəmləkə Şərqinin dirçəliş ideologiyası kimi səciyyələndirilən ideyalar qlobal məkanda türk xalqlarını müstəqilliyə hazırlamaq baxımından olduqca əhəmiyyətli olmuşdur. Bu zərurətin nəticəsidir ki, Sovet hakimiyyətinin süqutundan sonra bu üç prinsip zamanın sınaqlarından çıxaraq milli ideologiya və fəlsəfi dünyagörüşünün ontoloji aspektlərinin müddəaları kimi yaşamaqdadır. Fikrimizcə, Azərbaycan xalqının inkişafı və birliyini daha möhkəm təməllər üzərində quran başlıca metodoloji istiqamət və təməl "Azərbaycançılıq" məfkurəsidir. Məhz bu metodoloji xətt Azərbaycan xalqının gələcəkdə də davamlı və dinamik inkişafına təkan verəcək və onun müasir fəlsəfi fikrinin daha da dolğunlaşmasına və dünya fəlsəfi fikri ilə sistemli olaraq qarşılıqlı bəhrələnmədə irəliləyişinə zəmin yaradacaqdır. Fikrimizcə, bu metodoloji xəttin davamlı olaraq inkişafı fəlsəfi fikir tariximizin inkişafına və dolğunlaşmasına öz töhfəsini verəcəkdir.

Təəssüf ki, postsovet məkanında fəlsəfədə varislik prinsipi pozulmuşdur. Totalitarizmin hakim olduğu dövrdən başlayaraq əvvəllər mövcud olan azad fəlsəfi düşüncə tərzi qadağan edilmişdir. Müxtəlif fəlsəfi məktəblər qərarlaşmağa başlayan siyasi sistemlə ziddiyyət təşkil etmiş və son nəticədə ömrünü məğlubiyyətlə başa vurmuşdur.

Azad düşüncə tərzinə malik olan fikir fədailəri məhv edilmiş, onlardan bəziləri xarici ölkələrdə disident filosof kimi yaşamışlar.

İndi keçmiş siyasi sistemdə mövcud olan fəlsəfi bilikləri nihilist mövqe tutaraq tamamilə rədd etmək istər mənəvi, istərsə də elmi baxımdan düzgün deyildir. Əlbəttə Sovet dövründə formalaşmış fəlsəfənin mütərəqqi cəhətləri qorunub saxlanılmalı, cəmiyyətin sivil normalara uyğun olaraq inkişafı ilə ziddiyyət təşkil edən hissəsi isə atılmalıdır. Yalnız varislik prinsipinə əməl etməklə insanların onilliklər ərzində topladığı mənəvi sərvətləri nəsildən-nəsilə ötürmək mümkündür. Bir-birinə zidd olan fikirlərin, müddəaların, fəlsəfi düşüncələrin mübarizəsi fəlsəfəni daha da zənginləşdirir. Sovet dövründə bu mübarizə doqmatik və tənqidi fikirlər arasında mövcud olmuşdur. Doqmatik fəlsəfə ictimai varlığın və ictimai şüurun reallıqlarını bayağı şəkildə əks etdirmiş, əzbərçilikdən, sitatçılıqdan, subyektiv şərhçilikdən başqa bir şey deyildir. Yaradıcı fəlsəfə isə real praktikaya, konstruktiv tənqidi baxımdan yanaşmışdır. Təəssüf ki, doqmatik düşüncə tərzi yaradıcı, tənqidi fikirlər üzərində dominantlıq qazanmışdır. Bunun isə əsas səbəbi fəlsəfənin siyasətə qurban verilməsi olmuşdur. Fikrimizcə, fəlsəfi fikrin onun subyektlərindən özgələşməsinin qarşısını sərbəst düşüncəyə şərait yaradan demokratik cəmiyyətdə almaq mümkündür [2].

Çağdaş Azərbaycanın siyasi müstəqilliklə yanaşı, mənəvi müstəqillik qazanması xalqımızın milli mənlik şüuru və milli özünüdərki problemlərinin də yenidən araşdırılmasını gündəmə gətirir. Bunun üçün isə yeni metodologiyanın müəyyənləşdirilməsi elmi və ideoloji inkişafın ən aktual probleminə çevrilmişdir. Bu məsələlərlə bağlı tarixən Azərbaycanda müxtəlif ideya cərəyanları formalaşmış və bu günümüzdə də belə formalaşmaqda davam etməkdədir. XIX-XX əsrdə Azərbaycanda hakim ideoloji istiqamətə çevrilmiş maarifçilik məfkurəsi bu baxımdan xüsusi əhəmiyyətə malik idi. Maarifçi ziyalılarımız milli mənlik şüuru, milli şüur, milli-azadlıq və milli-fəlsəfi fikrimizin inkişaf istiqamətləri haqqında özlərinin ideya və baxışlarını irəli sürmüş və onları öz tədqiqat işlərində əsaslandırmışlar. Məhz onların yaratdığı zəmin üzərində formalaşan fəlsəfi fikir artıq yeni inkişaf xətti götürmüşdür. Müstəqillik əldə etdikdən sonra isə milli zəmində formalaşmış cərəyanların fəlsəfi fikrin inkişafında mühüm rola malik olduğunu dəyərləndirmək zərurətə çevrilmişdir.

Fəlsəfə tarixinin müxtəlif inkişaf dövrləri də göstərir ki, ilk fəlsəfi ideyalar və məktəblər yarandığı gündən müxtəlif cərəyan və təlimlər öz nəzəriyyələrini ehkam və mütləq həqiqət kimi təqdim etmişlər. Lakin zaman keçdikcə bu məktəb və cərəyanlardakı fikir və ideyalardakı həqiqətin nisbiliyi açıq-aydın özünü göstərmiş və həmin cərəyanlar yenidən aksioloji baxımından qiymətləndirilmişdir.

Elmi mövqedən hər bir fəlsəfi təlimin həqiqəti axtarmaq hüququnun olmasını, onun həqiqətin dərki və inikasına nə dərəcədə yaxınlaşdığını araşdırmaq daha düzgün olardı. Fikrimizcə, tədqiqat prosesində təlimlərin dəyərləndirilməsi zamanı obyektiv və subyektiv başlanğıcların ehtiva olunması nəzərdən yayınmamalıdır.

## ƏDƏBİYYAT

1. Abdulla Şaiq. Xatirələrim. Bakı: "Gənclik" 1973
2. Axundov R. Seçilmiş əsərləri. "Azərnəşr". Bakı: 1977
3. "Elm və həyat" jurnalı. N:3. Bakı: 1975.
4. Əhədov A. Vicdan azadlığı, ateizm və qanun. B., "Azərnəşr". 1989
5. "Fəhlə və mədəniyyət" qəzeti, 27 aprel 1919-cu il.
6. Xəlilov Q., Hüseynov H. İslam amili və müasir ideoloji mübarizə. Bakı: "Azərnəşr", 1990, s.96
7. Kommunist 6 fevral 1937 N: 30 (4958)
8. Kommunist qəzeti 27 fevral 1937 N:48 (4976)
9. Kommunist qəzeti 11 aprel 1937 N:85 (5013)
10. Kommunist qəzeti 12 avqust 1924-cü il
11. Kommunist qəzeti 16 oktyabr 1925-ci il
12. Kommunist qəzeti 17 iyun 1937 N:139 (5057)
13. Kommunist qəzeti 3 mart 1937 N:51 (4979)
14. Kommunist qəzeti 9 may 1937 N:106 (5034)
15. Mahmudov Pənah. Ateizm və din. B., "Azərnəşr", 1963
16. Mahmudov Pənah. Müasir ideoloji mübarizə və din. B., "Gənclik". 1979
17. Mədətov Q. Ruhulla Axundov. Bakı: "Azərnəşr".1983
18. Məmmədov X. Humanizm və din. B., "Gənclik". 1974
19. Nərimanov N. "Din və kommunizm". Azərb.SSR EA Əlyazmaları Fondu, arx.23, Q. 10. 243 (rus dilində).
20. Ramazanov F. Azərbaycan ictimai fikrində dini əxlaqın tənqidi. "Azərnəşr", Bakı: 1965
21. Səttarov M. Sosializm quruculuğu dövründə Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. B., 1964
22. "Yeni yol" qəzeti. 11 mart 1925-ci il.
23. Философское мысль в Советском Азербайджане Б. 1979
24. Nərimanov N. "Elmi kommunizmi anlamağın yolu". Azərb.SSR EA Əlyazmaları Fondu, arx. 23, Q. 10. 243 (rus dilində).

## SUMMARY

**Rashad Asgarov**

### PHILOSOPHICAL STUDIES OF GRADUATES OF THE INSTITUTE OF RED PROFESSORS

During the Soviet period, the history of Azerbaijani social and philosophical thought was fully adapted to the requirements of Marxist methodology, and philosophical thought adopted only one line of development. During this period, the philosophical idea of peoples, which was formed during a peculiar thousand-year historical period, was studied either in a completely distorted form or was completely banned, since it did not meet the criteria established from the point of view of Marxist methodological requirements. Therefore,

during this period in the history of philosophy of Azerbaijan, researchers studying the works of the classics of Marxism have wider opportunities, and researchers who do not conduct research in this field have been given a great place in one form or another to the Marxist explanation of epistemological, ontological and social aspects. Researchers of the dialectical and historical materialistic methodological line and approach sometimes tended to try to find elements of the philosophy of Marxism even from thinkers who are not followers of this methodological line. Therefore, in the methodological line in these years, only monotony became the dominant ideology.

## РЕЗЮМЕ

**Рашад Аскеров**

## ФИЛОСОФСКИЕ ИССЛЕДОВАНИЯ ВЫПУСКНИКОВ ИНСТИТУТА КРАСНЫХ ПРОФЕССОРОВ

В советский период История Азербайджанской общественной и философской мысли была полностью адаптирована к требованиям марксистской методологии, и философская мысль приняла только одну линию развития. В этот период философская идея народов, сформировавшаяся в течение своеобразного тысячелетнего исторического периода, изучалась либо в полностью искаженном виде, либо была полностью запрещена, так как не отвечала критериям, установленным с точки зрения марксистских методологических требований. Поэтому в этот период в истории философии Азербайджана исследователям, изучающим произведения классиков марксизма, открываются более широкие возможности, а исследователям, не проводящим исследований в этой области, в той или иной форме уделялось большое место марксистскому объяснению эпистемологических, онтологических и социальных аспектов. Исследователи диалектической и исторической материалистической методологической линии, подхода иногда склонялись к попытке поиска элементов философии марксизма даже у мыслителей, не являющихся последователями этой методологической линии. Поэтому в методологической линии в эти годы господствующей идеологией стала только монотонность.

**AZƏR CƏLİLOV**
*azercelilov80@gmail.com*
*Gəncə Dövlət Universiteti*

## MİLLİ DÖVLƏTÇİLİK VƏ HƏMRƏYLİK FƏLSƏFƏSİ

*Milli dövlətçilik ideyalarının formalaşması milli dövlətçilik ideyalarının əsas bazasını həmrəylik fəlsəfəsi təşkil edir. Məhz azərbaycançılıq ideologiyasının başlıca prinsiplərini həmrəylik ideyası təşkil edir. Milli birlik və həmrəylik ideyası Heydər Əliyev təliminin azərbaycançılıq ideologiyasında həmişə aparıcı yer tutmuşdur. Bu ideyalara hələ Heydər Əliyevin fəaliyyəti ilə Sovet dövründə zəmin hazırlanmışdı. Milli birlik ideyaları həyat həqiqətləri ilə təsdiq olunduğu sonrakı mərhələdə sosial sabitlik yarandı. Cəmiyyət iqtisadi sahədə yüksəliş əldə etdi, siyasi-ictimai sahədə yeni uğurlar qazandı. İctimai-siyasi sabitliyin yaranması milli birliyin daha böyük arenada zəfər çalmasına yol açdı. Müstəqil Azərbaycan dövlətinin başlıca milli ideologiyası azərbaycançılıq ideyalarından ibarətdir. Məhz müstəqil Azərbaycan dövlətində bərqərar olunmuş azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarını bu amalın zəminində birliyə, mütəşəkkilliyə, həmrəyliyə çağırır.*

***Açar sözlər:*** *ideologiya, həmrəylik, milli, müstəqil, mütəşəkkillik, birlik*

Dünya azərbaycanlılarının həmrəylik ideyasının reallaşdırılması azərbaycançılıq ideologiyasının başlıca prinsiplərindən biridir. Azərbaycançılıq ideologiyasının bünövrəsini milli birlik və mütəşəkkillik təşkil edir. Məhz Yeni Azərbaycan Partiyası yarandığı gündən mütəşəkkilliyin, milli birliyin bərqərar olunmasının həyata keçirilməsini qarşısına məqsəd qoymuşdu. Yeni Azərbaycan Partiyası bu möhtəşəm məqsədini həyata keçirdi və qalib gəldi. Milli birlik və həmrəylik ideyası Heydər Əliyev təliminin azərbaycançılıq ideologiyasında həmişə aparıcı yer tutmuşdur. Bu ideyalara hələ Heydər Əliyevin fəaliyyəti ilə Sovet dövründə zəmin hazırlanmışdı. Həmin ideyaların reallaşması özünün zamanını gözləyirdi. Sovet dövlətinin dağılması prosesində belə bir zaman mərhələsi yetişdi. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini elan edən Konstitusiya Aktı qəbul edildi. Lakin müstəqilliyin əldə saxlanılması üzrə heç bir proqram hazırlanmamışdı. Belə bir proqramı o zamankı hakim qüvvələr hazırlaya bilməzdi. Çünki onların özləri də siyasi ideoloji və mənəvi cəhətdən buna hazır deyildilər. Azərbaycançılıq ideologiyası və onun prinsipləri həmin dövrdə rəhbərlik edən şəxslər tərəfindən dərk olunmamışdı. Odur ki, müstəqillik sadəcə olaraq, elan edildi və onun arxasınca milli birlik üzərində dirçəliş yaratmaq yerinə fəlakətlər başlandı. O zaman respublika rəhbərliyində təmsil olunmayan və təqiblərə, təzyiqlərə məruz qalan Heydər Əliyev tarixən özünün yetişdirdiyi azərbaycançılıq ideyalarının bərqərar olunması üçün yaranmış reallığa biganə qala bilməzdi və biganə qalmadı. Dövlətçiliyin qorunub saxlanılmasında ilkin addım olan milli birlik, həmrəylik və mütəşəkkillik ideyalarının həyata keçməsi imkanlarını reallaşdırdı. 1991-ci il dekabrın 16-da Naxçıvanda Heydər Əliyev tərəfindən təsis edilən Dünya Azərbaycanlılarının Həmrəylik Günü tezliklə respublikada özünə çoxlu tərəfdarlar qazandı və dekabrın 25-də o zamankı Respublika Ali Soveti Naxçıvanda çıxarılan qərarı təsdiq etdi. Bu, xalqın bütövlüyünün əks-sədası idi, birliyə çağırışın təsir qüvvəsi idi,

insanların əsrlər boyu qəlbinin dərinliklərindən keçib gələn qovuşmaq və birləşmək arzusunun təməli idi. Şübhəsiz bu birlik və mütəşəkkillik ideyaları cəmiyyətdə öz sosial təsirini göstərməyə bilməzdi. Sonrakı proseslərdə xalqın Heydər Əliyev ətrafında birləşməsi həmin ideyaların sosial həyat hadisələrinin reallığı ilə necə səsləndiyini əyani şəkildə sübuta yetirdi. Milli birlik ideyaları həyat həqiqətləri ilə təsdiq olunduğu sonrakı mərhələdə sosial sabitlik yarandı. Cəmiyyət iqtisadi sahədə yüksəliş əldə etdi, siyasi-ictimai sahədə yeni uğurlar qazandı. İctimai-siyasi sabitliyin yaranması milli birliyin daha böyük arenada zəfər çalmasına yol açdı. Dünya azərbaycanlılarının Bakıda möhtəşəm bir qurultaya toplaşması tarixdə çox böyük milli və ideoloji əhəmiyyətli bir hadisəyə çevrildi. Bu ideyanın həyata keçməsi və reallaşması Heydər Əliyev ideyalarının yeni bir təntənəsi, növbəti bir qələbəsi idi. 2001-ci il may ayının 23-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi barədə tarixi bir sərəncam imzalandı. Sərəncamda Azərbaycan xalqının milli birlik arzuları tarixi bir hadisə kimi təhlil edilərək ictimaiyyətin nəzərinə çatdırılır. Həmçinin, mütəşəkkillik dövründə bu ideyaların həyata keçməsi imkanlarının daha real olduğu göstərilir. Dünya Azərbaycanlıları birliyinin əldə edilməsi ilə respublikamızın həyatında tarixi, sosial, iqtisadi nailiyyətlər qazanılması üçün ümidləri doğruldur. Həmin sərəncam xalqımızın həyatında çox mühüm tarixi hadisə olduğuna görə, həmçinin Heydər Əliyev məktəbində onun zəruri material olduğunu nəzərə alaraq bütövlükdə həmin sərəncam buraya daxil edilir.

Bu gün dünyanın bir çox ölkələrində azərbaycanlılar məskunlaşmışsa, buna da təbii bir proses kimi baxmaq lazımdır. Çünki cəmiyyətdə baş verən bir çox ictimai-siyasi proseslərin nəticəsində insanların müəyyən qismi miqrasiya şəraitində yaşamalı olmuşdur. Bu proses o zaman baş vermişdir ki, onda Azərbaycan müstəqil olmamışdır. Təzyiqlərə, təsirlərə, müxtəlif cür assimilyator hadisələrə məruz qalmışdır. Ancaq indi onlar məskunlaşdığı ölkələrdə normal yaşayış imkanları əldə etmişlər. Onlar dünyanın müxtəlif və bir-birinə yaxın olmayan ölkələrində məskun olsalar da, onları bir amal birləşdirir. Bu da azərbaycançılıq amalıdır. Qurultaya qədərki dövrlərdə azərbaycançılıq hissləri onların ayrı-ayrılıqdakı məişətlərində, həyatlarının müəyyən anlarında və bəzi adət və mərasimlərində xatırlana bilərdi. Ancaq bu gün dünyada həm də müstəqil Azərbaycan dövləti vardır. Müstəqil Azərbaycan dövlətinin başlıca milli ideologiyası azərbaycançılıq ideyalarından ibarətdir. Məhz müstəqil Azərbaycan dövlətində bərqərar olunmuş azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarını bu amalın zəminində birliyə, mütəşəkkilliyə, həmrəyliyə çağırır. Dünya azərbaycanlılarının bir amal ətrafında birliyə çağırılması o demək deyildir ki, biz həmin adamları bir yerə toplayıb bir dövlətdə birləşdiririk. Bu amal odur ki, dünyanın ayrı-ayrı yerlərində yaşayan azərbaycanlılar özlərinin azərbaycanlı olduqlarını öz mənliklərində daim yaşatsınlar, milli-mənəvi dəyərlərimizi qorusunlar və yaşatsınlar, bu müqəddəs ideyaları saxlasınlar. Bunun üçün onların icmalarının, qruplarının, birləşmələrinin və diasporlarının formalaşması məqsədə uyğundur. Belə olduqda onlar bir-biri ilə daha yaxından əlaqə saxlaya bilər və bir-birinin dərdlərinə şərik olarlar. Bütün azərbaycanlıların bir-biri ilə əlaqə saxlaması azərbaycançılıq işığında onların bir-birinə yaxınlaşmasını təmin edə bilər. Hər bir icmanın, qurumun,

diasporun müqəddəs vəzifəsi Müstəqil Azərbaycan dövlətinin mənafeyi naminə bütün səylərini birləşdirməkdən və məqsədyönlü iş görməkdən ibarətdir.

Bu gün müstəqil Azərbaycan dövlətinin mövcudluğu dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası ətrafında bir yerə toplamağa qadir olan mənəvi-ideoloji bir qüvvədir. Beləliklə, Azərbaycan təzyiqlər altında olan zaman onun xalqı arasında diferensiasiya baş vermişdisə, bu gün artıq, müstəqil Azərbaycan dövlətinin yaranması ilə dünya azərbaycanlıları arasında inteqrasiya prosesi baş verməkdədir. Dünyada yaşayan hər bir azərbaycanlı azərbaycançılıq ideyalarını yaşatmaqla öz doğma ata-baba yurduna ehtiram göstərmiş olur. Bu gün bütün dünya azərbaycanlıları fəxrlə deyə bilər ki, onların müstəqil Azərbaycan adlı bir vətəni var. Bu gün bütün azərbaycanlılar fəxr edə bilər ki, onları bir amal uğrunda, bir məsləkə səsləyən Heydər Əliyev kimi ulu bir rəhbəri vardır. Heydər Əliyev üzünü dünya azərbaycanlılarına tutaraq deyir: "Əziz dostlar, Müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaqdır və təbiidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi özümüzə dayaq hesab edirik"[2]

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, 10 noyabr, 2001
2. "Azərbaycan" qəzeti. 1998-2002-ci illər
3. "Respublika" qəzeti. 1998-2002-ci illər
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: 9-10 noyabr. 2001-ci il, "Məruzə" Bakı: 2001.
5. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: 1979

## SUMMARY

**Azer Jalilov**

## PHILOSOPHY OF NATIONAL STATEHOOD AND SOLIDARITY

The formation of ideas of national statehood is based on the philosophy of solidarity. It is the idea of solidarity that forms the main principles of the ideology of Azerbaijanism. The idea of national unity and solidarity has always occupied a leading place in the Azerbaijani ideology of Heydar Aliyev's teachings. The foundation for these ideas was prepared during the Soviet era with the activities of Heydar Aliyev. At the next stage, when the ideas of national unity were confirmed by the realities of life, social stability emerged. The society achieved progress in the economic sphere, gained new successes in the political and social sphere. The emergence of socio-political stability paved the way for national unity to triumph in a larger arena. The main ideology of the independent state of Azerbaijan consists of the ideas of Azerbaijanism. The ideology of Azerbaijaniism established in the

[2] "Azərbaycan" qəzeti, 10 noyabr 2001

independent state of Azerbaijan calls the Azerbaijanis of the world for unity, organization and solidarity on the basis of this action.

***Key words:*** *ideology, solidarity, national, independent, organization, unity*

## РЕЗЮМЕ

**Азер Джалилов**

## ФИЛОСОФИЯ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ И СОЛИДАРНОСТИ

Формирование идей национальной государственности В основе идей национальной государственности лежит философия солидарности. Именно идея солидарности формирует основные принципы идеологии азербайджанизма. Идея национального единства и солидарности всегда занимала ведущее место в азербайджанской идеологии учения Гейдара Алиева. Фундамент для этих идей был подготовлен еще в советское время деятельностью Гейдара Алиева. На следующем этапе, когда идеи национального единства подтвердились реалиями жизни, возникла социальная стабильность. Общество добилось прогресса в экономической сфере, добилось новых успехов в политической и социальной сфере. Появление социально-политической стабильности проложило путь к победе национального единства на более широкой арене. Основная национальная идеология независимого государства Азербайджан состоит из идей азербайджанизма. Идеология азербайджанства, утвердившаяся в независимом Азербайджанском государстве, призывает азербайджанцев мира к единству, организованности и солидарности на основе этого действия.

***Ключевые слова:*** *идеология, солидарность, национальная, независимая, организация, единство*

**AYNURƏ ƏLƏSOVA**
*alasova87@mail.ru*
*Gəncə Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİNDƏ VƏTƏNPƏRVƏRLİK

*Azərbaycançılıq ideyaları Azərbaycan cəmiyyətinin bütün mərhələlərində mövcud olmuşdur. Lakin bu ideyalar bütöv bir sistem təşkil etmədiyi üçün siyasi-ictimai və ideologiya baxımından vahid və aparıcı baxışlar sisteminə çevrilə bilməmişdir. Çünki pərakəndə şəkildə olan ideyaların birləşib, bütövləşib, sistem şəklinə düşməsi üçün real münbit və obyektiv şəraitin olması vacibdir. Belə bir şərait ancaq azad, sərbəst, müstəqil dövlətçilik zəminində mümkündür. Müstəqil dövlətçilik zəmini olmadan hər hansı ideyalar çoxluğu aparıcı bir sistem şəklində ümumiləşmək imkanlarından məhrumdur. Azərbaycan cəmiyyətinin mövcudluğu zəminində yaranmış zəngin milli-mənəvi və ümumbəşəri keyfiyyətlər, məhz Heydər Əliyevin yaratdığı müstəqil dövlətçilik şəraitində sistemləşib azərbaycançılıq ideologiyasına çevrilə bildi.*

*İdeologiya sözünün lüğəti mənası ideyalar haqqında təlim deməkdir. İdeologiya sözü həmçinin, geniş fəlsəfi, hüquqi, məntiqi və sosial anlayış kəsb edir. İdeologiya insanların şüurunda ictimai hadisələrin inikasıdır. İctimai hadisələrin fəallığı daimi ictimai şüura təsir edir.*

***Açar sözlər:*** *ideologiya, mütəşəkkil, milli, qonaqpərvərlik, xarakter, cəmiyyət*

Hər bir azərbaycanlının müqəddəs borcu və amalı doğma vətəninə xidmət göstərməkdən, daim vətənin mənafeyi naminə çalışmaqdan ibarətdir. Hər kəs öz əməli ilə, öz zəhməti ilə, öz işi və fəaliyyəti ilə vətənin naminə çalışmağı barədə öz-özünə hesabat verməlidir.

Bu gün hər bir rəhbər işçi özünün təşkilatçılığı, təşəbbüskarlığı, işgüzarlığı ilə cəmiyyətin mütəşəkkilliyini yarada bilirsə, xalqımızın milli-mənəvi keyfiyyətlərini cəmiyyətin sosial həyatına tətbiq edə bilirsə, bu onun vətənə xidmətinin nümunəsi sayılmalıdır. M.Kərimov və R.Mustafayevin azərbaycançılıq təliminə dair yazdıqları bir məqalədə deyildiyi kimi "Azərbaycançılıq cəmiyyət və dövlət mənafeyinə xidmət edən rasional işlər barədə təlimdir" (M.Kərimov və R.Mustafayev (2) "Azərbaycan" qəzeti. 22 dekabr).

Azərbaycançılıq xalqın milli-mənəvi keyfiyyətlərinin təcəssümü kimi formalaşmış tarixi bir kateqoriyadır. Azərbaycanda müstəqil dövlətçilik olmadığı bir dövrdə milli-mənəvi keyfiyyətlərimizin ümumiləşdiricilik prinsipləri mövcud olmamışdır. Başqa sözlə, bu keyfiyyətlər bütövləşib milli ideologiyamızın fəlsəfi bazasına çevrilməmişdir. Ona görə də azərbaycançılıq anlayışının özü dərk edilmiş həqiqətə çevrilməmişdir. Bunun nəticəsində azərbaycanlılara məxsus xarakter əlamətlər-qonaqpərvərlik, comərdlik, abır-həya, ismət, dönməzlik və s. kimi mənəvi keyfiyyətlər ancaq xalqın fərqləndirici və özünəməxsus mənəvi psixoloji keyfiyyətləri kimi dərk edilmişdir. Bu xarakter əlamətlər ancaq müstəqillik bazasında özünə münbit şərait qazanıb ümumiləşə, bütövləşə bilərdi və millətin

ideologiyasına çevrilə bilərdi. Müstəqil olmadığımız tarixi dövrlərdə azərbaycançılıq ideologiyaları daim yad ideologiyaların təsirinə düşdüyündən o sərbəstləşə və milli mütəşəkkilliyin bazasına çevrilə bilməmişdir. Müstəqillik əldə olunduqdan sonra milli-mənəvi keyfiyyətlərimiz bütövləşib milli ideologiyamızın təməlinə çevrilə bilmişdir. Azərbaycançılıq ideologiyası bütövlükdə milli-mənəvi bütövlüyümüz, birliyimiz və mütəşəkkilliyimiz deməkdir.

XX əsrdə azərbaycançılığın ilk tarixi nailiyyəti XIX əsrdən bəri xalqın özünün milli demokratik dövlətini yaratması uğrunda apardığı mübarizənin ilkin yekunu idi. Bu akt Azərbaycanı yenidən müstəqil bir dövlət kimi beynəlxalq ictimaiyyətə tanıtdı. Azərbaycançılığın təzahürünün I mərhələsi 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan edilməsində, II mərhələsi II Dünya müharibəsi ərəfəsində Cənubi Azərbaycanda baş qaldırıb 1946-cı ildə süquta uğrayan milli hökumətin mövcudluğu illərində, III mərhələsi isə 1969-cu ildən başlayaraq bu günümüzə qədər davam edən və onun milli estetik dəyərdən təkmil ideologiyaya doğru inkişafını təmin edən Heydər Əliyev mərhələsindən ibarətdir (A.Nəbiyev(1) "Azərbaycan" qəzeti. 9 iyun).

Azərbaycançılıq ideyalarının bərqərar olmasında Heydər Əliyevin fəaliyyəti dövrü xüsusi bir mərhələdir. Çünki bu mərhələdə Azərbaycan özünün sosial, mədəni, iqtisadi sahədəki inkişaf perspektivləri ilə, habelə, elm, texnika sahələrindəki nailiyyətləri ilə, ziyalı mövqeyinin genişlənməsi ilə, milli-mənəvi tərbiyə və təhsil sahələrindəki uğurları ilə yeni bir təkamül prosesi keçdi. Sənayenin, kənd təsərrüfatının və sosial həyatın digər perspektivləri o zamankı müttəfiq respublikalar içərisində daha da artmağa başladı. Bütün bunlar Heydər Əliyevin xalqa xidmətinin təzahürü idi. Azərbaycançılıq ideologiyasının ölkədəki inkişafla həmahəng olaraq dirçəlməsindən ibarət idi.

Sovet dövləti, şübhəsiz, müttəfiq respublikaların sərbəst inkişafının tərəfdarı deyildi. Çünki sərbəst inkişaf yollarına nail olmaq sonrakı mərhələdə müstəqilliyə aparan istiqamət olmaqla sosialist prinsiplərinə uyğun gəlmirdi. Lakin Heydər Əliyev xalqın mənafeyindən çıxış edərək ölkədə inkişaf edən qapıların xalqın üzünə açılması üçün bütün imkanlardan istifadə etdi.

Heydər Əliyev inkişafa aparan bütün yolları kəşf etməklə, ölkənin müstəqilləşmə imkanlarını əvvəlcədən görürdü. Ona görə də əslində elmin, texnikanın, təhsilin, mədəniyyətin, mənəvi tərbiyənin, bütövlükdə fəal həyat mövqeyinin inkişaf etdirilməsində əldə edilən nailiyyətlərlə xalqı mənəvi və psixoloji sərbəstliyə və ondan sonrakı mərhələdə sərbəstliyin qorunub saxlanılmasına hazırlayırdı. Heydər Əliyevin azərbaycançılıq təlimi belə bir real zəmin üzərində qurulmuşdur. Bu hərəkat xalqın içərisində formalaşırdı, onun mənəviyyatına keçirdi, ictimai şüurda şaxələnərək möhkəmlənirdi. Şübhəsiz, o zamanlar azərbaycançılıq anlayışının adını çəkmək mümkün deyildi, ancaq Heydər Əliyevin dərin siyasi biliyi və uzaqgörənliyi sayəsində bu ideologiya yetişirdi, formalaşırdı, tarixdə özünün həlledici anını gözləyirdi.

Məhz bu mənada, milli azadlığımızın təməli olan azərbaycançılıq anlayışı özünün açıq təzahürünü müstəqillik əldə olunduqdan sonra, xüsusən, xalqın birliyinin və mütəşəkkilliyinin təminatçısı olan YAP-ın yaradılmasından sonra tapmağa başladı. Görkəmli ideoloq Ramiz Mehdiyev haqlı olaraq yazırdı: "Azərbaycançılıq termini ölkənin

siyasi həyatında yaxın illərdən istifadə olunur. Lap əvvəldən o, ölkədə yaşayan bütün etnik qrupları və xalqların ümumdövlət mənafeləri əsasında real surətdə birləşdirmək ideyası, xüsusilə, 1992-1993-cü illərdə geniş yayılmağa başlayan şovinist-millətçilik və separatçılıq əhval-ruhiyyələri ilə mübarizəyə yönəldilmiş ideya kimi irəli sürülmüşdür. Sonralar bu ideya ölkədə geniş dəstəkləndi, yeni elementlər və atributlarla dolğunlaşaraq ideologiya xüsusiyyəti kəsb etdi" (R.Mehdiyev (3) "Azərbaycan" qəzeti. 9 yanvar 2002).

Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycançılıq ideyalarının reallaşması, hərəkətverici qüvvəyə çevrilməsi, şübhəsiz, milli və müstəqil dövlətçilik zəminində özünə münbit şərait əldə edir. Bu ideologiya Azərbaycan xalqının qədimlərdən bəri qazandığı milli-mənəvi dəyərlərdən güc alır. Milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə birləşməsi xalqın mənəvi aləminin zənginləşməsinə, sosial-iqtisadi, demokratik proseslərin inkişaf etdirilməsinə təkan verir. Heydər Əliyev tövsiyə edirdi: "Biz tarixi köklərimizdən heç zaman ayrıla bilmərik. Biz tarixi köklərimizi vətənə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda, öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq. Yenə də deyirəm ki, bunun içərisində həm demokratiya, həm hüquqi normalar, həm dünyəvi dövlət, sərbəst ticarət, sərbəst bazar iqtisadiyyatı var - bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli-mənəvi dəyərlərlə vəhdətindən meydana gələn müddəalardır. Bunlar bizim milli ideologiyamızın böyük bir hissəsini təşkil edir" (Heydər Əliyevin nitqi (4) "Xalq qəzeti". 24 noyabr, 1998).

Heydər Əliyevin tarixdə ən böyük nailiyyətlərindən biri budur ki, milli ideologiyamız zəminində azərbaycançılıq fəlsəfi ideyalarını bərqərar etdi və bütün dünya azərbaycanlılarının bu ideologiya ətrafında birləşməsinə səy göstərərək tarixi qələbəyə nail oldu. Heydər Əliyev hələ Naxçıvanda fəaliyyət göstərərkən azərbaycanlıların milli birlik konsepsiyasının həyata keçirilməsi üçün öz əzmkarlığını göstərdi. Həmin ilin dekabr ayının 16-da 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü olması qərarı qəbul olundu. Dekabrın 25-də həmin qərar Azərbaycan Respublikası Ali Sovetində qəbul olundu.

Dekabrın 31-i gününün seçilməsi, şübhəsiz, təsadüfi deyildir. Çünki həmin gün bütün dünyada yeni il kimi qeyd olunur. Yeni il ərəfəsində Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması həm də ümumazərbaycan birliyini təcəssüm etdirir və onun əbədiləşdirilməsinə zəmin yaradır. Dünya Azərbaycanlılarının Həmrəylik Günü tarixdə yalnız 1991-ci il qərarında qalmadı. Bu qərar bütün dünya azərbaycanlılarının əqidəsində öz yerini tapdı, populyarlaşdı və müqəddəs mərasimlərdən oldu.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün bayram edilməsi qərarından bir müddət sonra 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi qərara alındı (H.Hacıyev (5) "Respublika" qəzeti. 29 dekabr, 2001). Həmin müddətdə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Elə bu qurultayda belə bir qətnamə qəbul olundu ki, Dünya Azərbaycanlılarının Qurultayı hər üç ildən bir keçirilsin (6; "Azərbaycan" qəzeti. 10 noyabr, 2001).

Heydər Əliyev bu fikri Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində belə ifadə edir: "Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onun ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Arzu edirəm ki, hər bir ölkədə Azərbaycan icmasında azərbaycanlılar həmrəy olsunlar, bir-birinə yardım etsinlər, milli dəyərlərimizi birlikdə gözləsinlər" (6; "Azərbaycan" qəzeti. 10 noyabr, 2001).

Heydər Əliyevin hakimiyyətə qayıtması ilə dövlət müstəqilliyi bərqərar oldu, ölkədə sabitlik yarandı, sosial, siyasi, mənəvi, iqtisadi, diplomatik sahələrdə bütün uğurlarımız bundan sonra başladı.

## ƏDƏBİYYAT

1. Nəbiyev A. "Azərbaycançılıq səfərbəredici mövqedir" // "Azərbaycan" qəzeti. 9 iyun 2002
2. Kərimov M., Mustafayev R. "Azərbaycançılıq təliminə dair". "Azərbaycan" qəzeti. 22 dekabr
3. Mehdiyev R. "XX əsrin sonu- XXI əsrin əvvəllərində yeni dünya nizamı və milli ideya. Dünən, bu gün və sabah". "Azərbaycan" qəzeti. 9 yanvar, 2002
4. Heydər Əliyevin nitqi. "Xalq qəzeti". 24 noyabr, 1998
5. Hacıyev H. "Biz harada yaşasaq da bir günəşin zərrəsiyik" // "Respublika" qəzeti. 29 dekabr 2001
6. Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti. 10 noyabr, 2001

## SUMMARY

**Aynura Alasova**

## PATRIOTISM IN HAYDER ALIYEV'S AZERBAIJAN PHILOSOPHY

The ideas of Azerbaijaniism existed in all stages of the Azerbaijani society. However, since these ideas do not form a whole system, they could not be transformed into a single and leading system of ideas from the political-social and ideological point of view. Because it is important to have real fertile and objective conditions for the ideas that are in the retail form to be united, integrated, and become a system. Such a condition is possible only on the basis of free, independent statehood. Without the basis of independent statehood, any ideas lack the possibility to generalize in the form of a leading system. The rich national-spiritual and universal qualities created on the basis of the existence of the Azerbaijani society could be systematized and transformed into the ideology of Azerbaijanism precisely in the conditions of independent statehood created by Heydar Aliyev.

The dictionary meaning of the word ideology is teaching about ideas. The word ideology also has a broad philosophical, legal, logical and social meaning. Ideology is a

reflection of social events in people's minds. The activity of public events constantly affects public consciousness.

***Key words:*** *ideology, organized, national, hospitality, character, society*

**РЕЗЮМЕ**

**Айнура Аласова**

## ПАТРИОТИЗМ В АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ ГАЙДЕРА АЛИЕВА

Идеи азербайджанства существовали во всех слоях азербайджанского общества. Однако, поскольку эти идеи не образуют целостной системы, они не могли превратиться в единую и ведущую систему идей с политико-социальной и идеологической точки зрения. Потому что важно иметь реальные плодотворные и объективные условия для того, чтобы идеи, находящиеся в розничной форме, объединились, интегрировались и стали системой. Такое состояние возможно только на основе свободной, независимой государственности. Без основы независимой государственности любые идеи лишены возможности обобщаться в виде ведущей системы. Богатые национально-духовные и общечеловеческие качества, созданные на основе существования азербайджанского общества, могли быть систематизированы и преобразованы в идеологию азербайджанства именно в условиях созданной Гейдаром Алиевым независимой государственности.

Словарное значение слова идеология - учение об идеях. Слово идеология имеет также широкое философское, юридическое, логическое и социальное значение. Идеология есть отражение общественных явлений в сознании людей. Активность массовых мероприятий постоянно воздействует на общественное сознание.

***Ключевые слова:*** *идеология, организованный, национальный, гостеприимство, характер, общество*

**ELMİRA ƏLİYEVA**
*elka.emma@mail.ru*
*Gəncə Dövlət Universiteti*

# AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİNDƏ ÜMUMBƏŞƏRİ İDEYALAR

*Məqalədə azərbaycançılıq ideologiyası müstəqil dövlətçiliyimizin zəminində yaranmış və özünün ictimai xarakteri ilə ümummilli səciyyə daşıyan baxışlar sistemidir. Azərbaycançılıq fəlsəfi ideologiyası Azərbaycan xalqına məxsus olan qədim milli-mənəvi keyfiyyətlərin ümumbəşəri ideyalarla inteqrasiyası bazasında formalaşır. Milli-mənəvi keyfiyyətlər cəmiyyətin sosial-iqtisadi və mədəni-məişət həyatında baş verən hadisələrin tarixən milli-etnik proseslər kimi formalaşması nəticəsində meydana gəlir. Cəmiyyətin inkişafı, təkcə ümummilli mənəvi keyfiyyətlərinin mövcudluğu ilə məhdudlaşa bilməz. Hər bir insan cəmiyyəti, eləcə də dünyada mövcud olan insan cəmiyyətləri bir-biri ilə əlaqə və münasibətdə inkişaf edir. Bu əlaqə və münasibətlər bir insan cəmiyyətində mövcud olan ideyaların başqa insan cəmiyyətlərində yayılması və inteqrasiyası hüdudunda baş verir. Bu mənada Azərbaycan cəmiyyətində bu cəmiyyətin özünəməxsus olan milli xarakterli ideyalar formalaşdığı kimi digər insan cəmiyyətləri üçün də yararlı olan və ümumbəşəri səciyyə daşıyan fəlsəfi ideyalarda meydana gəlmişdir. Bu ideyaların başqa cəmiyyətlər üçün yararlı olanları yayılır, eləcə də başqa insan cəmiyyətlərində yararlı mənəvi keyfiyyətlər Azərbaycan cəmiyyətinə inteqrasiya olunur. Məhz Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının fəlsəfi mahiyyəti də milli dəyərlərin gənc nəsillərə ötürülməsidir. Məqalədə azərbaycançılıq ideologiyasındakı başlıca istiqamətlər analiz olunur.*

***Açar sözlər:*** *fəlsəfə, ideologiya, azərbaycançılıq, dəyərlər, müasir, şəxsiyyət*

Azərbaycançılığın bir sistem kimi formalaşması, bu gün ideologiya səviyyəsinə çatdırılması, bilavasitə Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev özünün vətənpərvərliyi, böyük siyasi uzaqgörənliyi, çevik təfəkkürü, müdrikliyi, xalqına əvəzsiz xidməti ilə özündə ən ülvi, müqəddəs azərbaycanlı obrazını yaratmışdır.

Heydər Əliyev elə bir azərbaycanlı obrazıdır ki, bu obraz vasitəsilə müasir dünyamızda Azərbaycan barədə təsəvvür və təəssürat yaradır. Təkcə müasir Azərbaycan barədə yox, Azərbaycanın keçmişi, mədəniyyəti, nəyə qadir olduğu barədə təsəvvürlər yaradır. Məhz Heydər Əliyev şəxsiyyətinin Azərbaycan barədə yaratdığı təsəvvür inkişaf etmiş dövlətlərdə Azərbaycana meyil və marağın artmasına səbəb olur. Bütün bunlar Heydər Əliyev şəxsiyyətinin ən şərəfli azərbaycanlı obrazı olmasından irəli gəlir.

Heydər Əliyev müasir dünyamızın və zəmanəmizin ən böyük siyasi xadimi olmaqla, bütün Türk dünyasının lideri nüfuzunu qazanmış əvəzedilməz tarixi bir şəxsiyyətdir.

Dahi rəhbər əsrlər boyu Azərbaycan xalqının qazandığı müdriklik, əzmkarlıq, təmkinlilik, iradəlilik kimi milli-mənəvi keyfiyyətlərə malik olmaqla və bu keyfiyyətləri ümumbəşəri dəyərlərlə zənginləşdirməklə özünün parlaq azərbaycanlı obrazını yaratmışdır. Biz həyatda bir şeyə nail olmaq istəyiriksə, Heydər Əliyevi öyrənməliyik, həyatın məhrumiyyətlərinə sinə gərib qalib gəlmək istəyiriksə, Heydər Əliyevin əzmkarlığından və mətinliyindən öyrənməliyik. Xalqımızın müdrik oğlu, tarixə böyük azərbaycanlı möhürünü vurmuş Heydər Əliyev məhz belə bir fenomenal şəxsiyyətdir. XXI əsrin ən kamil azərbaycanlı

obrazı Heydər Əliyev şəxsiyyətində təcəssüm olunur. O, dünyanın bütün azərbaycanlıları üçün müdriklik məktəbidir. Onun böyük siyasət aləmindəki uğurları onun analitik təfəkkürünün məhsuludur. Heydər Əliyev elə bir məktəbdir ki, ondan bütün nəsillər bəhrələnəcək. Bu məktəbin mənimsənilməsi indiki nəsillər üçün dövlətçiliyimizi yaşatmaq üçün lazımdırsa, gələcək nəsillərə onu necə inkişaf etdirib xalqın rifahını təmin etdirmək üçün lazımdır. Heydər Əliyev məktəbi şəxsiyyətin kamilləşməsi və mənəvi cəhətdən tərbiyə olunub zənginləşməsi mənbəyidir. Heydər Əliyev məktəbinin bünövrəsini azərbaycançılıq ideyası, vətənpərvərlik, məqsədi milli birlik, bütövlük və mütəşəkkillik təşkil edir. Azərbaycançılıq obrazı dedikdə Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev şəxsiyyəti dedikdə azərbaycançılıq ideyaları təsəvvür olunur. Təsadüfi deyildir ki, 2001-ci il noyabrın 9-19-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqində Heydər Əliyev demişdir: "Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə fəxr etməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" ("Azərbaycan" qəzeti. 10 noyabr, 2001).

Tarixi şəxsiyyətlər ictimai-siyasi hadisələri öz axarınca apararaq cəmiyyət həyatında böyük dönüşlər yaratmaq qabiliyyətinə malik olurlar. Heydər Əliyev böyük tarixi şəxsiyyət olmaqla Azərbaycan dövlətçiliyinin formalaşmasında özünün tarixi xidmətlərini göstərmişdir. İlk növbədə, Heydər Əliyev Azərbaycan xalqının milli varlığında mövcud olan azərbaycançılıq ideyalarını inkişaf etdirmiş və zənginləşdirmişdir. Heydər Əliyev hakimiyyətdə olduğu 1969-cu ildən ölkədə iqtisadiyyatın, mədəniyyətin, elm və təhsilin inkişafına böyük diqqət yetirmişdir ("Azərbaycan" qəzeti. 1998).

Azərbaycançılıq ideyalarını öz yaradıcılıqları ilə, həyat və fəaliyyətləri ilə, qəhrəmanlıq və igidlikləri ilə, azadlıq və demokratiya prinsiplərinin təbliği ilə, birlik və mütəşəkkillik təşəbbüsləri ilə zənginləşdirən şəxsiyyətlər yaddaşlarda özünəməxsus obrazlar yaratmaqla qalırlar. Bu obrazlar birləşir, ümumiləşir, bütövləşir və spesifik əlamətləri ilə seçilən azərbaycanlı obrazına çevrilir. Azərbaycanlı obrazı bütövlükdə Azərbaycan cəmiyyəti haqqında, Azərbaycanın tarixi və keçmişi, sosial, mədəni, məişət həyatı və inkişaf perspektivləri barədə təsəvvür və təəssürat yaradır. Azərbaycanlı obrazı bütünlükdə, xalq haqqında canlı informasiya mənbəyinə çevrilir. Məsələn, Qazan xan, Koroğlu kimi qəhrəmanlıq salnaməsinə çevrilmiş obrazlarda Azərbaycan xalqına məxsus mərdlik, igidlik, düşmənə qarşı barışmazlıq motivləri təcəssüm olunur.

Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlər onun sosial həyatında, milli məişətində, mədəniyyətində, inam və əxlaqi məziyyətlərində etiketləşərək ta qədim dövrdən yaşaya-yaşaya gəlib çıxmışdır. Bu gün folklor nümunələrində, qədim milli və mədəniyyət abidələrimizdə qorunub saxlanılaraq aforizmləşmiş ifadə vasitələri də Azərbaycan cəmiyyətində mövcud olan milli və mədəni dəyərlərimizin zənginləşdiyinə bir sübutdur. Azərbaycan cəmiyyətində xalqın özünəməxsus olan və milli-mənəvi keyfiyyətləri canlandıran dostluq və yoldaşlıq, mərdlik və igidlik, ağıl və müdriklik, düzlük və ədalətlilik, ata-anaya ehtiram, qonaqpərvərlik və səxavətlilik, namusluluq və qeyrətlilik, vətən və el, doğma torpaq, yurd təəssübkeşliyi, birlik və vəhdət haqqında saysız-hesabsız

ifadə vasitələri, aforistik etiketlər yaranmışdır.

Heydər Əliyev gənclərin tərbiyəsinə, onların vətənpərvərlik ruhunda formalaşmasına xüsusi qayğı göstərmişdir. Bu diqqət və qayğının məqsədi nə idi? Məqsəd ondan ibarət idi ki, insanların sosial həyatı zənginləşsin, onlar daha firavan yaşamaq üçün imkan əldə etsin. Bu ondan ötrü idi ki, insan həyatı zənginləşdikcə, firavanlaşdıqca, adamlarda sərbəst, azad, müstəqil düşüncə meyilləri oyanır. Bu isə cəmiyyətimizin qədimdən bəri yaşadığı arzu idi. Bu arzu dahi mütəfəkkirlərimizin öz əsərlərində bədii obraz kimi canlandırdığı insan azadlığı, azad, demokratik cəmiyyət arzusunun təcəssümü idi. Bu azərbaycançılıq ideyalarının təcəssümü idi. Heydər Əliyev bu ideyaların yaranması üçün real zəmin yaratdı. Sovet dövründə bunu insanların mədəni-məişət həyatına tətbiq etdi, istehsalda və iqtisadiyyatda onu canlandırdı. Heydər Əliyevin fəaliyyəti sayəsində insanların mədəni-məişət və sosial həyatında tətbiq olunan azadlıq, sərbəstlik, müstəqillik meyilləri onlarda müstəqil dövlət yaratmağa inamını formalaşdırdı. Nəhayət, Heydər Əliyevin müstəqil dövlətçilik yaratmaq konsepsiyası cəmiyyət həyatında öz reallığını tapdı.

Heydər Əliyev azərbaycançılıq ideyalarını ideologiya kimi formalaşdırıb müstəqil dövlətimizin ideoloji konsepsiyasını hazırlamaqla böyük bir məktəb yaratmışdır. Bu məktəb azərbaycançılıq ideyalarının həyata real tətbiqi yollarını öyrədir. Bu məktəbin dərsliyi və vəsaiti Heydər Əliyevin həyatı və yaradıcı fəaliyyəti, dinləyicisi isə bütün azərbaycanlılardır. Gənc nəsil bu məktəbdən bəhrələnərək onun bütün ənənələrini gələcəyimizə çatdırmaq üçün öz əzmkarlığını, təşəbbüskarlığını, vətənpərvərlik amalını nümayiş etdirəcəkdir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, 10 noyabr 2001
2. "Azərbaycan" qəzeti. 1998-2002-ci illər.
3. "Respublika" qəzeti. 1998-2002-ci illər.
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: 9-10 noyabr. 2001-ci il. "Məruzə" 2001
5. Heydər Əliyev. Fəal həyat mövqeyinin formalaşdırılması: Mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Ümumittifaq elmi-praktiki konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: 1979
6. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
7. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998
8. Ələmşahov B., N.Bəxşeyiş oğlu "Dəryadan damlalar" Bakı: 1999
9. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977

## SUMMARY

**Elmira Aliyeva**

## UNIVERSAL IDEAS IN THE PHILOSOPHY OF AZERBAIJANISM

The ideology of Azerbaijanism is a system of views that arose on the basis of our independent statehood and has a general character with its social character. The philosophical

ideology of Azerbaijanism is formed on the basis of the integration of ancient national-spiritual qualities specific to the Azerbaijani people with universal ideas. National-moral qualities appear as a result of the events occurring in the socio-economic and cultural-household life of the society, historically formed as national-ethnic processes. The development of society cannot be limited only by the existence of national moral qualities. Every human society, as well as human societies existing in the world, develops in relation to each other. These connections and relations occur within the limits of the spread and integration of ideas existing in one human society in other human societies. In this sense, the national ideas specific to this society were formed in the Azerbaijani society, as well as the philosophical ideas that are useful for other human societies and have a universal character. Those of these ideas that are useful for other societies are spread, as well as moral qualities that are useful in other human societies are integrated into the Azerbaijani society. The philosophical essence of the Azerbaijanism ideology of the national leader Heydar Aliyev is the transmission of national values to the younger generations. The main trends in the ideology of Azerbaijaniism are analyzed in the article.

***Key words:*** *philosophy, ideology, azerbaijanism, values, modern, personality*

**РЕЗЮМЕ**

**Эльмира Алиева**

**УНИВЕРСАЛЬНЫЕ ИДЕИ В ФИЛОСОФИИ АЗЕРБАЙДЖАНСТВА**

Идеология азербайджанства представляет собой систему взглядов, возникшую на основе нашей независимой государственности и имеющую общий характер с ее социальным характером. Философская идеология азербайджанства формируется на основе объединения древних национально-духовных качеств, присущих азербайджанскому народу, с общечеловеческими представлениями. Национально-нравственные качества возникают в результате событий, происходящих в социально-экономической и культурно-бытовой жизни общества, исторически складываются как национально-этнические процессы. Развитие общества не может быть ограничено только наличием национальных нравственных качеств. Каждое человеческое общество, а также человеческие общества, существующие в мире, развиваются по отношению друг к другу. Эти связи и отношения происходят в пределах распространения и интеграции идей, существующих в одном человеческом обществе, в другие человеческие общества. В этом смысле в азербайджанском обществе сформировались национальные идеи, характерные для этого общества, а также философские идеи, полезные для других человеческих обществ и имеющие общечеловеческий характер. Распространяются те из этих идей, которые полезны для других обществ, а также интегрируются в азербайджанское общество нравственные качества, полезные в других человеческих обществах. Философская суть идеологии азербайджанства общенационального лидера Гейдара Алиева заключается в передаче национальных ценностей подрастающим поколениям. В статье анализируются основные тенденции в идеологии азербайджанства.

***Ключевые слова:*** *философия, идеология, азербайджанство, ценности, модерн, личность*

**NİYAMƏDDİN HACIYEV**
*haciyev.niyamedin1@mail.ru*
*Gəncə Dövlət Universiteti*

## İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

*Diplomatik münasibətlərin beynəlxalq inteqrasiya şəraitində başlıca rolu ondan ibarət hesab edilməlidir ki, bu inteqrasiyaya daxil olan dövlətlər iqtisadi asılılıq vəziyyətinə düşməkdən xilas ola bilsinlər.*

*İqtisadi inteqrasiya prosesində, şübhəsiz, bu və ya digər ölkənin təkcə xammal mənbəyi kimi iştirak etməsi onu iqtisadi asılılıq vəziyyətinə gətirə bilər. Lakin bu prosesdən istifadə edərək güclü istehsalçıya çevrilə bilmək ölkənin sosial, siyasi və iqtisadi nüfuzunun qat-qat artırılmasına gətirib çıxara bilən mühüm amillərdəndir.*

*Azərbaycan Respublikası beynəlxalq iqtisadi məkana, müstəqillik əldə etdikdən sonra qoşulan dövlətlərdən biridir. Azərbaycan Respublikası yeni iqtisadi sistemə keçid dövründə öz iqtisadi dayaqlarını möhkəmləndirmək məqsədi ilə dünya iqtisadi birliyinə qovuşmaq üçün mövcud imkanlarından istifadə etməyə səy göstərir.*

***Açar sözlər:*** *beynəlxalq inteqrasiya, iqtisadi asılılıq, xammal, güclü istehsalçı, sosial, siyasi, beynəlxalq iqtisadi məkan, iqtisadi sistem*

Azərbaycan Respublikası müasir dövrdə özünün iqtisadi inkişaf mərhələsinə daxil olmuşdur. Azərbaycan iqtisadiyyatının yüksələn xətt üzrə inkişafı üçün çox böyük daxili potensial, imkanlar mövcuddur. Azərbaycan Respublikası, hər şeydən əvvəl zəngin karbohidrogen yataqlarına malik olan çox mühüm geostrateji bir məkan kimi tanınır. Bundan başqa, Azərbaycan Respublikası ərazisində digər zəngin yeraltı təbii sərvətlər mövcuddur. Azərbaycan Respublikasının yerləşdiyi ərazidə olduqca zəngin dəmir, mis, kobalt, əlvan metallar və digər təbii yataqlar və çoxnövlü minerallar vardır. Azərbaycan torpaqları olduqca bərəkətlidir. Bu torpaqlarda bir çox növdən olan kənd təsərrüfatı məhsulları yetişdirmək üçün real imkanlar vardır. Milli istehsalın bünövrəsini təşkil edən bütün çoxnövlü məhsullar yetişdirilməsi imkanları onu göstərir ki, bu ölkənin iqtisadi tərəqqisinin canlandırılması üçün neft strategiyası mühüm və aparıcı olsa da, yeganə amil deyildir.

Azərbaycan Respublikasının iqtisadi inkişaf potensialı güclü olduğuna görədir ki, müstəqillik əldə edildikdən sonra ölkə öz iqtisadi müvazinətini itirmədi. Əksinə, Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan iqtisadi strategiya proqramı tezliklə öz bəhrələrini verməyə başladı. Söz yox ki, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra ölkənin əvvəlki iqtisadi əlaqə şəbəkəsi pozulduğundan onların bərpasında çətinliklər yaranmışdır. Lakin artıq dünya meydanına sərbəst çıxmaq imkanları əldə edilmişdi. Məhz bu imkanlardan məqsədyönlü səmərəli və xalqın milli mənafelərinə uyğun şəkildə istifadə edilməsi ilə Azərbaycan öz iqtisadiyyatını ayaq üstünə qaldırmağa müvəffəq olmuşdur.

Sovet ittifaqı süquta uğradıqdan sonra Azərbaycan Respublikasının iqtisadiyyatını dirçəltmək üçün güclü kapitala çox böyük ehtiyac var idi. Ancaq müstəqillik əldə edildikdən sonra iqtisadiyyatın inkişafına sərmayələr qoyuluşu üçün yaranan əlverişli

şərait böhrandan çıxışın başlıca məqamlarından idi. 1994-cü ildən sonra ölkədə ictimai-siyasi sabitlik yarandı. Bu əlverişli ictimai-siyasi iqlim xarici kapitalın Azərbaycan iqtisadiyyatına yönəldilməsinə şərait yaratdı. Xarici sərmayə, əsasən, neft sektoruna yönəldildi. 1994-2000-ci illər arasında xarici sərmayələrin 64%-i neft sektoruna yönəldilmişdi.

1999-cu il 29 dekabrda Heydər Əliyevin verdiyi fərmanla yaranmış neft fondu Azərbaycan iqtisadiyyatında mühüm rol oynayır. Yaranmış şəffaf neft fondunda toplanan vəsaitin Azərbaycanın sənaye, sosial sahələrində istifadə olunması planlaşdırılmışdır.

Ölkə iqtisadiyyatında yaranmış problemləri həll etmək üçün böyük həcmdə investisiyaların cəlb olunmasında, ölkədə iqtisadi islahatların aparılmasında, iqtisadi sabitliyin təmin olunmasında neft strategiyasının rolu çox böyükdür. Bağlanmış neft müqavilələri Azərbaycan iqtisadiyyatının maliyyə mənbəyi olması ilə bərabər müstəqillik əldə edildiyi müddətdən 1994-cü ilin sentyabrına qədərki dövrdə böyük sarsıntılara məruz qalmış, Ermənistanın təcavüzü nəticəsində 20 faizə yaxın torpaq itirmiş və çoxlu qaçqını olan xalqa həm maddi və həm də mənəvi dayaqdır. Məlum olduğu kimi, respublikanın ona məxsus olan ərazilərindəki neft yataqlarının işlənməsi və istismarı barədə xarici neft şirkətləri ilə bağladığı müqavilələrin həyata keçirilməsi neft hasilatının sürətlə artmasına səbəb olmuşdur. Hasil edilən neftin respublikanın özündə emal edilməsi xam neftin ixracına deyil, neft məhsullarının ixracına üstünlük verilməsi ölkənin neftdən əldə etdiyi qazancın səviyyəsinin xeyli yüksəldilməsinə səbəb oldu. Dövlət bu istiqamətdə mərhələlərlə proqramlar həyata keçirməklə gələcəkdə xam məhsul ixracatından hazır məhsul ixracatına keçməyi nəzərdə tutmaqla dövlət gəlirlərini artırdı ki, bu da ölkənin sosial-iqtisadi inkişafını təmin etmək üçün perspektivli siyasətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə neft strategiyasının ölkənin iqtisadi inkişafı ilə əlaqədar demişdir: ""Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı... Ölkəmizə gətirilən sərmayələr Azərbaycanın neft sektorunun inkişafında böyük rol oynamaqla yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan verdi... Neft fondundan ayrılan ilk ödəmələr ölkəmizdə ən çətin və ağır vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin sosial problemlərinin həllinə yönəlmişdir. Bu, Azərbaycan üçün prioritet məsələdir... Hazırda qaçqın və köçkünlər üçün yeni qəsəbələr, yeni şəhərciklər, xəstəxanalar, məktəblər və digər obyektlər məhz neft fondunun vəsaiti hesabına tikilir.

Eyni zamanda, Azərbaycanda son müddət ərzində digər sosial məsələlərin həllinə böyük diqqət göstərilir. Maaşlar və pensiyalar artırılır və bu siyasət bundan sonra da davam etdiriləcəkdir...

Azərbaycanın çox etibarlı, sabit, xarici sərmayələr üçün əlverişli bir ölkə kimi tanınması bizim üçün çox vacib idi və buna nail olduq. Bu özünü təkcə neft sektoruna deyil, eyni zamanda, qeyri-neft sektoruna qoyulmuş sərmayələrdə də əks etdirir. Bu onu göstərir

ki, dünyada, beynəlxalq aləmdə bizim reytinqimiz, imicimiz çox sürətlə artır və güclənir. Beləliklə, bu bizə ölkəmizi hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir”[3].

Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin inşası hər şeydən əvvəl, neft və qaz avadanlıqları istehsal edən yeni müəssisələrin və sənaye yönümlü digər obyektlərin yaradılmasına yardım edəcək ki, bu da ixtisaslı kadrların və mütəxəssislərin yeni iş yerləri ilə təminatına şərait yaradacaq. Bu da Azərbaycanın işsizlik problemlərinin həll olunmasına təkan verəcək. Bundan əlavə, Azərbaycan neft və qaz sənayesi üçün lazım olan avadanlıqlar istehsal edən bir ölkə olmaqla dünya iqtisadiyyatında bu sahəyə olan tələbatı qismən də olsa ödəmək payını aldı, beynəlxalq iqtisadi əməkdaşlığı daha da möhkəmləndirdi.

Dünya iqtisadiyyatının inkişafında çevik və intensiv bir mexanizm yaradılması müasir dövrdə güclü iqtisadi potensiala malik olan dövlətlərin başçılarını, habelə, siyasətçiləri və diplomatları daha çox düşündürən qlobal bir məsələdir.

İqtisadi inkişaf və onun perspektivlərinin araşdırılması, qaydaya salınması və nizamlanması işi iqtisadçıların problemi olsa da, iqtisadi qloballaşma məsələsinin həyata keçirilməsi daha çox siyasət adamlarının maraq dairəsinə daxildir. Hər bir ölkənin öz iqtisadiyyatını inkişaf etdirmək maraqları vardır. Müasir dövrdə isə bu maraqların təkcə bir ölkənin öz daxili işi kimi qalması mümkün deyildir. Çünki hər bir ölkənin idxal və ixrac əməliyyatlarının həyata keçirilməsində öz maraqları vardır. İdxal və ixrac əməliyyatları isə məhdud bir sahədə həyata keçirilə bilməz. Belə bir mexanizmin reallaşmasında marağı olan ayrı-ayrı dövlətlərin iştirakı zəruri bir tələb kimi ortaya çıxır.

Diplomatik münasibətlərin beynəlxalq inteqrasiya şəraitində başlıca rolu ondan ibarət hesab edilməlidir ki, bu inteqrasiyaya daxil olan dövlətlər iqtisadi asılılıq vəziyyətinə düşməkdən xilas ola bilsinlər.

İqtisadi inteqrasiya prosesində, şübhəsiz, bu və ya digər ölkənin təkcə xammal mənbəyi kimi iştirak etməsi onu iqtisadi asılılıq vəziyyətinə gətirə bilər. Lakin bu prosesdən istifadə edərək güclü istehsalçıya çevrilə bilmək ölkənin sosial, siyasi və iqtisadi nüfuzunun qat-qat artırılmasına gətirib çıxara bilən mühüm amillərdəndir.

Aydın məsələdir ki, belə bir prosesdə diplomatik nailiyyətlər əldə edilməsinin ölkənin inkişafında çox böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikası beynəlxalq iqtisadi məkana müstəqillik əldə etdikdən sonra qoşulan dövlətlərdən biridir. Etiraf etmək lazımdır ki, Azərbaycan Respublikasının bu prosesə daxil olmasının tarixi çox qədim olmasa da, mövcud proqnozlar bu ölkənin həmin prosesdə kifayət qədər iqtisadi nailiyyətlər əldə edəcəyini göstərir.

Azərbaycan Respublikası yeni iqtisadi sistemə keçid dövründə öz iqtisadi dayaqlarını möhkəmləndirmək məqsədi ilə dünya iqtisadi birliyinə qovuşmaq üçün mövcud imkanlarından istifadə etməyə səy göstərir. Xalid Niyazov yazır ki, “Qloballaşma prosesinin müsbət dividentlərindən biri cəmiyyətlər arasında sosial tarazlığın bərpa olunmasıdır. Sosial sahələrin inkişafında tarazlığın yaranması cəmiyyətin bütövlənməsinə və monolitləşməsinə gətirib çıxaracaq. Bu baxımdan müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın

[3] İlham Əliyev. “Əsrin müqaviləsi”nin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimində nitq. “Azərbaycan” qəzeti. 21 sentyabr, 2004-cü il.

qloballaşma prosesində fəal iştirakı yalnız müsbət nəticələr verə bilər"[4].

Beynəlxalq iqtisadi inteqrasiya sisteminə qoşulmaq konsepsiyası bu gün əsrimizin lideri İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti əsasında həyata keçirilir.

Azərbaycan Respublikası çox zəngin yeraltı və yerüstü təbii sərvətlərə malikdir. Ona görə də öz zəngin təbii sərvətləri ilə beynəlxalq iqtisadi sistemə qoşulmaq üçün ölkəmizin daha çox maddi və mənəvi haqqı vardır.

Azərbaycan Respublikası xarici ölkələrlə iqtisadi əlaqələri daim genişləndirir. Bu əlaqələr həm iqtisadi və həm də sosial-siyasi sahələrdə bir çox nailiyyətlərin əldə edilməsinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti. 10 noyabr, 2001
2. "Azərbaycan" qəzeti. 1998-2002-ci illər.
3. "Respublika" qəzeti. 1998-2002-ci illər.
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: 9-10 noyabr. 2001-ci il. "Məruzə" 2001.
5. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: 1979

## SUMMARY

**Niyamaddin Hajiyev**

## PHILOSOPHY OF STATEHOOD IN ECONOMIC DEVELOPMENT STRATEGY

The main role of diplomatic relations in the conditions of international integration should be considered to be that the states included in this integration can escape from falling into a state of economic dependence.

Undoubtedly, the participation of this or that country only as a source of raw materials in the process of economic integration can bring it to a state of economic dependence. However, being able to become a powerful producer using this process is one of the important factors that can lead to a multifold increase in the country's social, political and economic influence.

The Republic of Azerbaijan is one of the states that joined the international economic space after gaining independence.

In the period of transition to a new economic system, the Republic of Azerbaijan strives to use its existing opportunities to join the world economic community in order to strengthen its economic foundations.

[4] Xalid Niyazov. Müasir dövrdə Azərbaycanın inkişaf strategiyası. Azərbaycan qloballaşan dünyanın təsir məkanı. "Azərbaycan" qəzeti. 19 iyun, 2004-cü il

***Key words:*** *international integration, economic dependence, raw materials, strong producer, social, political, international economic space, economic system*

**РЕЗЮМЕ**

**Ниямеддин Гаджиев**

**ФИЛОСОФИЯ ГОСУДАРСТВЕННОСТИ В СТРАТЕГИИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

Главной ролью дипломатических отношений в условиях международной интеграции следует считать то, что государства, входящие в эту интеграцию, могут избежать попадания в состояние экономической зависимости.

Несомненно, участие той или иной страны лишь как сырьевого источника в процессе экономической интеграции может привести ее в состояние экономической зависимости. Однако возможность стать с помощью этого процесса мощным производителем является одним из важных факторов, которые могут привести к многократному увеличению социального, политического и экономического влияния страны.

Азербайджанская Республика является одним из государств, присоединившихся к международному экономическому пространству после обретения независимости.

В период перехода к новой экономической системе Азербайджанская Республика стремится использовать существующие возможности для вступления в мировое экономическое сообщество с целью укрепления своих экономических основ.

***Ключевые слова:*** *международная интеграция, экономическая зависимость, сырье, сильный производитель, социальное, политическое, международное экономическое пространство, экономическая система*

**URFAN HƏSƏNOV**
*Gəncə Dövlət Universiteti*

## DÖVLƏTÇİLİK FƏLSƏFƏSİNDƏ MİLLİ İDEOLOGİYA

*Milli ideologiya dövlətçiliyə xidmət göstərir, onu sarsılmaz edir. Milli ideologiya milli düşüncəni, milli mənafeləri, milli təəssübkeşliyi, milli mənliyi, milli adət-ənənələri, milli mənşəyi, milli psixologiyanı, milli mənəviyyatı və əxlaqı, milli mədəniyyəti və milli vətənpərvərlik duyğusunu ümumiləşdirərək cəmləşdirən və özündə təcəssüm etdirən ictimai şüur formasıdır.*

*Dövlətçilik insan cəmiyyətinin mənafeyinə xidmət edirsə, milli ideologiya da dövlətçiliyin mənafelərinə xidmət göstərir. Münasibətlər şəxsi mənafelərə və cəmiyyətin ziddinə olan digər baxışlara doğru yönəlirsə, onda ideologiya öz milliliyini itirir, ayrı-ayrı sosial qrupların əlində alətə çevrilir, dövlətçilik isə süqut etməyə düçar olur.*

*Müstəqil dövlətçiliyin yaşamasını təmin edən vacib şərtlərdən biri də dövlətçiliyin idarəetmə mexanizminin yaradılmasıdır. Müstəqil dövlətçiliyin idarə olunması və onun fəaliyyətinin xalqın mənafeyinə yönəldilməsi üçün dövlətçiliyin idarəetmə mexanizminin yaradılması çox böyük əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *milli düşüncə, milli mənafe, milli mənlik, mənəviyyat, əxlaq, mədəniyyət, dövlətçilik, müstəqillik*

Müstəqil dövlətçilik mərhələsində milli birlik, mütəşəkkillik və həmrəylik yaratmaqla, ictimai sabitliyə nail olmaqla, iqtisadiyyatda dirçəliş əldə etməklə artıq milli şüur formalaşdırmaq imkanları reallaşır. Milli şüur isə milli ideologiyasının təməlidir. Milli ideologiya dövlətçiliyə xidmət göstərir, onu sarsılmaz edir. Milli ideologiya milli düşüncəni, milli mənafeləri, milli təəssübkeşliyi, milli mənliyi, milli adət-ənənələri, milli mənşəyi, milli psixologiyanı, milli mənəviyyatı və əxlaqı, milli mədəniyyəti və milli vətənpərvərlik duyğusunu ümumiləşdirərək cəmləşdirən və özündə təcəssüm etdirən ictimai şüur formasıdır. Milli ideologiya hər şeydən əvvəl insanların cəmiyyətlə təmasını və üzvi bağlılığını özündə əks etdirən, milli mənafelərə xidmət edən milli şüur deməkdir.

Milli ideologiyanın vəzifəsi təkcə onunla bitmir ki, insanlar öz maraqlarını cəmiyyətin mənafeyi ilə bağlasınlar. Milli ideologiya, həmçinin insanların cəmiyyət həyatı ilə bağlılığını əks etdirən və onları müəyyən istiqamətə yönəldə bilən əqidə formasıdır. Bununla da milli ideologiya, əslində cəmiyyətə iki əsas istiqamət üzrə xidmət edir. Birincisi, insanların müvafiq əqidəyə xidmət etməsinə təminat yaratmaqla onlarda milli mənafeləri formalaşdırmaq, ikincisi isə cəmiyyətin istiqamətləndirici və hərəkətverici qüvvəsi olan dövlətçiliyin mənafeyinə xidmət göstərməkdən ibarətdir.

Dövlətçilik insan cəmiyyətinin mənafeyinə xidmət edirsə, milli ideologiya da dövlətçiliyin mənafelərinə xidmət göstərir. Münasibətlər şəxsi mənafelərə və cəmiyyətin ziddinə olan digər baxışlara doğru yönəlirsə, onda ideologiya öz milliliyini itirir, ayrı-ayrı sosial qrupların əlində alətə çevrilir, dövlətçilik isə süqut etməyə düçar olur. 1991-1992-ci illərdə Azərbaycanda mövcud olan dövlətçiliyin taleyi belə idi. Hakimiyyətdə olan şəxslər müəyyən sosial qrupların nümayəndələri idilər. Hər bir sosial qrupun öz baxışlarına uyğun ideyaların

təmsilçisi idilər. Onlar şəxsi mənafelərini əks etdirən ideyalarını birləşdirə bilmirdilər. Cəmiyyətdə vahid əqidə, ümumi ideya yaratmaqdan uzaq idilər. Ona görə də o zaman milli şüuru təmsil edən və onu canlandıran milli ideologiya yaratmaq mümkün deyildi. Hər bir sosial qrupun maraqlarında, onların özlərinə məxsus ideologiyaları təmsil olunurdu. Buna görə də elan edilmiş müstəqil dövlətçilik uçurum qarşısında idi və süquta uğrayırdı.

1993-cü ildə Ümummilli və əbədi liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra cəmiyyət həyatında baş verən pərakəndəliyi aradan qaldırdı və uçuruma gedən dövlətçiliyi məhv olmaqdan xilas etdi.

Milli şüurun formalaşdırılması üçün etibarlı təminat olan iqtisadiyyatda dirçəliş baş verməsini təmin etdi. Sonrakı mərhələlərdə iqtisadiyyatın inkişaf etdirilməsi ilə milli ideologiyanın cəmiyyət həyatındakı mövqeyi bərqərar olundu. İnsanlar arasında ictimai mənafe və əqidə birliyinə əsaslanan milli ideologiyanın dövlətçiliyin möhkəmləndirilməsi sahəsindəki rolu müəyyən edildi.

Müstəqil Azərbaycan dövlətçiliyinin milli ideologiyası dövlətçilik ənənələrinin çox çevik şəkildə formalaşdığı qısa bir müddət ərzində yayılmışdır.

Milli ideologiyamızın tezliklə formalaşması, sabitləşməsi və sistem kimi bərqərar olunaraq cəmiyyətin və dövlətçiliyimizin mənafeyinə xidmət göstərən bir mexanizmə çevrilməsi Heydər Əliyev dühasının çox böyük tarixi nailiyyətidir.

Heydər Əliyev təlimində milli ideologiya tarixiliyi və müasirliyi özündə cəmləşdirir. Bu gün formalaşmış milli ideologiya tarixən əldə olunmuş milli-mənəvi sərvətlərimizin varisliyi üzərində qurulmuşdur. Ona görə də azərbaycançılıq ideyalarına söykənən milli ideologiyamız özünün uzunömürlü olmasını təsdiq edir. Milli ideologiyanın həyat reallığına bağlılığı onun daimiliyini şərtləndirir. Müəyyən tarixi dövrlərdə Azərbaycanda dövlətçilik qurumları mövcud olmuşdur. Məsələn, Səlcuqilər, Eldəgizlər, Atabəylər, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər və digər sülalələrin yaratdığı dövlətçilik qurumları Azərbaycana məxsus tarixi nailiyyətlərdir. Lakin tarixdə özünə müəyyən mövqe qazanmış bu dövlətçilik qurumları milli ideologiya formalaşdıra bilməmişlər. Bunun səbəbi o deyildi ki, həmin dövlət qurumları ideologiyadan məhrum idilər. Səbəb bu idi ki, bu dövlət qurumlarında İran-fars islam ideologiyası aparıcı yer tuturdu. Dövlətçilikdə daha çox fars dilindən, elmi-fəlsəfi dini əsərlərin yazılmasında ərəb dilindən istifadə olunmuşdur. Azərbaycan dilindən isə daha çox xalq arasında ümumişlək informasiya vasitəsi kimi istifadə edilmişdir.

Nəticədə Azərbaycanın bir çox dahi şəxsiyyətləri, alimləri, mütəfəkkirləri öz əsərlərini fars və ərəb dillərində yazmışlar. Ona görə də bu gün bir çox böyük şəxsiyyətlərimizin, xalqın mənəvi sərvəti olan yaradıcı alim və mütəfəkkirlərimizin əsərlərini ortaya çıxarmaq, hətta şəxsiyyətlərini belə müəyyən etmək çətinləşmişdir. Azərbaycan dilində ən çox el sənətkarları gözəl nümunələr yaratmışlar. Belə nümunələr milli mədəniyyət işinin parlaq təcəssümü kimi indi də öz sadəliyi ilə yaşayır. Bununla belə Azərbaycan cəmiyyətində tarixən qazanılmış bir çox maddi-mənəvi sərvətlərimiz və mədəniyyət nümunələrimiz itib-batmış, tarixin qaranlıq qatlarına qarışmışdır. Bu gün milli ideologiyamızın formalaşması nəinki Azərbaycanın mənəvi sərvətlərinin zənginləşməsinə və yeni bir keyfiyyət qazanmasına səbəb olur, həmçinin tarixən əldə edilmiş nailiyyətlərin meydana çıxarılaraq

xalqın mənafeyinə xidmət göstərməyə yönəldilir.

Milli ideologiyanın başlıca prinsipləri bunlardan ibarətdir:

1)Tarixilik

2) Varislik

3) Tarixiliklə müasirliyin vəhdəti

4) Milli-mənəvi ideyaların ümumbəşəri ideyalarla qovuşdurulması

5) Tarixən əldə edilən mənəvi sərvətlərimizin qorunub gələcək nəsillərə çatdırılması

6) Milli-mənəvi sərvətlərimizin xalqın mənafeyinə xidmət göstərməsi

7) Milli-mənəvi sərvətlərimizin bazasında vətənpərvərlik tərbiyəsinin formalaşdırılması

8) Milli ideologiyanın cəmiyyətdə bütövlüyə, vəhdətə, birlik və mütəşəkkilliyə nail olmaqla dövlətçiliyimizə xidmət göstərməsi.

Binası Ümummilli və əbədi liderimiz Heydər Əliyev tərəfindən qurulmuş Azərbaycan milli ideologiyası özünün dünyəviliyi ilə, həyatda öz təsdiqini tapmış reallığı ilə, humanistliyi ilə, yaradıcı və qurucu xarakteri ilə daim yaşayacaq, zənginləşəcək, müstəqil dövlətçiliyimizin möhkəmlənməsinə və çiçəklənməsinə xidmət edəcəkdir.

Müstəqil dövlətçiliyin yaşamasını təmin edən vacib şərtlərdən biri də dövlətçiliyin idarəetmə mexanizminin yaradılmasıdır. Müstəqil dövlətçiliyin idarə olunması və onun fəaliyyətinin xalqın mənafeyinə yönəldilməsi üçün dövlətçiliyin idarəetmə mexanizminin yaradılması çox böyük əhəmiyyət kəsb edir. Heydər Əliyevin zəhməti, əməyi, siyasi qələbələri və çevik diplomatik fəaliyyəti ilə yaradılmış müstəqil Azərbaycan dövlətçiliyinin daimi, dönməz və əbədi nüfuzunu təmin etmək üçün idarəetmə mexanizminin yaradılması tarixi bir zərurətdir. Dövlətçiliyin idarəetmə mexanizminin formalaşdırılması üçün azərbaycançılıq ideyalarına sədaqətli olan, milli-mənəvi dəyərləri ümumbəşəri ideyalarla qovuşduran, vətənin mənafeyinə xidmət göstərən, cəmiyyətdə birliyin, mütəşəkkilliyin və həmrəyliyin yaradılmasına daim səy göstərən Heydər Əliyevin qalib gəlmək elmini, çevik siyasi və diplomatik kursunu böyük müvəffəqiyyətlə mənimsəyən yeni siyasi-ideoloji elitanın yetişdirilməsi də zamanın tələbi və zərurəti kimi meydana çıxmışdır. Müstəqil dövlətçilik yeni və müasir kadrlar tələb edir, yeni dövr, yeni intellektlər tələb edir. Xalq 1991-1992-ci illərin acı təcrübəsini dadmışdır. Ona görə də şəxsi mənafelərlə yaşayan şəxslərin dövlətçilikdə təmsil olunması cəmiyyətin ziddinə yönələn bir aktdır. Yeni dövrün tələbi Heydər Əliyevin idarəçilik məktəbini layiqincə mənimsəmiş azərbaycançı elitanın yetişməsini zəruri etmişdir.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. 25 aprel 1979-cu il. Bakı: 1979
2. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
3. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
4. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977
5. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998

## SUMMARY

**Urfan Hasanov**

**NATIONAL IDEOLOGY IN THE PHILOSOPHY OF STATEHOOD**

National ideology serves statehood, makes it indestructible. National ideology is a form of public consciousness that summarizes and embodies national thought, national interests, national bigotry, national identity, national traditions, national origins, national psychology, national spirituality and morality, national culture, and national patriotism.

If statehood serves the interests of human society, national ideology also serves the interests of statehood. If the relations are directed towards personal interests and other views that are against the society, then the ideology loses its nationality, becomes a tool in the hands of individual social groups, and statehood falls.

One of the important conditions that ensure the existence of an independent state is the creation of a state management mechanism. In order to manage the independent statehood and direct its activities to the interests of the people, it is of great importance to create a statehood management mechanism.

***Key words:*** *national thought, national interest, national identity, spirituality, morality, culture, statehood, independence*

## РЕЗЮМЕ

**Урфан Гасанов**

**НАЦИОНАЛЬНАЯ ИДЕОЛОГИЯ В ФИЛОСОФИИ ГОСУДАРСТВЕННОСТИ**

Национальная идеология служит государственности, делает ее нерушимой. Национальная идеология - это форма общественного сознания, обобщающая и воплощающая национальную мысль, национальные интересы, национальный фанатизм, национальное самосознание, национальные традиции, национальное происхождение, национальную психологию, национальную духовность и нравственность, национальную культуру и национальный патриотизм.

Если государственность служит интересам человеческого общества, то и национальная идеология служит интересам государственности. Если отношения направлены на личные интересы и иные взгляды, противоречащие обществу, то идеология теряет свою национальность, становится инструментом в руках отдельных социальных групп, государственность падает.

Одним из важных условий, обеспечивающих существование независимого государства, является создание механизма государственного управления. Для управления независимой государственностью и направления ее деятельности на интересы народа большое значение имеет создание механизма управления государственностью.

***Ключевые слова:*** *национальная мысль, национальный интерес, национальная идентичность, духовность, нравственность, культура, государственность, независимость*

**XATİRƏ İLYASOVA**
*xatire_ilyasova@mail.ru*
*Gəncə Dövlət Universiteti*

# MİLLİ LİDER VƏ DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

*Milli dövlətçilik fəlsəfəsinin bazasını milli lider təşkil edir. Milli liderin dövlətçilik fəlsəfəsinin ən başlıca fəaliyyətlərindən biri milli birlik, mütəşəkkillik və həmrəylikdir. Milli birlik, mütəşəkkillik və həmrəylik cəmiyyətin vəhdəti deməkdir. Cəmiyyətdə birlik varsa, onun inkişafı üçün təməl vardır. Cəmiyyətdə milli birlik olmadıqda, parçalanma, pərakəndəlik, fərdiləşmə, ayrıseçkilik, qruplaşma meyilləri baş verir. Bu halda inkişafdan söhbət gedə bilməz. Belə bir cəmiyyət məhvə, tənəzzülə, süquta məhkumdur. Heydər Əliyev hakimiyyətə gəldiyi zaman Azərbaycan cəmiyyəti tamamilə separatizmin dəhşətli fəsadları ilə üz-üzə qalmışdı. İqtisadi tənəzzül insanları mənəvi iflasa gətirib çıxarmışdı. Cəmiyyətdə birlik və mütəşəkkillik olmadığı üçün ölkə parçalanma və dağılma təhlükəsi qarşısında qalmışdı. Belə bir məqamda Ümummilli lider Heydər Əliyev ölkəni dağılıb parçalanmaqdan, cəmiyyəti mənəvi iflasdan xilas etdi. Heydər Əliyev bütün səyləri birləşdirdi. Cəmiyyətdə sağlam qüvvələri topladı. İnsanları vahid ideya və əqidə ətrafında cəmləşdirdi.*

***Açar sözlər:*** *milli birlik, mütəşəkkillik, həmrəylik, cəmiyyət, vəhdət, separatizm*

Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin banisi olmaqla Ümummilli lider kimi tarixin onun üzərinə qoyduğu vəzifəni çox böyük uğurla həyata keçirdi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqilliyini yenidən elan etdi. Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində, onun tarixi köklər üzərində bərqərar olunması demək idi. Müstəqillik elan olunduqdan sonra başlıca və ən vacib vəzifə onu qoruyub saxlamaqdan ibarət idi. Ancaq o zaman respublikaya rəhbərlik edən şəxslər müstəqilliyin qorunub saxlanması kimi dövrün ən mühüm problemi qarşısında öz tarixi vəzifələrini yerinə yetirməkdə acizlik göstərirdilər. Konkret ifadə ilə desək, müstəqillik o zaman hakimiyyətdə olan şəxslər tərəfindən mexaniki şəkildə elan edilmişdi. Müstəqillik onların tərəfindən qazanılmış və əldə edilmiş tarixi qələbə deyildi. Müstəqillik ideyası, bir tərəfdən qədim və tarixi köklərə malik idi. İkincisi, 1918-20-ci illərin təcrübəsi toplanmışdı, üçüncüsü və daha vacibi isə müstəqillik ideyası Heydər Əliyev tərəfindən mərhələ-mərhələ Azərbaycan cəmiyyətinə hopdurulmuşdu. 1991-ci ildə hakimiyyətdə olan şəxslər sadəcə tarixi şəraitin tələbini ödəmək məcburiyyətində qalaraq onun elan edilməsi ilə öz işlərini başa çatdırmış oldular. Müstəqilliyin əsl mənası, onun çətin yolları həmin dövrün rəhbərləri üçün dərkedilməz idi. Ona görə də onlar çaş-baş düşüb müstəqilliyi itirmək təhlükəsi ilə üz-üzə qalmışdılar.

Heydər Əliyev bütün fəaliyyəti dövründə özünün ideyalarını və baxışlarını optimist və realist prinsiplər üzrə ictimai həyata tətbiq etmişdi. Heydər Əliyev ideyalarının ictimai həyata reallıqla tətbiq edilməsi bu böyük tarixi şəxsiyyətin bütün fəaliyyətində qələbələrin təməli idi.

Müstəqil Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması ilkin mərhələdə çox çətin problemlərin həll olunması zərurətini qarşıya qoymuşdu. Bu zaman ölkədə ictimai-siyasi

şərait çox mürəkkəb idi. Xalqın Heydər Əliyevi hakimiyyətdə görmək istəyi, arzusu, təkidi və tələbi qarşısında o zamankı AXC-Müsavat cütlüyünün rəhbərləri duruş gətirə bilmədilər. Onlar meydan hadisələrində əldə edə bildikləri nüfuzlarını öz bacarıqsızlığı və səriştəsizliyi üzündən tezliklə itirməli oldular. Ona görə də istəmədikləri halda geri çəkildilər. Lakin hakimiyyətdən tamamilə əl üzməyib başqa xülyalarla yaşayan AXC-Müsavat rəhbərləri yeni təxribatlara əl atmaqdan çəkinmirdilər. Onların bir çoxu hakimiyyət strukturlarında özlərinə isti yuva tapmışdılar. Tutduqları mövqedən istifadə edərək Heydər Əliyevin müstəqil Azərbaycan Respublikası naminə gördüyü məqsədyönlü işlərə hər vasitə ilə əngəl yaratmağa cəhd göstərirdilər. Xalqın içərisində nüfuzdan düşüb rüsvayçılıqla geri çəkilmələrinə baxmayaraq uduzduqlarını etiraf etməklə barışa bilmirdilər. Bunun nəticəsi idi ki, Heydər Əliyevin fəaliyyətini gözdən salmaq üçün hər cür xəyanətdən və satqınlıqdan çəkinmirdilər. Məhz bunun nəticəsi idi ki, 1992-1993-cü ildə bir sıra rayonlarımız çox asanlıqla bir-birinin ardınca düşmən əlinə keçirdi.

1992-ci il fevralın 18-də Xocavənd, 1992-ci il fevralın 26-da Xocalı, 1992-ci il mayın 9-da Şuşa, 1992-ci il mayın 17-də Laçın, 1993-cü ilin aprelin 6-da Kəlbəcər, 1993-cü il iyunun 17-də Ağdərə, 1993-cü il iyulun 23-də Ağdam, 1993-cü il avqustun 18-də Cəbrayıl, 1993-cü il avqustun 23-də Füzuli, 1993-cü il avqustun 31-də Qubadlı, 1993-cü il oktyabrın 25-də Zəngilan rayonu süquta uğradı. Bütün bu ərazilərin süqutu və düşmən tapdağına çevrilməsi o zaman dövlət qurumlarında təmsil olunan AXC-Müsavat təmsilçilərinin xalqa zidd və xəyanətkarlıq əməllərinin nəticəsi idi.

Bu təxribatlar, xəyanət və düşmənçiliklər dayanmırdı, bu və ya digər şəkildə davam etdirilirdi. 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yönəldilmiş qəsd və təxribat əməlləri idi. 1994-cü il 3-4 oktyabr və eləcə də 1995-ci il 17 mart hadisələri respublikada dövlət çevrilişi məqsədi güdürdü. Bu hadisələrin başında isə xarici təxribat orqanlarının hazırladığı planları yerinə yetirmək üçün canfəşanlıq edən Surət Hüseynov, Rəhim Qazıyev, Ayaz Mütəllibov, Rövşən Cavadov, Mahir Cavadov və başqa cinayətkarlar dururdu. Lakin Heydər Əliyev qətiyyəti, Heydər Əliyev mətinliyi, Heydər Əliyev cəsarəti və yenilməzliyi qalib gəldi. Bu qələbə Heydər Əliyevin siyasi və diplomatik sahədəki məqsədyönlü işinin uğurlu nəticəsi, milli mənafelərə yönəlmiş fəaliyyətinin vətənpərvərlik nümunəsi idi.

Heydər Əliyevin yorulmazlığı, mətinliyi, əzmkarlığı və vətənpərvərlik coşqunluğu ilə tarixin olduqca qısa bir anında olduqca qısa bir müddət özündə dövlətçiliyin qorunub saxlanmasını və onun əsrlər boyu yaşaya biləcəyinə təminat verən ən başlıca şərtlərin həyata keçməsinə nail oldu.

Bu şərtlərin ən başlıcalarından biri milli birlik, mütəşəkkillik və həmrəylikdir. Milli birlik, mütəşəkkillik və həmrəylik cəmiyyətin vəhdəti deməkdir. Cəmiyyətdə birlik varsa, onun inkişafı üçün təməl vardır. Cəmiyyətdə milli birlik olmadıqda, parçalanma, pərakəndəlik, fərdiləşmə, ayrıseçkilik, qruplaşma meyilləri baş verir. Bu halda inkişafdan söhbət gedə bilməz. Belə bir cəmiyyət məhvə, tənəzzülə, süquta məhkumdur. Heydər Əliyev hakimiyyətə gəldiyi zaman Azərbaycan cəmiyyəti tamamilə separatizmin dəhşətli fəsadları ilə üz-üzə qalmışdı. Hakimiyyət başında olan adamlar öz şəxsi mənafeyi və şəxsi nüfuzu barədə düşünərək cəmiyyətdə ucuz şöhrət arxasınca qaçırdılar. Vəziyyətdən

istifadə edib varlanmaq həvəsinə düşən belə adamlar cəmiyyəti iflic vəziyyətinə salmışdılar. İqtisadi tənəzzül insanları mənəvi iflasa gətirib çıxarmışdı. Cəmiyyətdə birlik və mütəşəkkillik olmadığı üçün ölkə parçalanma və dağılma təhlükəsi qarşısında qalmışdı. Belə bir məqamda Ümummilli lider Heydər Əliyev ölkəni dağılıb parçalanmaqdan, cəmiyyəti mənəvi iflasdan xilas etdi. Heydər Əliyev bütün səyləri birləşdirdi. Cəmiyyətdə sağlam qüvvələri topladı. İnsanları vahid ideya və əqidə ətrafında cəmləşdirdi. Əslində, Heydər Əliyev cəmiyyətdə bütövləşməni, birlik və mütəşəkkilliyi hələ respublikaya rəhbərlik etdiyi 1969-cu illərdən bəri formalaşdırmağa başlamışdı. Cəmiyyətdə mütəşəkkillik yaradılmasının tarixi təcrübəsi Heydər Əliyevin fəaliyyətində özünün ən bariz təcəssümünü tapmışdı. 1993-cü ildə də ölkəni dağılmaqdan xilas etmək üçün mütəşəkkillik yaratmaq hər şeydən daha artıq gərəkli idi. Heydər Əliyev bu tarixi vəzifəni çox böyük uğurla həll etdi. Hələ 1991-ci ildə Heydər Əliyev respublika rəhbərliyində təmsil olunmadığı vaxtda Heydər Əliyev çox böyük əzmkarlıqla və cəsarətlə cəmiyyət qarşısında öz mənəvi borcunu yerinə yetirərək bu diplomatik addımı atmışdı.

## ƏDƏBİYYAT

1. “Azərbaycan” qəzeti. 10 noyabr, 2001
2. “Azərbaycan” qəzeti. 1998-2002-ci illər
3. “Respublika” qəzeti. 1998-2002-ci illər
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: 9-10 noyabr, 2001. “Məruzə” 2001
5. Heydər Əliyev. “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri”. Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979.
7. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998
8. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999

## SUMMARY

**Khatira Ilyasova**

## NATIONAL LEADER AND PHILOSOPHY OF STATEHOOD

The basis of the philosophy of national statehood is the national leader. One of the most important activities of the national leader's philosophy of statehood is national unity, organization and solidarity. National unity, organization and solidarity means unity of society. If there is unity in society, there is a foundation for its development. In the absence of national unity in society, fragmentation, fragmentation, individualization, discrimination, and grouping tendencies occur. In this case, there is no question of development. Such a society is doomed to destruction, decline, and collapse. When Heydar Aliyev came to power, the Azerbaijani society was completely faced with the terrible consequences of separatism. Economic decline has led people to moral bankruptcy. Due to the lack of unity and organization in the society, the country faced the threat of division and disintegration. At such a moment, national leader Heydar Aliyev saved the country from

falling apart and the society from moral bankruptcy. Heydar Aliyev combined all efforts. Gathered healthy forces in society. He gathered people around a single idea and belief.

***Key words:*** *national unity, organization, solidarity, society, unity, separatism*

## РЕЗЮМЕ

**Хатира Ильясова**

## НАЦИОНАЛЬНЫЙ ЛИДЕР И ФИЛОСОФИЯ ГОСУДАРСТВЕННОСТИ

Основой философии национальной государственности является национальный лидер. Одним из важнейших направлений философии государственности национального лидера является национальное единство, организованность и солидарность. Национальное единство, организованность и солидарность означают единство общества. Если есть единство общества, то есть и основа для его развития. При отсутствии национального единства в обществе возникают тенденции к фрагментации, раздробленности, индивидуализации, дискриминации, группировки. В данном случае о развитии не может быть и речи. Такое общество обречено на разрушение, упадок и крах. Когда к власти пришел Гейдар Алиев, азербайджанское общество полностью столкнулось с ужасными последствиями сепаратизма. Экономический спад привел людей к моральному банкротству. Из-за отсутствия единства и организованности в обществе страна столкнулась с угрозой раскола и распада. В этот момент общенациональный лидер Гейдар Алиев спас страну от развала, а общество от морального банкротства. Гейдар Алиев объединил все усилия. Собрал здоровые силы в обществе. Он собирал людей вокруг единой идеи и убеждений.

***Ключевые слова:*** *национальное единство, организация, солидарность, общество, единство, сепаратизм*

**SEVİNC İMANLI**
*imanli_sevinc@mail.ru*
*Gəncə Dövlət Universiteti*

## MÜSTƏQİL DÖVLƏTÇİLİK FƏLSƏFƏSİNDƏ MİLLİ TƏFƏKKÜR

*Tarixin müəyyən mərhələlərində Azərbaycan ərazisində müstəqil dövlətçilik quruluşu mövcud olmuşdur. Azərbaycan ərazisində müxtəlif dövrlərdə mövcud olmuş dövlətlər tarixdə müstəqil dövlətçilik təcrübəsi qazanmış qurumlar olmuşlar. Həmin dövlət qurumları daha çox regional xarakter daşımış, bütövləşə bilməmiş və Azərbaycan cəmiyyəti üçün ümumiləşdirici xarakter daşıya bilməmişdir. Buna görə də həmin dövlət qurumlarında Azərbaycan xalqının tarixlər boyu qazanılmış milli adət və ənənələri, sosial-ictimai prosesləri ümumiləşdirilərək biri digərinin varisi olmamışdır. Ona görə də həmin ənənələr azərbaycançılıq ideologiyası kimi formalaşmamışdır.*

*Müstəqil dövlətçiliyin formalaşdırılması mərhələsində də ardıcıl olaraq, milli birlik, mütəşəkkillik, həmrəylik, ictimai sabitlik, iqtisadi inkişaf, ictimai şüurun milli şüura çevrilməsi və dövlətçiliyin idarə mexanizminin formalaşdırılması kimi mərhələlərin keçirilməsi vacib şərtlərdəndir.*

***Açar sözlər:*** *regional, milli birlik, milli şüur, xarakter, ideologiya, həmrəylik, ictimai sabitlik*

Demək olmaz ki, Azərbaycan cəmiyyətində müstəqillik, azadlıq və sərbəstlik yalnız qədim keçmişdə, bu gün tarixin təsəvvürəgəlməz dövrlərində mövcud olmuşdur. Azadlıq, müstəqillik və sərbəstlik bizim cəmiyyətdə təkcə xəyala çevrilib ideyalar şəklində yaşamamışdır. Tarixin müəyyən mərhələlərində Azərbaycan ərazisində müstəqil dövlətçilik quruluşu mövcud olmuşdur. Məsələn, Atabəylər dövləti, Şirvanşahlar dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti tarixdə müstəqil dövlətçilik təcrübəsi qazanmış qurumlar olmuşlar. Lakin nəzərə almaq lazımdır ki, həmin dövlət qurumları daha çox regional xarakter daşımış, bütövləşə bilməmiş və Azərbaycan cəmiyyəti üçün ümumiləşdirici xarakter daşıya bilməmişdir. Buna görə də həmin dövlət qurumlarında Azərbaycan xalqının tarixlər boyu qazanılmış milli adət və ənənələri, sosial-ictimai prosesləri ümumiləşdirilərək biri digərinin varisi olmamışdır. Ona görə də həmin ənənələr azərbaycançılıq ideologiyası kimi formalaşmamışdır. Ümummilli birlik mövcud olmadığı şəraitdə isə bütövləşmiş Azərbaycan dövlətçiliyi yaradılması imkanları tam bir reallığa çevrilə bilməmişdir. Bunun nəticəsidir ki, Azərbaycan cəmiyyətində azadlıq, sərbəstlik və müstəqillik ideyaları dahi sənətkarların əsərlərində bədii obrazlarla təcəssüm etdirilmişdir.

Azadlıq, sərbəstlik və müstəqillik ideyaları Azərbaycan cəmiyyətində XX əsrin əvvəllərində daha da böyük vüsət aldı. 1918-ci il mayın 28-də elan olunmuş müstəqil Azərbaycan dövlətçiliyi müsəlman şərqində ilk demokratik bir qurum kimi formalaşmağa başladı. Bu dövr çətin, gərgin ictimai-siyasi hadisələrlə dolu olan bir mərhələ idi. Birinci Dünya müharibəsi başa çatmışdı. Böyük dövlətlər dünyanın yenidən bölünməsi siyasətini həyata keçirməkdə idi. Digər tərəfdən isə Rusiyada inqilab baş vermişdi. Bu inqilabın məşum dalğaları bir çox xalqlar kimi Azərbaycan xalqının da həyatına öz təsirini göstərməyə bilməzdi. İnqilab çaxnaşması müharibə acısına, müharibə acısı isə imperiya hərislərinin acgözlüyünə və tamahkarlığına qarışmışdı. Gənc Azərbaycan dövlətçiliyi isə burulğanlar arasında çaxnaşmaya düşmüş bir gəmi timsalında idi.

Azərbaycan Demokratik Respublikasının başında duran rəhbərlər ziyalı insanlar idilər. Onların bir çoxu Rusiyada və Avropada təhsil almışdılar. Həmin rəhbərlər 1918-ci ilin çalxalanma dövründə tarixi şücaət və qəhrəmanlıq göstərərək müstəqil dövlət qurmağa nail olmuşdular. Lakin dövr, zaman, tarix onların xeyrinə işləmirdi. Həmin rəhbərlər nə qədər ziyalı olsalar da, dövrün çətinliklərindən baş çıxararaq əsrlər boyu arzu və xəyala çevrilmiş azadlıq ideyalarını həyata keçirməyə çalışsalar da, onu öz əllərində axıradək saxlamağa müvəffəq olmadılar. Bunun başlıca səbəbi odur ki, həmin rəhbərlər ziyalı olsalar da, onların zəngin dövlətçilik təcrübəsi yox idi. Daha sonra, müstəqil dövlətçilik yaradılması baş tutsa da, dövrün sosial-ictimai hadisələrin fonunda milli şüur formalaşdırılmamışdı. Bunun nəticəsində də milli birlik, mütəşəkkillik və həmrəylik bərqərar edilməmişdi. Yeri gəlmişkən demək lazımdır ki, Demokratik Respublika rəhbərlərinin özlərinin arasında da milli birlik ideal səviyyədə deyildi. Başlıca səbəblərdən biri də bundan ibarət idi ki, həmin dövrdə Ümummilli lider məsələsi kimi son dərəcə vacib olan bir problem həll edilməmiş qalırdı. Buraya onu da əlavə etmək lazımdır ki, müharibədən sonra dünyanın yenidən bölüşdürülməsi həsrəti ilə quduzlaşan imperiya dövlətləri hər an gənc dövlətləri və başqa xalqları qəsb etmək üçün öz planlarını həyata keçirirdilər. Rusiyanın inqilab dalğası isə region üçün dəhşətli bir qasırğaya çevrilmişdi. Belə bir zamanda gənc Azərbaycan Demokratik Respublikası davam gətirə bilmədi, 23 aydan sonra süquta uğradı. Lakin tarixin ibrət dərsləri yaşadı. Keçilmiş yolun çətinlikləri sonrakı dövr üçün böyük bir təcrübə qazandırdı. Bu hadisələr Ümummilli liderimiz Heydər Əliyevin öz vaxtında göstərdiyi kimi, belə bir tarixi həqiqəti təsdiq etdi ki, azadlığı əldə etmək, onu saxlamaqdan daha asandır.

Azərbaycan Demokratik Respublikasının yaranması və süquta uğraması məsələləri barədə Ümummilli liderimiz Heydər Əliyev dərin təhlil apararaq göstərir: "Azərbaycanda 1918-ci ildə ilk Demokratik Respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərdə - həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir. Demokratik Respublika, onun liderləri Məhəmməd Əmin Rəsulzadə, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Eyni zamanda, onların fəaliyyətlərinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də Qızıl Ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, parlamentdə beş partiya iştirak edib. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar özü-özlüyündə bu dövlətin adına ləkə vurdu. Biz bundan ibrət almalıyıq. Biz o dövrü, o demokratik dövlətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq"[5].

Doğrudan da, bu təcrübə Azərbaycan cəmiyyətində təsirsiz qalmadı. 70 ildən sonra müstəqil dövlətçilik bərqərar olundu. Demək olmaz ki, müstəqil Azərbaycan Respublikasının yarandığı tarixi dövr və sosial-ictimai proseslər 1918-ci ildəkinə nisbətən daha asan olmuşdur. Əksinə, müstəqil Azərbaycan Respublikasının yarandığı 1990-cı illər dövrü daha təlatümlü,

[5] Heydər Əliyev. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxış. "Müstəqilliyimiz əbədidir". I. Bakı: 1997. s.153-154

daha çətin, daha mürəkkəb hadisələrlə dolu idi. Ancaq həmin dövrdə müstəqil dövlətçiliyin mövcud olması və yaşaması üçün vacib sayılan ilkin şərtlər ödənilmişdi. Belə bir şərait dahi rəhbərimiz Heydər Əliyev tərəfindən mərhələ-mərhələ, qətrə-qətrə hələ Sovet dövlətinin ən çətin, ən qorxulu çağlarında hazırlanmışdı. Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdən xalqımız üçün Ümummilli liderə çevrilmişdi. Bütövlükdə, Azərbaycan Respublikasının tarixində Heydər Əliyev mərhələsi xüsusi bir yer tutur.

Heydər Əliyevin Ümummilli lider kimi fəaliyyəti ilə Azərbaycan Respublikası öz müstəqilliyini bərqərar etdi və yaşatdı. Dövlətçilik ənənələri yarandı. Onun uzunömürlü olması üçün perspektiv proqram həyata keçirildi. Müstəqilliyin bərqərar olunması üçün onun ilkin şərtlərinin hazırlanması çox mühüm tarixi bir amildir.

İlkin şərtlərin hazırlanması üçün vacib cəhətlər sırasına ölkənin iqtisadiyyatının dirçəldilməsi, əhalinin firavan yaşayışının təmin olunması, milli mədəniyyətin qorunması və inkişaf etdirilməsi, tarixilik və müasirlik arasında qırılmaz varislik ənənələrinin bərqərar edilməsi və yaşadılması, mənəvi tərbiyənin əsaslarının yaradılması, həmçinin, ictimai şüurun formalaşdırılması kimi böyük tarixi əhəmiyyət daşıyan məsələlər daxildir.

Müstəqil dövlətçiliyin formalaşdırılması mərhələsində də ardıcıl olaraq, milli birlik, mütəşəkkillik, həmrəylik, ictimai sabitlik, iqtisadi inkişaf, ictimai şüurun milli şüura çevrilməsi və dövlətçiliyin idarə mexanizminin formalaşdırılması kimi mərhələlərin keçilməsi vacib şərtlərdəndir. Heydər Əliyevin siyasətində və diplomatiyasında bu iki mərhələ bir-birini məntiqi cəhətdən tamamlayır, faktiki cəhətdən isə həyatda reallıqla özünü təsdiq etdirir. Bu iki mərhələnin başa çatması isə yeni, üçüncü mərhələnin, iqtisadi inkişaf, ərazi bütövlüyünün qorunması və bərpası, çoxölçülü inteqrasiya, qloballaşma mərhələsində milli mənəviyyatın formalaşdırılması, milli iqtisadiyyatın yaradılması, dünyanın inkişaf etmiş ölkələri sırasında özünə layiqli yer tutması dövrünün başlanmasına gətirib çıxarır. Bütün bunlar müstəqillik dövrünün bəhrəsidir. Bu dövrün yaxşı dərk olunması üçün Heydər Əliyev mərhələsinin öyrənilməsi çox böyük əhəmiyyət daşıyır. Heydər Əliyevin fəaliyyətində bu mərhələlər müstəqilliyin təməlinin yaradılması və müstəqil dövlətçiliyin bərqərar olunması kimi tarixi bir dövr təşkil edir.

## ƏDƏBİYYAT

1. “Azərbaycan” qəzeti. 10 noyabr, 2001
2. “Azərbaycan” qəzeti. 1998-2002-ci illər
3. “Respublika” qəzeti. 1998-2002-ci illər
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: “Məruzə” 9-10 noyabr 2001
5. Heydər Əliyev. “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri”. Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979.
6. Heydər Əliyev. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxış. “Müstəqilliyimiz əbədidir”. I. Bakı: 1997, s.153-154
7. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998

## SUMMARY

**Sevinj Imanli**

## NATIONAL THINKING IN THE PHILOSOPHY OF INDEPENDENT STATEHOOD

At certain stages of history, an independent state structure existed in the territory of Azerbaijan. The states that existed in different periods in the territory of Azerbaijan were institutions that gained experience of independent statehood in history. those state institutions were more regional in character, could not be integrated and could not have a generalizing character for the Azerbaijani society. Therefore, in those state institutions, the national customs and traditions of the Azerbaijani people, acquired throughout history, and social-social processes were summarized, and one did not become the successor of the other. Therefore, those traditions were not formed as an ideology of Azerbaijaniism.

In the stage of formation of independent statehood, passing stages such as national unity, organization, solidarity, social stability, economic development, transformation of public consciousness into national consciousness, and formation of the management mechanism of statehood are important conditions.

***Key words:*** *regional, national unity, national consciousness, character, ideology, solidarity, social stability*

## РЕЗЮМЕ

**Севиндж Иманлы**

## НАЦИОНАЛЬНОЕ МЫШЛЕНИЕ В ФИЛОСОФИИ НЕЗАВИСИМОЙ ГОСУДАРСТВЕННОСТИ

На определенных этапах истории на территории Азербайджана существовала независимая государственная структура. Государства, существовавшие в разные периоды на территории Азербайджана, были институтами, накопившими в истории опыт независимой государственности. Эти государственные институты носили более региональный характер, не могли быть интегрированными и не могли носить обобщающий характер для азербайджанского общества. Поэтому в этих государственных учреждениях были обобщены приобретенные на протяжении всей истории национальные обычаи и традиции азербайджанского народа, социально-социальные процессы и одно не стало преемником другого. Поэтому эти традиции не сформировались как идеология азербайджанства.

На этапе становления независимой государственности важными условиями являются прохождение таких этапов, как национальное единство, организованность, солидарность, социальная стабильность, экономическое развитие, трансформация общественного сознания в национальное сознание, формирование механизма управления государственностью.

***Ключевые слова:*** *регион, национальное единство, национальное сознание, характер, идеология, солидарность, социальная стабильность*

**BƏHMAN KAZIMOV**
*kazimov-bahman@mail.ru*
*Gəncə Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

*Azərbaycanda milli dövlətçilik fəlsəfəsi qədim zamanlardan zərrə-zərrə yığılmış və tarixin müxtəlif mərhələlərində formalaşmışdır. Müstəqil dövlət çətinliklər bahasına əldə edilmişdi. Azərbaycan cəmiyyəti bu tarixi qələbəni əldə etmək üçün çox itkilər vermişdi. Ancaq bu tarixi zərurət labüd idi və öz məqamında da baş verdi. Müstəqillik və sərbəstlik ideyasının reallaşdırılması Heydər Əliyev tərəfindən elmi zəmin üzərində quruldu. Heydər Əliyevin böyüklüyü onda idi ki, o elmi siyasiləşdirmədi, siyasəti elmləşdirdi və qalib gəlmək yollarının əsaslarını yaratdı. Heydər Əliyev siyasəti qalib gəlmək elmi üzərində qururdu. Bu isə bütövlükdə müstəqil dövlətçilik yaranmasına və formalaşmasına zəmin yaradan başlıca amillərdən biri hesab olunmalıdır.*

***Açar sözlər:*** *dövlətçilik, fəlsəfə, müstəqil, çətinlik, məqam*

Azərbaycan Respublikasında müstəqil dövlətçilik mərhələsinin həyata keçməsi labüd idi və bu bir tarixi zərurət idi. Bu tarixi zərurətin bünövrəsi və təməli zamanın ayrı-ayrı mərhələlərində zərrə-zərrə qazanmışdı. Çətinliklər bahasına əldə edilmişdi. Azərbaycan cəmiyyəti bu tarixi qələbəni əldə etmək üçün çox itkilər vermişdi. Ancaq bu tarixi zərurət labüd idi və öz məqamında da baş verdi. Azərbaycan cəmiyyətinin zaman-zaman əldə etdiyi tarixi təcrübə Ümummilli və əbədi liderimiz Heydər Əliyev tərəfindən zənginləşdirildi və dərinləşdirildi. Cəmiyyətin azadlıq, müstəqillik və sərbəstlik ideyasının reallaşdırılması Heydər Əliyev tərəfindən elmi zəmin üzərində quruldu. Heydər Əliyevin böyüklüyü onda idi ki, o elmi siyasiləşdirmədi, siyasəti elmləşdirdi və qalib gəlmək yollarının əsaslarını yaratdı. Heydər Əliyev siyasəti qalib gəlmək elmi üzərində qururdu. Bu isə bütövlükdə müstəqil dövlətçilik yaranmasına və formalaşmasına zəmin yaradan başlıca amillərdən biri hesab olunmalıdır.

Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin banisi olmaqla Ümummilli lider kimi tarixin onun üzərinə qoyduğu vəzifəni çox böyük uğurla həyata keçirdi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqilliyini yenidən elan etdi. Azərbaycanda müstəqilliyin elan edilməsi, əslində, onun tarixi köklər üzərində bərqərar olunması demək idi. Müstəqillik elan olunduqdan sonra başlıca və ən vacib vəzifə onu qoruyub saxlamaqdan ibarət idi. Ancaq o zaman respublikaya rəhbərlik edən şəxslər müstəqilliyin qorunub saxlanması kimi dövrün ən mühüm problemi qarşısında öz tarixi vəzifələrini yerinə yetirməkdə acizlik göstərirdilər. Konkret ifadə ilə desək, müstəqillik o zaman hakimiyyətdə olan şəxslər tərəfindən mexaniki şəkildə elan edilmişdi. Müstəqillik onların tərəfindən qazanılmış və əldə edilmiş tarixi qələbə deyildi. Müstəqillik ideyası, bir tərəfdən qədim və tarixi köklərə malik idi. İkincisi, 1918-20-ci illərin təcrübəsi toplanmışdı, üçüncüsü və daha vacibi isə müstəqillik ideyası Heydər Əliyev tərəfindən mərhələ-mərhələ Azərbaycan cəmiyyətinə hopdurulmuşdu. 1991-ci ildə hakimiyyətdə olan şəxslər sadəcə tarixi şəraitin tələbini ödəmək milli lider və müstəqil dövlətçilik məcburiyyətində qalaraq onun elan edilməsi ilə öz işlərini başa çatdırmış oldular. Müstəqilliyin əsl mənası, onun çətin yolları

həmin dövrün rəhbərləri üçün dərkedilməz idi. Ona görə də onlar çaş-baş düşüb müstəqilliyi itirmək təhlükəsi ilə üz-üzə qalmışdılar.

1991-ci ildə müstəqilliyin elan edilməsi həqiqi mənada o zamankı rəhbərliyin qələbəsi deyildi. O zaman cəmiyyətdə mövcud olan müstəqillik ideyasının həyatda tətbiq edilməsi üçün tarixi bir məqam yetişmişdi. 1990-cı ildə Sovet dövləti kimi böyük bir imperiya iqtisadi cəhətdən dünyanın digər hegemon dövlətlərindən geri qalırdı. Buna görə də bu imperiya siyasi cəhətdən öz nüfuzunu itirməyə başlamışdı. Hər gün, hər saat, hər an aparılan Sovet ideologiyasının təbliğatı onun iqtisadi tənəzzülü ilə başa çatdı. Bu ideologiya gec-tez iflasa məhkum idi, çünki onun fəlsəfi bazası əsassız idi. Sovet ideologiyası marksist fəlsəfəsinə əsaslanırdı. Marksist fəlsəfə isə reallığa söykənmirdi. Bu fəlsəfə cəmiyyət həyatını reallıqda olduğu kimi canlandıra bilmirdi. Marksist fəlsəfə yaradıcı ideyaları rədd edirdi. Tarixdə şəxsiyyətin rolunu heçə endirdi. Materialist fəlsəfə cəmiyyətdə inqilabi çevrilişlərin rolunu daha da qabarıqlaşdırmaqla milli mədəniyyətlərin və ənənələrin varisliyini şübhə altında qoyurdu. Sovet ideologiyasının inqilab anlayışında əvvəlki ənənələrdən imtina edilirdi. Yeni ənənələrin yaradılması sabit bir bünövrəyə əsaslanmırdı. Sovet ideologiyasının əsaslandığı fəlsəfi təlim təbiət və cəmiyyət haqqındakı təsəvvürləri ayaq üstə yox, başı üstə qoymuşdu. Ona görə də bu təsəvvürlər daimi olaraq insanlara təlqin edilə bilməzdi. Həyat hadisələrini baş-ayaq təsəvvür edən fəlsəfi baza ictimai həyatda da hər şeyi alt-üst qoyurdu. Sovet ideologiyası cəmiyyətdəki bütün prosesləri tərsinə aparırdı. Dövlətçiliyin bünövrəsinin möhkəmləndirilməsini təmin edən ən əsas amillər həyati tələblərin ziddinə idi. Birincisi, iqtisadi inkişaf cəmiyyətin mənafeyinə olan tələb və təklifə görə, bazar iqtisadiyyatının tələblərinə uyğun tənzimlənmirdi. İqtisadiyyatda planlı təsərrüfat prinsipləri tətbiq edilirdi. Bu da regionların iqtisadi inkişafının intensivliyini uzun müddət ərzində təmin edə bilməzdi. Doğrudur, planlı təsərrüfat prinsipi üzrə bu və ya digər sahədə çətinliklər bahasına müəyyən uğurlar əldə edilirdi. Ancaq belə təsərrüfat prinsipi kənd təsərrüfatında və sənayedə intensiv, çevik və dinamik dəyişmələr aparmağa imkan vermirdi. Müəyyən müddət ərzində uğurlar olsa da, nəticədə iqtisadi durğunluq yaranmasına gətirib çıxarırdı.

İkincisi, milli mənəviyyat və milli mədəniyyət ənənələri süni şəkildə sıradan çıxmağa məhkum idi. Ona görə ki, Sovet dövründə cəmiyyətə formaca milli, məzmunca sosialist mədəniyyətinin formalaşdırılması prinsipi yeridilirdi. Bu o demək idi ki, mədəniyyətdə milli nə var idisə, formaya çevrilməyə məhkum olunmuşdu. Məzmunca sosialist mədəniyyəti isə əslində Sovet respublikalarının mədəniyyət həyatına rus mədəniyyətinin təlqin edilməsindən ibarət idi.

Mədəniyyət haqqındakı təsəvvürlər də marksist fəlsəfəsinə əsaslanan Sovet ideologiyasına uyğun şəkildə formalaşdırılırdı. Milli mədəniyyəti forma kimi tətbiq edən Sovet ideologiyasında milli mədəniyyət ənənələri öz-özünə aradan çıxmış olurdu. Sosialist mədəniyyətinin isə kökü yox idi. Sovet hakimiyyəti qurulduğu dövrdə intellektual elit təbəqə fiziki cəhətdən məhv edilirdi. İntellektual elit təbəqənin sıradan çıxması milli-mənəvi və mədəni ənənələri məhv edirdi. Yüksək mədəniyyətə malik aristokrat mənşəyi yox olub gedirdi. Onun yerini isə proletar mədəniyyəti tutmalı idi. Proletariat isə əslində yüksək mədəniyyəti və mədəni ənənələri davam etdirən təbəqə hesab oluna bilməzdi. Kökü olmayan bir mədəniyyətin Sovet dövlətinə daxil olan respublikaların sosial-ictimai və məişət həyatına tətbiq edilməsi ağlasığmaz bir iş idi.

Üçüncüsü, mənəvi tərbiyə məsələsinin düzgün qurula bilməməsində idi. Milli mədəniyyətin iflasa uğraması ilə insanlarda mənəvi tərbiyənin formalaşdırılması qətiyyən mümkün deyildi. Ona görə də, "müqəddəs sosialist vətəni" anlayışı əslində formal bir fraza şəklində qalırdı. Sovet dövründə istər əmək, istər mədəniyyət və istərsə də mənəvi tərbiyə amili icbari xarakter daşıyırdı. Bütün bunlar Sovet ideologiyasının özünü formal və icbari bir işə çevirmişdi. Sözsüz ki, bu formalizm uzun müddət davam edə bilməzdi və bu dövləti labüd bir iflas gözləyirdi. Məhz 1990-cı illərin əvvəlləri üçün bu mərhələ yetişmişdi. Belə bir mərhələdə Sovet imperiyası süquta uğradı və Azərbaycan Respublikası müstəqillik elan etmək üçün imkan qazandı.

Həmin dövrdə Azərbaycanda hakimiyyət əldən-ələ keçirdi. Əvvəlcə Ayaz Mütəllibov, sonra isə 1993-cü il iyunun 15-nə kimi AXC-Müsavat cütlüyü hakimiyyəti qəsb etmişdi. 1991-ci ildən 1993-cü ilədək olan qısa bir müddətdə iki dəfə hakimiyyət dəyişikliyi baş vermişdi. Ona görə ki, hakimiyyət başında olanlar müstəqillik dövrü hakimiyyəti üçün mənəvi, siyasi və ideoloji cəhətdən, eləcə də idarəçilik baxımından hazır deyildilər. Bir tərəfdən hakimiyyət iflasa uğrayırdı, digər tərəfdən isə müstəqilliyin və bütövlükdə dövlətçiliyin itirilməsi təhlükəsi baş verirdi. O dövrdə Azərbaycan Respublikasının üzləşdiyi bəlaların səbəblərini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

1) Milli birlik, mütəşəkkillik və həmrəylik yaradıla bilməmişdi;

2) Hakimiyyət başındakı şəxslər milli mənafelərə xidmət etmək əvəzinə öz şəxsi mənafelərinə üstünlük verirdilər;

3) Rəhbərlik edən şəxslərin dövlətçilik təcrübəsi yox idi. Hakimiyyət siyasət aləmində heç bir nüfuz qazanmamış adamların əlinə keçmişdi;

4) Hakimiyyətdə olan şəxslərin heç biri ümummilli lider səviyyəsinə yüksələ bilməmişdi.

Bütün bu arqumentlər onu göstərirdi ki, o zamankı rəhbərlər hakimiyyəti idarə etmək qabiliyyətindən çox-çox uzaq idilər. Bu zaman xalq öz müdrikliyini göstərdi. Hakimiyyətdə olan rəhbərlər xalqı iflasa apardığı üçün xalq onların arxasınca getmədi. Xalq öz üzünü azadlıq, sərbəstlik və müstəqillik ideyasını qətrə-qətrə, damcı-damcı cəmiyyətin həyatına, ideologiyasına və mənəviyyatına hopdurmuş Ümummilli lider Heydər Əliyevə çevirdi. Heydər Əliyev xalqı xilas etmək üçün çətin məqamda onun imdadına yetişdi. Heydər Əliyev ölkənin müstəqilliyini saxladı, xalqın həyatını qorudu. Heydər Əliyev çətinliklərə qalib gəldi. Heydər Əliyevin qələbəsinin başlıca səbəbləri bunlardan ibarət idi:

1) Azərbaycan cəmiyyətində qədim kökləri olan müstəqil dövlətçilik ideyaları və eləcə də 1918-20-ci illərdə yaradılmış Azərbaycan Demokratik Respublikasının tarixi təcrübəsi Heydər Əliyev tərəfindən çox böyük yaradıcılıqla ümumiləşdirilmişdi;

2) Azərbaycan cəmiyyəti Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu 1969-82-ci illərdə müstəqil dövlətçilik mərhələsinə mənəvi və psixoloji cəhətdən hazırlanmışdı. İctimai şüurun formalaşdırılaraq milli şüura çevrilməsi mərhələsi başa çatdırılmışdı;

3) Müstəqil dövlətçiliyin yaradılması və mövcudluğu Heydər Əliyevin fəaliyyətinin tarixi nəticəsi, bəhrəsi və məhsulu idi;

4) Müstəqil Azərbaycan dövlətçiliyini qoruyub saxlamaq üçün Heydər Əliyev tərəfindən milli birlik, mütəşəkkillik və həmrəylik yaradıldı. Heydər Əliyev tərəfindən cəmiyyət üzvləri arasında əqidə birliyi yaradıldı və formalaşdırıldı;

5) Heydər Əliyev siyasətində xalqın mənafeyi başlıca yer tuturdu.

## ƏDƏBİYYAT

1. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
2. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977
3. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979
4. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
5. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998

## SUMMARY

**Bahman Kazimov**

## HEYDAR ALIYEV AND THE PHILOSOPHY OF NATIONAL STATEHOOD

The philosophy of national statehood in Azerbaijan has been collected bit by bit since ancient times and was formed at different stages of history. The independent state was achieved at the cost of difficulties. Azerbaijani society suffered a lot to achieve this historical victory. However, this historical necessity was inevitable and happened in its time. The realization of the idea of independence and freedom was established by Heydar Aliyev on a scientific basis. The greatness of Heydar Aliyev was that he did not politicize science, he made politics scientific and created the foundations of ways to win. Heydar Aliyev built politics on the science of winning. This should be considered as one of the main factors that created the basis for the creation and formation of independent statehood as a whole.

***Key words:*** *statehood, philosophy, independent, difficulty, moment*

## РЕЗЮМЕ

**Бахман Кязимов**

## ГЕЙДАР АЛИЕВ И ФИЛОСОФИЯ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ

Философия национальной государственности в Азербайджане собиралась по крупицам с древнейших времен и формировалась на разных этапах истории. Независимое государство было достигнуто ценой трудностей. Азербайджанскому обществу пришлось немало пережить, чтобы добиться этой исторической победы. Однако эта историческая необходимость была неизбежна и произошла в свое время. Реализация идеи независимости и свободы была заложена Гейдаром Алиевым на научной основе. Величие Гейдара Алиева заключалось в том, что он не политизировал науку, он сделал политику научной и создал основы путей к победе. Гейдар Алиев построил политику на науке победы. Это следует рассматривать как один из основных факторов, создавших основу для создания и становления независимой государственности в целом.

***Ключевые слова:*** *государственность, философия, самостоятельность, трудность, момент*

**YEGANƏ MƏMMƏDOVA**
*yegana.mammadova68@mail.ru*
*Gəncə Dövlət Universiteti*

# İCTİMAİ TƏFƏKKÜRDƏ DÖVLƏTÇİLİK FƏLSƏFƏSİ

*Müstəqillik və azadlıq ideyaları və onun reallığa qovuşması hər bir xalqın milli və mənəvi sərvətidir. Ona görə də müstəqilliyə can atan hər bir xalq onun mənəvi payı kimi bu sərvətin sahibi olmaqda tam haqlıdır.*

*Tarixən cəmiyyətdə mövcud olmuş azadlıq və müstəqillik kimi böyük sərvət ictimai təfəkkürdə dərin iz qoya bilirsə, onun nə zamansa, həyati reallığa qovuşacağı da tamamilə məntiqi görünür. Dövlətçilik insan cəmiyyətinin mənafeyinə xidmət edirsə, milli ideologiya da dövlətçiliyin mənafelərinə xidmət göstərir. Münasibətlər şəxsi mənafelərə və cəmiyyətin ziddinə olan digər baxışlara doğru yönəlirsə, onda ideologiya öz milliliyini itirir, ayrı-ayrı sosial qrupların əlində alətə çevrilir, dövlətçilik isə süqut etməyə düçar olur.*

*Müstəqil dövlətçiliyin yaşamasını təmin edən vacib şərtlərdən biri də dövlətçiliyin idarəetmə mexanizminin yaradılmasıdır. Müstəqil dövlətçiliyin idarə olunması və onun fəaliyyətinin xalqın mənafeyinə yönəldilməsi üçün dövlətçiliyin idarəetmə mexanizminin yaradılması çox böyük əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *milli düşüncə, milli mənafe, milli mənlik, mənəviyyat, əxlaq, mədəniyyət, dövlətçilik, müstəqil*

Hər bir xalqın müstəqillik şəraitində azad yaşaması və suverenliyi, öz taleyini sərbəst şəkildə həll etmək imkanlarına malik olması onun istək və arzularının ülvi təcəssümüdür. Müstəqillik və azadlıq hər bir xalqın istəyidir. Müstəqillik həyatını yaşamaqda olan xalqlar şübhəsiz ki, onun əldən verilməsini heç zaman istəməzlər. Bu mənada müstəqillik uzun müddət ərzində başqalarının təsiri və nüfuzu altında olan xalqların şirin arzusu olmuşdur. Müstəqillik arzusu həm də o zaman daha güclü olur ki, xalq özünün keçmiş tarixində müstəqil həyatını yaşamış olsun, onun özünəməxsus böyük bir nüfuz dairəsi olsun.

Müstəqillik və azadlıq ideyaları və onun reallığa qovuşması hər bir xalqın milli və mənəvi sərvətidir. Ona görə də müstəqilliyə can atan hər bir xalq onun mənəvi payı kimi bu sərvətin sahibi olmaqda tam haqlıdır. Azərbaycan xalqının Ümummilli və əbədi lideri Heydər Əliyev göstərirdi ki, "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir"[6].

Müstəqillik və azadlıq ideyaları Azərbaycan xalqı üçün həmişə xoş bir arzu olmuşdur. Bu arzu əsrlərlə, illərlə Azərbaycan xalqının həyatında dərin iz qoymuşdur. Xalqın daim bu arzu ilə yaşaması heç zaman təsadüfi sayıla bilməz. Ona görə ki, ən qədim dövrlərdə bu xalq öz azadlığı və müstəqilliyi ilə böyük nüfuz sahibi olmuşdur. Tarixən türk xalqlarının Şərqdən Qərbə, Şimaldan Cənuba doğru yayılaraq məskunlaşması ümumtürk məkanında azərbaycanlıların da böyük nüfuz qazanmış olduğuna dəlalət edir.

---

[6] *Heydər Əliyev. Müstəqillik yolu. Tərtib edənlər. Şahlar Əsgərov. Salahəddin Xəlilov. Bakı: 1997. s.7*

Azərbaycan xalqının qədim folklor nümunələri, zəngin bədii yaradıcılıq irsi, nağıllar, dastanlar və eposlar bu günə qədər yaşayıb saxlanılmaqdadır. Bu zəngin irsin mövcudluğu onu göstərir ki, Azərbaycan xalqı qədim keçmişdə müstəqillik ənənələri ilə yaşamışdır. Məhz bu ənənələrin mövcudluğu şəraitində müdrik insanlar, ağıllı başçılar yetişmiş, onların həyatı və fəaliyyəti sənət ustalarının yaradıcılığı sayəsində nağıllaşaraq, dastanlaşaraq bu günümüzədək gəlib çatmışdır.

Azadlıq və müstəqillik ideyaları xalqın sosial-iqtisadi, mədəni və məişət həyatı ilə çox sıx bağlı olmuşdur. Ona görə də bu ideyalar daim ictimai təfəkkürdə özünə yer tapmışdır. Azadlıq və müstəqillik ideyaları ictimai təfəkkürdə nə qədər çox canlanırsa, onun həyata keçməyi də o qədər real görünür. Çünki həmin ideyalar ictimai təfəkkürdə canlandığı qədər də cəmiyyətin mənəvi sərvəti olur. Cəmiyyətdə münasib məqam yetişdiyi anda isə bu ideyaların həyata keçəcəyinə real imkanlar yaranır.

Tarixən cəmiyyətdə mövcud olmuş azadlıq və müstəqillik kimi böyük sərvət ictimai təfəkkürdə dərin iz qoya bilirsə, onun nə zamansa, həyati reallığa qovuşacağı da tamamilə məntiqi görünür. Bədii yaradıcılıq nümunələrində, folklor əsərlərində təcəssüm olunan azadlıq və müstəqillik ideyalarının ictimai təfəkkürdə canlanması onu deməyə əsas verir ki, həqiqətən Azərbaycan cəmiyyəti tarixən mövcud olmuş böyük və nüfuzlu bir dövlətçiliyin varisidir.

Azadlıq, sərbəstlik və müstəqillik ideyaları Azərbaycan cəmiyyətində XX əsrin əvvəllərində daha da böyük vüsət aldı. 1918-ci il mayın 28-də elan olunmuş müstəqil Azərbaycan dövlətçiliyi müsəlman şərqində ilk demokratik bir qurum kimi formalaşmağa başladı. Bu dövr çətin, gərgin ictimai-siyasi hadisələrlə dolu olan bir mərhələ idi. Birinci Dünya müharibəsi başa çatmışdı. Böyük dövlətlər dünyanın yenidən bölünməsi siyasətini həyata keçirməkdə idi. Digər tərəfdən isə Rusiyada inqilab baş vermişdi. Bu inqilabın məşum dalğaları bir çox xalqlar kimi Azərbaycan xalqının da həyatına öz təsirini göstərməyə bilməzdi. İnqilab çaxnaşması müharibə acısına, müharibə acısı isə imperiya hərislərinin acgözlüyünə və tamahkarlığına qarışmışdı. Gənc Azərbaycan dövlətçiliyi isə burulğanlar arasında çaxnaşmaya düşmüş bir gəmi timsalında idi.

Azərbaycan Demokratik Respublikasının başında duran rəhbərlər ziyalı insanlar idilər. Onların bir çoxu Rusiyada və Avropada təhsil almışdılar. Həmin rəhbərlər 1918-ci ilin çalxalanma dövründə tarixi şücaət və qəhrəmanlıq göstərərək müstəqil dövlət qurmağa nail olmuşdular. Lakin dövr, zaman, tarix onların xeyrinə işləmirdi. Həmin rəhbərlər nə qədər ziyalı olsalar da, dövrün çətinliklərindən baş çıxararaq əsrlər boyu arzu və xəyala çevrilmiş azadlıq ideyalarını həyata keçirməyə çalışsalar da, onu öz əllərində axıradək saxlamağa müvəffəq olmadılar. Bunun başlıca səbəbi odur ki, həmin rəhbərlər ziyalı olsalar da, onların zəngin dövlətçilik təcrübəsi yox idi. Daha sonra, müstəqil dövlətçilik yaradılması baş tutsa da, dövrün sosial-ictimai hadisələrin fonunda milli şüur formalaşdırılmamışdı. Bunun nəticəsində də milli birlik, mütəşəkkillik və həmrəylik bərqərar edilməmişdi. Yeri gəlmişkən demək lazımdır ki, Demokratik Respublika rəhbərlərinin özlərinin arasında da milli birlik ideal səviyyədə deyildi. Başlıca səbəblərdən biri də bundan ibarət idi ki, həmin dövrdə ümummilli lider məsələsi kimi son dərəcə vacib olan bir problem həll edilməmiş qalırdı. Buraya onu da əlavə etmək lazımdır ki,

müharibədən sonra dünyanın yenidən bölüşdürülməsi həsrəti ilə quduzlaşan imperiya dövlətləri hər an gənc dövlətləri və başqa xalqları qəsb etmək üçün öz planlarını həyata keçirirdilər. Rusiyanın inqilab dalğası isə region üçün dəhşətli bir qasırğaya çevrilmişdi. Belə bir zamanda gənc Azərbaycan Demokratik Respublikası davam gətirə bilmədi, 23 aydan sonra süquta uğradı. Lakin tarixin ibrət dərsləri yaşadı. Keçilmiş yolun çətinlikləri sonrakı dövr üçün böyük bir təcrübə qazandırdı. Bu hadisələr Ümummilli liderimiz Heydər Əliyevin öz vaxtında göstərdiyi kimi, belə bir tarixi həqiqəti təsdiq etdi ki, azadlığı əldə etmək, onu saxlamaqdan daha asandır.

Azərbaycan Demokratik Respublikasının yaranması və süquta uğraması məsələləri barədə Ümummilli liderimiz Heydər Əliyev dərin təhlil apararaq göstərir: "Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərdə - həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir. Demokratik Respublika, onun liderləri Məhəmməd Əmin Rəsulzadə, Fətəlixan Xoyski, Nəsib bəy Yusifbəyov, Məmmədhəsən Hacınski və başqaları çox böyük işlər görüblər. Eyni zamanda, onların fəaliyyətlərinin, ümumiyyətlə, uğursuzluğu təkcə ondan ibarət deyil ki, Azərbaycan 20-ci il aprel ayının 28-də Qızıl Ordu tərəfindən işğal olundu. Hələ həmin işğala qədər bu demokratik dövlət, demək olar, öz süqutuna gəlib çatmışdı. Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, parlamentdə beş partiya iştirak edib. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar öz-özlüyündə bu dövlətin adına ləkə vurdu. Biz bundan ibrət almalıyıq. Biz o dövrü, o demokratik dövlətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin proseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq"[7].

Doğrudan da, bu təcrübə Azərbaycan cəmiyyətində təsirsiz qalmadı. 70 ildən sonra müstəqil dövlətçilik bərqərar olundu. Demək olmaz ki, Müstəqil Azərbaycan Respublikasının yarandığı tarixi dövr və sosial-ictimai proseslər 1918-ci ildəkinə nisbətən daha asan olmuşdur. Əksinə, Müstəqil Azərbaycan Respublikasının yarandığı 1990-cı illər dövrü daha təlatümlü, daha çətin, daha mürəkkəb hadisələrlə dolu idi. Ancaq həmin dövrdə Müstəqil Dövlətçiliyin mövcud olması və yaşaması üçün vacib sayılan ilkin şərtlər ödənilmişdi. Belə bir şərait dahi rəhbərimiz Heydər Əliyev tərəfindən mərhələ-mərhələ, qətrə-qətrə hələ Sovet dövlətinin ən çətin, ən qorxulu çağlarında hazırlanmışdı. Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdən xalqımız üçün Ümummilli liderə çevrilmişdi. Bütövlükdə, Azərbaycan Respublikasının tarixində Heydər Əliyev mərhələsi xüsusi bir yer tutur.

Heydər Əliyevin Ümummilli lider kimi fəaliyyəti ilə Azərbaycan Respublikası öz

[7] *Heydər Əliyev. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxış. "Müstəqilliyimiz əbədidir", I, Bakı, 1997, s. 153-154*

müstəqilliyini bərqərar etdi və yaşatdı. Dövlətçilik ənənələri yarandı. Onun uzunömürlü olması üçün perspektiv proqram həyata keçirildi. Müstəqilliyin bərqərar olunması üçün onun ilkin şərtlərinin hazırlanması çox mühüm tarixi bir amildir.

İlkin şərtlərin hazırlanması üçün vacib cəhətlər sırasına ölkənin iqtisadiyyatının dirçəldilməsi, əhalinin firavan yaşayışının təmin olunması, milli mədəniyyətin qorunması və inkişaf etdirilməsi, tarixilik və müasirlik arasında qırılmaz varislik ənənələrinin bərqərar edilməsi və yaşadılması, mənəvi tərbiyənin əsaslarının yaradılması, həmçinin, ictimai şüurun formalaşdırılması kimi böyük tarixi əhəmiyyət daşıyan məsələlər daxildir.

Müstəqil dövlətçiliyin formalaşdırılması mərhələsində də ardıcıl olaraq, milli birlik, mütəşəkkillik, həmrəylik, ictimai sabitlik, iqtisadi inkişaf, ictimai şüurun milli şüura çevrilməsi və dövlətçiliyin idarə mexanizminin formalaşdırılması kimi mərhələlərin keçilməsi vacib şərtlərdəndir. Heydər Əliyevin siyasətində və diplomatiyasında bu iki mərhələ bir-birini məntiqi cəhətdən tamamlayır, faktiki cəhətdən isə həyatda reallıqla özünü təsdiq etdirir. Bu iki mərhələnin başa çatması isə yeni, üçüncü mərhələnin, iqtisadi inkişaf, ərazi bütövlüyünün qorunması və bərpası, çoxölçülü inteqrasiya, qloballaşma mərhələsində milli mənəviyyatın formalaşdırılması, milli iqtisadiyyatın yaradılması, dünyanın inkişaf etmiş ölkələri sırasında özünə layiqli yer tutması dövrünün başlanmasına gətirib çıxarır. Bütün bunlar müstəqillik dövrünün bəhrəsidir. Bu dövrün yaxşı dərk olunması üçün Heydər Əliyev mərhələsinin öyrənilməsi çox böyük əhəmiyyət daşıyır. Heydər Əliyevin fəaliyyətində bu mərhələlər müstəqilliyin təməlinin yaradılması və müstəqil dövlətçiliyin bərqərar olunması kimi tarixi bir dövr təşkil edir.

**SUMMARY**

**Yegane Mammadova**

**THE PHILOSOPHY OF STATEHOOD IN PUBLIC THINKING**

The ideas of independence and freedom and its realization are the national and moral wealth of every nation. Therefore, every nation striving for independence has the full right to own this wealth as its moral share. If such a great wealth as freedom and independence, which has historically existed in society, can leave a deep mark on public thinking, it seems completely logical that it will become a reality at some point.

If statehood serves the interests of human society, national ideology also serves the interests of statehood. If the relations are directed towards personal interests and other views that are against the society, then the ideology loses its nationality, becomes a tool in the hands of individual social groups, and statehood falls.

One of the important conditions that ensure the existence of an independent state is the creation of a state management mechanism. In order to manage the independent statehood and direct its activities to the interests of the people, it is of great importance to create a statehood management mechanism.

***Key words:*** *national thought, national interest, national identity, spirituality, morality, culture, statehood, independent*

## РЕЗЮМЕ

**Егане Мамедова**

## ФИЛОСОФИЯ ГОСУДАРСТВЕННОСТИ В ОБЩЕСТВЕННОМ МЫШЛЕНИИ

Идеи независимости и свободы и их реализация являются национальным и нравственным богатством каждого народа. Поэтому каждая нация, стремящаяся к независимости, имеет полное право владеть этим богатством как своей моральной долей.

Если такое великое богатство, как свобода и независимость, исторически существовавшее в обществе, способно оставить глубокий след в общественном мышлении, то вполне логично, что в какой-то момент оно станет реальностью.

Если государственность служит интересам человеческого общества, то и национальная идеология служит интересам государственности. Если отношения направлены на личные интересы и иные взгляды, противоречащие обществу, то идеология теряет свою национальность, становится инструментом в руках отдельных социальных групп, государственность падает.

Одним из важных условий, обеспечивающих существование независимого государства, является создание механизма государственного управления. Для управления независимой государственностью и направления ее деятельности на интересы народа большое значение имеет создание механизма управления государственностью.

***Ключевые слова:*** *национальная мысль, национальный интерес, национальная идентичность, духовность, нравственность, культура, государственность, независимость*

**NƏRGİZ RƏSULOVA**
*nararasulova@bk.ru*
*Gəncə Dövlət Universiteti*

# İCTİMAİ-FƏLSƏFİ FİKİRDƏ MİLLİ MƏNAFE

*Heydər Əliyev cəmiyyətdə ictimai şüurun yetkinləşməsi prosesində əxlaq tərbiyəsi amilinə həmişə böyük diqqət yetirmişdir. Ümummilli lider Sovet rejiminin totalitar ideoloji təbliğatı dövründə də cəmiyyət həyatında mənəvi tərbiyənin rolundan danışmış, Azərbaycan cəmiyyətini milli maraqlara, mənəvi-psixoloji xidmətə, müstəqil dövlətçilik mərhələsinə hazırladı. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyini görür və müstəqil dövlətçilik zəminində şəxsiyyətdə yüksək mənəvi keyfiyyətlərə yiyələnməyi zəruri hesab edirdi. Mənəvi tərbiyəni ideoloji işin tərkib hissəsi kimi dəyərləndirən Heydər Əliyev gənclərə müraciət edərək onların vətənpərvərlik ruhunda böyüməsini, Azərbaycanın gələcəyini düşünməyi, Vətənin inkişafı naminə öz səy və bacarıqlarını birləşdirməyi tövsiyə etdi. Müasir ədəbiyyatı, mədəniyyəti, sənət əsərlərini milli sərvətimizin varisləri hesab edən Ümummilli lider onların ictimai şüurun yetkinləşməsində mühüm rol oynadığını vurğulamışdır.*
***Açar sözlər:*** *Azərbaycan, ictimai şüur, əxlaqi tərbiyə,milli maraqlar*

Qədim və zəngin milli mədəniyyətin mövcudluğu, sonrakı dövrlərdə bu mədəni ənənələrin varisliyinin saxlanılması və inkişaf etdirilməsi ictimai fikrin formalaşdırılması, ictimai şüurun canlandırılması və nəticədə onun milli şüura çevrilərək milli ideologiya səviyyəsinə çatdırılmasının zəminini, bazasını və bünövrəsini təşkil edir. Bütün bunlar Heydər Əliyevin iti zəkası və uzaqgörən siyasətinin bəhrəsidir. Heydər Əliyev tərəfindən hələ ciddi, sərt Sovet rejimi dövründə asası qoyulan bu siyasətin bəhrəsi müstəqillik dövründə bütün reallığı ilə ictimai həyatda öz təsdiqini tapdı. Müstəqil dövlətçilik quruluşu mərhələsində bu Heydər Əliyevin siyasi fəaliyyətinin möhtəşəm qələbələrindən biri kimi öz həyati reallığını təsdiq etdi.

Heydər Əliyev cəmiyyətdə ictimai şüurun yetkinləşməsi prosesində mənəvi tərbiyə amilinə çox böyük diqqət yetirmişdir. Mənəvi tərbiyə olması, əslində, iqtisadi dirçəliş və milli-mədəni inkişaf amili ilə sıx bağlı bir anlayışdır. Çünki mənəvi tərbiyənin bazasında iqtisadi dirçəliş və mədəni inkişaf durduğu kimi onun arxasında da vətənpərvərlik amili dayanır. Başqa sözlə, həyatda qazanılmış bütün insani keyfiyyətlər bilavasitə, mənəvi tərbiyə və vətənpərvərlik duyğusu ilə özünün mütərəqqi rolunu təsdiq edir. Ona görə də mənəvi tərbiyə bütövlükdə iqtisadi dirçəliş və mədəni inkişaf amillərini sosial, ictimai və məntiqi-psixoloji cəhətdən tamamlayır.

Heydər Əliyev bütövlükdə Azərbaycan cəmiyyətini sərbəst idrak və düşüncə bazasına, müstəqil dövlətçilik mərhələsinə hazırlayırdı. Ulu öndər cəmiyyət naminə xidmət göstərməyi yeni ictimai əxlaq norması kimi qiymətləndirərək göstərirdi: "Yeni ictimai əxlaqın bərqərar olması bizim çox böyük nailiyyətimizdir. Cəmiyyətin həyatında mənəvi amillərin rolunun daha da güclənməsi irəliyə doğru hərəkətimizi sürətləndirir. Cəmiyyətimizin mənəvi yüksəlişi təcrübəsinin çox böyük əhəmiyyəti vardır" (1, s.12).

Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyini görürdü və müstəqil

dövlətçilik zəminində şəxsiyyətin yüksək əxlaqi normalara yiyələnməsini zəruri hesab edirdi: "Şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərinin formalaşması, onun hərtərəfli və ahəngdar inkişafının çox mühüm bir cəhətidir. Tərk edilmiş və insanların davranışında öz təcəssümünü tapmış əxlaq prinsipləri onları yüksəldir, həyatı dərin ictimai məna ilə zənginləşdirir. Bizim mənəviyyatımız ictimai mənafe ilə şəxsi mənafeyi qırılmaz tellərlə bir-birinə bağlayır, insana xalqın səadəti uğrunda mübarizədə fəal mövqe tutmaqda kömək edir" (1, s.14-15).

Heydər Əliyev mənəvi tərbiyəni ideoloji işin tərkib hissəsi kimi dəyərləndirərək, mənəvi tərbiyəni ictimai şüurun milli şüura çevrilməsinin bazası hesab edirdi. Eyni zamanda, ona görə təşəkkül tapmış milli şüur ideologiyanı yaradırdı. Buradan belə bir məntiqi nəticə meydana çıxır ki, milli şüura, milli ideologiyaya yiyələnmək üçün mənəvi tərbiyə aparıcı yer tutur. Məhz milli ideologiya, mənəvi tərbiyənin nəticəsi hesab edilən vətənpərvərlik mühitinin yaranması şəraitində öz təsdiqini tapa bilərdi.

Heydər Əliyev bununla əlaqədar göstərirdi: "İdeoloji işin tərkib hissəsi olan mənəvi tərbiyə həyatın bütün sahələrinin inkişafına, ictimai istehsalın səmərəliliyinə fəal təsir göstərməlidir. Elə etmək lazımdır ki, əmək, təhsil, asudə vaxt, ailə-məişət münasibətləri, bir sözlə, bütün həyat sahələri ideya məzmunu ilə zəngin olsun" (1, s.16).

Ulu Öndər yüksək əxlaqa, nümunəvi mənəviyyata malik olan şəxsiyyəti fəal həyat mövqeyi tutan insanlar kimi qiymətləndirirdi. Heydər Əliyevin fəal həyat mövqeli insan obrazı, təkcə yüksək mənəviyyata malik insan kimi yox, həm də əzmkar, təşəbbüskar, işgüzar əməkdə, təhsildə və fəaliyyətin ayrı-ayrı sahələrində qələbələr əldə edən vətənpərvər bir şəxsiyyət təsəvvürü yaradırdı. O, müstəqil dövlətimizin quruluşu üçün belə insanların formalaşmasına və onların fəaliyyət göstərməsinə böyük əhəmiyyət verirdi. Heydər Əliyev təlimində şəxsiyyətin fəal mövqeyi anlayışı insanların cəmiyyət qarşısındakı mənəvi borcunun dərk edilməsi kimi canlandırılır: "Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini və keyfiyyətlərini ifadə edərək insana yeni-yeni məsələləri irəli sürüb həll etməyə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir. Fəal həyat mövqeyi kütlələrin ideya-mənəvi tərbiyəsinin səmərəliliyinin ümumiləşdirici göstəricisidir, şəxsiyyətin mənəvi keyfiyyətlərini yoxlamaq üçün ən təsirli bir vasitədir" (1, s.16-17).

Heydər Əliyev təlimində insanların fəal həyat mövqeyinin canlandırılmasında təbliğat aparıcı rol oynayırdı. Təbliğat nəyisə təsdiq etmək, nə isə nəzəri cəhətdən əsaslandırmaq üçün deyil, insanların marağını zəhmətə, əməyə, yaradıcılığa, həyatda yeniliklərə, nailiyyətlər əldə etməyə yönəltmək, bir sözlə, həyatın bütün fəaliyyət sahələrini canlandırmaq üçün lazımdır. Heydər Əliyev Sovet təbliğatının güclü olduğu dövrlərdə Azərbaycan cəmiyyətini maddi, mənəvi, psixoloji cəhətdən ayağa qaldırıb onu müstəqilliyə doğru irəli aparmaq üçün lazım olan təbliğatı zəruri sayırdı. O qeyd edirdi ki, "İdeoloji iş biliklərin bütöv bir elmi dünya görüşünə, hər bir adamın düşünmək və hərəkət etmək kimi şüurlu tələbatına çevrilməsinə kömək etməlidir. Aydındır ki, buna təkcə bir təbliğatla nail olmaq mümkün deyildir. Zəhmətkeşlərin əmək coşğunluğu, təşəbbüskarlığı, ictimai-siyasi fəallığı və sosial yaradıcılığının, nəticə etibarı ilə şəxsiyyətin mənəvi cəhətdən çiçəklənməsinin bol-bol bəhrə verməsi üçün ən səmərəli yol nəzəriyyə ilə praktikanın vəhdətindən, sosial-iqtisadi və ideya-

əxlaqi vəzifələrin kompleks şəkildə yerinə yetirilməsindən ibarətdir" (1, s.29-34).

Mənəvi tərbiyə, mənəvi psixoloji yetkinlik və bunun bazasında ictimai şüurun formalaşdırılması, cəmiyyətin bütün üzvləri üçün vacib və zəruri olan amillərdəndir. Bununla birlikdə Heydər Əliyev cəmiyyətdə gənclərin yaradıcı və qurucu rolunu daim yüksək qiymətləndirmişdir. Gəncləri həyatın aparıcı qüvvəsi hesab edən Ulu öndər, onların ideya-siyasi tərbiyəsi ilə ciddi məşğul olmaq sahəsində pedaqoji kollektivlərin fəaliyyətinə xüsusi diqqət yetirmişdir. Heydər Əliyev göstərirdi: "Pedaqoji kollektivdə mənəvi-psixoloji mühit nə qədər yaxşı olsa, bu vəzifələr o qədər müvəffəqiyyətlə yerinə yetirilə bilər. Respublikamızın məktəblərinin çoxunda bu mühiti tərbiyəçilərin özlərinin yüksək peşə səviyyəsi, onların ideya inamı, baxışlarının möhkəmliyi, maraq genişliyi, vicdanlı və prinsipial olması səciyyələndirir. Biz uşaqlar və gənclər üçün mənəvi saflıq və işə sədaqətli münasibət nümunəsi olan müəllimlərə dərin hörmət bəsləyirik. Gənclərin ideya-siyasi tərbiyəsində ali məktəb mühüm yer tutur. Yüksək dərəcədə, hazırlıqlı mütəxəssislər, ideya cəhətcə mətanətli mübarizlər yetişdirməkdə ali məktəbin xidmətləri böyükdür. Məhz onlar var qüvvəsini, bacarıq və təcrübəsini cəmiyyətimizin gələcək inkişafına sərf edən ziyalıların ən yaxşı hissəsini təşkil edirlər" (1, s.36-37).

Heydər Əliyev gənclərə müraciət edərək, onlara vətənpərvərlik ruhunda böyüməli olduqlarını, Azərbaycanın gələcəyi haqqında düşünərək öz səylərini və bacarıqlarını Vətənin inkişafı naminə birləşdirmələrini tövsiyə edirdi.

Müstəqillik cəmiyyətdə sosial-iqtisadi inkişafın, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasının, dünya iqtisadiyyatına, elm və mədəniyyətə inteqrasiyanın baş verməsinin təməli, bünövrəsidir. Cəmiyyətdə müstəqilliyin təməlinin yaranmasının tarixi təcrübəsi respublikamızda Ümummilli liderimiz Heydər Əliyevin fəlsəfi fəaliyyəti timsalında bütün parlaqlığı ilə təcəssüm olunur. Müstəqilliyin təməl mərhələsinin yaranmasını bu tarixi təcrübənin əsasında araşdırdıqda belə nəticəyə gəlmək olur ki, həmin mərhələni şərtləndirən amillər bilavasitə, iqtisadi dirçəliş, milli-mənəvi keyfiyyətlərin qorunub saxlanması və mənəvi tərbiyə ilə sıx bağlıdır. Bu üç başlıca amil insanlarda ictimai şüurun formalaşdırılması, cəmiyyətdə milli mənafe psixologiyasının yaradılması üçün zəruridir. Bu halda milli şüurun canlandırılmasına nail olmaq mümkündür. Şübhəsiz, Sovet quruluşunun kəskin vaxtlarında, marksist ideologiyasının olduqca intensiv təbliğatı dövründə ictimai şüuru canlandıraraq onun milli şüura çevrilməsinə nail olmaq çox çətin, qorxulu bir iş idi. Buna dərin ağıl, idrak, uzaqgörənlik, siyasi səriştə, diplomatik çeviklik, şəxsi cəsarətlilik və vətənpərvərlik tələb olunurdu. Bütün bu keyfiyyətlər isə dərindən-dərinə Heydər Əliyev şəxsiyyətində cəmləşmişdi. Azərbaycan cəmiyyətinin xoşbəxtliyi də məhz bunda idi.

Cəmiyyətdə ictimai şüurun formalaşdırılması üçün isə insanların sosial problemlərinin həlli olduqca vacib məsələlərdən birinə çevrilmişdi. Bu məsələnin həll olunması ilə bir tərəfdən əhalinin firavan yaşayışı təmin olunur, digər tərəfdən ictimai şüuru canlandırılırdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər) Azərbaycan iqtisadiyyatının dirçəldilməsi sahəsində əldə etdiyi nailiyyətlər nəticəsində, 1970-82-ci illərdə respublikamız, sənaye və kənd təsərrüfatı sahəsində o zamankı ittifaq göstəricilərini qabaqlamışdı. Respublikada sənaye istehsalı 2,7, xalq istehlakı malları istehsalı 3 dəfə, sənayedə əmək məhsuldarlığı 2,5 dəfə, fondverimi 25 faiz çoxalmışdı. Bu o deməkdir ki,

cəmi 13 il müddətində respublikada 101,5 milyard manatlıq məhsul istehsal edilmişdi. Eyni zamanda, həmin illər ərzində Azərbaycanda 12 milyard kubmetr qaz, 14 milyon ton neft istehsal olunmuşdu.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1970-1980-ci illərdə qaz sənayesi ilə birlikdə kimya sənayesi də sürətlə inkişaf edirdi. Bu dövrdə həm bir sıra yeni məhsullar istehsal edilir, həm də mövcud texnoloji proseslər yenidən qurularaq təkmilləşdirilirdi. 1970-ci illərdə kimya müəssisələri üçün avadanlıqların hazırlanması və onların təmiri işini yaxşılaşdırmaq məqsədi ilə Sumqayıtda Mexaniki Təmir Zavodu işə salındı. Səlyan şəhərində Plastik Kütlələr Emalı Zavodu tikilib istifadəyə verildi. Avropada ən iri müəssisələrdən biri olan Yod-Brom Zavodu Neftçala şəhərində inşa olunmağa başladı. 1980-ci ildə illik gücü 45 min ton olan “Sintezkauçuk” zavodu işə başladı. 1980-ci illərin əvvəllərində məhsuldarlığı ildə 120 min ton olan yüksək təzyiqli polietilen zavodu inşa edildi. 1970-ci illərdə “Üzvi sintez” zavodu tam inkişaf mərhələsi keçdi.

1972-ci il ərzində 40 min ton məhsuldarlığı olan benzol istehsalına başlanıldı. 1982-ci ildə zavodda yenidənqurma işləri aparıldı. Burada Gəncə Alüminium Zavodunu xammalla təmin etmək üçün məhsuldarlığı ildə 110 min ton olan kalium qələvisi istehsalatı yaradıldı.

Sovet dövründə respublika əhalisinin sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşdırılması və onun ittifaq göstəricilərini ötüb keçməsi dövlətin siyasi mövqeyi cəhətdən nə qədər problemlər yarada bilsə də, Heydər Əliyevin uzaqgörən siyasəti bütün maneələri üstələyirdi, respublika inkişaf edirdi. İqtisadiyyatın artım sürəti Azərbaycan Respublikasını başqa ittifaq respublikalarının səviyyəsindən fərqləndirirdi.

Heydər Əliyev fəallar yığıncağındakı çıxışında, hər bir hesabat məruzəsində əməkçiləri ruhlandırır, insanların inam hissini psixoloji cəhətdən daim artırırdı. Bütün bunlar, sözsüz ki, insanların əhvali-ruhiyyəsinə yaxşı təsir göstərir, onların əmək qabiliyyətini artırır, sabaha inamı gücləndirir, müstəqil düşüncə qabiliyyətini və işə sərbəst yanaşma imkanlarını qat-qat canlandırırdı. Bu isə sosial cəhətdən insanların həyati tələbatının ödənilməsinə yönəldiyi kimi onların fiziki sağlamlığına da çox yaxşı təsir edirdi. Heydər Əliyev bütün çıxışlarında dönə-dönə bəyan edirdi ki, Azərbaycan Respublikasında ayrı-ayrı sahələr üzrə iqtisadi göstəricilər ittifaq səviyyəsindən üstündür, başqa respublikaların göstəricilərindən irəlidədir. Bu isə o demək idi ki, Azərbaycan xalqı qələbələr əldə etməyə qadirdir, yaxşı yaşamağa layiqdir, qarşıda duran bütün çətin vəzifələrin yerinə yetirilməsinə hazırdır.

Ümummilli lider müasir dövr ədəbiyyatını, mədəniyyətini və incəsənət nümunələrini milli sərvətimizin varisi hesab etməklə, ictimai şüurun yetkinləşməsində onların mühüm rol oynadığını xüsusi olaraq diqqətə çatdırırdı. “Müasir Azərbaycan ədəbiyyatında cərəyan edən proseslər mühüm və diqqətəlayiq proseslərdir: onlar özləri ilə yenilik gətirir. Bədii söz sənətkarlarının gerçəkliyi daha dolğun əhatə etməyə, həyatı daha dolğun şəkildə təsvir etməyə, adamlar və zaman haqqında həqiqəti bər-bəzəksiz deməyə səy göstərdiklərini xüsusilə nəzərə çarpdırmaq istəyirəm. Azərbaycan xalqının ən əsas, ümdə arzu və istəkləri, ən nəcib əməlləri bədii əsərlərdə getdikcə daha tez-tez və daha dərindən təsvir olunur. Yazıçılar irəliyə doğru hərəkətlərimizin obyektiv tələblərini, perspektivli meyillərini əks etdirməklə bütün Azərbaycan mədəniyyətinin daha da inkişafına kömək göstərirlər”.

Beləliklə də, Ulu öndər Heydər Əliyev ictimai şüurun formalaşmasında bədii söz sənətinə çox böyük əhəmiyyət verir, sözün təsiredici qüvvəsindən sənətkarlıqla istifadə olunmasını yazıçı və şairlərimizə tövsiyə edirdi.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979
2. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
3. Mirzəzadə R. Azərbaycan dünyaya saydıran insan. Bakı: 1998
4. "Azərbaycan" qəzeti, 10 noyabr, 2001
5. "Azərbaycan" qəzeti. 1998-2002-ci illər.
6. "Respublika" qəzeti. 1998-2002-ci illər.
7. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: 9-10 noyabr. 2001-ci il. "Məruzə"
8. Ələmşahov B., Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
9. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977

## SUMMARY

**Nargiz Rasulova**

## NATIONAL INTEREST IN PUBLIC PHILOSOPHICAL THOUGHT

Heydar Aliyev has always paid great attention to the factor of moral education in the process of maturing public consciousness in society. The national leader spoke about the role of spiritual education in the life of society and during the period of totalitarian ideological propaganda of the Soviet regime, prepared the Azerbaijani society for spiritual and psychological service to national interests, for the stage of independent statehood. Heydar Aliyev saw the future independence of the Azerbaijani statehood and considered it necessary to master the high spiritual qualities of a person on the basis of independent statehood. Heydar Aliyev, who values spiritual education as an integral part of ideological work, addressed the youth and advised them to grow up in the spirit of patriotism, think about the future of Azerbaijan, combine their efforts and skills in the name of the development of the Motherland. The national leader, who considers modern literature, culture, and works of art to be the heirs of our national wealth, stressed that they play an important role in the development of public consciousness.

***Key words:*** *Azerbaijan, social consciousness, moral education, national interest*

**РЕЗЮМЕ**

**Наргиз Расулова**

**НАЦИОНАЛЬНЫЙ ИНТЕРЕС К ОБЩЕСТВЕННОЙ ФИЛОСОФСКОЙ МЫСЛИ**

Гейдар Алиев всегда уделял большое внимание фактору нравственного воспитания в процессе созревания общественного сознания в обществе. Общенациональный лидер говорил о роли духовного воспитания в жизни общества и в период тоталитарной идеологической пропаганды советского режима, готовил азербайджанское общество к духовно-психологической службе национальным интересам, к этапу независимой государственности. Гейдар Алиев видел будущую независимость Азербайджанской государственности и считал необходимым овладение высокими духовными качествами личности на основе независимой государственности. Гейдар Алиев, который ценит духовное воспитание как составную часть идеологической работы, обратился к молодежи и посоветовал ей расти в духе патриотизма, думать о будущем Азербайджана, объединять свои усилия и навыки во имя развития Родины. Общенациональный лидер, считающий современную литературу, культуру, произведения искусства наследниками нашего национального богатства, подчеркнул, что они играют важную роль в развитии общественного сознания.

***Ключевые слова:*** *Азербайджан, общественное сознание, нравственное воспитание, национальный интерес*

**AFƏRİM TAĞIYEVA**
*tagiyevaaferim@gmail.com*
*Gəncə Dövlət Universiteti*

## AZƏRBAYCANÇILIQ FƏLSƏFƏSİNDƏ MİLLİ ŞÜUR

*Heydər Əliyev göstərirdi ki, mənəvi tərbiyə amili şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərə malik olması ilə sıx bağlıdır. Şəxsiyyətin yüksək əxlaqi normalara malik olması onda vətənpərvərlik hissi yaradılmasının başlıca amilidir.*

*Nə qədər ki, xalq öz dövlətçiliyinə malik deyil, həmin dəyərlər dərk edilməmiş qalır, milli psixologiyanın alt qatını təşkil edir. Müstəqil dövlətçilik isə milli psixologiya zəminində yetişmiş milli ideologiyanın mənimsənilməsini zəruriləşdirir. Milli ideologiya dövlətin və dövlətçiliyin yaşamasını, inkişafını və güclənməsini təmin edir.*

*Heydər Əliyev milli ideologiyamızın formalaşmasında azərbaycançılıq ideyalarına yiyələnməyi zəruri amillərdən biri sayır. Beləliklə, azərbaycançılığın başlıca parametrləri aşağıdakılardan ibarətdir; dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər. Azərbaycançılıq ilkin bir anlayış olmaqla dövlətçiliyin sabitləşməsinə, möhkəmlənməsinə və çiçəklənməsinə, dilimizin qorunub saxlanılmasına və zənginləşməsinə, milli-mənəvi dəyərlərimizin mənimsənilməsinə və dünya sivilizasiyası ilə inteqrasiyasına, eləcə də insanlarda milli vətənpərvərlik hisslərinin formalaşmasına xidmət edən zəruri şərtlər kompleksidir.*

***Açar sözlər:*** *dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər, sivilizasiya, inteqrasiya, mənəvi tərbiyə*

Azərbaycançılıq və onun fəlsəfi, sosial, tarixi, psixoloji, milli, mədəni və digər tərifləri barədə mətbuatda müxtəlif cür rəylər vardır. Bütün bu rəylərdə, fikir və mülahizələrdə bir cəhət əsasdır ki, azərbaycançılıq milli mənafelərimizə xidmət nümunəsidir. Azərbaycançılıq milli varlığımız, mövcudluğumuz, dilimiz, mədəniyyətimiz, mənəviyyatımız, vətənpərvərlik keyfiyyətlərimizdir. Azərbaycançılığı bilmək, öyrənmək, duymaq, mənimsəmək və həyata, milli ideologiyamıza tətbiq və şamil etmək üçün Heydər Əliyev təlimini öyrənmək lazımdır. Biz artıq, müstəqil dövlətçiliyimizin dördüncü onilliyini yaşayırıq. Müstəqil yaşamaq, milli dövlətçiliyi inkişaf etdirmək, milli adət və ənənələri qoruyub saxlamaq və zənginləşdirmək, onu gələcək nəsillərə çatdırmaq hər zaman xalqımızın tarixi idealı olmuşdur. Bu ideal uzun müddət şirin bir arzu kimi ürəklərdə yaşaya-yaşaya yalnız XX əsrin sonuncu onilliyində həqiqətə çevrildi. Artıq biz elə bir tarixi mərhələyə yetişmişik ki, xalqımıza məxsus ümumbəşəri ideyaların bir tərəfdən dünya sivilizasiyasına inteqrasiya olunmasını, digər tərəfdən, dünya sivilizasiyasının ən yaxşı ənənələrinin milli zəmində mənimsənilməsini təmin etmək gərəkdir. Azərbaycan cəmiyyəti dünyaya Nizami, Tusi, Füzuli, Nəsimi, Bəhmənyar, Xətayi kimi ümumbəşəri ideyalar bəxş etmiş dahi şəxsiyyətlər, Qazan Xan, Koroğlu, Babək, Cavanşir kimi qəhrəmanlar, böyük alimlər, mütəfəkkirlər vermişdir. Müstəqil dövlətçilik ənənələri yarandıqca və inkişaf etdikcə bu böyük dühaların dünya sivilizasiyasına verdiyi töhfələr daha aydın şəkildə görünməyə başlayır.

Həmçinin müstəqil dövlətçilik mərhələsində dünyadakı ümumbəşəri ideyalardan

milli zəmində necə bəhrələnməyin konkret yolları və üsulları da gerçəkləşməyə başlayır. Müstəqil dövlətçilik bunun üçün real və münbit bir zəmin yaradır.

Dövlətin müstəqil, azad yaşaması üçün bir çox amillər vacibdir. Bu amillərin ən başlıcası, dövlətçiliyin ideoloji bazasının yaradılmasından və formalaşdırılmasından ibarətdir. Həmin baza, hər şeydən əvvəl, uzun tarixi dövrlər ərzində xalqın psixologiyasında yetişən və cilalanan milli-mənəvi dəyərlərə əsaslanır. Nə qədər ki, xalq öz dövlətçiliyinə malik deyil, həmin dəyərlər dərk edilməmiş qalır, milli psixologiyanın alt qatını təşkil edir. Müstəqil dövlətçilik isə milli psixologiya zəminində yetişmiş milli ideologiyanın mənimsənilməsini zəruriləşdirir. Milli ideologiya dövlətin və dövlətçiliyin yaşamasını, inkişafını və güclənməsini təmin edir. Azərbaycanda tarixən müstəqil dövlətçilik mərhələləri mövcud olsa da, müəyyən səbəblər üzündən milli ənənələr ideologiya səviyyəsinə yüksələ bilməmişdir. Nəticədə müstəqil dövlətçiliyi uzun müddət qoruyub saxlamaq mümkün olmamışdır.

Azərbaycanın milli ideologiyası müstəqil dövlətçilik zəminində ilk dəfə zəmanəmizin ən böyük siyasətçisi və dövlət xadimi Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Heydər Əliyev milli ideologiyamızın formalaşmasında azərbaycançılıq ideyalarına yiyələnməyi zəruri amillərdən biri sayır. Beləliklə, azərbaycançılığın başlıca parametrləri aşağıdakılardan ibarətdir: dövlətçilik, milli- mənəvi dəyərlər, ümumbəşəri dəyərlər. Azərbaycançılıq ilkin bir anlayış olmaqla dövlətçiliyin sabitləşməsinə, möhkəmlənməsinə və çiçəklənməsinə, dilimizin qorunub saxlanmasına və zənginləşməsinə, milli-mənəvi dəyərlərimizin mənimsənilməsinə və dünya sivilizasiyası ilə inteqrasiyasına, eləcə də insanlarda milli vətənpərvərlik hisslərinin formalaşmasına xidmət edən zəruri şərtlər kompleksidir.

Azərbaycançılıq ideologiyası haqqında bəhs edərkən azərbaycançılıq, azərbaycanlı və Azərbaycan vətəndaşı terminlərinə də münasibət bildirmək lazımdır. Azərbaycançılıq termini ilə xalqın və millətin ideoloji bazasını təşkil edən bütöv bir sistem başa düşülür. Xalq öz milli mənliyini bu ideologiyanın mənimsənilməsində tapır.

Azərbaycanlı anlayışında xalqın milli mənsubiyyəti əks olunur. Azərbaycanlılar tarixən yaşadıqları ərazidə məskunlaşmış insan qruplarının sintezi əsasında min illər bundan əvvəl etnik bir vahid kimi formalaşmışlar. Bu gün Azərbaycanın ümumbəşəri dəyərlərini, dilini, milli və mənəvi mədəniyyətini mənimsəyən, onun dövlətçiliyinə ehtiram göstərən, şüurunda vətənpərvərlik hissləri yaşadan insanlar azərbaycanlılar adlanırlar. Azərbaycanlılar həm indiki Azərbaycan ərazisində, həm də dünyanın müxtəlif yerlərində məskunlaşmışlar. Azərbaycançılıq ideyalarına ehtiramla yanaşmaq, onu mənimsəmək və qəlbində pozulmaz bir ehkam kimi yaşatmaq dünyadakı hər bir azərbaycanlının müqəddəs borcudur. Azərbaycançılıq ideyaları dünya azərbaycanlılarının mütəşəkkilliyi, vəhdəti və birliyidir.

Azərbaycan vətəndaşı anlayışı konstitusiyamızda təsbit olunmuşdur. Azərbaycan vətəndaşları Azərbaycan Respublikasının hüdudlarında yaşayan, dilindən, dinindən, irqindən asılı olmayaraq bərabər hüquqlar daşıyan insanlardan ibarətdir. Bütün Azərbaycan vətəndaşları Azərbaycanın dövlət mənafeyinə xidmət etməyə, dövlət atributlarına və milli mənafelərinə ehtiram göstərməyə, ərazi bütövlüyünün qorunması yolundakı vətəndaşlıq mükəlləfiyyətlərinin yerinə yetirilməsinə borcludurlar.

Azərbaycançılığın bütöv bir sistem kimi bərqərar olunmasında onun özünəməxsus atributları vardır. Bu atributlar, aşağıdakı amillərdə özünü təcəssüm etdirir:

Azərbaycan Respublikasının Dövlət rəmzləri bunlardır:

a) Azərbaycan Respublikasının Dövlət Bayrağı

b) Azərbaycan Respublikasının Dövlət Gerbi

c) Azərbaycan Respublikasının Dövlət Himni

Heydər Əliyev ictimai şüurun formalaşdırılması üçün qədim milli-mədəniyyət abidələrimizin, klassiklərimizin öyrənilməsinə çox böyük diqqət yetirirdi. Heydər Əliyev milli mədəniyyətimizin, incəsənətimizin varisliyinin öyrənilməsinə çox böyük əhəmiyyət verirdi. Heydər Əliyev göstərirdi və sübuta yetirirdi ki, Azərbaycan xalqının qədim və zəngin ədəbiyyatı var, dünya mədəniyyəti xəzinəsinə parlaq nümunələr bəxş edə biləcək mədəniyyəti var. Azərbaycan xalqının həmçinin zəngin incəsənət nümunələri vardır. Bu böyük mənəvi sərvət zaman-zaman formalaşmış və nəsilbənəsil insanların həyatında və mədəniyyətində özünə yer tapmışdır.

Heydər Əliyev göstərirdi ki, mənəvi tərbiyə amili şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərə malik olması ilə sıx bağlıdır. Şəxsiyyətin yüksək əxlaqi normalara malik olması onda vətənpərvərlik hissi yaradılmasının başlıca amilidir. Eləcə də yüksək əxlaqa malik olan şəxsiyyətdə milli-mənəvi keyfiyyətlər bütün parlaqlığı ilə təcəssüm edir. Yüksək əxlaq cəmiyyətdə humanist münasibətlərin formalaşmasına zəmin yaradır. Şəxsiyyətin yüksək əxlaqı cəmiyyət həyatında öz bəhrələrini verdikcə onun nüfuzu artır. Ümumbəşəri ideyaların cəmiyyət həyatında bərqərar olunması üçün yüksək əxlaqi normalara yiyələnməyin əhəmiyyəti çox böyükdür. Şübhəsiz, müstəqil dövlət qurucularında yüksək əxlaqın və ümumbəşəri ideyaların təcəssüm tapması ümumdünya kontekstində cəmiyyətin rolunu açıq-aydın göstərən vacib bir amil sayılmalıdır. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyini görürdü və müstəqil dövlətçilik zəminində şəxsiyyətin yüksək əxlaqi normalara yiyələnməsini zəruri hesab edirdi. Bu münasibətlə Heydər Əliyev göstərirdi: "Şəxsiyyətin yüksək əxlaqi keyfiyyətlərinin formalaşması, onun hərtərəfli və ahəngdar inkişafının çox mühüm bir cəhətidir. Tərk edilmiş və insanların davranışında öz təcəssümünü tapmış əxlaq prinsipləri onları yüksəldir, həyatı dərin ictimai məna ilə zənginləşdirir. Bizim mənəviyyatımız ictimai mənafe ilə şəxsi mənafeyi qırılmaz tellərlə bir-birinə bağlayır, insana xalqın səadəti uğrunda mübarizədə fəal mövqe tutmaqda kömək edir". Heydər Əliyev eyni zamanda, mənəvi tərbiyəni ideoloji işin bir tərkib hissəsi hesab edir. Mənəvi tərbiyə Heydər Əliyev təlimində ictimai şüurun milli şüura çevrilməsinin bazası hesab edilir. Milli şüurun formalaşması isə milli ideologiya yaranmasının bazasını təşkil edir. Buradan belə bir məntiqi nəticə meydana çıxır ki, milli şüura, milli ideologiyaya yiyələnmək üçün mənəvi tərbiyə aparıcı yer tutur. Məhz milli ideologiya da mənəvi tərbiyənin nəticəsi hesab edilən vətənpərvərlik mühitinin yaranması şəraitində öz təsdiqini tapa bilər.

İctimai şüurun milli şüura çevrilməsində iqtisadi dirçəliş milli-mənəvi dəyərlərin qorunması və mənəvi tərbiyə amili bütöv bir blok təşkil edir. Milli şüurun formalaşdırılması isə əslində müstəqil dövlət quruculuğu yolunda əldə edilən ən mühüm nailiyyətlər kimi qiymətləndirilməlidir. İqtisadi dirçəliş məntiqi cəhətdən milli-mənəvi dəyərlərin qorunmasının, bunların hər ikisi isə ardıcıl olaraq mənəvi tərbiyə amilinin bazasını təşkil edir.

Heydər Əliyev hələ Sovet ideologiyasının güclü təbliğ olunduğu bir dövrdə belə bir

cəsarətli addım atmışdı. Heydər Əliyevin o zaman apardığı siyasət onun fəaliyyətinin Sovet dövlətinə xidmətinin zahiri görünüşü idi. Bu siyasətin altındakı diplomatik fəaliyyət isə Azərbaycanın gələcək müstəqilliyinə xidmət edirdi. Müstəqil Azərbaycan dövlətçiliyinin nəzəri bazası Heydər Əliyevin Sovet dövründəki fəaliyyəti zamanı tamamilə mükəmməl bir şəkildə hazırlanmışdır. Onun həyata keçirilməsi üçün əlverişli bir tarixi məqam lazım idi. Bu tarixi mərhələnin yaranması isə geci-tezi labüd idi. Tarix bu məqamı yetişdirdi. Heydər Əliyevin hazırladığı nəzəri proqram ictimai həyatda özünün əli ilə real təsdiqini tapdı. Heydər Əliyev özünün dərin zəkası, uzaqgörən siyasəti, diplomatik uğurları ilə zamanın ixtiyarını öz əlinə aldı və onu Azərbaycan cəmiyyətinin ixtiyarına yönəltməyə müvəffəq oldu.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. "Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri". Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979
2. Heydər Əliyev. Sovet ədəbiyyatının yüksək borcu və amalı. Bakı: 1981
3. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998
4..Ələmşahov B, Bəxşeyiş N. Dəryadan damlalar. Bakı: 1999
5. Aforizmlər (Ələskərov Ş., Xəlilov C.). Bakı: 1977

## SUMMARY

**Afarim Taghiyeva**

## NATIONAL CONSCIOUSNESS IN THE PHILOSOPHY OF AZERBAIJANISM

Heydar Aliyev showed that the factor of moral education is closely related to the personality having high moral qualities. The fact that the personality has high moral standards is the main factor in creating a sense of patriotism.

As long as the nation does not have its own statehood, those values remain unrealized and form the bottom layer of national psychology. Independent statehood necessitates the assimilation of national ideology developed on the basis of national psychology. National ideology ensures the existence, development and strengthening of the state and statehood.

Heydar Aliyev considers mastering the ideas of Azerbaijaniism as one of the necessary factors in the formation of our national ideology. Thus, the main parameters of Azerbaijanism consist of the following; statehood, national moral values, universal values. Azerbaijanism, being a primary concept, is a set of necessary conditions that serve to stabilize, strengthen and flourish statehood, preserve and enrich our language, assimilate our national and moral values and integrate with world civilization, as well as the formation of national patriotism in people.

***Key words:*** *statehood, national moral values, universal values, civilization, integration, moral education*

## РЕЗЮМЕ

**Афарим Тагиева**

## НАЦИОНАЛЬНОЕ СОЗНАНИЕ В ФИЛОСОФИИ АЗЕРБАЙДЖАНИЗМА

Гейдар Алиев показал, что фактор нравственного воспитания тесно связан с наличием у личности высоких моральных качеств. Наличие у личности высоких моральных качеств является основным фактором формирования чувства патриотизма.

Пока нация не имеет собственной государственности, эти ценности остаются нереализованными и составляют нижний слой национальной психологии. Независимая государственность требует усвоения национальной идеологии, разработанной на основе национальной психологии. Национальная идеология обеспечивает существование, развитие и укрепление государства и государственности.

Гейдар Алиев считает освоение идей азербайджанства одним из необходимых факторов формирования нашей национальной идеологии. Таким образом, основные параметры азербайджанизма заключаются в следующем: государственность, национальные моральные ценности, общечеловеческие ценности. Азербайджанизм, являясь первичным понятием, представляет собой совокупность необходимых условий, которые служат стабилизации, укреплению и расцвету государственности, сохранению и обогащению нашего языка, усвоению наших национальных и моральных ценностей и интеграции с мировой цивилизацией, а также формированию национального патриотизм в людях.

***Ключевые слова:*** *государственность, национальные моральные ценности, общечеловеческие ценности, цивилизация, интеграция, нравственное воспитание*

**NƏRGİZ İBRAHİMOVA**
*nergiz686@gmail.com*
*Gəncə Dövlət Universiteti*

## MİLLİ DÖVLƏTÇİLİK FƏLSƏFƏSİNDƏ LİDERLİK

*Cəmiyyətdə birlik yaradılmasının metodoloji bazası ilk növbədə, iqtisadi dirçəliş hesabına yaradılır. İqtisadi dirçəliş olmayan cəmiyyətdə ictimai şüuru formalaşdırmaq çətin olur. İnsanlar arasında birlikdən daha çox fərdi psixologiya meyilləri artır. İctimai mənafelər əvəzinə şəxsi mənafelər üstünlük təşkil edir. Ona görə də belə bir məqamda nəinki milli şüurdan, heç ictimai şüurdan da danışmaq mümkün deyildir. Sözsüz ki, iqtisadiyyatın olmadığı dövrdə cəmiyyəti milli mənafelər zəminində hazırlamaq mümkün deyildir.*

*Cəmiyyətin sosial inkişafının təmin olunmasında, insanların rifahının və həyat şəraitinin yaxşılaşmasında, şübhəsiz, iqtisadi inkişaf aparıcı rol oynayır. Lakin iqtisadi inkişaf baş verməsi üçün cəmiyyətdə, hər şeydən əvvəl, ictimai sabitlik, sülh, dinclik, əmin-amanlıq olması lazımdır.*

*Dövlətçiliyin dayaqlarının möhkəmləndirilməsi üçün iqtisadiyyatda dirçəliş yaradılması olduqca vacib məsələlərdən biridir. Dövlətçiliyin iqtisadi bazasının yaradılması onun yaşamasını, mövcudluğunu, sosial rifahını təmin edən ən mühüm istiqamətlərdən biridir. Dövlətçiliyin iqtisadi bazasının yaradılması, eyni zamanda, ictimai şüurun formalaşdırılması deməkdir. İctimai şüurun başlıca prinsipi insanların təsəvvürünü, düşüncəsini, həyat ideallarını cəmiyyətlə qovuşdurmaqdan ibarətdir. İctimai şüur formalaşmadan insanla cəmiyyət arasında üzvi əlaqə yaratmaq mümkün deyildir. İnsanın cəmiyyətlə əlaqəsi isə birlik, mütəşəkkillik və bütövlük deməkdir. İctimai şüurun formalaşmadığı cəmiyyətdə fərdilik psixologiyası üstünlük təşkil edir.*

***Açar sözlər:*** *dövlətçilik, ideya, ictimai şüur, fərdilik, sosial inkişaf*

Heydər Əliyevin Azərbaycan cəmiyyətində milli birlik və mütəşəkkillik düşüncəsini bir ideya kimi hələ 1969-cu ildə Sovet dövründə Azərbaycan Respublikasının rəhbəri olduğu müddətdən yetişdirməyə başlamışdı. Cəmiyyətdə birlik yaradılmasının metodoloji bazası ilk növbədə, iqtisadi dirçəliş hesabına yaradılır. İqtisadi dirçəliş olmayan cəmiyyətdə ictimai şüuru formalaşdırmaq çətin olur. İnsanlar arasında birlikdən daha çox fərdi psixologiya meyilləri artır. İctimai mənafelər əvəzinə şəxsi mənafelər üstünlük təşkil edir. Ona görə də belə bir məqamda nəinki milli şüurdan, heç ictimai şüurdan da danışmaq mümkün deyildir. Sözsüz ki, iqtisadiyyatın olmadığı dövrdə cəmiyyəti milli mənafelər zəminində hazırlamaq mümkün deyildir. Heydər Əliyev Azərbaycan cəmiyyətini hələ Sovet dövründə milli mənafe psixologiyası təməli üzərində yetişdirmişdir. 1991-1992-ci illərdə, hələ Heydər Əliyev hakimiyyətə qayıtmamışdan əvvəlki mərhələdə Azərbaycanda hakimiyyəti qəsb etmiş adamlar iqtisadiyyatı sonuncu nöqtəyə qədər dağıtmışdılar. İnsanlar maddi müflislik içərisində idilər. Bunun ardınca, onlar həm də mənəvi müflisliyə düçar olmuşdular. Cəmiyyətin belə bir məqamında ictimai şüurun dirçəlişindən, ictimai birlikdən və mütəşəkkillikdən şübhəsiz ki, söz açmaq mümkün deyildi. Ona görə də həyat təcrübəsi keçməmiş, cəmiyyətin mənafeyinə heç bir iş aparmağa mənəvi haqqı olmayan şəxslərin milli birlik yaratması da bir xəyal qədər əlçatmaz idi. Heydər Əliyev isə

cəmiyyətdə birlik yaratmağa nail oldu. Ona görə ki, əvvəla, bu birliyin metodoloji bazasını Heydər Əliyev hələ 1969-cu ildən başlayaraq yetişdirmişdi. Hərçənd 1991-1992 illərdə həmin iqtisadiyyatdan bir əsər-əlamət qalmamışdı. Bununla belə xalqın içərisində Heydər Əliyev şəxsiyyətinə dərin inam, etibar və etimad var idi.

Yeni mərhələdə bu baza üzərində tez-tez dəyişən sosial-ictimai hadisələr fonunda yeni üsullardan istifadə etmək zərurəti yaranmışdı. Tez-tez dəyişən hadisələrin qarşısına çevik siyasət və incə diplomatiya ilə çıxmaq lazım gəlirdi. Heydər Əliyev bu tarixi vəzifənin öhdəsindən layiqincə gəldi və cəmiyyəti böyük bəlalardan xilas etdi.

Heydər Əliyevin cəmiyyətdə birliyi bərqərar etmək məqsədi ilə atdığı ilk addım Azərbaycan cəmiyyətinin mütəşəkkilliyə, birliyə, dünya azərbaycanlılarını həmrəyliyə çağırışından ibarət oldu.

Bundan sonra isə cəmiyyətdə əqidə birliyinin formalaşdırılmasına olan zəruri tələbi yerinə yetirmək vəzifəsi qarşıda dururdu. Bu vəzifənin yerinə yetirilməsinə 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis olunması ilə başlandı. Xalqın Heydər Əliyevə olan güclü inamı hələ onun hakimiyyətdə olmadığı dövrdə bu partiyaya meyil və marağın artmasına səbəb oldu. Partiyanın sosial bazası tezliklə gücləndi. Xalq içərisində etibar qazana bilməyən qüvvələr tezliklə öz mövqelərindən uzaqlaşmağa başladılar. Heydər Əliyev qalib gəldi, xalq qalib gəldi, cəmiyyət xilas oldu.

Bütün bunlar Heydər Əliyevin respublika hakimiyyətində təmsil olunmadığı dövrdə cəmiyyətin keçdiyi mənəvi hazırlıq prosesinin canlı təzahürləri idi.

O zaman Yeni Azərbaycan Patiyasının yaradılması həqiqətən tarixi bir zərurət idi. Bu zərurət ondan doğurdu ki, birincisi, 1991-ci il oktyabrın 18-də müstəqillik elan edildi. Lakin xalq həqiqi müstəqilliyə nail ola bilmədi. Çünki o zamankı rəhbərlər müstəqilliyi qoruyub saxlamaq üçün mənəvi, intellektual, siyasi və diplomatik cəhətdən hazır deyildilər.

İkincisi, Azərbaycana kənardan çoxlu təsir və təzyiqlər mövcud idi. Dağlıq Qarabağ sindromu tüğyan edirdi. Dövlət rəhbərliyindəki şəxslər bu sindrom qarşısında dura bilmirdilər. Ərazilərimiz bir-birinin ardınca düşmən əlinə keçirdi.

Üçüncüsü, ölkənin daxilində xaos baş verirdi. Separatçı qüvvələr mövcud situasiyadan istifadə edərək ölkəni parçalamaq və məhv olmaq həddinə gətirib çıxarmışdılar.

Dördüncüsü, ölkə xaricdən və daxildən iflasa uğradığı zamanda bir-biri ilə çəkişən və cəmiyyətdə ictimai-siyasi gərginlik yaradan siyasi partiyaların sayı get-gedə artmaqda idi.

Beşincisi, ölkədə iqtisadi tənəzzül sonuncu həddə enmişdi. Başlı-başınalıq, pozuculuq, pərakəndəlik ölkəni uçuruma, vətəndaş qarşıdurmasına aparırdı.

Belə bir tarixi şəraitdə mütəşəkkillik yaratmağa qadir olan bir partiyanın təsis olunmasına ehtiyac var idi. Bu da proqramı və nizamnaməsi Heydər Əliyev tərəfindən hazırlanmış Yeni Azərbaycan Partiyası idi. Yeni Azərbaycan Partiyası humanist prinsiplərinə görə zamanın partiyası, yaradıcı xarakterinə görə bu günün və gələcəyin, mövqeyinə görə xalqın, ideoloji prinsiplərinə görə Azərbaycan cəmiyyətinin partiyası oldu.

Yeni Azərbaycan Partiyası öz ətrafında sağlam qüvvələri birləşdirərək cəmiyyətdə əqidə birliyi yaradılması üçün tarixi vəzifəni çox böyük uğurla həyata keçirməyə başladı.

Cəmiyyətin sosial inkişafının təmin olunmasında, insanların rifahının və həyat şəraitinin yaxşılaşmasında, şübhəsiz, iqtisadi inkişaf aparıcı rol oynayır. Lakin iqtisadi inkişaf baş verməsi üçün cəmiyyətdə, hər şeydən əvvəl, ictimai sabitlik, sülh, dinclik, əmin-amanlıq olması lazımdır. Azərbaycanda xaosun baş alıb getdiyi 1991-1992-ci illər ərzində iqtisadiyyatın dirçəlişindən söhbət gedə bilməzdi. Çünki bir tərəfdən ölkənin daxilində bir-birinə zidd olan qüvvələrin çarpışması ictimai-siyasi sabitliyi pozurdu. Separatçılıq meyilləri xalqda daxili bir çaşqınlıq yaradırdı. Ölkədə fərdiyyətçilik və şəxsi mənafelər onun dirçəlməyinə heç cür imkan vermirdi. Digər tərəfdən, Ermənistanın təcavüzü, torpaqların qəsb olunması ictimai xaosun baş alıb getməsini qat-qat sürətləndirirdi. Səriştəsiz rəhbərlikdən miras qalan ictimai xaos, daxili pərakəndəlik, müharibə 1993-cü ildə də davam edirdi, sonrakı müddətlərdə də onun dalğaları hiss olunurdu. Ermənistanla elan olunmamış müharibə davam edirdi. Kəndlər, yaşayış məskənləri dağıdılır, dinc əhali qırılırdı.

Heydər Əliyev 17 mart 1995-ci ildə Prezident sarayında çıxış edərək göstərirdi: "Hər halda, nəhayət, Rövşən Cavadov və onun himayəsində olan dəstələr uzun müddət ayrı-ayrı qüvvələrin təsiri altında bu qüvvələr tərəfindən istiqamətləndirilərək Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək niyyətlərini son dərəcədə həyata keçirməyə çalışdılar, ancaq buna nail ola bilmədilər. Azərbaycanın mərd, cəsur əsgərləri respublikamızın müstəqilliyinin, dövlətçiliyinin keşiyində duran Azərbaycan övladları onların cavabını verdilər, respublikamızın dövlətçiliyini, müstəqilliyini qorudular"[8].

Heydər Əliyevin qətiyyətliliyi ilə respublikanın müstəqilliyi uğrundakı gərgin və yorulmaz fəaliyyəti ilə separatçı və quldur dəstələrinin yolu kəsildi. Ölkə daxili sabitlik əldə edildi. Lakin xarici müdaxiləni heç zaman başlı-başına qoymaq mümkün olmazdı. Məhz Heydər Əliyevin ciddi səyləri nəticəsində 1994-cü il mayın 12-də Bişkək şəhərindəki müşavirənin yekunlarına müvafiq olaraq Ermənistanla atəşkəs haqqında razılaşma əldə edildi. Ölkədə sabitlik yarandı. Sabitliyin, sülhün və əmin-amanlığın əldə edilməsi ilə iqtisadi dirçəlişin baş verməsi üçün etibarlı zəmin yaradılmış oldu.

Dövlətçiliyin dayaqlarının möhkəmləndirilməsi üçün iqtisadiyyatda dirçəliş yaradılması olduqca vacib məsələlərdən biridir. Dövlətçiliyin iqtisadi bazasının yaradılması onun yaşamasını, mövcudluğunu, sosial rifahını təmin edən ən mühüm istiqamətlərdən biridir. Dövlətçiliyin iqtisadi bazasının yaradılması, eyni zamanda, ictimai şüurun formalaşdırılması deməkdir. İctimai şüurun başlıca prinsipi insanların təsəvvürünü, düşüncəsini, həyat ideallarını cəmiyyətlə qovuşdurmaqdan ibarətdir. İctimai şüur formalaşmadan insanla cəmiyyət arasında üzvi əlaqə yaratmaq mümkün deyildir. İnsanın cəmiyyətlə əlaqəsi isə birlik, mütəşəkkillik və bütövlük deməkdir. İctimai şüurun formalaşmadığı cəmiyyətdə fərdilik psixologiyası üstünlük təşkil edir. Bu isə insanlarda şəxsi mənafelərin qabarıqlaşmasına aparıb çıxarır. Belə bir məqamda ictimai mənafeləri canlandırmaq mümkün deyildir. Cəmiyyətdə ictimai mənafelər olmadıqda isə milli mənafelər haqqında da düşünmək artıqdır. 1991-1992-ci illərdə, eləcə də 1993-cü ildə

---

[8] Heydər Əliyev. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması məsələlərinə həsr olunmuş müşavirədə çıxış. 17 mart 1995-ci il. "Müstəqilliyimiz əbədidir". 3 c., s.286. Bakı: 1997

Heydər Əliyevin hakimiyyətə gəldiyi müddətdən əvvəl Azərbaycanda belə bir vəziyyət hökm sürürdü. Mövcud iqtisadiyyat dağıdılmışdı. Cəmiyyət hərtərəfli iflasa uğramışdı. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan çox qısa bir müddət ərzində iqtisadi baza formalaşdırılmağa başlandı.

Ölkədə ictimai-siyasi sabitlik əldə edilməsi ilə iqsadiyyatımızda aparıcı yer tutan neft strategiyasının hazırlanıb həyata keçirilməsi məhz Heydər Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olmuşdur. Şübhəsiz ki, neft strategiyasının həyata keçirilməsi, böyük dövlətlərin marağının bu strategiya ətrafına cəlb edilməsi asan məsələ deyildi. Belə bir strateji addım atılması məhz Heydər Əliyev siyasətinin qələbəsi və bu böyük rəhbərin diplomatik uğurları nəticəsində əldə edilə bilmişdi.

## ƏDƏBİYYAT

1. “Azərbaycan” qəzeti. 10 noyabr, 2001
2. “Azərbaycan” qəzeti. 1998-2002-ci illər
3. “Respublika” qəzeti. 1998-2002-ci illər
4. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı: “Məruzə” 9-10 noyabr, 2001
5. Heydər Əliyev. “Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri”. Ümumittifaq elmi-praktiki konfransında məruzə. Bakı: 25 aprel 1979
6. Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan. Bakı: 1998

## SUMMARY

**Nargiz Ibrahimova**

## LEADERSHIP IN THE PHILOSOPHY OF NATIONAL STATEHOOD

The methodological basis for creating unity in society is primarily created due to economic revival. It is difficult to form public consciousness in a society without economic revival. There is an increasing trend of individual psychology rather than unity among people. Personal interests prevail over public interests. Therefore, at such a moment, it is impossible to talk not only about national consciousness, but also about social consciousness. It goes without saying that it is impossible to prepare the society on the basis of national interests when there is no economy.

Undoubtedly, economic development plays a leading role in ensuring social development of society, improving people's well-being and living conditions. However, in order for economic development to occur in the society, first of all, there must be social stability, peace, tranquility, and tranquility.

To strengthen the foundations of statehood, creating a revival in the economy is one of the most important issues. Creation of the economic base of the state is one of the most important directions ensuring its survival, existence, and social well-being. Creating the economic basis of statehood also means shaping public consciousness. The main principle

of social consciousness is to connect people's imagination, thinking, ideals of life with society. It is impossible to create an organic connection between a person and society without the formation of social consciousness. A person's relationship with society means unity, organization and integrity. In a society where social consciousness is not formed, the psychology of individuality prevails.

***Key words:*** *statesmanship, idea, social consciousness, individuality, social development*

## РЕЗЮМЕ

**Наргиз Ибрагимова**

## *ЛИДЕРСТВО В ФИЛОСОФИИ* НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ

Методологическая основа создания единства общества создается, прежде всего, за счет экономического возрождения. В обществе без экономического возрождения сложно сформировать общественное сознание. Существует возрастающая тенденция индивидуальной психологии, а не единства среди людей. Личные интересы преобладают над общественными интересами. Поэтому в такой момент нельзя говорить не только о национальном самосознании, но и об общественном сознании. Само собой разумеется, что невозможно подготовить общество на основе национальных интересов, когда нет экономики.

Несомненно, экономическое развитие играет ведущую роль в обеспечении социального развития общества, улучшении благосостояния и условий жизни людей. Однако для того, чтобы в обществе происходило экономическое развитие, прежде всего, должна быть социальная стабильность, мир, спокойствие и спокойствие.

Укрепление основ государственности, создание оживления в экономике является одним из важнейших вопросов. Создание экономической базы государства является одним из важнейших направлений, обеспечивающих его выживание, существование и социальное благополучие. Создание экономической основы государственности означает и формирование общественного сознания. Главный принцип общественного сознания – связь воображения, мышления, идеалов жизни людей с обществом. Без формирования общественного сознания невозможно создать органическую связь человека и общества. Отношения человека с обществом означают единство, организованность и целостность. В обществе, где общественное сознание не сформировано, преобладает психология индивидуальности.

**Ключевые слова:** *государственное управление, идея, общественное сознание, индивидуальность, общественное развитие*

**ELGÜN ASLANOV**
*e.aslanov85@mail.ru*
*Mingəçevir Dövlət Universiteti*

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ İDEOLOGİYASINDA MİLLİ HƏMRƏYLİYİN DİALEKTİKASI

Tarixi təcrübə göstərir ki, dövlətin, cəmiyyətin və insanlığın inkişafını müəyyən edən əsas faktorlardan biri də lider fenomendir. Məhz böyük şəxsiyyətlər özlərinin fəaliyyəti, irəli sürdüyü ideyalar və qəbul etdiyi qərarlarla nəinki öz dövlətlərinin tarixinə, bütövlükdə dünyada gedən ictimai-siyasi proseslərə təsir göstərmək imkanına malik olurlar. Belə tarixi simalar öz əməlləri və ideyaları ilə xalqların həyatında o qədər dərin iz qoyurlar ki, millətin və dövlətin tərəqqisinin həmin dövrü birbaşa onların adları ilə bağlı olur. Yalnız böyük dövlət xadimləri milləti xilas etmək və onun milli ideyasını və ideologiyasını gerçəkləşdirmək qüdrətində olurlar.

Azərbaycan dövlətinin müstəqilliyinin dönməzliyini təmin edən, daim milli varlığın, milli ideyanın və milli şüurun yaşamasını təmin edən, azərbaycançılığı dövlət ideologiyasına çevirən Heydər Əliyev də belə tarixi şəxsiyyətlərdən olmuşdur.

Süleyman Dəmirəl "Tarixə məktub" məqaləsində yazırdı: "Çörçill ingilis millətinə 40 il xidmət etdi, ancaq bu xidmətin sonunda, 1940-cı ildə lazım oldu. O zaman Çörçillin edəcəyi xidməti göstərəcək ikinci adam yox idi. Bəşər tarixində insanlar hər zaman millətinə xidmət edir, ancaq bəzən lazım olurlar. Ruzveltin 1942-ci ildə, de Qollun 1958-ci ildə, Adenauerin 1946-cı ildə lazım olduğu kimi... Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan millətinə çox xidmət etmişdir, amma 1993-cü ildə lazım idi. Onun gördüyü işi görəcək başqa heç kim yox idi. Yaxşı ki, O vardı! Biz belə düşündük və haqlı çıxdıq!" (4, s.5).

Məhz Ulu Öndər Heydər Əliyevin milli ideologiya olaraq irəli sürdüyü azərbaycançılıq vaxtilə dövlətimizə qarşı müxtəlif istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik separatizm əsasında parçalamaq və vətəndaş qarşıdurması yaratmaq cəhdlərinin qarşısının alınmasında mühüm vasitə olmuşdur.

Heydər Əliyev təkcə müstəqillik dövründə deyil, Azərbaycanın Sovet totalitar rejiminin tərkibində olduğu illərdə də, mərkəzdən olan təzyiqlərə, Türk xalqlarına qarşı aparılan ayrıseçkilik siyasətinə və islamafobiya meyillərinə baxmayaraq, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün mühüm tədbirlər görməklə dövlətçiliyin və milli ruhun kəsilməzliyini təmin edə bilmişdir.

Ona görə də Heydər Əliyev kimi xarizmatik liderin irsinin qorunması və yayılması, azərbaycançılıq ideologiyasının fəlsəfi mahiyyətinin öyrənilməsi və təbliği istiqamətində həyata keçirilən müxtəlif tədbirlər indiki və gələcək nəsillərin dövlətçilik duyğularının inkişaf etdirilməsi və ölkəmizdə milli həmrəyliyin formalaşdırılması baxımından çox əhəmiyyətlidir. Çünki tarixə sadəcə hadisələrin xronoloji ardıcıllığı kimi deyil, həm də milli özünüdərk prosesi kimi; yalnız fakt mənbəyi kimi deyil, həm də milli iftixar mənbəyi kimi; ancaq idrak üsulu kimi yox, həm də tərbiyə üsulu kimi; təkcə elmin konseptual işığında deyil, həm də bədii formaların təqdimatında baxmaq lazımdır.Tarix bizə təkcə keçmişi təftiş

etmək üçün deyil, həm də gələcəyə yönəlik təfsir üçün lazımdır. Dünyanın hər yerində qanunları eyni olan riyaziyyatdan fərqli olaraq, tarix lokal xarakter daşımaqla faktlara və hadisələrə münasibətdə öz interpretasiyasını ortaya qoyaraq, müəyyən bir metodoloji prinsipdən və ideoloji mövqedən çıxış edir. Tarixi hadisə alternativliyi və təbliğatı sevir. Onun barəsində nə qədər çox yazılırsa, bu yalnız onun xeyrinədir.

Sosial fəlsəfədə birmənalı olaraq təsdiqlənmişdir ki, milli ideya milli həmrəyliyin formalaşmasında və dövlətçiliyin inkişafında mühüm rol oynayır. Milli ideya olmadan xalq dövləti olan millətə çevrilə bilməz. Milli ideya dedikdə, xalqın taleyini, onun vəzifəsini ifadə edən və taleyüklü məsələlərin həlli üçün milli enerjini səfərbər edən inteqrativ milli mənlik şüuru konsepsiyası başa düşülür. Milli ideya cəmiyyətin inkişafının ümumi məqsədi və strategiyasıdır. Milli ideya milli ruhun dərinliklərindən süzülüb gələn dəyərlər toplusudur.

Millətin sıx birliyi və vahid orqanizm kimi fəaliyyət göstərməsində mühüm rol oynayan milli ideya təkcə cəmiyyətdəki davranış qaydalarının deyil, həm də dövlətdəki qanunların formalaşmasında mühüm təməl kimi çıxış edir.

Milli ideya əvvəlcə milli mənlik şüurunun oyanması, müstəqillik uğrunda mücadilə ilə şərtlənən ictimai ideya kimi yaranır. Dövlətçilik yaranıb inkişaf etdikcə, ölkənin beynəlxalq arenada mövqeyi möhkəmləndikcə milli ideya elmi cəhətdən əsaslandırılaraq milli ideologiyanın formalaşmasında əsas zəminə çevrilir.

Milli ideya və milli ideologiya anlayışlarını qarışdırmaq olmaz. Milli ideya bir strategiyadır, ideologiya isə həmin planlı fəaliyyət modelinin reallaşdırılmasına kömək edən taktikadır. İdeologiya milli ideyanın cəmiyyətdə yayılması üsulları və vasitələridir. Milli ideologiya milli ideyanın daşıyıcısıdır. Reallıq dəyişdikcə onun təqdim edilməsinin forma və vasitələri də dəyişməlidir.

Ulu öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında azərbaycançılıq ideologiyasının mahiyyətini məhz bu cür ifadə etmişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (1, s.5).

Ulu öndər həmişə öz çıxışlarında Azərbaycanın çoxmillətli ölkə olmasını, etnik rəngarəngliyini və tolerantlığa böyük əhəmiyyət verməsini xalqımızın böyük sərvəti hesab etmişdir: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür... Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib" (5, s.6).

Azərbaycançılıq dilindən, dinindən, irqindən, milli və sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarının dövlətçilik və vətənpərvərlik naminə birliyini nəzərdə tutur.

Azərbaycançılıq ideologiyası Azərbaycanın unitar, demokratik, dünyəvi, hüquqi dövlət kimi möhkəmlənməsinə və dünya sivilizasiyasının tərəqqisinə öz müsbət töhfəsini verməyə yönəlibdir.

Azərbaycançılıq o deməkdir ki, hər bir insan öz milli mənsubiyyəti ilə qürur duymalı, öz tarixi keçmişinə hörmətlə yanaşmalı və milli həmrəyliyə öz töhfəsini verməlidir. Heç kəs bizləri etnik mənsubiyyətə görə parçalaya, ayrı seçkiliyə məruz qoya bilməz. İngilislər və fransızlar onlarla etnoslardan vahid dövlət olduğu kimi, Türkiyə də eyni dərəcədə lazın, kürdün, çərkəzin, Azərbaycan isə ləzginin, buduqun, qrızın, ingiloyun və s. etnosların eyni dərəcədə vətənidir. Dövlətçilik şüuruna sahib olan insan öz xalqının tarixi nailiyyətini şəxsi uğuru, çətin və ağrılı-acılı günlərini isə şəxsi faciəsi kimi qəbul etməlidir. Yəni həmişə - yaxşı günündə də, pis günündə də yanında olmalı, əlindən gələni əsirgəməməli və öz xalqı ilə qürur duymalıdır. Dövlətçilik şüuru bizdən maraqlarda şəxsi miqyasdan kənara çıxaraq Azərbaycanın milli maraqlarını hər şeydən yüksəkdə tutmaq vərdişi tələb edir. Ulu öndərin təbirincə desək, dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.

Akademik S.Xəlilov özünün "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" adlı kitabında yazır: Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir. Eyni zamanda bütün azərbaycanlılar harada yaşamasından və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, rəsmi vətənləri ilə yanaşı, həm də özünün mədəni-mənəvi Vətəni olan Azərbaycan Respublikasını düşünür, onun nüfuzunu uca tuturlar" (3, s.36).

Müasir mərhələdə azərbaycançılıq ideologiyası, cəmiyyətdə dövlətçilik ənənələrinin güclənməsi və dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasəti Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prezident İlham Əliyev azərbaycançılıq ideologiyasını dövlətçiliyimizin siyasi və mənəvi sütunu kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır" (3, s.26-27).

Prezident İlham Əliyevin ən mühüm nailiyyətlərindən biri də azərbaycançılıq ideologiyasının tərkib hissələri olan türkçülük, islamçılıq və müasirliyin üzvi vəhdətdə - birinə digərindən üstünlük vermədən həyata keçirilməsidir.

Artıq Azərbaycan özü dünya üçün standartlar müəyyən edir. Azərbaycan planetar proseslərin obyektindən subyektinə çevrilib və ölkəmiz dünyaya təkcə neft deyil, həm də tolerantlıq ixrac edir. Multikulturalizm Azərbaycanda həyat tərzinə çevrilib. Sivilizasiyalararası münaqişələrin kəskinləşdiyi bir dövrdə Azərbaycan mədəniyyətlərarası dialoqun fəal təşəbbüskarı kimi çıxış edir.

Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti və 44 günlük Vətən müharibəsindəki şanlı qələbəsi sayəsində "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam" deyimi yeni keyfiyyət məzmunu və fəxarət hissi ilə zənginləşərək milli mənlik şüurunun strukturunu daha da möhkəmlətmiş və milli "mən"də konkret forma kəsb etmişdir. Məhz bu zəfərlə 30 illik həsrət vüsala çevrildi. Millətimiz "məğlub xalq" sindromundan azad olaraq qalib bir millətə çevrildi.

Heydər Əliyev çox gözəl dərk edirdi ki, onun Qarabağla bağlı düşüncə müstəvisində və danışıqlar masasında formalaşdırdığı məsələləri gələcəkdə ərsəyə gətirə biləcək yeganə lider məhz İlham Əliyev ola bilər. Hələ 9 may 2000-ci ildə Prezident Sarayında ABŞ-ın Minsk Qrupundakı həmsədri Kerri Kavanonun dağıdılmış Ağdam məscidindən gətirdiyi daş parçasını ad günü münasibətilə ona hədiyyə kimi təqdim etməsindən təsirlənən Prezident Heydər Əliyev demişdir: "Kavanoya, biz o torpaqlara hökmən qayıdacağıq"... (2, s.225).

Bəli, hadisələr sonra baş verir, əvvəlcə düşüncədə bir təbəddülat baş qaldırır və müəyyən bir ab-hava yaranır. İkinci Qarabağ müharibəsinin ovqatı hələ illər öncə Ulu Öndərin hakimiyyəti dönəmində formalaşmışdır. Bu ovqat illər keçdikcə bitmədi, əksinə, gündən-günə güclənərək zehinlərə və duyğulara hakim kəsildi. Lakin xalqın səbr kasası çoxdan dolmuş olsa da, məqamın düzgün dəyərləndirilməsi çox vacib idi.

Ali Bas Komandan İlham Əliyev diplomatiya və informasiya cəbhəsində qazanmış olduğu qələbəni hərb meydanında tamamlamaq üçün məqamın yetişdiyini düzgün dəyərləndirərək növbəti erməni təxribatına qarşı 27 sentyabr 2020-ci ildə cavab atəşinin açılması əmrini verməklə 30 il ərzində sıxılmış yayı dartmış oldu. Məhz bu cavab atəşi 44 günlük zəfər yürüşü və ata vəsiyyətinin yerinə yetirilməsi yolunda ilk qətiyyətli addım oldu.

Dünyanın dörd bir tərəfi 44 gündə 4 cəbhədə (diplomatiya, informasiya, müharibə meydanında, eləcə də ermənilərin Gəncədə və Bərdədə törətdikləri terrora qarşı) dörd dildə mübarizə aparan Ali Baş Komandan qətiyyətinin şahidi oldu.

Tez-tez məşhur dünya siyasətçilərinin, tanınmış alimlərin və parlaq zəka sahiblərinin dilindən haqlı olaraq "Heydər Əliyev şəxsiyyətinin heç bir məkana və zamana sığmadığını" eşidirik. Hələ vaxtilə məşhur alman mütəfəkkiri Höte deyirdi ki, Hamlet zəmanəsinə sığmır, çünki o, büllur vazaya əkilən bir palıd ağacı kimidir. Büllur vaz isə zəmanədir. Vaxt gəlir, palıd ağacı böyüyüb vazanı dağıdıb parçalayacaq...

Bəs, Heydər Əliyevin zəmanəsi və mühiti belə büllur vaza ola bilərdimi?

İlham Əliyev olmasaydı, Heydər Əliyevin ideyaları bu gün bizim üçün əndərunda olduğu kimi gizlənərdi. Yəni Heydər Əliyev öz ideyalarında kənar gözlərdən gizlənən əndərununu-nəzəri irsini və milli quruculuq yolunun siyasi fəlsəfəsini özündən sonrakı nəsillərə bir nemət kimi miras qoysa da, yalnız İlham Əliyev kimi öz fəaliyyətini bu şaquli xətlər üzərində quran və yeni iqtisadi münasibətlər şəraitində yetişən bir lider onu üfüqi xətlərlə tamamlayaraq bizlər üçün birun-aşkar hala gətirə bilərdi. Çünki siyasi həyat da kardioqram şəkillərində olduğu kimi üfüqi xətlərin şaquli xətlərlə kəsişməsindədir.

Bir də ki, optikada aberrasiya termini var. Tarix elminə bu termini Lev Qumilyov gətirmişdir. İki cür aberrasiya var: yaxınlıq və uzaqlıq.

Yaxınlıq aberrasiyası o deməkdir ki, obyektə yaxından baxanda bütün xırdalıqlarını görə bilirsən, lakin onun ümumi mənzərəsini görə bilmirsən. Məsələn, ağaca yaxından baxanda onun bütün budaqlarını, yarpaqlarını, çiçəklərini, meyvələrini görə bilirsən, amma ağacın bütöv mənzərəsini görə bilmirsən.

Uzaqlıq aberrasiyası isə o deməkdir ki, obyektə uzaqdan baxdıqda xırdalıqları görə bilmirsən, lakin ümumi mənzərəsini seyr edə bilirsən.

Tarixə baxışda da belədir. Tarixi hadisə bizə nə qədər yaxındırsa, onun əhəmiyyətini

qiymətləndirmək bizim üçün bir o qədər çətin olur. Biz tarixi hadisə ilə müqayisədə yalnız xırdalıqları görürük və nəticəni də onlara görə çıxarırıq. İndi fəxr etdiyimiz, bəzən böyük qan bahasına, minlərlə insanın əzab-əziyyəti, haqqlarının pozulması hesabına başa gələn tarixi hadisələrin çoxunu içində yaşayanlar o zaman heç də bizim kimi qiymətləndirə bilməyiblər. İnsan içində yaşadığı hadisəyə qiymət verəndə çox vaxt subyektiv olur, çünki o hadisənin "konturlarını" görə bilmir. Bunun bir səbəbi hər hansı tarixi hadisənin konturlarının uzun bir müddəti, hətta bəzi hallarda onillikləri belə əhatə etməsi ilə bağlıdırsa, digər səbəbi də insanların hər şeyə özlərinin və tanıdıqlarının yaşayışı və hissləri prizmasından baxması ilə əlaqəlidir.

Məsələn, Marqaret Tetçer hazırda Böyük Britaniyanın tarixində əhəmiyyətli rol oynamış dövlət xadimi kimi tanınır və hörmət edilir. Ancaq hakimiyyətdə olan zaman xanım Tetçer yerli əhali tərəfindən ən çox tənqid edilən, hətta ürəyinin dəmirdən olmasına işarə etmək üçün "dəmir ledi" ləqəbi verilən hökumət başçısı olmuşdu. Hətta onun bu vəziyyətlə bağlı sonralar insanlar üçün maksimaya çevrilən bir deyimi də var: "Məni tənqid edənlər Temza dalğaları üstü ilə yeridiyimi görsəydilər, deyərdilər: bu yalnız ona görədir ki, üzə bilmir".

İkinci Dünya müharibəsi zamanı alman faşistlərinə qarşı müqavimət hərəkatına rəhbərlik etməklə xalqın məhəbbətini qazanmış, qısa müddətdə həmin xalqdan da ağır zərbə alaraq 1969-cu ildə istefa vermiş və elə bundan sonra 1970-ci ilin noyabrında aortanın partlamasından ölən Şarl de Qoll hazırda həmvətənləri üçün qəhrəmanlıq və qurtuluş simvoludur.

Və yaxud əksinə, Misir piramidaları on minlərlə insanın həyatı bahasına tikilsə də, hazırda bütün dünyanın heyranlıq obyektidir.

Tarixə aberrasiya baxımından yanaşsaq, Heydər Əliyev şəxsiyyətinin də böyüklüyü, müdrikliyi və xarizmatikliyi zaman keçdikcə daha aydın görünür və dərk olunur. Yəqin bu, dağın yüksəkliyinin ondan uzaqlaşdıqca daha aydın görünməsinin nəticəsidir. Bir də, korluq pərdəsinin çürüyüb yırtılması üçün zaman lazımdır!!!

## ƏDƏBİYYAT

1. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. www. modern. az 09.11.2015
2. Hüseynov C. Bir millət, iki şəxsiyyət. Bakı: Aspoliqraf, 2022, s.360
3. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: Azərbaycan Universiteti. 2001
4. Qurbanov S. Xilaskarlıq missiyası. "Xalq" qəzeti. 9 may 2021
5. Mehdiyev R. Milli ideya: tarix və bu gün. "Azərbaycan" qəzeti. 09.11.2007
6. Turan A. Azərbaycançılıq milli ideyasında Heydər Əliyev fenomeni. "Xalq" qəzeti. 02.12. 2016

**NİGAR MƏHƏRRƏMOVA**
*nigar.maharramova@mdu.edu.az*
*Mingəçevir Dövlət Universiteti*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏNƏVİ İRSİNİN FƏLSƏFİ FİKİR TARİXİNDƏ YERİ

Bütün xalqların milli özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin maddi-mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan mənəvi-əxlaqi dəyərlər hər bir etnosun milliliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqdan savayı, həm də bəşər sivilizasiyasına gözəl töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər, eyni zamanda, hər bir xalqın toxunulmaz xəzinəsidir. Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya ötən əsrdə məhz Ümummilli lider Heydər Əliyevin üzərinə düşmüşdür.

Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu təhdidi düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlaması və potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır. Heydər Əliyevin öz Vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı həmin təhdidlərin önündə də əzəmətli sipərə çevrildi, bütövlükdə xalqın genetik yaddaşını qorudu. Bu dahi şəxsiyyət hələ keçmiş Sovetlər dövründə türkdilli xalqların min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların qorunması üçün əlindən gələni əsirgəmədi. Tarixən yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli sərt sınaqlar qarşısında duruş gətirərək inkişafın əsasına çevrilir. Bu cür milli dövlət modeli isə, ilk növbədə, sağlam cəmiyyətdə intişar taparaq xalqın mənəvi dəyərlər sisteminə əsaslanır.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın təhsili əslində yenidən quruldu. Ümummilli lider hesab edirdi ki, qabaqcıl kadrları olmayan xalqın inkişaf etmiş dövləti ola bilməz. İqtisadiyyatda yaratdığı yeni sənaye sahələri üçün Ulu öndər keçmiş Sovetlər birliyinin bütün qabaqcıl ali məktəblərində kadrlar hazırladır, minlərlə gənci respublikadan kənara təhsilə göndərirdi. Bilik Günü məktəblərə gedir, təhsilimizin gələcəyi barədə öz vəsiyyətlərini şərh edirdi. Böyük rəhbər bu yanğısı, diqqəti və idrakı ilə həm də hamımızın müəllimi idi. Hər dövrdə, hər cəmiyyətdə tərbiyə o halda uğurlu olur ki, onun əyani şəxsi nümunəsi olsun. Tarix bu nümunəni bizə bəxş etməklə gənc nəslin tərbiyəsi işinə böyük töhfə vermişdir. Milli ruhda tərbiyə alan insanın ən yaxşı ideal nümunəsi Ümummilli liderin mübarizələr və qələbələr dolu bioqrafiyasıdır. Çünki Heydər Əliyev şəxsiyyəti çoxdan Azərbaycanla bütövləşmiş, onun ruhu Azərbaycana, Azərbaycanın ruhu Heydər Əliyevə keçmişdir. Ümummilli liderin Vətəninin milli-mənəvi dəyərlərinə ruhən bu qədər vurğunluğunu da, görünür, elə bu bağlılıqda axtarmaq lazımdır. Heydər Əliyevin milli-mənəvi dəyərlər məsələsində irəli sürdüyü prinsiplər, həmin problemin həlli ilə bağlı

müəyyənləşdirdiyi aydın xətt, atdığı addımlar bəzən əsl mahiyyəti üzrə şərh olunmur və elmi yanaşmalarda müəyyən yanlışlıqlara yol verilir. Ümummilli liderin bu sahədə xidmətlərinin, sadəcə olaraq, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, səhiyyəsinə yüksək qayğı kimi səciyyələndirilməsi bu işlərin gerçək miqyası üçün kifayət etmir. Çünki görülən işlər, sadəcə, qayğı olmaqla məhdudlaşa bilməz.

Bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət edilməsi, Azərbaycan şüurunun, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlardır. Tarixdə xalqına, onun maarifinə xidmət edən rəhbərlər az olmayıb. Amma onların milli dəyərlərdə təcəssüm tapmasına nədənsə nadir hallarda təsadüf olunur. Heydər Əliyev məhz belə rəhbər və dövlət xadimi idi. Milli sözünün ehtiyatla işlədildiyi Sovet dövründə də, Naxçıvanda yaşayanda da, müstəqillik dövründə də dahi rəhbər ən Böyük Azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən sadə və eyni zamanda, zəngin bir sima idi. Ulu öndərin ana dilimizdə parlaq və sərrast nitqi bu dahi insanı əbədi olaraq millilik rəmzi kimi anmağımız üçün kifayətdir.

Ümummilli liderin xalqımız qarşısında xidmətləri çoxdur. Lakin onların arasında böyük rəhbərin natiqlik irsi xüsusilə müqəddəsdir. Heydər Əliyev nitqinin xəlqiliyi azərbaycançılığın ən parlaq təcəssümü idi. Bu gün təsəvvür etmək çətindir ki, sərbəst işlənən doğma ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı. Həmin mübarizələrin tarixində Heydər Əliyevin danılmaz rolu olmuşdur. Ümummilli lider ana dilimizin azadlığı uğrunda iki cəbhədə çalışırdı. Birinci cəbhə bu insanın özünün ana dilində danışması, ikinci cəbhə isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi.

O zamanlar belə bir mübarizəyə qoşulmaq böyük cəsarətin, qətiyyətin və ən əsası isə Vətənə, millətə, onun milli sərvətinə sonsuz məhəbbətin nəticəsi idi. Ulu öndərin ana dilində ilk nitqləri tarixi məna kəsb edirdi. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesi, mən deyərdim ki, bu nitqlərin təsiri ilə başladı. Həm də mühümü odur ki, onlar əyalətdə, xalq kütləsinin içində başladı. Sonralar Ulu öndər Bakıdakı tədbirlərdə də ana dilində danışmaq üçün fürsətlər tapdı. Yaradıcılıq ittifaqlarının, xüsusilə Yazıçılar Birliyinin məclislərində Azərbaycan türkcəsində parlaq çıxışlar etməyə başladı. Rəhbərin rəsmi partiya tədbirlərindəki çıxışları ana dilimizin heç vaxt işlənməmiş siyasi üslubunu yaratmışdı. Bunun özü də tarixi bir xidmət idi. Yad dildə danışan dövlət milli ola bilməz. Ona görə Ulu öndərin nitqləri onun rəhbərlik etdiyi hakimiyyətdə də doğmalıq hissləri yaradırdı. Dövlət məmurları anlayırdılar ki, Heydər Əliyevin yorulmadan qurub yüksəltdiyi Azərbaycan iqtisadiyyatı xalqımızındır və onun dövləti üçündür. Bunu dərk edən, Ulu öndərə sidqlə inanan minlərlə insan sonralar Azərbaycanın müstəqilliyini müdafiə etdi, bu müstəqilliyin memarının yaxın köməkçisi və silahdaşı oldu.

Ümummilli liderin canlı ana dilini öz nitqi ilə zinətləndirməsi onun bu sahədəki xidmətlərinin bir tərəfi idi. Həmin irsin ikinci tərəfi Ulu öndərin rəsmi yolla da ana dilimizin statusunu qaldırmaq üçün misilsiz xidmətləri idi. Mən onlardan ancaq birinin üzərində durmaq istəyirəm. Bu, 1978-ci ildə Konstitusiya qəbul olunanda Azərbaycan dilinin dövlət dili kimi göstərilməsi idi. Həmin dövrdə təhlükəli bir nəzəriyyə ortaya atılmışdı: iddia

olunurdu ki, guya Sovet dövlətində yaşayan bütün insanlar vahid bir millətə - Sovet xalqına çevriliblər. Bu, milli dillərə, mədəniyyətlərə qarşı yönəlmiş nəzəriyyə idi. Belə vaxtda Heydər Əliyev Elmlər Akademiyasında böyük alimlərin iştirakı ilə Konstitusiya layihəsinin müzakirəsini təşkil etdi. Rəhbərin irəli sürdüyü qeyri-rəsmi istiqamət nəticəsində yığıncaqda Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul edilməsi barədə təklif verildi. Milli ziyalı təbəqəsinin bu təklifini Moskva qulaqardına vura bilmədi.

Məhz Heydər Əliyevin vaxtında və onun bilavasitə himayəsi ilə xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən filmlər kinomuzun əsas mövzusu oldu. “Nəsimi”, “Babək”, “Dəli Kür” kimi filmlər gəncliyin milli ruhda tərbiyəsində və sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı. İnamla demək olar ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ədəbiyyat və incəsənətimizdə milli cərəyanın yüksəlişinə səbəb oldu. Ulu öndər Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsa Hüseynov, Anar, Əkrəm Əylisli kimi milli zəminə bağlı və istedadlı sənətkarları daim himayə edirdi. Belə sənətkarlar isə ədəbiyyatın milli varlığımız, dəyərlərimizlə bağlı mövzularını uğurla işləyib inkişaf etdirirdilər.

Heydər Əliyevin irsinin ayrılmaz bir qanadı onun tariximizə və tarix elmimizə qayğısı ilə bağlıdır. Milli keçmişimizi dərindən mənimsəmiş Ulu öndər milli dövlət üçün tarixin və tarix elminin fundamental əhəmiyyətini gözəl bilirdi. Ona görə Nizami Gəncəvinin və Nəsiminin yubileylərinin dünya miqyasında qeyd olunması məqsədilə partiya qərarları verildi. Ulu öndər çox haqlı olaraq hesab edirdi ki, bütün səhv və əyintilərlə yanaşı, 70 illik Sovet hökuməti zamanında xalqımız misilsiz tərəqqi yolu keçib və başlıcası isə, müstəqillik üçün iqtisadi və dövləti əsaslar yaradıb. Həmin əsaslar olmadan indiki müstəqil dövlətimizin varlığı da mümkün deyildi. Heydər Əliyev Sovet Azərbaycanı tarixində Nəriman Nərimanovla başlanan, Səməd Vurğun, Mirzə İbrahimov, Mir Cəlal, Ziya Bünyadov, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev, İsa Hüseynov kimi şair, yazıçı və alimlərin fəaliyyətini qırılmaz milli xətt sayırdı. Təsadüfi deyil ki, hakimiyyətə gəldiyi vaxtdan ilk böyük yubiley 1970-ci ildə Nəriman Nərimanova və 1976-cı ildə Səməd Vurğuna həsr edildi. Onların fəaliyyəti və irsi Ulu öndər üçün əziz və misilsiz dərəcədə qiymətli idi.

Heydər Əliyevin bioqrafiyasının əsas xətlərindən birini onun erməni fitnəkarlığına qarşı mübarizəsi təşkil edir. Respublikanın heç bir rəhbəri Azərbaycanda erməni fitnəsinə qarşı Ulu öndər qədər ardıcıl və sərt mübarizə aparmayıb. Bu mübarizənin dərsləri bu gün çox aktualdır, ondan hər bir müəllim təcrübəsində faydalana bilər və faydalanmalıdır. Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövr ərzində Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərini sevərək öz varlığında yaşadıb, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qoruyub, onun əbədiyaşarlığını təmin edib.

Heydər Əliyevin baxışlar sistemində din yalnız mənəvi dünyanın pəncərəsindən boylanır. Ulu öndər dinin siyasi alətə çevrilməsinə, insanların müqəddəs inanclarının siyasi proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinə heç vaxt imkan verməmişdi. Ulu öndər bu inancları bütün siyasi proseslərin fövqündə saxlamış və qorumuşdu. Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli

ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmişdi. Dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmışdı.

Ümummilli lider Heydər Əliyev xalqın milli-mənəvi dəyərlər sistemində ailənin rolunu daim müstəsna dəyərləndirirdi. Böyük strateq ailəni, eyni zamanda, ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi qiymətləndirir, xalqın mənəvi kamillik səviyyəsinin təmin olunmasında, genefondunun saflığının qorunmasında əhəmiyyətini daim önə çəkirdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Ulu öndər Heydər Əliyevin möhkəm mənəvi təməl və niyyətlər, ülvi arzular üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda böyük rəğbət hissi doğurur. Bu ailənin ən böyük xoşbəxtliyi isə onun hər bir üzvünün cəmiyyət üçün gərəkli, faydalı şəxsiyyət olmasındadır. Bəli, Heydər Əliyevin möhkəm təməl üzərində əsasını qoyduğu ailə öz xoşbəxtliyini məhz xalqa layiqli xidmətdə görür!

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli addımları ilə sübuta yetirən Azərbaycan Prezidenti İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı statusu təkcə onun siyasi portretini zənginləşdirən əlavə ştrix deyil, həm də siyasi kontekstdə cənab İlham Əliyevin siyasi çəkisini artıran amil kimi nəzərə çarpır. Bu gün Prezident İlham Əliyevi, eyni zamanda, Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük.

Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz.

Heydər Əliyev Fondu xalqın milli varlığını özündə yaşadan maddi-mənəvi və intellektual irsə diqqət və qayğı ilə yanaşır, milli mədəniyyətimizin dünya arenasına çıxmasına və təbliğinə ciddi dəstək verir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt isə məhz milli genefondun qorunması, saf dəyər və duyğuların ictimai şüurda intişar tapmasıdır.

**VÜQAR MUSTAFAYEV**
*vugar.mustafayev@mdu.edu.az*
**GÜNEL KƏRİMLİ**
*gunel.karimli@mdu.edu.az*
*Mingəçevir Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEV - LİDERLİYİN PARLAQ NÜMUNƏSİ

*Dövlətçiliyin nəzəriyyəsi ilə təcrübəsinin möhkəm vəhdətinə nail olmaq və bütün bunları özünün intellektual qabiliyyətləri ilə əlaqələndirmək Heydər Əliyev fenomeninin əsaslarını təşkil edir. Heydər Əliyevin unikallığını səciyyələndirən xüsusiyyətlər saysız-hesabsızdır. Məhz Heydər Əliyevin siyasi dühası, iradəsi, enerjisi, ağlı, təcrübəsi, xarizması kimi mühüm dövlət xadimi keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və vətəninə sevgisi nəticəsində müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi. Məqalədə Azərbaycanda liderlik məktəbinin, bugünkü yeni və müstəqil Azərbaycanın yaradıcısı Heydər Əliyevin misilsiz xidmətlərindən bəhs olunur. Hər zaman xalqın gələcəyini düşünməklə, Heydər Əliyev lider kimi bütün həyatını canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə və inkişafına həsr etmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, lider, Ulu öndər, fenomen, müstəqil*

Cəmiyyəti, xalqı, eləcə də kiçik bir qrupu ədalətlə idarə etmək, onları razı salmaq, konkret amal uğrunda səfərbər etmək əsl siyasi peşəkarlıq, liderlik məharəti tələb edir. Böyük siyasi lider daim öz cəsarəti, çevik və rasional qərarları, ən çətin situasiyalarda optimal çıxış yolu tapmaq məharəti ilə seçilən parlaq şəxsiyyətdir. Lider enerjisi və natiqlik məharəti ilə, əhatəsində olan insanların tələbatlarını və ehtiyaclarını ifadə edə bilmək bacarığı ilə fərqlənir. Lider cəmiyyətdə ayrı seçkiliyə yol vermədən zamanın nəbzini tutmaqla, hadisələrə real qiymət verə bilməyi bacarır, siyasi potensialını düzgün qiymətləndirərək, cəmiyyətdə olan siyasi prosesləri istiqamətləndirməyə nail ola bilir. Beləliklə də, milli inkişafın əsasına çevrilən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilir.

Böyük siyasi liderlərə xas olan əsas səciyyəvi cəhətlərdən biri də siyasi intuisiyaya malik olmaq, uzaqgörənliklə hadisələrin gedişinə təsir göstərmək, onu qabaqlamaq bacarığına malik olmaqdan ibarətdir. Qeyd edilən intuisiya və uzaqgörənliyin nəticəsi olaraq, tarixən bir çox nüfuzlu liderlər siyasətdə qarşıya qoyduqları məqsədlərə çataraq uğur qazanmış, rəhbərlik etdiyi xalqı böyük fəlakətlərdən və faciələrdən qorumuşlar.

Liderlik haqqında mövcud olan çox sayda siyasi-nəzəri təlimlərdə liderlər öz ölkələrinin hərbi-siyasi, diplomatik, təhlükəsizlik, sosial-iqtisadi, ideoloji və mədəni strukturu formalaşdıran qurucuları kimi xalq və dövlət vəhdətində, həm də ölkə hüdudlarından kənarda real liderlik aparan şəxsiyyətlər kimi qiymətləndirilir.

Liderlik haqqında qeyd edilən bütün keyfiyyətlər dövlət rəhbərindən Ümummilli liderliyə qədər yüksələn, həm ölkəmizdə, həm də qlobal dünyada-qətiyyətli strateq rəhbər kimi qəbul olunan, güclü, siyasi iradəyə malik olan, xarizmatik, fenomen şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin fəaliyyətində və şəxsində formalaşır. Müstəqil

Azərbaycanın suveren hüquqlarının qorunub möhkəmləndirilməsində, xilaskarlıq missiyasını ölkədə həyata keçirən Ulu öndər müasir Azərbaycanda liderlik məktəbinin yaradıcısı oldu. Hər zaman xalqın gələcəyini düşünməklə, Heydər Əliyev lider kimi bütün həyatını canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə və inkişafına həsr etmişdir.

Hakimiyyətinin birinci dövrünü əhatə edən 1969-1982-ci illərdə Ulu öndər olduqca gərgin, həm də mürəkkəb bir şəraitdə Azərbaycanı Sovet İttifaqının qabaqcıl respublikalarından birinə çevirdi. Heydər Əliyev bütün ömrünü doğma xalqına həsr etdi. Sovet rejiminin bütün xüsusiyyətlərinə dərin bələd olan Ulu öndər zəngin idarəçilik təcrübəsi və uzaqgörənliklə Azərbaycanın uzunmüddətli, dinamik, hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırladaraq, dərhal bu proqramların icrasına başladı. Azərbaycana rəhbərlik etdiyi həmin illərdə hər cür maneələri dəf etdi, Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərarın qəbul etməsinə nail oldu. Nəticədə sənayenin, kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Bu illər Azərbaycanın tarixinə parlaq quruculuq dövrü kimi daxil oldu. Elmi-texniki tərəqqinin nailiyyətləri və texnologiyanın istehsalata tətbiqi ilə Azərbaycanda istehsal olunan məhsulların keyfiyyət göstəricisi xeyli yüksəldi və ölkəmiz bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. Qısa dövr ərzində ölkə ərazisində çox sayda zavod, fabrik, istehsalat sahələri yaradıldı. Ümummilli lider bugünkü yeni və müstəqil Azərbaycanı hələ o zamandan qurmağa başlamışdı (2).

Hakimiyyətə ikinci dəfə qayıdışı ilə 1993-cü ilin iyun ayında Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. 15 iyun günü Qurtuluş Günü adlandırıldı. Heydər Əliyevin hakimiyyətinin ikinci dövrü ölkəmizdə müstəqilliyin əbədi, dönməz xarakter alması, dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadi inkişaf üçün möhkəm təməl yaradıldı. Bu dövr milli-mənəvi yüksəliş, hər kəsin özünü ölkənin layiqli vətəndaşı kimi dərk etməsi ilə müasir tariximizə əbədi həkk olunub. Ölkədə siyasi sabitlik əldə edildi və xarici ölkələrlə əlverişli əlaqələr quruldu. Ümummilli liderin xarici ölkələrə çoxsaylı səfərləri ilə Azərbaycanın dünyanın bir çox inkişaf etmiş ölkələri ilə əlaqələri yaradıldı və möhkəmləndirildi. Beləliklə də, ölkəmizə uğur gətirən və bu gün də davam etdirilən xarici siyasət xəttinin tətbiqinə başlandı. Qardaş Türkiyə ilə "bir millət-iki dövlət" prinsipinə əsaslanan əlaqələr daha da möhkəmləndi. ABŞ, Rusiya və Avropa ölkələri ilə dostluq və strateji tərəfdaşlıq münasibətlərinin yaradılmasına nail oldu (1).

Siyasi sabitlik və tərəfdaş ölkələrlə əlverişli əlaqələr qurulduqdan sonra ölkə iqtisadiyyatının inkişafı ilə bağlı çoxlu sayda islahatlara start verildi. Ümummilli liderin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlanıldı. Ümummilli liderin özünün də dediyi kimi, bunlar Azərbaycanın müstəqilliyinin əbədi olmasını təmin edən mühüm addımlar idi.

Böyük strateq Heydər Əliyev Azərbaycanın həqiqi müstəqilliyinin təmin edilməsi üçün hər bir fərdin mənafeyinə cavab verən hüquqi islahatların aparılmasını da təmin etmişdir. 1995-ci il noyabrın 12-də ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirən,

insan hüquq və azadlıqlarının təminatının dövlətin ali məqsədi kimi ön planda olan müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. İnsan hüquqları ilə bağlı müddəaların Konstitusiyada olan ümumi müddəaların üçdə ikisini əhatə etməsi Ulu öndərin insan hüquqlarına necə böyük həssaslıqla yanaşmasının təcəssümüdür.

Xalqımızın taleyində müstəsna rol oynamış Ulu öndərin xatirəsini uca tutmaq və adının əbədiləşdirilməsi istiqamətində ictimai rəyi nəzərə almaqla ölkə başçısı İlham Əliyev 10 mart 2004-cü ildə imzaladığı "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanla Heydər Əliyev mükafatı və ordeni təsis edilmiş, Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" Xatirə Memorial Kompleksləri yaradılmış, Azərbaycan Ali Hərbi Məktəbinə, Bakı Beynəlxalq Aeroportuna, Bakı Dərin Özüllər Zavoduna, Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna, Respublika sarayına, Bakı şəhərindəki İdman-Konsert Kompleksinə, habelə paytaxtın ən böyük küçə və meydanlarından birinə Ulu öndər Heydər Əliyevin adı verilmişdir.

Fərmanda yer almış mühüm müddəalardan biri də Heydər Əliyev Fondunun yaradılması oldu. Heydər Əliyev Fondu ictimai əsaslarla fəaliyyət göstərir və Fondun yaradılmasında əsas məqsəd ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması üçün Ümummilli liderin müəyyən etdiyi siyasi kursun öyrənilməsi, təbliği və reallaşdırılmasıdır.

Bakı şəhərinin mərkəzində müasir memarlığın cizgilərini əks etdirən Heydər Əliyev Mərkəzinin inşası ölkə Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli "Heydər Əliyev Mərkəzinin yaradılması haqqında" Sərəncamı ilə inşa olunmuşdur.

Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan həm milli iftixar duyğusu, həm də bugünümüzün və sabahımızın mahiyyətidir, hərəkətverici qüvvəsidir. Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu, Heydər Əliyev siyasəti, Heydər Əliyev fəlsəfəsi, Heydər Əliyev ideologiyası bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük əzm və inamla davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu gündən-günə gücləndirir.

Ümummilli liderin 2003-cü ildə xalqa müraciəti zamanı demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu fikirlər ölkə Prezidenti İlham Əliyevin gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası isə 44 günlük Vətən müharibəsində qələbəmizə bələdçilik edir.

Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın uğurları isə Heydər Əliyev dühasının parlaq qələbəsi, möhtəşəm təntənəsidir!

## ƏDƏBİYYAT

1. Əliyev Heydər. Müstəqillik yolu. Azərbaycan Universiteti. 1997
2. Qayıdış. Bakı: "Azərbaycan" nəşriyyatı. 2008

**SUMMARY**

**Vugar Mustafayev, Gunel Karimli**

**HAYDER ALIYEV - BRILLIANT EXAMPLE OF LEADERSHIP**

Achieving a solid unity of the theory and practice of statehood and connecting all this with his intellectual abilities are the foundations of Heydar Aliyev's phenomenon. There are countless features that characterize the uniqueness of Heydar Aliyev. The independent state of Azerbaijan was established and strengthened as a result of Heydar Aliyev's political genius, will, energy, mind, experience, charisma, important statesman qualities, tireless activity, and love for his people and homeland. The article talks about the incomparable services of Heydar Aliyev, the founder of the leadership school in Azerbaijan, today's new and independent Azerbaijan. Always thinking about the future of the people, Heydar Aliyev as a leader dedicated his whole life to the progress and development of Azerbaijan, which he loved more than his life.

***Key words:*** *Heydar Aliyev, leader, Great Leader, phenomenon, independent*

**РЕЗЮМЕ**

**Вугар Мустафаев, Гюнель Керимли**

**ГАЙДЕР АЛИЕВ – БЛЕСТЯЩИЙ ПРИМЕР ЛИДЕРСТВА**

Достижение прочного единства теории и практики государственности и соединение всего этого с его интеллектуальными способностями составляют основу феномена Гейдара Алиева. Есть бесчисленное множество черт, характеризующих уникальность Гейдара Алиева. Именно благодаря политическому гению, воле, энергии, уму, опыту, харизме, важным качествам государственного деятеля, неутомимой деятельности, любви к своему народу и Родине Гейдара Алиева было создано и укреплено независимое Азербайджанское государство. В статье рассказывается о несравненных заслугах Гейдара Алиева, основателя школы лидерства в Азербайджане, сегодняшнем новом и независимом Азербайджане. Всегда думая о будущем народа, Гейдар Алиев как лидер всю свою жизнь посвятил прогрессу и развитию Азербайджана, который любил больше жизни.

***Ключевые слова:*** *Гейдар Адиев, лидер, Великий Лидер, феномен, независимое*

**FAİQ YUSİFLİ**
*faiq.yusifli@mdu.edu.az*
*Mingəçevir Dövlət Universiteti*

# MUSİQİ VƏ FƏLSƏFƏ

*Musiqi və fəlsəfə, insan tərəfindən ifadə olunan düşüncə və incəsənəti araşdıran iki sahədir. İkisi birlikdə, insanın mənəvi, düşüncəvi və duyğusal təcrübələrinin daha dərin mənalarını və anlamlarını açığa çıxarmağa kömək edir.*

*Musiqi, səs və ritmin qarışığı olan səslənmə formasıdır. Bu, insanın iç dünyasını ifadə etmə, duyğusal və ruhən təcrübələrini paylaşma və başqalarına təsir etmə yolu kimi xidmət edir. Musiqi, dil barədə çatışmazlıqlar və limitlər olmadan insanları birləşdirən universal bir səslənmə yoludur.*

*Fəlsəfə isə insan düşüncəsinin və dünyagörüşünün sistematik tədqiqatıdır. Fəlsəfə, insanın varoluşu, mənəviyyatı, bilik, etika və cəmiyyətə dair sualları araşdırır. Bu, insanın dərin təfəkkürə səslənməsi, düşüncələrini təhlil etməsi və dünyaya mənəvi bir perspektivlə yanaşmağı təşkil edir.*

*Musiqi və fəlsəfə bir-birini tamamlayan sahələrdir. Musiqi, fəlsəfi düşüncəni ifadə etmək, mənəvi incəsənəti təcrübə etmək və insanların düşüncələrini, hisslərini və mənəvi əhəmiyyətlərini ifadə etmək üçün bir vasitədir. Fəlsəfə isə musiqinin ardındakı mənanın, mesajın və mədəni ifadənin anlaşılması və tədqiq edilməsi üçün bir rəhbərdir. Musiqi fəlsəfəsi, musiqinin mənasını, funksiyalarını və mənəvi təsirini araşdırır. Musiqinin tərkib hissiyyatını, estetik zövqünü, yaradıcılığı və mənəvi incəsənəti necə ifadə etdiyini müəyyən etmək üçün fəlsəfi düşüncənin məzmunu və alətləri istifadə edilir. Fəlsəfi analizlər, musiqinin sözlərində, melodiyalarında, harmoniyasında və ifadə üslubunda ənənəvi və mədəni məntiqin ifadəsi olduğunu göstərir. Musiqi fəlsəfəsi, musiqinin ifadə etdiyi düşüncələr, hisslər və mədəni idealların araşdırılmasına kömək edir. İnsanların musiqi vasitəsilə düşüncələrini ifadə etmələri, mənəvi təcrübələrini paylaşmaları və mədəniyyətlərinə dair dəyərlərini ifadə etmələri mümkündür.*

***Açar sözlər:*** *musiqi, fəlsəfə, mənəviyyat, estetika, incəsənət*

## Giriş

Musiqi və fəlsəfə dərin mədəni sahələrdir. Hər ikisi də insanın iç dünyasını, mənəvi və düşüncəvi təcrübələrini və insanlığın mədəni inkişafını tədqiq edir. Musiqi və fəlsəfənin birlikdə tədqiq edilməsi, insanların musiqinin ardındakı mənanın və əhəmiyyətin daha dərin anlaşılmasına və təfəkkürün genişlənməsinə imkan verir. Musiqi və fəlsəfə iki kompleks və zəngin sahədir. İkisi birgə işləyərək insan düşüncəsinin, hisslərinin, mənəviyyatının və incəsənətinin çeşidli aspektlərini əks etdirir. Musiqi və fəlsəfə, insan tərəfindən təşkil edilən ən yüksək ifadə forması kimi qiymətləndirilən iki sahədir. Musiqi, səslər, melodiya və ritmin bir-biri ilə uyğunlaşdığı, hissiyyatı təsirləyən və insanları birləşdirən bir dil kimi təsvir edilə bilər. Fəlsəfə isə düşünmə prosesləri, dünyagörüşləri, mənəvi inkişaflar və ən çətin suallara cavab axtaran disiplin kimi tanınır. Bu iki sahənin birgə mövcudluğu insanın düşünmə, ifadə etmə, mənəvi incəsənət və insanlığın mənasına dair suallara cavab axtarmaq imkanını verir (Məmmədova. 2009. s.21-29).

**Musiqi və fəlsəfə arasında qarşılıqlı əlaqə**

Musiqi və fəlsəfə arasında bir əlaqə mövcuddur, çünki hər ikisi də insanın düşünmə və mənəvi incəsənətinin bir təzahürüdür. Musiqi, insanların duyğularını ifadə etmək, ruh halını dəyişdirmək, mənasal təcrübələr yaratmaq və mənəvi bağlantı qurmaq üçün bir vasitədir. Musiqi və fəlsəfə arasında mövcud olan əlaqələrə bəzi nümunələri qeyd edə bilərik:

1. Mənəvi məqamların ifadəsi: Musiqi, mənəvi mövzuları ifadə etmək üçün güclü bir vasitədir. Fəlsəfi düşüncələr və ideyalar, musiqinin sözlərində, melodiyalarında və ifadə üslubunda ifadə oluna bilər. Musiqi vasitəsilə mənəvi məqamlar, mənəvi dəyərlər və insanın ruh halı ifadə edilir;

2. Estetik ifadənin gücü: Musiqi və fəlsəfə, estetika sahəsində güclü bir əlaqə qurur. Fəlsəfi düşüncələr, musiqinin estetik ifadəsini təşkil edərək, onun ifadə qabiliyyətini və estetik mənasını artırır. Musiqi, estetik təcrübəni gücləndirir və insanları mənəvi incəsənətə doğru hərəkət etdirir;

3. Mədəniyyətin ifadə vasitəsi: Musiqi və fəlsəfə, bir mədəniyyətin ifadə vasitələri olaraq bir-birini tamamlayır. Fəlsəfi düşüncələr, musiqinin mədəniyyətin ənənəvi, mədəni və fəlsəfi mədəniyyətini təmsil etməsinə imkan verir. Musiqi, fəlsəfənin ideyalarını, düşüncə sistemlərini və mədəni mənbələrini səsləndirir;

4. İnsan mənəviyyatının təminatı: Musiqi, insanın mənəvi dünyasına təsir edən bir qüvvədir. Fəlsəfi düşüncələr, musiqi vasitəsi ilə insanların mənəvi incəsənətləri, duyğusal və ruhani təcrübələri üzərində mənəvi təsir yarada bilər. Musiqi, mənəviyyatın ifadəsi, mənəvi inkişaf və bərabərlik hissinin formalaşması üçün bir məkan təşkil edir;

5. Düşünməyə təşviq: Musiqi, fəlsəfi düşüncəni təşviq edir və dinləyiciləri düşünməyə, təfəkkür etməyə və mənəvi dünyanın incəsənətinə dair düşüncələrə səslənir. Müxtəlif musiqi nümunələri, dinləyiciləri tədqiqat etməyə, müəyyən bir məsələnin fəlsəfi, etik və mənəvi aspektlərini düşünməyə şərait yaradır (Cəfərova. 2021. s.22-30).

**Musiqi fəaliyyət növlərində fəlsəfə**

Musiqi, insanların ruh halını, enerji səviyyəsini və motivasiyasını təsirləyən bir formadır. İnsanlar musiqi dinləyərək rahatlayır, motivasiya qazanır, hisslərini ifadə edir və bir əhval-ruhiyyəyə dalmağa imkan verir. Musiqi dinləmədə fəlsəfi düşüncənin bir neçə önəmli rolu mövcuddur:

1. Anlamın tədqiqi: Fəlsəfi düşüncə, musiqinin ardındakı məna və əlamətləri tədqiq etmək imkanı verir. Musiqi, çoxlu səslənmələrə, simvollara və metaforlara sahib ola bilir. Fəlsəfi düşüncə, musiqinin ifadə etdiyi mənanın altındakı dərinlikləri aşkar etməyə, onu mənəvi, filosofik və insanı düşünmələrə səsləyir;

2. İnsan psixologiyasının tədqiq edilməsi: Musiqi, insanların duyğusal və ruh hisslərinə təsir edən bir səslənmə formasıdır. Fəlsəfi düşüncə, musiqi vasitəsilə insanların öz hisslərini, düşüncələrini və psixologiyasını tədqiq etməyə səsləyir. Musiqi dinləmə zamanı, fəlsəfi düşüncə, insanın musiqi vasitəsilə təcrübə etdiyi hissiyyatları və reaksiyaları anlamağa kömək edir;

3. Varoluşun mənası və insanın mövcudluğu: Fəlsəfi düşüncə və musiqi, insanın varoluşunun mənasını araşdırmaqda bir-birinə dəstək verir. Musiqi vasitəsilə insanlar, varoluşları və mövcudluqları haqqında əsaslı suallarla məşğul olaraq, fəlsəfi düşüncə ilə bu suallara cavab axtarmağa çalışırlar. Musiqi, insanın mövcudluğunun ən dərin təcrübələrini

ifadə edən bir yolla insanları mənəvi dünyaya doğru hərəkət etdirir;

4. Düşüncələrin təhlili və yaradıcı ifadə: Fəlsəfi düşüncə, musiqi dinləmə zamanı insanların düşüncələrini təhlil etməyə, yeni fikirlər və perspektivlər yaratmağa imkan verir. Musiqi, insanların mədəni, fərqli düşüncə sistemləri və ideyalara diqqət yetirməsinə imkan verir (Məmmədova. 2004. s.54-62).

Mahnı oxumada fəlsəfi düşüncənin rolu və əhəmiyyəti çoxdur. İstifadə edilən sözlər, ifadələr və musiqinin təsiri vasitəsilə mətnin fəlsəfi mənası və məqsədi açıqlanır. Aşağıda mahnı oxumada fəlsəfi düşüncənin roluna dair bir neçə məqam qeyd edilmişdir:

1. Mənanın təhlili: Mahnı sözləri, fəlsəfi düşüncəni ifadə edən mənaları və ideyaları bərpa edir. Şərh edilmiş mətn, mənasal təcrübələri, düşüncə sistemlərini və mənəvi konsepsiyaları ola bilər. Fəlsəfi düşüncə, mahnının ardındakı mənanın, mesajın və fikirlərin təhlilinə kömək edir;

2. İnsan psixologiyasının təsiri: Mahnılar, insanların duyğusal və psixoloji halını təsir edə bilər. Fəlsəfi düşüncə, mahnının ifadə etdiyi hissiyyatları, düşüncələri və mənəvi boyutları anlamağa kömək edir. Mahnılar vasitəsilə insanlar, öz psixologiyalarını və mənəvi inkişaflarını daha yaxşı anlaya bilər;

3. İnsanlığın mənəvi məsələləri: Mahnılar, insanlığın mənəvi, etik və filosofik məsələlərini təmsil edə bilər. Fəlsəfi düşüncə, mahnı vasitəsilə insanları mənəvi dünyaya doğru hərəkət etdirərək, insanın varoluşunun mənası, mövcudluğun mənası, sevgi, həsr, həyatın mənası və digər məsələlər barədə təfəkkür etməyə səsləyir;

5. Yaradıcılığın ifadəsi: Mahnı oxuma, ifadənin bir formu olduğu üçün fəlsəfi düşüncənin ifadə edilməsində güclü bir alətdir. Mahnılar, yaradıcılığın ifadəsini və fərqli düşüncələri ifadə etmək üçün bir sahə təşkil edir (Məmmədova. 2004. s.82-92).

Musiqili ritmik hərəkətlər, fəlsəfi düşüncənin ifadəsini və təcrübəsini daha intensiv şəkildə nümayiş etdirən bir formadır. Bu hərəkətlər, musiqinin ritmi və melodiyası ilə birlikdə insanın hərəkət etməsi, dans etməsi, ritmik ifadələrini göstərməsi və mədəni, mənəvi və filosofik bir mesajı ifadə etməsi üçün bir alətdir. Fəlsəfi düşüncənin musiqili ritmik hərəkətlərlə olan əlaqəsi bir neçə açıdan məhdud deyil:

1. Bədən və ruh uyğunu: Musiqili ritmik hərəkətlər, insanın bədən və ruhunu birləşdirərək bir bütün kimi ifadə etməsinə imkan verir. Bu hərəkətlər vasitəsilə insanlar, fəlsəfi düşüncəni bədən dili ilə ifadə edərək mənəvi incəsənəti və düşüncələri fərqli bir təcrübə ilə yanaşdırmaq imkanına malik olurlar;

2. İfadənin estetik qüvvəsi: Musiqi və ritmik hərəkətlər, estetik zövqlərin və ifadənin güclü bir kombinasiyasını yaradır. Fəlsəfi düşüncənin musiqili ritmik hərəkətlərlə əlaqəsi, ifadənin görsəl və səsli tərəfinin birlikdə qüvvəli bir mədəni təsir yaratmasına imkan verir;

3. Toplumun mədəni və mənəvi ifadəsi: Musiqili ritmik hərəkətlər, bir toplumun mədəni və mənəvi ifadəsinin bir formasıdır. Fəlsəfi düşüncənin musiqili ritmik hərəkətlərlə əlaqəsi, bir toplumun mənəvi, filosofik və etik dəyərlərini ifadə etmək, ictimai məsələləri müzakirə etmək və insanların birlik və əlaqələrinə diqqət çəkmək üçün bir alət kimi istifadə edilməsinə imkan verir.

Musiqi alətində ifa, fəlsəfi düşüncənin ifadəsini mümkün qılan bir vasitədir. Alətin ifa edilməsi, fəlsəfi düşüncənin musiqi yolu ilə ifadə olunmasına və təcrübə olunmasına imkan

verir. İfa, alətin səslənməsi, təsiri və mənəvi incəsənəti vasitəsilə insanların düşüncələrini, duyğularını və mənəvi təcrübələrini ifadə etməsinə imkan verir. Alətin ifası ilə fəlsəfi düşüncənin əlaqəsi bir neçə cür təzahür edə bilər:

1. İfadənin mətnində: Musiqi aləti, fəlsəfi düşüncənin ifadə olunduğu mətnin səslənməsində və ifadə üslubunda əhəmiyyətli bir rola malikdir. Fəlsəfi düşüncənin musiqi aləti vasitəsilə ifa edilməsi, mətnin mənasını və ideyalarını səsləndirməyə, hiss etməyə, dinləyicilərə mənəvi təcrübələr yaşatmağa imkan verir;

2. İfadənin ifa tərzində: Musiqi aləti, ifanın təcrübəsini və ifadəsini dəyişən bir səslənmə formasıdır. Fəlsəfi düşüncənin ifa edilməsi, alətin ifa tərzinə və təcrübəsinə yansıyaraq, musiqi alətinin səsi, təsiri və musiqi elementləri vasitəsilə fəlsəfi ideyaların ifadəsinə yeni bir boyut əlavə edir;

3. İfadə üslubunda: Musiqi aləti, ifa edilən fəlsəfi düşüncənin ifadə üslubunu formalaşdırmaq üçün bir alətdir. Alətin səsi, məlumatları səsləndirmə və ifadənin tərzi, fəlsəfi düşüncənin ifadəsini zənginləşdirərək, dinləyicilərə mənəvi bir təcrübə yaşadır.

**Nəticə**

Nəticə olaraq, musiqi və fəlsəfə, insanların mənəvi, düşüncəvi və ifadəvi yönünü zənginləşdirən və insanlar arasında mədəni, əhəmiyyətli bir bağlantı quran iki sahədir. Bu iki sahənin birlikdə tədqiqatı, insanın varoluş məsələləri, düşüncələri, hissləri və insanlığın mədəni inkişafı barədə daha geniş bir anlayışa və perspektivə sahib olmamıza kömək edir.

## ƏDƏBİYYAT

1. Mehriban C. Musiqi məşğələlərində bədii zövqlərin formalaşdırılması. Naxçıvan. “Qeyrət” nəşriyyatı. 2021
2. Məmmədova İ. Musiqi pedaqogikası. “Beynəlxalq Universitet” nəşriyyat və poliqrafiya mərkəzi. Bakı: 2009
3. Məmmədova İ. Uşaqların musiqi dünyası. “Təfəkkür” Nəşriyyat-Poliqrafiya Mərkəzi. Bakı: 2004

## SUMMARY

**Faig Yusifli**

## MUSIC AND PHILOSOPHY

Music and philosophy are two fields that examine thought and art as expressed by humans. Together, the two help reveal the deeper meanings and meanings of one's spiritual, intellectual, and emotional experiences.

Music is a form of vocalization that is a mixture of sound and rhythm. It serves as a way to express one's inner world, share emotional and spiritual experiences, and influence others. Music is a universal way of communication that connects people without the limitations and limitations of language.

Philosophy is the systematic study of human thought and worldview. Philosophy examines questions about human existence, spirituality, knowledge, ethics, and society. This is a person's call to deep thinking, analyzing his thoughts and approaching the world

with a spiritual perspective.

Music and philosophy are complementary fields. Music is a means of expressing philosophical thought, experiencing spiritual art, and expressing people's thoughts, feelings, and spiritual significance. And philosophy is a guide to understanding and exploring the meaning, message, and cultural expression behind music. The philosophy of music examines the meaning, functions, and spiritual influence of music. The content and tools of philosophical thought are used to determine how music expresses its constituent emotion, aesthetic taste, creativity, and spiritual art. Philosophical analyzes show that music is an expression of traditional and cultural logic in its lyrics, melodies, harmony, and style of expression. The philosophy of music helps examine the thoughts, feelings, and cultural ideals that music expresses. It is possible for people to express their thoughts, share their spiritual experiences and express their cultural values through music.

***Key words:*** *music, philosophy, spirituality, aesthetics, art*

**РЕЗЮМЕ**

**Фаиг Юсифли**

**МУЗЫКА И ФИЛОСОФИЯ**

Музыка и философия - это две области, изучающие мысль и искусство, выраженные людьми. Вместе они помогают раскрыть более глубокие смыслы и значения своих духовных, интеллектуальных и эмоциональных переживаний.

Музыка - это форма вокализации, представляющая собой смесь звука и ритма. Он служит способом выражения своего внутреннего мира, обмена эмоциональными и духовными переживаниями и влияния на других. Музыка - универсальный способ общения, соединяющий людей без ограничений и ограничений языка.

Философия - это систематическое изучение человеческого мышления и мировоззрения. Философия исследует вопросы о человеческом существовании, духовности, знаниях, этике и обществе. Это призыв человека к глубокому размышлению, анализу своих мыслей и подходу к миру с духовной точки зрения.

Музыка и философия дополняют друг друга. Музыка является средством выражения философской мысли, переживания духовного искусства, выражения мыслей, чувств и духовного значения людей. А философия - это руководство к пониманию и исследованию значения, послания и культурного самовыражения, лежащих в основе музыки. Философия музыки исследует значение, функции и духовное влияние музыки. Содержание и инструментарий философской мысли используются для определения того, как музыка выражает составляющие ее эмоции, эстетический вкус, творчество и духовное искусство. Философский анализ показывает, что музыка является выражением традиционной и культурной логики в своих текстах, мелодиях, гармонии и стиле выражения. Философия музыки помогает исследовать мысли, чувства и культурные идеалы, которые выражает музыка. Люди могут выражать свои мысли, делиться своим духовным опытом и выражать свои культурные ценности через музыку.

***Ключевые слова:*** *музыка, философия, духовность, эстетика, искусство*

**PƏRVİN HÜSEYNOVA**
*parvin.huseynova@mdu.edu.az*
*Mingəçevir Dövlət Universiteti*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN ƏDƏBİYYATINA QAYĞISINA KİÇİK BİR NƏZƏR

*Azərbaycan ədəbiyyatının bütün dövrlərinə eyni həssaslıqla yanaşan Heydər Əliyevin ilk olaraq millilik düşüncəsini qəhrəmanlıq dastanımız "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin dünya səviyyəsində keçirilməsində görürük.*

*Ədəbiyyata xalqın tarixi yaddaşının güzgüsü kimi baxan, onu "xalqın intellektual mülkiyyəti" adlandıran Heydər Əliyev Sovetlər dövründə Nizami dühasının tədqiqi və təbliği üçün qərarlar qəbul edib.*

*Nizami kimi Nəsimiyə də abidə qoyulması, film çəkilməsi ilə yanaşı, geniş tədqiqatlar aparılması, kitablar yazılması, əsərlərinin tərcümə edilməsi, geniş şəkildə nəşr edilib yayılması ədəbiyyatımıza və mədəniyyətimizə ən böyük töhfə idi.*

*Heydər Əliyevin Türk dünyasının dahi söz ustadı Məhəmməd Füzuliyə münasibəti və qayğısı olduqca təqdirəlayiqdir. Füzuliyə göstərilən laqeyd münasibəti qəbul etməmiş və nəinki lokal birbaşa beynəlxalq miqyasda tədbirlərin keçirilməsinə nail olmuşdu.*

*Heydər Əliyev Cəlil Məmmədquluzadənin yaradıcılığına dərindən bələd olsa da, dəryaya bənzətmiş, böyük hörmət və sevgi ilə yanaşmış, haqqında həmişə dəyərli fikirlər söyləmişdir.*

*Ümummilli lider Hüseyn Cavidin yaradıcılığını həm bədii, həm elmi, həm də fəlsəfi baxımdan araşdırılmasının, öyrədilməsinin vacibliyini həmişə qeyd etmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, milli ədəbiyyat, söz xəzinəsi*

Ədəbiyyatı xalqın mənəviyyatı, milli kimlik tarixi olaraq dəyərləndirən özünün Azərbaycan xalqına, dövlətinə olan sevgisini az qala bütün nitqlərində ədəbiyyatla əlaqələndirən Ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini ədəbiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır" (1).

Hərtərəfli ədəbiyyat biliyinə malik olan Heydər Əliyev ədəbiyyatın öyrənilməsinin və yaşadılaraq gələcək nəsillərə ötürülməsinin, xalqın gələcəyi üçün əhəmiyyətini həmişə yüksək qiymətləndirmiş, dövlət siyasətinin tərkib hissəsi olaraq görmüş, qayğısına qalmış və demişdir: "Ədəbiyyata, elmə, mədəniyyətə qayğı, diqqət həmişə olmalıdır" (1). Hələ kiçik yaşlarından ədəbiyyata marağı olan, çoxlu şeirlər əzbərləyən Heydər Əliyev uşaqların, gənclərin yetişdirilməsində, onların dünyagörüşünün formalaşmasında ədəbiyyatın əhəmiyyətini tez-tez öz nitqlərində dilə gətirmişdir. Heydər Əliyev öz şəxsi həyatına ədəbiyyatın təsirini vurğulayaraq demişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları

unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam" [1].

Heydər Əliyevin xalqımızın zəngin bədii ədəbiyyatına münasibətini aşağıdakı nitqində daha aydın görə bilərik: "Bu gün ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir" (2). Bu fikirlərin davamını, Heydər Əliyevin millilik düşüncəsini "Kitabi-Dədə Qorqud" dastanına münasibətində şahidi oluruq. Ümummilli liderimiz qəhrəmanlıq dastanımıza xalqımızın milli keçmişini müəyyənləşdirən, mübarizlik tariximizə şahidlik edən sanballı, dəyərli, ədəbi, milli, tarixi sübut və əsaslı dəlil kimi yanaşmışdır. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin dünya səviyyəsində keçirilməsinin vacibliyini, önəmini qeyd edən Heydər Əliyev deyirdi: "Bu yubiley bizim üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır" (3).

Ədəbiyyata xalqın tarixi yaddaşının güzgüsü kimi baxan, onu "xalqın intellektual mülkiyyəti" adlandıran Heydər Əliyev Azərbaycan ədəbiyyatının bütün dövrlərinə eyni həssaslıqla yanaşmışdır. Sovetlər dövründə Nizami dühasının tədqiqi və təbliği üçün qərarlar qəbul edib nə qədər gecikdirilsə də, dahi Nizaminin 800 illik yubileyinin keçirilməsinə nail olan Heydər Əliyev Nizami Gəncəvi irsinin araşdırılması, nəşri, yayılması, yenidən tərcümə edilməsi və yenidən həyat tapmasının səbəbkarı oldu. Yubileyin keçirilməsinin əhəmiyyətini vurğulayan Heydər Əliyev demişdir: "...Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq" (2). Həqiqətən də, Heydər Əliyevin uzaqgörənliyi nəticəsində keçirilən yubiley çərçivəsində yalnız bədii tədbirlər deyil, elmi konfranslar da təşkil edilmiş, sənətkarın birtərəfli deyil, hərtərəfli araşdırılmasına, Nizaminin Azərbaycan xalqının təkcə şairi kimi dünya klassikləri ilə eyni sırada dayanacaq dahi sənətkar, filosof kimi qəbul edilməsinə və geniş arealda tanınmasına nail olunmuşdu.

Klassik ədəbiyyata qayğı ilə yanaşan Heydər Əliyev Nəsimiyə olan münasibəti gözardı etməmiş onun Azərbaycan ədəbiyyatına yenidən qazandırılması üçün silsilə tədbirlər keçirilməsinə nail oldu. Nizami kimi Nəsimiyə də abidə qoyulması, film çəkilməsi ilə yanaşı, geniş tədqiqatlar aparılması, kitablar yazılması, əsərlərinin tərcümə edilməsi, geniş şəkildə nəşr edilib yayılması ədəbiyyatımıza və mədəniyyətimizə ən böyük töhfə idi.

Ümummilli liderin ədəbiyyata qayğısı Nizami və Nəsimi üçün keçirilmiş təntənəli tədbirlər ilə yekunlaşmadı. Heydər Əliyevin türk dünyasının dahi söz ustadı Məhəmməd Füzuliyə münasibəti və qayğısı da olduqca təqdirəlayiqdir. O, Füzuliyə göstərilən laqeyd münasibəti qəbul etməmiş və nəinki lokal birbaşa beynəlxalq miqyasda tədbirlərin

keçirilməsinə nail olmuşdu. Ümummilli lider: "Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr, adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm də yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir" (3)- demiş və ilk öncə Füzulinin Azərbaycanda yenidən tanıdılmasına və sevilməsinə nail olmuşdur. Heydər Əliyevin qiymətli tövsiyələri əsasında Füzulinin əsərləri kütləvi nəşr edilmiş, tərcüməsi ilə yanaşı, elmi tədqiqatlar aparılmış, dünyada geniş yayılmışdır.

Ulu öndər yubiley çərçivəsində Türkiyədə keçirilən tədbirlərin birində Füzulinin nəinki Azərbaycan, ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi olduğunu dəfələrlə vurğulamış və demişdir: "...Məhəmməd Füzuli 500 ildir yaşayır. Füzulinin törəmələri - onun ideyaları ilə yaşayan, onun əsərlərindən ilham alan türklər, türk xalqları öz həyatını sürür və bugünkü xoşbəxt bir səviyyəyə gəlib çatmışdır. Füzuli haqqında Türkiyədə, Azərbaycanda böyük elmi əsərlər yazılmışdır. Azərbaycanda elə bir yazıçı, şair tapmaq olmaz ki, Füzuli haqqında bir əsər yazmamış olsun" (1). Ümummilli liderin bu nitqindən də görürük ki, keçirilən tədbirlər nəticəsində Füzulinin türk dünyasında öz yerini, dəyərini yenidən bərpa etmiş, sevilmiş və daha geniş coğrafiyada tanınmışdır.

Ümummilli liderin Azərbaycan ədəbiyyatına qayğısı Nizami, Nəsimi və Füzuli ilə tamamlanmadı. O, Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov və başqa söz sənətkarlarına da eyni qayğı ilə yanaşmışdır. Heydər Əliyev Cəlil Məmmədquluzadənin yaradıcılığına dərindən bələd olsa da, onu dəryaya bənzətmiş, böyük hörmət və sevgi ilə yanaşmış, haqqında həmişə dəyərli fikirlər söyləmiş, sadəcə bir əsəri üçün belə "Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, "Ölülər" kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir... (3)"- deyə qiymətləndirmişdir.

Heydər Əliyev Mirzə Cəlilin yaradıcılığının milli ideologiyamızın formalaşmasındakı vacibliyini sənətkarın yubiley tədbirində belə qeyd etmişdir: "Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətləri, eyni zamanda, ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir, böyük bir sərvətdir. O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz əsərlərində əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və biz bunu daim qiymətləndirməliyik. Ona görə də Cəlil Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına və yaranmasına, onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir" (5).

Mirzə Cəlilin həm bədii, həm publisistik əsərlərinin yenidən tədqiqatlara cəlb edilməsi, əsərlərinin tərcümə edilməsi, dram əsərlərinin tamaşaya qoyulması, əsərlərinə bədii filmlərin çəkilməsi, "Molla Nəsrəddin" jurnalının yenidən nəşr edilməsi, ev

muzeyinin yenidən bərpası, abidəsinin ucaldılması Ümummilli liderin ədəbiyyatımız və mədəniyyətimizə olan qayğısının nəticəsi idi.

Heydər Əliyevin hələ məktəb vaxtlarından oxuduğu, sevdiyi, dərindən hörmət etdiyi Azərbaycan ədəbiyyatının başqa bir zirvəsi də Hüseyn Cavid idi. Ulu öndərin həyata keçirdiyi tədbirlər H.Cavidi xatırlamaq üçün sadə, bədii görüşlərdən ibarət deyildi. O, H.Cavidin məzarının tapılmasına və yenidən Azərbaycana gətirilməsinə və doğma Naxçıvanda dəfn edilməsinə nail oldu. Heydər Əliyevin bu cəsarətli addımı Cavidin qərib ruhunu azadlığa qovuşdurdu.

H.Cavidin yaradıcılığını həm bədii, həm elmi, həm də fəlsəfi baxımdan yüksək qiymətləndirən onun araşdırılmasının, öyrədilməsinin vacibliyini vurğulayan Heydər Əliyev: "...Hüseyn Cavid əsərlərindəki fəlsəfi fikirlərə görə Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin "İblis" əsəri heç də Getenin "Faust"undan geri qalmır. Ancaq biz inciləri lazımi qədər qiymətləndirə bilmirik" (4). Ulu Öndərin keçirdiyi tədbirlər nəticəsində Cavid dühası yenidən ədəbiyyatımızın, söz xəzinəmizin zənginləşdirilməsində öz yerini tutmuşdur.

Klassiklərin yaradıcılığının, milli ədəbiyyatımızın, eyni zamanda hər bir insanın, ayrıca fərdin həyatında misilsiz rolunu məxsusi vurğulayan Heydər Əliyev deyirdi: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur..." (2).

## ƏDƏBİYYAT

1. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. red.B.Nəbiyev. Bakı: "Şərq-Qərb". 2009. s.248
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, I, XVII cilddə. Bakı: 1997-2006
3. Səmədov A. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Gəncə: 2008. s.532
4. http://www.aak.gov.az/avtoref_to_mudaf/pdf_to_mudaf/filol/filol_n_msa_13_12_14.pdf
5. https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/HEYD%C6%8FR-%C6%8FLIYEV V%C6%8F-AZ%C6%8FRBAYCAN-%C6%8FD%C6%8FBIYYATI.pdf

## SUMMARY

**Parvin Huseynova**

## A BRIEF LOOK AT HEYDAR ALIYEV'S CONCERN FOR AZERBAIJANI LITERATURE

For the first time, we see the idea of the nationality of Heydar Aliyev, who is equally sensitive to all periods of Azerbaijani literature, in the world-wide celebration of the 1300-year anniversary of our heroic epic "Kitabi-Dede Gorgud".

Considering literature as a mirror of the historical memory of the people, calling it "the intellectual property of the people", In Soviet times, H.Aliyev made decisions to study and promote the genius of Nizami.

Like Nizami, Nasimi has made the greatest contribution to our literature and culture, along with making films, conducting extensive research, writing books, translating works, and distributing them widely.

Aliyev's attitude and concern for the brilliant master of the word of the Turkic world, Muhammad Fuzuli, is highly commendable. He did not take a disdainful attitude towards Fuzuli and achieved the holding of events not only locally, but also internationally.

Although Heydar Aliyev was deeply familiar with the work of Jalil Mammadkulizade, he treated Daria with great respect and love, and always expressed valuable thoughts about her.

The national leader has always noted the importance of studying and teaching Huseyn Javid's work from both artistic, scientific and philosophical points of view.

***Key words:*** *Heydar Aliyev, national literature, treasury of the word*

**РЕЗЮМЕ**

**Парвин Гусейнова**

**НЕБОЛЬШОЙ ВЗГЛЯД НА ЗАБОТУ ГЕЙДАРА АЛИЕВА ОБ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ**

Впервые мысль о национальности Гейдара Алиева, одинаково чутко относящегося ко всем периодам азербайджанской литературы, мы видим в проведении на мировом уровне 1300-летнего юбилея нашего героического эпоса “Китаби-Деде Горгуд”.

Рассматривая литературу как зеркало исторической памяти народа, называя ее “интеллектуальной собственностью народа”, х.В советское время Алиев принимал решения по изучению и пропаганде гения Низами.

Как и низами, Насими внес наибольший вклад в нашу литературу и культуру, наряду с созданием фильмов, проведением обширных исследований, написанием книг, переводом произведений, их широким распространением.

Отношение и забота Алиева о гениальном мастере слова тюркского мира Мухаммеде Физули весьма похвальны. Он не принял пренебрежительного отношения к Физули и добился проведения мероприятий не только на местном, но и на международном уровне.

Гейдар Алиев, хотя и был глубоко знаком с творчеством Джалиля Мамедкулизаде, относился к Дарье с большим уважением и любовью, всегда высказывал о ней ценные мысли.

Общенациональный лидер всегда отмечал важность изучения и преподавания творчества Гусейна Джавида как с художественной, так и с научной и философской точек зрения.

***Ключевые слова:*** *Гейдар Алиев, национальная литература, сокровищница слова.*

**AFAQ CAVADOVA**
**BAĞIR BABAYEV**

## AZƏRBAYCAN FƏLSƏFİ FİKİR TARİXİNDƏ İNSAN PROBLEMİ

*Azərbaycan fəlsəfəsi anlayışı tarixən Azərbaycanda və ölkə xaricində yaşayan müxtəlif dil, din və mədəniyyətlərin daşıyıcıları olan azərbaycanlıların fəlsəfi irsinin təşəkkül və təkamülünü ehtiva edir. Azərbaycanda fəlsəfi fikrin inkişafı qədim dövrlərdən başlayaraq yüksək sivilizasiyaların bir-birini əvəz etməsi, müxtəlif dil, din, həyat tərzlərinin çulğalaşması, Azərbaycan etnosunun-mənəvi mədəniyyətinin məhvəri olan fəlsəfi fikir və dünyagörüşünün təşəkkül və təkamülü üçün münbit zəmin yaratmışdır. Ölkənin fəlsəfi mədəniyyətinin inkişafında onun coğrafi mövqeyi, təbii zənginliyi, tarixən yüksək sivilizasiyaya- şəhər mədəniyyəti, daim müxtəlif dil və din daşıyıcıları olan regionlarla əlaqələrinin mövcudluğu mühüm rol oynamışdır. Bütün bu amillərin fonunda yaranmış zəngin fəlsəfi irsin mərkəzində duran məsələlərdən biri insan problemi olmuşdur. İnsan varlığın ən alisi olmaqla bərabər, həm də ictimai və elmi-texniki tərəqqinin subyektidir. Bu səbəbdən, o, fəlsəfənin əbədi problemlərindən biridir.*

### İnsan probleminə yanaşmalar

Müasir dövrdə insanın fəlsəfi mənalandırılmasına maraq xüsusilə böyükdür. Hazırda gözümüz qarşısında bütün biliklərin antropolojiləşməsi meyilləri baş verməkdədir. Bu meyil onda ifadə olunur ki, fəlsəfi problemlərin ümumi mücərrəd izahının yerini, onların insan fenomeni baxımından konkret mənalandırılması tutur. Hətta ənənəvi fəlsəfi məsələlərin özü də getdikcə daha çox antropoloji əsaslar üzərində qurulmaqdadır. Antropologiyanın banisi M.Şeler göstərmişdir ki, fəlsəfənin bütün mərkəzi problemlərini mahiyyət etibarilə insan probleminə müncər etmək olar. Hazırda insan probleminə çoxalmaqda olan diqqət aşağıdakı səbəblərlə izah edilir. Hər şeydən əvvəl müasir ictimai inkişafda insanın rolu durmadan artır. O, sosial proseslərə və bütövlükdə dünyanın gedişatına güclü təsir göstərir. Digər tərəfdən, müasir elmi-texniki tərəqqinin törətdiyi nəticələr baxımından insan ilə texnika arasındakı münasibətlərə yeni tərzdə yanaşmaq tələb olunur. Nəhayət, indi bəşəriyyətin rastlaşdığı qlobal problemlər insanın varlığını təhlükə altına alır. Deməli onların həlli də insan ilə sıx bağlıdır. Tarixin dönüş məqamlarında insan probleminə maraq daha da artır. Bu hal onunla izah edilir ki, həmin dövrlərdə təkcə bu və ya digər insanın deyil, bütövlükdə cəmiyyətin mövcudluğu, onun məramı və məqsədi ilə bağlı məsələlər ön plana çəkilir. Müasir cəmiyyət məhz belə dövrü yaşayır.

Beləliklə də insanı öyrənən konkret elmlərin dar çərçivəsini, məhdudluqlarını aradan qaldırmağa imkan verir. Müasir dövrdə insana kompleks yanaşılması tələbatı bir sıra əməllərlə şərtlənir. Hər şeydən əvvəl göstərilməlidir ki, insan çox mürəkkəb və müxtəlif tərəfləri əhatə edən varlıqdır. Buna görə də onu bütün əhatəliliyi və hərtərəfliliyini də öyrənmək zərurəti yaranır. İnsan haqqında elmlərin vahid sistem şəklində inteqrasiyası isə yalnız fəlsəfi zəmin üzərində həyata keçirilə bilər. Qeyd edək ki, uzun illər fəlsəfi fikirdə hökmranlıq edən ehkamçılıq və əzbərçilik fəlsəfənin bu funksiyanı yerinə yetirməsinə mane olmuşdur. Yalnız son dövrlərdə insanın fəlsəfi planda çoxölçülü universal səciyyəsini

vermək üçün şərait yaranmışdır. Bu isə insan varlığının unikal xarakterini, mahiyyəti və təbiətini açmağı, onun təbii-bioloji cəhətlərini və sosial keyfiyyətlərini araşdırmağı nəzərdə tutur. Bütövlükdə insanın anlaşılmasına dair müxtəlif baxışları aşağıdakı kimi üç formada qruplaşdırmaq olar. Birinci mövqe göstərir ki, insan unikal mövcudatdır. Özü-özünün yaradıcısı, dünyadakı bütün şeylərin ölçüsüdür, ikinci baxışa görə insan Allahın yaratdığı möcüzədir. Üçüncü nöqteyi-nəzər isə hesab edir ki, insanın yaranması təbiətin səhvidir. O, sonsuz sayda nöqsanlara malik olan bədbəxt törəmədir. Buna görə də insanın gələcəyi yoxdur.

**Azərbaycan mütəfəkkirlərinin nəzərində insan problemi**

Dahi Nizami insana münasibətdə göstərirdi ki, insan xilqətdən şərəfli yarandığı üçün zəngin mənəviyyatlı böyük amallar yolçusu olmalıdır. İnsan öz bacarığı və qabiliyyətinə görə yer üzünün ağasıdır. Dünyada hər şey ona xidmət edir. İnsan həyatda ağıllı, bilikli, hünərli, zəhmətkeş, doğruçu və sair təqdirəlayiq keyfiyyətlərə görə seçilir. Ümumiyyətlə, orta əsrlərdə müsəlman şərqində insan düşüncəli, nəfsə malik (şüurlu), bütün yaranmışlardan üstün varlıq, yer üzünün əşrəfi hesab olunurdu. İslam dini də insanın izahına geniş yer verir. Burada insan maddi cisim (bədən) və mənəvi (ruh) kimi təsəvvür olunurdu. Hesab edilir ki, maddi (cismani) müvəqqəti xarakter daşıyır, ruh isə əbədidir. İnsan öldükdən sonra onun ruhu ilahiyə qovuşur. Bununla yanaşı, islam dini insanın özünü anlamasına və cəmiyyəti dərk etməsinə böyük əhəmiyyət verir. Antik dövrün mütəfəkkirlərinin – Sokrat, Platon, Aristotel, Miletli Fales, Porfiri, Plin və b. fikirləri, eyni zamanda İslam dini Nizami Gəncəvinin insan probleminə dair baxışlarına böyük təsir göstərmişdir. Dahi şair insanın kainatın sirlərini dərk etməyə çalışması, insan-təbiət, insan-cəmiyyət münasibətləri, həyatın mənası və s. məsələlərlə bağlı özünəməxsus fikirlərlə çıxış etmişdir.

Şair öz şeirlərində dünyadakı varlıqları Tanrının yaratdığını qeyd edir. Onun fikrincə, Tanrının özü-özündən, insan isə onun əzəmətindən yaranmışdır. Tanrı bənzərsizdir, onun varlığında hansısa surət və tərkib görünmür. Nizami Gəncəvi bildirir ki, ən müdrik alimlər və peyğəmbərlər belə Tanrının sirlərinə vaqif ola bilməmişdir. Tanrının əbədi və dəyişməz, insanın isə gəldi-gedər olduğunu vurğulayan şair Tanrıya müraciətində bildirir.

Nizami Gəncəvi qeyd edir ki, kainatın yaranması tarixini öyrənmək həmişə insanı düşündürmüş və o, buna ağlın, idrakın vəzifəsi kimi baxmışdır. Dünyanın varlığı və onun yoxluqdan necə yarandığı həmişə suallar doğurmuşdur. Elm daim kainatın sirlərini öyrənməyin axtarışındadır. İnsanın elmsiz yaşaması qeyri-mümkündür. Nizami Gəncəvi kainatın sirlərinin dərk edilməsində elmə böyük dəyər verir. Şairin sözlərinə görə, insan varlığı böyük hikmətə malikdir və o, dünyanın gərdişini (hərəkətini) anlamağa çalışır. İnsan kainatın sirlərini tam şəkildə dərk edə bilsəydi, bir göz qırpımında bütün dünyanı gəzərdi. Nizami Gəncəvinin əsərlərində insan təbiətlə sıx şəkildə təsvir edilir. Dahi şair qeyd edir ki, təbiət insana xidmət üçün yaradılmışdır. Buna görə insan təbiətin qədrini bilməli və onu qorumalıdır.

Nizami Gəncəvi insanı idraka malik olan qüdrətli varlıq adlandırır, təbiətin və cəmiyyətin inkişaf qanunauyğunluğunun dərk edilməsində insan zəkasına böyük

əhəmiyyət verir. O, kainatın hərəkətinin müəyyən nizama əsaslandığını və məqsədyönlü xarakter daşıdığını bildirir.

İnsanın cəmiyyətdə yeri və roluna dair Nizami Gəncəvinin görüşlərini təhlil edərkən məlum olur ki, dahi şair insanın bioloji varlıq kimi, həm də sosial mahiyyət daşımasına böyük əhəmiyyət vermişdir. Məlumdur ki, insan fiziki və son dərəcə təkrarsızlığa malik olan varlıqdır. Digər tərəfdən, insan ictimai ünsiyyət və birgəfəaliyyət əsasında formalaşan şüura və zəkaya sahibdir ki, bu da onun biososial mahiyyətini ifadə edir. İnsan zəkası vasitəsilə özünün keçmişi haqqında fikirləşir, onu tənqidi qiymətləndirməyi bacarır və öz gələcəyi ilə bağlı məqsədlər müəyyənləşdirir. İnsana şüurlu və məqsədyönlü yaradıcılıq fəaliyyəti xasdır. İnsan öz hərəkətlərinin nəticələrini, təbiətdə gedən prosesləri və onların inkişaf istiqamətlərini proqnozlaşdırmaq qabiliyyətinə malikdir. O, öz fəaliyyəti ilə mənəvi-əxlaqi dəyərlər yaradır. Bütün bunlardan çıxış edən Nizami Gəncəvi insanlıq mərtəbəsinin bütün xilqətlərdən (yaradılanlardan) üstün olduğunu bildirir.

Dahi şair fələklər (səma, asiman) qədər uca olan insanı başqalarına yaxşılıq etməyə və yardım göstərməyə, həyatda nikbin olmağa çağırır. Onun fikrincə, kamil insan nəfsini saxlayandır. İnsan öz nəfsini tərbiyə etməli və sağlamlığını qorumalıdır. Nizami Gəncəvinin yaradıcılığında xoşbəxtlik və xeyirxahlığa insanın mahiyyətini ifadə edən anlayışlar kimi baxılır. Şairə görə, həyat xoşbəxtliyə can atmaqdır, xeyirxahlıq isə insanın bu yolda istəklərinə nail olmağa kömək edir. Xeyirxahlıq insanın adillik nişanəsidir. İnsan dünyada gəldi-gedərdir, ona görə də yaşadığı müddətdə xeyirxah işlər görməlidir.

Mütəfəkkir şair bildirir ki, dünyada xeyirlə şər, kədərlə sevinc arasında mübarizə gedir. İnsan nə vaxtsa həyatdan köçsə də, o, xeyirxah əməlləri ilə xatirələrdə yaşayacaq, bu dünyada sözü yadigar qalacaqdır. Nizami Gəncəviyə görə, insan ünsiyyətcil olmaqla və çalışqanlığı sayəsində qarşısına qoyduğu məqsədlərə çata bilər. İnsan hansısa işə başlamamışdan əvvəl onun nəticəsini düşünməlidir. O gördüyü hər bir işi təmkinlə yerinə yetirməlidir ki, uğurlu olsun.

Dahi şair qeyd edir ki, zəhmət çəkənlər onun səfasını görür. Əməksevər insan gördüyü işdən zövq alır. Hər zəhmətin sonunda bir səadət var. Bəziləri bunu dərk etmir və öz aqibətini düşünmür ki, bu da təəssüf doğurur.

Nizami Gəncəvi insan zəkasını ən ali dəyər kimi qiymətləndirir. Şair hesab edir ki, insan daim həyatın mənasının axtarışında olmalı, qarşısına məqsədlər qoymalı və onlara çatmağın yollarını tapmalıdır. İnsan o halda xoşbəxtdir ki, özünü dərk edir. O, torpaqdan yaransa da, zəkası ilə kainatın bütün sirlərini öyrənməyə çalışır.

Nizami Gəncəvi insanın hədər yerə boş vaxt keçirməyinin mənasız olduğunu bildirir. İtirilmiş vaxtın geriyə qaytarılmasının qeyri-mümkünlüyünü qeyd edir.O, insanı özünüdərketməyə və gördüyü işlərin mahiyyətini anlamağa çağırır. Şair vaxtını, əsasən, əyləncələrlə keçirən insanı tənqid edir. Onun fikrincə, insan mənalı ömür yaşamalı, xeyirxah işlərlə məşğul olmalıdır ki, bu dünyadan köçəndə başqalarının yaddaşında xoş əməlləri ilə xatırlansın.

Qeyd edək ki, insan varlığının mahiyyətində özünü ifadəyə və dərketməyə cəhd dayanır. Bu aspektdən yanaşsaq görərik ki, Nizami Gəncəvi insanın özünü, eyni zamanda təbiətdə və cəmiyyətdə gedən proseslərin mahiyyətini dərk etməsinə böyük əhəmiyyət

verir.

Nizami Gəncəvi insanın dünyanı həqiqətin gözüylə (rasional şəkildə) dərk etməyə çalışdığını bildirir. Şairin sözlərinə görə, dünyanın yaradılışının mahiyyətini insanın dərk etməsi və onun sirlərini öyrənməsi çox çətindir.

Nizami Gəncəvi yaradıcı insana və sözə mühüm əhəmiyyət verir. O, bildirir ki, söz yaradıcı insanın gücüdür. İnsan yazıb-yaratmaqla düşüncələrini qoruyub saxlayır. Onun fikirləri sözlə başlayır və bitir. İnsanın yazdıqları dünyaya şölə saçır. Cəmiyyətdə qayda-qanunların yaradılması və böyük kəşflər sözün qüdrəti sayəsində mümkün olur. Dahi şairin fikrincə, söz insanı istiqanlı etməklə ona yaradıcılıq ilhamı verir. İnsan nitqinin qüdrəti sözlə bağlıdır. Buna görə də:

Nə qədər ki, cahan var, sözün coşsun qoy səsi,
Qoy sözlə tazələnsin Nizaminin nəfəsi.

Şair bildirir ki, yaradıcı insan üçün söz gövhərə və lələ bənzəyir. Əgər hansısa insan söz aləmində mövqe tutmuşdursa, onun özü yerdə olsa da, ruhu göylərdə yaşayır. Dərin düşüncəli sənətkar sözlə iki cahanın (bu dünyanın və axirət aləminin) nemətlərini qazanır. İncə söz memarı olan şairin ilham pərisi onu dünyada güclü misraları ilə tanıdır.

Nizami Gəncəvi qiymətli sözə böyük dəyər verib bildirir ki, şair süst olub oturmamalı, göylərə ucalan söz yaratmalıdır. O, elə bir şeir yazmalıdır ki, dünyanın şah əsəri onunku olsun. Lakin, yaradıcı insan qiymətli əsərlərə malik olsa da, bundan heç vaxt lovğalanmamalıdır. Ondan da gözəl əsərlərin yaradıla biləcəyini düşünməlidir. Nizami Gəncəvi şairi təfəkkür meydanında oda bənzədir. Onun fikrincə, şeir hətta Tanrının mələklərini belə ovsunlayır.

Nizami Gəncəvi insanlara mərdlik, xeyirxahlıq, səbirli olmaq və s. əxlaqi keyfiyyətlər aşılayır, məhz onların sayəsində xoşbəxtliyə nail olmağın mümkünlüyünü qeyd edir. Dahi şair insanları vicdanlı olmağa, mənəvi dünyalarını saflaşdırmağa, həsəd və paxıllıqdan uzaq durmağa çağırır. Onun fikrincə, insan həyatda dəyanətli və dözümlü olmalı, üzləşdiyi çətinlikləri aradan qaldırmağı bacarmalıdır. İnsan ədalətli olmalı, əks halda heç kim onu aqil adlandırmaz. Ədalətli olan insan dünyada ən böyük səadət tapar. Ədalətin sayəsində yer üzü abad olar.

Nizami Gəncəviyə görə, xeyirxahlıq ruhun elə qabiliyyəti və yaxud keyfiyyətidir ki, o, insanın xoşbəxtliyə nail olmasında mühüm rol oynayır. Şairin əsərlərində səxavətlilik, düzgünlük, səmimilik və lütfkarlıq kimi əxlaqi dəyərlər tərənnüm edilir. Bu dəyərlərin insanın özünənəzarətinin ölçüsü və şərtləri olduğu qeyd edilir.

Şair bildirir ki, əxlaqlı və ədəbli insan yeri gəldikdə başqasının uğrunda canını fəda etməyə belə hazırdır. Nizami Gəncəvi insanı ədəb-ərkan qaydalarına riayət etməyə çağıraraq yazır ki, o, yaxşını və yamanı qiymətləndirərkən ölçü həddini itirməməlidir. Qəm və sevinc insanın həyatında qoşaqanadlı ömürdür. Hər kəs özündən yaşlıların qayğısına qalmalıdır ki, ona da böyüklük adlı çələng çatsın.

Şairin fikrincə, insan dünyanın qiymətli varlığı, incisidir. O, ağıllı nəsihətlərə qulaq asmalıdır ki, çətinliklərlə üzləşməsin, hansısa çıxılmaz vəziyyətə düşdükdə belə ondan qurtula bilsin. Nizami Gəncəvi insanları dostluğa çağırır və onları kin-küdurətdən əl çəkməyə dəvət edir. O, bildirir ki, dünya həmişə sülhdən xeyir görmüş, kindən isə ziyan

çəkmişdir. Kinli insanın keçdiyi yollarda tikan göyərmişdir. İnsan öz işini elə qurmalıdır ki, başqalarında əbəs yerə kin yaratmasın. Nizami Gəncəvi yaxşı insanlarla dostluğu tərənnüm edərək yazır: "Dahi şairə görə, insan dürüst və dəqiq olmalıdır, çünki bu keyfiyyətlərin sayəsində hər bir iş uğurla nəticələnir. İnsan bu dünyada əməlləri ilə necə tanınıbsa, axirət aləmində də o cür tanınacaq". Nizami Gəncəvi insanın özündən razılığına əxlaqi qüsur kimi yanaşır. Nizami Gəncəvi elmə qüdrətli dəyər kimi baxır, alimin cəmiyyətdə yerinin uca olduğunu vurğulayır. Elmə və biliyə əhəmiyyət verən dövlətin güclü olduğunu qeyd edir. Şair bildirir ki, kainatın sirlərini öyrənməyin yolu elmi biliklərdən keçir və onlar mükəmməl, kamil olmalıdır.

Dahi şair qeyd edir ki, bilikli adamlar uzaqgörən olar və insanın kamalı qiymətli sərvət kimi ona dayaqdır. Yuxarıda qeyd edilənlərin ümumiləşdirilməsindən aydın olur ki, Nizami Gəncəvinin yaradıcılığında insan, onun mahiyyəti, cəmiyyətdə yeri və rolu, özünüdərketməsi, insan-Tanrı və insan-təbiət münasibətlərinə dini-fəlsəfi yanaşmalar xüsusi yer tutur. Dahi şair öz poemalarında insanın kainatın əşrəfi olduğunu və insanlıq mərtəbəsinin bütün yaradılanlardan üstünlüyünü elmi biliklər, gündəlik həyat hadisələri və tarixə əsaslanmaqla poetik şəkildə ifadə edir. Nizami Gəncəvinin insan varlığına dair dini-fəlsəfi görüşləri həm Şərq, həm də Qərb fəlsəfi fikrinə və poeziyasına mühüm təsir göstərmişdir.

XIII əsrin böyük mütəfəkkiri Nəsirəddin Tusi qeyd edirdi ki, insan yaşamaq üçün yeməyə möhtacdır, lakin insanın yeməyi heyvanlardakı kimi ələf və sudan ibarət deyil, təbiət tərəfindən hazır şəkildə verilmir. Tusi ictimai varlıq olan insanın ictimai həyatdan - cəmiyyətdən kənarda mövcudluğunu qeyri-mümkün saymışdır. O yazırdı: "Dünyanın intizamı, məişətin nizamı əməklə hasilə gəldiyindən, insan növü isə köməksiz yaşaya bilmədiyindən əmək köməksiz, kömək də ictimai biliksiz ola bilməz. Deməli, insan növü öz təbiəti etibarilə ictimai birliyə möhtacdır".

Görkəmli Azərbaycan şairi İ.Nəsimi insan anlayışına təkcə ontoloji deyil, həm də humanist və etik məna vermişdir. O, insanı "kiçik aləm" adlandırır, göstərirdi ki, o, öz kamilliyinə görə maddi şeylərdən daha yüksəkdə durur. Nəsiminin fəlsəfəsində "mən" anlayışı ən genişhəcmli anlayış olan "Haqq"(Allah) ilə eyniləşdirilir və bütün mövcudatın cəmi kimi götürülürdü.

Füzuli azadlıq arzularını zəncirləyən hər bir təşəbbüsün əleyhinə çıxır. Orta əsrin ağır, sıxıcı həyatını, ...insan azadlığını zəncirləyən buxovlarını qırmaq iqtidarına malik olmayan Füzuli, azadlığı məhəbbət aləmində, könül aləmində tapır. Burada, bərabərlik aləmi adlandırdığı eşq fəzasında insanın xoşbəxt olacağını təsəvvür edir. "Hər könül özünə bir padşahdır, hər kəs öz daxili aləmində sultanlardan, şahlardan yüksəkdir" fikrilə yaşayan sənətkar, özünü Şərq aləmində eşqin ən sadiq və məşhur surətləri olan Məcnundan, Fərhaddan ...üstün tutur".

Füzulinin müasiri olduğu dövr bərabərlik tanımırdı. Hökm etməklə realizə olunan feodal hüquqi bərabərliyi şəxsiyyət üçün yasaq edirdi. Yalnız varı-sərvəti olanlar, məzlumların istismarı bahasına özü üçün saxta "feodal", "əsilzadə" titulu qazananlar hüquqca bərabər idilər. İnsanı müti vəziyyətə salan feodal-patriarxal cəmiyyətində bərabərliyin olmaması Füzuli kimi qüdrətli şəxsiyyətdə narahatlıq hissi doğurmaya

bilməzdi. "Sakinəm bir yerdə kim, yox etibarım zərrəcə" deyən mütəfəkkir yaşadığı quruluşa münasibətdə nifrətini gizlədə bilmir. Bu nifrət təsadüflərdən deyil, real gerçəkliklərdən doğurdu. "İnsanın və onun mənəviyyatını bütün gözəlliklərdən yüksək tutub, onu yüksək qiymətləndirən sənətkar, ləyaqətsiz, insana yaraşmayan sifətlərə malik olanların da mövcud olduğunu görür, öz əsərlərində bunlara qarşı nifrət və kinini ifadə edirdi. Füzulinin yaşadığı cəmiyyətdə insan ləyaqətini alçaldan feodallar hökmranlıq edirdi". Füzulinin belə zəmanədən ədalət gözləməməsi təbii idi. Ədalət hissi hamıya deyil, mənəviyyatı təmiz olan xeyirxah və alicənab insanlara xas olan keyfiyyətdir. Füzulinin tənqid obyekti olan o dövrün padşahları, sultanları və müxtəlif rütbədən olan hakimləri bu keyfiyyətdən məhrum idi. Füzuliyə görə, "ədalət minətinin tərzini ol pak məndən sor".

Müasiri olduğu cəmiyyətdə hüquq və əxlaqın əlaqəsindən danışan şair geniş imtiyazlara, dini və mülki hüquqlara malik olan feodal və dini məhkəmə işçilərinin bu hüquqlardan sui-istifadə etməsini, əxlaqca pozğun və düşkün olmalarını göstərir. Haqq şəriət hakimləri olan qazıları hökm taxtına sahib etmiş, onlara geniş hüquqlar vermişdir. Tamahkar və rüşvətxor qazılar isə hökm çıxararkən xəta işlədir, rüşvət aldıqlarından, çirkin işlər gördüklərindən şəriət qanunlarını kobudcasına pozurlar. Şair beləl追ərini haqq və ədalət naminə düzgün hərəkət etməyə, çirkin və alçaq işlərdən əl çəkib əxlaqca yüksək olmağa çağırır.

İnsan təbiətini pozan fənalıqları tənqid edən Füzuli, eyni zamanda, paxıllığı pisləyirdi. İstedadlı, qabiliyyəti olmayanların, yaradan hünər sahiblərini gözdən salmağa çalışmalarını naqislik hesab edirdi. İnsan boşboğazlıqla deyil, yaratmaqla, xeyirxah işlə öyünə bilər. O, paxıllığı, başqasının zəhmətini alçaltmağa çalışanları tənqid edirdi.

Mütəfəkkirin ideyasına görə, paxıllıq insanın qəlb qaralığından, mənəvi yoxsulluğundan irəli gəlir. Yaradıcı insanda paxıllıq hissi olmur. Belə adam insan əli ilə yaradılan hər şeyə sevinir. Qurmağa və yaratmağa meyilli olan insanların qəlbində həmişə fərəh hissi olur. Ədalətsizlik, nanəciblik və digər rəzalətlər xeyirxah və mərhəmətli insanlara daim yad olmuşdur. Füzuliyə görə, insanın mənfi xarakterinə dəlalət edən paxıllıq istedadsızlıqdan və cahillikdən irəli gəlir. Xeyirxah təbiətli olmaq, hiylədən, məkrdən təmizlənmək insan üçün bir xoşbəxtlikdir. Hətta pisliyə qarşı yaxşılıq etmək, düşmənləri belə özünə dost etmək xoşbəxt xasiyyətdir.

Füzuliyə görə aqil insan öz xilqəti barədə düşünməli, öz varlığının mahiyyətini araşdırmalı, özünün əvvəlini və sonunu dərk etməlidir.

Şərq fəlsəfi fikrinin materialist ənənələrini davam etdirən M.F.Axundzadə də insana böyük diqqət yetirirdi. O, ömrünün son dövründə yazdığı əsərlərdə insan, onun həyatı, azadlığa nail olmağın yolları barədə maraqlı fikirlər irəli sürmüşdür. Bu problemlərin maddi və mənəvi səpkiləri daim fəlsəfi fikrin diqqət mərkəzində olmuşdur. Beləliklə, insan, onun mahiyyəti, mövcudluğu və gələcəyi ilə bağlı problemlər bütün dövrlərdə fəlsəfədə, həmçinin Azərbaycan fəlsəfəsində də başlıca yer tutmuşdur.

## ƏDƏBİYYAT

1. Fəlsəfə (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: 1999
2. Fəlsəfə. Ensiklopedik lüğət. Bakı: 1997
3. Nəzərova A. Fəlsəfə terminlərinin izahlı lüğəti. Bakı: 2014
4. Paşayev V. Fəlsəfə. Bakı: 1999
5. Tağıyev Ə. Fəlsəfə. Bakı: 2012
5. Волчек Е.З. Философия (Учебник). Минск: 2003
6. Габидулин Р. Основы философии. Москва: 2003
7. Горелов А.А. Основы философии. (Учебник для вузов). Москва: 2010
8. Философия: Учебник. /Под ред. А.Ф.Зотова, В.В.Миронова, А.В.Разина. 2-е изд., перераб. И доп. Москва: 2004
9. Nizami Gəncəvi. Əsərləri. 2 clddə. Bakı: 2013
10.Məhəmməd Füzuli. Seçilmiş əsərləri. (Azadə Rüstəmova). Bakı: 2004

## SUMMARY

**Afag Javadova, Bagir Babayev**

### THE HUMAN PROBLEM IN THE HISTORY OF AZERBAIJAN PHILOSOPHICAL THOUGHT

The concept of Azerbaijani philosophy historically includes the formation and evolution of the philosophical heritage of Azerbaijanis, speakers of various languages, religions and cultures living in Azerbaijan and abroad. The development of philosophical thought in Azerbaijan has created fertile ground for the formation and evolution of philosophical thought and worldview, since ancient times, the change of high civilizations, the mixing of different languages, religions, lifestyles, and the destruction of the Azerbaijani ethnic group-spiritual culture. An important role in the development of the philosophical culture of the country was played by its geographical location, natural resources, the presence of links with a historically high civilization - urban culture, regions that were constantly native speakers of various languages and religions. One of the issues underlying the rich philosophical heritage that arose against the background of all these factors was the problem of man. Man is not only the highest of beings, but also the subject of social and scientific and technological progress. For this reason, it is one of the eternal problems of philosophy.

## РЕЗЮМЕ

**Афаг Джавадова, Багир Бабаев**

## ЧЕЛОВЕЧЕСКАЯ ПРОБЛЕМА В ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФСКОЙ МЫСЛИ

Понятие азербайджанская философия исторически включает в себя формирование и эволюцию философского наследия азербайджанцев, носителей различных языков, религий и культур, проживающих в Азербайджане и за его пределами. Развитие философской мысли в Азербайджане создало благодатную почву для становления и эволюции философской мысли и мировоззрения, начиная с древних времен, смены высоких цивилизаций, смешения различных языков, религий, укладов жизни, разрушения азербайджанского этноса-духовной культуры. Немаловажную роль в развитии философской культуры страны сыграло ее географическое положение, природные богатства, наличие связей с исторически высокой цивилизацией - городской культурой, регионами, которые постоянно были носителями различных языков и религий. Одним из вопросов, лежащих в основе богатого философского наследия, возникшего на фоне всех этих факторов, была проблема человека. Человек является не только высшим из существ, но и субъектом общественного и научно-технического прогресса. По этой причине это одна из вечных проблем философии.

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*

## ƏLİ BƏY HÜSEYNZADƏNİN TÜRKÇÜLÜK-TURANÇILIQ İDEALI

*XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi həyatda milli mənlik şüurunun oyanmasında və onun yayılmasında mütərəqqi ziyalılarımız aparıcı rol oynamışdır. 1905-ci ildə Rusiyada baş vermiş inqilab imperiya ərazisində yaşayan digər məzlum xalqlar kimi müsəlman xalqlarının da milli tərəqqi uğrunda mübarizəsinin başlanğıcı hesab edilir. Azərbaycan xalqının böyük mütəfəkkiri Əli bəy Hüseynzadə bütün həyatını xalqımızın tərəqqi və inkişafına sərf etmiş, yaradıcılığının bütün mərhələlərində xalqımızın təhsilinin, mədəniyyətinin inkişafı üçün çalışmışdır. O dövrdə Əli bəy Hüseynzadənin türklər ya ölər, ya hicrət edərlər, fəqət, qul olmazlar fəlsəfi fikirləri diqqəti xüsusilə cəlb edirdi. Mütəfəkkirin əsərlərində irəli sürdüyü ideyalar əsasında "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" ideoloji sistemi yaranmışdır. Onun bu üçsütunlu ideoloji sistemi Türk aləminin hər tərəfinə tezliklə yayılmış, xüsusilə, onun "Turançılıq" ideyası çar Rusiyası senzurasını, rus və erməni irticaçılarını dərindən narahat etmişdi.*

***Açar sözlər:*** *Əli bəy Hüseynzadə, ideoloji sistem, türkləşmək, islamlaşmaq, müasirləşmək, milli tərəqqi, təhsil, mədəniyyət*

Əli bəy Hüseynzadənin zəngin fəlsəfi, ictimai-siyasi, ədəbi və elmi irsini əks etdirən tarixi mənbələr, həmin dövrün mətbuatı təsdiq edir ki, bu böyük mütəfəkkir, ictimai-siyasi xadim həyatı boyu mənsub olduğu ölkə və millət üçün çalışmışdır. "Sözsüz ki, Əli bəy Hüseynzadənin xalqımız qarşısında xidmətləri hər zaman Azərbaycan ictimaiyyəti və dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük ədibin 150 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncam imzalayıb" (Sadayoğlu. 2014). Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında 2014-cü il yanvarın 21-də imzaladığı sərəncamda Əli bəy Hüseynzadə "Türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olunmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verən görkəmli ictimai xadim kimi dəyərləndirilir" (2, 2014).

Xalqımızın azad gələcəyinə böyük ümid bəsləyən, ömrünü mühacirətdə, həbslərdə, təqiblərdə keçirən, lakin müqəddəs ideallarından bir addım belə geri çəkilməyən Əli bəy Hüseynzadənin sarsılmaz iradəsi, fəlsəfi və sosial-siyasi irsi təkcə Azərbaycan xalqı üçün deyil, azadlıq sevən bütün xalqlar üçün çox qiymətli xəzinədir. O, bütün Türk dünyasının mücahidi, bütün Türk aləmində bir haqq elçisi, bütün Türk xalqlarının siyasi və milli əsarətdən azad olması uğrunda mübariz, böyük Azərbaycan mütəfəkkiridir. "Əli bəy Hüseynzadə XIX əsrin sonu- XX əsrin əvvəllərində türk-islam dünyasının yetirdiyi nadir

şəxsiyyət, dahi mütəfəkkir, bənzərsiz fikir adamı, böyük maarifçi və ictimai xadim idi" (Quliyev, 2014:7).

Əli bəy Hüseynzadənin fikir və ideya istiqaməti hər zaman öz üslubuna sadiq qaldığı üçün Sovet dönəmində heç cür "bəraət" almamış, bu mütəfəkkir insanın imzası "parçala, hökm sür" siyasətinin qorxulu kabusu kimi mürtəce düşüncəyə qarşı güclü silah sayılmışdır. Yetmiş illik bu nəhəng qurum ideoloqun açıq fikirlərini xalqların azadlığı üçün mənəvi dəstək hesab etdiyi üçün onun fəaliyyətini uzun illər diqqət mərkəzindən yayındırmış, amma bu məqsəd tam gerçəkləşmə imkanı əldə etməmişdir. Məlum müddətdən sonra Əli bəyin yazılı prinsipləri mükəmməl yolla milli ictimaiyyətə sızmış, bu əvəzsiz qaynaqdan güc alan həmfikirlərinin sonsuz fədakarlığı sayəsində, nəhayət ki, onun arzuları reallaşmışdır. Bu reallığın ən bariz nümunəsi artıq otuz illiyini çoxdan tamamlamış müstəqil Azərbaycan dövlətidir.

XIX əsrin sonları yeni əsrin əvvəllərində xalqın maariflənməsi və milli dirçəlişi uğrunda mübarizə sistemli xarakter alır. "XX əsrin əvvəlləri Şimali Azərbaycanın ictimai-siyasi və ədəbi-elmi həyatının ziddiyyətli, enişli-yoxuşlu dövrlərindən biridir" (Əsədova, 2017:3). "Həmin dövrdə Azərbaycanda, bütün Türk dünyasında tanınan demokratik fikirli, milli şüurlu ziyalılardan biri də Əli bəy Hüseynzadə olmuşdur. O, xalqı maarifə, mədəniyyətə, elmə, milli birliyə, müstəqilliyə çağıran fikirləri sayəsində "dahi", "türklüyün peyğəmbəri" səviyyəsinə yüksəlmişdir" (Ağazadə. 2022:5-6).

Beləliklə, XIX əsrin sonu XX əsrdə Azərbaycan xalqının sosial-iqtisadi, milli-mənəvi tərəqqisi üçün davamlı olaraq fəaliyyət göstərən Əli bəy Hüseynzadə daim bu amal uğrunda mübarizə aparmışdır. Bilavasitə Əli bəy Hüseynzadənin gərgin və sarsılmaz əməyi nəticəsində fəaliyyət göstərən "Səadət" məktəbi o dövrdə çoxlu ziyalı təbəqənin formalaşmasında mühüm rol oynamışdır ki, onlar sonralar Xalq Cümhuriyyətinin fəaliyyətində mühüm vəzifələr yerinə yetirmişlər. "Əli bəy bütün türklərin anlayacağı ortaq ədəbi türkcənin tərəfindəydi. Azərbaycan ədəbi dili də Əli bəyə görə, həmin dil sisteminin tərkibində intişar tapmalıydı. Onun təklif etdiyi, tətbiqinə çalışdığı dil bütün yaxın Şərqə türk mədəniyyətini və problemlərini daşımaq gücündəydi" (Azər Turan. 2008).

XX əsrin əvvəllərində müstəmləkə əsarətinin kəskinləşdiyi, milli-siyasi şüurun boğulduğu bu şəraitdə Əli bəy Hüseynzadənin demək istədiyi "həqiqətin böyüyü" müsəlman və Türk xalqlarını "azadlıq və ittihad" uğrunda mübarizəyə səsləyən çağırışı ifadə edirdi. Onun bu həqiqəti, bütün həyatı boyu tarixi faciəsində yaşadığı mühitdən, "dilini kəsən, qələmini qıran" zəmanədən şikayət edə-edə çatdırmaq istədiyi həqiqətlərin böyüyü idi, onun yaradıcılığının əsas çağırışı, ictimai-siyasi idealı və fəlsəfi qənaəti idi (4, s.36). Belə ki, dövrün "ziddiyyətli, mədəniyyət, dil və türkçülüyün problemli olduğu bir tarixi şəraitdə, "türk" kəlməsinin dilə gətirilmədiyi tarixi bir məqamda Əli bəy Hüseynzadə "Həyat" qəzetinin səhifələrində çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?" adlı əsəri ilə türk xalqlarına, o cümlədən Azərbaycan türklərinə üz tutur" (Qaraoğlu. 2017:13).

Əli bəy Hüseynzadənin fəlsəfi və siyasi-ideoloji publisistikasında erməni şovinizminin ideya kökləri və strateji hədəfləri, dini, irqi və sosial əsasları, mənəvi terrorları, ikiüzlü, saxta və məkirli üsul və vasitələri, öz siyasi məqsədləri üçün onları dəstəkləyən xristian dünyasının milli-siyasi proqramlarının qlobal motivləri elmi şəkildə öz şərhini

tapmışdır. "Erməni xəfiyyələrinin "Həyat" qəzeti barədə donoslarının birinin üstündə Qafqaz canişininin dərkənarında təcili olaraq "Həyat"ın sərlövhəsindəki "türk" sözünün silinməsi, əvəzinə "tatar" sözünün yazılması" əmr edilirdi. Lakin Əli bəy nəinki "türk" sözünü "tatar"la əvəzlədi, əksinə, "bu məsələ qayət mühümdür",- deyərək, "Biz ki, Türk oğlu türkük, biz ki, millətlərin ən qədimi və ulusuyuq",- deyə türklüyü təqdir etməkdə davam etdi. Buna görə də türkün düşmənlərinin təzyiqi ilə "Həyat" qapandı" (Quliyev. 2014:8).

Ümumiyyətlə, Əli bəy Hüseynzadə "Həyat" və "Füyuzat" dövründə inqilabları qorxulu uçurumlar adlandıraraq, xalqı silahlı mübarizələrdən çəkindirərək "mənəvi təkamül, nicat məhəbbətdədir" yoluna çağırırdısa, yaradıcılığının sonrakı illərində "Siyasəti-firusət" əsərində Səttarxan hərəkatı ədibi sevindirirdi. Milli azadlıq hərəkatımızın tam bir mərhələsini əks etdirən, mürəkkəb və siyasi mündərəcə ilə dolğun məzmunlu bu əsərin meydana gəlməsi Azərbaycan xalqının oyanma, milli intibah tarixi ilə bağlıdır.

Milli azadlıq mücahidi Əli bəy Hüseynzadə və yaxın məsləkdaşı Əhməd bəy Ağaoğlu "Həyat" və "Füyuzat" səhifələrində nəşr etdikləri yazıları ilə Azərbaycanda türkçülük ideyalarının yayılmasındakı müstəsna xidmətləri ilə seçilirlər. O, Azərbaycan ədəbiyyatında romantizmin əsasını qoyanlardan olmuşdur. Müstəqillik işığında Əli bəy Hüseynzadə irsi ilə "ədəbiyyatda və sənətdə romantik ağırlıqlı realist" adlandırılır (4, s.10).

Çətinliklər çox idi. Bir yandan da ermənilərin "Həyat" qəzeti barədə xəyanətləri bitib-tükənmirdi. Onların tələbi ilə Qafqaz canişini təcili olaraq "Həyat"ın sərlövhəsində "türk" sözünün "tatar" sözü ilə əvəzlənməsini tələb edirdi. Təzyiqlərə dözməyən "Həyat"ı bağlamaqdan başqa bir yol qalmadı... Çox keçmədi ki, böyük maarifçi, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə "Füyuzat" jurnalı nəşrə başladı. Nəticədə, Əli bəy "Həyat"da başladığı türkçülük ideyalarını "Füyuzat"da da davam etdirərək türkçülüyün siyasi proqramı olan "türkləşmək, islamlaşmaq, avropalaşmaq" formulunu bitkin bir sistem halına gətirdi. "Füyuzat" jurnalı eyni zamanda Azərbaycan ədəbiyyatında yeni bir istiqamətin- ədəbi məktəbin yaranmasına səbəb oldu (Qaraoğlu. 2017:13).

"Füyuzat" dərgisinin 5-ci sayında Ə.Hüseynzadənin "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı uzun bir məqaləsi nəşr olunur. Bu məqalə dövrün cəhalətinə qarşı açılan savaş idi. Məqalədə mədəniyyət və siyasi zəmində cəmiyyətin inkişafı istiqamətində fəaliyyət göstərmək üçün iş mühitində təcəssüm tapmış və ya həyatda qalmağa çalışan teatr, mətbuat orqanları, ədəbiyyatçı və siyasətçilər "Yaşıl işıqlar" adlanır. Həmçinin qızların elm və təhsilə istiqamətlənməsi, qadınların xeyriyyə işlərində iştirakı da buraya aiddir.

Əli bəyin fikri müsəlman xalqlarını "İttihadi-tərəqqi" ideyası ətrafında birləşdirmək idi. O, bu məslək haqqında "Füyuzat"da çap etdirdiyi məşhur "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" adlı məqaləsində açıq aşkar yazırdı: "Bizim özümüz bir yol bulub o yol ilə gedəcəyiz. Bu yol qırmızı qaranlıqlar içərisində peyda olan yaşıl işıqlardır. Yaşıl deyiriz, çünki o müsəlmanlarımızdır. Ənvari-zümrüdün islamiyyə qəndillərini iqad qeyrətində bulunanlarımızdır. Bu yol-nuri maarifdə yaşıl işıqlardır. Yəni bizim özümüzə məxsus daha layiq, daha şanlı, zülməti qəflətdə bulunan külliyyati avam arasında nuri-maarifi əkməkdir" (Hüseynzadə. 2007:206).

Əli bəy Hüseynzadənin zirvə nöqtəsi, ən sanballı əsəri "Siyasəti-fürusət"dir. Şərq istibdadına, İran mütləqiyyətinə qarşı yönələn bu əsər qeyri-adi tarix salnaməsidir. "Siyasəti-fürusət" çilik-çilik edilmiş billur kimliyimizin tarix, sənət, fəlsəfə və ədəbiyyat üsulu ilə yenidən bərpasıdır.

Əli bəy dövrünün ən yayğın (populyar) mətbu orqanı olan "Molla Nəsrəddin" və "Dəbistan" jurnallarını "qaranlıqlar içində işıq" sayırdı. Eyni adlı yazısında "...qəmli bir zamanda böylə bir müzhik qəzetənin çıxması qərib görünsə də, ... onun təhtində bol-bol axan göz yaşları gizlidir" deyə dərginin məzmunu ilə mövqeyini müqayisə edərək hər ikisinin haqlı olduğu qənaətinə gəlir. Həmçinin, məqalənin maraqlı tərəfi ondan ibarətdir ki, Əli bəyin bu yazısı elə "Molla Nəsrəddin" üslubundadır. Nadanlığın "qoz kötükləri"nə bənzəyişi dövrün savad və ziya cəhətdən bərbad olan müsəlman cəmiyyətinin acınacaqlı vəziyyətini analiz edir. Başqa bir yazısında ("Kuhi-Qaf və simurğ") məsələyə bu şəkildə yanaşır; Ərəblərin "Huristan" dedikləri məkan Qafqaziyyə deyilmi? - deyə sual edir. Cavabını isə özü belə verir: Əvət, cismən və bədənən hur və mələk qədər gözəl xəlq?.. Lakin gözəl cisimdə də gözəl ruh və fikir olmaq lazım gəlir!.. Öyləmidir? Əlbəttə, öylədir. Ruh və fikir gözəlliyinin əlaməti nədir? Şübhəsiz, hürriyyət və azadlıqdır, azadlığa meyildir!.. Başqalarını bilməm, bəncə, böylədir!" (Hüseynzadə. 2007).

Deməli, "bütün dövrlərdə mənəvi mədəniyyətin tarixi missiyası bir də milli-maarifçilik olub. Bəşəriyyəti tərəqqiyə və humanitar intibahlara həmişə maarifçilər hazırlayıb. İstiqlal və suverenlik idealı həmişə ədəbi-nəzəri fikirdə formalaşıb, yalnız sonra dövlət təfəkkürü, sosial-inzibati qurum və siyasi rejim gerçəkliyi kəsb edib. İndiki suveren Azərbaycanın da mənəvi memarları Axundzadələr və Zərdabilər, Əlibəylər və Ağaoğlular, Sabirlər və Cavidlər, Nərimanovlar və Üzeyirbəylər, Cabbarlılar və Vurğunlar olmuşlar" (Qarayev. V, 2016:238).

Beləliklə, mədəniyyət, dil və türkçülüyün problemli olduğu bir tarixi şəraitdə, "türk" kəlməsinin dilə gətirilmədiyi tarixi bir məqamda Əli bəy Hüseynzadə "Həyat" qəzetinin səhifələrində çap etdirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?" adlı əsəri ilə türk xalqlarına, o cümlədən Azərbaycan türklərinə üz tutaraq, "Biz ki, türk oğlu türkük, biz ki, millətlərin ən qədimi və ulusuyuq,"- deyə hayqırır, bəzi mətbuat orqanlarında Çingiz xanın və Əmir Teymurun monqol kimi göstərilməsini tənqid edir, onların türk olduqlarını və nəsillərindən olan şəxsiyyətlərin də adlarını çəkərək onların hər zaman türkcə danışdıqlarını və türkcə yazdıqlarını bildirirdi. Məşhur Amerika tarixçisi Tadeuş Svetoxovski Azərbaycan tarixi ilə bağlı araşdırmalarında xüsusi olaraq qeyd edir ki, "XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi, o da Əli Bəy Hüseynzadə idi".

Millətin tərəqqisi uğrunda fədakarcasına mübarizə aparan Əli bəy milli məhdudiyyətin, ifrat mühafizəkarlığın, süni millətçiliyin əsl tərəqqi yolunda böyük əngəllərdən biri olduğunu dərk edir, dünya mədəniyyətindən təcrid olunmuş halda inkişafın qeyri-mümkünlüyünü hamıya çatdırmaq istəyirdi. Əli bəy Hüseynzadə Qərb mədəniyyətinin inkişafının əsas səbəblərindən birini məhz onun dünya mədəniyyətinin, bu halda isə Şərq mədəniyyətinin bütün ümumbəşəri nailiyyətlərini mənimsəyərək özününkü etməsində, öz milli inkişaflarında hər cür idraki məhdudiyyətlərdən uzaq olmalarında görürdü.

XX əsrin əvvəllərində qərbçilik meyillərinin güclənərək inkişafı eyni zamanda, yeni təhsil və məktəb proqramlarının meydana gəlməsi, habelə Rusiyada və Avropada universitetlərə daxil olmaq imkanlarının genişlənməsi ilə də sıx bağlı idi. Qərb mədəniyyəti, elmi və təhsili ilə bilavasitə təmasda olmuş, Avropadan mütərəqqi ideyaları, azadfikirliliyi əxz etmiş ziyalılarımız milli vətənpərvərlik ruhu və müasirləşmə əqidəsi ilə xalqa xidmət göstərməyə can atırdılar. Bu xüsusda Əli bəy Hüseynzadənin olduqca çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının elm, təhsil və mədəniyyətinin inkişafında mühüm mərhələ hesab edilə bilər.

## ƏDƏBİYYAT


1. Ağazadə İ. Maarifçiliyin təbliğində və uşaq ədəbiyyatının inkişafında Əli bəy Hüseynzadənin rolu. Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası Bakı: 2022. № 4. s.5-13.
2. Azərbaycan Respublikası Prezidentinin "Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il yanvarın 21-də imzaladığı sərancam. "Azərbaycan" qəzeti, 22 yanvar 2014.
3. Azər Turan. Əli bəy Hüseynzadə. Moskva: Salam press, 2008. s.280
4. Böyük ədib və mütəfəkkir Əli bəy Hüseynzadə (Elmi redaktoru: akademik İsa Həbibbəyli, tərtibçilər və çapa hazırlayanlar Nikpur Cabbarlı, professor Şamil Vəliyev). Bakı: "Elm", 2015. s.260
5. Əmrahov Mais. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı. 2009. s.371
6. Əsədova V. "Füyuzat" məcmuəsində ədəbiyyat məsələləri. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı: 2017. s.28
7. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2007, s.640
8. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Əli bəy Hüseynzadə. Bakı: Xəbər, 2017, 9 avqust, № 140. s.13
9. Qarayev Y. Seçilmiş əsərləri. IV cild. Bakı: Elm, 2016, s.776
10. Qarayev Y. Seçilmiş əsərləri. V cild. Bakı: Elm, 2016, s.728
11. Quliyev Ə. Əli bəy Hüseynzadə: Türkçülüyün atası və böyük maarifçi. 525-ci qəzet, 2014, 7 fevral s.7-8.
12. Sadayoğlu P. Əli bəy Hüseynzadə və Türk dünyası. "Yeni Azərbaycan" qəzeti. 25 aprel 2014


## SUMMARY

**Bagir Babayev**

**THE IDEAL OF TURKISM AND
TURANISM BY ALI BEY HUSEYNZADE**

The progressive intelligentsia played a leading role in the awakening of national consciousness and its spread in the socio-political life of Azerbaijan in the late XIX-early XX

century. The 1905 revolution in Russia is considered the beginning of the struggle of Muslim peoples for national progress, as well as other oppressed peoples living on the territory of the empire. The great thinker of the Azerbaijani people, Ali bek Huseynzade, devoted his whole life to the progress and development of our people, worked at all stages of his work for the development of education and culture of our people. At that time, special attention was drawn to the philosophical ideas of Ali Bey Huseynzade that the Turks would either die or emigrate, but would not become slaves. Based on the ideas put forward by the thinker in his writings, an ideological system of "Turkization, Islamization and modernization" has developed. This three-column ideological system soon spread throughout the Turkic world, in particular, its idea of "Turancha" deeply alarmed the censorship of tsarist Russia, Russian and Armenian reactionaries.

***Key words:*** *Ali bek Huseynzade, ideological system, Turkization, Islamization and modernization, national progress, development of education, culture*

## РЕЗЮМЕ

**Багир Бабаев**

## ИДЕАЛ ТЮРКИЗМ И ТУРАНСТВО АЛИ БЕКА ГУСЕЙНЗАДЕ

В пробуждении национального самосознания и его распространении в общественно-политической жизни Азербайджана конца XIX-начала XX века ведущую роль сыграла прогрессивная интеллигенция. Революция 1905 года в России считается началом борьбы мусульманских народов за национальный прогресс, как и других угнетенных народов, проживающих на территории империи. Великий мыслитель азербайджанского народа Али бек Гусейнзаде всю свою жизнь посвятил прогрессу и развитию нашего народа, на всех этапах своего творчества работал для развития образования, культуры нашего народа. В то время особое внимание привлекали философские идеи Али Бека Гусейнзаде о том, что турки либо умрут, либо эмигрируют, но не станут рабами. На основе идей, выдвинутых мыслителем в своих трудах, сложилась идеологическая система "тюркизации, исламизации и модернизации". Эта трехколонная идеологическая система вскоре распространилась по всему тюркскому миру, в частности, ее идея "Туранчы" глубоко встревожила цензуру царской России, русских и армянских реакционеров.

***Ключевые слова:*** *Али бек Гусейнзаде, идеологическая система, тюркизации, исламизации и модернизации, национальный прогресс, развития образования, культуры*

**MƏHƏRRƏM HƏSƏNOV**
*meherremaltay@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN SİYASİ HƏYATI

*Məqalədə siyasi mühitdə şəxsiyyətin ictimai fəallığının yüksəlməsinin çoxsahəli xüsusiyyətləri təhlil edilmişdir. Müəllif müasir şəraitdə şəxsiyyətin milli şüur və mütəşəkkillik səviyyəsinin yüksəlməsinin əsas meyarlarını təhlil etmiş, bu nəticəyə gəlmişdir ki, müasir şəxsiyyətin siyasi həyatda iştirakı geniş və çoxtərəfli məzmuna malikdir. Bu baxımdan şəxsiyyətin siyasi fəallığının artması müasir dövrün zəruri şərti və mühüm tərkib hissəsi olmaqla hüquqi dövlət yaradılmasının mühüm amilidir.*

***Açar sözlər:*** *şəxsiyyət, millət, siyasət, fəallıq, mənafe, mühasibat*

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət hakimiyyətinin xarakterinin əsaslı surətdə yenilənməsi cəmiyyətin siyasi təşkilində şəxsiyyətin yerini və rolunu, onun siyasətə münasibətini tamamilə dəyişdirdi. Bu dövrdən etibarən demokratiya institutlarının məzmunu və onların şəxsiyyət ilə qarşılıqlı təsirinin mexanizmi prinsipcə yeni mahiyyət kəsb etməyə başladı. Şəxsiyyət siyasi həyatın və siyasi fəaliyyətin subyektinə çevrilməyə başlayır. Bu prosesin əsas istiqamətlərini və yollarını açmazdan əvvəl qeyd olunmalıdır ki, siyasi fəaliyyət anlayışı çox mürəkkəb məzmuna malik olan spesifik fəaliyyət sahəsidir. Ümumiyyətlə götürdükdə, "siyasi" anlayış insanın təfəkkürünün və hərəkətlərinin əxlaqi, estetik və iqtisadi mühitindən fərqlənən nisbi müstəqil sahəsini ifadə edir. Onun öz meyarları və göstəriciləri vardır (2, s.39).

Siyasət və siyasi münasibətlər son dərəcə mürəkkəb sahə olmaqla müəyyən fəaliyyətə əsaslanır və bu fəaliyyət gedişində qərarlaşan münasibətləri əhatə edir. Sözün ümumi mənasında siyasəti siyasi hakimiyyətin və bu hakimiyyətlə bağlı olan münasibətlərin reallaşdırılması kimi səciyyələndirmək olar.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev deyirdi: " Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır" (1, 31).

Məlumdur ki, müstəqil dövlətçiliyini quran bütün postsovet respublikaları üçün cəmiyyətin siyasi təşkili, siyasi proseslərə şəxsiyyətin fəal cəlb olunması ilə əlaqəli bütün məsələlər böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası üçün isə bu problemin zəruriliyi daha mühümdür. Bu, ölkəmizin yerli şəraiti, tarixi ənənələri, dövlətçilik təcrübəsinin azlığı və burada yeni cəmiyyət quruculuğu proseslərinin ilk əvvəldən millətlərarası münaqişə ilə Ermənistanın ərazi iddiaları və onun törətdiyi ağır nəticələr ilə izah edilir.

Qeyd etmək lazımdır ki, siyasi həyata məxsus olan çoxölçülülük keyfiyyəti özünü həm də şəxsiyyətin fəaliyyətində təzahür etdirir, yəni burada sırf siyasi xarakterli ölçülər ilə

yanaşı, həm də müəyyən sosial-iqtisadi, struktur, funksional, sosial mədəni, tarixi və başqa göstəricilər də çox mühüm yer tutur.

Qeyd edək ki, elmi-nəzəri ədəbiyyatda siyasətin subyektlərinin birmənalı təsnifatı demək olar ki, yoxdur. Mütəxəssislərin bir qismi (E.Anutriyev, D.Zerkin və başqaları) göstərirlər ki, siyasətin ilkin subyektini böyük sosial qruplar, milli-etnik birliklər və bütünlükdə xalq təşkil edir, ikinci pillə siyasi partiyalar, ictimai-siyasi təşkilatlar və digər siyasi təsisatlar vasitəsilə təmsil olunur. Üçüncü pillə isə fərdi liderlər, ayrı-ayrı şəxsiyyətlərdir (3, s.82).

Digər qrup alimlər isə cəmiyyətin siyasi subyektlərinin ardıcıllığını müəyyən edərkən ilkin subyekt kimi ayrı-ayrı şəxsiyyətlərdən çıxış etməyi təklif edirlər (İ. Borisov, M.Əfəndiyev və başqaları) (4, s.99; 5, s.187).

Bizim fikrimizcə, ikinci nöqteyi-nəzərin öz məntiqi vardır. Belə ki, həm ümumilikdə cəmiyyət miqyasında, həm də müxtəlif sosial birliklər səviyyəsində götürülən siyasi subyektlər nə isə bir mücərrəd varlıq olmayıb, onlarda təmsil olunan ayrı-ayrı konkret şəxsiyyətlərdir. Buna görə də siyasi subyektlərin təsnifatında şəxsiyyətdən çıxış edərək ümumiliyə doğru getmək məqsədəuyğundur. Həm də nəzərdə tutmaq lazımdır ki, əsas məsələ sıra ardıcıllığının ifadə olunmasında deyil, ümumi mahiyyətin aşkarlanmasındadır. Sonuncu mövqedən yanaşdıqda göstərilməlidir ki, cəmiyyət (xalq) sosial birliklər, siyasi təsisatlar və şəxsiyyət siyasətin subyektləri olmaq etibarilə bir-birilə ayrılmaz əlaqədə və sıx qarşılıqlı təsirdə fəaliyyət göstərirlər (6, s.126).

Şəxsiyyətin cəmiyyətin siyasi həyatında iştirakı son dərəcə geniş məzmuna malikdir. Bu prosesdə təkcə, mövcud siyasi reallıq deyil, həm də şəxsiyyətin özü subyekt kimi ciddi yenilənməyə məruz qalır. Əvvəla, siyasi həyatda fəal iştirak etməklə o, özünün malik olduğu potensial imkanları üzə çıxarır, yaradıcı varlıq kimi siyasi həyatda özünü təsdiq edir. Digər tərəfdən şəxsiyyət siyasi fəaliyyət prosesində siyasi strukturlar ilə hərtərəfli əlaqələrini möhkəmləndirə və lazım gəldikdə onların fəaliyyəti üzərində nəzarət həyata keçirə bilir. Nəhayət, öz siyasi fəaliyyəti ilə şəxsiyyət, dövlət və ictimai işlərin idarə olunmasında yaranan demokratik tələbatı ödəyir, ünsiyyət mədəniyyətini yüksəldir, idarəçilik vərdişlərini daha da zənginləşdirir.

Müasir dövrdə şəxsiyyətin siyasi fəaliyyətinin strukturu da xeyli dərəcədə mürəkkəbdir. Burada ilk öncə yaxın (taktiki) və perspektiv (strateji) siyasi məqsədləri düzgün müəyyənləşdirmək məharəti qeyd olunmalıdır.

Siyasi fəaliyyətin ikinci mühüm struktur ünsürü şəxsiyyət tərəfindən öz siyasi məqsədini həyata keçirmək üçün səmərəli metodların, vasitələrin və formaların seçilməsidir.

Şəxsiyyətin siyasi fəallığının artması açıq cəmiyyətə keçid dövrünün zəruri şərti və ayrılmaz tərkib hissəsidir. Hazırda ictimai həyatın bütün sahələrində özünü göstərən əsaslı və dərin dəyişikliklər, demokratikləşmənin ardıcıl həyata keçirilməsi, şəxsiyyətin siyasi fəallığının artması ilə bilavasitə bağlıdır. Bu təsadüfi olmayıb, açıq cəmiyyət quruculuğunda iqtisadi, sosial və mənəvi sahələrdə olduğu kimi siyasi həyatda da insan amilini fəallaşdırmağın müstəsna dərəcədə böyük əhəmiyyəti ilə izah olunur. İndi siyasi fəallığın artırılması cəmiyyətimizin qarşısında duran genişmiqyaslı və mürəkkəb vəzifələr

kompleksinin həllinin əsas amillərindən birinə çevrildiyi üçün, onun real vəziyyətinin təhlili, gələcək inkişafının yolları və vasitələrinin axtarıb tapılması, təkcə nəzəri baxımdan deyil, eləcə də praktiki mənada son dərəcə zəruridir.

Deyilənlər sübut edir ki, müasir dövrdə şəxsiyyətin siyasi fəallığını şərtləndirən amillər kompleksindən əsas determinantları seçib ayırmaq və onların əsasında təhlil aparmaq zəruridir. Sözügedən amillər obyektiv və subyektiv cəhətləri əhatə etməklə, geniş məzmuna malikdir. Onlar, əsasən, şəxsiyyətin iqtisadi, sosial, demoqrafik səciyyələrini əhatə edir. İqtisadi amillər qrupunda əməyin xarakteri və məzmunu əsas yer tutur, onu ifadə edən ixtisas dərəcəsi, mədəni-texniki səviyyə, təhsil və başqa göstəricilər qarşılıqlı təsirdə çıxış edərək şəxsiyyətin fəallığında çox mühüm rol oynayır. Sözügedən amillər qrupunun şəxsiyyətin siyasi fəallığına təsiri həm də onların - işçinin asudə vaxtının həcmi vasitəsilə özünü göstərir. Yəni şəxsiyyətin çalışdığı konkret əmək növü, onun məzmunu nə qədər çox asudə vaxt yaradırsa, həmin işçinin bir şəxsiyyət kimi siyasi fəallıq göstərməsi üçün daha çox imkanlar açılır.

Cəmiyyətin ictimai həyatında şəxsiyyətin fəallığının artması üçün geniş araşdırmalar aparmaq, yeni tələblərə cavab verən qnoseoloji zəminlərin, metodoloji yanaşmaların işlənib hazırlanmasını tələb edir (10, s.12). Bu zaman Azərbaycanın yenilənən dünyada bir müstəqil ölkə kimi milli maraq və prioritetlərinin gözlənilməsi, cəmiyyətin demokratik prinsip və normalar əsasında təşkilatlanması və idarə olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi, şəxsiyyətin sosiallaşması məsələlərinə, milli dövlət və dövlətçilik problemlərinə xüsusi diqqət yetirilməlidir. Şəxsiyyətin siyasi fəallığının artması cəmiyyətdə, eyni zamanda milli ideologiya, azərbaycançılıq, siyasi institutların demokratikləşməsi və effektivliyi, sosial idarəetmənin optimallaşdırılması və başqa bu kimi problemlərin də təhlilinə əlverişli şərait yaradır.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqillik yolu . Bakı: 1997. s.136
2. Шмитт К. Понятие политического // Вопросы социологии 1992
3. Зеркин Д.П. Основы политологии. Ростов -на - Дону: 1977
4. Борисов Л.П. Политология. М.: 1966
5. Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı: Siyasət, 1998
6. Rzayev M.H. Müasir şəxsiyyət. Bakı: MBM 2014
7. Арефьева Г.А. Социальная активность. М.: Мысль, 1974
8. Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı: Səda, 2006
9. Fəlsəfə. Dərslik. (F.Ramazanovun redak. ilə) Bakı: Azərnəşr, 1997
10. Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. Bakı: Elm və Təhsil, 2014

## SUMMARY

**M.Hasanov**

## POLITICAL LIFE OF MAN IN THE MODERN PERIOD

The article explores multilevel peculiarities of rise in public activism of personality in political area. The author analyzes key criteria of intensification of national conscience and the level of organization of personality at the modern stage and concludes that participation of modern personality in political life has a big and diverse importance. From this perspective, rise in political activism of personality as a prerequisite and the integral part of the modern age acts as the key factor in establishment of the rule-of-law state.

***Key words:*** *personality, nation, politics, activity, interest, accounting*



## РЕЗЮМЕ

**М.Гасанов**

## ПОЛИТИЧЕСКАЯ ЖИЗНЬ ЧЕЛОВЕКА В СОВРЕМЕННЫЙ ПЕРИОД

В статье анализируются многоаспектные особенности повышения общественной активности личности в политической сфере. Автор анализирует основные критерии повышения национального сознания и уровня организации личности в современных условиях и приходит к выводу, что участие современной личности в политической жизни имеет большое и многостороннее содержание. С этой точки зрения, повышение политической активности личности, будучи непременным условием и важной составной частью современности, является важным фактором создания правового государства.

***Ключевые слова:*** *личность, нация, политика, деятельность, интерес, учет*

**SADİQ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR AZƏRBAYCANDA HEYDƏR ƏLİYEVİN MULTİKULTURALİZM SİYASƏTİNİN TƏNTƏNƏSİ

*Milli-mənəvi dəyərlər və azərbaycançılıq - bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Dövlət müstəqilliyini bərpa edərək, xalqımız keçmişin bütün buxovlarından azad olduqdan sonra, əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev ilk gündən inkişafa mane olan ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, multikulturalizm, Azərbaycan, milli dəyərlər*

Müasir Azərbaycan dövlətinin qurucusu, respublikamızın sabiq prezidenti mərhum Heydər Əliyevin ölkəmizin inkişafında, tərəqqisində rolu əvəzsizdir. Azərbaycançılığın banilərindən olan Heydər Əliyev azərbaycançılıq ideyasının hazırlanmasında, təbliğində, yayılmasında əhəmiyyətli işlər görüb. Söz yox ki, Heydər Əliyev azərbaycançılığın daxilində çoxmillətli, müxtəlif dinli Azərbaycan əhalisini, habelə xaricdə yaşayan azərbaycanlıları görürdü.

Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli zaman-zaman örnək rolunu oynayacaq. Bilirik ki, Azərbaycanda multikulturalizmin dərin kökləri var və bu sahədə Heydər Əliyevin rolu vurğulanmalıdır. Ekspertlər vurğulayır ki, ölkəmizdə multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin xidmətləri çoxşaxəlidir. Millətlərarası multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev çıxışlarından birində qeyd edirdi ki, Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçib. O vurğulayıb ki, Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış Azərbaycan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib, onu keyfiyyətcə yeni mərhələyə qaldırıb: "Ulu öndər hələ 1994-cü ildə İstanbulda keçirilən "Sülh və səbr" adlı beynəlxalq dini konfransdakı çıxışında bu məqamı dəqiq ifadə edib".

Azərbaycanda dövlətin multikultural ənənələri qorumasında ən vacib məqam Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən, Konstitusiyada əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipi Konstitusiyanın bir sıra maddələrində təsbit edilib. Buna görə də, Heydər Əliyevi Azərbaycan multikulturalizminin siyasi banisi hesab etmək olar. Ulu Öndər Heydər Əliyev ilk növbədə bununla Heydər Əliyev siyasi modelinin

assimilyasiya və izolyasiya kimi digər modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür, biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən Ulu öndər bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Milli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə Prezident İlham Əliyev uğurla inkişaf etdirir. Bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verilir. Azərbaycan multikultural ənənələrinin qorunub saxlanılması, təbliği ilə bağlı Heydər Əliyev Fondu əhəmiyyətli layihələr həyata keçirir. Fondun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

"Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr vermişdir" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edirdi. Bilirik ki, əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh şəraitində bir ailə kimi yaşamışlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Düşünürəm ki, bu bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk".

Vurğulayaq ki, Azərbaycanda tolerantlıq kimi multikulturalizm ideyalarına sadiqlik hər zaman güclü olub və bu gün də eyni vəziyyətdədir. Azərbaycanda insanları yaxınlaşdıran, xalqları sülh, sabitlik, insanları mehribanlıq, qarşılıqlı hörmət naminə birləşdirən azərbaycançılıq və multikulturalizm olduqca böyük dəyərdir. Tədqiqatçılar qeyd edir ki, Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra xalqa "Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq, bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur" çağırışı da dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın bir amal ətrafında sıx birliyini təmin edib, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakları ilə Azərbaycan həqiqətlərinin təbliğinə öz böyük töhfələrini vermələrinə stimul olub. Bir sözlə, Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc, yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir (1).

Ölkəmizin ən güclü dövrünü yaşadığı, adını qalib dövlət kimi tarixə yazdırmasının üçüncü ildönümünü misilsiz bir məmnunluq hissi ilə yaşayırıq. Bu qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqlarla yanaşı, həm də Azərbaycan xalqının birliyinin, həmrəyliyinin nəticəsi idi.

Bu birlik və həmrəyliyin nümayişi Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin uğurla və uzaqgörənliklə həyata keçirdiyi multikulturalizm siyasətinin təntənəsi idi. Ümummilli lider hesab edirdi ki, mədəniyyətlərin müxtəlifliyinə hörmət ölkədə sabitliyin və birliyin təmin edilməsində əsas amillərdən biridir. Ona görə də fərqli mədəniyyətlərin qorunub saxlanılması ideyasını fəal şəkildə dəstəkləyir, etnik parçalanma və münaqişə mövzusuna həssaslıqla yanaşırdı. Nəticədə müstəqil Azərbaycan üçün ən həlledici anlarda xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bildi. Ulu öndərin 1993-cü il 10 oktyabr tarixində andiçmə mərasimində səsləndirdiyi bu fikirlər onun bütün hakimiyyəti dövründə və sonrakı illərdə öz təsdiqini tapdı, Azərbaycanın güclü inkişafının təməl dayaqlarından birinə çevrildi: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictima-isiyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər. Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır".

Azərbaycanda harmonik sosial-mədəni məkan yaratmağa çalışan Heydər Əliyev multikulturallığın əsas şərtlərindən olan tolerantlıq ideyasını da dəstəkləyirdi. Tolerantlıq prinsipi onun siyasətinin əsas elementinə çevrilmişdi. Buraya təkcə müxtəlifliyin rəsmi tanınması deyil, həm də müxtəlif etnik qrupların mədəniyyətlərinə, dillərinə və adətlərinə fəal dəstək və hörmət daxil idi. Yeri gəlmişkən, 16 noyabr Beynəlxalq Tolerantlıq Günü kimi regionda ilk dəfə Azərbaycanda qeyd edilmişdir. Bu ənənənin davamı kimi, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən konfessiyaların dini bayramlarında və əlamətdar günlərində ayrıseçkilik qoymadan müsəlmanlara, xristianlara və yəhudilərə müraciət edir, dini və milli bayramlarda insanlar arasında olur, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərin icrasına nəzarət edir (2).

Multikulturalizmlə bağlı müzakirənin ən çətin məqamlarını başa düşmək üçün konsepsiyanın mahiyyətini dərk etmək lazımdır. Multikulturalizmi bütün mədəniyyətlərin bir yerdə birləşməsini nəzərdə tutan "əritmə qazanı" konsepsiyası ilə qarışdırmaq olmaz (3, s.47). Milli azlıqların hüquqları etnik və mədəni qruplara öz milli kimliklərini öyrənmək və qoruyub saxlamaq imkanı verməkdən ibarətdir. "Çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu gün beynəlxalq aləmə inteqrasiya edir, mədəniyyətlərarası və dinlərarası dialoqa böyük önəm verir. Multikulturalizm Azərbaycanda dövlət siyasətinin ən mühüm istiqamətlərindən biridir (4).

Ölkəmizdə multikulturalizmin çiçəklənməsi birbaşa olaraq Ulu öndər Heydər Əliyevin adı ilə əlaqədardır. Ümummilli lider Heydər Əliyev ölkə həyatında siyasi stabilliyin təmin olunmasını onda və eləcə də onunla qonşuluqda yaşayan xalqların dostluğunun və əməkdaşlığının hansı səviyyədə olmasında görürdü (5, s.50). Heydər Əliyev otuz ilə yaxın Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm rol oynamışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafına xüsusi diqqət yetirirdi, bu inkişaf nəticəsində mədəniyyətimizin müasir mərhələsində "Azərbaycan multikulturalizmi" modeli formalaşdı. "Azərbaycan multikulturalizmi" modeli artıq xarici

ölkələrdə də fəal şəkildə istifadə olunur. Bu model müxtəlif etnik-mədəni ənənələri - məişət, dini, etik, estetik və s. birləşdirən milli dəyərlər sistemi ilə xarakterizə olunur. Hazırda "Azərbaycan multikulturalizmi" modeli regionda sabitliyin və sülhün qorunması, qlobal miqyasda onunla bağlı münaqişələrin aradan qaldırılması üçün effektiv vasitəyə çevrilib. Bu modeldən Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sahəsində tərəfdaşları ilə siyasi, ideoloji və sosial-mədəni qarşılıqlı fəaliyyətinin əsası kimi fəal istifadə edilməsi milli mədəniyyətimizin xaricdə təbliğinin konkret formalarının daha dərindən araşdırılmasını tələb edirdi. Bu baxımdan xarici mədəniyyət siyasəti "yumşaq güc"ün (ing. soft power) köməyi ilə mədəni irs obyektləri, mədəniyyət, idman, turizm və təhsilin kütləvi sahələri vasitəsilə milli maraqların təşviqi fenomeni kimi gündəmə gəlib [6]. Heydər Əliyev Sovet hakimiyyəti illərində də yüksək vəzifələrdə çalışarkən millətinə və dininə bağlılığını qoruyub saxlamış, multikultural dəyərlərə böyük önəm vermişdir. "Milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin yüksək dəyərləndirilməsində bir çox tarixi şəxsiyyətlərin böyük rolu olmuşdur. Onlardan biri də müasirimiz olmuş Ulu öndər Heydər Əliyevdir" (7, s.6). Ulu öndər inanırdı ki, irqi, dini, milliyyəti, maddi sərvəti heç bir halda bir insanın digərindən üstünlüyünə səbəb ola bilməz.

2001-ci ilin mayında Azərbaycana gələn Moskva və bütün Rusiyanın Patriarxı II Aleksi məbədə Azərbaycan Respublikasında baş kafedral kilsə statusu verdi. Ölkə Prezidenti kilsənin açılış mərasimində də iştirak edib, məbədin bərpa olunaraq dindarların istifadəsinə verilməsi faktını yüksək qiymətləndirib. Dövlət başçısı xaricdə fəaliyyət göstərən beynəlxalq dini strukturlarla əlaqələrin qurulmasına və əməkdaşlığın genişləndirilməsinə, dünyanın tanınmış din adamları ilə görüşlərə də mühüm önəm verirdi. Xüsusən də Heydər Əliyev İslam ölkələri arasında birliyin, həmrəyliyin, qarşılıqlı yardımın yaradılması və möhkəmləndirilməsinin qayğısına qalıb. İslam dəyərlərinə böyük hörmət edən Heydər Əliyev 13 iyul 1994-cü ildə Səudiyyə Ərəbistanına səfər edərək, Həcc ziyarətində olub. 2002-ci ildə Bakıda "Demokratik cəmiyyətdə din və imanın rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının axtarışı" mövzusunda beynəlxalq konfrans keçirildi. Bu konfransda iştirak edən Heydər Əliyev nitqində qeyd etmişdir: "İnsanın daxili dünyası, onun dünyagörüşü, onun təhsili, elmi, mədəniyyəti, onun varlığını və daxili aləmini müəyyən edən bir çox amillər, o cümlədən onun hüquqları cəmiyyət tərəfindən daim qorunmalıdır" [8]. Multikulturalizm cəmiyyətlərdə müxtəlifliyin olduğunu təbii qəbul edir. Din cəmiyyətin simasını, ondakı əxlaqi vəziyyəti müəyyən edən ünsürlərdən biridir. Sosioloji tədqiqatlar göstərir ki, bəşəriyyətin əksəriyyəti dini, mədəni və sosial həyatın əvəzsiz elementi hesab edir. Məhz buna görə də din beynəlxalq münasibətlərdə ən təsirli vasitə və mövzulardan biridir. Dini məsələlərdə qarşılıqlı anlaşma və birlik, hətta bu baxımdan sadə dözümlülük başqa məsələlərdə də tez bir zamanda razılığa gəlməyə imkan verir. Bir və ya müxtəlif dinlərin nümayəndələrinin dünyagörüşü və dəyər birliyi onlara ən müxtəlif problemlərə tez bir zamanda ümumi yanaşma tapmağa imkan verir. Heydər Əliyev beynəlxalq fəaliyyətində həmişə bu halları nəzərə alırdı. 2002-ci il mayın 22-də Vatikanın Azərbaycan Respublikasının müstəqilliyini tanımasının 10 illiyi ərəfəsində Roma Papası II İohann Pavel Bakıya rəsmi səfərə gəlmişdir. Heydər Əliyevin Papa II İohann Pavellə səmimi görüşü Azərbaycanda hökm sürən nümunəvi tolerantlıq mühitinə, Şərqlə Qərb, İslam və

xristianlıq arasında körpü rolu oynamasına bariz nümunədir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının rəhbəri olduqdan sonra onu dünyəvi dövlət elan etdi. Fakt budur ki, Prezident "dünyəvilik" anlayışını dərindən dərk edirdi. Dünyəvi dövlət istər islam, istər xristian, istər yəhudi, istər buddist, istərsə də başqa bir inancın mövcudluğunun vacibliyini inkar etmir, dünyəvi dövlət dinə hörmətlə yanaşır. Heydər Əliyev gənclərin düzgün dini təhsilinə xüsusi diqqət yetirirdi. Heydər Əliyev dinin cəmiyyətin həyatından kənarda qalmadığı, lakin dövlətin və dinin bir-birinin işinə hüquqi aspektdə qarışmadığı, qanunauyğunluq və hörmət çərçivəsində qarşılıqlı fəaliyyət göstərdiyi, bir-birini dəstəklədiyi dünyəvilik konsepsiyasını müdafiə etmişdir.

Ölkəmizdə multikulturalizm gənc nəslin təlim-tərbiyəsi üçün səmərəli vasitələrdən biri hesab olunur. Millətin formalaşmasında müstəsna və fundamental əhəmiyyət kəsb edən milli kimlik yeni müstəqil dövlət quruculuğunda mühüm əhəmiyyət kəsb edir. Multikulturalizm, ilk növbədə, milli mədəniyyətlərin qarşılıqlı əlaqəsi və zənginləşməsi, mənəvi dəyərlərin, normaların tanınması ilə bağlıdır. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün insanlara tolerant münasibət bəsləmiş, bu münasibət dövlətimizin və azərbaycançılıq fəlsəfəsinin təməl ünsürlərindən biri olmuşdur.

## ƏDƏBİYYAT

1. http://www.anl.az/down/meqale/baki_xeber/2016/may/492398.htm
2. Səyyad Arran. Heydər Əliyev və multikulturalizm siyasəti. "525-ci qəzet". 2023. 23 noyabr. № 212. s.7.
3. Куропятник А.И. Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ. СПб.: Изд-во СПбГУ, 2000. 207 с
4. Ахундова С. "Иностранные студенты знакомятся с культурой, историей, литературой, традициями и обычаями азербайджанцев..." / Эхо. 2015. 30 марта. с.3
5. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı: "Gənclik". 2017. s.204
6. Nye Joseph. "China's Soft Power Deficit To catch up, its politics must unleash the many talents of its civil society". The Wall Street Journal. 8 May 2012.
7. Hüseynov İ.H. Heydər Əliyev və Azərbaycan mədəniyyəti // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. №12. Bakı: 2011
8. "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransın açılış mərasimində Ümummilli lider Heydər Əliyevin nitqi. 10 oktyabr 2002. https://lib.aliyev-heritage.org/az/2235788.html

**SUMMARY**

**Sadiq Huseynov**

**THE TRIUMPH OF HEYDAR ALIYEV'S MULTICULTURALISM POLICY IN MODERN AZERBAIJAN**

National moral values and Azerbaijaniness - these words are native, dear and sacred to every citizen of Azerbaijan. This also means the formation of historical memory as a symbol of national spirit and national consciousness based on fundamental principles. After restoring state independence and freeing our people from all the shackles of the past, a new ground was created for the formation of national and moral values and national self-awareness that were forcibly taken from their hands. The fact that the nation is ready to die for those values during the period of national awakening, which has been included in the pages of our modern history, is an example of our people's loyalty to national values.National leader Heydar Aliyev, who came to political power in Azerbaijan on July 14, 1969, braved the ideological and political barriers that hindered development from the first day, and began to implement all the necessary measures for the national self-awareness of the Azerbaijani people, to eliminate fear and caution in the public consciousness, and to strengthen the society in all areas. has managed to inspire future spiritual growth.

***Key words:*** *Heydar Aliyev, multiculturalism, Azerbaijan, national values*

**РЕЗЮМЕ**

**Садик Гусейнов**

**ТОРЖЕСТВО ПОЛИТИКИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА ГЕЙДАРА АЛИЕВА В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ**

Национальные нравственные ценности и азербайджанство - эти слова являются родными, дорогими и священными для каждого гражданина Азербайджана. Это также означает формирование исторической памяти как символа национального духа и национального самосознания, основанного на фундаментальных принципах. После восстановления государственной независимости и освобождения нашего народа от всех оков прошлого была создана новая почва для формирования национально-нравственных ценностей и национального самосознания, которые были насильственно отняты у него из рук. Тот факт, что нация готова умереть за эти ценности в период национального пробуждения, который вошел в страницы нашей современной истории, является примером верности нашего народа национальным ценностям. Общенациональный лидер Гейдар Алиев, пришедший к политической власти в Азербайджане 14 июля 1969 года, с первого дня преодолел идеологические и политические барьеры, препятствовавшие развитию, и начал осуществлять все необходимые меры для национального самосознания азербайджанского народа, для устранения страха и осторожности в общественном сознании, и укреплять общество во всех областях. сумел вдохновить на будущий духовный рост.

***Ключевые слова:*** *Гейдар Алиев, мультикультурализм, Азербайджан, национальные ценности*

**SƏBUHİ İBRAHİMOV**
*s.ibrahimov71@mail.ru*
*AMEA Naxçıvan Bölməsi*

# MÜASİR FƏLSƏFİ DÜNYAGÖRÜŞÜMÜZDƏ HEYDƏR ƏLİYEVİN ROLU

*Məqalədə Azərbaycanın milli-mənəvi dəyərlərini zənginləşdirən Heydər Əliyev və müasir fəlsəfi dünyagörüşümüzün tarixi köklərini araşdırarkən bir çox elmi faktorların aşkar olmasının şahidi oluruq. Belə ki, doğma vətənimiz olan Azərbaycan milli mənsubiyyətindən asılı olmayaraq hər bir xalqın, millətin nümayəndəsi üçün əziz və doğmadır. Çünki xalqımız öz milli mədəniyyəti ilə digərlərinə örnək ola bilən bir çox keyfiyyətlərə malikdir. O cümlədən islami dəyərləri, mənəvi amilləri, dini-əxlaqi dəyərləri yaşatmaqla müsbət keyfiyyətli prinsiplərə malik olan ən qədim xalqdır.*

*Həqiqətən də aparılan müqayisəli araşdırmalar onu deməyə əsas verir ki, Heydər Əliyev və müasir fəlsəfi dünyagörüşümüzün tarixi kökləri nə qədər zəngin və araşdırılması aktual olan bir sahəni əhatə edir. Azərbaycanın milli-mənəvi dəyərlərini zənginləşdirən müasir fəlsəfi dünyagörüşümüzün tarixi köklərini islami dəyərlərdən kənar təsəvvür etmək mümkün deyildir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, Naxçıvan, islami dəyərlər, fəlsəfə, tarix, müasirlik*

XIV əsrin sonu XV əsrdə Azərbaycan dilində yazıb-yaratmış Seyyid İmadəddin Nəsimi, Qasim Ənvar, Əbdürrəşid əl-Bakuvi, Məhəmməd Hinduşah Naxçıvani, Seyyid Yəhya Bakuvi, Cəlaləddin Dəvvani, Şah İsmayıl Xətayi, Məhəmməd Süleyman oğlu Füzuli, XVII əsrdə Said Təbrizi, İbrahim Ordubadi, Hüseyn Bürham, Mirzə Sadiq Ordubadi, Naci Ordubadi kimi bütün Yaxın və Orta Şərq ölkələrində geniş şöhrət qazanmış görkəmli şəxsiyyətlərin həyatı, ictimai-siyasi, elmi və ədəbi fəaliyyəti milli-mənəvi dəyərlərimizin səviyyəsini nümayiş etdirir. Onu da qeyd etmək olar ki, bunlar Azərbaycanda təşəkkül tapmış intibahın dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən birinə çevrilməklə yanaşı, həm də xalqımızın çox böyük mənəvi uğurlarının məntiqi nəticəsi olmuşdur. Azərbaycan xalqının böyük tarixi şəxsiyyətlərini, yazıçı və mütəfəkkirlərini milli-mənəvi sərvətimiz hesab edən Heydər Əliyev yüksək düha, aydın məslək və əqidə sahiblərinin siyasi, elmi və ya ədəbi irsinin mahiyyətini birmənalı şəkildə belə qiymətləndirmişdir: "Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və yüzlərlə bu kimi böyük şəxsiyyətlərin yaratdığı əsərlər Azərbaycan xalqının mənəvi sərvətidir" (6, s.9).

Azərbaycan Respublikasının müstəqil yaşamaq ümidini yaradan, milli mədəniyyətimizin ali siması Heydər Əliyev günümüzə gəlib çatmış tarixi abidələrin, müqəddəs ocaqların əhəmiyyətindən bəhs edərək demişdir: "Qobustan, Gəmiqaya və başqa qayaüstü təsvirlər Kür-Araz və Xocalı mədəniyyətinə məxsus maddi-mənəvi mədəniyyət nümunələri, nurqan tapıntıları Azərbaycanda hələ qədim dövrlərdən yüksək və zəngin mədəniyyətin mövcud olmasını sübuta yetirir" (6, s.9).

Dünyaşöhrətli ictimai, siyasi və dövlət xadimi Heydər Əliyevin uzaqgörən, apardığı müdrik daxili və xarici, o cümlədən, Şərq siyasətinin və onun uğurlu, layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin titanik fəaliyyətində də müasir islam fəlsəfi amilinə, mədəniyyətinə xüsusi diqqət yetirilir. Bununla belə bəzi faktlara müraciət etməklə

görürük ki, həqiqətən 1993-cü ildə ümummilli liderin "Allahın yolunda hamımız bir olaq" adlı kitabı Azərbaycan və bir neçə xarici dilə, o cümlədən, ərəb dilində nəşr olunmuşdur. Bu kitabda qarşıya qoyulan başlıca ideya ölkə daxilində iqtidarla müxalifəti, ölkə xaricində isə bütün dünya insanların, o cümlədən, xüsusilə müsəlmanları vahid Allah ideyası ətrafında birləşdirərək ölkəmizi gözəl, parlaq gələcəyə inam hissinə sadiq olmağa çağırışdan ibarət idi. Bu ideya Ulu öndərin hər zaman öz düşüncə tərzində duran ən mühüm zəruri və məqsədyönlü düşüncələrindən biri idi. O deyirdi: "Biz Azərbaycanlılar - bu, sonralar gələcək bütün nəsillərə də tövsiyə olunur heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" (5, s.81).

Ümummilli liderin hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən bir neçə müsəlman ölkələrinə xüsusən Türkiyə və İrana səfəri, sonralar yəni 1994-cü ildə İslam Konfransı Təşkilatının VII sammitində Mərakeş İslam Respublikasında, 1997-ci ildə Tehranda keçirilən VIII Zirvə toplantısında iştirakı, orada Azərbaycan həqiqətləri, reallıqları haqqında dərin məna, məzmun və mühüm dərəcə kəsb edən çıxışları, İKT-nın üzvü olan ölkələrin, dövlətlərin başçıları ilə olan təkbətək, ikitərəfli və çoxtərəfli görüşləri zamanı etdikləri söhbətlər ölkəmizin müasir islam fəlsəfəsi ilə sıx bağlılığını, o cümlədən Şərq siyasətinin düzgün aparılması üçün yeni-yeni perspektivlər açmışdır.

Ümummilli lider 1998-ci ildə İslam Konfransı Təşkilatının tövsiyəsi ilə Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumdakı fəlsəfi xarakterli məruzəsində demişdir: "... Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar ki, tam itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları həmin sahə üçün xüsusi təşkilatlar, orqanlar və elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün hər cür şərait yaradacağam. Buna arxayın olun" (8, s.208).

Hələ orta əsrlərdə Azərbaycanın intibah dövrü hesab edilən XII əsrdə Naxçıvanda elmi və fəlsəfi mərkəzlər yaradılırdı. Azərbaycan Atabəylər dövlətini idarə edən Şəmsəddin Eldəgizlərin sarayında dövrün ən mötəbər filosof və alimləri toplanmışdılar. Onlar riyaziyyat, təbiətşünaslıq, tibb, kimya, fəlsəfə, məntiq, hüquq, astronomiya, ərəb və fars ədəbiyyatı sahələrində böyük uğurlar qazanmışdılar. Bu dövrdə Azərbaycan özünün fiqh və hədis alimləri ilə məşhur olmuşdur ki, bunların da çoxu "Naxçıvani" ləqəbi ilə tanınaraq dünya tarix səhnəsinə öz layiqli adlarını salmışlar. İslam dünyasının hər yerində olduğu kimi, Azərbaycanda da beynəlxalq ünsiyyət vasitəsi rolunu Quran dili olan ərəb dili oynayırdı. Ərəb dili həm də elm və ayinçilik dili idi. Azərbaycanda təşəkkül tapan yeni mədəniyyət özünü bu dildə ifadə edirdi, çünki islamı qəbul etmiş bütün xalqlar ərəb-müsəlman mədəniyyətinin ümumi inkişafında öz paylarını, əsasən, ərəb dilində əlavə edirdilər.

Azərbaycanda çox güman ki, islam qoşunlarının tarixi qələbəsi bir çox başqa yerlərdə olduğu kimi daha çox siyasi müahidələr tarixini xatırladır. "Hicrətin 18-ci ilində "Azərbaycan əhli ilə", 21-ci ilində Muğanla, 22-ci ilində Şirvanla, 25-ci ilində Təbriz, Talış,

Naxçıvan (Arran) və başqa ərazilərdə yaşayan əhali ilə sülh müahidələri imzalandı. Başqa şəhər və vilayətlərlə də buna bənzər müahidələr imzalanmışdı" (2, s. 326).

Azərbaycan ərazisində ilk dəfə olaraq Ərdəbil yaxınlığında 18/639-cu ildə Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla müahidə bağlanılmışdır. Müahidəyə çoxlu maddələr daxil olsa da, əsasən, aşağıdakı məzmunda sənəd imzalanmışdır.

"Bismillahir-rəhmanir-rəhim. Ömər ibn əl-Xəttabın canişini Üqbə ibn Fərqəd Azərbaycanın vadilərindəki, dağlarındakı, nahiyələrindəki və sərhədlərindəki əhalisinə, dinlərinin ardıcıllarına - özlərinə və mal-dövlətlərinə, dinlərinə və ailələrinə əmin-amanlıq verir, o şərtlə ki, uşaqlardan, qadınlardan, dünya malından heç nəyi olmayan mütəmadi xəstələrdən və dünyada hər şeydən əl çəkmiş abidlərdən savayı, onlar gücləri çatdıqları qədər cizyə ödəsinlər. Bu onlara və onlarla yaşayanlara aiddir. Onlar müsəlman döyüşçülərindən bir müsəlmanı bir gün, bir gecə saxlamalı və ona yol göstərməlidirlər. Onlardan kim hansı ildə orduya cəlb olundu, o həmin ilin vergisindən azad olunur, kim qaldı - ona qalanlarla eyni şey verilir, kim çıxdı - ona sığınacağına çatana kimi əmin-amanlıq verilir. Yazdı - Cündüb. Şahidlik etdilər - Bükeyr ibn Əbdullah əl-Leysi və Simək ibn Xərəşə əl-Ənsari. Yazıldı - 18-ci ildə" (4, s.255-256).

Həqiqətən bu bağlanan mühüm və əhəmiyyətli müahidələrə əsasən, ərəblər təəhhüd götürürdülər ki, "əhalidən heç kim öldürülməyəcək, əsir edilməyəcək, atəşgədələrdən heç biri dağıdılmayacaq..., əhaliyə bayramlarda öz rəqslərini ifa etməyə, əvvəllər nə edirdilərsə, onu etməyə mane olmayacaqlar" (3, s.161).

Mühüm əhəmiyyətə malik olan bu müahidələr onu deməyə əsas verir ki, vaxtilə elmdə belə bir fikir irəli gəlmişdi ki, islam dini guya zorakı yolla, qılınc gücünə, qorxuyla yaxud iqtisadi məcburiyyət siyasəti sayəsində yayılmışdır. İslam dünyası xaricində ancaq ciddi tədqiqatlar bu cür yalnış təsəvvürlərdən uzaq olmuşlar. V.M.Vott, A.Mets, V.V.Bartold bu cür islam araşdırıcı tədqiqatçılarındandır. Akademik V.V.Bartold yazırdı ki, islam zorakılıqla yayılmışdır. "Ancaq bu dinin yayıldığı ərazilərdə nə xristianlar, nə də zərdüştilər təqibə məruz qalmamışlar" (1, s.88).

İslamın Azərbaycana gəlişindən sonra bu dinlə yerli dinlər arasındakı münasibətlərin təşəkkülü də həmin fikri təsdiqləyir. Bir məqam da heyrətləndirici və "maraqlıdır ki, 360/970-ci ildə Azərbaycan yepiskopu da islamı qəbul etmişdi" (7, s.152).

Azərbaycanda islamın yaranması və inkişaf etməsi xalqın mənəvi həyatının yüksəlişi üçün güclü bir əsas oldu, fəlsəfi-mədəni tərəqqiyə təkan verdi. Əvvəlki fəlsəfi-mədəniyyətlə qazandığı nailiyyətlərlə birlikdə yeni islam fəlsəfi-mədəniyyətin tərkib hissəsinə çevrildi, canına-qanına hopdu. Eyni zamanda bu fəlsəfi-mədəniyyətin mənəvi məzmunu dəyişdi, o, yeni əxlaqi keyfiyyətlər və dəyərlər kəsb etdi. Müasir dövrümüzdə fəlsəfi-tarixi köklərimizi araşdırarkən yeni-yeni zəngin materiallar ortaya çıxır. "İslamın Azərbaycanda yayılması ölkədə uzunmüddətli siyasi sabitlik üçün şərait yaratdı. Şəhər mədəniyyəti inkişaf etdi, müsəlman şəhərləri siyasi və mədəni mərkəzlərə çevrildi, sənətkarlıq və əkinçilik geniş vüsət aldı, zəmanəsinə görə mürəkkəb suvarma şəbəkələri yaradıldı, ticarət əlaqələri və dənizçilik genişləndi" (7, s.154).

Azərbaycanda islamın qəbul edilməsi sayəsində təşəkkül tapmış yeni müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq oyatmışdı. Qurani-Kərimin özü də "bilənləri"

“bilməyənlərdən” üstün tutmaqla müsəlmanları elmə, biliklərə yiyələnməyə həvəsləndirir və zövq edirdi. “Müsəlman orta əsrlərində təşəkkül tapmış elmlər iki qismə - islam elmlərinə təfsir, hədis, fiqh, üsul əd-din, fəlsəfə, məntiq və eləcə də bunlara köməkçi elmlər kimi ərəb dilçiliyi, bəlağət və s. daxil idi. Təcrübi elmlər sahəsində isə təbabət, həndəsə, riyaziyyat, kimya, nücum elmləri, coğrafiya və s. daha çox inkişaf etmişdi. Bütün bu elmlər Azərbaycanda da təmsil olunmuşdu” (7, s.157).

Azərbaycanda fəlsəfi fikrin yaranması və inkişafı orta əsrlər üçün səciyyəvidir. Çünki fəlsəfənin hikmət adı altında təşəkkül tapması əl-Kindi, əl-Fərabi, İbn Sina, İbn Rüşd, Əbu Bəkr ər-Razi ilə yanaşı, Azərbaycan filosofu Bəhmənyar ibn əl-Mərzban kimi də böyük mütəfəkkirlərin təlimləri ilə sıx əlaqədardır. Bəhmənyar ibn əl-Mərzban əl-Azərbaycani (458/1065-ci illərdə vəfat etmişdir) fəlsəfədə əl-Kindi, əl-Fərabi, İbn Sina kimi müsəlman mütəfəkkirlərinin ənənələrini davam etdirərək öz əsərlərində qədim yunan filosoflarını düşündürən dünyagörüşü məsələlərini yeni təməl üzərində - islam müddəaları əsasında nəzərdən keçirmiş və izah etmişdir. O izah edirdi ki, Allah hər bir insana zəka bəxş etmişdir və məhz bu zəka sayəsində insan heyvandan fərqlənir. Ancaq insanın zəkası başqa mövcud şeylərin insana təsiri nəticəsində oyanır və fəaliyyətə başlayır.

Azərbaycanda islam fəlsəfəsinin yayıldığı bir zamanda dilçilik sahəsində də böyük şəxsiyyətlər yetişmişdir. Orta əsrlərdə Şərq dünyasında tanınmış rəsm ustası Məhəmməd ibn Hinduşah Naxçıvani olmuşdur. “Məhəmməd ibn Hinduşah Naxçıvani rəsm ustalığına dair məsləhətlərini dini-əxlaqi öyüd-nəsihətlərlə əlaqədar şəkildə təbliğ edirdi” (7, s.162).

**Nəticə**

Araşdırmaların məntiqi nəticəsi olaraq Azərbaycanın milli-mənəvi dəyərlərini zənginləşdirən Heydər Əliyev və müasir fəlsəfi dünyagörüşümüzün tarixi kökləri mövzusu günün əsas məsələlərindəndir. Belə ki, müasir fəlsəfi dünyagörüşümüzün zənginləşməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. İslami dəyərlərin mənimsənilməsi və gənc nəslin düzgün tərbiyə edilməsində fəlsəfi mövzuların aktuallığı və özünə uyğun səpkisi ilə seçilən müasir dünyagörüşümüz buna bariz nümunədir. Hesab edirik ki, “Heydər Əliyev və müasir fəlsəfi dünyagörüşümüzün tarixi kökləri” adlı mövzusunun geniş tədqiqi günün əhəmiyyətli sahələrindən biridir.

## ƏDƏBİYYAT

1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: 1989
2. Əl-Heydərəbadi Məhəmməd Həmdullah. Məcmuət əl-vəsaiq əs-siyasiyyə lil-əhd ən-nəbəvi vəl xilafə ər-raşidə. Qahirə. 1956
3. Əl-Həməvi Yaqut. Mücəm əl-büldan. I cild. Qahirə. 1906
4. Əl-Təbəri Əbu Cəfər Məhəmməd ibn Cərir. Tarix əl-üməm vəl-müluk. II cild. Qahirə. 1939
5. Əliyev Heydər. Müstəqillik yolu. Bakı: 1997
6. İbrahimov S.M. Şərq peripatetizm fəlsəfəsində insan amilinin rolu. Bakı: 2011. s.75
7. İslam: tarix, fəlsəfə, ibadətlər. Bakı: Elm, 1994
8. Qurbanov Ə.C. Beynəlxalq münasibətlərdə din-islam amili. Bakı: 2000

## SUMMARY

**Sabuhi Ibrahimov**

## THE ROLE OF HAYDAR ALIYEV IN OUR MODERN PHILOSOPHICAL OUTLOOK

In the article, we witness the discovery of many scientific factors while examining the historical roots of Heydar Aliyev, who enriched the national and moral values of Azerbaijan, and our modern philosophical outlook. Thus, Azerbaijan, our native country, is dear and dear to the representative of every people and nation, regardless of their nationality. Because our people have many qualities that can be an example to others with their national culture. It is the oldest nation that has positive qualitative principles, including Islamic values, spiritual factors, religious and moral values.

Indeed, the conducted comparative studies give reason to say that the historical roots of Heydar Aliyev and our modern philosophical worldview are rich and cover an area that needs to be investigated. It is impossible to imagine the historical roots of our modern philosophical outlook, which enriches the national and spiritual values of Azerbaijan, outside of Islamic values.


***Key words:*** *Heydar Aliyev, Azerbaijan, Nakhchivan, Islamic values, philosophy, history, modernity*


## РЕЗЮМЕ

**Сабухи Ибрагимов**

## РОЛЬ ГАЙДЕРА АЛИЕВА В НАШЕМ СОВРЕМЕННОМ ФИЛОСОФСКОМ ВЗГЛЯДИИ

В статье мы являемся свидетелями открытия многих научных факторов при рассмотрении исторических корней Гейдара Алиева, обогатившего национальные и нравственные ценности Азербайджана, и нашего современного философского мировоззрения. Таким образом, Азербайджан, наша родная земля, дорог и дорог представителю каждого народа и нации, независимо от их национальной принадлежности. Потому что наш народ обладает многими качествами, которые могут быть примером для других своей национальной культурой. Это древнейшая нация, имеющая позитивные качественные принципы, включающие исламские ценности, духовные факторы, религиозно-нравственные ценности.

Действительно, проведенные сравнительные исследования дают основание говорить о том, что исторические корни Гейдара Алиева и наше современное философское мировоззрение богаты и охватывают область, актуальную для исследования. Исторические корни нашего современного философского мировоззрения, обогащающего национальные и духовные ценности Азербайджана, невозможно представить вне исламских ценностей.


***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, Нахчыван, исламские ценности, философия, история, современность*

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*

# XX ƏSR AZƏRBAYCAN ROMANTİKLƏRİNİN FƏLSƏFİ İRSİNDƏ TÜRKÇÜLÜK- İSTİQLALÇILIQ İDEYALARININ TƏRƏNNÜMÜ

*XX əsrin ilk onilliyində Azərbaycan fəlsəfi fikrində milli kimlik axtarışından, millətin milli kimliyi zəminində məqsədəuyğun sayılan ümmətçilikdən türkçülüyə keçid təsdiqləndi. XX əsrin başlanğıcına qədər Azərbaycan türkləri milli oyanışdan xəbərdar olmamış, milli varlıqlarını dərk edə bilməmiş və milli kimliklərindən xəbərsiz yaşamaqda idilər. Bu zaman Azərbaycan türkləri üçün yeganə mühüm çıxış yolu oyanışdan-yenilənmədən keçirdi. XX əsr Azərbaycan romantikləri Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət idi. M.Hadi, H.Cavid, A.Şaiq kimi məşhur romantiklər və "Cümhuriyyət şairi" Ə.Cavad başda olmaqla böyük şairlər dəstəsi 1918-1920-ci illərdə Azərbaycan istiqlalını tərənnüm edirdilər. Bu görkəmli xadimlərin sosial-siyasi məzmunlu ideyaları millətin xoşbəxt olmasını şərtləndirirdi. Çünki imperiyanın türklərə düşmən münasibəti özlüyündə ona qarşı dayana biləcək qüvvənin yetişməsini şərtləndirirdi.*

***Açar sözlər:*** *Azərbaycan romantikləri, Azərbaycan türkləri, türkçülük, milli kimlik, milli oyanış*

Azərbaycan demokratik fikrində romantizmin tərənnüm etdiyi türkçülük ideyaları onların dünyagörüşünə və yaradıcılığına hakim olub, əslində, millətə və vətənə tükənməyən sevginin ana xəttini təşkil edirdi. Azərbaycan fəlsəfi fikir tarixində onları tanıdan, millətə sevdirən, müxtəlif dövrlərdə söylənilən bütün əsassız, qərəzli iddialardan uzaq tutan, gerçək qiymətini heç zaman azalmağa qoymayan elə budur. Habelə amalı Allah eşqi ilə əsarətə qarşı olan, millətinin, vətəninin gələcək azad taleyini düşünən bu xadimləri hər zaman ucalarda saxlayan millət və vətən fədailəri olmaları idi. Bu qeyri-adi İlahi eşqin daşıyıcıları kimi onlar millətin və vətənin tarixi taleyində ona bağlılığını, köməyə hazır olduqlarını bəyan etməkdən çəkinmirdilər. Çünki onların başlıca amalı millətin və vətənin əsarətdən xilası və gələcək gözəl taleyinə qovuşa bilməsi idi.

Bunların haqlı olaraq əlverişli zəmin hazırlaması ilə müsəlmanların gerilikdən xilas olması, milli şüurun oyanışı baş verdi. İmperiyanın dövlət səviyyəsində birbaşa dəstəyilə yeritdiyi qərəzli siyasət türklərin bu oyanışına, milli özünüdərkinə, yenilənməsinə əngəllər törədirdi. Lakin XX əsrdə Rusiya imperiyasının əsarətindəki çoxmilyonlu türklərin azadlıq, istiqlal arzuları onların milli düşüncələrinə hakim olan təbii insanlıq haqları idi. Rusiyanın zorakı ruslaşdırma-xristianlaşdırma əsarətinə, zülmünə qarşı millətimizin milli oyanışı, milli özünüdərk ruhu yaranır, bu zülmə qarşı dayana bilən mübarizə əzmini ortaya qoyurdu. Məhkum türk xalqları da türkçülük ideyalarına sarılmaqla imperiya əsarətinə qarşı mübarizə aparıb ondan qurtulmağa çalışırdı.

Demokratik fikir Azərbaycan türkləri ilə birlikdə, bütövlükdə türk xalqlarının və türk dünyasının sabahını, azad gələcəyini düşünürdü. Onları daim düşündürən bu ideya olmuşdur. Milli və ümumbəşəri dəyərlərə sonsuz sevgi ilə demokratik fikir, türkçülük ideyalarından heç zaman kənarda olmamışdır. Demokratik fikir yenə də onun həlli

yollarının axtarışında milli birlik ruhunu təkcə irəli sürməklə kifayətlənmir, eləcə də, onu dəstəkləyirdi. Bu əməli xidmət, ümumiyyətlə, bütün türk dünyasının, xüsusilə də, millətimizin və vətənimizin qurtuluşu naminə olub, o zamankı acınacaqlı, ağrılı-acılı halımızdan xəbər verirdi.

XX əsr Azərbaycan romantizminin ən qüdrətli nümayəndələrinin lirik-fəlsəfi əsərləri orijinallığı, düşündürücü hikməti ilə ictimai fikir tariximizi zənginləşdirmişdir. XX əsr Azərbaycan fəlsəfi-ictimai fikir tarixinə və ədəbi-bədii irsinə əvəzsiz dəyər gətirən romantizm milli zəminə söykənmişdir. Onların geniş rəngarəng yaradıcılıqları, poetik düşüncə tərzinin özəllikləri heyranedicidir. XX əsr Azərbaycan romantizmində türkçülük ideyaları-idealları, İslam birliyinin unudulmaması şərti ilə, son nəticədə azadlıq uğrunda savaşa qalxacaq millətimizin istiqlalı ilə bağlı götürülürdü. Orada əsas-aparıcı ideya müstəqilliyi qorumaq, istiqlal düşüncələrini dərinləşdirmək, demokratik şüuru möhkəmləndirmək idi (8).

Əsrin əvvəllərində türkçülük ruslaşdırma-xristianlaşdırma siyasətinə əks olan ideya-istiqamət kimi, milli düşüncənin oyanışına çalışır, sonradan isə milləti birliyə və həmrəyliyə çağırırdı. Bu prosesin gedişində milli istiqlal ideyasının önə çıxmasına zəmin yarandı. Çünki dünyanın siyasi gerçəkliyi Azərbaycan türklərinin də hüquq və istəklərinə haqq qazandırmalı olacaqdı. Bu, zamanın hökmü idi və onun tərəfindən təsdiqini almışdı.

XX əsrin mürəkkəb sosial-siyasi hadisələr burulğanında Azərbaycanda baş verən oyanış, canlanma, intibah milləti kəskin mübarizənin başlayacağından xəbərdar edirdi. Bu zaman romantizm millətin mənafeyinə yönəlmiş əməli addımlar atırdı. Romantizmin axtarışlarında istiqlalçılıq-türkçülük məfkurəsi hakim olub, daima dəyişməyən ideya xalqın, millətin nicatı, azadlıq-istiqlalı idi. Bu ideya millətin ləyaqətinə, əsarətdən xilasına xidmət göstərib, onun ruhuna nüfuz etməyə başlayırdı. İstiqlal əhvali-ruhiyyəli romantiklər ümidlə millətin gözəl gələcəyinə inanır, bədbinliyə, kədərə yer saxlamadan azad gələcək aləmin yaranacağını arzulayırdılar.

XX əsr Azərbaycan romantikləri Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət idi. M.Hadi, H.Cavid, A.Şaiq kimi məşhur romantiklər və "Cümhuriyyət şairi" Ə.Cavad başda olmaqla böyük şairlər dəstəsi 1918-1920-ci illərdə Azərbaycan istiqlalını tərənnüm edirdilər (1, s.400). Bunlardan Əli bəy Hüseynzadə romantizmin nəzəri, Hüseyn Cavid isə bədii-fəlsəfi baneyi-karı hesab oluna bilər (8). Səhhətin romantizmi real gerçəkliklə bağlıdır, Şaiq, Hadi və Caviddə isə istiqlal ideyaları 1918-ci ildə real gerçəkliklə bağlanıldı, AXC-nin simasında millətin istiqlalı təsdiqini tapdı.

Milli ideyanın təməlində dayanan millətin milli kimliyi idi ki, orada da etnik-din və dil amili əsas idi. Bu dövrdə milli özünüdərk, milli oyanış yolu ilə millət öz şanlı tarixinə sahib çıxacaqdı. Bu oyanış olmadan məqsədə yetmək müşkül iş idi. Çünki istiqlalı təmin edən millətin kimliyinə sahib çıxması onun özünüdərkindən keçirdi. Bunun dərki üçün ən azı oyanmaq, gözünü açmaq lazım idi ki, ətrafa ayıq gözlərlə baxıb zamanın diqtəsini görüb, dəyişmək lazım gəldiyini biləsən. Bu, birmənalı şəkildə belə idi. H.Cavid bu istiqamətdə millətini səsləyir, zamanın səsinə səs verməyə dəvət edirdi:

Arxadaş, yoldaş! Ey vətəndaş, oyan!
Yatma, artıq yetər...Dəyişdi zaman (3, I c, s.53).

Hadi də həqiqəti söyləməkdən çəkinmir, vətəninə, millətinə böyük qiymət verməklə bərabər cəhalətdən xilas olmağın vacibliyini bildirirdi:

Bizdə bilgi yox, cəhalət var.
Cəhlimiz çox, kamalımız yoxdur (4, s.291).
Cavid yazırdı:
Azacıq varsa hissi vicdanın,
Qalx, oyan! Sönməmişsə imanın (3, I c, s.54).

Onların yaradıcılığındakı lirik-fəlsəfi şeirlərində, millətin oyanışına çağırışlarında onun işıqlı gələcəyinin təntənəsinə dərin inam gizlənməkdədir. Üzünü Türk-Turan dünyasına çevirən Cavid onu cəhalətdən xilas olub nura qərq olacaq gələcəyinə qovuşacağına inandırır və ümidləndirirdi:

Çoq əzildin, yetər, ər oğlu ər ol!
Çırpınıb çarəyi-xilas ara, bul!
Qoşaraq nura, cəhli et pamal!
Həp sənindir şərəf, ümid, iqbal (3, I c., s.54).

Bir sıra amillər, baş verən mühüm siyasi hadisələr xalqların milli-azadlıq hərəkatları XX əsrdə müstəqil düşüncə tərzinin, milli özünüdərkin yaranmasına zəmin hazırladı. Burada türkçülük vahid milli istiqlal əqidəsi ətrafında insanları birləşdirdikcə qarşıda ağır vəzifələrin dayandığı hamıya aydın olacaqdı. Cavid yazırdı:

Əsr iyirminci əsrdir!
Vəzifəsi pək ağır... (3, Ic., s.129).

XX əsrə qədər Rusiya imperiyasının türk xalqlarını yaşatmaq istəməməsi, daim həqarət etməsi, onları xristianlardan aşağı tutması məlum faktlardır. Lakin dini-imanımızı və milli varlığımızı məhv etməyə imperiyanın qüdrəti çatmadı. Çünki tarix- türk qövmünün istedadını inkar olunmaz bir tərzdə isbat etmişdi (5, s.246). XX əsrin savaş meydanlarında türklərin şanlı-şərəfli tarixinə yenidən sahiblənmək uğrunda milli şüurun oyanışı istiqamətində, milli istiqlal bayrağı altında mübarizə davam etməkdə idi. Baxmayaraq ki, hələ də millətin çox az bir hissəsi öz hüquq və vəzaifinə, bəşəriyyət haqqına, insanlıq vəzifəsinə (6, s.271) sahib idi, bütün türk xalqları eyni dildə danışır, düşmənləri də eyni idi.

Tədqiqatçılara görə, Azərbaycan fəlsəfi fikir tarixində XX əsrin əvvəllərindəki milli istiqlalçılıq ideyası ictimai-fəlsəfi fikirdən öncə ədəbi-bədii düşüncədə ifadəsini tapmışdır. Çünki ilk öncə bu ideya şair diliylə desək, şairlərin şeirlərində "Yeganə nöqteyi-mətlub istiqlalı millətdir (4, s.29) kimi səslənmişdi.

Lakin "kütleyi-əvam, cumhuri-nas" (6, s.271) hələ də elm, mədəniyyətdən geri qalmış gələcəyini təhlükə altında qoysa da, ədəbi-bədii fikirdə millətin istiqlalı öndə dayanırdı,

istiqlalına sahib çıxmayan millət tarixin acı istehzasına məhkumdur ki, zaman-zaman xalqlar bununla dönə-dönə qarşılaşmışlar. Bunu görən, bilən, özünü tanıyan xalq, millət daim ucalarda olacaqdır. Ona görə də ədəbi-bədii fikir millətin milli istiqlala hazırlığı yolunda əvvəlcə ona milli kimliyini tanıtdırır və onun vacib əhəmiyyətini öyrənməyə səsləyirdi:

Qalx, oyan!...
Kimlərin oğlusan? Nəsin? Kimsin?
Sürünüb durma böylə, bir yüksəl! (3, I c, s.54).

Bu, türk millətinin azad, xoşbəxt gələcəyini düşünməyin parlaq bir nümunəsi idi. Bu, eləcə də sanki bütün türk dünyasına "Qoca bir türkün vəsiyyəti" idi:

Bir millətin tarixidir kökü, yurdu, yuvası,
Bir millət öz kökü üstə bitər, yüksəlir (3, I c, s.128).
Şanlı zəfər ya şərəfli bir ölüm! (7, IIc, s.51)

Çar Rusiyanın çalışdığı bütün türk dünyasını bölmək, parçalamaq, türk xalqlarını bir-birindən ayrı salmaq idi. Onun bu siyasəti heç nə ilə hesablaşmaq bilmirdi. Bu siyasətin reallaşmasına əngəl ola biləcək türklərin milli oyanışı, milli özünüdərki və milli birliyi olmalı idi. Düşmən türklərin birliyinin əzəmətini anlayırdı və məharətlə bu birliyi qırmağa səy göstərirdi. Cavid isə bütün Türk ellərinin anlayacağı bir dillə və tamamilə aydın, sadə bir tərzdə vacib olanı millətinə söyləyirdi:

Səni qurtarsa qurtarır birlik,
Çünki birlikdədir fəqət dirlik!.. (3, I c., s.54).
Abdulla Şaiq bu birlikdən vəcdə gəlib yazırdı:
Dalğalanır üstümdə şanlı Turan bayrağı (7, II c., s.52).

Beləliklə, türkçülük ideyaları, türklük ruhu-mənəviyyatı Türk xalqlarının qəlbinə-ruhuna bir daha hakim olmaqla onları ayağa qaldırdı. Onlar da türkçülük ideyaları və ideologiyasına sarılıb əldə bayraq etməklə türkün əzəmətini sübut edib, 1918-ci ildə milli dövlətçiliyinə sahib çıxmaqla bir daha yenidən dünyanı heyrətləndirdilər. AXC dövründə yaranan poeziyada mövzu əlvanlığı, müəlliflərin ayrı-ayrı məsələlərə fərdi münasibəti, XX yüzilliyin əvvəllərindən ədəbiyyatda kök salmış milli istiqlal məfkurəsinin azadlıq sevincindən yaranan coşqun pafosla tərənnümü güclü idi (1, s.400).

XX əsr Azərbaycan romantizmi dini-moralist romantizm deyil, vətəndaş romantizmi idi. Bu, tamamilə yeni dövrün-tarixdə milli azadlıq hərəkatları epoxasının idealları ilə nəfəs alan romantizm idi. Azərbaycan romantizminin bir fərqli cəhəti də var idi, o, özünün insan idealında millilik və ümumbəşəriliyi birləşdirdi. Hər halda, romantizm millətin diqqətini onun özünə yönəldə bildi. Bütün hallarda romantizmin bir bədii-fəlsəfi cərəyan kimi

dönməz prinsipi dəyişməz qalırdı. Bu, böyük cəsarət, yenilməz iradə, möhtəşəm tarixi uzaqgörənlik idi. Bu, eyni zamanda, romantizmin türkçülüklə bağlılığından irəli gəlirdi (8).

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, s.696
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild. Bakı: Lider, 2004, s.466
3. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. (Tərtib edəni Turan Cavid, ön sözün müəllifi Yaşar Qarayev). Bakı: Lider, 2005, s.256
4. Məhəmməd Hadi. Seçilmiş əsərləri (İzah və qeydlərin müəllifi Əziz Mirəhmədov). Bakı: Şərq- Qərb, 2005, s.464
5. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı: Şərq- Qərb, 2007, s.480
6. Abbas Səhhət. Seçilmiş əsərləri. (Tərtib edəni, ön söz və izahların müəllifi Kamal Talıbzadə). Bakı: Lider, 2005, s.456
7. Abdulla Şaiq. Seçilmiş əsərləri. Üç cilddə. II cild (Tərtib edəni Kamal Talıbzadə, ön sözün müəllifi Alxan Bayramoğlu) Bakı: Avrasiya- Press, 2005, s.568
8. Dünyaminqızı Q. Azad mətbuatımızın ilk təminatçısı. "Kaspi" qəzeti. 31 yanvar 2018-ci il.

## SUMMARY

**Bagir Babayev**

## THE IDEAS OF AZERBAIJANI ROMANTICISM ABOUT TURKISM AND NATIONAL INDEPENDENCE

In the first decade of the 20th century, the transition from the search for national identity, from Ummatism to Turkism, which was considered appropriate on the basis of the national identity of the nation, was established in Azerbaijani philosophical thought. Until the beginning of the 20th century, the Azerbaijani Turks did not realize the national awakening, did not realize their national existence and lived without awareness of their national identity. At that time, the only important way out for Azerbaijani Turks was through awakening and renewal. Azerbaijani romantics of the 20th century were Ali bey Huseynzade, Huseyn Javid, Mohammed Hadi, Abdullah Shaig, Abbas Sahhat. Famous romantics were such as M.Hadi, G.Javid, A. Shaig and the "poet of the Republic" A. Javad. They celebrated the independence of Azerbaijan in 1918-1920. The socio-political ideas of these prominent figures determined the happiness of the nation. Because the hostile attitude of the empire towards the Turks in itself caused the maturation of forces capable of resisting it.

***Key words:*** *Azerbaijani romantics, Azerbaijani Turks, Turkism, national identity, national awakening*

**РЕЗЮМЕ**

**Багир Бабаев**

**ИДЕИ АЗЕРБАЙДЖАНСКОГО РОМАНТИЗМА О ТЮРКИЗМЕ И НАЦИОНАЛЬНОЙ НЕЗАВИСИМОСТИ**

В первое десятилетие XX века в Азербайджанской философской мысли утвердился переход от поиска национальной идентичности, отумматизма к тюркизму, считавшемуся целесообразным на почве национальной идентичности нации. До начала XX века азербайджанские тюрки не осознавали национального пробуждения, не осознавали своего национального существования и жили без осознания своей национальной идентичности. В это время единственный важный для азербайджанских турок выход прошел через пробуждение и обновление. Азербайджанскими романтиками XX века были Али бек Гусейнзаде, Гусейн Джавид, Мухаммед Хади, Абдулла Шаиг, Аббас Саххат. Известные романтики были, такие как М.Хади, Г.Джавид, А. Шаиг и “ поэт Республики” А. Джавад. Они воспевали независимость Азербайджана в 1918-1920 годах. Социально-политические идеи этих выдающихся деятелей обусловили счастье нации. Потому что враждебное отношение империи к туркам само по себе обусловило созревание сил, способных противостоять ей.

***Ключевые слова:*** *азербайджанские романтики, азербайджанские турки, тюркизм, национальная идентичность, национальное пробуждение*

**KAMRAN VƏLİZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

# MÜASİR SİYASİ HƏYAT VƏ MƏDƏNİ-ƏXLAQİ DƏYƏRLƏRİN QARŞILIQLI ƏLAQƏSİ

*Siyasi həyat və mədəni əxlaqi dəyərlərin qarşılıqlı əlaqəsi münasibətləri sosial fəlsəfənin mühüm problemlərindən biridir. Siyasi həyatın gələcəyi məhz mədəni-əxlaqi dəyərlərin səviyyəsindən, yeni nəsillərin mənəvi yönümündən asılıdır.*

*Məqalədə siyasi həyata mədəni-əxlaqi dəyərlərin təsir xüsusiyyətləri və yolları təhlil edilmişdir. Müəllif haqlı olaraq qeyd etmişdir ki, siyasi həyatın mənəvi mədəniyyətə qovuşması, mənəviləşməsi cəmiyyətin modifikasiyalaşması vasitəsilə reallaşır.*

*Tədqiqatda siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlərin patriarxal, ənənəvi və liberal modelləri təhlil edilmiş, qeyd edilmişdir ki, bu dəyərlər sisteminin tərkib hissəsi kimi dünyəvi humanizm siyasi həyatı problemlərin həllində İTK-ya, elmə və təfəkkürə böyük əhəmiyyət verir.*

***Açar sözlər:*** *millət, siyasət, dəyər, mənafe, cəmiyyət, əxlaq*

Siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı münasibətləri sosial fəlsəfənin əbədi və mühüm problemlərindən biridir. Siyasi həyatın gələcəyi məhz mədəni-əxlaqi dəyərlərin səviyyəsindən yeni nəsillərin mənəvi yönümündən asılıdır. Bu gün sosial fəlsəfə elminin qarşısında duran əsas vəzifələrdən biri insanları, xüsusilə böyüməkdə olan nəsilləri xalqımızın mədəni-əxlaqi dəyərlər tarixini öyrənmək, həmin dəyərləri onlara aşılamaqdır. Mədəni-əxlaqi dəyərlər siyasi həyatın təsisatlarında, modellərində və üsullarında təcəssüm olunur. Azərbaycan tədqiqatçısı, professor M.Rzayev siyasi həyatda mühüm rol oynayan mədəni-əxlaqi dəyərlərin əsas mahiyyətini açıqlayaraq yazır: "Keçid dövründə baş verən əsaslı və hərtərəfli transformasiya proseslərinin təsiri altında dəyərlərin cəmiyyətdə yeri və rolunda ciddi dəyişikliklər özünü göstərir. Hər şeydən əvvəl ictimai və fərdi fəaliyyətdə, şüurda və mədəniyyət sferasında onların rolu və əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artır. Cəmiyyətin demokratikləşdirilməsi, bazar münasibətlərinin formalaşması, xüsusi mülkiyyətin inkişafı və hüquqi dövlətin formalaşması şəraitində şəxsiyyətin malik olduğu dəyərlər, onun fəaliyyət və davranışını tənzim edən güclü amil kimi çıxış edir. Digər tərəfdən, baş verən dərin və hərtərəfli irəliləyişlər fonunda ənənəvi dəyərlərin məzmunu dəyişilir və yeni dəyərlər yaranır, sonra, ümumi cəmiyyət miqyasında və beynəlxalq həyatda dəyərlərin yenidən mənalandırılması adlı dərin proses gedir" (2, s.35). Fikrimizcə, bu mülahizələrdə siyasi həyatın demokratikləşməsi prosesində mədəni-əxlaqi, humanitar dəyərlərin rolunun yüksək olduğu, siyasi həyatda baş verən yeniliklərin yeni dəyər əhəmiyyəti kəsb etdiyi göstərilir.

Məlum olduğu kimi, mədəni-əxlaqi dəyərlər siyasi həyata ciddi təsir edir. Fəlsəfi ədəbiyyatda mədəni-əxlaqi dəyərlərin siyasi həyata təsirinin aşağıdakı yolları göstərilir: "Dəyərlər sisteminin tətbiqi və yaradılması. Əməl, hərəkət və davranışın etalonları-sosial sistemi və təsisatların modellərinin formalaşdırılması" (3). Bununla mədəni-əxlaqi dəyərlərin siyasi münasibətlərə, siyasi təsisatlara, siyasi ideologiyaya, insanların siyasi

davranışına, son nəticədə kütlələrin siyasi mədəniyyətinə əsaslı təsir etdiyi diqqətə çatdırılır.

Siyasi həyata ciddi təsir edən mədəni-əxlaqi dəyərlərin tərkib hissəsi kimi vətənpərvərlik də mühüm amildir. O həm də azərbaycançılıq ideologiyasının ümummilli ideoloji əsası olub, mənəvi mahiyyət daşımaqla yanaşı, birləşdirici və möhkəmləndirici funksiyanı yerinə yetirir.

Vətənpərvərlik, yüksək dərəcədə vətənə məhəbbət olub, öz varlığını, şəxsi maraqlarını vətən yolunda qurban verməyə əsaslanan emosional bağlılıqdır. Bu bağlılıq həm də, insanın mənsub olduğu millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə söykənən, milli hissiyyat və ya milli qürur kimi də hallanır. Vətəninin bayrağını uca tutmaq, onunla qürur duymaq, mədəni və maddi sərvətini qorumaq, şöhrətini artırmaq, öz xalqının marağına xələl gətirməmək və sair kimi keyfiyyətlər də vətənpərvərliyə aiddir” (5, s.159). Bu zaman, əsasən, dəyərlərin qarşılıqlı münasibətlərində vətənpərvərlik və dövlətçilik hissələrinə yüksək önəm verilmiş, vətənpərvərliyin millətin və dövlətçiliyin formalaşmasında mühüm rol oynadığına diqqəti cəlb etmişlər.

Ulu öndər Heydər Əliyev siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlərin tərkib hissəsi olan vətənpərvərlik hissini dövlətçiliklə əlaqələndirərək deyirdi: “Birinci növbədə hər bir gənc vətənpərvər olmalıdır. İndi, Azərbaycan müstəqil dövlət kimi yaşadığı zamanda vətənpərvərlik hər bir insanın, xüsusən hər bir gəncin ən ümdə borcu, vəzifəsidir. Ancaq vətənpərvərlik gərək insanın qəlbində olsun. Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır” (1, s.105). Bununla da dahi şəxsiyyət vətənpərvərliyin siyasi həyatın əsasını təşkil etdiyini, onun azərbaycançılığın tərkib hissəsi olduğunu göstərir.

Mədəni-əxlaqi dəyərlər mənəvi dəyərlərdən fərqli xüsusiyyətlərə malikdir. “Fərd başqa insanlarla əlaqəyə, ünsiyyətə girdikdə onlar əxlaqi dəyərlərə çevrilir” (5, s.78). Bu zaman məhz ali mənəvi dəyərlər nöqteyi-nəzərdən siyasi həyatın müxtəlif institutlarının fəaliyyəti qiymətləndirilir.

Mədəni-əxlaqi dəyərlər özünü bütün komponentləri ilə siyasi həyatla qarşılıqlı əlaqəsində onun demokratikləşməsinə təsir edən amillərdən biri kimi çıxış edir. Siyasi həyatla mədəni-əxlaqi dəyərlərin qavranılması zamanı varisliklə müasirlik, milliliklə ümumbəşərilik, ictimailik, fərdilik vəhdət təşkil edir. Keçmiş və indiki vəhdət mədəni-əxlaqi dəyərlərin təcrübəsinin müqayisəsi özündə mürəkkəb dialektik prosesi əks etdirir.

Müasir dövrdə tarixi təcrübə şəxsiyyətin siyasi, ictimai, mədəni-mənəvi dəyər yönümünün formalaşmasına kömək edir. Hər bir nəslin özünün, spesifik mədəni-əxlaqi dəyər yönümü, patriarxal, ənənəvi və liberal mədəni-əxlaqi dəyərlər Azərbaycanda mövcud olsa da, liberal mədəni-əxlaqi dəyərlər modelinin ölkəmizin siyasi, iqtisadi və mədəni həyatına tətbiq edilməsi, siyasi həyata dəyərli münasibəti artıq reallaşdırmışdır. Artıq respublikamızda siyasi həyat demokratikləşmiş, milli və ümumbəşəri dəyərlər vəhdət halında gerçəkləşmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. III kitab. Bakı: Azərnəşr, 1999
2. Rzayev M. Fəlsəfədə dəyər kateqoriyası. Bakı: AZTU. 2009. s.35-36 (60s)
3. Иванова Т.И. Основные факторы, определяющие политическую жизни общества //http//korks.doklad.ru/view/T.81ohtowos.htlm.
4. Взаимоотношение политики и морали //https//knowledge. allbest.rus/ertic/-o.html.
5. Z.Ağayev. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik. Bakı: Elm, 2014, s.186
6. Əzimova R. İnsanşünaslıq XXI əsrin elmidir. Bakı: Təknur, 2012, s.6
7. Мехтиев Р. Азербайджан: вызовы глобализации. Баку: XXI Yeni Nəşrlər Evi, 2004, s.196 (584s)
8. Seyid Müstəba Müsavilari. İslam və Qərb mədəniyyəti. Darül Şəşir. 2004, s.20 (288s)
9. Болъщанов В.П. Культура как форма человечности. //https//www.дите.info/bibiotek.Biks./culture/Bolshen/03.ptp.
10. Мамедзаде И.Р. Опыт интерпретации морали. Баку: Муаллим, 2006, с.44 (168с)
11. Гуманизм и современная литература. Москва: Изд.во АИ СССР. 1983. с.303 (323с)
12. https://humanism.ol.ru/articles.phml.?nun=000142
13. Борзенко И.М.Планетарные аспекты гуманистического мировззрения. //Здравый смысль, №3(12). 1999. с.60 (с. 52-71)
14. Rüstəmova A. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhsil. Bakı: AF Poliqraf. 2017, (240 s).
15. Гидулйанов В. Гуманизм: по какую сторону иделогии? ////Здравый смысль, №4(8). 1998, 56 (с. 9-56).
16. Məmmədəliyeva S. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri. Bakı: Nurlar, 2006, (224s.).

## SUMMARY

**Kamran Valizadeh**

### MODERN POLITICAL LIFE AND CULTURAL MORAL VALUES

The interrelationship of political life and cultural values is one of the important problems of social philosophy. The future of political life depends on the level of cultural and moral values, the spiritual orientation of new generations.

The article analyzes the peculiarities and ways of influencing cultural and moral values on political life. The author rightly points out that the transformation of political life into spiritual culture takes place through the transformation of society.

The study analyzed the patriarchal, traditional, and liberal models of cultural and moral values that influence political life, and noted that secular humanism, as an integral part of this system of values, places great emphasis on ITC, science, and thinking.

***Key words:*** *nation, politics, values, interest, society, morality*

## РЕЗЮМЕ

**Кямран Велизаде**

## ВЗАИМОДЕЙСТВИЕ ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ И КУЛЬТУРНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ

Взаимоотношения политической жизни и культурно-нравственных ценностей являются одной из важных проблем социальной философии. Будущее политической жизни зависит именно от уровня культурно-нравственных ценностей, духовного направления нового поколения.

В статье проанализированы особенности и способы влияния культурно-нравственных ценностей на политическую жизнь. Автор справедливо отмечает, что обретение политической жизни духовной культурой, ее духовное становление осуществляется посредством модификации общества.

В исследовании проанализированы патриархальные, традиционные и либеральные модели культурно-нравственных ценностей, влияющих на политическую жизнь, отмечено, что светский гуманизм как составная часть этой системы ценностей в решении проблем политической жизни придает большое значение ИКТ, науке и мышлению.

***Ключевые слова:*** *нация, политика, значения, интерес, общество, мораль*

**ZİYAD RƏHİMOV**
*ziyad.rahimov@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

## XX ƏSR FƏLSƏFƏNİN BÖHRANI: FRANKFURT MƏKTƏBİNİN ÇIXIŞ YOLU AXTARIŞLARI

*Frankfurt məktəbi Birinci Dünya müharibəsi illərində Marksist alim Karl Nürnberg tərəfindən təsis edilən və Feliks Veyl adlı doktorantın maliyyələşdirməsi ilə bir qrup sosial elm adamının bir araya gələrək sosial problemlərin həlli yollarını axtarmağı nəticəsində yaranmış bir tədqiqat institutudur. İrəliləyən mərhələdə məktəbin idarəsini edəcək Horkheimer və onun yaxın dostu Adornonun əsas məqsədləri fəlsəfənin düşdüyü bataqlıqdan çıxış yolunu göstərməkdir. Bu mərhələdə veriləcək sual bu şəkildədir: Çıxış yolu nədir və belə bir imkandan bəhs oluna bilərmi? Horkheimer tərəfindən yazılmış Ağıl tutulması əsəri, bu problem ilə dərindən məşğul olur və müəyyən mənada çıxış yoluna da işarət edir. Bu məqalədə əvvəlcə problem müzakirə olunacaq, sonra isə məktəbin fəlsəfənin düşmüş olduğu bataqlıqdan çıxış yolu axtarışları müzakirəyə açılacaq. Bu mənada məqalədə Frankfurt məktəbinin pozitivizm, praqmatizm və aydınlanma nəticəsində ortaya çıxan subyektiv ağıl tənqidləri araşdırılacaq, daha sonra bu fəlsəfə tərzlərinin doğurduğu problemlərin hansı fəlsəfi üsulla həll oluna biləcəyinə izah veriləcək.*

***Açar sözlər:*** *vasitəçi ağıl, məqsədçi ağıl, mədəniyyət sənayesi, tənqidçilik, dialektika*

### Giriş

XIX-XX əsrlərdə fəlsəfənin talehi məsələsi fəlsəfənin başlıca müzakirə predmetinə çevrilir. Fəlsəfənin bitməyi, insanlığın sonu, mədəniyyətin çöküşü kimi qavramlar filosoflar tərəfindən müzakirəyə açılır. Bu mənada Nietzsche, Frankfurt məktəbi və Haydegger olmaq üzərə ortaq bir problemə işarət edilir. Nietzsche, öz başlanğıcını Platon fəlsəfəsindən və xristianlıqdan hərəkətlə quran qərb mədəniyyətinin, dünyanı inkar üzərinə təməlləndirildiyi üçün bir çöküş dövrü yaşadığını söyləyir. Çıxış yolunu isə yeni dəyərlərin yaradıcısı olan üst insan anlayışında görür. Frankfurt məktəbi nümayəndələri vasitəçi ağlın ön plana çıxmağı nəticəsində insanlara yaşaya bilməyəcəkləri bir dünya vəd edildiyindən bəhs edirlər. Buradan çıxış yolunu isə yenidən Sokratçı, Kantçı düşünmə şəklinə yəni insana məqsədlər təyin edən ağıla qayıtmaqda görürlər. Haydegger isə texnologiya sorğulamaları ilə elmin düşünməyən xüsusiyyətinə vurğu etməkdədir. Buradan hərəkətlə, elmin məqsədlər təyin etmək funksiyası olmadığı üçün insanlığın sonu anlayışını müzakirə məsələsi halına gətirir. Qurtarsa qurtarsa sadəcə bir Tanrının bizi bu çıxmazdan xilas edə biləcəyi metaforasını dilə gətirərək müasir dünyanın ruhsuzlaşdığına, dəyərlərdən məhrumluğuna vurğu edir. Yekun müddəa olaraq sadalanan filosofların düşüncələrində, bizi həyata bağlayan dəyərlərin öz dəyərini itirdiyi üçün yeni dəyərlərin inşasına ehtiyac duyulduğu səslənişini görmək mümkündür. Hər üç fəlsəfədə də insanlığın yeni ideallar, həyatı yenidən mənalandırma cəhdləri axtarışında olduğu böyük ciddiyyətlə vurğulanır. Bu məqalədə hər iki filosofun və Frankfurt məktəbinin müzakirəyə açdığı fəlsəfənin yaşadığı böhran məsələsi, Frankfurt məktəbi özəlində analiz ediləcəkdir.

Məktəbin ilk nümayəndələrindən olan Horkheimer "Ağıl tutulması" əsərində ağlın obyektiv və subyektiv istifadə yollarını araşdırır və ağlın bu cür ayrıseçkiliyə tabe tutulmağını ciddi şəkildə tənqid edir. Horkheimer və Adornonun birgə əsəri olan "Aydınlanmanın Dialektikası"nda insanları azad etmək ideyasının aydınlanma yolu ilə reallaşacağına inamın birdən-birə əksi ilə əvəz olunduğu izah edilməyə çalışılır. Mütəfəkkirlərin fikrincə, aydınlanma bəşəriyyəti bəzi mifik və dini təzyiqlərdən xilas etməyə çalışsa da, mifologiyaya o qədər daxil oldu ki, özündən yeni miflər yaratmağa və özü də miflərə çevrilməyə başladı. Kant "Aydınlanma nədir?" məqaləsində aydınlanmanı "Fərdin yetkinləşməmiş vəziyyətdən qurtuluşu" kimi tərif edir. Belə olan halda fərd öz ağlından istifadə etmək cəsarətinə sahib olmaqla bu vəziyyətdən çıxa bilər. Bununla belə, aydınlanma, zehni mifologiyalardan təmizləməklə birlikdə yeni miflər yaratmaqda və hələ də insanları o miflərin quluna çevirməkdədir. Mütəfəkkirlər onu da vurğulayırlar ki, Dekartın "Mən düşünürəm, deməli, varam" fikrindən sonra zehin mexanikləşmə prosesinə daxil olub. Əvvəllər müəyyən məqsədləri istehsal edən ağıl indi alətə çevrilərək məqsədləri müəyyən etmək vəzifəsini tərk edərək vasitəçilik vəzifəsini öz üzərinə götürüb. "Hesablama, instrumental, formal rasionallıq XX əsrdə dəhşətli barbarlığa gətirib çıxardı" (2014, s.407). Bunu da pozitivizmin tənqidi ilə tənqid edirlər. Ağlın obyektivliyini itirməyini pozitivizmin subyektiv ağlı ön plana çıxarmağı ilə əlaqələndirən mütəfəkkirlərə görə, indi elm obyektiv ağlın əvvəllər gördüyü həqiqətlərdən danışmaq vəzifəsini öz üzərinə götürərək, müşahidə və təcrübə yolu ilə etdiyi kəşflərin mütləq həqiqətlər olduğu inancına bizləri məcbur edir. Tənqidi nəzəriyyəçilərin fikrincə, bu, zehnin sterilizasiyasına və kütləşməsinə xidmət edir. Mütəfəkkirlərə görə pozitivizm təbiət elmlərinə tətbiq etdiyi metodu ictimai elmlərə də tətbiq etməklə səhvə yol verir. Çünki sosial situasiyalar yalnız müşahidə yolu ilə müəyyən edildikdə, natamam məlumatlar əldə edilir. Bunun üçün ağıldan dialektik istifadənin zəruriliyini və ictimai elmlərdə fəlsəfənin mühüm rolunu vurğulamağa çalışırlar. Pozitivizm fəlsəfəni özünün vasitəçisinə çevirərək onu məhv etdi. Fəlsəfə təkcə Dekartçı anlayışı ilə üsul tapmaq, ayırd etmək və izah etmək deyil, həm də Hegel anlayışı ilə dialektika aparmaq qabiliyyətinə malikdir. Bu vəzifəni özünə qaytaran ağıl, azad bir fərdin meydana çıxmağını təmin edəcəkdir. Çünki dialektik və tənqid edə bilməyə qadir olan ağıl nə obyektiv ağlın həqiqət kimi irəli sürdüyü fikirlərə, nə də subyektiv ağlın həqiqət adlandırdığı elmi kəşflərə kor-koranə inanmayacaq, onları dialektika vasitəsilə birləşdirib tənqid süzgəcindən keçirəcək və üzləşdiyi problemləri yaxşı təhlil edib düzgün qərarlar qəbul edə biləcək. Yalnız bu halda azadlıq, bərabərlik, ədalət kimi anlayışlardan danışmaq olar.

Tənqidi nəzəriyyəçilərin müraciət etdiyi başqa bir məsələ praqmatizmlə bağlıdır. Darvinist təkamül anlayışından qidalanan praqmatizmin ən güclünün yaşayacağı fikrini mənimsədiyini, müasir elmin Bekonun "bilik gücdür" fikrinə uyğun olaraq texnologiyanı da istifadə edərək insanları qullara çevirdiyini və onlara konformizm aşıladığını tənqid edir, konformizmə önəm verən fəhlə sinfinin mübarizə apararkən passiv mövqe tutduğuna vurğu edərək, tənqid edirlər. Praqmatizmi, işə yarayanın ciddiyə alınmağı gərəkdiyi fikrinə görə, insanları sonsuz bir yarış və rəqabət münasibətinə saldığı, edilən hər şeyin uğur və mükafat üçün, öz eqosunu təmin etmək adına edilməli olduğu fikrini əsas götürərək tənqid

edirlər. Praqmatizmin aşıladığı həyat tərzinin müharibə və köləlikdən başqa bir şey vəd etmədiyini ortaya qoyurlar.

Tənqidi nəzəriyyəçilərin məqsədi insanlara azadlıq və ya yaxşı həyat vəd etmək deyil. Çünki bunları vəd edən aydınlanmanın, pozitivizmin, praqmatizmin, bir sözlə ənənəvi nəzəriyyənin insanı və dünyanı nə hala gətirdiyi göz qabağındadır. Bu mütəfəkkirlərin yalnız bir qayğısı var, o da insanı insan edən ən mühüm xüsusiyyətdir, ona "ağıldan" necə istifadə etməli olduğunu və ya ondan istifadə etməyin faktiki yolunu bir daha xatırlatmaq. Tənqidi ağıl. Onlar bu vəzifəni fəlsəfəyə tapşırırlar. Onlar iddia edirlər ki, fəlsəfə elmin köləsi olmaqdan çıxmalı, özünü silkələyib bütün miflərdən və doqmatik inanclardan təmizlənməlidir. Frankfurt məktəbinin nümayəndələrinin fikrincə, yalnız bir həqiqət var: insanlara təlqin edilən bütün həqiqətlər tənqidə məruz qalmalıdır.

"Bizi azad edəcək əsas kateqoriya ağıldır. İdeologiyanı tənqid etmək üçün əsas kateqoriya ağıldır. Biz Kantdan bəri bilirik ki, ağıl və azadlıq bir-birinə qarışıb" (2017. 00:12:30). Kant "Aydınlanma nədir?" sualına belə cavab verir: "Aydınlanma, insanın öz təqsiri üzündən düşdüyü yetişkin olmamaq vəziyyətindən azad olmağıdır" (1984, s.213). Yaxşı, burada təqsir nədir? İnsan öz qərarlarında və seçimlərində başqalarının ağlının rəhbərliyinə müraciət etməyidir. Bu səbəbdən aydınlanmanın ən mühüm şüarına çevrilmiş Kantın "Ağlını özün istifadə etmək cəsarətini göstər" (1984, s.213) şüarı, aydınlanmanın ən zəruri şərtidir. "Ağlı başqa heç bir himayə altında qalmadan istifadə etmək, aydınlanmaq üçün azadlıqdan başqa heç nəyin lazım olmadığını bəyan etməkdir" (1984, s.215). Bəli, ümumiyyətlə deyə bilərik ki, dinin, miflərin təzyiqindən qurtulmaq adına bir aydınlanma baş verdi. Amma konkretliyə gələndə belə bir təsvirlə qarşılaşırıq: Hamının bərabər və eyni ağıla sahib olmağı fikri hamı tərəfindən mənimsənilib, ancaq bir ortabab ağıl ortaya çıxıb miflər yaratmağa başladı ki, bütün ağıllar o miflərə inanmağa davam etdi. Bu səbəbdən aydınlanma özü mifikləşdi. Ağlından istifadə edə bilməyən və buna görə də ona qarşı qoyulan bütün ideoloji təzyiqləri çəkinmədən qəbul etmək məcburiyyətində qalan cəmiyyətin vəziyyəti cizgi filmlərində böyük uğurla təsvir olunur: "Bütün fərdi müqavimətləri daim aşındırmaq və qırmaq cəmiyyətdə yaşamağın şərtləri olduğu müdrikliyi hər kəsin ağlına zorla təlqin edilməkdədir. Reallıqdakı bədbəxtlər kimi, Donald Duck da cizgi filmində döyülməyə davam edir ki, tamaşaçılar döyülmə payına alışsınlar" (1996, s.47). Döyülməyə alışan fərd müqavimətindən imtina edər və "müqavimət göstərməməyi ona etibarlı bir etibarsız insan keyfiyyəti qazandırır" (1996, s.47). Mədəniyyət sənayesində insanlar bu aciz vəziyyətdən əyləncə vasitəsi ilə xilas olmağa çalışırlar: "Əyləncənin mənası həmişə belədir: unutmaq, hələ də göstərilən iztirabları düşünmək məcburiyyətində qalmamaq. Bunun əsası acizlikdir" (1996, s.36). Russo burada aciz fərdin vəziyyətini çox gözəl ümumiləşdirir: "İnsan azad doğulur, amma hər yerdə zəncirlənmişdir" (1990, s.14). Mədəniyyət sənayesində fərd hər cəhətdən zəncirlənir. Bu problemin həlli Marksın fəhlə sinfinə təklif etdiyi kimidir: "Zəncirlərindən başqa itirəcəkləri heç nələri yoxdur" (1976, s.66). Bəli, nə qədər ki, fərd mədəniyyətin ona yüklədiyi hər şeydən (yaşayış tərzi, düşüncə tərzi və inanc sahəsi) qurtulmayıb, ağlından sərbəst və tənqidi istifadə etmir, o, həmişə zəncirlərinin əsiri olaraq qalacaqdır. Frankfurt məktəbi

mütəfəkkirlərinin səyləri də bu istiqamətdədir. Fərdə aşılanan subyektiv ağıl həqiqətlərini sorğulamaq qabiliyyətini yenidən bərpa etmək.

Horkheimer "Ağıl tutulması" əsərində aydınlanmadan sonrakı dövrü belə təsvir edir: "Aydınlanma filosofları ağıl adı ilə dinə hücum edirdilər. Nəhayət, onların öldürdükləri, öz səylərinin güc mənbəyi olan metafizik və obyektiv ağıl anlayışı oldu" (1998, s.65). Horkheimerə görə, əxlaqi və dini idrakın əsas amili olan ağıl bununla özünü məhv etmişdir. Burada ağlın özünü məhv etməsi dedikdə nəzərdə tutulan, qarşısına məqsəd qoymayan, mühakimə etməyən, tənqid edə bilməyən ağıl mövqeyinə düşməkdir. "Mütəfəkkirə görə ağıl məfhumu tənəzzüldə olan məfhumlardan biridir. Bunun əsas səbəbi ağıl anlayışının əvvəldən özündə saxladığı tənqidi xüsusiyyətini itirməsidir. Bu proses ağlın obyektivliyini, başqa sözlə, özünü məhv etmək prosesidir" (2015). Bununla da ağlın yalnız bir cəhəti, texniki cəhəti, yəni instrumental (vasitəçi) tərəfi istifadə olunmağa başladı. "Marcuse deyir ki, texnologiya ağlımızı ələ keçirib. Beləliklə, biz ağlımızı ona təhvil verdik, o, bizim adımıza düşünür, mobil telefonlarımız indi hər şeyi bizim əvəzimizə düşünür, hər şeyi bizim adımıza planlaşdırır, kompüterlərimiz bizim adımıza düşünür, hər şeyi planlaşdırır" (2017, 00:23:13). Əksinə, hər şeyi düşünən texnologiya insan həyatını getdikcə daha da rahatlaşdırdı və ya insanları düşünəcək heç bir şeysiz qoydu, ağlın tamamilə istifadə edilməməsinə səbəb oldu. Horkheimer "Ağıl tutulması" əsərində azadlığı qədim insanların azadlığından az olan müasir insanın özünü azad hesab etdiyi vəziyyəti belə təsvir edir:

"Müasir cəmiyyətdə avtomobil sahiblərinin əhaliyə nisbəti qədim cəmiyyətdəki at arabası sahiblərindən qat-qat yüksək olmaqla yanaşı, avtomobil daha sürətli və daha çoxyönlü nəqliyyat vasitəsidir, daha az texniki xidmət tələb edir və hətta istifadə etmək daha asandır. Lakin azadlığın bu artması azadlığın mahiyyətinin dəyişməsinə səbəb olmuşdur. "Sanki maşını idarə edən biz deyilik də əməl etməyimiz lazım olan saysız-hesabsız qanun və qaydalardır". Sürət həddi, yavaş sürmək, dayanmaq, müəyyən zolaqlarda qalmaq barədə xəbərdarlıqlar və hətta qarşıdakı döngənin formasını göstərən işarələr var. Gözlərimizi yolda saxlamalı və hər an düzgün hərəkət etmək üçün ayıq olmalıyıq. İçdən gələn kortəbii davranışımız bizi boğan mexaniki öhdəliklərdən yayındıracaq hər hansı bir emosiya və ya düşüncəni silməyimizi tələb edən zehniyyətlə əvəz olundu" (1998, s.123).

Fərd texnologiyanın imkanları ilə öz düşüncə qabiliyyətini korlayır və Marküzenin təbirincə desək, kölə olur: "Ona görə də texnologiyanın rəhbər tutduğu rasionallıq tənqidi gücünü itirir. O, itaətkar və ahəngdar bir quruluşa çevrilməyə məcburdur. Bu rasionallıq birölçülü reallıq yaratmışdır. Birölçülü reallıq, Haydeggerin təbirincə desək, ontologiyanın texnologiya ilə əvəz olunmasıdır" (2017, 00:23:37). Horkheimer müasir elmin bu qədər ön plana gəlməsinə, təbiəti və insanları texnologiya vasitəsilə məhv etməsinə səbəb olan ən mühüm amili obyektiv ağlın məhv edilməsində görür və buna belə qarşı çıxır: "Pozitivistlərin intuisiyanı aşağılamağa haqqı yoxdur. Bu iki müxalif məktəb eyni ümidsizliyi bölüşür: müəyyən məqamda hər ikisi tənqidi düşüncəni avtoritar mülahizələrlə dayandırır - birində ən yüksək mənəvi substansiya, digərində isə onu əvəz edən elmdir" (1998, s.110). Horkheimer iddia edir ki, elm tərəfindən tənqidiliyini itirmiş ağıl formalaşır və bununla da bəşər tarixində ən mühüm anlayışlar: ədalət, bərabərlik, azadlıq, xoşbəxtlik

kimi məfhumların dəyərsizləşdiyini vurğulayır. Mütəfəkkirin fikrincə, bu məfhumlar həmişə olduğu kimi hələ də məqsəd kimi qalır, lakin öz kökündən qoparıldığı və onları obyektiv reallığa bağlayan rasional amildən məhrum edildiyi üçün dəyərsizləşmişdir. "Ona görə də ədalət və azadlığın özlüyündə haqsızlıq və zülmdən daha üstün olduğu müddəasını təsdiq edə və ya təsdiq edə biləcək bir fikirdən danışmaq mümkün deyil. Bu təklifi qiymətləndirə biləcək bir ağıl ideyası "ortalıqda" yoxdur" (2015, s.257). Subyektiv səbəb ingilis empirist filosofu Con Lokk ilə ortaya çıxar. Bu ağıl hesablamalar aparır və daha yüksək rasional məqsəd daşımır. Lokkun fikrincə, subyektiv ağıl üçün müəyyən bir məqsədin digər bir məqsəddən üstünlüyü yoxdur. Beləliklə, bu ağıl sadəcə olaraq müəyyən imkanlar arasında ən uyğun olanı təyin edən qabiliyyətdir (2006, s. 119). Ancaq Frankfurtçulara görə, ağıldan təkyönlü istifadəni tərifləmək və vurğulamaq bizim yaşadığımız problemlərin əsas səbəbidir.

Bu mənada Frankfurtçuların qarşı çıxdıqları ağıldan istifadə şəklidir. Horkheimer və Adornoya görə, aydınlanma ağlının əsas problemi ondan ibarətdir ki, "bəşəriyyəti mifik qüvvələrin əsarətindən azad edən və təbiət üzərində mütərəqqi hökmranlıq qurmağa imkan verən rasionallıq öz daxili mahiyyəti ilə mifə yenidən qayıdışa və yeni, daha mütləq təhəkküm şəkillərinə gətirib çıxarır" (2011, s.13-14). Ona görə də aydınlanmış ağlın məqsədi: "Konseptual və texniki hakimiyyətə nail olmaq. Hərtərəfli rasionallıq rasionallığın bütünü kimi görünməyə başlayanda, xüsusi olanı özbaşına dərk etmək imkanı yox olur və aydınlanmış ağlın qarşısına qoyduğu məqsədlər bloklanır. Xüsusilər barədə mühakimə yeritmək, vasitələr və məqsədlər haqqında rasional düşünmək mümkün olmadıqda, insan məqsədlərinə çatmaq üçün vasitə olmalı olan ağıl özlüyündə bir məqsədə çevrilir və bununla da aydınlanmanın əsas məqsədləri olan azadlıq və xoşbəxtliyin əleyhinə fəaliyyətə başlayır" (2013, s.14). "Aydınlanmış ağıl, zehnin hədəflərə doğru yönəlməyinə mane olur və duyğusal xüsusilərə laqeyd və maraqsız qalmaqla xüsusiləri universallar içində həll edir" (2013, s.15). Müvafiq olaraq, "Aydınlanmanın təbiət üzərində hökmranlığı və xoşbəxtliyi həyata keçirmə vasitələrini təmin etməyə əsaslanan qarşısıalınmaz tərəqqisi əslində qarşısıalınmaz geriləməyə gətirib çıxaracaq" (2013, s.15).

**Çıxış yolu fəlsəfədədir?**

Əgər problem fəlsəfənin öz həqiqi mənasını itirməyi ilə, yəni obyektiv ağıl arxa plana keçib, subyektiv ağlın önə çəkilməyi ilə başlayıbsa, fəlsəfəni əsl mahiyyətinə qaytarmaqla problemin həllini təmin etmək olar. "Qədim Yunanıstanda subyektiv ağıl var idi, lakin bu ağılın substantiv/obyektiv olduğuna da inanılırdı. Subyektiv ağıl, obyektiv ağıldan pay aldığı dərəcədə, o, "yaxşı" həyat idealını reallaşdıra bilər. Horkheimer bu anlayışın nümunəsi kimi Sokratın ağlını göstərir" (2013, s.257). Tənqidi nəzəriyyəçilərin etməyə çalışdığı şey məhz bu qabiliyyəti ağıla yenidən qaytarmaqdır. Bunun üçün fəlsəfəyə böyük ehtiyac var. "Fəlsəfəyə inanmaq qorxu üzündən insanın düşünmə qabiliyyətinin korlanmağına qarşı çıxmaq deməkdir" (1998, s.169). Fəlsəfə obyektiv ağlın və ya subyektiv ağlın dediyi şeylərdən birini seçib onu mütləq həqiqət adı altında müdafiə etməyə çalışdıqda ağlı kütləşdirir. Horkheimerə görə "Fəlsəfənin vəzifəsi birini digərinə qarşı inadla müdafiə etmək deyil, ikisi arasında qarşılıqlı tənqidi inkişaf etdirməyə kömək etmək və bununla da fəlsəfə sahəsində onların real həyatla qarışmalarına hazırlamaq deməkdir"

(1998, s.177). Bildirilir ki, bu gün azadlığa aparan yeganə etibarlı yol Kantın dediyi kimi tənqidi yoldur.

"Ruh və təbiətin mütləq ikiliyi kimi, subyektiv və obyektiv ağlın ikiliyi də zəruri görünüş olsa belə, yalnız zahiri görünüşdür... Bu iki anlayış bir-birinə bağlıdır: birinin nəticəsi təkcə digərinin yoxluğu deyil, həm də digərinin varlığıdır. Səhvlik elementi bu anlayışlara xas deyil: səhv birini digərinə qarşı qoymaq və onu mütləqləşdirməkdir. Bu mütləqiyyət insanlıq halının əsaslı ziddiyyətinin məhsuludur" (1998, s.178).

Tənqidi nəzəriyyəçilərin də qarşı çıxdığı və tənqid etdiyi məqam budur. Ümumiyyətlə, ağıl insanın özünə yaxşı həyat imkanları yaratması üçün ən vacib vasitədir. Ancaq bu, onun elm və ya başqa bir şey tərəfindən bir vasitə kimi istifadə edilə biləcəyi demək deyil. Ağıl özü həm məqsədi, həm də vasitələri müəyyən edəndir. Bunu düzgün etmək üçün dialektika və tənqidə deməli, fəlsəfəyə ehtiyac vardır. Yəni fəlsəfə öz mahiyyətinə qaytarılsa və insanlar ağlından düzgün istifadə edə bilsələr, həyatı yaxşılaşdırmaq mümkün olacaq. Əks halda, ağıldan alət kimi istifadə edən pozitivizm, praqmatizm və texnologiya insan yaşamında məqsədləri təyin etməyə çalışsalar, gedişat daha da pisləşəcək və insanlar azad olmaq əvəzinə daha çox əsarətə düşəcəklər.

**Nəticə**

Bu məqalədə ağlın tənqidi, Frankfurt məktəbinin önəmli təmsilçiləri olan Horkheimer və Adornonun düşüncələrindən hərəkət edilərək verildi. Bu mütəfəkkirlər marksist xətti izləməklə gündəmə gəlirlər. Lakin onların məqsədi siyasi iqtisadın marksist tənqidini siyasi mədəniyyətin tənqidinə çevirməkdir. Ona görə də Marksın həyat verdiyi inqilab ideyasının iflasa uğraması bu filosofları çox maraqlandırır. Çünki patronlaşma sindromuna tutulmuş fəhlə sinfi mədəniyyət sənayesinin kütləvi informasiya vasitələri nəticəsində şüur itkisini yaşayır. Ona görə də problem daha geniş kontekstdə təhlil olunmalıdır. Bu səbəbdən Horkeimer və Adorno aydınlanma ilə başlayan prosesi analiz edirlər. Onlar aydınlanma sonra ağlın çökməyinə işarət edirlər. Bu prosesdə ağıl qurtuluş adı ilə miflərə hücum etdi, amma bunun nəticəsində yeni bir mif ortaya çıxardı. Pozitiv elmlər azadlıq adı ilə ortaya çıxan aydınlanma ağlının uydurduğu yeni bir mifdir. Özlərini yeganə hakim həqiqət kimi qəbul etdirən və əldə etdikləri nəticələrin şəksiz mütləq həqiqətlər olduğunu iddia edən pozitiv elmlər insan üçün ən böyük ideallar olan bərabərlik, ədalət, azadlıq anlayışlarını da ortadan qaldırdılar. Əslində bu iddialar ağıl böhranı səbəbindən boş, mənasız və əsassızdır. Odur ki, instrumental (vasitəçi) ağlın üstünlüyü ilə artıq ədaləti ədalətsizlikdən, azadlığı köləlikdən ayırmaq qabiliyyəti yoxdur. Obyektiv ağıla ehtiyac burada əhəmiyyətini hiss etdirir. İş o yerə çatıb ki, Horkheimer və Adorno öz əsərlərində ağıl tutulması və Aydınlanmanın dialektikası, Markuz isə texnologiyanı tənqid edərkən standartlaşdırılan və insanları standartlaşdırmağa çalışan dünyanın əsas müəyyənedici elementlərini araşdırırlar. Bu mühüm problemin ciddiliyindən danışırlar. Və praqmatikləşmiş, maraqların ön planda olduğu həyatda insanlığın və fəlsəfənin girdiyi xaosdan və böhrandan çıxış yolu axtarırlar. Lakin bu xilas dini və ya mistik yolla deyil, elmlərin vasitəçisinə çevrilmiş, elmlərdən asılı olmayaraq heç bir ifadə və ya hökm ifadə edə bilməyən fəlsəfə ilə əldə olunacaqdır. Fəlsəfə orijinal və dəyişməz üsulu ilə özünü, insanı və dünyanı bu böhranlı vəziyyətdən xilas edə biləcəkdir. Bu, Sokratik, Kantçı və Hegelçi

sorğu-sual, tənqid və dialektikaya əsaslanan düşünmə qabiliyyətidir. Bu mənada fəlsəfə ya dini ya da intuisiyaya əsaslanan, istəyirsə də, Platonik ədalət və azadlıq ideyasına əsaslanan istiqamətdə olsun və yaxud da müsbət elmlərin, obyektiv ağlın məlumatlarını bir araya gətirərək tənqid süzgəcindən keçirib, bir yol, perspektiv təmin etməlidir. Əks halda, Adornonun dediyi kimi, azad olduğu düşünülən müasir insan, köləlik dövründəki insanla müqayisədə daha çox kölәlik vəziyyətində qalacaq. Çünki o dövrün zəncirləri göründüyü halda, bu gün biz görünməz mental, mədəni və psixoanalitik zəncirlərə məhkumuq. Mütəfəkkirlərin fikrincə, ağıl yalnız subyektiv məlumatlarla həqiqətə çata bilməz, fəlsəfə obyektiv həqiqətləri də subyektiv olanlar ilə birlikdə ələ almalı və bu məlumatların qarşılıqlı müzakirəsi nəticəsində insanlara bir yol göstərməlidir. Onlar hesab edirlər ki, ağlın və fəlsəfənin tənqidilik qabiliyyəti yenidən bərpa edildikdə kütlələr subyektiv ağlın hökmranlığından, texnologiyanın hökmranlığından və yalançı metafizikanın hiylələrindən xilas olacaqdırlar.

“Fəlsəfənin bugünkü vəzifəsi nədir?” Bu sual həm fəlsəfənin, həm də insanın yönünü təyin etməyi mövqeyindən dəyərli və cavablanmağı zəruri sualdır. Çünki günümüz insani kapitalizmin ona aşıladığı daha çox kar əldə etmək hirsi ilə istehlak mədəniyyəti içərisində həm yaşadığı yer olan dünyanı, həm də öz maddi-mənəvi varlığını yox etmək həddindədir. Bu gün Noam Çomskiyə görə qorxulmağı gərəkən 3-cü dünya müharibəsi deyil, iqlim dəyişiklikləridir. 2030-cu illərdə su qıtlığı və çevrəsəl problemlər ən üst səviyyəsinə çatacaq. Françis Baconun “bilgi gücdür” anlayışı ilə yola çıxan və təbiəti öyrənərək ona hakim olacağı zənninə qapılan müasir insan, artıq dünyaya hökmünü dörd sənaye inqilabı ilə birlikdə elə bir pik nöqtəyə çatdırıb ki, həm özünü, həm də dünyanı yox etmək təhlükəsi ilə üz-üzədir. Bu mənada, “dünyaya hakim olan insana dünya sahib çıxacaq mı?” sualı insanlığın mümkün olduğu qədər tez üzləşməyi lazım olan sualdır. Ağlın vəzifəsi insan həyatında məqsədlər təyin etməkdir. Aydınlanma ilə birlikdə ağıl, bu xüsusiyyətini itirib və vasitə olaraq istifadəsi daha ön plana çıxıb. Müsbət elmlərin ortaya qoyduğu faktların üstündə hər hansı ideal təyin etmək missiyası qalmayıb. Bunun nəticəsi olaraq da fəlsəfənin ortaya çıxma səbəbi olan “necə yaşamalı?” sualına verəcəyi cavab qarşılıqsız qalıb. Frankfurt məktəbi filosoflarının da işarət etdikləri problem məhz bu məsələdir. Buradan çıxış yolunu fəlsəfənin elmlərin xidmətçisi rolundan çıxıb, yenidən insanlara obyektiv ağıl ilə məqsədlər təyin edə bilmə qabiliyyətinə qayıtmağında görürlər. Əks təqdirdə praqmatikləşən dünyamızda yaxşı-pis, ədalət-ədalətsiz ayrımlarını edə bilmək qabiliyyəti olan ağıl ortadan qalxacaq və işə yarayanın seçilməyi nəticəsində kar-zərər hesabı ilə həyatını davam etdirən insanlar, dəyər varlığı olaraq insanı deyil, mənfəət varlığı olaraq Hobbsun insan təsvirini qəbul etmiş olacaqlar.

## ƏDƏBİYYAT

1. Adorno Theodor. W- Horkheimer. Max. (1996) *Aydınlanmanın Diyalektiği* (Çev: Oğuz Özügül) İstanbul: Kabalcı Yayınevi
2. Adorno Theodor.W (2011), *Kültür Endüstrisi Kültür Yönetimi* (Nihat Ülner- Mustafa Tüzel- Elçin Gen, Çev) İstanbul: İletişim Yayınları
3. Eren Işık. (2006) *20. Yüzyılda Felsefe: Karşı Çıkışlar ve Yeni Arayışlar*. Bursa: Asa Kitabevi.
4. Horkheimer Max. (1998) *Akıl tutulması.* (Çev: Orhan Koçak). İstanbul: Metis Yayınları.
5. J.J.Rousseau (1990). *Toplum Sözleşmesi* (Çev: Vedat Günyol), İstanbul
6. Kant İ. (1984) *"Aydınlanma Nedir? Sorusuna Yanıt", Seçilmiş Yazılar*. (Çev: Nejat Bozkurt) İstanbul: Remzi Ktitabevi.
7. Kurtul Gülenç. (2015) *Frankfurt Okulu Eleştiri, Toplum Ve Bilim*. İstanbul: Ayrıntı Yayınları.
8. Kurtul Gülenç. (2017) *Eleştirel Teori'de Teknoloji Soruşturması.* Youtube.
9. Martin Jay.(2014). *Diyalektik İmgelem.* (Çev: Sevgi Doğan) İstanbul: Ayrıntı Yayınları.
10. Marx K- Engels, F. (1976) *Komünist Parti Manifestosu* Cilt: I, Birinci Baskı, Sol Yayınları.

## SUMMARY

**Ziyad Rahimov**

### THE CRISIS OF 20TH CENTURY PHILOSOPHY: THE FRANKFURT SCHOOL'S SEARCH FOR A WAY OUT

The Frankfurt School was founded by the Marxist scientist Karl Grünberg during the First World War, and it was a philosophical school that was formed as a result of a group of social scientists coming together and looking for solutions to social problems with the funding of a doctoral student named Felix Weil. The main goals of Horkheimer and his close friend Adorno, who will later become the director of the school, are to find a way out of the quagmire in which philosophy is stuck. The question to be asked at this stage is: What is the way out and can we talk about such a possibility? Horkheimer's work, The Eclipse of the Mind, is of great importance from the standpoint of deeply dealing with this problem and pointing out the way out. In this article, first the problem will be discussed, and then the school's search for a way out of the quagmire in which philosophy has fallen will be discussed. In this sense, the research will examine the School's critiques of subjective reason that emerged as a result of positivism, pragmatism, and enlightenment, and then it will be explained by which philosophical method the problems caused by these styles of philosophy can be solved.

***Key words:*** *İnstrumental mind, Objective mind, Culture industry, Criticism, Dialectic*

## РЕЗЮМЕ

**Зияд Рагимов**

## КРИЗИС ФИЛОСОФИИ XX ВЕКА: ФРАНКФУРТСКАЯ ШКОЛА В ПОИСКАХ ВЫХОДА

Франкфуртская школа была основана ученым-марксистом Карлом Грюнбергом во время Первой мировой войны. Это была философская школа, образовавшаяся в результате объединения группы ученых-социологов и поиска решений социальных проблем при финансировании докторской диссертации. студент по имени Феликс Вейль. Главные цели Хоркхаймера и его близкого друга Адорно, который впоследствии станет директором школы, -найти выход из трясины, в которой застряла философия. На этом этапе следует задаться вопросом: какой выход и можно ли говорить о такой возможности? Работа Хоркхаймера "Затмение разума" имеет большое значение с точки зрения глубокого рассмотрения этой проблемы и указания выхода из нее. В данной статье сначала будет обсуждаться проблема, а затем пойдет речь о поиске школой выхода из трясины, в которую попала философия. В этом смысле в исследовании будет рассмотрена критика Школой субъективного разума, возникшая в результате позитивизма, прагматизма и просвещения, а затем будет объяснено, с помощью какого философского метода могут быть решены проблемы, вызванные этими стилями философии.

***Ключевые слова:*** *Опосредующий разум, Нацеленный разум, Индустрия культуры, Критика, Диалектика*

**RADİF MUSTAFAYEV**
*hradif@mail.ru*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

# XX ƏSR TÜRKİYƏ TƏDQİQATÇISI ƏBDÜLBAQİ GÖLPINARLININ FÜTÜVVƏTƏ MÜNASİBƏTİNDƏ ŞİHABƏDDİN ƏBUHƏFS SÜHRƏVƏRDİYƏ BAXIŞ

*Orta əsrlər müsəlman Şərqində zahidlik və tərkidünyalıq əsasında meydana çıxmış sufilik ənənəsi getdikcə öz ilkin mahiyyətini itirərək xalqdan uzaqlaşmış siyasi hakimiyyətə loyallaşması ilə səciyyəvi olmuşdur. Bu qəbil sufi ənənəsinə qarşı olaraq müsəlman cəmiyyətində mürüvvət və fütüvvət ideyalarına əsaslanmış məlamətilik ortalığa çıxmışdır. Məlamətilik də müxtəlif qollara parçalandığına baxmayaraq onun əsasındakı fütüvvət ideyası dini əsaslı olub Məhəmməd peyğəmbərə və onun ailəsinə aid olanlara istinad etmişdir. Fütüvvət ideyasına əsaslanıb ona aid iki əsər müəllifi olmuş orta əsrlər Azərbaycan mütəfəkkiri Şihabəddin Əbuhəfs Sührəvərdi hakimiyyətə loyallaşdırılmış sufiliyi bundan üstün tutaraq ictimai-siyasi həyatda fəal rol oynamışdır. Fütüvvət ideyasını əldə rəhbər tutmuş məlamətilik haqqında olduğu kimi, fütüvvətə həsr edilmiş əsərlərin öyrənilməsində, o cümlədən də sənətkarlıq təşkilatı olan əxilik haqqında XX əsr Türkiyə tədqiqatçısı Əbdülbaqi Gölpınarlı irsinin böyük əhəmiyyət kəsb etməsindədir.*

***Açar sözlər**: İslam, Orta əsrlər müsəlman Şərqi, sufilik, məlamətilik, fütüvvət, əxilik*

## Giriş

Azərbaycan fəlsəfi fikrinin metodoloji problemlərini müəyyən etmək üçün fikrimizcə, öncədən ilkin mənbələrə və fundamental tədqiqat işlərinə diqqət edilməlidir. Bu baxımdan əslən azərbaycanlı, XX əsr Türkiyə tədqiqatçısı Əbdülbaqi Gölpınarlının (1900-1982) tədqiqat işləri maraq doğurmaya bilməz. Demək olar ki, İslam və müsəlman fikir tarixinin bütün aspektlərini araşdırmalarında ehtiva etmiş tədqiqatçının elmi fəaliyyətinin başlıca dəyəri onun məhz ilkin mənbələrə istinad etməsidir. Ə.Gölpınarlının əsərlərinə geniş istinad edilməsinə baxmayaraq oradakı məqamların Azərbaycan fəlsəfə tarixi elminə tam transfer edilmədiyindən fikrimizcə bu irsin aktuallığı özünü göstərməkdədir. Sözügedən irsdən yararlanıb biz orta əsrlər müsəlman Şərqində, o cümlədən də Azərbaycanda geniş yayılmış fütüvvət, əxilik hərəkatına, həmçinin bu ideya istiqamətinin nəzəri əsaslandırılmasında iştirak etmiş, amma Azərbaycan fəlsəfi fikir tarixində bu əsərləri kifayət qədər işıqlandırılmamış Azərbaycan mütəfəkkiri, görkəmli hüquqşünas alim, ictimai-siyasi xadim Şihabəddin Əbuhəfs Ömər Məhəmməd oğlu Sührəvərdiyə münasibətini işıqlandırmaq niyyətindəyik.

Ə.Gölpınarlıya görə, fütüvvət: Öncə anlayışlara diqqət etmiş Ə.Gölpınarlıdan oxuyuruq ki, fütüvvət "İnsanlıq və ərənlik mənasını verən "mürüvvət" sözü ilə, əsas etibarı ilə təsəvvüfə əsaslanan, fəqət eyni zamanda iqtisadi olanları da qavraması və sənətkarları təşkilatlandırılması baxımından iqtisadi bir varlıq daşıyan olaraq əhli-fütüvvət tərəfindən daha geniş mənalar verilmiş ... bir termin olmuşdur" (Gölpınarlı Əbdülbaqi, 2011, s.17). Tədqiqatçı vurğulayır ki, fütüvvət əhlinə görə, "mürüvvət fütüvvətin əsasıdır, fütüvvət isə mürüvvətin sonudur" (Gölpınarlı Əbdülbaqi, 2011, s.17). Deməli, hər mürüvvət sahibi

fütüvvət əhli olmasa da, hər bir fütüvvət əhli ən yüksək səviyyədə mürüvvətə sahib olur. Hələ üstəlik, Ə.Gölpınarlı qeyd edir ki, "Fütüvvət əhlinin şeyxlərinə "əxi" də deyildiyi qaynaqlardan öyrənməkdəyik" (Gölpınarlı Əbdülbaqi, 2011, s.17). Əgər bu hadisə XIII əsrdən başlayırsa, tədqiqatçıya görə "Fütüvvəti özünə şüar edən bir topluluğun hələ hicrətin ikinci yüzilində (VIII əsr - R.M.) mövcud olduğu" bilinir (Gölpınarlı Əbdülbaqi, 2011, s.18). Belə ki, bu qəbildən olanlar ilk vaxtlar özlərini sufilərdən ayırmış və məlamətilərlə birləşdikləri, hətta fütüvvətin onlar tərəfindən mənimsənildiyindən məlaməti böyüklərinin eyni zamanda fütüvvət sahiblərindən olduqları haqqında Əbu Əbd əl-Rəhman əl-Suləminin (h. 412, m.1021-1022-ci ildə vəfat etmişdir) "Tabaqaat-ı Sufiyyə" ("Sufi təbəqələri") (Bax: s.91-də bu əsər "Risalət əl-Futuvva" kimi təqdim edilir) əsərindən bilinməkdədir. Bu əsərdə məlaməti şeyxlərindən bəzilərinə fütüvvət məqamını kimin qazandığını və kimə "fəta" deməyin doğru olduğu soruşulduqda onların: "Tanrı hamısını rəhmət etsin, kimdə Adəmin üzr istəməsi, Nuhun səbatı, İbrahimin vüqarı, İsmailin doğruluğu, Musanın ixlası, Eyyubun səbri, Davudun ağlayışı, Məhəmmədin comərdliyi varsa, yenə Tanrı hamısından razı olsun, kimdə Əbubəkrin acıması, Ömərin həmiyyəti, Osmanın utancaqlığı, Əlinin biliyi varsa, sonra da bütün bunlarla bərabər nəfsini xor, ayıblarını görürsə, o şəxs fütüvvət sahibidir, fəta adını haqq edər"-deyə cavab verdikləri qeyd olunur (Gölpınarlı Əbdülbaqi, 2011, s.18). Tədqiqatçı Qüşeyrinin "Risalə"sinə istinad edib, həm məlaməti mürşidi olmuş Əbu Turabi Nəxşəbənin (h.245, m. 859-860-cı ildə vəfat etmişdir), həm də onun məlaməti müridləri olmuş Əhməd Xüdrəveyhi Bəlhinin (h.240, m. 854-855-ci ildə vəfat etmişdir), Şah İbni Şuca-i Kirmaninin (h.300, 912-ci ildən öncə vəfat etmişdir), o cümlədən də Əbul-Həsən Əliyyi-bni Səhl əl-Buşəncinin (h.345, m. 959-960-cı ildə vəfat etmişdir) fütüvvət əhlindən olduqlarını qeyd etmişdir. Məlamətiliyə digər yazılarında geniş izahatlar vermiş Ə.Gölpınarlıdan oxuyuruq ki, "Məlamətilər adlanan toplum təsəvvüf içərisində təsəvvüfçülərə qarşı çıxan bir zümrədir" (Gölpınarlı Əbdülbaqi, 2022, s. 121). Məlamətilərin Tanrıya zikr deyil, fikir, daha doğrusu, ancaq eşq və cazibə ilə çatmağın mümkün olduğunu bildirmiş tədqiqatçı, onların Quranın XII surəsinin 108-ci ayəsini və XVI surəsinin 125-ci ayəsini özlərinə şüar etdiklərini bildirmişdir.

Ə.Gölpınarlı yazır ki, "Onlara (məlamətilərə - R.M.) görə röya çox nadir hallarda doğru[dur], amma əksər hallarda daxili aləmin, şüur altındakı halların bir əksidir. Əsma[nı], yəni Tanrı adlarını ardıcıl olaraq anmaq/sadalamaq, insanı əsma dəlisi edər" (Gölpınarlı Əbdülbaqi, 2022, s.121). Sufilər isə, "...Xalqa avam (kütlə - R.M.), yaxud zahid (tərkidünya - R.M.) və zahir (üzdə olanı bilən - R.M.) deyir, özlərini...arif (bilən, bilici, bilikli - R.M.) sayırdılar" və "...Təsəvvüf əhli ayrı bir zümrə olmuş və iqtidar isə bunları ələ almışdı" (Gölpınarlı Əbdülbaqi, 2022, s.122). Tədqiqatçının təbirincə desək, məlamətilər sufilərin bu qəbil hallarını qəbul etməyib, onların zaviyə, təkkə, dərgah və xənəkə kimi təsisatlarını inkar edirdilər. Onlara görə, "Üç-beş hal əhlinin toplandığı xəlvət bir yer, harada olursa olsun, ...söhbət məclisi ola bilərdi" (Gölpınarlı Əbdülbaqi, 2022, s.122). Məlamətilərdə "Vəqflə (Vəqf gəlirləri ilə) deyil, hər kəs öz qazancı ilə yaşayacaq, həmçinin eyni zamanda da yaşadacaq" və "Varlığını Haqqa vermək [öz] varını-yoxunu xalqa verməkdən başqa bir şey ola bilməz" (Gölpınarlı Əbdülbaqi, 2022, s.122). Ə.Gölpınarlı vurğulayır ki, "Onlara (məlamətilərə - R.M.) görə, özlərini hər kəsdən aşağı görmək və

göstərmək, hər yaradılmışdan aşağı sayılmaq başlıca şüar idi" və "Başqa bir şüarları isə edilmiş yaxşılığı gizlətmək, pisliyi isə gizlətməyə çalışmamaq idi" (Gölpınarlı Əbdülbaqi, 2022, s.122). Halbuki, tədqiqatçı qeyd edir ki, "Bu şüar getdikcə nəfsi aşağılamaq örtüyü altında özünü xalqa pis göstərmək üçün pis şeylərin edilməsinə qədər gedib çıxdı və bir qism ibahçıların, yəni hər şeyi [etməyi] mübah (yol verilən, gözəl – R.M.) görənlərin özlərini məlamətlə gizlətmələrinə yol açmış oldu" (Gölpınarlı Əbdülbaqi, 2022, s.122-123). Elə məlamətilik haqqında XI əsr müəllifi olmuş Əliy b. Osman b. Əbu Əliyyil-Qəznəvinin "Kəşfül-məhcub" əsərinə istinadən Ə.Gölpınarlı yazır ki, "riyakarların özlərini xalqa xoş göstərmək, yaxşı tanıtdırmaq qeydində olduqları kimi məlamət əhlinin də xalqın özlərini pis görmələri qeydində olduğunu, bu baxımdan [da] hər iki qrupun da baxışlarında xalq olduğunu söyləməkdə, bu cür məqsədlərdən qurtulmuş olan sufilərin məlamət əhlindən üstün olduqlarını bildirməkdədir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.123-124). Amma tədqiqatçı məlamətiliyi qəbul etmiş sufilərin bunu ən yüksək mərtəbə saydıqlarını da qeyd edib yazır ki, "Əbu Əbdür-Rəhman-ı Süləmi (412 h., 1021) bu qənaətdə olduğu kimi İbn Ərəbi də məlamətdən üstün dərəcənin ancaq peyğəmbərlik olduğunu söyləmişdir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.124). Bununla yanaşı, Ə.Gölpınarlı vurğulayır ki, "Sufilər arasında məlamətiliyin şeyxdən şeyxə ötürülən bir yol olmayıb bir nəşə olduğunu qəbul edənlər də vardır" (Gölpınarlı Əbdülbaqi, 2022, s.124). Bütövlükdə isə, "məlamətilər Xorasanda çoxaldığından [onlara] buna görə "xorasanilər", sonradan [isə] "Xorasan ərənlər, Xorasan ərləri" deyə anılmışlar" (Gölpınarlı Əbdülbaqi, 2022, s.125). Hər xorasanlının məlaməti olmadığını da vurğulayan Ə.Gölpınarlı qeyd edir ki, "Məlamətilər xalqdan ayrılmayan, xalqı qucaqlayan bir ideologiyanı təmsil etmiş, bu ideologiyanın xalq arasında yayılması [isə] xüsusən də zəhmətkeşləri və sənətkarlar sinfini təşkilatlandırmışdır" (Gölpınarlı Əbdülbaqi, 2022, s.127). Bu təşkilata "Fütüvvət" adı verildiyindən, Ə.Gölpınarlıya görə, "Əsasən ... məlamətiliklə fütüvvət eyni şeydir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.127).Və ya fikrini dəqiqləşdirmiş tədqiqatçıdan oxuyuruq ki, "[Əgər bunlardan] biri (məlamətilik - R.M.) ideologiyanı təmsil edirsə, o birisi (fütüvvət - R.M.) bu ideologiyanı xalq [arasında] yaymaq xalqı təşkilatlandırmışdır" (Gölpınarlı Əbdülbaqi, 2022, s.127). Və ya "Fütüvvətlə mürüvvət, yəni kişilik, igidliklə adam olmaq, insanlıq daima bərabər anılmaqdır" (Gölpınarlı Əbdülbaqi, 2022, s.127).

Fütüvvə anlayışının İslam dinindəki etimologiyasına aydınlıq gətirmiş Ə.Gölpınarlı yazır ki, həm Quranda buna işarələr olsa da, "Həzrəti Məhəmməd... "Mən igidəm, igid oğluyam, igid qardaşıyam" deməklə atası (ulu əcdadı - R.M.) İbrahim peyğəmbəri və qardaş edildiyi Əlini qəsd etmişdir. [Məhəmməd peyğəmbər] Uhud döyüşündə "Zülfüqardan başqa qılınc, Əlidən başqa ərən/igid yoxdur" demişdir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.128). Hətta tədqiqatçı vurğulayır ki, "fütüvvət və mürüvvət təsəvvüf kimi sonradan uydurulmuş bir termin deyildir. Fütüvvət əhlinə görə, "Əshabi Kəhf"ə Tanrıya inandıqları, bütə səcdə etməyib mağaraya sığındıqları üçün, Yusifə pislik etmədiyinə, Yuşaaya da Musaya qoşulduğuna görə "ər, igid" deyilmişdir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.129). Bütün bu və digər faktları əldə rəhbər tutmuş sufilərdən, məsələn, "Qüşeyriyə görə, fütüvvətin əsli, qulun (Allah bəndəsinin - R.M.) daima başqasının əmri altında olmasıdır" (Gölpınarlı Əbdülbaqi, 2011, s.19).

Ə.Gölpınarlı qeyd edir ki, "Əvvəlcə Xorasanda toparlaşan fütüvvət nümayəndələri [daha sonra] Bağdadı mərkəz etmiş, hətta əyyar adlanan sivil əsgərlər də fütüvvət yolunu tutmuş və beləcə fütüvvət Anadoluya, Suriyaya və Misrə yayılmışdır" (Gölpınarlı Əbdülbaqi, 2022, s.132). Üstəlik tədqiqatçıdan oxuyuruq ki, "Osmanoğulları dövləti fütüvvət əhlinə istinad edərək qurulduğu kimi ilk futuhat dövründə də türklər arasında "Alp ərənlər" adını almış və fütüvvətin seyfi, yəni qılınclı qolunu təmsil edən qazilərin çox böyük rol oynadıqları həqiqətdir" (Gölpınarlı Əbdülbaqi, 2022, s.132).

Ə.Gölpınarlının fütüvvət baxımından Şihabəddin Əbuhəfs Sührəvərdi barədə qeydləri: Ə.Gölpınarlıdan oxuyuruq ki, "əsl sufi olmuş, fəqət fütüvvətə də mənsub olan Şeyx Şihab-əl-din Sührəvərdi (632 h., 1234) "İdalət əl-ayan ələ-l-burhan" ("Açıq-aşkar dəlillər") adlı risaləsində fütüvvəti təsəvvüfün bir cüzi hissəsi saymaqla təsəvvüfü fütüvvətdən və sufiləri fətalardan (fütüvvət əhlindən, nümayəndələrindən - R.M.) üstün tutmaqdadır" (Gölpınarlı Əbdülbaqi, 2011, s.20). Fütüvvət haqqında sözlərin, ənənə və rəvayətlərin, o cümlədən də fütüvvət əhlinin ərkanının/rükünlərinin "Fütüvvət-namə" adlı kitablarda təsbit edildiyini vurğulamış tədqiqatçı bunlardan ən qədim olanının X əsrə aid Əbu Əbd əl-Rəhman Süləminin əsəri olduğu təqdirdə, on beşincisinin Əbuhəfs Sührəvərdiyə aid olan farsca yazılmış "Risalət əl-futuvva" olduğunu bildirir. Amma Ə.Gölpınarlı qeyd edir ki, "Bu risalədə fütüvvət əsasları anladılmaqda, riayət edilməsi lazım olan şərtlər bildiril"sə də, "fəqət fütüvvət ərkanı baxımından nöksan[lı]dır" (Gölpınarlı Əbdülbaqi, 2011, s.22).

On altıncı risalənin də Əbuhəfs Sührəvərdiyə aid və yenə də farsca yazılmış "Kitab əl-Futuvva" və ya "Aydan Kitbun fi-l- Futuvva min imlai malik-əl-məşayih Şihab-əl-di-əl-Sührəvərdi" başlığı altında verilmiş əsəridir. Bu əsər barədə Ə.Gölpınarlı yazır ki, o "Bundan əvvəlkinə görə həm fütüvvət haqqındakı izahat, həm də [ona] nisbətən ərkan haqqındakı təfsilat baxımından daha dolğun və faydalıdır" (Gölpınarlı Əbdülbaqi, 2011, s.22). Elə "Fütüvvət ərkanı" adlı fəslin "Fütüvvət libası və şüarı" yarımbaşlığından oxuyuruq ki, "Şihab-əl-din Sührəvərdi Fütüvvətnaməsində "Təsəvvüf kisvəsi (örtüyü - R.M.) xirqə, fütüvvət libası şalvardır. Şalvar xirqədən bir hissədir, necə ki, fütüvvət də təriqətdən bir hissə deməkdir" yazılmışdır (Gölpınarlı Əbdülbaqi, 2011, s.39).

Ə.Gölpınarlı sözügedən əsərində ərəbcə və farsca hicri dördüncü əsrdən səkkizinci əsrin ortalarına qədər (XIV əsr) yazılan ən mühüm fütüvvətnamələri xülasə edərkən Şihabəddin Əbuhəfs Sührəvərdinin Murad Molladakı I Əbdülhəmidə aid kitablar arasında olan "İdalət-əl-ayan ala-burhan" adlı risaləsindən mühüm bir qeyd etmişdir. Bu qeyddə deyilir ki, bu risalə hükəmaya (Şərq peripatetiklərinə - R.M.) rəddiyə (inkar - R.M.) olmasına baxmayaraq fütüvvət haqqında da bəhs edilərək Abbasilərdən xəlifə əl-Müstənsir-billahın (xəlifəliyi h. 623-640, m.1226-1242) fütüvvət əhlinin imamı olduğu xüsusilə vurğulanıb, fütüvvət şəcərəsi qeyd olunmuşdur (Gölpınarlı Əbdülbaqi, 2011, s.28). Burada da fütüvvəni təsəvvüfün hissəsi hesab etmiş Əbuhəfs Sührəvərdi "İki libasın da, yəni fütüvvət və təsəvvüf libasının da əsası söhbətdir" deyə qeyd etmişdir (Gölpınarlı Əbdülbaqi, 2011, s.28). Tədqiqatçı bildirir ki, "Bu risalə bizə Abbasoğullarının Əl-Nasir li-din-Allahdan sonra da fütüvvət əhlinin imamətini (başçılığını - R.M.) mühafizə etdiklərini göstərir" Gölpınarlı Əbdülbaqi, 2011, s.29). Eləcə də tədqiqatçı bildirir ki, "Şihabəddin Sührəverdi mənzilə

hədisiylə "Mən elmin şəhəriyəm, Əli qapısıdır" hədisini və "Lə fəta illa Əli lə seyfə illa Zulfuqar" sözünü-ifadəsini olduğu kimi yazmışdır" (Gölpınarlı Əbdülbaqi, 2011, s.33). Ə.Gölpınarlıya görə Şihabəddin Sührəverdi fütüvvətə həsr edilmiş hər iki risaləsində Süləmidən faydalanmışdır (Gölpınarlı Əbdülbaqi, 2011, s.91). Eyni zamanda da o, məsələn, Nəcmi Zərqubun farsca "Kitab əl-Futuvva"sının xüsusilə də Şihabəddin Sührəverdinin risalələrindən istifadə edilərək meydana çıxdığını vurğulamışdır (Gölpınarlı Əbdülbaqi, 2011, s.92).

**Nəticə**

- Orta əsrlər müsəlman Şərqində təsəvvüf ənənəsi inkişaf edib, xüsusən də xalqdan uzaqlaşıb iqtidarlar tərəfindən dəstəklənib bir növ ortodoksallaşdırıldıqda, mürüvvət və fütüvvət ideyalarına əsaslanmış məlamətilik ortalığa çıxmışdır;
- Məlaməti şeyxlərinin təbliğ etdikləri fütüvvətdə dini ənənədən, xüsusilə də Məhəmməd peyğəmbər və ailəsinə aid olanlardan yararlanıb müəyyən qollar üzrə şəcərələr əmələ gətirilmişdir;
- Sufi ənənəsində fütüvvətə münasibət fərqli olduğu kimi Şihabəddin Əbuhəfs Sührəvərdi tərəfindən onun təsəvvüfün bir hissəsi olduğu fikri əldə rəhbər tutulmuşdur;
- Abbasi hakimiyyəti siyasi münasibətləri ortodoksallaşdırılmış sufilik çərçivəsində fütüvvət anlayışı ilə tənzim etməyə çalışdıqları kimi, cəmiyyətdə sənətkarlar birliyi də fütüvvətə əsaslanıb əxi təşkilatlarını ortaya çıxarmışdır.

## ƏDƏBİYYAT

1. Gölpınarlı Ə. İslam ve Türk illerinde fütüvvet teşkilatı. İstanbul Ticaret Odası Akademik Yayınlar, İstanbul, 2011, s.303
2. Gölpınarlı Əbdülbaqi. Təsəvvüfə dair 100 sual (müxtəsər tərcümə, qeyd və şərhlər Radif Heybət oğlu Mustafayevindir). Bakı: Elm və təhsil, 2022. s.180
3. Gölpınarlı Ə. Tarih boyunca İslam mezhepleri ve şiilik. Der yayınları, İstanbul, 1987, 733 s.
4. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Bilik, 1994, s.340
5. Şərq fəlsəfəsi (IX-XII əsrlər), (Tərtibçi Z.C.Məmmədov), Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 1999, s.304

## SUMMARY

**Radif Mustafayev**

## IN RELATION TO THE TURKISH RESEARCHER OF THE TWENTIETH CENTURY ABDULBAGY GOLPINARLY TO THE FUTUWAT, A LOOK AT SHIHABADDIN ABUHAFS SUHRAVARDI

The tradition of Sufism, which arose on the basis of asceticism and seclusion in the medieval Muslim East, gradually lost its original essence and was characterized by loyalty to political power alienated from the people. In contrast to this kind of Sufi tradition, Malamatism appeared in Muslim society, based on the ideas of muruvat and futuwat.

Although Malamatism is divided into different branches, the idea of futuwat is based on religion and refers to the Prophet Muhammad and those who belong to his family. The medieval Azerbaijani thinker Shikhabeddin Abuhafs Suhravardi, the author of two works based on the idea of Futuwat, played an active role in social and political life, preferring Sufism loyal to the government. The heritage of the Turkish researcher of the 20th century, Abdulbagy Golpinarly, is of great importance in the study of works devoted to futuwat, as well as Akhiism, which is a craft organization.

***Key words:*** *Islam, Medieval Muslim East, Sufism, Malamatism, Futuwat, Achiism*

## РЕЗЮМЕ

**Радиф Мустафаев**

### В ОТНОШЕНИИ ТУРЕЦКОГО ИССЛЕДОВАТЕЛЯ XX ВЕКА АБДУЛБАГИ ГОЛПЫНАРЛЫ К ФУТУВАТУ ВЗГЛЯД НА ШИХАБАДДИНА АБУХАФСА СУХРАВАРДИ

Традиция суфизма, возникшая на основе аскетизма и затворничества на средневековом мусульманском Востоке, постепенно теряла свою первоначальную сущность и характеризовалась лояльностью политической власти, отчужденной от народа. В отличие от такого рода суфийской традиции в мусульманском обществе появился маламатизм, основанный на идеях муруват и футуват. Несмотря на то, что Маламатитство делится на разные ветви, идея футуват основана на религии и относится к Пророку Мухаммеду и тем, кто принадлежит к его семье. Средневековый азербайджанский мыслитель Шихабеддин Абухафс Сухраварди, автор двух произведений, основанных на идее Футувата, играл активную роль в общественно-политической жизни, предпочитая лояльный правительству суфизм. Наследие турецкого исследователя XX века Абдулбаги Голпынарлы имеет большое значение в изучении произведений, посвященных футувату, а также ахилитству, являющемуся ремесленной организацией.

***Ключевые слова:*** *ислам, Средневековые мусульманский Восток, суфизм, маламатизм, футуват, ахиизм*

**ZAUR RƏŞİDOV**
*zaur20@mail.ru*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*

# ƏNVƏR ƏHMƏDOVUN (1920-1984) TƏDQİQATLARINDA ORTA ƏSRLƏRDƏ İSLAM FƏLSƏFƏSİ: TƏNQİDİ TƏHLİL

*Azərbaycan maarifçilik dövrü fəlsəfəsinin tədqiqatçılarından biri Ənvər Əhmədov olmuşdur. Eləcə də, onun orta əsrlərdə İslam dünyasında mövcud olmuş əsas fəlsəfi təlimlər haqqında da araşdırmaları vardır. Ə.Əhmədov orta əsrlərdə İslam aləmində geniş yayılmış kəlam fəlsəfəsi, bu fəlsəfənin əsas qollarından olan əşərilik və mötəziliyin Antik yunan fəlsəfəsi ilə yaxından səsləşdiyini, atomizm təliminin təsirini xüsusi olaraq vurğulayır. O, Şərq peripatetizminin də böyük ölçüdə Aristotel fəlsəfəsindən qaynaqlandığını önə çəkir. Ə.Əhmədov müsəlman dünyasında geniş yayılmış sufizm, işraqilik və hürufilik cərəyanları haqqında, əsasən, Qərb fəlsəfəsinin terminologiyasından istifadə edir, İslam fəlsəfi təlimlərinin bilavasitə İslam dini ilə bağlılığına diqqət yetirmir. Ə.Əhmədov bu təlimləri bir qayda olaraq panteizm ilə eyniləşdirərək, Sovet dönəmində yayğın olan fikirləri davam etdirir. Təəssüf ki, Sovet dövrünün ictimai və humanitar elm sahələrinin qarşısına qoyduğu ideoloji normativlər, əksər məqamlarda Ə.Əhmədovun tədqiqat əsərlərini kifayət qədər obyektivlikdən kənar qoyur.*

***Açar sözlər:*** *kəlam fəlsəfəsi, maturidilik, peripatetizm, sufizm, işraqilik, hürufilik, panteizm*

## Giriş

XX əsrdə Azərbaycanın görkəmli fəlsəfə tarixi tədqiqatçılarından biri də Ənvər Mirzəquliyeviç Əhmədov (1920-1984) olmuşdur. Onun həm orta əsrlər İslam dünyasında özünün ən yüksək zirvəsinə çatmış ərəb-müsəlman fəlsəfi fikri, həm də XIX-XX əsrlər Azərbaycan maarifçilik fəlsəfəsi və bu dövrün bəzi görkəmli nümayəndələrinin görüşləri haqqında əsaslı araşdırmaları vardır. Ə.Əhmədovun "Azərbaycan maarifçilik fəlsəfəsi" (Философия азербайджанского просвещения) adlı tədqiqat işi, Sovet dönəmində Azərbaycanda maarifçilik dövrü haqqında yazılan ən sanballı, əhatəli və son dərəcə informativ əsərlərdəndir. [9] Ə.Əhmədov maarifçilik fəlsəfəmizin memarlarından olan Abbasqulu ağa Bakıxanovun (1794-1846), elmi-fəlsəfi irsini tədqiq etmiş mütəxəssislərdən biridir. Ə.Əhmədovun əsas araşdırma mövzusu olmasa da, onun orta əsrlər İslam dünyasında mövcud olmuş ən başlıca dini-fəlsəfi təlimlərin tədqiqinə həsr edilmiş tədqiqat əsəri də vardır. "Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi" (Арабо-мусульманская философия средневековья) adlı bu tədqiqatında Ə.Əhmədov kəlam fəlsəfəsi, onun başlıca qollarından olan mötəzilik, əşərilik və maturidilik, eləcə də, İslam dünyasında geniş yayılmış sufizm, işraqilik, hürufilik haqqında da müəyyən düşüncələri vardır. Qeyd olunan kiçikhəcmli tədqiqatında Ə.Əhmədov orta əsr İslam dünyasında mövcud olan əsas fəlsəfi təlimlərin ümumi mənzərəsini təsvir etməyə çalışmışdır.

Orta əsrlərdə ərəb-müsəlman fəlsəfəsi. Qeyd etmək lazımdır ki, Sovet dövrünün ideoloji istiqamətinin ictimai və humanitar elmlər qarşısında qoyduğu məcburi tələblər, Ə.Əhmədovun

[9] Bu haqda daha ətraflı: (Rəşidov, 2022).

"Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi" əsərində olduqca açıq bir şəkildə özünü göstərir. Məlumdur ki, qeyd olunan dönəmin materializm və ateizm ruhu aparılan bütün fəlsəfi tədqiqatlarda, axtarılması və əsasən də, nəyin bahasına olursa-olsun tapılması vacib olan ideoloji elementlər qismində çıxış etmişdir. Hətta, əksər hallarda fəlsəfə tarixçilərimiz, digər Sovet tədqiqatçıları kimi aşkar təhriflər hesabına, bütün İslam dini-fəlsəfi təlimlərinin mahiyyətlərini birmənalı materializm və ateizm kimi şərh etməkdən də çəkinməmişdirlər. Bu mənada, Ə.Əhmədovun, ümumilikdə İslamın fəlsəfi təlimlərinə münasibəti eyni xətt və ya metodoloji yanaşma əsasında inkişaf etsə də, o, bütün orta əsr İslam fəlsəfi epistemasına birmənalı və Sovet fəlsəfə tarixində ənənəvi qəbul olunmuş formada panteizm kimi dəyər vermir. Ə.Əhmədov yazır ki, "ərəb-müsəlman fikrinin əsas kontekstini mistik panteizm təşkil etsə də, bu fəlsəfənin bütün struktur komponentlərində, panteizm və əsasən də, naturfəlsəfə heç də hər dəfə öz əksini tapmır" (Ахмедов, 1980, 14). Ümumiyyətlə, "ərəb-müsəlman fəlsəfəsi" termini mahiyyəti etibarı ilə çox ziddiyyətlidir. "Ərəb fəlsəfəsi", "İslam-müsəlman fəlsəfəsi", "Şərq fəlsəfəsi", "ərəbdilli fəlsəfə" və s. bu kimi birmənalı ifadələrin, tədqiq edilən məsələnin - İslam dünyasındakı fəlsəfi təlimlər - mahiyyətini düzgün əks etdirməməsi də, Sovet dönəmi fəlsəfə tarixçilərimiz tərəfindən xüsusi olaraq qeyd edilmişdir (Закуев, 1950, 77).

Ə.Əhmədov "Orta əsrlərin ərəb-müsəlman fəlsəfəsi" adlı tədqiqatında, orta əsrlərdə İslam dünyasında formalaşmış dörd əsas dini-fəlsəfi istiqamətdən birincisi olan, kəlam fəlsəfəsi və bu spekulativ (abstrakt, mücərrəd) fəlsəfənin əsas cərəyanlarından biri, mötəzilik təliminin nümayəndələrindən Vasil İbn Əta (699-748), İbrahim ibn Səyyar ən-Nəzzam (775-845), əşərilik təliminin nümayəndələrindən isə, Əbül Həsən-əl-Əşəri (874-936) və eləcə də, kəlam fəlsəfəsi vasitəsi ilə İslamın türklər arasında yayılmasında müstəsna rolu olan maturidilik təliminin əsas nümayəndəsi Əbu Mansur əl Matüridinin (852-944) görüşləri haqqında da müəyyən fikirləri vardır. Ə.Əhmədov ümumilikdə bütün mütəkəllimlərin (kəlamçılar və ya İslam sxolastları) irsini "teoloji rəngə boyanmış atomizm kimi təqdim edir" (Ахмедов, 1980, 14). Digər tərəfdən, Ə.Əhmədov hesab edir ki, "mütəkəllimlər kəskin bir şəkildə aləmin əbədiliyi prinsipinə qarşı çıxırdılar. Çünki, aləmin əbədiliyi fikri aləmlərin Tanrısı ideyasını istisna edərək, vahid Tanrı və ilahi yaradılış konsepsiyasını da məhv edirdi" (Ахмедов, 1980, 22). Düşünürük ki, birbaşa olaraq İslam dinindən qidalanan kəlam fəlsəfəsinin bir çox fəlsəfi məsələlərdə İslamın başlıca prinsipləri ilə uzlaşması da, təsadüfi hal deyil. Əksinə, kəlam fəlsəfəsinin İslam ilə sıx bağlılığını nəzərə aldıqda bu hal tam olaraq zəruridir.

Ə.Əhmədovun İslam dünyasında əsas fəlsəfi istiqamətlərdən biri və ya bəzən bilavasitə, İslam fəlsəfəsi kimi də tanınan Şərq peripatetizmi və ya məşşailik, eləcə də bu təlimin əsas nümayəndələri haqqında da müəyyən fikirləri vardır. O, yazırdı: "Əbu Yusif əl-Kindi (801-873) Tanrı anlayışını, Aristoteldə (e.ə.384-322) olduğu kimi "ilk səbəb", "ilkin hərəkətverici" anlayışları ilə əvəz etdi" (Ахмедов, 1980, 27). Sonrakı dövr məşşailik təlimi nümayəndələrindən fərqli olaraq, əl-Kindi, Aristotel fəlsəfəsinin ilkin əsaslarına və aristotelizmin ellinizm təlimləri, xüsusən də yeni-platonçuluq-neoplatonizm fəlsəfəsi tərəfindən fərqli formalarda şərhlərindən doğan eklektik mahiyyətinə daha çox bağlı olan bir filosof idi. Bu cəhətdən, onun fəlsəfi sistemində Tanrı, əksər ellinizm təlimlərində olduğu kimi, yaradıcıdan, hər şeyi heçdən yaradandan qüvvədən daha ziyadə, məhz ilk səbəb qismində təqdim olunurdu.

Ə.Əhmədov qeyd edir ki, "Əbu Nəsr əl-Farabinin (872-950) irsində Tanrı və təbiət əlaqəsi, iki növ varlıq olan vacib və mümkün varlıqlar ilə əvəz edilir" (Ахмедов, 1980, 27). Yəni Şərq peripatetizminin nümayəndələri arasında ilk dəfə vacib və mümkün varlıqlar bölgüsünü aparan filosof, məhz əl-Farabi olmuşdur. Daha sonra, əl-Farabi varlıqlar problemini fərqli kontekstlərdən şərh edərək, bu iki varlıq arasındakı qarşılıqlı əlaqəni Platon (e.ə.427-347), fəlsəfəsinə uyğun bir formaya salmışdır. Ə.Əhmədov yazır ki, "əl-Fərabiyə görə, vacib varlıqdan emanasiya (*axma və ya tökülmə - Z.R.*) yolu ilə ilk intellekt, onda isə, aksidental (*təsadüfi olaraq - Z.R.*) olaraq çoxluqlar meydana gəlmişdir" (Ахмедов, 1980, 28). Düşünürük ki, Platon fəlsəfəsinin tələblərinə görə, çoxluqlar, moduslar, mövcudlar ilk intellektin bilavasitə özündə yox, onun vasitəsi ilə mümkün varlıqda-aləmdə törəyir. Ümumiyyətlə, platonizm fəlsəfəsi ilk intellekt termini vasitəsi ilə, yaradılışın mahiyyətində zəruri bir ahəngin durduğunu göstərməyə çalışır. Bu ahəng və ya intellekt isə, öz növbəsində düşünülmüş, əndazəli, müəyyən biçimə uyğun formada təzahür edərək görünə bilər. Kaloqaqatiya[10] prinsipi əsasında təbiətdə əks oluna bilər. Bu mənada, platonizmdəki intellekt, qanunauyğunluq, nizam mənalarını verir və yaradılışın xaotik yox, bilavasitə nizamlı olmasına işarə edir. "İslam fəlsəfəsində Platonik formalar doktrinası, eləcə də "Platonik formalar" və ya "Platonik misallar" terminləri əvvəldən yaxşı məlum olsa da" (Kaukua, 2022, 159), bu məqam Şərq peripatetizminin birmənalı olaraq Antik Yunan fəlsəfəsinin klassik mərhələsindən qaynaqlandığını söyləməyə də əsas vermir.

Ə.Əhmədov yazır ki, "məşşailiyin ən görkəmli nümayəndəsi olan İbn Sina (980-1037) məntiqi mühakimələr nəticəsində aləmin əbədiliyi fikrinə gəlmişdir" (Ахмедов, 1980, 28). Eləcə də, o, qeyd edir ki, "məşşailik təliminin ən böyük nümayəndələrindən biri olan İbn Rüşdə (1126-1198) görə isə, təbiət, varlıq-Tanrı üçün əbədi imkan halında çıxış edir. Tanrı-varlıq isə, əbədi olaraq aləmin həqiqətinin gerçəkləşməsi səbəbi olur" (Ахмедов, 1980, 30).

Ə.Əhmədov haqlı olaraq qeyd edir ki, "Aristotel fəlsəfəsinin şərhi zamanı İslamın dünyagörüşü sistemi, məşşailərə daha çox təsir etmişdir" (Ахмедов, 1980, 32). Düşünürük ki, nəinki məşşailərin, ümumilikdə İslami fəlsəfi təlimlərin hamısında əsas sistem yaradıcı element, elə bilavasitə İslam və ya bu dinin metafizik əsaslarının özüdür. Orta əsrlərdə İslam dünyasında formalaşan bütün fəlsəfi sistemlər, bilavasitə bu dinin prizmasında nəzərdən keçirilir, İslam vasitəsi ilə sistemləşdirilirdi. Ə.Əhmədov yazır ki, "məşşailiyin ontologiyası iki tamamilə fərqli növ varlıqlar olan vacib və mümkün varlıqlara əsaslandığından, panteizmdən daha çox, dualizmdir" (Ахмедов, 1980, 33).

Ə.Əhmədov işraqilik fəlsəfəsini birmənalı olaraq neoplatonizm təlimi ilə eynimənalı hesab edir. Düşünürük ki, müəyyən yaxınlıqlar, hətta bəzi məqamlarda eyniyyət təşkil etməsinə baxmayaraq, özünəməxsus bir sistem olan işraqiliyi, birmənalı olaraq neoplatonizm kimi təqdim etmək heç bir halda doğru deyil. Digər tərəfdən, işraqilik fəlsəfəsinin əsasını təşkil edən nur anlayışı, xüsusi olaraq Quranda da, rast gəlinən əsas metafizik anlayışlardan biridir. Bu mənada, Ə.Əhmədov da yazır ki, "nur ideyası Quranın bir çox surələrində açıq şəkildə öz əksini tapsa da, fəlsəfi əsasını müsəlman mütəfəkkirləri tərəfindən, Plotinin (205-270) emanasiya təliminin qəbulundan sonra qazanmışdır" (Ахмедов, 1980, 40). "Neoplatonizmin orta əsr ərəb-müsəlman fəlsəfəsində daha uyğun forması nurlanma təlimi və ya işraqilikdir" (Ахмедов, 1980, 41).

[10] Etik-estetik ideal, ahəngdarlıq, həmahənglik, uyğunluq, zahiri və xarici olan tərəflərin harmoniyası

Ə.Əhmədov hesab edir ki, "XII əsrdə ərəb-müsəlman mütəfəkkirlərinin yeni-platonçu görüş sistemləri özlərinin zirvəsinə, işraqilik fəlsəfəsinin yaradıcısı hesab olunan filosof və şair Şihabəddin Sührəvərdinin (1154-1191) nur metafizikasında çatmış oldu" (Ахмедов, 1980, 44).

Ə.Əhmədov işraqilik fəlsəfəsi ilə, digər İslam dini-fəlsəfi təlimləri arasındakı müəyyən yaxınlıqlara da xüsusi olaraq diqqət yetirir. O, hesab edir ki, "ərəb-müsəlman neoplatonizmi özündə kifayət qədər mistik elementlər ehtiva edirdi ki, bu da onu sufizm ilə yaxınlaşdırırdı" (Ахмедов, 1980, 41). "İsmaililərin təlimi ilə qarışmış neoplatonizm, özünün yüksək inkişaf mərhələsinə, X əsrdə ixvan əs-səfa (saflıq qardaşları) adlı ilə tanınan bir qrup alimlər tərəfindən tərtib edilən fəlsəfi ensiklopediyada çatmış oldu" (Ахмедов, 1980, 42). Ə.Əhmədov hesab edir ki, "saflıq qardaşlarının idrak nəzəriyyəsi kəskin bir şəkildə, Platonun ruh və ya şeylərin timsalı olan ideyalar haqqında təliminin də təsirinə məruz qalmışdır" (Ахмедов, 1980, 43).

Eləcə də, Ə.Əhmədov İslamın digər fəlsəfi təlimlərindən biri olan hürufilik ilə təsəvvüf arasındakı bənzərliklərə də diqqət yetirir. O, yazır ki, "varlığın vəhdətinin əsasını təşkil edən ümumi mistik sevgi, hürufilərdə də, ən yüksək ali kamillik və gözəllikdən ayrı deyil və bu cəhətləri ilə, hürufizm sufizmə yaxındır" (Ахмедов, 1980, 49). Bununla belə, hürufilik ilə təsəvvüf arasında bənzərliklərlə yanaşı, onlar arasında əsaslı fərqlər də mövcuddur (Рашидов, 2019). Qeyd edək ki, hürufilik təliminin də, birmənalı olaraq panteizm kimi təqdim edilməsi Sovet dönəmi fəlsəfə tarixinə xas olan məqamlardandır. Zümrüd Quluzadə (1932-2021) də hesab edirdi ki, "hürufizm panteizmdir" (Кули-заде, 1970, 11, 55). O yazır ki, "sufizm dünyagörüşünün əsası da panteizmdir" (Кули-заде, 1970, 29, 63). Bənzər yanaşma onun "VII-XVI əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindən" adlı əsərində də mövcuddur (Кули-заде, 1992, 160-161). Z.Quluzadə hesab edirdi ki, "islam ilə hürufizm arasında mahiyyətcə fərqlər mövcuddur. Bu cəhətdən, hürufizmi hansısa bir cəhətdən islami cərəyanlar və müsəlman təlimlərinə aid etmək mümkün deyil" (Кули-заде, 1970, 71). Digər tərəfdən, Sovet dönəmində hürufilik təliminə dövrün tələblərinə uyğun olaraq materializm kimi də tərif verilirdi. Məsələn Əliəjdər Seyidzadə (1899-1970) hürufizm və bu təlimin ən əsas nümayəndələrindən biri olan Seyid İmadəddin Nəsiminin (1347-1418) görüşlərini materializm kimi qiymətləndirirdi (Сеид-заде, 1946, 28). Qeyd edək ki, müasir dövrdə bu kimi birmənalı yanaşmalar, artıq öz aktuallıqlarını itirmişdir. Mirqasımov yazır: "Cavidannamənin özünəxas əsas xüsusiyyətlərindən biri də, onun sərbəst yaradıcı və bəzi hallarda təkcə Quran və hədislərdə öz əksini tapan qisimlərdən başqa, Bibliya mətnləri və apokriflərin (*gizli, məxfi, həqiqiliyinə inanılmayan söz, fikir və yazı, xristianlıqda müqəddəs dini mətnlərin bir parçası kimi qəbul edilməyən kitablar və mətnlər-Z.R.*) inanılmaz dərəcədə heyrətamiz şərhindədir. Amma vaxtı ilə hürufilərə qarşı olan ittihamların və eləcə də, müasir dövr tədqiqatçıları tərəfindən tənqidi qarşılanan bu ittihamların əksinə olaraq, Cavidannamədə açıq şəkildə ümumi İslami doqmalara qarşı əks olacaq hər hansı nəzəriyyələrə rast gəlmək mümkün deyil" (Mir-Kasimov, 2014, 222). F.Usluər də yazır ki, "heç bir hürufi Quran hökmlərini rədd etmirdi" (Amiloğlu, 2014, 20).

İşraqilik təlimini yeni-platonçuluq kimi başa düşən Ə.Əhmədov, "sufiliyi də panteizm, vücudiyyə və ya hüluliyyə kimi təqdim edir" (Ахмедов, 1980, 50). Vücudiyyə termini panteizmə uyğun gəlsə də, təsəvvüfü panteizm-vücudiyyə və xüsusən də, İslam dini eləcə də, demək olar ki, İslamın bütün əsas dini-fəlsəfi təlimlərində böyük günah sayılan hülul kimi

təqdim etmək kökündən yanlışdır. Qeyd edək ki, panteizm və vəhdəti-vücud probleminin, əsasən, eyniyyət prinsipi əsasında həlli, Sovet dövründə, S.Rzaquluzadə (Рзакулизаде, 2011), Q.Kərimov (Керимов, 1969), Z.Quluzadə (Кули-заде, 1983), Z.Məmmədov (Мамедов, 1993), Ş.İsmayılov (Исмаилов, 1976) və digər Sovet dövrü Azərbaycan fəlsəfə tarixçiləri tərəfindən aparılan araşdırmalarda da, geniş şəkildə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, vəhdəti-vücud və panteizm arasında forma etibarı ilə müəyyən bənzərliklər olsa da, bu iki fikir axını bir-birindən köklü surətdə fərqlənirlər (Rəşidov, 2017), (Rəşidov, 2018), (Рашидов, 2019).

Gerçəklikdə təsəvvüf və bu fəlsəfi sistemin əsas fəlsəfi təlimi olan vəhdəti-vücud haqqında əsassız mühakimələrini davam etdirən Ə.Əhmədov, son dərəcə bəsit elmi mühakimələr ilə yanaşı, adi səhvlərə də yol verir. Belə ki, o, yazır ki, ""Məkkə fəthləri" (Fütuhatül-Məkkiyyə) əsərinin müəllifi Ömər ibn Fəriddir (1182-1235)" (Ахмедов, 1980, 56). Bu nəhəng və əhatəli əsərin (magnum opusun) Mühyiddin ibn Ərəbiyə (1165-1240) məxsus olması yəqin ki, heç kimdə şübhə doğurmur. Bu fakt Ə.Əhmədovun bəlli tədqiqatını qələmə aldığı dönəmdə, İslam fəlsəfə tarixinə dair digər və eləcə də, Azərbaycan fəlsəfə tarixinə həsr edilmiş tədqiqatlarda da dəfələrlə öz əksini tapmışdır.

**Nəticə**

Ə.Əhmədovun orta əsrlər İslam dünyasında mövcud olmuş fəlsəfi təlimlər və bu təlimlərin əsas nümayəndələri haqqındakı fikirləri, Sovet dönəminin fəlsəfə tarixi üçün böyük əhəmiyyət kəsb etsə də, bu fikirlərin müasir dövrdə də, eyni dərəcədə öz aktuallıqlarını qoruduqlarını iddia etmək çox çətindir. Amma, bununla belə, Sovet dönəminin ideoloji xəttini əsas tutan bu və bu kimi digər tədqiqat əsərlərinin, öz dövrü üçün ilkin maarifləndirici əhəmiyyəti də danılmazdır. Düşünürük ki, müasir dövrdə bu kimi tədqiqat əsərlərinin öz aktuallığını qoruması, onların birmənalı təlqin edilməsi vasitəsi ilə yox, bilavasitə sağlam elmi tənqidi ilə mümkündür. Qeyd olunan bu mühim amil, bəlli dönəmdə, məcburi ideoloji şərtlər çərçivəsində və məhdud imkanlar daxilində məhsuldar elmi fəaliyyət göstərmiş fədakar fəlsəfə tarixi tədqiqatçılarımızdan biri olan Ə.Əhmədov, eləcə də, onunla eyni aqibəti yaşamış, digər çoxsaylı XX əsr fəlsəfə tarixçilərimizin unudulmaması və müasir dövrdə də aparılan tədqiqatlar zamanı, əsərlərinə müraciət edilməsi üçün vacib məqamlardandır.

## ƏDƏBİYYAT

1. Amiloğlu. (2014). Arş-name Tercümesi hurufi şiirler 1. Hazırlayan: Prof. Dr. Fatih Usluer. İnceleme-Tenkitli Metin. İstanbul: Türkiye Yazma Eserler Kurumu Başkanlığı.
2. Ахмедов Э. (1980). Арабо-мусульманская философия средневековья. Баку: Маариф.
3. Исмаилов Ш. (1976). Философия Махмуда Шабустари. Баку: Элм.
4. Kaukua J. (2022). Suhrawardī's Illuminationism: A Philosophical Study. Leiden: Brill.
5. Керимов Г. (1969). Аль-Газали и суфизм. Баку: Элм.
6. Кули-заде З. (1970). Хуруфизм и его представители в Азербайджане. Баку: Элм.
7. Кули-заде З. (1983). Закономерности развития восточной философии XIII-XVI вв. (регион ислама) и проблема Запад-Восток. Баку: Элм.
8. Кули-заде, З. (1992). Из истории азербайджанской философии VII-XVI вв. Баку:

Азернешр.
9. Мамедов З. (1993). Азербайджанские философы и мыслители средневековья. Баку: Элм.
10. Mir-Kasimov, O. (2014). Introduction: the Conception of “Motherly” (Ummi) Knowledge in the Jawidan-Nama of Fadl Allah Astarabadi (d. 796/1394) // Unity in Diversity Mysticism, Messianism and the Construction of Religious Authority in Islam. Edited by Orkhan Mir-Kasimov. Leiden: Brill, s.221-246.
11. Рашидов З. (2019). Учение о единстве бытия (вахдат ал-вуджуд) как философское выражение исламского единобожия (таухид) // Махачкала: Дагестанский государственный университет, Журнал Исламоведение, № 3 (41), Том 10, с.103-116.
12. Рашидов З. (2020). Сравнительный анализ религиозно-философских доктрин хуруфизма и единства бытия (вахдат ал-вуджуд) // София: Философски алтернативи, Vol XXIX, Институт по философия и социология (ИФС) към БАН, с.49-59.
13. Rəşidov Z. (2017). Sufizmin vəhdəti-vücud təlimində varlıq problemi // Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, № 28, s.183-196.
14. Rəşidov Z. (2018). Mistik kəşfdən keçən kamillik yolu və ya vəhdəti-vücud fəlsəfəsinin əsas qnoseoloji problemi // Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, № 4, s.104-115.
15. Rəşidov Z. (2022). Ənvər Əhmədovun tədqiqatlarında Azərbaycan maarifçilik fəlsəfəsi: tənqidi təhlil // Bakı: Metafizika, Beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı, Vol. 5, № 4, Serial № 20, s.54-76.
16. Рзакулизаде С. (2011). Из истории философской мысли Азербайджана. Баку: Текнур.
17. Сеид-задэ А.А. (1946). Материализм – основа философии Несими // Труды института философии, Том II. Баку: Издательство Академии Наук Азербайджанской ССР, s.28-38.
18. Закуев А.К. (1950). К вопросу о названии средневековой “арабской” Ближневосточной философии // Известия Академии Наук Азербайджанской ССР, – 1950. № 2. Баку: Издательство А.Н Азербайджанской ССР, s.77-83.

## SUMMARY

**Zaur Rashidov**

## ISLAMIC PHILOSOPHY OF THE MIDDLE AGES IN THE STUDIES OF ENVER AKHMEDOV (1920-1984): A CRITICAL ANALYSIS

One of the researchers of the philosophy of the Enlightenment of Azerbaijan was Anvar Akhmedov. In addition, he has research on the main philosophical teachings that existed in the Islamic world in the Middle Ages. A.Akhmedov emphasizes the influence of the doctrine of atomism, in which the philosophy of Kalam, widespread in the Islamic world in the Middle Ages, closely echoes the ancient Greek philosophy of Asharitism and Mutazilism, the main branches of this philosophy. He notes that Oriental peripatetism also largely stems from Aristotle's philosophy. A.Akhmedov writes about Sufism, Israkism and Hurufic movements widespread in the Muslim world, mainly uses the terminology of Western philosophy, ignoring the direct connection of Islamic philosophical teachings with the Islamic religion. A.Akhmedov continues the ideas common in Soviet times, identifying these teachings, as a rule, with pantheism. Unfortunately, the ideological norms that the Soviet era set for itself in the social and humanitarian spheres were mostly ignored. He puts Akhmedov's research work outside of sufficient objectivity.

***Key words:*** *the philosophy of the Kalam, maturidism, peripatetism, sufism, illuminationism, hurufism, pantheism*

## РЕЗЮМЕ

**Заур Рашидов**

## ИСЛАМСКАЯ ФИЛОСОФИЯ СРЕДНЕВЕКОВЬЯ В ИССЛЕДОВАНИЯХ ЭНВЕРА АХМЕДОВА (1920-1984): КРИТИЧЕСКИЙ АНАЛИЗ

Одним из исследователей философии эпохи Просвещения Азербайджана был Анвар Ахмедов. Кроме того, у него есть исследования об основных философских учениях, которые существовали в исламском мире в Средние века. А.Ахмедов особо подчеркивает влияние учения об атомизме, в котором философия Калама, широко распространенная в исламском мире в Средние века, тесно перекликается с античной греческой философией ашаритизма и мутазилизма, основных ветвей этой философии. Он отмечает, что Восточный перипатетизм также в значительной степени проистекает из философии Аристотеля. А.Ахмедов пишет о суфизме, ишракизме и хуруфических течениях, широко распространенных в мусульманском мире, в основном использует терминологию западной философии, не обращая внимания на непосредственную связь исламских философских учений с исламской религией. А.Ахмедов продолжает распространенные в советское время идеи, отождествляя эти учения, как правило, с пантеизмом. К сожалению, идеологические нормативы, которые ставила перед собой общественная и гуманитарная сферы советская эпоха, по большей части игнорировались. Он ставит исследовательские работы Ахмедова вне достаточной объективности.

***Ключевые слова:*** *философия калама, матуридизм, перипатетизм, суфизм, ишракизм, хуруфизм, пантеизм*

| | |
|---|---|
| Nəşriyyat direktoru: | |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Qrafik dizayner: | Sahilə Abbasova |
| Redaktor: | Zəhra Rəhimova |
| Redaktor: | Minəvvər Ələkbərova |
| Korrektor: | Sitarə Əlizadə |
| Korrektor: | Zərri Məmmədova |
| Texniki korrektor: | Nərgiz Həsənova |

Yığılmağa verilib: 23.04.2024
Çapa imzalanıb: 29.04. 2024
Formatı: 60/90, 32/1, həcmi 16 ç/v
Sifariş №249, sayı 100 nüsxə

**REDAKSİYANIN ÜNVANI**: 7000. Naxçıvan şəhəri,
Universitet şəhərciyi,
Naxçıvan Dövlət Universiteti,
Əsas bina, I mərtəbə,
"Qeyrət" nəşriyyatı

**TELEFON:** (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*